# İLHAM ƏLİYEV

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

# İLHAM
# ƏLİYEV

## ƏLLİ ÜÇÜNCÜ KİTAB

## SENTYABR 2012 - OKTYABR 2012

**AZƏRNƏŞR**
**BAKI - 2018**

# İLHAM ƏLİYEV

## ÇIXIŞLAR * NİTQLƏR

## BƏYANATLAR * MÜSAHİBƏLƏR

## MƏKTUBLAR * MƏRUZƏLƏR

## MÜRACİƏTLƏR

AZƏRNƏŞR
BAKI – 2018

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**
**Ə 56 İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2017, 400 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxuculara təqdim olunan «İnkişaf–məqsədimizdir» çoxcildliyinin bu cildində Azərbaycanın uğurla aparan daxili və xarici siyasətinə, beynəlxalq münasibətlərdə artan nüfuzuna, iqtisadi potensialın möhkəmlənməsinə, ölkədə yoxsulluğun azaldılması və işsizliyin aradan qaldırılması istiqamətində atılan ciddi addımlara, gənclər arasında milli-mənəvi dəyərlərin təbliği və gənclər tərəfindən qaldırılan məsələlərə diqqətlə yanaşılaraq təhlil edilməsi və nəzərə alınmasına dair nitqləri, çıxışları, tövsiyələri öz əksini tapmışdır.

Kitabda prezident İlham Əliyevin Fransaya səfəri, həmçinin Özbəkistan Respublikası Prezidentinin və Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədrinin ölkəmizə səfərləri zamanı Azərbaycanın dünyada artan nüfuzundan, beynəlxalq təşkilatlarda göstərdiyi yüksək fəallığından, şaxələndirilmiş iqtisadiyyatın dünyada qazandığı nüfuzundan, eyni zamanda, ölkələrimiz arasında əlaqələrin inkişafından, enerji və qeyri-neft sektoruna aid bağlanan müqavilələrdən, beynəlxalq əməkdaşlığın daha da möhkəmləndirilməsi və genişləndirilməsindən bəhs olunur.

Bu cilddə, həmçinin Prezidentin bölgələrə səfərləri zamanı ictimaiyyət nümayəndələri ilə görüşlərinə, bir sıra mədəni-məişət, sosial və sənaye müəssisələrinin açılışında iştirakına dair materiallar da toplanmışdır.

**ISBN 978-9952-8100-7-3**

$$\text{Я}\ \frac{0801000000}{\text{M} - 651(07) - 2017}$$

**ББК - 32**

© Azərnəşr, 2018

# PARİSDƏ MEDEF-in ÜZVÜ OLAN İŞ ADAMLARI İLƏ GÖRÜŞ

*19 sentyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 19-da Parisdə Fransa Sahibkarlar Təşkilatına – MEDEF-ə üzv olan iş adamları ilə görüşmüşdür.*

*Dövlətimizin başçısını «MEDEF International»ın rəhbəri Jan Bürel qarşıladı.*

**J a n  B ü r e l:** Cənab Prezident, bu görüşdə aparıcılıq etmək mənim və dostum, həmkarım Kristian Mons üçün şərəfdir. Bizə vaxt ayırdığınız üçün Sizə təşəkkürümüzü bildiririk. Bilirik ki, sevdiyiniz Paris şəhərində səfər proqramınız olduqca gərgindir. Burada Azərbaycanın iqtisadi inkişafı, fransız şirkətlərinin bu tərəqqiyə verə biləcəyi töhfə, onların Sizin ölkədə oynaya biləcəyi rol ilə bağlı düşüncələrinizi dinləmək üçün müxtəlif şirkətləri təmsil edən 60-a yaxın nümayəndə iştirak edir. Sizi dinləmək bizim üçün olduqca maraqlıdır.

Həmkarım Kristian Mons sual-cavab sessiyasını keçirəcək. Mənim qısa giriş sözümdən sonra, etiraz etmirsinizsə, biz Sizi dinləyəcəyik, sonra Kristian Mons sual-cavab sessiyasına başlayacaq. Fikirlərinizi bizimlə bölüşün. Bir daha bizə vaxt ayırdığınız üçün Sizə təşəkkürümüzü bildiririk.

Dünən Sizin prezident Olland ilə görüşünüz oldu. Luvr Muzeyində İslam incəsənətinə həsr olunmuş zalların açılışı mərasimində də iştirak etmisiniz. İqtisadiyyatdan, ümumi daxili məhsuldan başqa, bilirik ki, dostluq və mədəniyyət bizim ölkələrin böyük sərvətidir. Bizə qarşı xoş münasibət vardır. Sizin Fransanı sevdiyinizi bilirik.

Cənab Prezident, bir daha bizə vaxt ayırdığınız üçün Sizə minnətdarlığımızı bildirir və sözü Sizə veririk.

**İ l h a m  Ə l i y e v:** Çox sağ olun, minnətdaram. Əvvəlcə dəvətə görə Sizə təşəkkürümü bildirirəm. Burada, Parisdə

köhnə dostları görmək çox xoşdur. Mən MEDEF-də bizim əvvəlki görüşlərimizi xatırlayıram. Bu təmaslar Azərbaycan və Fransanın aparıcı şirkətləri arasında iqtisadi sahədə güclü tərəfdaşlıq münasibətlərinin yaradılmasına çox kömək etmişdir. Parisə yenidən gəlməyimə çox şadam.

Sizin də qeyd etdiyiniz kimi, dünən mənim prezident Olland ilə görüşüm oldu. Biz bir çox məsələlər ətrafında çox uğurla inkişaf etməkdə olan ikitərəfli siyasi əlaqələrə dair səmimi və açıq müzakirələr apardıq. Görüşümüz siyasi əlaqələrimizin strateji xarakter daşıdığını bir daha sübut etdi. Biz dostuq, tərəfdaşıq və həm ikitərəfli münasibətlər səviyyəsində, həm də beynəlxalq arenada fəal şəkildə əməkdaşlıq edirik. Xüsusilə də Azərbaycan BMT Təhlükəsizlik Şurasına üzv seçiləndən sonra həm beynəlxalq məsələlərlə, həm də regionda və dünyada qarşılıqlı maraq doğuran məsələlərlə bağlı ölkələrimiz arasında əlaqələr daha da fəallaşıb.

Qeyd etdiyiniz kimi, siyasi əlaqələrlə yanaşı, biz həm də ölkələrimiz arasında mədəniyyət sahəsində əlaqələri müzakirə etdik. Bu əlaqələr də çox uğurla inkişaf edir. Sizin də qeyd etdiyiniz kimi, dünən mən Luvr Muzeyində İslam incəsənəti bölməsinin açılışında iştirak etdim. Bu gün də Parisdə Azərbaycan Mədəniyyət Mərkəzinin açılışında iştirak edəcəyik. Bu, Azərbaycandan kənarda açılan ilk mədəniyyət mərkəzidir. Ötən il Bakıda yeni fransız məktəbinin təməlini qoyduq. Mən bir çox başqa tədbirləri, sərgiləri, mədəniyyət sahəsində mübadilə, konsertlər və digər mühüm tədbirləri qeyd edə bilərəm ki, bunlar da işbirliyi həyata keçirmək üçün gözəl şərait yaradır.

Ümumilikdə siyasi əlaqələr və açıq, səmimi münasibətlər iqtisadi əməkdaşlıqda mühüm rol oynayır. Ona görə də biz çox şadıq ki, təkcə siyasi sahədə deyil, xalqlar arasında əlaqələr, mədəniyyət sahəsində də möhkəm əməkdaşlıq əlaqələri qurmuşuq. Ölkələrimiz arasında iqtisadi əməkdaşlığa gəlincə, qarşılıqlı ticarətdə dinamik inkişaf qeydə alınır, hazırda bu göstərici 4,6 milyard dollar təşkil edir və getdikcə artır.

Gələcəkdə biz ticarət əlaqələrinin daha da şaxələndirilməsinin şahidi olmaq istərdik. Hesab edirəm ki, enerji sektorundan kənar əlaqələrin genişləndirilməsi üçün yaxşı potensial mövcuddur.

Azərbaycanın apardığı enerji siyasəti region hüdudlarını aşır. Bu gün biz Avropanın enerji təhlükəsizliyi məsələləri ilə bağlı Avropadan olan tərəfdaşlarımızla birgə fəaliyyət göstəririk və Fransanın «Total» və «GDF Suez» kimi şirkətləri bizim uzunmüddətli tərəfdaşlarımızdır. Biz qarşıdakı planları və layihələri həyata keçirmək üçün birgə çalışırıq.

Azərbaycanın böyük neft və qaz ehtiyatları, şaxələndirilmiş boru kəməri infrastrukturu var. Biz yeni kəmər sistemi üzərində işləyirik. Bu kəmər bizdə olan və gələcəkdə olacaq qazı müxtəlif istiqamətlərə ixrac etməyə imkan verəcək. İqtisadiyyatın və enerji təchizatı marşrutlarının şaxələndirilməsi bizim üçün son dərəcə vacibdir. Şadıq ki, enerji siyasətində də maraqlarımız avropalı tərəfdaşlarımızla üst-üstə düşür. Təbii qaz məsələsinə gəlincə, Azərbaycan Avropanın əsas tərəfdaşlarından birinə çevriləcəkdir. Neft məsələsinə gəldikdə, Avropa İttifaqının bəzi üzv dövlətlərinin enerji balansında Azərbaycan neftinin payı 30 faizdən artıqdır. Onun əsas hissəsi nisbətən yeni mənbədən əldə olunur. Azərbaycanın təsdiq edilmiş qaz ehtiyatları 2,5 trilyon kubmetrdən çoxdur. Qeyd etdiyim kimi, biz yeni boru kəməri sistemi üzərində iş aparırıq. Bu layihədə, xüsusilə də regionun və Avropanın enerji xəritəsini əhəmiyyətli şəkildə dəyişəcək TANAP layihəsində Fransa şirkətlərini tərəfdaş kimi görməyə şad olardıq.

İqtisadi göstəricilərə nəzər saldıqda, düşünürəm ki, iqtisadiyyatın şaxələndirilməsinə nail ola bilmişik. Bu bir sıra rəqəmlərdə də özünü göstərmiş, xüsusilə də bu ilin 6 ayının göstəricilərində öz əksini tapmışdır. Qeyri-enerji sektorunda ümumi daxili məhsulun həcmi 10 faizdən çox artmışdır. Ümumilikdə son 8 ildə Azərbaycan iqtisadiyyatı 3 dəfə artıb. Yaşayış səviyyəsi yaxşılaşıb, yoxsulluq səviyyəsi təxminən 50 faizdən 7 faizə düşüb, işsizlik səviyyəsi 5,4 faiz təşkil edir.

Xarici borc ümumi daxili məhsulun təxminən 7 faizi həcmindədir. Biz 9,3 milyon əhalisi olan ölkədə 1 milyondan artıq yeni iş yeri açmışıq, işsizlik 5–10 il bundan əvvəl olduğu kimi, ciddi problem deyil. Beynəlxalq maliyyə institutları da nailiyyətlərimizi və problemlərimizi yaxından izləyir. Şadıq ki, maliyyə böhranı dövründə 3 aparıcı reytinq agentliyi – «Standard & Poors», «Fitch» və «Moodys» Azərbaycanın kredit reytinqini qaldırıb. Davos İqtisadi Forumunun dünya ölkələrinin rəqabətlilik göstəricisi üzrə sonuncu siyahısında Azərbaycan 46-cı yerdədir. Bu da region ölkələri, bütün qonşularımız arasında ən yüksək göstəricidir.

Gələcəkdə biz qeyri-enerji sektoruna daha çox diqqət ayıracağıq. Düşünürəm ki, enerji sektorunda qarşımıza qoyduğumuz bütün məqsədlərimizə çatmışıq və hazırda icra edəcəyimiz layihələrə artıq start verilmişdir. Növbəti 10 il üçün məqsədimiz iqtisadiyyatın modernləşdirilməsi, şaxələndirilməsi, sənayeləşdirilməsi, kənd təsərrüfatına, informasiya texnologiyalarına, xüsusilə kosmik texnologiyaya investisiyaların yatırılmasıdır. Yeri gəlmişkən, fransız şirkətləri bizə bu sahədə yardım edirlər. Bu, növbəti 10 il üçün hədəfimiz olacaqdır.

Qeyd etdiyim kimi, son 8-9 ildə biz ümumi daxili məhsulu 3 dəfə artırmağa, ölkədə müasir infrastruktur yaratmağa nail olmuşuq. Növbəti 10 il ərzində, davamlı inkişaf onilliyində, bizim hədəfimiz qeyri-enerji sektorunda ümumi daxili məhsulu 2 dəfə artırmaqdır. Düşünürəm ki, qarşıdakı 10 ildə bu mümkün olacaq. Zənnimcə, transformasiya sahəsində təcrübəmiz, dünyanın aparıcı şirkətləri ilə güclü əlaqələrimiz sayəsində buna nail ola biləcəyik.

Uzun illərdir Fransa şirkətləri bizim ölkədə uğurla fəaliyyət göstərir. Enerji sektorunda onlar investor, digər sektorlarda iş podratçısı kimi fəaliyyət göstərirlər. Əlbəttə ki, biz Fransa şirkətlərini qeyri-enerji sektorunda investor kimi görmək istərdik. Düşünürəm ki, bunu etmək üçün yaxşı potensial mövcuddur. Çünki iqtisadiyyat inkişaf edir, yeni imkanlar

yaranır, Azərbaycan regional mərkəzə – təkcə siyasi deyil, həm də iqtisadi mərkəzə çevrilir. Azərbaycan regionda tarazlaşdırıcı rol oynayır. Düşünürəm ki, Azərbaycana investisiya yatırmaq imkanlarının dəyərləndirilməsi Fransa şirkətləri üçün maraqlı olacaq. Biz onları podratçı kimi də görmək istərdik. Mən bizimlə fəal şəkildə çalışan bir çox Fransa şirkətinin adını çəkə bilərəm. Dünən prezident Olland ilə görüşdə bildirdim ki, səfərdən əvvəl köməkçim mənə Azərbaycandakı Fransa şirkətlərinin fəaliyyəti ilə bağlı broşür təqdim etdi. Güman edirəm ki, bir neçə ilə şirkətlərin adları olan kitab nəşr ediləcək. Bunlar bizim planlarımızdır. Mən həm siyasi, həm də iqtisadi sahədə əməkdaşlığımızın səviyyəsindən məmnunam. Əməkdaşlığımız çox mehriban, gözlənilən və möhkəmdir.

Azərbaycan açıq ölkədir. Bu ölkədə bizneslə məşğul olmaq cəlbedicidir. Hazırda Azərbaycanda ümumi daxili məhsulun 80 faizi özəl sektorun payına düşür. Burada çox liberal iqtisadi nizamlama mövcuddur. Biz Dünya Bankının «Doing Business» proqramında aparıcı ölkələr sırasındayıq. Ölkədə çox əlverişli investisiya mühiti mövcuddur. Adambaşına düşən birbaşa xarici sərmayələrin həcminə görə Azərbaycan keçmiş sovet ölkələri arasında 1-ci yerdədir. Bu il biz Azərbaycana, iqtisadiyyatımıza 20 milyard dollar həcmində birbaşa sərmayələrin yatırılacağını gözləyirik. Hazırda xarici və yerli investisiyalar arasında nisbət dəyişib. Sərmayələrin 70 faizi yerli yatırımlardır. Bu o deməkdir ki, şirkətlərimizin rəqabətliliyi artır.

Yeri gəlmişkən, Azərbaycan xaricdə böyük investisiya layihələrinə start verib. Regionda biz ilk növbədə Türkiyə iqtisadiyyatına milyardlar yatırırıq. Növbəti 5 il ərzində bu təxminən 20 milyard dollara çatacaqdır. Biz Gürcüstanda bir nömrəli investoruq. Dövlət Neft Şirkəti Gürcüstanda ən böyük vergi ödəyicisidir. Bundan əlavə, biz Avropa İttifaqına üzv ölkələrə, keçmiş Sovet İttifaqı ölkələrinə investisiya yatırmağı planlaşdırırıq. Həmçinin maliyyə resurslarımızı da şaxələndiririk, bu da çox mühümdür.

Azərbaycan və Fransa şirkətləri arasındakı əlaqələrin tarixini nəzərə alaraq, qarşıdakı illərdə biz üçüncü ölkələrdə hətta müştərək investor kimi fəaliyyət göstərə bilərik.

Mən Azərbaycan haqqında danışaraq daha çox vaxtınızı almaq istəmirəm. Bilirəm ki, əksəriyyətiniz bizim ölkədə olub, ölkəmizlə bağlı öz təəssüratlarınız var. Azərbaycanda olmayanları mən bizneslə məşğul olmaq imkanlarını öyrənmək və tərəfdaşlığımızı möhkəmləndirmək üçün ölkəmizə dəvət edirəm. Təşəkkür edirəm.

* * *

*Sonra dövlətimizin başçısı sualları cavablandırdı.*

**J a n B ü r e l:** Cənab Prezident, Sizi bu gün burada, Parisdə dinləmək, nailiyyətləriniz, Azərbaycanın iqtisadi durumu barədə təqdimatlarınızı, fikirlərinizi eşitmək bizim tərəfdən və borcla mübarizə aparan Qərbi Avropanın hər bir ölkəsi tərəfindən təqdir edilir. Bir neçə dəqiqə öncə ölkənizin dövlət borcunun ümumi daxili məhsulun 7 faizini təşkil etdiyini eşitdikdə bunun Fransa üçün də belə olmasını arzuladım.

Bizim Sizdən soruşmaq istədiyimiz bəzi suallar var. İndi mənim həmkarım Kristian Mons sual-cavab sessiyasına başlayacaq. Kristian, buyurun.

**K r i s t i a n M o n s:** Cənab Prezident, iştirakınız üçün Sizə təşəkkür edirik. Burada masa ətrafında Fransa şirkətlərini təmsil edən 50-dən çox baş icraçı direktor və baş menecer əyləşib. Onlar, yəni biz, tərəqqiniz və ölkəniz haqqında daha çox sual vermək məqsədilə burada toplanmışıq. Bizim şirkətlər enerji, nəqliyyat, infrastruktur, su idarəçiliyi, xidmət, turizm, bankçılıq və digər sahələri təmsil edir. Onlar Sizə çox qısa və konkret, həmişə olduğu kimi, dəqiq suallar vermək istəyirlər. Əgər razısınızsa, mən sual-cavaba «Total» şirkətindən olan cənab Borrell ilə başlayıram. O Sizə sual vermək istəyir.

**M i ş e l B o r r e l l:** Çox sağ olun. Cənab Prezident, mənim vermək istədiyim xüsusi bir sual yoxdur. Sadəcə, həm-

karlarımın qarşısında Sizin bazar ertəsi keçirdiyiniz görüşdə müzakirə etdiyiniz bir neçə məsələ haqqında şərh vermək istərdim.

İlk növbədə, qaz sektoru haqqında. Siz öz çıxışınızda enerji sektorundakı nailiyyətlərinizi və qarşıda duran hədəflərinizi qeyd etmişdiniz. Düşünürəm ki, bunlar Sizin də qeyd etdiyiniz kimi, ölkədəki investisiya mühitinin yaxşı göstəricisidir. Öz adımızdan deyə bilərəm ki, biz Azərbaycanın neft və qaz sektorunda iştirak etməkdən məmnunuq və bununla fəxr edirik. Yenicə uğurlu şəkildə tamamladığımız və aşkarlanmasını keçən ilin sentyabr ayında Sizinlə birgə elan etdiyimiz «Abşeron» yatağı barədə müzakirə aparmaq imkanımız oldu. Burada iştirak edən tərəfdaşlarımız «GDF Suez» şirkəti və SOCAR ilə birlikdə «Abşeron» yatağındakı quyunun maliyyə dəyəri barədə açıqlama vermişdir. Bildiyiniz kimi, onun Sizin arzuladığınız miqyasda və zaman çərçivəsində işlənməsinin əsas şərti Xəzər dənizində qazma imkanlarını artırmaqdır. Quyunun istismarında biz SOCAR ilə birlikdə yaxından işləyirik. Ümid edirəm, istehsalatda yeni qazma qurğuları tətbiq ediləcək.

Biz həmçinin Sizin də qeyd etdiyiniz məsələ, yəni regionda istehsal edilən qaz və onun Avropa bazarına necə çıxarılması barədə danışdıq. Düşünürəm, «Şahdəniz» yatağındakı 10 faizlik payımız nümayiş etdirir ki, bizim də bu işdə rolumuz böyükdür. Biz «CP» onun genişləndirilməsi və Türkiyədən keçməklə Avropa bazarlarına gedəcək TANAP layihəsi üçün strateji cəhətdən əhəmiyyətli infrastrukturun qurulmasında həm operator və yenə də SOCAR-la birgə işləmişik. Sonra bu 2 rəqib boru kəməri qazı ya İtaliya, ya da daha yuxarı, Avstriyaya – Avropa qaz bazarının bir hissəsinə çatdıracaqdır. Bu sahədə tərəfdaşlıq əsas şərtdir.

Bizim həm də SOCAR ilə tərəfdaşlığımızı daha da inkişaf etdirmək potensialını, quruda və dənizdə gələcək fəaliyyətimizi müzakirə etmək imkanımız oldu. Hesab edirəm ki, bu danışıqlarda daha tez irəliləyiş etmək üçün Siz bizi ruhlandırdınız və bununla da biz Sizin neft və qaz sahəsində qarşıya

qoyduğunuz məqsədlərə nail olmağa davam edirik. Hesab edirəm ki, şərhimin 3 əsas elementində də qeyd etdiyim kimi, SOCAR ilə və Azərbaycandakı digər şirkətlərlə tərəfdaşlıq bizim uğurumuzun açarıdır. «Total»ın Azərbaycandakı sərmayə payı ölkənizin investisiya mühitinin cəlbediciliyi, sabitlik və bizə layihələrimizə uzun müddətə milyardlarla dollar investisiya yatırmaq imkanı verən güvənlik haqqında söylədiklərinizin aydın şəkildə nümayişidir. Siz bundan sonra da insanları SOCAR ilə, Azərbaycan ilə işləmək səylərini davam etdirməyə, etibarlı tərəfdaş olmağa, istər bizim, istərsə də Sizin öz mütəxəssislərinizlə və şirkətlərinizlə birgə gəlirləri artırmağa əmin edə bilərsiniz. Təşəkkür edirəm.

**K r i s t i a n M o n s:** Təşəkkür edirəm. «Bouygues Travaux Publics» şirkətindən cənab Kristian Qazen.

**K r i s t i a n Q a z e n:** Cənab Prezident, mən «Bouygues Travaux Publics» şirkətinin tikinti bölməsini təmsil edirəm. Biz müxtəlif növ binaların, eləcə də infrastruktur, dəmir yolu və mülki obyektlərin tikintisi ilə məşğul oluruq. Biz xüsusilə Bakı metrosunun inkişafı ilə maraqlanırıq. Yerli şirkət olan «Akkord» ilə əməkdaşlıq edirik. Hazırda metronun mavi xətti üzərində çalışırıq. Həmçinin demək istərdim ki, Fransada bizim daha iri tərəfdaşımız və hərdən rəqibimiz olan şirkət vardır. Biz Azərbaycanda həmin bu şirkətlə yerli şirkətlərin də daxil olacağı fransız qrupu yaratmağı qərara almışıq. Xatırladım ki, bizim şirkətin Misirin paytaxtı Qahirədə metro tikintisində 30 illik bir uğuru var və hazırda bir sıra digər layihələrdə də iştirak edirik.

Sualım belədir: Bakı metrosunun, xüsusilə mavi xəttin gələcəyi haqqında nə deyə bilərsiniz?

**İ l h a m Ə l i y e v:** Təşəkkür edirəm. Bizim Bakı metrosu üçün böyük inkişaf planımız var. Bir müddət öncə mənim sədrliyimlə bu məsələ ilə bağlı böyük konfrans keçirdik və «Bakı metrosunun inkişafı üzrə Dövlət Proqramı» qəbul edildi. Hazırda 23 metro stansiyamız var. Onların əksəriyyəti sovet

dövründə tikilib. Amma son bir neçə ildə biz hər il 1 yeni metro stansiyası açırıq. Amma planlar daha genişdir.

Metronun böyük inkişaf planı 2030-cu ilə qədər əlavə 50 stansiyanın tikintisini nəzərdə tutur. Bu o deməkdir ki, biz çox işləməli olacağıq və bizə yaxşı tərəfdaşlar lazım olacaq. Yeri gəlmişkən, Fransanın «SYSTRA» şirkəti Bakı metrosunun böyük inkişaf planı üzərində işləyir. Bu layihə bütövlüklə dövlət tərəfindən, dövlət büdcəsi hesabına maliyyələşdiriləcək. Hər il biz bu məqsədlə əsaslı maliyyə vəsaiti ayırırıq. Yeganə məsələ onunla bağlıdır ki, bizə yaxşı podratçılar lazımdır. Bizim öz şirkətimiz var ki, hələlik Azərbaycan üçün metro tikir və onlar işi yüngülləşdirən yeni qazma qurğusu alıblar. Amma işin miqyasını, sürətini və 2030-cu ilə qədər çatmalı olduğumuz məqsədi nəzərə alaraq, bizim beynəlxalq podratçı şirkətlərə ehtiyacımız olacaqdır. Mən şadam ki, siz yerli şirkətlərlə birgə işləməyi planlaşdırırsınız, bu da bizim üçün çox vacibdir. Çünki biz iqtisadi transformasiya prosesində xarici şirkətlərlə işləyirik və yerli şirkətlərimizin də beynəlxalq şirkətlərə çevrilməsini istəyirik.

«Bouygues Travaux Publics» kimi şirkətlə işləmək yerli şirkətlər üçün yaxşı təcrübə və peşəkar fəaliyyətlərində yaxşı tarixçə olacaq. Əgər bir gün onlar Azərbaycandan kənarda işləmək qərarına gəlsələr, «Bouygues Travaux Publics»lə birgə layihə həyata keçirdiklərini tarixçələrində göstərə bilərlər. Mən bu yanaşmanı bütövlüklə dəstəkləyirəm və sizə uğurlar arzulayıram.

Metroda görüləcək işlər çox olacaqdır. Bu, Bakıda yaxın illərdə həyata keçiriləcək ən əsas infrastruktur layihələrindən biridir.

**Kristian Mons:** Cavabınız üçün təşəkkür edirik, cənab Prezident. «Vinci Construction» şirkətinin sədri və icraçı direktoru cənab Bonno Sizin şərhinizə bəzi şeylər əlavə etmək istəyir.

**Alen Bonno:** Sabahınız xeyir, cənab Prezident. Metro layihəsi haqda indicə eşitdim. Mən Dünya Tunel Konqresində

iştirak etmək üçün Bakıya gəlmişdim. Metro sahəsində çalışan bir çox insanlarla, xüsusilə Bakı Metropoliteninin rəisi ilə görüşdüm. Cənab Qazenin dediklərini təsdiqləmək istərdim. Əgər Siz razısınızsa, yaxşı bir fransız tikinti qrupu yeni metro xətlərinin tikintisində maraqlı ola bilərdi və biz bu barədə çox danışmışıq. Bizim üçün vacib olan məsələ yaxşı razılıq əldə etməkdir və düşünürəm ki, biz yerli şirkətlərlə, yaxşı təcrübəsi olan Azərbaycan şirkətləri ilə birgə işləməliyik. Qeyd etdiyiniz kimi, Azərbaycanda uzun metro xətləri artıq var və biz onların müasirləşdirilməsində və digər layihələrdə Sizə kömək etməyə hazırıq. Təşəkkür edirəm.

**Kristian Mons:** Burada 2 aparıcı su təsərrüfatı şirkətinin təmsilçiləri var. Etiraz etmirsinizsə onlar Sizə 2 sual vermək istəyirlər. Əvvəlcə, «Veolia Eau» şirkətinin Avropa üzrə direktoru Jan-Luk Debran və «Suez»dən beynəlxalq inkişaf üzrə icraçı vitse-prezident cənab Erik Gebal.

**Jan-Luk Debran:** Cənab Prezident, su və kanalizasiya sistemlərinə bizim şirkət də iştirak etdiyi böyük maliyyə vəsaitlərinin qoyulması üzrə proqramları nəzərə alsaq, bu sahənin ixtisaslı kadrlara və idarəetmə mütəxəssislərinə ehtiyacı yaranır.

Mənim ilk sualım belədir: Azərbaycan Respublikası Hökuməti ilə belə bir məktəbin və ya treninq mərkəzinin yaradılması üzrə tərəfdaşlıq mümkündürmü? İkinci sualım: su təsərrüfatı və kanalizasiya infrastrukturunun idarə olunmasına rəhbərlik edən nazirlik belə ehtiyacların ödənilməsi üçün ixtisaslaşmış fransız şirkətlərinə müraciət edəcəkmi?

**İlham Əliyev:** Bizim su və kanalizasiya layihələri ilə bağlı böyük planlarımız var. Bu problem bizdə hər zaman mövcud olub. Təəssüf ki, Bakının və Azərbaycanın digər şəhərlərinin heç vaxt kifayət qədər su təchizatı olmayıb. Sovet dövründə yaradılan sistem kifayət etməyib. Qeyd etməliyəm ki, bu sistem köhnəlib və bir çox çətinliklər yaradır. Bu məqsədlə biz təmiz su təchizatı ilə bağlı böyük proqram həyata keçirmək qərarına gəlmişik. Suyun keyfiyyəti Ümumdünya Səhiyyə

Təşkilatının standartlarına uyğun olmalı və bütün şəhərlərimiz su ilə təchiz edilməlidir. Əlbəttə, Bakı birinci sıradadır, çünki Bakı nəinki Azərbaycanın, hətta bütün Qafqazın ən böyük şəhəridir.

Proqram çox genişdir və bizim dövlət şirkətimiz «Azərsu» buna görə məsuliyyət daşıyır. Onlar «GDF Suez» ilə işləyirlər, yenicə müzakirələr aparıblar. Ümid edirəm ki, tezliklə layihənin reallaşdırılması istiqamətində praktiki addımlar atılacaqdır. Hədəfimiz 2013-cü ilin sonuna qədər Azərbaycanın bütün şəhərlərini su ilə tam təchiz etməkdir. Paralel olaraq müasir kanalizasiya sisteminin qurulması da həyata keçiriləcəkdir. Amma yəqin ki, bunu gələn ilin sonuna qədər etmək mümkün deyil, bəlkə də bu daha bir neçə ilə başa gələcəkdir.

Bakı ilə əlaqədar məsələ daha mürəkkəbdir. Çünki biz təkcə maliyyə baxımından deyil, texniki nöqteyi-nəzərdən də çox şey etməliyik. İşin böyük hissəsi yenə də dövlət büdcəsindən maliyyələşəcəkdir. Bizim banklardan kreditlərimiz də var, hansı ki, layihəni daha tez həyata keçirməyə kömək edəcəkdir. Bu, növbəti illərin ən vacib infrastruktur layihələrindən biri olacaqdır. Ona görə ki, bütün digər infrastruktur layihələrinin bəziləri ya tamamilə yerinə yetirilib, ya da yeni elektrik stansiyalarının tikintisi, Azərbaycanın qazlaşdırılması, magistral və hətta kənd yollarının tikintisi kimi layihələr hazırda reallaşmaq mərhələsindədir.

Gələn 5 il üçün su və kanalizasiya layihəsi yüksək prioritetli məsələ olacaqdır. Çünki biz bu layihəni mərhələlərlə reallaşdıracağıq. Qeyd etdiyim kimi, ilk mərhələ 2013-cü ilin, ikinci mərhələ 2016-cı ilin sonuna qədərdir. Buna görə də biz Fransa şirkətləri ilə əməkdaşlığı yüksək qiymətləndiririk. Biz artıq «GDF Suez» şirkətinin nümayəndələri ilə onların digər ölkələrdəki təcrübəsini, onların bu layihələri necə həyata keçirmələrini müzakirə etdik. Bildiyimə görə, sizin şirkət də Azərbaycan ilə işləyir, həm də uğurlu şəkildə. Mən sizə uğurlar arzu edirəm. Biz bu layihə üzərində işləməyə davam edəcəyik. Ümid edirəm ki, növbəti illərdə bu problem daha olmayacaq.

**K r i s t i a n M o n s:** Təşəkkür edirik, cənab Prezident. Cənab Gebal, əlavə etmək istədiyiniz bir şey varmı?

**E r i k G e b a l:** Xeyr, yalnız istərdim Sizi əmin edim ki, biz «Azərsu»nu mümkün qədər tez bir zamanda dünya səviyyəli müəssisəyə çevirmək fikrimizdə qətiyyətliyik. Artıq 2-3 ildir «Azərsu» ilə əməkdaşlıq edirik və Bakının tarixi su təchizatının təkmilləşdirilməsinə nail olmuş ilk şirkət olmağa yaxınıq. Bu bizim üçün ciddi məsələdir və biz əminik ki, 2-3 ilə rəqabətə-davamlı şərait yaranacaqdır.

**İ l h a m Ə l i y e v:** Təşəkkür edirəm. Sadəcə, əlavə etmək istərdim ki, bizim görüşümüzdən sonra mən «Azərsu»ya sizin şirkətlə daha da yaxından işləmələri və layihənin icrasına başlamaları üçün tapşırıqlar verdim. Bütün dostlarımıza xatırlatmaq istərdim ki, bizim 2 gün əvvəlki görüşümüzdə mən dedim ki, su təchizatı məsələsinə gəldikdə qarşımızda çox asan hədəflər durur: bizə 24 saat su təchizatı, 100 faiz əhatə dairəsi və Ümumdünya Səhiyyə Təşkilatının standartlarına cavab verən su lazımdır. 3 əsas, sadə məqsəd. Həmin məqsədlərə çatmaqla, düşünürəm, bu problem həmişəlik həll olunacaqdır. Bunun da insanların yaşayış şəraitinə, onların səhhətinə, ölkəmizin ümumi inkişafına çox ciddi təsiri olacaqdır. Çünki Azərbaycan çox sürətlə inkişaf edir. Müasirləşmə prosesi elə tez gedir ki, biz mövcud su təchizatının hazırkı vəziyyəti ilə barışa bilmərik. Lakin bir daha demək istərdim ki, bu problem bizim ölkədə həmişə olub.

Müstəqilliyimizin ilk illərində həll olunası digər daha ciddi məsələlər var idi və ola bilsin, buna görə də bu məsələ prioritet deyildi, üstəlik bu çox baha idi. Biz özümüz-özümüzə sərmayə qoymağa başlamamışdan öncə, 10 ildən çox bir müddət ərzində beynəlxalq maliyyə təsisatları ilə aparılan danışıqlar əsaslı nəticə vermirdi. Su layihələrini büdcəmizə, dövlət sərmayə proqramlarımıza daxil etdikdən sonra beynəlxalq maliyyə təsisatları da buna maraq göstərdilər və daha fəal oldular. İndi dövlətin, bankların maliyyələşdirdiyi layihələrin yaxşı əlaqələndirilməsi mövcuddur və bu da sıx əməkdaşlıq əhval-ruhiyyəsi yaradır.

**K r i s t i a n  M o n s:** Çox sağ olun, cənab Prezident. Burada iştirak edən fransız şirkətlərinin əksəriyyətinin adından Sizə sual verə bilərəmmi? Bu daha çox siyasi sualdır, amma iqtisadiyyatla əlaqəsi var. Çox maraqlı olardı ki, bizə ölkənizin Ümumdünya Ticarət Təşkilatına daxil olmasının təqvimi haqqında məlumat verəsiniz. Siz əvvəllər də bu haqda danışmısınız, amma istərdik Sizin planlarınız barədə eşidək.

**İ l h a m  Ə l i y e v:** Biz bu məsələ üzərində işləyirik. Tərəfdaş ölkələrlə ikitərəfli məsləhətləşmələr prosesindəyik və bu proses uğurla davam edir. Bildirmək istərdim ki, Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına nə zaman üzv olmasına dair 2 fikir mövcuddur. Birincisi, mümkün qədər tez – bu fikir də yetərincə əsaslıdır – çünki bu, bazarda rəqabətədavamlılığı artıracaqdır. Ümid edirik ki, bu, istehlakçı qiymətlərinə müsbət təsir edəcək. Hazırda Azərbaycan bir sıra beynəlxalq təsisatlara inteqrasiya edən ölkədir və Ümumdünya Ticarət Təşkilatının bir hissəsi olmağa yaxındır. Digər yanaşma bir az fərqlidir – məzmun nöqteyi-nəzərindən deyil, vaxt etibarilə fərqlənir. Çünki indi biz şaxələndirmə istiqamətində ciddi iş görürük. Bizim fərdi sahibkarlığın həvəsləndirilməsi üzrə Dövlət Proqramımız vardır. Məsələn, gələn il kənd yerlərində kiçik və orta müəssisələr üçün 300 milyon avro məbləğində vəsait nəzərdə tutulub. Onlara dövlət tərəfindən kiçik faizlə kredit ayrılacaqdır. Biz kənd təsərrüfatına böyük subsidiyalar ayırırıq. Fermerlərə yanacaq 50 faiz güzəştlə satılır. Onlar gübrəni də 50–75 faiz arasında güzəştlə alırlar. Onlar torpaq vergisindən başqa, bütün vergilərdən azad olunublar. Onlara taxıl əkdikdə hər bir hektara görə 100 avro verilir. Bu subsidiyalar bizə kənd təsərrüfatı məhsullarının idxalından asılılığı əhəmiyyətli şəkildə azaltmağa kömək edir.

Bu gün biz bəzi mövqelərdə tələbatımızı 80-85 faiz həcmində ödəyə bilirik. Məqsədimiz 2015-ci ilin sonunadək özümüzü kənd təsərrüfatı məhsulları ilə təmin etməkdir. Bu, 1 milyon iş yerinin açılmasına şərait yaratdı ki, bunların da əksəriyyəti kənd yerlərindədir.

Beləliklə də mən ikinci yanaşmaya toxunmaq istəyirəm. İkinci yanaşma ondan ibarətdir ki, əgər biz Ümumdünya Ticarət Təşkilatına bu gün qoşulsaq, bu, kənd yerində sahibkarlığın inkişafına mənfi təsir göstərə bilər. Bu, məşğulluqla bağlı müəyyən problemlər yarada bilər. Bizim bəzi mallarımız rəqabətədavamlılığını itirə bilər. Beləliklə, əsas fikir, deyərdim, ondan ibarətdir ki, təkmilləşdirmə, şaxələndirmə, sərmayə qoyuluşu prosesini, özəl sektorun həvəsləndirilməsini davam etdirmək, təkcə kənd təsərrüfatının deyil, həmçinin ağır sənayenin və ümumiyyətlə, iqtisadiyyatımızın artıq daha yaxşı şəkildə olduğu bir vaxt Ümumdünya Ticarət Təşkilatına üzv olmaqdır. Biz bu 2 yanaşma arasında yolumuzu tapmağa çalışırıq. Beləliklə, biz danışıqlar prosesindəyik. Çox güman ki, bizim üzv qəbul olunmağımız yaxın gələcəkdə baş verməyəcəkdir.

**Kristian Mons:** Çox aydın izah idi.

**İlham Əliyev:** Təşəkkür edirəm.

**Kristian Mons:** Çox sağ olun. İndi isə biz digər suallara keçə bilərik. Bizim hələ bir az da vaxtımız var. İstəyirsinizsə, razısınızsa turizm və idman haqqında danışa bilərik. Hamımız ölkənizin necə gözəl olduğunu bilirik. Turizm və idman infrastrukturu layihələri haqqında daha yaxşı məlumatı olan «Gregory İnternational» şirkəti üçün bu çox maraqlı olacaqdır.

**«Gregory İnternational» şirkətinin nümayəndəsi:** Sabahınız xeyir, cənab Prezident. Bizim şirkət qolf və idman meydançalarının inşası üzrə ixtisaslaşıb. Biz yalnız beynəlxalq miqyasda fəaliyyət göstəririk. Biz Sizin ölkənizdə olmuşuq və böyük inkişaf potensialının şahidiyik. Mənim sualım çox sadədir. Bilmək istərdim, Siz qolf meydançası tikintisi layihəsini təyin etmisinizmi və gələcəkdə hansı idman meydançalarının tikintisi gözlənilir?

**İlham Əliyev:** Bəli, qolf meydançalarının tikintisi layihələri var və onlar artıq icra olunur. İkisi tikilir, amma Bakıda deyil, paytaxtdan 150–200 kilometr kənarda, dağlıq və

yaşıl ərazidə. 2 qolf meydançasının tikintisinə dair də planlar var. Lakin bunlar özəl sərmayələrdir, dövlət sərmayələri deyil.

Dövlət sərmayələrinə gəldikdə, biz idman infrastrukturuna çoxlu vəsait yatırırıq. Ən iri idman və ya konsert zalı – «Crystal Hall» yalnız «Eurovision» mahnı müsabiqəsi üçün inşa olunmuşdur. Vaxtımız az idi, amma 9 aya tamamlandı. Bu, 17 mindən 20 minədək tutumu olan gözəl idman sarayıdır. Biz stadionlarımızı da müasirləşdiririk. Son 10 il ərzində Azərbaycanda 34 Olimpiya İdman Kompleksi inşa olunub ki, bu da bizim komandamızın London Olimpiadasında uğurlu çıxışının səbəblərindən biridir.

Bununla da idman bizim üçün sərmayələrin yönəldildiyi və diqqət mərkəzində olan, diqqət göstərilən əsas sahələrdən biri olmağa davam edəcəkdir. Bunun üçün də biz daha çox iş görəcəyik. Hazırda biz Qafqaz dağlarında yeni dağ-xizək istirahət kompleksinin tikintisinin son mərhələsindəyik. Bu da dövlət sərmayələrinin hesabına reallaşır. Çox güman ki, bu mövsümdə kompleks xizək həvəskarları üçün açılacaqdır. Bu, ən gözəl və ən rahat dağ-xizək istirahət komplekslərindən biri olacaqdır. Çünki bütün dağ-xizək istirahət komplekslərinin, həmçinin sizdə – Fransada, İsveçrədə, Avstriyada olanların da təcrübəsini öyrənmişik və insanlar üçün, idmançılar üçün, bu idman növünə üstünlük verən hər kəs üçün maksimal rahatlıq yaratmaq məqsədilə bütün bunların müsbət tərəflərini uyğunlaşdırmışıq. Bununla da biz bu sahədə daha çox layihələrin şahidi olacağıq və tərəfdaşlarla işləməyə hazırıq. Hazırda biz 60–80 min arasında tamaşaçı tutumu olan Olimpiya stadionunun inşasını planlaşdırırıq və tikinti yəqin ki, çox tezliklə başlanacaqdır.

Bizim çoxlu planlarımız var. Dediniz ki, Bakıda olmusunuz və yəqin bizim planlardan xəbərdarsınız. Ümid edirəm ki, bəzi layihələrdə iştirak edəcəksiniz.

**K r i s t i a n M o n s:** Təşəkkür edirik, cənab Prezident. Daha bir sual qanunvericilik haqqında. «Lactalis» şirkətindən

cənab Nale Sizə süd məhsulları üçün gömrük qaydaları, gömrük qanunvericiliyi haqda sual vermək istəyir. Sözü ona verirəm.

**N a l e :** Sabahınız xeyir, cənab Prezident. Bu qaydalar haqqında danışmamışdan öncə deməliyəm ki, ölkənizin kənd təsərrüfatı sahəsi və inkişaf haqqında dedikləriniz məni çox maraqlandırdı. Mən burada «Lactalis Group»u təmsil edirəm. Bu salonda qarşınızda süd sənayesinin 2 lideri əyləşib: «Danone» şirkətindən olan həmkarım masanın digər tərəfindədir. Fransada süd məhsullarının istehsalı üzrə lider bizik. Biz Azərbaycanda 30 nəfərdən ibarət kiçik bir nümayəndəliklə təmsil olunuruq. Biz regiondan və həmçinin Fransadan məhsullar idxal edirik. Bu gün bizim tələbat sizin ölkənizdə biznes qurmağı tələb edir ki, biz azərbaycanlılarla tərəfdaş olaq, Avropanın digər ölkələrində həyata keçirdiklərimizi burada da edək.

Düşünürük ki, böyük tələbat vardır. Dükanların təklif etdikləri çeşidlər artırılmalıdır. Biz bunu inkişaf etdirmək arzusundayıq və istərdik ki, Siz bizə – buradakı şirkətlərə yardım edəsiniz, təkcə ticarətdə deyil, dünyanın başqa ölkələrində etdiyimiz kimi, Sizinlə də uzunmüddətli və davamlı inkişafın əsasını qoymaq üçün.

**İ l h a m Ə l i y e v:** Təşəkkür edirəm. Mən sizin Azərbaycandakı fəaliyyətinizi tam olaraq dəstəkləyirəm. Mən artıq bu məsələ ilə bağlı fikrimi bildirmişəm və təkrarən demək istəyirəm ki, bizim planımız bütün istehlak məhsulları ilə özümüzü təmin etməkdir. Əlbəttə, bizdə azad bazar iqtisadiyyatıdır. İstehsalın çoxsaylı çeşidi mövcuddur ki, insanlar öz maliyyə vəziyyətindən asılı olaraq onları ala bilirlər. Lakin əsas məhsullar olan gündəlik tələbat məhsullarının ölkə daxilində 100 faiz istehsalına nail olmalıyıq. Bu həm qiymətləri aşağı səviyyədə saxlamaq, həm də məşğulluğu təmin etmək baxımından faydalı olar.

Süd məhsullarına gəldikdə, biz hazırda ölkənin südə olan tələbatının təxminən 80-85 faizini yerli istehsal hesabına təmin edirik. Mən əksər yeni və ən böyük süd istehsalı müəssisələrinin

açılışında iştirak etmişəm. Deməliyəm ki, həmin müəssisələrdə istehsal prosesi tamamilə müasir, yeni texnologiyalar əsasında təşkil edilib, məhsullar da çox keyfiyyətlidir.

Tövsiyə vermək çətindir, lakin mən böyük istehsalçı şirkətlərin Azərbaycanda istehsal müəssisələrini yaratmasını istərdim. Bu, əməkdaşlığı davam etdirmək, biznes əlaqələri və qarşılıqlı faydalılıq baxımından ən yaxşı yoldur. Bizim idxal məhsullarından asılı olduğumuz dövr indi geridə qalıb. Hazırda vəziyyət tamamilə fərqlidir. Bir neçə il sonra vəziyyət yerli istehsal baxımından indikindən də yaxşı olacaqdır. Ölkə bazarı da böyüyür. Azərbaycanda istehsal edilən bəzi məhsullar regional bazarlara ixrac edilmək üçün çox yaxşı potensiala malikdir. Çünki qonşularımızdan bəziləri ilə azad ticarət barədə sazişlərimiz var və ona görə də məhsullarımızı ixrac etməklə bağlı problemlərimiz yoxdur.

Bizim ölkə daxilində istehlak edilməyən əksər kənd təsərrüfatı məhsulları təzə və emal olunmuş şəkildə regional bazarlara ixrac edilir. Bu regional bazarlar isə, sizin də bildiyiniz kimi, çox böyük və genişdir. Ona görə də mən tərəfdaşlarımıza əminliklə müasir istehsal müəssisələrinin yaradılması imkanlarını dəyərləndirməyi tövsiyə edirəm. Bu, istəyinizdən asılı olaraq tamamilə sizə məxsus və ya yerli istehsalçılarla şərikli müəssisələr ola bilər. Azərbaycanda müasir, yüksək standartlara cavab verən və keyfiyyətli istehsal müəssisələrinin yaradılması bizim də marağımızda olan bir məsələdir. Təşəkkür edirəm.

**K r i s t i a n  M o n s:** Çox sağ olun, cənab Prezident. İndi isə kosmik sənaye layihələri üzrə sualını vermək üçün sözü «EADS Astrium» şirkətindən cənab Limuziyə verirəm.

**L i m u z i:** Sabahınız xeyir, cənab Prezident. Mən «EADS Astrium» şirkətindənəm. Çox şadam ki, bir az öncə Siz süni peyk və kosmosa aid biznesi qeyd etdiniz. Biz bu yaxınlarda «Azərkosmos»a Yer səthinə nəzarət peyklərinə dair təklif vermişik. Mən bu sahədə Azərbaycan hökumətinin tam dəstəyini arzu edərdim. Çünki bu əsasən, qeyri-ticari və hökumətdən asılı bir məsələdir. İstərdim aydınlaşdırım, bu məsələyə dair sazişlərin

imzalanmasına nə zaman başlamaq fikrindəsiniz və bu məsələdə Fransanın mövqeyini necə qiymətləndirirsiniz?

**İ l h a m  Ə l i y e v:** Azərbaycanda kosmik sənayenin yaradılması və bu sahə ilə bağlı böyük planlarımız vardır. Bu, beynəlxalq səviyyədə hərdən təəccüblə qarşılanırdı, bəziləri bizim bu sahəyə investisiya qoyacağımızı gözləmirdi. Lakin rəqabətə davamlı ölkə olmaq, ölkəmizi inkişaf etdirib müasir ölkəyə çevirmək istəyiriksə, yeni texnologiyalarsız, xüsusən kosmik texnologiyalar olmadan bu, çətin məsələdir.

Biz ilk peykimizin tezliklə kosmosa buraxılacağını gözləyirik. Bu məsələdə bir qədər gecikmələr olub. Biz bunu ötən il üçün gözləyirdik. Lakin Fransanın «Arianespace» şirkəti bunu həyata keçirəcək. Biz Sizin də qeyd etdiyiniz kimi, yeni peyklərlə bağlı layihələr üzərində də işləyirik. Mən Fransa şirkəti ilə «Azərkosmos» arasındakı əməkdaşlığı tam dəstəkləyirəm. Fransa şirkətləri bu sahədə böyük təcrübəyə malikdir və dünyanın aparıcı şirkətlərindən hesab edilir. Hazırda biz peykin buraxılması sahəsində əməkdaşlıq edirik, daha sonra bu əməkdaşlığın digər sahələri üzrə də birgə işləyə bilərik. Biz bu istiqamətdə fəaliyyətimizi olduqca sürətləndirməyi planlaşdırırıq.

Strateji cəhətdən önəmli olan sahələrdə biz vaxt itkisinə yol vermirik. Bu məqsədlərə nail olmaq istiqamətində fəaliyyət göstəririk. Biz çox zaman qarşımıza ambisiyalı və qısamüddətli planlar, hədəflər qoyuruq. Lakin bunları icra etmək heç də mümkünsüz deyildir. Biz o cür fəal və cəld şəkildə işləməsəydik, 8 il müddətində ümumi daxili məhsulu 3 dəfə artıra bilməzdik. Bu, yaxın gələcək üçün nəzərdə tutulmuş bir layihədir. Mən sizin «Azərkosmos» ilə əməkdaşlığınızı tam dəstəkləyirəm və bu sahədə möhkəm əməkdaşlıq münasibətlərinin yaranacağına əminəm.

Yeri gəlmişkən, Azərbaycan ilə sizin şirkət arasında əməkdaşlıq çox uğurludur – təyyarələrin alınması, «airbus»lar. Hazırda başqa yeni layihələr nəzərdən keçirilir. Bu əməkdaşlığın çox yaxşı tarixi əsasları vardır. Eyni zamanda, əvvəllər Fransa istehsalçılarından «Eurocopter»lər, «ATR» təyyarələri alınıb.

Bizim hava yolları hazırda əsasən fransız istehsalı olan təyyarələr üzərində qurulub.

**K r i s t i a n  M o n s:** Təşəkkür edirəm, cənab Prezident. Üzr istəyirəm ki, suallar bu qədər çoxdur. Bilirik ki, Sizin vaxtınız məhduddur.

**İ l h a m  Ə l i y e v:** Əgər suallar çoxdursa, biz vaxtı artıra bilərik.

**K r i s t i a n  M o n s:** Xanım Sizə vacib infrastrukturların təhlükəsizliyi barədə sual vermək istəyir.

**«MBDA» şirkətinin nümayəndəsi:** Cənab Prezident, mən də «EADS»ın başqa bir şirkətini – «MBDA»nı təmsil edirəm. Bizim şirkət vacib infrastrukturların təhlükəsizliyinin müdafiəsi və qorunması sahəsində ixtisaslaşıb. Bizim Azərbaycana bir neçə səfərimiz olub. Orada müxtəlif nazirliklərin nümayəndələri ilə görüşmüşük. Sualım isə «EADS» qrupunun ölkənizlə əməkdaşlıq imkanlarını necə görməyiniz barədədir. Şirkətlərlə, o cümlədən Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə – çünki həmin şirkət çox vacib infrastruktura malikdir – həm də «Total» ilə əməkdaşlığı nəzərdən keçirə bilərik. İkinci sualım həmkarlarımın səsləndirdikləri suallarla bir qədər eyni məzmuna malikdir. Qısa deyəcəyəm. Məni buraya 2 səbəb gətirib. Mən həmçinin kosmik sənaye və aeronavtika sahəsində ixtisaslaşan Fransanın «GIFAS» qrupunun MDB üzrə komissiyasının sədriyəm. Mənim həmkarım kosmik sənaye barədə danışdı, lakin bizim Sizinlə əməkdaşlıq edə biləcəyimiz bir çox sahə vardır. Mən həmçinin Sizinlə əməkdaşlıqda maraqlı olan bir çox daha kiçik şirkətləri də təmsil edirəm. İstərdik bilək, mümkündürmü ki, «GIFAS» səviyyəsində Sizin ölkənizə səfər təşkil olunsun və fransız şirkətləri orada yeni tərəfdaşlar tapsınlar?

**K r i s t i a n  M o n s:** Çox maraqlı təklifdir.

**İ l h a m  Ə l i y e v:** Bəli, elədir. Onu deyə bilərəm ki, mən bu məsələlərə tam dəstək verirəm. Biz böyük, balaca, orta səviyyəli müxtəlif şirkətlər və investorlarla, xüsusən bizim üçün yeni olan kosmos sənayesi kimi sahələrdə işləməyə maraqlıyıq. Bizim hələlik bu sahələrdə böyük təcrübəmiz yoxdur. Buna görə

də böyük beynəlxalq əməkdaşlığa ehtiyac hiss edirik. Əminəm ki, bu sənaye sahəsini inkişaf etdirməklə bağlı böyük planlarımız böyük, kiçik və orta səviyyəli əksər şirkətlər üçün imkanlar yaradacaqdır. Buna görə də müxtəlif şirkətlərin böyük komandalar şəklində ölkəmizə səfər edərək bizim planlarımızla tanış olması, insanlarla görüşərək öz proqramlarını bizim planlarımızla uyğunlaşdırması baxımından yaxşı fikir olardı.

İnfrastruktur təhlükəsizliyinə gəldikdə isə, bəhs etdiyimiz bu mövzu olduqca vacib məsələdir. Əvvəlki illərdə təhlükəsizlik yetərli səviyyədə deyildi, hətta deyərdim ki, mühafizə ətrafa hasar çəkmək qədər bəsit səviyyədə idi. Lakin vacib infrastrukturlar təkcə enerji sahəsi ilə bağlı deyil, digər sahələrdə də olduqca vacibdir.

Çünki biz hazırda fəlakətlərin, zəlzələlərin, daşqınların şahidi oluruq. Yeri gəlmişkən, bu il güclü zəlzələ, 2 il əvvəl isə güclü daşqın ölkəmizə ciddi zərər vurdu. Heç bir ölkə bu cür təhlükələrdən sığortalanmayıb. Hazırda biz enerji infrastrukturunun və su anbarlarının mühafizəsi üçün yeni sistemin quraşdırılmasını həyata keçiririk. Bu sistem isə sizin Fransada istifadə etdiyiniz kimi, olduqca müasirdir. Hazırda bizdə bu sistemlərin yaradılması prosesi gedir.

Bizim digər bir planımız isə qarşıdakı bir neçə ildə diqqətsizlikdən və mühafizədəki qüsurlardan 100 faiz yayınmağa imkan verən bir sistemin yaradılmasıdır. Ona görə düşünürəm ki, bu sahədə əməkdaşlıq üçün xeyli imkanlar olacaqdır. Təşəkkür edirəm.

**K r i s t i a n  M o n s:** Təşəkkür edirəm, cənab Prezident. Cənab Bürel, buyurun.

**J a n  B ü r e l:** Vaxt bitmək üzrədir. Mənim yanımda əyləşən dostum, həmkarım Xarici İşlər Nazirliyinin Avropa qitəsinin regionları üzrə nümayəndəsi Erik Frünyenin də Sizə sualı vardır.

**E r i k  F r ü n y e:** Cənab Prezident, bizə vaxt ayırdığınız üçün Sizə dərin minnətdarlığımı bildirirəm. Sizin gələcək üçün çox mükəmməl planlarınız vardır. Dünən Siz də bizim Prezidentin Sizin regiona böyük diqqətinin şahidi oldunuz. Biz regionu sabit

görmək istərdik, bütün investorlarla regionda əmin-amanlığın yaradılması üçün birgə işləməyi zəruri hesab edirik. Bu gün Sizin buradakı mesajlarınızdan da bəlli oldu ki, fransız şirkətləri regiondakı sabitliyə inanır. Sabitliyə inam olmasaydı, yəqin ki, investisiyalar da olmazdı. Düşünürəm ki, bununla bağlı çox yaxşı planlarımız vardır. Bu planla bağlı Sizin nazirə ilin əvvəlində bildirdiyimiz kimi, Xarici İşlər naziri Loran Fabius gələn il ölkənizə səfər etmək niyyətindədir. Düşünürəm ki, biz bu cür mükəmməl planlarla birgə işləməyə başlaya bilərik. Dəstəyinizə görə təşəkkür edirəm.

**İ l h a m Ə l i y e v:** Təşəkkür edirəm. Mən sizin dediklərinizlə tamamilə razıyam. Ölkəmizin tarixindən də bizə məlumdur ki, bəzi məqamlarda qeyri-sabitlik dövrləri olmuşdur. Sabitlik olmadan isə inkişaf haqda düşünmək mümkün deyildir. Təəssüf ki, sovet dövləti süquta uğradığı vaxt Azərbaycan çox çətin vəziyyətlə üzləşməli oldu. Biz çox mürəkkəb siyasi vəziyyətdə idik – siyasi böhran, Ermənistanın təcavüzü, ərazilərimizin işğal edilməsi, vətəndaş müharibəsi təhlükəsi. İqtisadiyyatımız bütövlükdə tənəzzülə uğramışdı, durğunluq və təxminən 1000 faiz səviyyəsində inflyasiya mövcud idi. İqtisadiyyat o dərəcədə zəifləmişdi ki, biz hər şeyi sıfırdan deyil, hətta daha aşağı səviyyədən, daha dərindən başlamalı idik. Lakin siyasi islahatlar və sabitlik vasitəsilə biz həmin çətinlikləri dəf edə bildik. Artıq 1997-ci ildə iqtisadi sabitliyə nail olundu və bundan sonra ölkə iqtisadiyyatı artmağa başladı. Xarici investisiyalar, əlbəttə, əhəmiyyətli rola malikdir. Lakin investorların sabitlik olmayan ölkədə risk etməsi tamamilə qeyri-mümkündür. Bu səbəbdən tərəfdaşlarımıza, o cümlədən Fransadan olan şirkətlərə bizə inandıqları və çətin vəziyyətdən çıxış yolu tapmaqda dəstəkləri üçün təşəkkürümüzü bildiririk.

Bu gün Azərbaycan təkcə ölkədaxili sabitliyə malik deyil, həmçinin regionda sabitləşdirici amil kimi çıxış edir. Biz çox vacib regional layihələrin hamısında iştirak edirik. Əksər regional enerji, nəqliyyat, siyasi layihələrin təşəbbüskarı kimi çıxış edirik. Ötən il 155 ölkənin səsini qazanaraq BMT Təhlükəsizlik Şurasına üzv

seçilməyimiz onu göstərdi ki, biz özümüzü dünyaya təqdim edə bilmişik.

Bizim gələcəyə baxışımız aydındır. Biz Azərbaycanı gələcəkdə müasir, inkişaf etmiş, beynəlxalq birliyə tam inteqrasiya olunmuş və bütün azadlıqlar, o cümlədən iqtisadi azadlıqlar təmin edilmiş yüksək həyat standartlarına malik ölkə kimi görürük. Yəqin ki, hər bir ölkə rəhbəri ölkəsi və vətəndaşları üçün bunları arzulayır. Bizim bunlara nail olmaq üçün çox yaxşı imkanlarımız vardır.

Yenidən əvvəldə dediyim sözlərə qayıtmaq istərdim. Fransa ilə Azərbaycan arasında ikitərəfli münasibətlər çox əhəmiyyətlidir. Bütün bu illər ərzində biz yüksək səviyyəli qarşılıqlı əməkdaşlıq və anlaşmanın şahidi olmuşuq. Ötən gün prezident Fransua Olland ilə görüşümüz bir daha təsdiqlədi ki, indiyədək görülmüş işlər yeni əməkdaşlıq üçün qapılar açır. Ona görə də şirkətlərin rolu əvvəlkindən daha çox ola bilər. Çünki indi Azərbaycan 10 il əvvəlkindən daha çox imkanlara malikdir. Biz islahatlar xəttini davam etdirəcəyik və gələcəkdə şirkətlərimiz üçün yeni layihələr daha da artacaqdır.

**J a n  B ü r e l:** Cənab Prezident, biz bu səhər yeməyi əsnasında təşkil olunmuş görüşün sonuna çatdıq. Sizin keçmişdə əldə etdiyiniz uğurlar gələcək planlarınızın da uğurlu olacağından xəbər verir. Parisdə və ya Bakıda Kristian Monsun rəhbərlik etdiyi nümayəndə heyətinin iştirakı ilə Sizinlə yenidən görüşməyi səbirsizliklə gözləyəcəyik. Vaxt ayırdığınız üçün və dəyərli cavablarınıza görə təşəkkür edirəm.

**İ l h a m  Ə l i y e v:** Çox sağ olun.

## PARİSDƏ AZƏRBAYCAN MƏDƏNİYYƏT MƏRKƏZİNİN AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK

*19 sentyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva sentyabrın 19-da Parisdə Heydər Əliyev Fondunun və Azərbaycanın Fransadakı səfirliyinin dəstəyi ilə yaradılan Mədəniyyət Mərkəzinin açılışı mərasimində iştirak etmişlər.*

*Dövlətimizin başçısı və xanımı Mərkəzdə yaradılan şəraitlə tanış oldular.*

*Məlumat verildi ki, Parisin mərkəzində – Eyfel qülləsinin yaxınlığında yaradılan Azərbaycan Mədəniyyət Mərkəzi ölkəmizin dünya mədəniyyətinin paytaxtında təbliğ olunması istiqamətində atılan ən mühüm addımlardan biridir. Xüsusi əhəmiyyəti ilə seçilən bu mədəniyyət hadisəsi dünya gündəminə mədəniyyətlərarası və sivilizasiyalararası dialoq platformasının aparıcı qüvvəsi kimi daxil olan Azərbaycanın ən yüksək səviyyədə tanıdılmasına xidmət edir. Ölkəmizin qədim və zəngin tarixinə, mədəniyyətinə dair eksponatların bir məkanda təqdim edildiyi Mərkəz Parisin mədəni həyatında fəallığı ilə seçilən Azərbaycanın bu sahədə həyata keçirdiyi fəaliyyətin rəsmiləşdirilməsinə də böyük imkanlar açır. Azərbaycan Mədəniyyət Mərkəzi həm də ölkəmizə sonsuz marağı təcəssüm etdirir.*

*Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın ölkəmizin xaricdə tanıdılması istiqamətində həyata keçirdiyi tədbirlərin mühüm hissəsi Parisin mədəni həyatı ilə bağlıdır. Yeni mədəniyyət ocağı isə bu sahədə işlərin daha da gücləndirilməsinə, vahid mərkəzdən idarə olunmasına və daha səmərəli fəaliyyətin qurulmasına geniş imkanlar açacaqdır.*

Diqqətə çatdırıldı ki, Mərkəzin binası 1904-cü ildə inşa olunmuş tarixi tikilidir. 3000 kvadratmetr sahəsi olan Mərkəz Parisdə bir növ Azərbaycanın mədəniyyət ocağı funksiyasını yerinə yetirəcək və ölkəmizlə bağlı müxtəlif humanitar tədbirlərin təşkil olunmasına geniş imkanlar açacaqdır.

Prezident İlham Əliyev Azərbaycan Mədəniyyət Mərkəzinin həyətində Dövlət bayrağımızı qaldırdı.

Bildirildi ki, Mərkəzdə müxtəlif görüşlərin, tədbirlərin keçirilməsi üçün hər cür imkan yaradılmış, otaqlar lazımi avadanlıqla təmin olunmuşdur. Mərkəzin əsas özəlliyi burada Azərbaycan mədəniyyətinə dair nümunələrin sərgilənməsidir. Müxtəlif ekspozisiya zallarının yaradıldığı Mərkəzdə Azərbaycan tarixini əks etdirən eksponatlar təqdim olunur. Arxeoloji tapıntılardan tutmuş qədim pullara, silahlara, misgərlik məmulatlarına qədər hər şey burada Azərbaycanın qədim və zəngin tarixindən xəbər verir.

Qeyd edildi ki, Azərbaycan xalçaları Mərkəzdəki ekspozisiyanın ən qiymətli inciləri sırasındadır. Milli xalçaçılığımızın bütün istiqamətlərinin nümunələrinin təqdim edildiyi Mərkəzdə yaşı yüzillərlə ölçülən xalça və xalça məmulatlarının geniş çeşidi təcəssüm tapmışdır. Burada Azərbaycan xalçaçılıq məktəblərinin tarixi və keçdiyi inkişaf yolları barədə məlumat verilir. Bundan başqa, Azərbaycan miniatürləri də Şərqin bir parçası olan ölkəmizdə qədimlərdən yaranıb formalaşan rəssamlıq sənəti – miniatür məktəbi barədə ətraflı məlumat verir. Zinət və müxtəlif bəzək əşyalarının, xalq incəsənətinin bütün istiqamətlərinə dair nümunələrin, taxta üzərində oyma sənətinin təqdim olunduğu Mərkəzin ekspozisiyasında Azərbaycan milli geyimləri də diqqəti cəlb edir. Milli ruhu özündə təcəssüm etdirən kuklalar, bürüncdən hazırlanan heykəllər də maraq doğurur.

Bildirildi ki, Azərbaycan Mədəniyyət Mərkəzində kitabxana da yaradılıb. Zənginliyi ilə diqqət çəkən bu kitabxanada fransız dilinə tərcümə edilən Azərbaycan ədəbiyyatı külliyyatı təqdim olunur. Bundan başqa, mədəniyyətimizin müxtəlif qollarına dair

*geniş ədəbiyyat toplusunun cəmləndiyi kitabxana Mərkəzə gələnlərdə ədəbiyyatımız, rəssamlıq sənətimiz və musiqimiz haqqında, ümumiyyətlə, incəsənətin digər növləri barədə məlumatların əldə edilməsinə imkan verir.*

*Məlumat verildi ki, Mərkəzdə gənc rəssamların işləri də təqdim olunur. Odur ki, bu Mərkəzin yaradılması ölkəmizdə inkişaf edən müasir incəsənət nümunələrinin Fransa ictimaiyyətinə təqdim edilməsi baxımından olduqca əhəmiyyətli hadisədir. Bu həm də Azərbaycanda müasir incəsənətə verilən dəyərin təzahürüdür.*

*Mərkəzlə tanışlıq zamanı prezident İlham Əliyevin və xanımı Mehriban Əliyevanın diqqətinə çatdırıldı ki, burada Azərbaycan musiqisinin təbliğinə də geniş yer ayrılıb. Ayrıca muğam zalı yaradılmış, qədim musiqi alətlərimizin sərgisi təşkil olunmuşdur. Bundan başqa, Mərkəzdə keçiriləcək təlimlərdə Azərbaycan mətbəxinin nümunələrinin hazırlanması qaydaları öyrədiləcəkdir.*

*Prezident İlham Əliyev Mərkəzin yuxarı mərtəbəsindən Parisin mənzərəsini seyr etdi.*

*Dövlətimizin başçısı Azərbaycan Mədəniyyət Mərkəzinin Fəxri qonaqlar kitabına ürək sözlərini yazdı.*

# PARİSDƏ AZƏRBAYCAN MƏDƏNİYYƏT MƏRKƏZİNİN AÇILIŞINA HƏSR OLUNMUŞ QƏBULDA İŞTİRAK

*19 sentyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva sentyabrın 19-da Parisdə Heydər Əliyev Fondunun və Azərbaycanın Fransadakı səfirliyinin dəstəyi ilə yaradılmış Azərbaycan Mədəniyyət Mərkəzinin açılışı mərasiminə həsr edilmiş qəbulda iştirak etmişlər.*

*Tədbir iştirakçıları dövlətimizin başçısını və xanımını hərarətlə qarşıladılar.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qəbulda çıxış etdi:*

– Hörmətli xanımlar və cənablar! Bu gün Fransa–Azərbaycan əlaqələrinin tarixində çox əlamətdar gündür. Parisin mərkəzində Azərbaycan Mədəniyyət Mərkəzi öz işinə başlayır. Təsadüfi deyildir ki, ölkəmizin xaricdə birinci Mədəniyyət Mərkəzi məhz Fransanın paytaxtında açılır. Fransa–Azərbaycan əlaqələri çox uğurla, sürətlə inkişaf edir.

Bu gün səhər bu binanın həyətində Azərbaycan bayrağı qaldırıldı. Bu gün biz dostlarımızı qəbul edirik. Bu Mədəniyyət Mərkəzinin fəaliyyəti bizə imkan verəcəkdir ki, Azərbaycan öz zəngin mədəniyyətini, tarixini, incəsənətini fransalılara geniş şəkildə təqdim etsin. Əminəm ki, bu bina qısa bir müddətdə Fransa–Azərbaycan dostluq evinə çevriləcəkdir.

Fransa–Azərbaycan əlaqələrinin gözəl tarixi vardır və əminəm ki, bundan da gözəl gələcəyi olacaqdır. Dünən Fransa prezidenti cənab Fransua Ollandla keçirdiyim görüş bir daha münasibətlərimizin strateji xarakterini təsdiq etdi. Bu gün səhər MEDEF-də Fransanın aparıcı şirkətlərinin rəhbərləri ilə görüşdə

iqtisadi sahədə qarşılıqlı marağın nə qədər böyük olmasının bir daha şahidi olduq.

Fransa Azərbaycanın ikinci ticarət tərəfdaşıdır və ticarətin həcmi ildən-ilə artmaqdadır. Bu gün biz Azərbaycanın bu mədəniyyət ocağında görüşürük və dostlarımızla təmasda oluruq. Bu fürsətdən istifadə edərək Fransa–Azərbaycan əlaqələrinin mədəniyyət sahəsindəki fəaliyyətinə görə Heydər Əliyev Fondunun prezidenti, Fransa–Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Mehriban Əliyevanın fəaliyyətini xüsusilə qeyd etmək istəyirəm. Onun təşəbbüsü ilə Fransanın mədəni irsinin qorunması üçün Strasburqda, Versalda, Normandiya bölgəsində müxtəlif layihələr icra edilib. Azərbaycan mədəniyyət xadimlərinin Fransada konsertləri, sərgiləri təşkil edilib. Keçən il Bakıda Fransız liseyinin təməl daşı qoyulmuşdur. Bakıda möhtəşəm «Plaisir de France» sərgisi keçirilib. Bu mədəniyyət ocağının fəaliyyətə başlaması məhz Mehriban xanımın təşəbbüsü ilə mümkün olmuşdur. Fransa dövləti onun fəaliyyətini çox yüksək qiymətləndirib və onu «Fəxri Legion» ordeni ilə təltif etmişdir.

Bu axşam doğrudan da Fransa–Azərbaycan dostluğu axşamıdır. Bizim Fransada dostlarımız çoxdur. Bu binanın qapıları həmişə dostlarımızın üzünə açıq olacaqdır.

Bu gün bizimlə bərabər bu sevincli günü qeyd etmək üçün bu ziyafətə gəlmiş bütün dostları bir daha salamlayıram. Bütün fransalı dostlarımıza yeni uğurlar və cansağlığı arzulayıram. Sağ olun.

* * *

*Azərbaycanın və Fransanın dövlət və hökumət rəsmilərinin, tanınmış ictimai-siyasi, mədəniyyət xadimlərinin və digər nüfuzlu qonaqların iştirak etdikləri qəbulda milli mətbəximizin ləziz təamları təqdim olundu.*

*Tədbir konsert proqramı ilə davam etdi.*

## Səfər başa çatdı

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 20-də Fransa Respublikasına işgüzar səfərini başa çatdıraraq Bakıya qayıtmışdır.*

*Dövlətimizin başçısını Heydər Əliyev Beynəlxalq Aeroportunda Baş nazir Artur Rasizadə, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov qarşıladılar.*

## AZƏRBAYCAN DİPLOMATİK AKADEMİYASININ YENİ TƏDRİS KOMPLEKSİNİN AÇILIŞINDA VƏ YENİ KOMPLEKSDƏ KEÇİRİLMİŞ AZƏRBAYCANIN DİPLOMATİK XİDMƏT ORQANLARI RƏHBƏRLƏRİNİN IV MÜŞAVİRƏSİNDƏ İŞTİRAK

*21 sentyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva sentyabrın 21-də Azərbaycan Diplomatik Akademiyasının yeni tədris kompleksinin açılışında və yeni kompleksdə keçirilmiş Azərbaycanın diplomatik xidmət orqanları rəhbərlərinin IV müşavirəsində iştirak etmişlər.*

*Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya gül dəstəsi təqdim edildi.*

*Dövlətimizin başçısı Akademiyanın yeni tədris kompleksinin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Azərbaycan Diplomatik Akademiyasının rektoru Hafiz Paşayev prezident İlham Əliyevə məlumat verdi ki, xarici siyasət sahəsində uğurların əldə olunmasında ilk növbədə diplomatiyamızın xüsusi rolu vardır. Müstəqilliyimizin möhkəmləndirilməsi, dünya dövlətləri arasında Azərbaycanın ədalətli mövqeyinin təbliği və qorunması məhz diplomatların üzərinə düşən böyük və şərəfli vəzifədir. Gənc diplomatların hazırlanması və Azərbaycanın beynəlxalq aləmdə mövqeyinin qorunub saxlanması istiqamətində xüsusi rol oynayan mərkəzlərdən biri də Azərbaycan Diplomatik Akademiyasıdır. Dövlət başçısının 2006-cı il 6 mart tarixli Fərmanı ilə təsis edilmiş Azərbaycan Diplomatik Akademiyası yarandığı gündən öz fəaliyyətində xüsusi ixtisaslı diplomat kadrların hazırlanmasını və beynəlxalq münasibətlər sahəsində elmi tədqiqatların aparılmasını əsas prioritet kimi götürüb. Fəaliyyətə başladığı 2007-ci ildən bəri Akademiyada*

400 gənc diplomat hazırlanmışdır. 2009-cu ildən bu təhsil ocağında tədris proqramının genişləndirilməsinə və «Beynəlxalq əlaqələr və diplomatiya» sahəsində magistratura proqramının reallaşdırılmasına başlanılıb. 2011-ci ildən etibarən isə «Biznesin idarə edilməsi və beynəlxalq münasibətlər» üzrə bakalavr ixtisasları yaradılıb. Bu ixtisaslar üzrə hazırda 250 tələbə təhsil alır. Akademiyanın 19 xarici ölkədən 35 tələbəsi də var. Fəaliyyətinin ildən-ilə genişlənməsi və beynəlxalq əlaqələrinin əhəmiyyətli dərəcədə artması Azərbaycan Diplomatik Akademiyasının yeni tədris korpusu ilə təmin olunması zərurəti yaratmışdır. Bununla əlaqədar olaraq, prezident İlham Əliyevin sərəncamı əsasında 2009-cu ildən paytaxtın Nərimanov rayonu ərazisində təhsil ocağının yeni tədris kompleksinin tikintisinə başlanılıb. Yeni tədris kompleksi ABŞ-ın «EYP» şirkətinin layihəsi əsasında xüsusi dizaynla yüksək standartlar səviyyəsində tikilmişdir. Bu tədris ocağı dünyanın tanınmış universitetlərinin təcrübəsinə əsaslanaraq ən son texnoloji nailiyyətlərlə inşa olunmuşdur.

Kompleksin ərazisi ilə tanış olan dövlətimizin başçısına bildirildi ki, burada 4 ayrı bina – biznes və beynəlxalq münasibətlər institutları, tələbə mərkəzi və kitabxana tikilmişdir. Azərbaycanda ilk dəfə olaraq bu tədris kompleksinin havalandırma sistemi geotermal enerji ilə həyata keçirilir. Bu məqsədlə Akademiyanın ərazisində ayrıca geotermal enerji sistemi qurulub. Kompleksin ətrafında geniş yaşıllaşdırma işləri aparılmış, müasir işıqlandırma sistemi qurulmuşdur.

Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva ümummilli lider Heydər Əliyevin Azərbaycan Diplomatik Akademiyasının mərkəzində ucaldılan abidəsinə baxdılar, Akademiyanın Biznes İnstitutunun 3 mərtəbədən ibarət binasında yaradılan şəraitlə tanış oldular.

Bildirildi ki, Akademiyada idarəetmə sistemi tam avtomatlaşdırıldığından tələbələrin bu təhsil ocağına gəlişi, dərslərdə iştirakı və onların nəticələri avtomatik olaraq kompüterlərə ötürülür, tələbələr tələbə kartları vasitəsilə auditoriyalara daxil olurlar. Biznes fakültəsində 40 və 80 nəfərlik elektronlaşdırılmış

20 auditoriya vardır. Bu auditoriyaların özəlliyi ondan ibarətdir ki, Azərbaycanda ilk dəfə olaraq burada müəllimlərin tədris lövhələrində qeydləri və yazıları «Smart-board» sistemi vasitəsilə «wi-fi» və ya «bluetooth»la tələbələrin kompüterlərinə ötürülür. Tələbələr müəllimlərin qeydlərini birbaşa kompüterlərində görə bilirlər. Auditoriyalarda quraşdırılan videoçəkiliş sistemi ilə Akademiyanın internet səhifəsinə yerləşdirilən dərs prosesini canlı olaraq internetdən də izləmək mümkündür. Burada 6 nəfərlik qrup auditoriyaları vardır ki, bu da tələbələrin qrup halında elmi biliklərə yiyələnməsinə imkan yaradır.

Diqqətə çatdırıldı ki, tələbələr Tələbə Qəbulu üzrə Dövlət Komissiyası tərəfindən Akademiyaya qəbul olunduqdan sonra daxili komissiya tərəfindən müsabiqədən keçirlər. Akademiyanın tələbələrinin 13-ü Prezident təqaüdçüsüdür. Son 2 il ərzində Akademiyaya qəbul olan abituriyentlərin 60 nəfəri 600-dən yuxarı bal toplamışdır. Bu tələbələr və əlaçılar təhsil haqqından azaddırlar.

Vurğulandı ki, Akademiyada tədris ingilis dilində aparıldığından burada xarici ölkələrin tanınmış universitetlərindən 15 professor da daxil olmaqla, 35 pedaqoq çalışır. Hər bir professorun fərdi iş otağı vardır. Burada ümumi iclas otağı və müsabiqə zalları da yaradılmışdır. Binanın üst qatında açıq havada müəllim və tələbələrin asudə vaxtlarının təşkili, o cümlədən müxtəlif tədbirlərin, ziyafətlərin keçirilməsi üçün istirahət guşəsi də yaradılmışdır.

Təhsil ocağının dördmərtəbəli kitabxana korpusu ilə tanışlıq zamanı prezident İlham Əliyevə məlumat verildi ki, Azərbaycanda ən böyük xarici dilli kitabxanaya malik olan Akademiyada ingilis dilində 120 min kitab vardır. Bu kitablar İngiltərənin «Blackwell Publishing» şirkəti tərəfindən gətirilmişdir. Kitabxanadan istifadə edən tələbələr elektron köşklər vasitəsilə istənilən ədəbiyyatı axtarıb sifariş edə bilirlər. Kitabxananın digər mühüm xüsusiyyəti burada 1 milyon elektron kitabın olmasıdır ki, bu da tələbələrə kompüterlər vasitəsilə kitabları elektron formatda oxumaq, üzünü köçürmək və çapa

vermək imkanı yaradır. Kitabxanada ayrıca oxu zalları, qrup şəklində dərsliklərdən istifadəyə şərait yaradan zallar və kafeteri də mövcuddur.

Azərbaycanın birinci xanımı Mehriban Əliyeva Akademiyanın kitabxanasına Heydər Əliyev Fondunun dəstəyi ilə nəşr olunan «Azərbaycan əcnəbilərin gözü ilə» kitabının 150 nüsxəsini hədiyyə etdi.

Sonra dövlətimizin başçısı və xanımı Akademiyanın Beynəlxalq Münasibətlər İnstitutunda yaradılan şəraitlə tanış oldular.

Məlumat verildi ki, burada auditoriyalar lazımi tədris avadanlığı ilə təchiz edilmişdir.

Prezident İlham Əliyev Tələbə Mərkəzi ilə tanış oldu.

Bildirildi ki, mərkəzin birinci mərtəbəsində 300 nəfərlik kafe və 300 nəfərlik iclas zalı fəaliyyət göstərir. İclas zalı yüksək keyfiyyətli audio və video çəkilişlərin aparılması məqsədilə müasir avadanlıqla təchiz olunmuşdur. Mərkəzdə Azərbaycan dövlətçiliyinin və diplomatiyasının tarixini əks etdirən zal, musiqi və rəsm dərnəklərinin keçirilməsi üçün ayrıca otaqlar vardır.

Prezident İlham Əliyev Azərbaycan Diplomatik Akademiyasının fəaliyyətini və yerləşdiyi ərazini əks etdirən stendlərə baxdı, təhsil ocağının əldə etdiyi nailiyyətlərlə tanış oldu. Kompleksin avtomatik idarəetmə mərkəzinə baxan dövlətimizin başçısının diqqətinə çatdırıldı ki, Akademiyanın bütün ərazisi videogörüntü vasitəsilə izlənir. Avtomatik idarəetmə sistemi vasitəsilə bütün kompleksin havalandırma sisteminə, avadanlığın işləməsinə nəzarət edən idarəetmə mexanizmi də qurulmuşdur.

* * *

*Akademiyanın yeni tədris kompleksi ilə tanışlıqdan sonra prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Azərbaycanın diplomatik xidmət orqanları rəhbərlərinin IV Müşavirəsində iştirak etdilər.*

*Müşavirəni Xarici İşlər naziri Elmar Məmmədyarov açdı:*

– Möhtərəm cənab Prezident!

İlk növbədə, mən Sizə hamının adından təşəkkürümüzü bildirmək istəyirəm ki, bu gün bu gözəl, möhtəşəm tədbirdə – Diplomatik Akademiyanın binasının açılışında iştirak edirsiniz. Bu doğrudan da bizim üçün böyük dəstəkdir.

Möhtərəm cənab Prezident!

Hörmətli müşavirə iştirakçıları!

Azərbaycan xalqının ulu öndəri Heydər Əliyev tərəfindən əsası qoyulmuş və bu gün də davam və inkişaf etdirilən uğurlu xarici siyasət strategiyası Azərbaycan Respublikasının beynəlxalq arenadakı nüfuzunun gündən-günə artması, dövlətimizin etibarlı tərəfdaş kimi tanınması, beynəlxalq təşkilatların fəal üzvü, habelə regionumuz və bütünlükdə beynəlxalq ictimaiyyət üçün əhəmiyyətli olan tədbir və layihələrin təşəbbüskarı olması ilə nəticələnməkdədir.

Əvvəlcə diplomatik xidmət orqanları rəhbərlərinin son müşavirəsindən sonrakı müddət ərzində Xarici İşlər Nazirliyi sisteminin fəaliyyəti barədə məlumat vermək istərdim.

Hazırda Azərbaycan Respublikasının xarici ölkələrdə 55 səfirliyi, 5 təmsilçilik ofisi, 18 beynəlxalq təşkilat yanında missiyası və 9 baş konsulluğu fəaliyyət göstərir. Respublikamızda isə 53 dövlətin səfirliyi, 3 baş konsulluq, 12 Fəxri konsulluq və 20 beynəlxalq təşkilatın nümayəndəliyi mövcuddur. Bütün bunlar milli maraqlarımızın həmin ölkələrdə təmin olunması və ölkəmizin hərtərəfli şəkildə təbliğatı üçün geniş imkanlar yaratmışdır. Belə ki, Braziliya, Argentina, Cənubi Afrika Respublikası, Serbiya, Liviya, Estoniya və Xorvatiyada yeni

səfirliklərimiz, Batumidə isə baş konsulluğumuz fəaliyyətə başlamışdır.

Azərbaycanda isə Macarıstan, Qətər, Birləşmiş Ərəb Əmirlikləri, Tacikistan, Qırğızıstan, Argentina, Braziliya, Çexiya, Mərakeş və Niderland Krallığının səfirlikləri, habelə bir sıra digər dövlətlərin Fəxri konsulluqları fəaliyyətə başlamışdır.

Azərbaycan Respublikasının beynəlxalq münasibətlər sistemində rolunun və etimadının əhəmiyyətli dərəcədə artması, dost və tərəfdaş dövlətlərlə əlaqələrin möhkəmləndirilməsi, habelə yeni diplomatik nümayəndəliklərin təsis edilməsi diplomatik xidmət orqanları əməkdaşları qarşısında yeni vəzifələr qoymuş və hədəfləri müəyyənləşdirmişdir.

Təbii olaraq, Ermənistan–Azərbaycan münaqişəsinin həlli hərtərəfli fəaliyyətimizin prioritet məsələsi olaraq qalmaqdadır. Ermənistan tərəfindən işğal olunmuş torpaqlarımızın azad edilməsi, aparılmış etnik təmizləmə siyasəti nəticəsində doğma yurd-yuvalarından qovulmuş qaçqın və məcburi köçkünlərimizin geri qaytarılması və ən əsası dövlətimizin suverenliyinin bərpası, ərazi bütövlüyünün təmin olunması xarici dövlətlərlə həm ikitərəfli, həm də çoxtərəfli formatda həyata keçirilən əməkdaşlıq zamanı gündəliyimizdə duran müstəsna əhəmiyyətli birinci məsələ olaraq qalmaqdadır.

Son bir neçə il ərzində Ermənistanın işğalçı siyasətinin ifşası və bu siyasətə güclü dəstək verən erməni lobbisinin mənfur və riyakar səylərinə qarşı fəaliyyətimiz gücləndirilməkdədir. Xalqımıza qarşı Ermənistanın hazırkı rəhbərliyinin bilavasitə iştirakı ilə həyata keçirilmiş Xocalı soyqırımının Meksika Birləşmiş Ştatları, Kolumbiya Respublikası və Pakistan İslam Respublikasının parlamentləri tərəfindən rəsmən tanınmasına nail olunmuşdur. Beynəlxalq ictimaiyyətin ermənilərin azərbaycanlılara qarşı törətdiyi vəhşiliklər barədə məlumatlandırılması və digər xarici ölkələrin qanunverici orqanları tərəfindən Xocalı soyqırımının tanınması istiqamətində fəaliyyətimiz davam etməkdədir.

2010-cu il sentyabrın 3-də Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında dövlət sərhədi haqqında müqavilə imzalanmışdır ki, bununla da 2 dövləti ayıran dövlət sərhəd xətti müəyyən olunmuşdur.

2011-ci il oktyabrın 24-də Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasına 2012–2013-cü illər üçün qeyri-daimi üzvlüyə keçirilən seçkilərdə Azərbaycan Respublikasının 17 raunddan sonra 155 ölkənin dəstəyini qazanaraq qalib gəlməsi həmin dövlətlər tərəfindən respublikamıza olan yüksək etimadın və inamın göstəricisidir. 20 illik müstəqilliyimiz dövründə beynəlxalq arenada belə böyük uğurun əldə edilməsi Azərbaycan dövlətinin başçısı tərəfindən müəyyən olunan və həyata keçirilən xarici və daxili siyasət kursunun nailiyyətidir. Azərbaycan Cənubi Qafqaz və Mərkəzi Asiya ölkələri arasında bu mötəbər quruma qeyri-daimi üzv seçilən ilk, bütün MDB məkanında isə 2-ci ölkədir. Onu qeyd etmək istəyirəm ki, MDB ölkələrindən Ukrayna bizdən əvvəl seçilmişdi, amma Ukrayna hələ 1945-ci ildən BMT-nin üzvüdür.

2012-ci ilin may ayında Təhlükəsizlik Şurasında Azərbaycan Respublikası Prezidentinin sədrliyi ilə terrorizmlə mübarizəyə həsr olunmuş yüksək səviyyəli iclas keçirilmişdir. Belə bir mötəbər quruma üzvlük Azərbaycanın beynəlxalq nüfuzunun daha da gücləndirilməsi üçün böyük imkanlar yaratmışdır.

Həmçinin Azərbaycan 2011-ci ildə YUNESKO-nun 36-cı sessiyası zamanı təşkilatın bir neçə alt qurumlarına üzv seçilməyə və yüksək vəzifələr tutulmasına nail olmuşdur.

Azərbaycan Respublikası 2011-ci ildə İndoneziyanın Bali şəhərində keçirilmiş «Qoşulmama Hərəkatı»nın 16-cı Nazirlər Konfransında hərəkatın üzvü seçilmişdir. Üzvlərinin sayına görə Birləşmiş Millətlər Təşkilatından sonra 2-ci beynəlxalq qurum olan «Qoşulmama Hərəkatı»nda aparılan uğurlu fəaliyyət nəticəsində 2012-ci il avqustun 30–31-də Tehran şəhərində keçirilmiş və Azərbaycanın ilk dəfə üzv dövlət kimi iştirak etdiyi zirvə toplantısının yekun sənədinə üzv ölkələrin dövlət və hökumət başçılarının Ermənistan–Azərbaycan münaqişəsinin

Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində həllini dəstəkləyən bənd daxil olunmuşdur.

İslam Əməkdaşlıq Təşkilatı ilə yüksək səviyyədə qurulmuş əməkdaşlıq davam etdirilmişdir. Bu təşkilat çərçivəsində Ermənistanın Azərbaycana qarşı təcavüzünün aradan qaldırılması, suverenliyimizin bərpa olunması ərazi bütövlüyümüzün və sərhədlərimizin toxunulmazlığının təmin edilməsi ilə bağlı ədalətli mövqemiz bir daha bütün üzv ölkələr tərəfindən dəstəklənmiş və bu yöndə bir sıra sənədlər yekdilliklə qəbul edilmişdir.

Diplomatik fəaliyyətin genişləndirilməsi çərçivəsində Latın Amerikası və Asiya ölkələri ilə yüksək səviyyəli münasibətlər qurulmuşdur. Yaxın zamanlarda, cənab Prezident, Azərbaycan Respublikasının Avstraliya İttifaqında səfirliyi fəaliyyətə başlayacaqdır.

Möhtərəm cənab Prezident!

Sizin göstərdiyiniz yüksək diqqət və qayğı ilə əhatə olunmuş diplomatik xidmət orqanlarının əməkdaşları öz şərəfli vəzifələrinin məsuliyyətini dərk edirlər. Əmin ola bilərsiniz ki, dövlətimizin milli maraqlarının təmin olunması məqsədini güdən xarici siyasət kursunun həyata keçirilməsi ilə əlaqədar verdiyiniz tapşırıqların icrasının layiqincə təmin edilməsi üçün diplomatik xidmət orqanlarının əməkdaşları səy və bacarıqlarını əsirgəməyəcəkdir.

Diqqətinizə görə təşəkkür edirəm.

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müşavirədə nitq söylədi:*

– Hörmətli səfirlər!

Xanımlar və cənablar!

Əziz qonaqlar!

Bu gün ölkəmizin tarixində çox gözəl və əlamətdar bir gündür. Diplomatik Akademiyanın yeni binasının açılışını qeyd edirik. Eyni zamanda, ənənəvi olaraq səfirlərlə müşavirəni açırıq.

Diplomatik Akademiyanın yaradılması ölkəmizin tarixində çox əlamətdar bir hadisə idi. Çox şadam ki, qısa müddət ərzində Akademiya sürətlə inkişaf etmiş, ölkədə, regionda və dünyada böyük nüfuz qazanmışdır. Bu gün peşəkar kadrların hazırlanması işində Akademiyanın fəaliyyəti gözəgörünəndir. Əminəm ki, gələcək illərdə Akademiya öz fəaliyyətini daha da genişləndirəcəkdir. Bu gün biz Akademiyanın rektoru ilə bu barədə söhbət etdik.

Akademiya üçün gözəl bina tikilmişdir. Deyə bilərəm ki, son illər təhsil sahəsində tikilən binaların içində öz gözəlliyi, dizaynı, funksional tərəfləri ilə seçilən bir binadır. Burada oxumaq, çalışmaq üçün bütün şərait vardır. Əminəm ki, burada oxuyan və oxuyacaq gənclər gələcəkdə Azərbaycanın milli maraqlarını şərəflə müdafiə edəcəklər.

Akademiyanın inkişafı ilə bağlı yeni təkliflər, yeni planlar vardır. Hesab edirəm ki, bu bazada Akademiyanın fəaliyyətini, istiqamətlərini, çoxşaxəli funksiyalarını daha da genişləndirməliyik.

Təsadüfi deyildir ki, səfirlərlə ənənəvi müşavirə məhz yeni binada keçirilir. Bu binada birinci tədbir bu mövzu ilə bağlıdır. Bu da təbiidir. Çünki Azərbaycanın xarici siyasəti çox çevikdir, dinamikdir, sürətlə inkişaf edəndir və ölkəmizə böyük uğurlar gətirən xarici siyasətdir.

Səfirlərlə mənim təmaslarım mütəmadi xarakter daşıyır. Həm onları yeni vəzifəyə təyin edəndə görüşürük, həm vaxtaşırı görüşürük, həm də Xarici İşlər Nazirliyi vasitəsilə bütün müvafiq göstərişlər, tapşırıqlar verilir. Bir sözlə, indi səfirliklərimizin sayı sürətlə artmaqdadır. Əlbəttə, bu bizim xarici siyasətdəki uğurumuzu şərtləndirən amillərdən biridir. Gələcəkdə biz diplomatik nümayəndəliklərin sayını artıracağıq ki, Azərbaycan öz maraqlarını daha da böyük uğurla müdafiə edə bilsin.

Səfirlər peşəkar diplomatdırlar. Onların arasında gənclər də kifayət qədər çoxdur, təcrübəli diplomatlar da vardır. Onlar öz vəzifə borclarını yaxşı bilirlər və hesab edirəm ki, bütövlükdə öz vəzifə borclarını yaxşı yerinə yetirirlər. Səfirlərin qarşısında duran vəzifələr bəllidir, aydındır. Ancaq yenə də deyirəm, həyat sürətlə inkişaf edir, beynəlxalq münasibətlər dəyişir və beynəlxalq aləmdə yeni məsələlər, yeni çağırışlar ortaya çıxır. Əlbəttə ki, biz xarici siyasətimizə mütəmadi qaydada müəyyən düzəlişlər etməliyik. Nəzərə almalıyıq ki, strateji xəttimiz dəyişməz olaraq qalır. Azərbaycanın xarici siyasətinin istiqamətlərini ulu öndər Heydər Əliyev müəyyən etmişdir. Bu gün bu sahədə və bütün başqa sahələrdə strateji xətt icra edilir.

Xarici siyasətlə bağlı ölkə qarşısında duran əsas vəzifə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsidir. Bu nəinki xarici siyasətdə, ümumiyyətlə, ölkə qarşısında duran əsas məsələdir. Bildiyiniz kimi, məsələ uzun illərdir öz həllini tapmır, ədalət, beynəlxalq hüquq normaları pozulur və bu ədalətsizlik davam edir. Azərbaycan bu məsələnin həlli üçün bütün imkanlardan istifadə edir və etməlidir. Diplomatik səylər gücləndirilməlidir və gücləndirilir. Digər amillər də bu məsələnin həlli üçün öz rolunu oynamalıdır və bu istiqamətdə önəmli addımlar atılır.

Əgər müstəqillik dövrünə nəzər salsaq görərik ki, bu 20 il ərzində Ermənistan ilə Azərbaycan arasındakı fərq, yəni uçurum daha da böyük olmuşdur. Növbəti illərdə bu fərq yalnız və

yalnız böyüyəcək və Azərbaycanın üstünlükləri daha da görünəcəkdir.

Diplomatik səylər davam etdirilir. Səfirliklərin bu istiqamətdə fəaliyyəti məqsədyönlüdür. Dünyadakı dostlarımızın, dost ölkələrin sayı artmaqdadır. Beynəlxalq təşkilatlarda Dağlıq Qarabağ məsələsinə dair ədalətli, yəni maraqlarımızı təmin edən qətnamələr kifayət qədər qəbul edilmişdir. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi, ATƏT-in qərarları, digər beynəlxalq təşkilatların – İslam Əməkdaşlıq Təşkilatının, Avropa Parlamentinin, Avropa Şurasının, «Qoşulmama Hərəkatı»nın qətnamələri, NATO-nun qərarları, yəni hüquqi baza kifayət qədər genişdir, möhkəmdir və sarsılmazdır. Münaqişənin həlli üçün ilk növbədə hüquqi baza möhkəm olmalıdır. Bu məsələ ilə bağlı Ermənistanın mövqeləri çox zəifdir, bizim mövqelərimiz isə çox güclüdür.

Mən məsələnin tarixi aspekti haqqında dəfələrlə fikirlərimi bildirmişəm, müvafiq göstərişlər vermişəm, o cümlədən bizim alimlərə ki, məsələnin tarixi aspektinə dair tutarlı arqumentlərlə zəngin yeni kitablar dərc edilsin. Bu istiqamətdə də işlər gedir və araşdırmalarımız, əsərlərimiz həqiqəti əks etdirir, yəni tarixi həqiqət üzərində qurulmuşdur. Məsələnin tarixi aspekti də çox önəmlidir. Çünki uzun illər ermənilər öz lobbi qurumları vasitəsilə dünyada belə bir rəy formalaşdırmağa çalışırlar ki, Dağlıq Qarabağ qədim erməni torpağıdır və erməni xalqı əsrlər boyu bu torpaqda yaşamışdır. Bunlar tamamilə yalan, təhrif edilmiş məlumatlardır. Hazırda biz bu yalanları ifşa etməklə, həqiqətləri ortaya qoymaqla, eyni zamanda, münaqişənin həlli üçün tarixi bazanı da möhkəmləndiririk.

Bildiyiniz kimi, Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Dağlıq Qarabağın ərazisində yerləşən bütün yaşayış məntəqələrinin toponimləri Azərbaycan mənşəlidir. Nəinki Dağlıq Qarabağ, indiki Ermənistanın toponimlərinin mütləq əksəriyyəti Azərbaycan mənşəlidir. Xalqımız əsrlər boyu bu torpaqda yaşamış, yaratmış və bundan sonra da bu torpaqda yaşamalıdır. Biz bunu təmin edəcəyik.

Məsələnin digər tərəfləri də münaqişənin həlli üçün böyük əhəmiyyət kəsb edir. Xüsusilə iqtisadi məsələlər. Bu gün Ermənistan ilə Azərbaycan arasında fərq kifayət qədər böyükdür. Bizim iqtisadiyyat müqayisəedilməz dərəcədə irəliyə gedibdir. Təkcə hərbi xərclərimiz Ermənistanın bütün büdcəsindən 2 dəfə çoxdur. İqtisadi imkanlarımız genişlənir. İqtisadi tərəfdaşlarımızın sayı artmaqdadır, ixrac potensialımız artır. İqtisadiyyat artıq çoxşaxəli iqtisadiyyatdır və bu ilin 6 ayının yekunları – 9 ayın yekunları bu yaxınlarda bəlli olacaqdır – göstərir ki, qeyri-neft sektorunda artım 10 faizdən çoxdur.

Biz istədiyimizə nail ola bilmişik. Enerji resurslarımızdan səmərəli şəkildə istifadə etməklə iqtisadiyyatımızı şaxələndirmişik və bu gün qeyri-neft iqtisadiyyatı uğurla inkişaf edir. Ermənistan isə iqtisadi cəhətdən çıxılmaz vəziyyətdədir. Xarici yardımlar, kreditlər, diasporun ianələri olmasa, Ermənistan iqtisadiyyatı tamamilə çökəcəkdir. Bu yaxınlarda onların hətta rəsmi statistik məlumatlarına görə Ermənistanın ixrac nomenklaturası bəlli oldu və orada çox gülməli ixrac məhsulları üzə çıxdı. Yəni qurbağalar – bəlkə bu auditoriyada bu barədə danışmaq yersiz olar – amma bu reallıqdır. Yəni bu ölkənin daxili resursları tükənir. İqtisadiyyat çökür, sənaye iflic vəziyyətindədir. Demoqrafik vəziyyət acınacaqlıdır. Ölkədən hər il 100 minə qədər əhali köçür və bu proses davam edir. Bu prosesin qarşısını almaq artıq mümkün deyildir, o vaxta qədər ki, Ermənistan öz qonşularına qarşı torpaq iddiasında olmağa davam edəcəkdir.

Biz isə uğurla inkişaf edirik. Azərbaycanın dünyadakı nüfuzu artır. BMT Təhlükəsizlik Şurasına seçilməyimiz tarixi qələbəmizdir, nəinki diplomatiyada, ümumiyyətlə, deyə bilərəm ki, tarixdə ən böyük siyasi və diplomatik qələbədir. Müstəqilliyin 20 illiyinə təsadüf edən bu qələbə ölkəmizin uğurlu inkişafını göstərir. Eyni zamanda, onu göstərir ki, biz erməni lobbisi tərəfindən Azərbaycan haqqında yanlış rəyin formalaşdırılmasında ermənilərə böyük zərbə vura bilmişik. Beləliklə, biz o rəyi dəyişdirə bilmişik və bu gün 155 ölkə Azərbaycanı

dəstəkləyir. Biz Təhlükəsizlik Şurasına üzv seçilən zaman mən demişəm ki, ədaləti, beynəlxalq hüququ müdafiə edəcəyik və ilk günlərdən bu prinsiplərə sadiqik. Bu gün mənim həmkarlarımla keçirilən görüşlərdə daim bu mövzu haqqında fikir mübadiləsi aparılır. Azərbaycanın ədalətli, cəsarətli mövqeyi daim vurğulanır.

Təhlükəsizlik Şurasında olmağımız bizə imkan verəcəkdir ki, dünyada özümüz haqqında daha da dolğun məlumat verək, özümüzü gənc, dinamik, müasir, inkişafda olan ölkə kimi təqdim edək. Əlbəttə, Ermənistan bu qələbələr qarşısında acizdir, əslində öz məğlubiyyətini etiraf edir. Çünki diplomatlar yaxşı bilirlər ki, Ermənistan da Təhlükəsizlik Şurasına üzv olmaq üçün müraciət etmişdi. Ancaq ondan sonra götür-qoy etdi və anladı ki, onları çox acı və biabırçı məğlubiyyət gözləyir. Çünki Azərbaycan daha böyük mövqelərə malikdir. Ermənistan sakitcə bu yarışdan çəkildi. Bütün başqa yarışlardan da çəkilmək zorundadır. Yəni bizimlə rəqabət aparmaq iqtidarında deyil. Biz gücümüzü artıracağıq. Yenə də deyirəm, tarixi, hüquqi, iqtisadi amillər bizim mövqemizi möhkəmləndirir. Bizimlə dost olmaq istəyən ölkələrin sayı artmaqdadır. Mən bu işdə səfirliklərin rolunu yüksək qiymətləndirirəm. Çünki biz xüsusilə son bir neçə ildə ikitərəfli formatda böyük irəliləyişə nail ola bilmişik.

Demoqrafik vəziyyət gələcəkdə çox şeyi müəyyən edəcəkdir. Bu amil nədənsə o qədər də nəzərə alınmırdı. Ancaq biz görürük ki, ölkələrin imkanları da, nüfuzu da, təsir gücü də bir çox hallarda əhalidən, onun sayından asılıdır. Bizdə bu dinamika müsbətdir. Nazirlər Kabinetinin toplantısında mən bu məsələ ilə bağlı öz fikirlərimi bildirmişəm. Biz elə etməliyik ki, Azərbaycan əhalisi daha sürətlə artsın. Əgər Ermənistan rəhbərliyində reallığı dərk edən adamlar hələ qalıbsa, anlamalıdırlar ki, Azərbaycan ilə qısamüddətli və uzunmüddətli rəqabətdə onları yalnız məğlubiyyət gözləyir. Əgər onlar danışıqlar masasında olan varianta razılıq verərlərsə və işğal edilmiş torpaqlardan qoşunlarını çıxararlarsa, o zaman öz xalqının

gələcəyini təmin etmiş olarlar. Çünki onları gələcəkdə böyük təhlükələr gözləyir. Dünya dəyişir, bölgədə gedən proseslər sizə bəllidir. İstisna edilmir ki, vaxt gələcək və hər bir ölkə təkbaşına öz maraqlarını müdafiə etmək zorunda qalacaqdır. Azərbaycan buna hazırdır.

Onsuz da biz 20 il ərzində təkbaşına mübarizə aparırıq. Bəzi hallarda bizdən qat-qat böyük qüvvələr qarşısında öz maraqlarımızı təmin edirik, heç kimin qarşısından geri çəkilmirik.

Regionda baş verən bəzi son hadisələr onu göstərir ki, bizim maraqlarımızı nəzərə almadan bölgədə siyasi təşəbbüslər icra edilə bilməz. Biz ən böyük sınaqlardan üzüağ çıxmışıq. Hətta bizim mövqemizi, necə deyərlər, bölüşməyən və əks mövqedə olan böyük qüvvələr vahid bir mövqe nümayiş etdirərkən, Azərbaycanın mövqeyi imkan vermədi ki, bölgədə bizim maraqlarımıza zidd olan hər hansı bir hadisə baş versin. Yəni biz təkbaşına mübarizəyə nəinki hazırıq, bu mübarizəni aparırıq, özümüzü dünyada təsdiq edirik, gələcəyimizi özümüz müəyyən edirik. Ermənistan isə aydın məsələdir ki, xarici yardım olmadan, ümumiyyətlə, heç bir gələcəyi olmayan ölkədir. Regionda gedən proseslər, bir daha demək istəyirəm, o vəziyyətə gətirib çıxara bilər ki, Ermənistan seçim qarşısında o qədər də böyük seçimə malik olmayacaqdır. Ona görə onların xeyrinədir ki, əsassız iddialardan əl çəksinlər, özlərinə məxsus olmayan torpaqlardan çıxsınlar. O zaman bölgədə sülh, əməkdaşlıq yaranar. O zaman Ermənistan da regional məsələlərə qoşula bilər.

Biz bölgədə söz sahibiyik və bundan sonra mövqemiz daha da möhkəm olacaqdır. Heç vaxt imkan verə bilmərik ki, Ermənistan hər hansı bir siyasi, iqtisadi, enerji, nəqliyyat layihəsinə qoşulsun. Biz onları təcrid etmişik, bunu gizlətmirik. Gələcəkdə təcridetmə siyasətimiz davam etdirilməlidir. Bu öz bəhrəsini verir. Əgər məsələni sülh yolu ilə həll etmək üçün bizə daim mesajlar göndərən tərəfdaşlar doğrudan da istəyirlər ki, bölgədə sülh olsun, o zaman Ermənistan işğal edilmiş torpaqlardan çıxmalıdır. Çünki əks-təqdirdə məsələnin başqa yolla həll edilməsi istisna deyildir. Biz bunu heç vaxt istisna etməmişik. Beynəlxalq hüquq bu haqqı bizə verir. Sadəcə olaraq,

Azərbaycanın sülhsevər siyasəti, bölgədə gedən proseslərə artan məsuliyyəti və Azərbaycanın bölgədə artıq sabitləşdirici amil kimi çıxış etməsi bizi bu radikal addımlardan hələ ki, çəkindirir. Ona görə məsələnin tezliklə həlli hər 2 tərəfin marağında olmalıdır.

Biz istəyirik ki, məsələ həll olunsun. İstəyirik ki, bölgədə sülh olsun. Bunu vasitəçilər də istəyir. Bununla bərabər, biz torpaqlarımızı geri istəyirik. Fərq bundan ibarətdir. Nəyin bahasına olursa-olsun, «sülh olsun» yanaşmasını biz qəbul etmirik. Yəni məsələnin dondurulması mümkün deyil. Ermənistan istəyir ki, məsələ dondurulsun, status-kvo pozulmasın, danışıqlar aparılsın, amma heç bir nəticə əldə edilməsin.

Danışıqlar prosesində bir neçə dəfə hesab edirdik ki, biz artıq razılaşmaya yaxınıq. Ermənistanın riyakar mövqeyi, yalançı vədləri imkan vermədi ki, biz razılaşmaya nail olaq. Bu bizim üçün sirr deyil, Ermənistan çalışır ki, məsələni dondursun, nə qədər mümkünsə məsələni uzatsın. Həmsədr ölkələrin prezidentlərinin bəyanatları bizi ruhlandırır ki, status-kvo qəbuledilməzdir, dəyişdirilməlidir. Ancaq bu bəyanatlardan sonra biz konkret addımlar gözləyirdik. Biz gözləyirdik ki, nəhayət, işğalçıya çox ciddi siqnallar veriləcək ki, daha bəsdir, bu torpaqdan çıxmasan , Azərbaycan məsələni başqa yolla həll edəcəkdir.

Ona görə daim məsələnin sülh yolu ilə həll edilməsi prioriteti səslənəndə bu, Ermənistana yanlış mesaj göndərir ki, siz narahat olmayın, sülh yolu ilə həll olunacaqdır. Buna görə bu məsələni uzada bilərsiniz. Bu, yanlış yanaşmadır. Mən dəfələrlə bizim tərəfdaşlara bu barədə fikirlərimizi demişəm. Biz də sülh istəyirik, amma bir daha demək istəyirəm ki, ilk növbədə, vətəndaşlarımız işğal edilmiş torpaqlara qayıtmalıdır. Bu məsələ, yenə qeyd edirəm ki, bizim üçün əsasdır, milli məsələdir və bundan sonra da biz səylərimizi gücləndirəcəyik. Biz düzgün yoldayıq. Biz hər gün qələbəni yaxınlaşdırırıq. Qələbənin yaxınlaşdırılması üçün hər bir Azərbaycan vətəndaşı, xüsusilə diplomatik fəaliyyətlə məşğul olanlar hər gün fəal çalışmalıdırlar.

Xarici siyasətlə bağlı digər mühüm vəzifə – o da bu məsələ ilə bilavasitə bağlı olan məsələdir – Xocalı soyqırımını dünyada

tanıtdırmaqdır. Mən hesab edirəm ki, biz bu istiqamətdə çox uğurlu siyasət aparmışıq və qısa müddət ərzində 3 ölkənin parlamenti Xocalı qırğınını soyqırımı kimi qəbul edib. Başqa ölkələrdə Xocalı abidələri ucaldılır. Ermənilər keçən əsrin 50-ci illərindən başlayaraq və əlbəttə ki, diaspor qurumlarının gücü ilə müxtəlif ölkələrdə dırnaqarası erməni soyqırımı məsələsini qaldırmışlar və bəzi ölkələr bunu qəbul edib. Ancaq biz bu məsələ ilə bir neçə ildir ki, məşğul oluruq və artıq gözəl nəticələr vardır. Ona görə mən hesab edirəm ki, bu siyasət davam etdirilməlidir. Bizim səfirlər, səfirliklərin nümayəndələri bu məsələni harada mümkündür qaldırmalıdırlar. Onların, səfirliklərin çalışdıqları ölkələrin qanunvericilik orqanlarında Xocalı soyqırımı məsələsi qaldırılmalıdır. Çalışmalıyıq ki, soyqırımı müxtəlif səviyyələrdə tanınsın. Biz istər regional, istər munisipal səviyyədə – əlbəttə ki, federal səviyyədə olarsa daha yaxşı olar – bu işi daim aparmalıyıq. Əldə edilmiş nəticələrsə, bizi ruhlandırır, göstərir ki, bu mümkündür.

Ümumiyyətlə, ölkəmizin dinamik inkişafı və artıq dünyada Azərbaycan haqqında çox müsbət rəyin formalaşması göstərir ki, çox şey mümkündür. Sadəcə olaraq, işləmək lazımdır, konkret proqram olmalıdır, tapşırıqlar verilməlidir və icra edilməlidir. Ona görə əminəm ki, gələcəkdə Meksikaya, Pakistana, Kolumbiyaya digər ölkələr də qoşulacaq və Xocalı soyqırımı digər ölkələr tərəfindən də tanınacaqdır. Vaxt gələcək bu soyqırımını törədənlər qanun qarşısında cavab verəcəklər. Xarici siyasətlə bağlı vəzifələr, yenə də deyirəm, səfirlərə bəllidir, aydındır. Bir neçə məsələ haqqında fikirlərimi bir daha demək istəyirəm – biz ikitərəfli formatı gücləndirməliyik. İkitərəfli format bizə böyük uğurlar gətirir. Xüsusilə nəzərə alsaq ki, Azərbaycan ilə daha da sıx münasibətlər qurmaq istəyən ölkələrin sayı artır, bizim xarici diplomatiyamız çox fəaldır. Mənim çoxsaylı xarici səfərlərim bu gözəl bazanı möhkəmləndirir və ölkəmizə mənim həmkarlarımın səfərləri və aparılan danışıqlar ikitərəfli formatı gücləndirir. Yəni bizim xarici siyasətdəki əsas istiqamətimiz ikitərəfli əlaqələrdir. Deyə bilərəm ki, ikitərəfli əlaqələrdə tərəfdaş ölkələrin böyüklü-

yündən-kiçikliyindən asılı olmayaraq, biz bərabərhüquqlu münasibətlər formalaşdıra bilmişik. Bu çox vacibdir.

Bu belə də olmalıdır. Çünki ikitərəfli formatda bərabərhüquqlu münasibətlər yeganə mümkün olan münasibətlərdir. Bizim yanaşmamız ondan ibarətdir ki, siyasətimiz xoşniyyətlidir, əməkdaşlığa, bütün sahələrdə əməkdaşlığın dərinləşməsinə yönəldilibdir. Əlbəttə ki, bu münasibətlər qarşılıqlı hörmət, qarşılıqlı maraqlar və bir-birinin işinə qarışmamaq prinsipləri əsasında qurulmalıdır. Deyə bilərəm ki, bütün ölkələrlə – bunu diplomatlar bilir, ictimaiyyət də bilsin – münasibətlərimiz bu müstəvidə qurulubdur. Ona görə gələcəkdə səfirliklərin sayı artacaq və beləliklə, ikitərəfli format daha da geniş olacaqdır. BMT Təhlükəsizlik Şurasındakı səsvermədə bizi dəstəkləyən 155 ölkə ilə, əlbəttə ki, daha da fəal əlaqələr qurmalıyıq. Deyə bilərəm ki, 155 ölkənin heç də hər biri ilə bizim fəal münasibətlərimiz yoxdur, yəni onların bizə dəstək verməsi bir avans idi, biz indi bu münasibətləri möhkəmləndirməliyik.

«Qoşulmama Hərəkatı»nda fəaliyyətimiz daha da fəal olacaqdır. Biz bu təşkilata təzə üzv olmuşuq və əgər «Qoşulmama Hərəkatı»nın qətnaməsinə 120 ölkənin dəstəyini, NATO kimi mötəbər təşkilatın qətnaməsini nəzərə alsaq – orada da münaqişənin həlli ərazi bütövlüyü prinsipləri əsasında nəzərdə tutulubdur – görərik ki, dünya birliyinin ən azı dörddə üç hissəsi münaqişənin həllini ərazi bütövlüyü və yalnız ərazi bütövlüyü prinsipləri əsasında görür.

Biz ikitərəfli formatda iqtisadi mövzuları artıq daha da qabağa çəkməliyik. Azərbaycan indi öz investisiya siyasətində düzəlişlər edir. Biz indi xaricə investisiyalar qoymağa başlamışıq. Əlbəttə, bu proses region ölkələrindən başlanmışdır. Ancaq bizim investisiyalara dünyada tələbat artır. Xüsusilə böhrana düçar olmuş ölkələrin maliyyə resurslarına böyük ehtiyacı vardır. Biz bu maliyyə resurslarını məqbul olan şərtlərlə təqdim edə bilərik. Beləliklə, investisiyalar, kreditlər və iqtisadi sahədə yeni formalar artıq tətbiq edilir. Səfirlər də bu

sahədə daha fəal olmalıdırlar. Biz Azərbaycan şirkətlərinin xaricdəki fəaliyyətini stimullaşdırırıq. Sahibkarlarla keçirdiyim son müşavirədə bu məsələ ilə bağlı konkret tapşırıqlar vermişəm, təkrar etmək istəmirəm. Ancaq Azərbaycan şirkətləri – istər dövlət, istər özəl investor və podratçı kontraktor kimi xarici bazarlara çıxmalıdır. Səfirlər də Azərbaycan şirkətlərinin fəaliyyətini təmin etməlidirlər. Bu belə olmalıdır. İnkişaf etmiş ölkələr daim öz şirkətlərinə başqa ölkələrdə yaxşı vəziyyətin yaradılması üçün səylər göstərir. Biz də bu yolla getməliyik və gedirik. Ona görə iqtisadi istiqamət nisbətən yeni bir istiqamətdir və səfirlər buna daim diqqət göstərməlidirlər.

Azərbaycanın diaspor təşkilatlarının sayı artır, onların fəaliyyətinin keyfiyyəti yüksəlir. Dünyada vaxtaşırı keçirilən nümayişlər, etiraz piketləri, tədbirlər, konfranslar göstərir ki, biz doğrudan da güclü diaspor təşkilatları yarada bilmişik və səfirliklər də diaspor təşkilatları ilə sıx əlaqədə olmalıdırlar. Əksər hallarda bu belədir, istərdim ki, hər bir yerdə belə olsun. Çünki bu bizim gücümüzü daha da artırır, xaricdə yaşayan azərbaycanlıları öz Vətəninə daha da bağlayır. Bir tərəfdən, biz xaricdə yaşayan azərbaycanlılara daha da böyük dəstək göstəririk. Digər tərəfdən, onlar da bilirlər ki, onların arxasında güclü Azərbaycan dövləti vardır. Bizim üçün diaspor təşkilatlarının fəaliyyəti, xüsusilə Ermənistan–Azərbaycan məsələsi ilə bağlı çox önəmlidir. Bu istiqamət daim diqqət mərkəzində olmalıdır.

Əlbəttə, səfirlərimiz dövlət orqanlarının nümayəndələri ilə sıx əlaqədə olmalıdırlar, çalışdıqları ölkələrin nazirlikləri ilə əlaqədə olmalıdırlar. Bununla bərabər, hesab edirəm ki, qeyri-hökumət təşkilatları ilə əlaqələr daha da fəal olmalıdır. Bu, yaddan çıxmamalıdır. Media ilə əlaqələr daha fəal qurulmalıdır. Hələ ki, erməni lobbisinin təhriki ilə hərdənbir Azərbaycana qarşı əsassız ittihamlar səslənir. Biz bilirik bu haradan qaynaqlanır. Əlbəttə ki, bu cür çirkin yazıların birinci mənbəyi erməni lobbisidir. Çünki erməni lobbisi, dünya erməniliyi Azərbaycanı 1 nömrəli hədəf kimi seçib. Bu reallıqdır, belədir.

Çünki başa düşürlər ki, onlar üçün 1 nömrəli təhlükə məhz Azərbaycandır.

Bizim üçün də erməni lobbisi ən böyük düşməndir. Mən yenə də bildirmək istəyirəm ki, bunu deməkdən çəkinmirəm. Çünki bu reallıqdır, həqiqətdir. Onların, necə deyərlər, çirkli pulları bəzi siyasətçiləri, bəzi ictimai xadimləri bu qəbuledilməz yola təhrik edir. Biz bunlara qarşı daim mübarizə aparmalıyıq. Azərbaycana qarşı yanlış məlumatlarla dolu yazıların ikinci səbəbi isə ölkəmizin müstəqil siyasətidir. Müstəqil siyasət heç də hər kəsin xoşuna gəlmir. Biz qarşıya vəzifə qoymuşuq ki, müstəqil siyasəti gücləndirək, Azərbaycan xalqının maraqlarını təmin edək. Bəzi hallarda bizi hansısa məsələyə yönəltmək, hansısa məsələdə mövqemizi yumşaltmaq naminə müəyyən dairələr bizə qarşı kampaniya şəklində hücumlar edir. Biz bunu «Eurovision» ərəfəsində də, ondan əvvəlki dövrdə də görmüşük. Ancaq həqiqət ondan ibarətdir ki, bu kampaniyaların heç bir təsiri yoxdur. Azərbaycan dövlətinin iradəsinə, siyasətinə heç kim kənardan təsir edə bilməz. Bizim müstəqillik tariximiz bunu artıq dəfələrlə göstərmişdir. Bütün bu səylər əbəsdir. Onların heç birinin bizim siyasətimizə təsiri olmayacaqdır. Ancaq bununla bərabər, əlbəttə ki, bu dairələr ölkəmiz haqqında müsbət imicə ləkə vurmaq istəyir. Ona görə səfirlərimiz, səfirliklərin nümayəndələri daim bu mətbu orqanları ilə əlaqədə olmalı, onların yanlış siyasətini onlara bildirməlidir. Bəzi hallarda bilməyərəkdən belə yazılar dərc edilir. Yəni xarici media ilə münasibətlər daha da fəal olmalıdır və ölkə haqqında daha da dolğun məlumatlar verilməlidir – Azərbaycan necə inkişaf edir, Azərbaycanda iqtisadi, sosial məsələlər necə həll olunur, azadlıqlar necə təmin edilir. Çünki bəzi hallarda mənim qəbuluma gələn xarici qonaqlar da mən onlara izah edəndə təəccüb edirlər ki, Azərbaycanda azad internet vardır?! Heç də hər bir ölkədə azad internet yoxdur. İndi məsəl üçün, bəzi ölkələr interneti məhdudlaşdırmaq, yaxud da ki, senzura tətbiq etmək haqqında fikirləşirlər. Bizdə azad internet var. İndi bizdə internetdən istifadə edənlərin sayı 65 faizə çatıbdır. Yəni

mətbuatı necə məhdudlaşdıra bilərik ki, bizdə internet azaddır və istifadəçilərin sayı artır. Bizdə bütün media azaddır. Sərbəst toplaşmaq azadlığı tam təmin edilir. Hər bir siyasi qüvvə getsin müəyyən edilmiş yerlərdə öz tədbirlərini keçirsin. Yaxın keçmişdə belə hadisələr olubdur. Sadəcə olaraq, bu tədbirlərə heç kim gəlmir. Onun üçün bəzi siyasi qüvvələr Fəvvarələr meydanında, yaxud da ki, başqa mərkəzi yerlərdə bu nümayişləri keçirmək istəyirlər ki, hər hansı bir telviziya kanalı gəlsin bunu çəksin və göstərsin. Biz bunu da bilirik.

Çünki bizim ölkəmizdə bütün azadlıqlar vardır. Yəni vicdan azadlığı. Bəzi ölkələr Azərbaycandan ibrət götürməlidir. O ölkələr ki, islamofobiya meyillərini süni şəkildə gücləndirir, gəlib bizdən öyrənsin ki, dinlərarası münasibətlər necə qurulmalıdır. Biz bunu təcrübə naminə etmirik. Bu bizim həyat tərzimizdir. Amma belə olmalıdır. Bizdə necədirsə, bax, belə olmalıdır. Dini, milli zəmində heç vaxt nəinki qarşıdurma, heç bir anlaşılmazlıq da ola bilməz. Biz buna imkan verməri k. Ona görə vicdan azadlığı tam şəkildə təmin edilibdir. Siyasi fəaliyyətlə bağlı heç bir məhdudiyyət yoxdur. Azərbaycanda azad cəmiyyət vardır. Azərbaycana gələn xarici nümayəndələr, əgər qərəzsizdirlərsə, bunu görürlər. Bu həqiqətlər ölkələrin ictimaiyyətinə çatdırılmalıdır ki, Azərbaycan haqqında dolğun məlumat verilsin. Hesab edirəm ki, bu istiqamətdə hələ görüləsi işlər çoxdur.

Xarici siyasətlə bağlı bizim kifayət qədər açıq siyasətimiz vardır. Beynəlxalq təşkilatlarda üzvlüyümüzə və fəaliyyətimizə gəldikdə, bu sahədə də ictimaiyyət üçün açıq olmayan heç bir məqam yoxdur. Biz üzv olduğumuz bütün təşkilatlarda fəal iştirak edirik, maraqlarımızı qoruyuruq və götürdüyümüz öhdəlikləri yerinə yetiririk. Üzv olmadığımız təşkilatlar qarşısında bizim heç bir öhdəliyimiz də ola bilməz. Bu aksiomdur. Çünki əgər o təşkilatın üzvü deyiliksə, biz hansısa öhdəliyi necə götürə bilərik?! Heç bir təşkilat, heç bir beynəlxalq təşkilat bizə qarşı hansısa şərt qoya bilməz. Çünki bu qəbuledilməzdir. Biz bunu qəbul etmirik. İkitərəfli təmaslarda mən şəxsən öz fikirlərimi çox açıq şəkildə

ifadə edirəm ki, bizə ancaq bərabərhüquqlu yanaşma yaraşır. Çünki başqa cür ola bilməz. Biz heç kimin qabağında gözükölgəli deyilik. Heç kimdən asılı deyilik. Heç kimdən yardım istəmirik. Bilirik ki, heç kim bizə yardım etməyəcəkdir. Çünki yardım lazım olan zaman kimsə gəlib bizə arxa durdu?! Yox! Bizim iqtisadiyyatımız çökəndə, Ermənistan torpaqlarımızı zəbt edəndə, 1 milyona yaxın azərbaycanlını sürgün edəndə kimsə gəlib bizə kömək etdi?! Heç kim! Ona görə belə illüziyalar məndə yoxdur, çoxdan yoxdur. Belə olan halda, ölkələrlə və beynəlxalq təşkilatlarla bərabərhüquqlu yanaşmanın tərəfdarıyıq.

Biz beynəlxalq təşkilatlara könüllü şəkildə üzv oluruq. Əgər görsək ki, maraqlarımız orada tapdalanır, yaxud da ki, Azərbaycana qarşı qərəzli mövqe sərgilənir, könüllü şəkildə də oradan çıxa bilərik. Biz bu qərəzli mövqeni dəfələrlə görmüşük. Mən şəxsən görmüşəm. Mən bu qərəzli mövqenin, ikili yox, üçlü, bəlkə beşli standartların şahidiyəm. Heç nə dəyişməyibdir. Yəni 2000-ci ilin əvvəlindən bu günə qədər bu məsələ ilə bağlı heç nə dəyişməyibdir. Sadəcə olaraq, Azərbaycan dəyişibdir, güclənibdir. Azərbaycan o ölkəyə çevrilibdir ki, bizə təzyiq etmək, bizi şantaj etmək mümkün deyildir. Qara yaxmaq, böhtan yaymaq olar, ancaq bunlar bizə yapışmır. Çünki reallıq, həqiqət tam başqadır. Reallıq ondan ibarətdir ki, Azərbaycan müstəqil, müasir, dünyəvi, dinamik inkişaf edən sosial dövlətdir. Götürün bütün bizim iqtisadi göstəricilərimizi. Sadəcə olaraq, onların bir səhifəsi deməyə kifayətdir ki, biz sosial sahədə nəyə nail olmuşuq. Pensiyalar əmək haqlarının 40 faizini təşkil edir.

Bu, Avropa İttifaqının kriteriyalarıdır. Biz buna nail olmuşuq. Bir çox təhlilçi bunu bəlkə də bilmir. Davos İqtisadi Forumunun hesablamalarında ölkələrin iqtisadiyyatlarının rəqabətqabiliyyətliliyinə görə Azərbaycan 46-cı yerdədir, MDB məkanında 1-cidir. Ondan sonra «Doing Business» proqramında qabaqcıl yerlərdəyik. Böhran zamanı bütün Avropa ölkələrinin iqtisadiyyatlarının kredit reytinqləri aşağı salınır, bizim kredit reytinqimiz isə artır. «Standard & Poors», «Fitch», «Moodys» – bunlardan yuxarı kredit agentlikləri yoxdur. 3-ü də bizim

reytinqimizi qaldırıbdır. Yəni bunu neftin hesabına etmişik?! Əvvəllər paxıllar, bədxahlar, uğurlarımıza ləkə vurmaq istəyənlər deyirdilər ki, Azərbaycanın nefti vardır, ona görə inkişaf edir. Bizdən 10 dəfə çox nefti olan ölkələr var. Orada vəziyyət necədir? Onların reytinqləri niyə düşür? Orada niyə sosial partlayışlar baş verir? Söhbət neftdən getmir. Söhbət düzgün iqtisadi və siyasi istiqamətlərin seçilməsindən, eyni zamanda, xalqla iqtidar arasında olan birlikdən gedir. Çünki bu olmasa, onda heç bir islahat mümkün deyildir.

Ona görə biz iqtisadi sahədə sözümüzü dünyada demişik. Biz yoxsulluğu neçə dəfə azalda bilmişik. Yadımdadır, mən Dövlət Neft Şirkətində çalışdığım dövrdə, təzə-təzə xarici şirkətlərlə kontraktlarımız bağlananda bəzi təhlilçilər deyirdilər ki, Azərbaycanı «Holland sindromu» gözləyir, iqtisadiyyat birtərəfli olacaqdır, batacaqdır, neft qurtarandan sonra çökəcəkdir. Nə oldu? Əgər bu doğrudan belə idisə, heç vaxt iqtisadiyyat 3 dəfə artmazdı. İndi yoxsulluq 49 faizdən 8 ildə 7 faizə düşüb.Mən bunları sadalamaqla, sadəcə, demək istəyirəm ki, biz müstəqil siyasət aparmağa qadirik, bunu edirik. Hətta ən çətin dövrdə, iqtisadiyyatımız ağır vəziyyətdə olan dövrdə biz yolumuzdan dönməmişik, qaldı ki indi. Azərbaycan regionda lider ölkədir. Cənubi Qafqaz iqtisadiyyatının təxminən 80 faizi Azərbaycan iqtisadiyyatıdır. Bizim enerji diplomatiyamız vardır. Bu barədə mən hələ ki, bir şey deməmişəm. Amma bu da diplomatik vasitədir və biz bu vasitədən istifadə edirik.

Bizim coğrafi vəziyyətimiz əlverişlidir. Ancaq infrastruktur olmadan coğrafi vəziyyət heç nə deməkdir. Biz infrastruktur yaradırıq. Bizim təşəbbüsümüzlə Asiyanı Avropa ilə birləşdirən dəmir yolu yaradılır. İndi hələ vaxtı gəlməyib ki, mən bir çox məsələləri açım, amma onun da vaxtı gələcəkdir. Bakı–Tbilisi–Qars dəmir yolunu reallaşdırmaq istəyəndə biz nə qədər böyük təzyiqlərlə üzləşmişdik. Bölgə ölkələrindən nə qədər təzyiqlər göstərilmişdi ki, amandır, bunu etmək olmaz. Bunu etsəniz Ermənistan batacaqdır, yəni Ermənistanın blokadası, təcridi məsələsi tamamilə təmin ediləcəkdir. Buna baxmayaraq, biz

bunu etmişik. Amma indi bu yoldan nəinki biz, vaxtı ilə onun əleyhinə gedənlər də istifadə etmək istəyirlər. Əgər o vaxt biz zəiflik göstərsəydik, yaxud da ki, kiminsə xoşuna gəlmək üçün bu təşəbbüsdən kənara çəkilsəydik, bunlar olmayacaqdı. Təzyiqlər də, sifarişli yazılar da, ləkələmə kampaniyaları da oldu, amma biz nəticə etibarı ilə Azərbaycan xalqının, dövlətinin maraqlarını təmin etdik. Coğrafi vəziyyətimiz elədir ki, bizim razılığımız olmadan bu bölgədə heç bir nəqliyyat layihəsi mümkün deyildir. Bölgədə isə, xüsusilə Əfqanıstanla bağlı məsələ ilə əlaqədar nəqliyyat məsələləri yeni müstəvidə öz həllini tapacaqdır. Burada Azərbaycanın rolu getdikcə artmaqdadır.

Enerji diplomatiyamıza gəldikdə, bu gün deyə bilərəm ki, Avropa İttifaqına üzv olan bəzi ölkələrin enerji balansında Azərbaycan neftinin payı 35–40 faizə yaxındır. Azərbaycan qazı Avropa məkanında gözlənilir və biz bu istiqamətdə işləri aparırıq. Bəlkə də 10 il ərzində müzakirə mövzusu olan bəzi Avropa layihələrinin iflasa uğraması bizi vadar etdi ki, öz layihəmizi ortaya qoyaq. Biz qısa müddətdə TANAP layihəsini, təşəbbüsünü irəli sürdük. Bütün hazırlıq işlərini gördük. Türkiyə ilə bütün sənədlər imzalandı. Bu gün TANAP layihəsinə qoşulmaq istəyənlərin sayı artır. Avropa ölkələri bu layihəyə rəsmi olaraq dəstək verir. Əgər biz bu layihəni ortaya qoymasaydıq, indi nə olacaqdı? Bunun adını da biz qoyduq, marşrutunu da biz seçdik. Əsas maliyyə yükünü də öz üzərimizə götürürük. Hazırda bizim orada 80 faiz payımız vardır. Ancaq bizə müraciətlər gəlir ki, o paydan bir az tərəfdaş kampaniyalara verək. Mən bunu istisna etmirəm. Yenə Azərbaycan öz təşəbbüsünü göstərdi və bu bizə nə verəcək? Bu bizə imkan verəcək ki, 100 il bundan sonrakı dövrdə də Azərbaycan etibarlı enerji təminatçısı olsun. Ən azı 100 il. Bu nə deməkdir, bəlkə də bu auditoriyada deməyə ehtiyac yoxdur. Bizim gücümüz artacaqdır. Maliyyə gücümüz, siyasi gücümüz, təsiretmə imkanlarımız genişlənəcəkdir və bizimlə daha da çox hesablaşacaqlar. Hər bir ölkə, hər bir insan bunu istəyir. Təbiidir, biz də bunu istəyirik. Biz bütün bunları öz zəhmətimiz hesabına əldə etmişik.

Azərbaycan gənc dövlətdir. Ancaq baxın, dünyada nə qədər dostlarımız, tərəfdaşlarımız vardır. Biz enerji diplomatiyamızı aparırıq. Biz mədəniyyət diplomatiyamızı aparırıq. Baxın, xaricdə bizim nə qədər mədəni tədbirlərimiz keçirilir.

Dünya paytaxtlarında Azərbaycanın mədəniyyətini, tarixini, incəsənətini təbliğ edirik. 20 illik müstəqilliklə əlaqədar bütün keçmiş sovet məkanında Azərbaycan yeganə ölkə idi ki, dünya paytaxtlarında böyük tədbirlər keçirmişdir. Bu bizim təşəbbüsümüz idi və aparıcı ölkələrin paytaxtlarında böyük konsertlər, təqdimatlar, sərgilər keçirilmişdir. Bu sahə mütləq diqqət mərkəzində olmalıdır. Çünki bu sahə insanları daha çox birləşdirir və eyni zamanda, ölkə haqqında daha dolğun təsəvvür yaradır.

Biz gənc müstəqil ölkəyik. Bəzi ölkələrdə hesab edirlər ki, Azərbaycan 20 ildir dünya xəritəsində özünə yer tapıbdır. Bu doğrudan da dünyanın siyasi xəritəsində belədir. Ancaq dünya xəritəsində biz əsrlər boyu varıq. Bizim qədim mədəniyyətimiz, tariximiz, incəsənətimiz milli sərvətimizdir. Biz bu sərvəti təbliğ etməliyik, dünyaya təqdim etməliyik. Səfirliklərin işi burada çox əhəmiyyətlidir. İndi səfirliklərdə mədəniyyət xidmətlərinin yaradılması işi başlamışdır. Bu da çox uğurlu təşəbbüsdür. Yenə də deyirəm ki, bu təşəbbüs ancaq Azərbaycan tərəfindən irəli sürülmüşdür. Bu yeniliklər, islahatlar, yeni baxışlar bizi qabağa aparır.

Bu gün Azərbaycanda iqtisadi, siyasi sahələrdə, xarici siyasətlə bağlı elə vəziyyət yaranıbdır ki, bəzi hallarda mənə deyirlər, bəlkə bir az yavaşlayaq. Bəlkə bu qədər sürətlə getməyək. Çünki bu, Bakının, digər şəhərlərimizin gözəlliyi bəzilərini qıcıqlandırır. Çünki biz çox sürətlə qabağa gedirik. Bəlkə də burada məntiq var – qıcıqlandırmamaq. Ancaq mən özümdə fikirləşirəm, görün vəziyyət nəyə gətirib çıxarıb ki, Azərbaycan indi o qədər inkişaf edib ki, bizə deyirlər bir az yavaşlayın, çünki siz çox sürətlə gedəndə başqa ölkələrdə buna qısqanclıqla yanaşırlar.

Mən tam əminəm ki, biz bir addım da yavaşlaya bilmərik. Biz irəliyə getməliyik. Çünki həllini gözləyən məsələlər çoxdur. Dünya dinamik şəkildə inkişaf edir və hətta 1 ay, 1 həftə də gözləmək olmaz. Biz xarici siyasətdə, iqtisadi sahədə, texnologiyalar sahəsində hadisələri qabaqlamalıyıq. Bax, bu gözəl Diplomatik Akademiyanın üstünlüklərindən biri də odur ki, burada ən müasir texnologiyalar tətbiq olunur. Gənclərimiz bu texnologiyalar əsasında təhsil alacaqlar: yeni texnologiyalar, kosmik sənayenin inkişafı. Bəzilərinə təəccüblü gəlib ki, Azərbaycan kimi ölkədə kosmik sənaye necə ola bilər? Niyə də olmasın?! Bizim istedadlı kadrlarımız, maliyyə resurslarımız və gələcəyə baxışımız vardır. Ona görə biz bir addım da yavaşlamayacağıq. Biz irəliyə gedəcəyik, istədiyimizə nail olacağıq. Əminəm ki, suverenliyimizi bərpa edəcəyik və bir gün gələcək, Azərbaycan bayrağı Şuşada və Xankəndidə dalğalanacaqdır. Sağ olun!

## ÇİN XALQ RESPUBLİKASI ÜMUMÇİN XALQ NÜMAYƏNDƏLƏRİ MƏCLİSİNİN XARİCİ İŞLƏR ÜZRƏ KOMİTƏSİNİN SƏDRİ Lİ CAOSİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*21 sentyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 21-də Çin Xalq Respublikası Ümumçin Xalq Nümayəndələri Məclisinin Xarici İşlər üzrə Komitəsinin sədri, keçmiş Xarici İşlər naziri Li Caosinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Li Caosin Azərbaycana səfərindən və prezident İlham Əliyevlə görüşündən şərəf duyduğunu vurğuladı. O, Çin Xalq Respublikasının Sədri Hu Szintaonun salamlarını dövlətimizin başçısına çatdırdı. Qonaq əlaqələrimizin genişləndirilməsində dövlət başçılarının rolunu xüsusi qeyd etdi.*

*Çin Xalq Respublikasına uğurla keçən ilk rəsmi səfərini və Pekin Olimpiya oyunları zamanı keçirdiyi görüşləri məmnunluqla xatırladan prezident İlham Əliyev bu səfərinin ölkələrimiz arasında ikitərəfli əlaqələrin genişləndirilməsi üçün böyük imkanlar açdığını dedi. Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında siyasi əlaqələrin yaxşı səviyyədə olduğunu deyən dövlətimizin başçısı iqtisadi, mədəni və digər sahələrdə də əməkdaşlığın inkişaf etdiyini bildirdi.*

*Görüşdə parlamentlərarası əməkdaşlığın genişləndirilməsinin ikitərəfli münasibətlərimizin inkişafındakı əhəmiyyəti qeyd olundu, əlaqələrimizin bundan sonra da möhkəmlənəcəyinə əminlik ifadə edildi.*

*Dövlətimizin başçısı Çin Xalq Respublikasının Sədri Hu Szintaonun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Çin dövlətinin başçısına çatdırmağı xahiş etdi.*

## FİFA-nın PREZİDENTİ YOZEF BLATTERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*21 sentyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 21-də FİFA-nın prezidenti Yozef Blatterin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə FİFA U-17 qadınlar arasında futbol üzrə dünya çempionatının Azərbaycanda keçirilməsinin önəmi qeyd edildi, çempionata hazırlıq işlərinin yüksək səviyyədə təşkil olunduğu bildirildi. Görüşdə, həmçinin ölkəmizdə idmanın, o cümlədən futbolun inkişafına yüksək dövlət qayğısının göstərildiyi vurğulandı, paytaxtda və regionlarda idman infrastrukturunun yaradılması ilə bağlı ardıcıl tədbirlərin həyata keçirildiyi bildirildi.*

*FİFA-nın prezidenti Yozef Blatter FİFA U-17 qadınlar arasında futbol üzrə dünya çempionatının xüsusi medalını və FİFA-nın vımpelini dövlətimizin başçısına təqdim etdi.*

## FUTBOL ÜZRƏ «FİFA U-17 QADINLARARASI DÜNYA ÇEMPİONATI AZƏRBAYCAN–2012 »nin AÇILIŞI MƏRASİMİ

*Tofiq Bəhramov adına Respublika stadionu*

*22 sentyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri sentyabrın 22-də Bakıda Tofiq Bəhramov adına Respublika stadionunda futbol üzrə «FİFA U-17 qadınlararası dünya çempionatı Azərbaycan–2012»nin təntənəli açılışı mərasimində iştirak etmişlər.*

*Əvvəlcə prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri 17 yaşadək qadınlar arasında futbol üzrə dünya çempionatının açılışı mərasimində iştirak etmək üçün Bakıya gələn Beynəlxalq Futbol Federasiyaları Assosiasiyasının – FİFA-nın prezidenti Yozef Blatter ilə görüşdülər.*

*Çempionatın açılışı mərasimində dünya şöhrətli «Cirque du Soleil» sirki xüsusi olaraq bu mundial üçün hazırladığı proqramla çıxış etdi.*

*Akrobatlar, rəqqaslar və bu şouda iştirak edən yerli könüllülər öz çıxışlarında Azərbaycanın qədim ənənələrinə uyğun olaraq onun idman, futbol və həmçinin mədəni komponentlərini nümayiş etdirdilər. Bu şou xüsusi olaraq onun üçün bəstələnmiş və məhz «Cirque du Soleil» tamaşalarına xarakterik olan musiqinin müşayiəti altında keçdi.*

*Sonra dünya şöhrətli müğənni Cenifer Lopezin möhtəşəm ifası azarkeşlərin bayram əhval-ruhiyyəsini daha da artırdı.*

*Daha sonra Azərbaycanın və Kolumbiyanın 17 yaşadək qadınlardan ibarət milli komandaları yaşıl meydana daxil oldular.*

*Azərbaycan prezidenti İlham Əliyev və FİFA-nın prezidenti Yozef Blatter komandaların oyunçularını, hakimləri təbrik edərək, onlara uğurlar arzuladılar.*

*Kolumbiyanın və Azərbaycanın dövlət himnləri səsləndirildikdən sonra komandaların oyunu başladı.*

*Beləliklə, Azərbaycan daha bir dünya səviyyəli idman yarışına ev sahibliyi edir. Beynəlxalq yarışları keçirməkdə böyük təcrübəsi olan ölkəmizin tarixində ilk dəfə 17 yaşadək qadınlar arasında dünya çempionatı baş tutur. Bu dünya çempionatı üçüncü dəfədir ki, keçirilir. Azərbaycan bu çempionata FİFA İcraiyyə Komitəsinin 2010-cu il 19 mart tarixli Qərarına əsasən ev sahibliyi edir. Bu, Azərbaycanda keçirilən ilk FİFA tədbiridir və Avrasiyada baş tutan ilk U-17 qadınlararası dünya çempionatıdır. Çempionatda Yaponiya, Koreya Xalq Demokratik Respublikası, Çin, Nigeriya, Qana, Qambiya, ABŞ, Kanada, Meksika, Braziliya, Uruqvay, Kolumbiya, Yeni Zelandiya, Fransa, Almaniya və ev sahibi Azərbaycanın milli komandaları birincilik uğrunda mübarizə aparacaqlar. Azərbaycan ilk dəfə FİFA U-17 qadınlararası dünya çempionatına öz milli yığması ilə qatılır. Millimiz «A» qrupunda Kolumbiya, Kanada və Nigeriya yığmaları ilə yarışacaqdır.*

*Azərbaycanın ev sahibliyi etdiyi dünya çempionatının oyunları paytaxt Bakı ilə yanaşı, Lənkəran şəhərində də keçiriləcək. Çempionat üçün 6 stadion ayrılmışdır. Bunlardan 5-i Bakıda, 1-i isə Lənkəranda yerləşir.*

*Qeyd edək ki, FİFA U-17 qadınlararası dünya çempionatı ilk dəfə 2008-ci ildə Yeni Zelandiyada keçirilib. Bu çempionatın qalibi Koreya Xalq Demokratik Respublikasının yığması olmuşdur. İkinci dəfə isə çempionat 2010-cu ildə Trinidad və Tobaqoda təşkil edilmiş və kuboku Koreya Respublikasının futbolçuları qazanmışlar.*

# RUSİYANIN VOLQOQRAD VİLAYƏTİNİN QUBERNATORU SERGEY BOJENOVUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*24 sentyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 24-də Rusiya Federasiyasının Volqoqrad vilayətinin qubernatoru Sergey Bojenovun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Sergey Bojenovu Rusiya Federasiyasının Volqoqrad vilayətinin qubernatoru təyin olunması münasibətilə təbrik etdi və gələcək fəaliyyətində ona uğurlar arzuladı. Prezident İlham Əliyev Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin uğurlu inkişafından məmnunluğunu ifadə etdi, ölkəmizlə Rusiyanın ayrı-ayrı subyektlərinin, o cümlədən Volqoqrad vilayətinin əlaqələrinin bu münasibətlərin inkişafındakı rolunu qeyd etdi. Dövlətimizin başçısı Volqoqrad vilayətinin qubernatoru Sergey Bojenovun Azərbaycana səfərinin ölkəmizlə Rusiya Federasiyasının bu vilayəti arasında fəal qarşılıqlı əlaqələrin inkişafına xidmət edəcəyinə əminliyini bildirdi.*

*Həştərxanın meri olduğu illəri məmnunluqla xatırladan Sergey Bojenov bu şəhərin inkişafına verdiyi töhfəyə görə prezident İlham Əliyevə və Heydər Əliyev Fonduna minnətdarlığını bildirdi. Həştərxanda məktəbin, parkın, ulu öndər Heydər Əliyevin abidəsinin və körpünün inşasını əlaqələrimizin konkret nümunəsi kimi qiymətləndirən qonaq bunun uzun illər əməkdaşlığımızın və dostluğumuzun möhkəmləndirilməsi işinə xidmət edəcəyini vurğuladı.*

*Azərbaycan ilə Volqoqrad arasında əməkdaşlığa toxunan Sergey Bojenov vaxtilə ulu öndər Heydər Əliyevin Volqoqrada*

*gəlişinin vilayətin əhalisi tərəfindən* bu *günədək böyük hörmətlə xatırlandığını* dedi.

*O, 2 dəfə* Sovet *İttifaqı Qəhrəmanı* general *Həzi* Aslanovun *və* Sovet *İttifaqı Qəhrəmanı Xıdır* Mustafayevin *Volqoqradın* alman *faşizmindən müdafiə olunmasında göstərdikləri qəhrəmanlığın* da *böyük hörmətlə* yad edildiyini *vurğuladı.*

## ƏLƏT QƏSƏBƏSİNDƏ 32 SAYLI ŞƏHƏR POLİKLİNİKASININ AÇILIŞI MƏRASİMİ

*25 sentyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 25-də Bakının Qaradağ rayonunun Ələt qəsəbəsində 32 saylı şəhər poliklinikasının açılışında iştirak etmişdir.*

*Ötən il aprelin 4-də prezident İlham Əliyev Ələt qəsəbəsinin sosial-iqtisadi inkişafı ilə bağlı həyata keçirilən işlərlə tanış olarkən burada yeni poliklinikanın tikilməsinə dair tapşırıqlarını vermişdi. Dövlətimizin başçısının 2011-ci il aprelin 6-da imzaladığı Sərəncamla bu tibb müəssisəsinin inşası üçün bir milyon manat vəsait ayrılmışdı.*

*Ələt qəsəbəsinə gələn prezident İlham Əliyev poliklinikanın əvvəlki və hazırkı vəziyyətini əks etdirən şəkillərdən ibarət stendə baxdı.*

*Dövlətimizin başçısı poliklinikanın rəmzi açılışını bildirən lenti kəsdi.*

*Qaradağ Rayon İcra Hakimiyyətinin başçısı Süleyman Mikayılov Azərbaycan prezidentinə məlumat verdi ki, poliklinikanın ötən əsrin 70-ci illərinin əvvəllərində inşa olunmuş birmərtəbəli binası istifadəyə yararsız vəziyyətə düşdüyündən ötən ilin noyabrından yeni binanın inşasına başlanılmışdır. Qısa müddətdə müasir standartlar səviyyəsində tikilən tibb müəssisəsinin ikimərtəbəli yeni binasında müayinə və müalicə üçün hər cür şərait vardır.*

*Binanın girişində ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin ölkəmizdə səhiyyənin inkişafına diqqət və qayğılarını əks etdirən fotoguşələr yaradılmışdır.*

*Dövlətimizin başçısı burada ultrasəslə müayinə kabineti ilə tanış oldu. Kabinetdə ən müasir tibbi avadanlıq quraşdırılmışdır ki, bu da tez və dəqiq diaqnoz qoymağa imkan verə-*

cəkdir. Burada, həmçinin uşaqlar üçün ayrıca bölmə yaradılıb. Tibb ocağında balacaların lazımi səviyyədə müayinə və müalicəsi üçün hər cür şərait vardır. Biokimyəvi və klinik laboratoriyalarda quraşdırılan müasir avadanlıqlar müayinələrin vaxtında və keyfiyyətlə aparılmasına imkan verəcəkdir.

Prezident İlham Əliyev rentgen kabinetində yaradılan şəraitlə də tanış oldu.

Bildirildi ki, poliklinikada müxtəlif təyinatlı kabinetlər fəaliyyət göstərir. Bu kabinetlər də ən müasir standartlara cavab verən tibbi avadanlıqlarla təchiz olunmuşdur. Səhiyyə ocağında 100 nəfərlik tibbi heyət qəsəbə sakinlərinin sağlamlığının keşiyində duracaqdır. Dövlətimizin səhiyyə sisteminin inkişafına göstərdiyi diqqət və qayğının davamlı xarakter aldığının daha bir nümunəsi olan Ələt qəsəbəsindəki poliklinikada hər cür şəraitin yaradılması ilk növbədə, burada tibbi müayinə və müalicə işinin ən yüksək səviyyədə həyata keçirilməsinə imkan yaradacaqdır.

Azərbaycan prezidenti poliklinikada yaradılmış şəraiti yüksək qiymətləndirdi, əhaliyə keyfiyyətli tibbi xidmətin göstərilməsi ilə bağlı tapşırıqlarını verdi.

## QOBUSTAN QƏSƏBƏSİNDƏ 330 SAYLI TAM ORTA MƏKTƏB BİNASININ AÇILIŞI MƏRASİMİ

*25 sentyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 25-də Bakının Qaradağ rayonunun Qobustan qəsəbəsində 330 saylı tam orta məktəb binasının açılışında iştirak etmişdir.*

*Ötən il martın 9-da Azərbaycan prezidenti İlham Əliyevin sədrliyi ilə Bakı Şəhər İcra Hakimiyyətində keçirilən müşavirədə dövlətimizin başçısı paytaxtətrafı qəsəbələrin sosial-iqtisadi inkişafı ilə bağlı tapşırıqlar vermişdi. Tapşırıqların icrası ilə yerindəcə tanış olmaq üçün ötən il aprelin 4-də prezident İlham Əliyev Qaradağ rayonunun Qobustan qəsəbəsində olmuşdu. Qəsəbə ictimaiyyətinin nümayəndələri ilə görüşdə sakinlər dövlət başçısından məktəb binasının tikilməsi barədə xahiş etmişdilər.*

*Azərbaycan prezidenti İlham Əliyevin 2011-ci il 6 aprel tarixli Sərəncamına əsasən qəsəbədə ümumtəhsil məktəbi binasının tikintisi üçün 2 milyon manat vəsait ayrılmışdır.*

*Dövlətimizin başçısı məktəbin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Azərbaycan prezidentinə məlumat verildi ki, ümumi sahəsi 3 hektar olan məktəbin üçmərtəbəli binasında hər cür şərait yaradılıb. Məktəbin inşasına ötən il başlanılmış, tikinti işləri qısa zamanda yüksək zövq və keyfiyyətlə aparılmışdır.*

*Məktəbin foyesində ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin ölkəmizdə təhsilin inkişafına göstərdikləri diqqət və qayğını əks etdirən fotoguşə yaradılmışdır.*

*Diqqətə çatdırıldı ki, 880 şagird yerlik bu təhsil ocağının 48 sinif otağı, 6 min ədəbiyyat fonduna malik müasir kitabxanası var. İbtidai sinif şagirdləri üçün yaradılan oyun otağında*

balacalar asudə vaxtlarını səmərəli keçirə biləcəklər. Məktəbdə şahmat otağı və sinifdənkənar işlər üçün xüsusi kabinetlər də vardır. Şagirdlərin vətənpərvərlik ruhunda böyüməsi və təhsil almasına da xüsusi diqqət yetirilib. Hərbi vətənpərvərlik otağında ordumuzun qüdrətinin artırılması üçün dövlətimizin həyata keçirdiyi tədbirləri əks etdirən fotolar yer almış, milli qəhrəmanlarımızla bağlı guşə yaradılmışdır.

Bildirildi ki, məktəbdəki şərait təlim-tərbiyə işinin və tədris prosesinin ən yüksək səviyyədə aparılmasına imkan verir. Məktəbdə linqafonla təchiz olunmuş informatika otağında ən son texniki avadanlıq quraşdırılıb. Burada 30 kompüterin olduğu 2 zal da şagirdlərin ixtiyarına verilib. Məktəbdə stomatoloq və psixoloq kabinetləri də fəaliyyət göstərəcəkdir. Yeni təhsil ocağında ən son texniki avadanlıqla təchiz olunmuş fizika və kimya laboratoriyaları vardır. Müxtəlif fənn kabinetləri də zəruri əyani vəsaitlə təmin olunmuş, sinif otaqlarında elektron lövhələr quraşdırılmış, şagirdlərin istirahət otaqları yaradılmışdır. Məktəbin akt zalı da müasir səviyyədə və nəfis tərtibatda inşa olunub. Akt zalında məktəblə yanaşı, qəsəbə üzrə mədəni-kütləvi tədbirlər keçirmək üçün imkan vardır.

Vurğulandı ki, təhsil ocağında şagirdlərin normal qidalanmaları üçün yüksək şərait yaradılıb. Buradakı yeməkxana ən müasir tələblərə cavab verir. Məktəbin idman zalı da müasir səviyyədə qurulub. Zalda şagirdlər mini-futbol, basketbol, voleybol və idmanın digər növləri ilə məşğul ola bilərlər.

Məktəbin həyatində geniş abadlıq işləri aparılıb, futbol, voleybol və basketbol meydançaları tikilib.

Dövlətimizin başçısı məktəbdə yaradılan şəraiti yüksək qiymətləndirdi.

# M.V.LOMONOSOV ADINA MOSKVA DÖVLƏT UNİVERSİTETİNİN BAKI FİLİALININ YENİ TƏDRİS KOMPLEKSİNİN AÇILIŞI MƏRASİMİ

*Xocasən qəsəbəsi*

*26 sentyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva sentyabrın 26-da M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialının yeni tədris kompleksinin açılışı mərasimində iştirak etmişlər.*

*Azərbaycanın birinci xanımı Mehriban Əliyevaya gül dəstəsi təqdim edildi.*

*Dövlətimizin başçısı filialın yeni tədris kompleksinin rəmzi açılışını bildirən lenti kəsdi.*

*M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin rektoru, akademik Viktor Sadovniçi və bu ali təhsil ocağının Bakı filialının rektoru, professor Nərgiz Paşayeva Azərbaycan prezidentinə və xanımına məlumat verdilər ki, Xocasən qəsəbəsinin ərazisində 5 hektar sahədə yeni kompleksin tikintisinə 2010-cu ilin iyununda başlanılmışdır. 7 korpusun daxil olduğu tədris kompleksi xüsusi dizaynla yüksək standartlar səviyyəsində, dünyanın tanınmış universitetlərinin təcrübəsinə əsaslanaraq ən son texnoloji nailiyyətlərlə inşa olunmuşdur. Kompleksə, həmçinin 2 idman korpusu, müəllim və tələbələr üçün 4 yataqxana daxildir.*

*Dövlətimizin başçısı və xanımı MDU-nun Bakı filialının beşmərtəbəli yeni binasında yaradılmış şəraitlə tanış oldular.*

*Bildirildi ki, bu ali təhsil müəssisəsinin güclü maddi-texniki baza ilə təminatına xüsusi diqqət yetirilmişdir. Bu ali təhsil ocağının kitabxana fondunda 20 min ədəbiyyat vardır. Kitabxanada nadir nəşrlər də yer almışdır. Elektron kitabxananın 100 nəfərlik*

*oxu zalı vardır. Tələbələr burada 21 mindən çox kitabın elektron variantından istifadə edə biləcəklər. Bu kitabxananın M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasına birbaşa çıxışı vardır.*

*Qeyd edildi ki, bütün ali təhsil müəssisələri kimi, Moskva Dövlət Universitetinin Bakı filialı da hər zaman maraqlı müzakirələrlə yaddaqalan elmi şuraların, elmi diskussiyaların təşkili ilə fərqlənir. Bu məqsədlə binada konfrans zalı yaradılmışdır.*

*Məlumat verildi ki, yeni binadakı 70 auditoriyanın bəzilərində eyni zamanda 100  tələbə tədris prosesində iştirak edə bilər.*

*Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva universitetin 1-ci mərtəbəsində köhnə Bakının və köhnə Moskvanın görüntülərini əks etdirən fotosərgiyə baxdılar.*

*Diqqətə çatdırıldı ki, tələbə mərkəzinin də yaradıldığı binada müəllimlər və tələbələr üçün ayrıca yeməkxanalar fəaliyyət göstərir. Burada, həmçinin xarici ölkələrdən və Azərbaycanın rayonlarından gələn müəllim və tələbələr üçün hər cür şəraiti olan yataqxanalar tikilmişdir.*

*Məlumat verildi ki, hazırda filialın yeni binasında 16 laboratoriya yaradılıb. Laboratoriyalarda müasir avadanlıqlar quraşdırılıb ki, bu da tədris prosesinin keyfiyyətinin yüksəldilməsinə imkan verəcəkdir. Filialda ən son proqramlarla təmin olunmuş kompüter kabinetləri də fəaliyyət göstərir.*

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərasimdə çıxış etdi:*

– Əziz dostlar!

Hörmətli qonaqlar!

Bu gün ölkəmizin həyatında gözəl, əlamətdar gündür. Biz MDU-nun Bakı filialının yeni binasını açırıq. Bu yaraşıqlı bina ilə tanış olarkən mən xəyalən 4 il əvvələ, MDU-nun Azərbaycanda filialının yaradılması haqqında sərəncam imzaladığım vaxta qayıtdım. Bu sərəncam təsadüfi meydana gəlməmişdi. Əvvəlcə Rusiya tərəfi ilə danışıqlar aparılmış və MDU-nun rəhbərliyinin fəal dəstəyi ilə biz belə mühüm qərar qəbul etmişik. Bu, Azərbaycanda təhsil sisteminin təkmilləşdirilməsi prosesində, habelə Rusiya ilə Azərbaycan arasında ikitərəfli dostluq münasibətlərinin möhkəmləndirilməsi çərçivəsində həqiqətən əhəmiyyətli qərar idi.

Bakıda MDU-nun filialının yaradılması hüquqi cəhətdən 2008-ci ilin əvvəllərində sənədləşdirilmişdi. Artıq 1 il sonra, 2009-cu ildə filial fəaliyyətə başladı. Bina ayrıldı və yadımdadır, 2009-cu ildə biz hörmətli Viktor Antonoviç ilə birlikdə filialı açdıq. Orada çox gözəl şərait yaradılmasına baxmayaraq, yeni binanın tikilməsinin zəruriliyi ideyası meydana gəldi. Çünki MDU dünyanın aparıcı təhsil müəssisələrindən biridir və əlbəttə ki, bu cür təhsil müəssisəsinə müstəqil, ayrıca bina lazımdır. Mən şadam ki, uğurlu yer seçilib. Bura şəhərin mərkəzindən çox uzaq deyil. Azərbaycan paytaxtının sürətlə inkişafını və bizim infrastrukturu təkmilləşdirmək planlarımızı nəzərə alsaq, mən əminəm ki, bir neçə ildən sonra bu yer daha çox məskunlaşacaqdır. Bizim burada, bu zonada tələbə şəhərciyi yaradılması ilə bağlı müəyyən planlarımız var. Başqa sözlə, gələcəkdə yeni ali təhsil müəssisələri yaradılarsa, yəqin ki, burada yaradılacaq. Bəzi ali məktəblərimizin bu zonaya

köçürülməsi ilə bağlı ideyalar da vardır ki, şəhərimizin infrastrukturunun tərəqqisində məhz tədris-tələbə istiqamətini burada inkişaf etdirək.

Mən çox şadam ki, qısa müddətdə filial ölkəmizdə böyük nüfuz qazandı. Filialın rəhbərliyi MDU-nun rəhbərliyinin dəstəyi ilə sıfırdan başlayaraq böyük nüfuz qazanmış və gənclərin can atdığı ali təhsil müəssisəsi yarada bilmişdir. Buradakı tədris prosesi, kadrların seçilməsi sistemi, logistika infrastrukturu və avadanlıqlar təhsil üçün gözəl şərait yaradır. Ən başlıcası isə biz MDU-nun Bakı filialının simasında Azərbaycanda dünya səviyyəli ali təhsil müəssisəsini görürük. Artıq dediyim kimi, MDU dünyanın nüfuzlu təhsil müəssisələrindən biri, böyük ənənələrə malik universitet, Rusiyanın aparıcı təhsil ocağıdır. Əlbəttə ki, MDU-da tədrisin səviyyəsi onun filialının harada olmasından asılı olmayaraq qoruyub saxladığı standartdır. Bildiyimə görə, MDU-nun Bakı filialında da təhsilin səviyyəsi çox yüksəkdir.

Bu gözəl gündə bir neçə ildə sıfırdan müasir təhsil müəssisəsi yaratmış MDU-nun rektoru, bizim böyük dostumuz Viktor Antonoviç Sadovniçiyə, universitetin Bakı filialının rektoru Nərgiz Paşayevaya, habelə bütün həm yerli, həm də moskvalı müəllimlərə təşəkkürümü bildirmək istəyirəm. Dediyim kimi, filial cəmi bir neçə ildir fəaliyyət göstərir. Bu il ilk buraxılışı olub. Lakin bu gün artıq nəticələri görürük. Düşünürəm ki, yaxın illərdə Azərbaycanda filialın məzunlarının fəaliyyətlərinin nəticəsini görəcəyik.

Ölkəmiz fəal surətdə inkişaf edir, bütün sahələr dinamik inkişaf edir. İqtisadiyyat dünya miqyasında ən yüksək templərlə inkişaf edir. Əlbəttə, qarşımızda duran bütün vəzifələri gerçəkləşdirməyə nail olmaq üçün bizə ilk növbədə, peşəkarlar lazımdır. Bütün sahələrdə peşəkarlar lazımdır. Hansısa mühüm bir istiqamətə peşəkar kadr gələn kimi, biz o saat müsbət dinamika görürük. Çünki iş dərhal düzgün təşkil edilir və biz dərhal peşəkarlıq, öz işinə sədaqət görürük. Çünki müasir dünyada bunsuz hər hansı bir ölkənin müvəffəqiyyət qazanması

çox çətin olardı. Müasir dünyada ölkələrin uğurunu bilik, elm, texnologiyalar və təhsil müəyyən edir. Biz şadıq ki, bu gün Azərbaycanda yüksək savadlılıq səviyyəsini qoruyub saxlamağa nail olmuşuq. Savadlılığın səviyyəsi faktiki olaraq 100 faizdir. Biz təhsilin inkişafı üçün çox iş görür və bu sahəyə olduqca çox sərmayə yatırırıq. Son 8 ildə Azərbaycanda təhsil xərcləri 6 dəfə artaraq 1,5 milyard manat səviyyəsinə çatmışdır. Bu da büdcəmizin bütün məxaric hissəsinin 10 faizindən bir qədər azdır. Azərbaycanda təhsil xərcləri müdafiə xərcləri ilə birinci və ikinci yerləri bölüşür. Bu isə bizim üçün məhz düzgün tədris prosesinin nə qədər əhəmiyyətli olduğuna, Azərbaycan gənclərinin onlara həyatda lazım olan bilikləri əldə edə biləcəkləri belə bir tədris sisteminin yaradılmasının nə qədər əhəmiyyətli olduğuna dəlalət edir.

Hər bir gənc vəzifə tutmağa və yaxşı biliklərə yiyələnməyə çalışır və ya çalışmalıdır. Bazar iqtisadiyyatı, azad rəqabət, açıq bazar və bütövlükdə dünyada rəqabət şəraitində fundamental biliklər olmadan həyatda öz yerini tapmaq bəzən çox çətin olur. Azərbaycanda şəxsiyyətin inkişafı, öz yolunu sərbəst seçmək üçün hər cür şərait yaradılıb. Buna görə də gənclər biliklərə yiyələnməyə can atmalıdır. Bilik əldə etmək üçün isə yalnız istək kifayət deyil. Tədris prosesi lazımi səviyyədə təşkil edilməyibsə, tədrisin səviyyəsi axsayırsa, tələbələr bilik qazanmağa nə qədər can atsalar da, nəticə əldə etmək çətin olacaq. MDU-nun Azərbaycandakı filialı çərçivəsində biz tədrisin səviyyəsinin yüksək olduğunu, habelə gənclərin biliklərə yiyələnməyə can atdıqlarını görürük.

Filialın fəaliyyəti tədricən, mərhələ-mərhələ yaradılmış və inkişaf etmişdir. Əlbəttə, təkcə infrastruktur və texniki tərəfi mərhələ-mərhələ inkişaf etməmişdir – dediyim kimi, biz bu gün gözəl bir binanı açırıq – həm də fakültələrin sayı ilbəil artır. Bu da bizim ümumi istəyimiz idi. Biz bu gün də Viktor Antonoviçlə bu məsələni müzakirə etdik, qısa fikir mübadiləsi apardıq. Bir daha demək istəyirəm ki, biz imkan daxilində fakültələrin sayının artırılmasında maraqlıyıq. Çünki birgə

əməyimizin nəticəsi olan indi gördüklərimiz böyük nikbinlik doğurur. Fakültələrin sayının ölkəmizin inkişafı üçün daha mühüm maraq kəsb edən istiqamətlər üzrə artırılması prioritet olmalıdır.

Əminəm ki, MDU-nun filialının yaradılması Azərbaycanda elmin inkişafına yeni təkan verəcək. Biz buna da böyük əhəmiyyət veririk. Mən Elmlər Akademiyasının illik toplantısında elmi ictimaiyyətlə son görüşümdə də Azərbaycan elmi qarşısında duran vəzifələr üzərində kifayət qədər ətraflı dayandım.

Biz ölkəmizin elmi potensialını hər vəchlə inkişaf etdirməliyik. Bütün məsələlərdə müasir cəmiyyətin və müasir dünyanın reallıqlarına əsaslanırıq. Biz realistik. Əlbəttə, hansısa ciddi elmi tədqiqatlarda Azərbaycanın model qanunvericisi olacağını gözləmək sadəlövhlük və vaxtı qabaqlamaq olardı. Amma bizim mütləq həll etməli olduğumuz məsələ dinamik inkişaf edən istiqamətlərdə qabaqcıl elmi təcrübəni mümkün qədər tez mənimsəməkdir. Bu barədə mənim tərəfimdən müvafiq göstərişlər verilib.

Müasir texnologiyalarsız heç bir ölkənin inkişafı mümkün deyil. Bu gün XXI əsrdə, XXI əsrin əvvəlində bu, müasir həyatın reallığına çevrilib. Elmi araşdırmalarda liderlik edən ölkələr dünyanın siyasi xəritəsində liderlik edəcəkdir. Ona görə də biz çox güclü intellektual potensial yaratmalıyıq. Məsələn, bütün məktəblərin kompüterləşdirilməsi prosesini yekunlaşdırırıq. İndi 30 şagirdə 1 kompüter düşür. Amma 7-8 il əvvəl 2 min şagirdə 1 kompüter düşürdü. Hətta Azərbaycanın ən ucqar regionlarında da internetə maneəsiz çıxış imkanı yaradırıq. İndi Azərbaycanda internet istifadəçilərinin sayı 65 faizi ötüb, bizdə internet azaddır.

Biz kosmik sənaye yaradırıq. Bəziləri düşünə bilər ki, Azərbaycan buna hələ tam hazır deyil. Ancaq biz kosmik sənaye yaradırıq, ilk süni peykimizi buraxırıq. Gələcəkdə də bu istiqamətdə işimizi davam etdirəcəyik. İnkişafın çox mühüm istiqaməti olan informasiya-kommunikasiya texnologiyaları

sahəsi üzrə reytinqdə biz regionumuzda lider mövqe tuturuq. Elmin inkişafı cəmiyyətin inkişafı deməkdir. Ölkənin intellektual potensialının inkişafı ölkənin gələcəyidir. Bizim vəzifəmiz ölkəmizdə müşahidə edilən dinamik iqtisadi artımı, dünya arenasında mövqelərimizin möhkəmləndirilməsini çox böyük intellektual potensialla gücləndirməkdən ibarətdir. Bunun üçün bütün imkanlar var. İlk növbədə, ənənələr mövcuddur. Azərbaycanda sovet dövründə elm çox güclü inkişaf etmişdir. Biz görkəmli alimlərimizlə fəxr edirik. Sonra, təbii ki, tənəzzül oldu. Ancaq bu tənəzzül yalnız bizdə deyil, bütün postsovet məkanında baş verdi. Keçmiş SSRİ-nin praktiki olaraq, bütün ölkələrində çox ağır iqtisadi durum yaranmışdı. Elmi və pedaqoji elita ağır vəziyyətdə idi. Biz hamımız cəmiyyətdə elmi ziyalıların nüfuzunun təəssüf ki, aşağı düşdüyü o çətin illəri xatırlayırıq. O zaman sahibkarlıq fəaliyyəti ilə məşğul olan insanlar təəssüf ki, sosial statuslarına görə ziyalılardan daha üstün vəziyyətdə idilər. Bunun həm obyektiv, həm də subyektiv səbəbləri var idi. Ancaq Azərbaycanın iqtisadi potensialı möhkəmləndikcə elmə də, təhsilə də daha çox vəsait ayrılır. Elmi işçinin, müəllimin hörmət və nüfuzunu artırmaq bizim siyasətin vacib vəzifəsidir. Biz buna doğru gedirik. Çox iş görülüb.

Moskva Dövlət Universitetinin Azərbaycandakı filialı kimi belə müasir elm mərkəzlərinin yaradılması, həmçinin düzgün istiqamətə doğru addımdır. Biz gələcəkdə də təhsilin inkişafına sərmayə qoyacağıq. Biz məsələni kompleks şəkildə nəzərdən keçiririk – məktəblərin tikintisi və məktəbəqədər təhsil. Son illərdə Azərbaycanda 2200, bəlkə daha çox məktəb binası inşa edilib. Məktəblər təmir olunur. Gələn ilin sonuna qədər Bakıda təchizatına və təmirinə görə bu səviyyədə olmasa da, hər halda, yüksək səviyyədə olmayan bir məktəb də qalmayacaq. Bir daha demək istəyirəm ki, ali təhsil bizim diqqət mərkəzimizdə olan sahədir. Bu, sosial sferadır, iqtisadi sferadır, cəmiyyətimizin əxlaqi-mənəvi əsaslarının formalaşdığı sferadır. Bunlar, əlbəttə ki, ailədə yaranır. Amma istər məktəb, istərsə də ali təhsil

müəssisəsinin bu məsələdə rolu böyükdür. Cəmiyyətimizin möhkəm dayağı əxlaqi-mənəvi meyarlardır. Bizim cəmiyyətimiz bu dəyərlərə əsaslanır. Biz bunları həm iqtisadi potensialla, həm fəal xarici siyasi fəaliyyətimizlə, həm də intellektual potensialla möhkəmləndirməliyik. Bunsuz heç bir ölkənin uğurlu inkişafı mümkün deyil. Böyük təbii resurslara, şaxələndirilmiş infrastruktur şəbəkəsinə malik ola bilərsən, ancaq dinamika olmasa, ildən-ilə tərəqqiyə, yeni texnologiyaları təkmilləşdirməyə və inkişaf etdirməyə cəhd olmasa bu inkişaf ləngiyəcək, dayanacaqdır. Bu cür ölkələrin vəziyyəti çox ağır olacaqdır.

Cəmiyyətin intellektual inkişafı həm də cəmiyyətin sabitliyidir. Əgər cəmiyyət yüksək intellektual səviyyədədirsə, savadlıdırsa, kənardan gətirilən heç bir qüsurlu təzahürlər və meyillər heç vaxt onu sarsıda bilməz. Müasir dünyada, xüsusən də kifayət qədər inkişaf etməmiş ölkələrdə bir çox problemlər məhz təhsilin çatışmazlığı ilə əlaqəlidir. Bir çox müharibələr, münaqişələr, iğtişaşlar məhz təhsilin səviyyəsinin son dərəcə aşağı olması ilə bağlıdır. Bunu statistikada, hətta savadlılıq səviyyəsinə görə aydın görmək olar. Savadlılıq səviyyəsinin yüksək və aşağı olduğu ölkələrdə onların iqtisadi və intellektual potensialına baxsaq hər şey aydın olacaq: savadlılıq səviyyəsi ölkənin inkişaf səviyyəsinə və bu ölkələrdə baş verən proseslərə tam müvafiqdir. Odur ki, bizim üçün təhsilin yüksək səviyyəsi, Azərbaycan xalqının intellektual potensialının yüksək səviyyəsi ekstremizmə, populizmə, yalan vədlərə, kənardan təzyiqlərə qarşı peyvənddir. Cəmiyyət nə qədər çox savadlı və erudisiyalı olsa, bir o qədər də özünü təmin edən, daha ləyaqətli və hər cür gözlənilməz hallardan sığortalanmış olacaqdır. Ona görə də bu məsələlərin hamısı bir-biri ilə sıx bağlıdır.

Çıxışımı yekunlaşdıraraq demək istərdim ki, son nəticədə bu proseslərin mərkəzində insan, vətəndaş durur. Çox fəal sosial siyasətin həyata keçirildiyi Azərbaycanda bizim bütün planlarımızın, ideyalarımızın və nailiyyətlərimizin mərkəzində insan dayanır. Təsadüfi deyil ki, bir neçə il əvvəl mən «qara

qızıl»ı insan kapitalına çevirək» şüarını irəli sürmüşdüm. Düşünürəm ki, biz bu istiqamətdə istəyimizə nail ola biləcəyik. Yəni ki, bu proses davam edir, bütün planlarımızın, sərmayələrin, ideyaların mərkəzində insan, Azərbaycan vətəndaşı, onun hüquqları, azadlıqları, rifahı, təhlükəsizliyi durur.

Əminəm ki, Moskva Dövlət Universitetinin Bakı filialı bundan sonra da ən yüksək tələblərə cavab verəcək, inkişaf edəcək, tələbələrin və fakültələrin sayı artacaq və biz hamımız sizin yeni uğurlarınıza sevinəcəyik. Sizi bir daha təbrik edirəm, hamınıza uğurlar arzulayıram.

**Viktor Sadovniçi** (*M.V.Lomonosov adına MDU-nun rektoru, akademik):* Çox hörmətli İlham Heydər oğlu!

Hörmətli Mehriban xanım, Nərgiz xanım! Hörmətli Fövqəladə və Səlahiyyətli səfirlər!

Hörmətli Rusiya Federasiyası Prezidentinin köməkçisi Vladimir İlyiç Tolstoy!

Zalda olan hörmətli həmkarlar!

Moskva Universitetinin əziz müəllimləri! Ümumiyyətlə, bu auraya, Moskva Dövlət Universitetinin Bakı filialının kampusuna həyəcansız daxil olmaq mümkün deyildir. Bu, əsl həyəcandır, çünki bu, əsl universitetdir.

Tarixdən məlumdur ki, uzun əsrlər boyu universitetlər, məbədlər, məscidlər, kilsələr müəyyən xalqların, müəyyən məkanın və əlbəttə, dünyanın mədəniyyət rəmzi olaraq qalır. Ona görə də bu gün baş verən hadisə düşünürəm ki, yalnız çağdaş deyil, gələcək tarixə də daxil olacaqdır. Çünki burada universitet, təhsil və elm məbədi inşa edilib.

İlham Heydər oğlu! Sizə bütün bu dövr ərzində və indi də göstərdiyiniz böyük dəstəyə görə çox dərin minnətdarlığımızı bildiririk. 2007-ci ildə mən Sizinlə burada – Bakıda görüşmək şərəfinə nail oldum, filialın açılması barədə razılıq əldə edildi. 2008-ci ilin əvvəlindən inşası başladı və gözəl kampusun yaradılması ilə yekunlaşdı. Bu bir növ yanaşma üsuluna,

sakitliyinə, tələbələr, elmi tədqiqatlar və tədris prosesi üçün rahatlığına görə Moskva Universitetinin kampusunu xatırladır.

Nərgiz xanım! Sizin apardığınız işi mən yüksək qiymətləndirirəm. Siz bu işə bütün qəlbinizlə yanaşmısınız. Universitetlər də elə bu cür tikilir, insan öz qəlbini, ürəyini qoyur. Filial məhz belə tikilib. Mən yalnız binanı yox, sizin qəlbinizin zərrəsi ilə yaradılmış onun strukturunu, universitetin özünü nəzərdə tuturam. Çox sağ olun. Başa düşürük ki, universitet tikmək nə deməkdir, başqa universitetlərin, başqa filialların necə tikilməsini də görmüşük. Sözsüz ki, sizin dəstəyiniz və belə münasibətiniz olmasaydı, bu ola bilməzdi.

Burada heyrətamiz uyğunluq var. Burada dövlətin iradəsi və görkəmli insan – Prezidentin iradəsi özünü göstərir. Mən Prezidentin çıxışına qulaq asdım və deməliyəm ki, bu əslində möhtəşəm mühazirə idi. Şadam ki, bizim professorlar bunu eşitdilər. Burada bizim təxminən 50-yə qədər professor var. Çünki Rusiyada mən belə danışmalı olanda, bir çoxları artıq adət ediblər, düşünürlər ki, belə lazımdır. Ancaq onlar bunları real həyata keçirən dövlət liderini dinləyəndə isə düşünürəm ki, bu «kvadratdır», riyaziyyatçıların dediyi kimi, «n» dərəcəsindədir. Əlbəttə, yaxşı olardı ki, İlham Heydər oğlunun parlaq çıxışından sonra Moskva Universitetinə qayıdanda hisslərinizi, düşüncələrinizi həmkarlarınızla bölüşəsiniz.

Siz təhsil, elm və bu sahələrdə dövlətin siyasəti mövzusuna toxundunuz. Bu, Rusiya, xüsusilə də keçid mərhələsində hər bir ölkə üçün çox aktualdır. Biz həqiqətən də keçmişdəki münasibətlərimizlə fəxr edə bilərik. Bizim elmi məktəblərimiz elmi mənada vahid olduğu dövrdə mən fəal işləmək şərəfinə nail olmuşam. Biz o zaman ayrı-ayrı dövlətlərdə yaşadığımızın fərqinə varmırdıq. Həmin riyaziyyat, kimya, fizika, neft məhsullarının emalı üzrə məktəblər dünya səviyyəsində olan məktəblər idi. Azərbaycan universitetlərində işləyən alimləriniz sözsüz ki, dünya elminin elitasına daxil idilər. Həqiqətən də, Siz düz qeyd etdiniz ki, zaman ötür və o mərhələ ölkəmizdə, Rusiyada elm və təhsilə çox güclü zərbə vurdu. Başqa ölkələrdə də eyni

böhranlı proseslər baş verdi. Ancaq indi güc toplamağımız üçün hər şey var.

İcazə verin, bir alim kimi deyim ki, burada sanki 2 səviyyə vardır. Sözsüz ki, ümumi təhsil, məktəb, universitet təhsil səviyyəsi ölkənin tərəqqisi və bu tərəqqini elmdə tətbiq etməsi üçün zəruri şərtlərdir. Əgər bu fundamental baza yoxdursa, heç düşünmək lazım deyil ki, ölkə nəyəsə nail olacaqdır. Mənə elə gəlir ki, siz ölkənizdə faktiki olaraq bu əsasların yaradılması üçün indi hər şey edə bilmisiniz. Növbəti mərhələ Rusiyada da aktualdır. Bu, dünya səviyyəsində olan inkişaf istiqamətlərinə şəraitin yaradılmasıdır. İndi elm elə inkişaf edir ki, potensialı müasir avadanlıqla təchiz edilən, xarici ölkələrlə yaxşı əlaqələri olan, necə deyərlər, elmdə qələbələr üçün işləyən elmi məktəblərə cəmləmək lazımdır. Belə qrupların, belə laboratoriyaların, belə məktəblərin yaradılması vəzifəsi Rusiyada da mövcuddur. Bir neçə misal demək istəyirəm. Əsl müasir dərmanların bizdə artıq qəbul edildiyi kimi alınması üçün deyil, yaradılması üçün super hesablayıcılar, onların gücü petaflotlu və ya indi deyildiyi kimi, ekzaflotlu olmalıdır. Belə super hesablayıcılar dünyanın bir neçə ölkəsində – Yaponiyada, ABŞ-da, Çində vardır. Moskva Universitetində rəqabət apara bilən super hesablayıcılar mövcuddur. Baxmayaraq ki, o maşınlar onlarla aparıcı universitetdə vardır. Milyardlarla rubl sərmayə qoyulan yalnız bu cür maşınlar yeni dərmanlar yaratmaq və ya neft hasilatı, faydalı qazıntılarla bağlı kəşfiyyat, həmçinin kosmosun tədqiqi və sairə üçün hesablamalar aparmağa imkan verir. Rusiyada da potensialı bu cür mütərəqqi istiqamətlərə yönəltmək lazımdır. Əlbəttə, bu, vəsait və siyasət tələb edir. Təbii ki, dünyanın bir çox ölkəsində gedən təhsil islahatları, adətən, cəmiyyətdə müəyyən dəyişikliklərin baş verməsinin əlamətidir.

Təhsil də dəyişir, təhsil sistemində yeni islahatlar gedir. Hesablamışam ki, Rusiyada tarixən, I Pyotrun dövründən indiyədək 50-yə yaxın təhsil islahatı cəhdləri olub. Əgər təhsil islahatı ölkənin mentalitetinə uyğunlaşırsa, elmin və ya cəmiyyətin mentalitet bazasına əsaslanırsa, dünya meyillərini müşahidə edirsə, yalnız o zaman təhsil islahatının uğuruna nail olunur. Yalnız bu

şərtlərin birləşməsi zamanı islahatlar uğur qazanır. Öz məktəblərini yaratmadan qısa müddətə istənilən mənimsəmək, dəvət etmək cəhdləri, düşünürəm ki, uğursuzluğa məhkumdur. Zənnimcə, doğru yol keçmiş ənənələrə, mentalitetə və yaxşı elmi bazaya əsaslanan istiqamətlərin yaradılmasıdır.

Moskva Universitetinin filialı fikrimcə, məhz bu rolu oynayır. Burada doğrudan da Moskva Universitetinin ən yaxşı professorları və müəllimləri dərs deyirlər. Bu gün Rusiya Akademiyasının çox sayda görkəmli alimləri və akademikləri, professorları, Moskva Universitetinin kafedra müdirləri burada – bu zaldadırlar. Bu o deməkdir ki, filial elita hazırlamağa və gələcəkdə elmi avadanlıqla təchiz olunmaqla elmi istiqamətlər yaratmağa, digər universitetlər və Elmlər Akademiyası ilə əməkdaşlıq etməyə, bu tərəqqini həyata keçirməyə qadirdir. Özü də Rusiya və Azərbaycanın əməkdaşlığı çox yaxşı səviyyədədir. Biz də Moskva Universiteti olaraq, filialın inkişafına töhfə verməyə hazırıq. Düşünürəm ki, filialda yeni istiqamətlərin inkişafı və əsl fundamental elmin yaradılması üçün zəruri və kifayət qədər şərtlər vardır. Mən belə görürəm ki, bir neçə ildən sonra biz filial tələbələrinin nanotexnologiyalar, genlərin şifrələrinin açılması barədə danışılan laboratoriyalar görəcəyik, onların fəaliyyətinin hansısa elmi istiqamətlərə aid olduğunu eşidəcəyik. Bu cür mütəxəssis hazırlığı səviyyəsində bu, arzu deyil, reallıqdır.

Əlbəttə ki, universitet öz kompleksi ilə, çoxlu fakültələrin olduğu və bu fakültələrin bir-birini qarşılıqlı zənginləşdirdiyi təqdirdə güclüdür. Təbiət fakültələri humanitar fakültələrə daxil olur, öz metodlarını təqdim edir, humanitar elmlər də təbiət fakültələrinə daxil olur, mütəxəssisləri öz elmləri və yanaşmaları ilə zənginləşdirir. Biz Moskva Universitetində 6 illik təhsilə keçmişik və bu dırnaqarası artıq vaxt təbiət və humanitar elmlərin bir-biri ilə qarşılıqlı əməkdaşlığı üçün sərf olunur. Görünür, məhz gələcəkdə bu cür mütəxəssislər elmin ən yüksək pilləsində dayanacaqlar. Onlar dar profilə malik mütəxəssislər deyil, onlar qarışıq sahələri bilən, çox geniş universitet dünyagörüşünə malik mütəxəssislərdir. Bu mənada, biz artıq Nərgiz xanımla danışmışıq,

yeni fakültələrin yaradılması, təbiət və humanitar fakültələrin proqramlarının bir-birinə qarşılıqlı daxil olması gələcəkdə filialda təhsil səviyyəsini dərinləşdirəcək və yeni mərhələyə çıxaracaqdır.

Moskva Universitetinin digər universitetlərdən fərqli olaraq vəsait qazanmaq xatirinə açılan filialı yoxdur. Bilirik ki, universitetlərimizin Rusiyada və digər ərazilərdə açılan və lazımi elmi potensialla təmin edilməmiş 1500-ə yaxın filialı vardır. İndi ölkəmizdə bu filialların sıxışdırılması üzrə iş aparılır. Hətta konkret rəqəmlər göstərilir. Nazirlik onların ixtisar olunması vəzifəsini qarşıya qoyub. Yəqin ki, bu düzgündür. Demək istəyirəm ki, Moskva Universiteti heç vaxt bu cür məqsəd güdən filial yaratmayıb. Bizim 5 dövlətdə 5 filialımız var və bu filialların hamısı qarşılıqlı əməkdaşlıq prinsipi əsasında yaradılıb. Moskva Universitetinin professorları dərs demək üçün həmin ölkələrə, həmin filiallara gedirlər, biz də onlardan baza, təcrübə, tələbələrin yay tətili səfərləri kimi qarşılıqlı fayda götürürük. Əslində, bu ödənişsiz tələbə filiallarıdır, əməkdaşlığın düzgün yoludur. Biz əməkdaşlıq edib bir-birimizə kömək göstərməli, tarixi ənənələrimizi, köklərimizi xatırlayıb bir-birimizə danışmalıyıq. Biz filialın yaradıldığı zaman biznes faydası güdməməliyik. Əgər bu filial barədə danışırıqsa, mən onu universitetimizin mirvarisi hesab edirəm. Moskva Universitetinin heç bir filialı bu cür himayəyə, bu cür dəstəyə malik deyil. Bu, heyrətamiz birlikdir. Bakıya gələndə, filiala daxil olanda hiss edirsən ki, burada bütün işlər düzgün görülür.

Mən sizin təhsil siyasətinizdən xəbərdaram. Şəhərin siması heyrətamiz şəkildə dəyişir, yeni universitetlər yaradılır, insanlar üçün faydalı olan binalar, mehmanxanalar tikilir, sakinlər üçün rahatlıq yaradılır. Əlbəttə, Moskva Universitetinin filialı belə şəhərdə, belə ölkədə fəaliyyət göstərəndə biz təbii ki, bu əməkdaşlıqla, ölkə rəhbərliyinin bu cür münasibətilə fəxr edirik.

Bu gün biz bu binanı açdıq. İlham Heydər oğlu! Sözsüz ki, bu Sizin, dövlətinizin qələbəsidir. Həm də bu, sözsüz ki, bizim üçün, Moskva Universitetinin professorları üçün də böyük sevincdir. Bu kampusda dərs demək, burada olmaq bizim üçün çox xoş olacaq.

Biz elə işləyəcəyik, elə dərs deyəcəyik ki, tələbələr iftixarla desinlər: «Biz Moskva Dövlət Universitetinin Bakı filialını bitirmişik». Bir daha Azərbaycan Prezidentinə, bu filialın yaradılmasında əməyi olanların hamısına dərin təşəkkürümü bildirirəm.

**N ə r g i z  P a ş a y e v a** *(MDU-nun Bakı filialının rektoru, professor):* Hörmətli cənab Prezident!

Möhtərəm tədbir iştirakçıları!

Cənab Prezident, ilk növbədə Sizin bugünkü gəlişiniz, nitqiniz və 2008-ci il yanvarın 15-də dünyanın ən yaxşı ali təhsil müəssisələrindən biri olan M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin filialının Bakı şəhərində yaradılması haqqında tarixi fərmanınıza görə Sizə sonsuz minnətdarlığımı bildirmək istəyirəm. Çox sağ olun!

O vaxtdan 4 il keçib. Bu müddət ərzində biz işləmişik, vicdanla işləmişik, xeyli uğurlu nəticələr qazanmışıq. Bizdə 5 fakültə fəaliyyət göstərir, bizim ilk bakalavr buraxılışımız olub. Biz 3 fakültədə magistratura şöbələri yaratmışıq, tələbələrimizin Moskvada yaxşı nüfuzu vardır. Onlar bir çox beynəlxalq konfranslarda iştirak edir, əksər olimpiadaların mükafatlarını qazanırlar. Onlar yaxşı tələbələrdir və onlar da buna görə Sizə minnətdardırlar.

Ötən 4 il ərzində Moskva Dövlət Universitetinin 940 professor və müəllimi bizdə mühazirələr oxumuşdur. Bu, böyük rəqəmdir, yəni Bakıya 1000-ə yaxın adam gəlib. Bütün bu 4 ili biz – həm Bakı, həm də Moskva müəllimləri bir yerdə olmuşuq, açıq, nəcib və şərəfli yolla, universitet həyatı yolu ilə yanaşı addımlamışıq.

Hamımıza yaxşı məlumdur ki, universitet həyatı sadəcə, kitab müdrikliyi deyil. Bu, ilk növbədə şəxsiyyətlər və insanlar, onların dünyagörüşü, həyata münasibəti, mövqeyi, elmi potensialı, cəsarəti, bəzən də çox yüksək intellekti deməkdir. Axı alim ətrafımızda işıqlı məkan yaradan insandır. Təsadüfi deyildir ki, «intelligent» sözü Azərbaycan dilində «ziyalı» deməkdir. Beləliklə, alim şölə saçan ulduzdur. Bu cür ulduzlar

nə qədər çox olarsa, həyat bir o qədər işıqlı olar, bütövlükdə dünya üçün və bizim hər birimiz üçün daha fərəhli olar.

Mən buraya toplaşan bütün alimləri salamlamaq, onlara «çox sağ olun» demək və bir daha vurğulamaq istəyirəm ki, universitetlər bütün dövrlərdə təkcə insan biliklərinin qoruyucuları və daşıyıcıları deyil, həm də bəşər zəkasının və ürəyinin, xeyirxah əməllərin qoruyucuları olublar. Siz hamınız zəka və qəlbin gördüyü xeyirxah əməllərin sahiblərisiniz. Çox sağ olun!

Bugünkü pedaqoq müasir həyata düzgün istiqamətlənməlidir. O öz yetirməsinə, tələbəsinə düzgün məsləhətlər verməyi bacarmalıdır. Həmin gənc gələcəkdə müasir, hər gün dəyişən mürəkkəb cəmiyyətdə və dünyada özünə düzgün yol seçməlidir. O, düzgün vərdişlərə sahib olmalıdır. Onun bir çox həyati məsələlərə yaxşı yanaşma tərzi olmalıdır. Doğru və ən başlıcası düzgün qərar qəbul etməyi bacarmalıdır. Bu vəzifələri yerinə yetirmək mümkündür. Belə ki, biz müəllimlər Qoqolun kiçik bir tezisini əsas götürürük. O yazırdı: «Yaxşı nümunə qaydadan daha yaxşıdır». Biz öz nümunəmizlə tələbələrə təhsilin, müəllim sözünün əhəmiyyətini, heç kimə pozmaq haqqı verilməyən universitet qanunlarının və məcəllələrinin ədalətli olduğunu nümayiş etdiririk. Beləliklə, biz müəllimlər öz nümunəmizlə gənc nəslə düzlük, alicənablıq, aşkarlıq, əməyə məhəbbət, ali dəyərlərə sevgi aşılamaq istəyirik. Əlbəttə, onlar Vətəni çox sevməlidirlər, öz ənənələrini dəyərləndirməlidirlər, öz köklərini yaddan çıxarmamalıdırlar. Onlar gələcəkdə öz Vətənlərini şöhrətləndirməli, doğma Azərbaycan dilini, gözəl Azərbaycan ədəbiyyatını və əlbəttə ki, öz tarixlərini sevməlidirlər. Onlar bütün bunları özlərinə aşılamalıdırlar və biz ali məktəbimizi bitirən tələbənin təkcə yaxşı mütəxəssis deyil, həm də yaxşı insan olması üçün əlimizdən gələni etməyə çalışırıq. Bu bizim hamımız üçün çox önəmlidir.

Cənab Prezident, fürsətdən istifadə edərək gənclərimizin ölkəni tərk etmədən pulsuz təhsil almaları, dünyanın ən nüfuzlu və ən yaxşı ali məktəblərindən biri olan Moskva Dövlət Universitetinin diplomunu almaq imkanını yaratdığınıza görə

Sizə ali məktəbimizin bütün tələbələri və onların valideynləri adından bir daha təşəkkür etmək istəyirəm. Cənab Prezident, mən bu minnətdarlıq sözlərini şəxsən Sizə çatdırıram. Çox sağ olun!

Cənab Prezidentin və Viktor Antonoviçin tamamilə doğru və düzgün qeyd etdikləri kimi, bir vaxtlar fakültə seçimi cəmiyyətdə fundamental elmlərin əvvəlki nüfuzunu bərpa etmək arzusu ilə şərtlənirdi. Axı böyük elmin sıraları bazar qanunlarının və konyunkturanın təsiri və diktəsi ilə dağılmamalıdır. Çox istərdik vurğulayaq ki, burada təkcə tələbə hazırlamağa deyil, həm də böyük elmə həvəs göstərəcək, böyük elmdə qalacaq və bu istiqamətdə özlüyündə çox zəngin olan Azərbaycanımızın gələcəkdə də elmi ictimaiyyətini və elm tarixini şöhrətləndirəcək alimlər yetişdirməyə çalışırıq.

Biz bilirik ki, müasir dünya texnologiya dünyasıdır. Biz bilirik ki, dünyada xeyli elmi-texnoloji araşdırmalar baş verir. Lakin qeyd etmək lazımdır ki, istənilən texnoloji araşdırmalar, istənilən texnoloji ideyalar, tədqiqatlar, hansısa istiqamətlər əvvəl-axır bu və ya digər şəkildə humanitar problemlərlə toqquşur, humanitar məsələlərdə qapanır. Humanitar elmlər çox vacibdir. Humanitar və texnoloji elmlərin birliyi bu gün doğru birlikdir. Belə ki, müasir dünya birmənalı deyil, çoxtərəflidir və mənə elə gəlir ki, XXI əsr aliminin nəzər bucağı çox geniş olmalıdır. O çox kompleksli olmalıdır, sırf texnar olmamalıdır, sırf humanitar sahə alimi də olmamalıdır. Elə məktəblər, elə məkanlar yaratmaq lazımdır ki, humanitar məktəb və texniki məktəb kimi, 2 böyük istiqamət birlikdə işləsin, əməkdaşlıq etsin və hansısa yeni kompleks yanaşmalar yaratsın. Bu təkcə hansısa elmi mənimsəmə deyil, eyni zamanda, müasir dünyada bu gün baş verən hər şeyi mənimsəmə yanaşması olmalıdır. Buna alimlərin gücü çatar. Bu, alim sözüdür və alimlər bütün dövrlərdə gələcək barədə dəqiq xəbər veriblər. Alim sözü həmişə özünü doğruldub və həmişə alimlərin dedikləri müəyyən yollarla həyata keçib.

Mən həmçinin bizim Bakı filialının işçilərinə təşəkkür etmək istəyirəm. Onlar ötən 4 il ərzində qüvvələrini əsirgəmədən işləyiblər, bizim bütün fikirlərimizin, bütün planlarımızın həyata keçməsi üçün əllərindən gələni ediblər. Mən onlara təşəkkür edirəm və bir daha qeyd edirəm ki, əgər həmin məqsədyönlü yanaşma, dövlətin dəstəyi olmasaydı, prezident özü şəxsən bizi dəstəkləməsəydi, bütün bunlara nail ola bilməzdik.

Bizim böyük müəllim potensialımız vardır. Biz hər gün görkəmli insanlarla ünsiyyət saxlamaq şərəfinə nail oluruq. Mən bunu şəxsən özüm üçün xoşbəxtlik sayıram. Çünki hər gün işə gələrkən, sadəcə, hansısa adət etdiyim işə gəlmirəm. Mən şəxsiyyətlərin, bəzən dahi şəxsiyyətlərin dəhlizdə addımladığı yerə gəlirəm. Onlar adi adamlar kimi gəzirlər, amma mən yaxşı bilirəm ki, o adam adi deyil, xüsusi insandır. Onda elə keyfiyyətlər var ki, bunu heç vaxt heç yerdə və heç kəsdə tapmaq olmaz. Buna görə mən sizi çox sevirəm. Sizin çəkdiyiniz zəhmətə və bu müddətdə bizim üçün, tələbələrimiz və müəllimlərimiz üçün etdiklərinizə görə təşəkkür edirəm. Moskva Universitetinin bütün müəllimlərinə təşəkkür edirəm.

2 il əvvəl tikinti başlandı. İnşaat işləri asan olmasa da, bizim hamımız üçün çox arzu edilən idi. Nəhayət, tikinti başa çatdı. Amma biz yenə tikəcəyik. Biz sözün əsl mənasında deyil, məcazi mənasında yenə tikəcəyik. Biz gələcək münasibətlərimizi, planlarımızı, perspektivlərimizi quracağıq, biz hansısa təhsil, elmi proqramlarımızı yaradacağıq, biz ümidlərimizi, nəhayət, gələcəyimizi, əlbəttə ki, universitetimizin gələcəyini quracağıq. Bu mənada, hesab edirəm ki, Bakı filialının da xüsusi vəzifəsi vardır. Əməkdaşlar, insanlar bir-biri ilə yaxınlaşırlar. Bu zaman elm adamlarını bir-birinə yaxınlaşdırır. Rusiyanın və Azərbaycanın alimləri elmi qarşılıqlı şəkildə zənginləşdirməklə keçmiş, lakin təəssüf ki, itirilmiş elmi əlaqələri yenidən bərpa edə bilərlər. Bu da çox vacibdir. Bu vəzifə də bizim ali məktəbin çiyinlərinə düşüb və Moskva Universitetinin, rektor Viktor Antonoviçin köməyi ilə biz həm dövlətin, həm sadə vətəndaşların, həm də bu salonda

əyləşən insanların ümidlərini doğrultmaq üçün əlimizdən gələni edirik. Çünki tələbələr bizim müəssisənin əsas simalarıdır. Hər şey sizin xatirinizə, hər şey sizin üçün edilir ki, bütün bunları unutmayasınız.

Mən buraya toplaşanların hamısına bir daha təşəkkürümü bildirmək istəyirəm. Cənab Prezident, həddən artıq məşğul olmağınıza baxmayaraq, bizə xüsusi diqqət yetirib şərəfləndirdiyinizə, gəlib kampusumuzu açdığınıza görə bütün kollektivimiz adından Sizə bir daha təşəkkür etmək istəyirəm. Bizə tez-tez gəlin! Mən bu kampusun tikintisi zamanı bizə kömək edən, bizim üçün həyəcan keçirən, bütün işlərimizin çox yaxşı olmasını istəyən insanlara da minnətdarlıq etmək istəyirəm. Mən bu gün buraya gəlib təntənəmizə qatılan qonaqlarımıza da minnətdarlığımı bildirirəm. Mənə elə gəlir ki, böyük Hötenin sözlərini xatırlamaq yaxşı olardı: «Gənclik tezliklə ötüb-keçən qüsurdur». Amma universitetdə bu cür qüsurlar olmur. Universitetlər gəncliksiz olmur. Burada gənclik yaşayır və ötüb keçmir.

Universitetin astanasına ayaq basan hər bir insan istər-istəməz öz gəncliyini, öz tələbəlik illərini xatırlayır və bu məqamda yenə Hötenin sözlərini demək istəyir: «Dayan, zaman, sən çox gözəlsən». Ona görə də dayan zaman, sən çox gözəlsən. Biz hamımız bir yerə toplaşmışıq, bizim üçün əlamətdar gündür, çox gözəl hadisə baş verib. Bu hadisənin əhəmiyyəti həmişəlik tarixdə qalacaqdır. Bu gün dostlarımız, iş yoldaşlarımız bizimlədir. Azərbaycanın Prezidenti bizimlədir. Düşünürəm ki, bu bizim ali təhsil müəssisəmizin tarixində ən parlaq və ən yaxşı gündür. Mən bir daha hamınıza təşəkkür edirəm.

Moskva Dövlət Universitetinə eşq olsun!

Onun Bakı filialı çiçəklənsin! Yaşasın Azərbaycan!

* * *

*Daha sonra prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva kompleksin əl oyunları zalı, üzgüçülük hovuzu və trenajor zalında yaradılmış şəraitlə tanış oldular.*

**ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB HU SZİNTAOYA**

Hörmətli cənab Sədr!

Milli bayramınız – Çin Xalq Respublikasının Yaranması Günü münasibətilə Sizi və bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Bu gün Azərbaycan–Çin münasibətləri dinamik və hərtərəfli inkişaf yolundadır. Dost ölkələrimiz arasında daim genişlənən işgüzar əlaqələr, bir sıra sahələri əhatə edən səmərəli əməkdaşlığımız dərin tarixi kökləri olan ənənələrimizin yeni müstəvidə inkişafının bariz ifadəsidir.

Əminəm ki, yüksək səviyyəli dövlətlərarası münasibətlərimiz, beynəlxalq qurumlar çərçivəsində qarşılıqlı dəstəyimiz bundan sonra da ölkələrimizin mənafelərinə, xalqlarımızın rifahına xidmət edəcəkdir.

Hörmətli cənab Sədr, belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Çin xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *27 sentyabr 2012-ci il*

**ALMANİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB YOAXİM QAUKA**

Hörmətli cənab Prezident!

Almaniya Federativ Respublikasının milli bayramı – Alman Birliyi Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi yetirirəm.

Biz Azərbaycan–Almaniya münasibətlərinin inkişafına böyük əhəmiyyət veririk. Xalqlarımızı birləşdirən çoxşaxəli dostluq əlaqələri, qarşılıqlı maraq doğuran əməkdaşlığımızın geniş əhatə dairəsi bu mənada xüsusi məmnunluq doğurur.

Ümidvaram ki, ikitərəfli qaydada həyata keçirdiyimiz işlərin müvəffəqiyyətlə davam etdirilməsi, eləcə də Avropa strukturları çərçivəsində tərəfdaşlığımızın dərinləşdirilməsi yolunda bundan sonra da ardıcıl səylər göstərəcəyik.

Hörmətli cənab Prezident, belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı yetirir, dost Almaniya xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *27 sentyabr 2012-ci il*

**KOREYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB Lİ MEN BAKA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Dövlətin Yaranması Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan Respublikası ilə Koreya Respublikası arasındakı dostluq münasibətləri, daim genişlənən əməkdaşlığımız bundan sonra da xalqlarımızın rifahına töhfələr verəcəkdir.

Hörmətli cənab Prezident, bu bayram günündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, Koreya Respublikasının dost xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *27 sentyabr 2012-ci il*

**İSPANİYA KRALI ƏLAHƏZRƏT**
**I XUAN KARLOSA**

Əlahəzrət!

İspaniya Krallığının milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi yetirirəm.

Ümidvaram ki, birgə səylərimizlə dostluq və əməkdaşlıq əlaqələrimizin ikitərəfli və çoxtərəfli çərçivədə ölkələrimizin və xalqlarımızın mənafelərinə uyğun olaraq daha da genişlənməsinə və inkişaf etməsinə nail ola bilərik.

Əlahəzrət, belə bir xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İspaniya xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *27 sentyabr 2012-ci il*

## ZABRAT–MAŞTAĞA–BUZOVNA VƏ ZABRAT–PİRŞAĞI AVTOMOBİL YOLLARININ YENİDƏNQURMADAN SONRAKI VƏZİYYƏTİ İLƏ TANIŞLIQ

*27 sentyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 27-də Zabrat–Maştağa–Buzovna və Zabrat–Pirşağı avtomobil yollarının əsaslı təmir və yenidənqurma işlərindən sonrakı vəziyyəti ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısının müvafiq sərəncamlarına uyğun olaraq «Bakı şəhərində nəqliyyat sisteminin təkmilləşdirilməsi üzrə 2006–2007-ci illər üçün Tədbirlər Planı», eləcə də «Bakı şəhərində nəqliyyat sisteminin təkmilləşdirilməsi üzrə 2008–2013-cü illər üçün əlavə Tədbirlər Planı» çərçivəsində son illər paytaxtın müxtəlif rayonlarında genişmiqyaslı tədbirlər həyata keçirilmiş, çoxlu sayda yolötürücü, körpü, tunel, yeraltı və yerüstü piyada keçidləri inşa edilərək, müasir tələblər səviyyəsində yeni avtomobil yolları salınıb. Bu cür qurğuların və yolların inşası paytaxtın müxtəlif rayonlarında hazırda davam edir.*

*Nəqliyyat naziri Ziya Məmmədov Zabrat–Maştağa–Buzovna və Zabrat–Pirşağı avtomobil yollarında görülmüş əsaslı təmir və yenidənqurma işlərindən sonra texniki göstəricilər barədə prezident İlham Əliyevə məlumat verdi. Bildirildi ki, Sabunçu yol qovşağından Zabrat dairəsinə qədər olan avtomobil yolunun yenidən qurulması Bakı şəhərinin Sabunçu, Balaxanı, Zabrat, Maştağa, Kürdəxanı, Pirşağı və Məhəmmədli qəsəbələrinin nəqliyyat əlaqəsinin yaxşılaşdırılmasına, şəhərin mərkəzinə gələn nəqliyyat vasitələrinin normal gediş-gəlişinə şərait yaradacaqdır. Qeyd olundu ki, 2012-ci ilin martında yolda kommunikasiya, su, kanalizasiya və digər xətlərin çəkilişinə başlanıldığından yol nəqliyyatın hərəkəti üçün yarar-*

*sız vəziyyətə düşmüş və əsaslı təmirə zərurət yaranmışdır. Burada yolun genişləndirilməsi ilə bağlı bütün lazımi tədbirlər görülmüşdür. Uzunluğu 7 kilometrə yaxın olan yolun hərəkət hissəsinin eni 23 metr, hərəkət zolaqlarının sayı 6-dır.*

*Sabunçu yol qovşağından Zabrat dairəsinə qədər olan avtomobil yolunun yenidən qurulması və genişləndirilməsi işlərinə 2012-ci ilin iyununda başlanılıb və yenidənqurma işləri bu ilin sentyabrında başa çatıb. Bilgəh, Buzovna, Maştağa, Nardaran, Kürdəxanı və Abşeron yarımadasının şimal hissəsində yerləşən digər kənd və qəsəbələrin Bakı şəhəri və respublikanın digər rayonları ilə nəqliyyat əlaqələrinin daha da yaxşılaşdırılması, həmçinin Buzovna–Mərdəkan–aeroport–Bakı istiqamətindəki mövcud yola alternativ yol kimi, 15 kilometrlik və 6 cərgəlik Buzovna–Zabrat yolunun yenidən qurulması da nəzərdə tutulur. Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən icrasına başlanılmış 9 kilometrlik Pirşağı–Zabrat yolunun yenidən qurulması isə yarımadanın şimal hissəsində yerləşən və 200 mindən çox əhalisi olan kənd və qəsəbələrin nəqliyyat əlaqəsini daha da yaxşılaşdıracaqdır.*

*Görülmüş işlərlə yaxından tanış olan dövlət başçısı müvafiq tapşırıqlarını verdi.*

## «KÖRPÜLƏRİN SALINMASI» BEYNƏLXALQ KONFRANSIN İŞTİRAKÇILARI İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*27 sentyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 27-də «Körpülərin salınması» beynəlxalq konfransda iştirak etmək üçün Bakıya gələn Avropa Komissiyasının sabiq prezidenti Jak Santeri, Fransanın sabiq Nəqliyyat naziri, deputat Tierri Marianini, Türkiyənin sabiq Baş naziri Məsud Yılmazı, Niderlandın sabiq Müdafiə naziri Villem Van Eekeleni, Sloveniyanın sabiq Xarici İşlər naziri, Avropa Parlamentinin deputatı İvo Vajqlı, Sloveniyanın sabiq İqtisadi İnkişaf naziri Mitya Qasparini, Almaniyanın sabiq Nəqliyyat və İnfrastruktur naziri Kurt Bodeviqi, Danimarka şahzadəsi Kristian zu Şambur-Lippeni və Avropa Məsələləri üzrə İnstitutun İdarə Heyətinin sədri Yurgen Qramkeni qəbul etmişdir.*

**İ l h a m Ə l i y e v:** Xoş gəlmisiniz, sizi görməyimə çox şadam! Ümid edirəm ki, ölkəmizdə vaxtınız xoş keçəcək. Bilirəm ki, siz bu gün «Körpülərin salınması» mövzusunda konfransda iştirak edirsiniz. Düşünürəm ki, konfrans üçün gözəl mövzu seçilib və Azərbaycanda gedən prosesləri əks etdirir. Fikrimcə, körpülərin salınması bizim regionda, dünyada və müxtəlif mədəniyyətlər arasında xarici siyasətimizin əhəmiyyətli istiqamətlərindən biridir. Sizin əksəriyyətiniz artıq ölkəmizdə olmusunuz və Azərbaycanın qədim tarixi və bugünkü inkişafından məlumatlısınız. Mən çox şadam ki, müxtəlif ölkələrdən olan insanlar burada bir araya gəlib.

*«Biz əsas diqqəti körpülərin necə qurulmasına, qarşılıqlı etimadın artırılmasına yönəltməliyik» – deyən prezident İlham Əliyev bildirdi ki, regionda mühüm rol oynayan Azərbaycanın qədim tarixi və bugünkü inkişafı aydın şəkildə göstərir ki,*

*qarşılıqlı anlaşma ancaq qarşılıqlı etimad və hörmət əsasında yaradılmalıdır. Dövlətimizin başçısı vurğuladı ki, ölkəmizdə bütün xalqlar və müxtəlif dini etiqadların nümayəndələri əsrlər boyu bir ailə kimi yaşayıb və xalqımız bununla fəxr edir.*

*«Bizim keçən il qeyd etdiyimiz 20 illik müstəqilliyimiz bu müsbət meyli ancaq gücləndirib» deyən prezident İlham Əliyev ölkəmizin ümumi inkişafının müsbət olduğunu, siyasi və iqtisadi islahatların aparılmasında böyük nailiyyətlər əldə edildyini diqqətə çatdırdı. Avropa strukturları ilə əməkdaşlığın uğurlu olduğunu deyən dövlətimizin başçısı Azərbaycanın bu sahədə bundan sonra daha çox tərəqqiyə ümid etdiyini və bir-birimizin maraqlarını əhəmiyyətli dərəcədə dəstəkləyə biləcəyimizi söylədi. Prezident İlham Əliyev qeyd etdi ki, biz siyasi transformasiya, siyasi islahatlar, enerji təhlükəsizliyi, daşıma infrastrukturu və humanitar sahələrdə mühüm işlər görürük. Bununla yanaşı, biz Beynəlxalq Təhlükəsizliyə Yardım Qüvvələrinin Əfqanıstanda apardığı əməliyyatlarda fəal iştirak edirik.*

Azərbaycanın keçən il BMT Təhlükəsizlik Şurasına üzv seçilməsi təkcə gənc bir dövlətin tarixində əlamətdar hadisə deyildi. Bu həmçinin bizə mövqemizin, gündəliyimizin nədən ibarət olduğunu, sülh və sabitliyin yaranmasında beynəlxalq səylərə necə dəstək ola biləcəyimizi bütün dünyaya nümayiş etdirməyə imkan verir. Bizim daxili problemimiz var. Bildiyiniz kimi, ən böyük problemimiz artıq 20 ildir davam edən işğaldır. Ərazilərimizin əhəmiyyətli hissəsi – Dağlıq Qarabağ və heç vaxt erməni əhalisinin məskunlaşmadığı və Dağlıq Qarabağın inzibati ərazisinə daxil olmayan ətraf rayonlar işğal altındadır. 20 ildir ki, beynəlxalq vasitəçi qrup fəaliyyət göstərir. Heç bir nəticə yoxdur. 18 ildir ki, regionda ancaq kövrək sülhün qorunmasına yardım edən atəşkəs rejimi hökm sürür. Amma məsələnin ən vacib tərəfi ondan ibarətdir ki, biz BMT Təhlükəsizlik Şurasının işğalçı erməni birləşmələrinin torpaqlarımızdan dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən qətnamələrinin yerinə yetirilməsinə nail ola bilmirik. Bu həqiqətən də çox təhlükəli vəziyyətdir. «Nə sülh, nə də müharibə» şəraiti həmişəlik davam edə bilməz. Lakin

ermənilər bu status-kvonu möhkəmlətmək istəyirlər, heç nəyi dəyişmək və işğal olunmuş əraziləri boşaltmaq istəmirlər. Həmsədr ölkələrin – Fransa, Rusiya və ABŞ liderlərinin onlara ünvanlanan ismarıclarına qulaq asmırlar. Bu liderlər aydın şəkildə ismarıc göndəriblər ki, status-kvo qəbuledilməzdir və dəyişdirilməlidir. Status-kvonu dəyişmək üçün onlar geri çəkilməlidirlər. Bu həqiqətən də bizim üçün ən böyük problemdir. Bu həm də regional sabitlik və təhlükəsizlik üçün ən ciddi problemdir. Çünki münaqişə dondurulmayıb, amma sülh olduqca kövrəkdir.

Əminəm ki, siz görüşləriniz zamanı maraqlı müzakirələr aparacaqsınız. Ümid edirəm ki, Azərbaycanla bağlı daha çox məlumat almaq və bu inkişafı görmək imkanınız olacaqdır.

**Yurgen Qramke** *(Avropa Məsələləri üzrə İnstitutun İdarə Heyətinin sədri):* Bizim əsas fəaliyyət istiqamətlərimiz bunlardır. Birincisi imic, digəri, istiqamət infrastruktur, üçüncüsü bütün bunların beynəlxalq səviyyədə təqdim olunması, sonuncusu isə innovasiyadır. Biz 4 panel – siyasi məsələlər, iqtisadiyyat, idman və təhsil panellərini keçirəcəyik. Qeyd etdiyim kimi, biz bunları beynəlxalq səviyyədə təqdim etmək fikrindəyik. Siz beynəlxalq səviyyədə körpülərin qurulması istiqamətində addım-addım irəliləyirsiniz. Düşünürəm ki, siyasi, iqtisadi, idman və təhsil sahələri olduqca əhəmiyyətlidir.

Bəzilərimiz ilk dəfədir ki, Bakıdayıq. Biz Sizə, Sizin fəaliyyətinizə və xalqınıza ən böyük arzularımızı çatdırırıq, biz burada çox gözəl vaxt keçirdik. Təşəkkür edirəm.

## FRANSA SENATININ ENERJİ ARAŞDIRMA QRUPUNUN HƏMSƏDRİ SENATOR LADİSLAS PONİATOVSKİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*1 oktyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 1-də Fransa Senatının enerji araşdırma qrupunun həmsədri senator Ladislas Poniatovskinin başçılıq etdiyi senatorlar xanım Delfin Batay, Kristof-Andre Frassa və Jan-Klod Leniordan ibarət nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Fransa Senatının enerji araşdırma qrupunu təmsil edən senatorların ölkəmizə səfərinin Azərbaycan ilə Fransa arasında əlaqələrin daha da genişləndirilməsi işinə xidmət edəcəyinə ümidvar olduğunu vurğuladı. Fransaya bu yaxınlarda səfər etdiyini məmnunluqla xatırladan prezident İlham Əliyev bildirdi ki, prezident Fransua Olland ilə görüşü və səfər zamanı keçirdiyi digər görüşlər Azərbaycan–Fransa münasibətlərinin strateji xarakter daşıdığını bir daha təsdiqlədi. Əlaqələrimizin inkişafında parlamentlərarası əməkdaşlığın önəmini qeyd edən dövlətimizin başçısı Fransa Senatı nümayəndələrinin ölkəmizə səfərinin bu əməkdaşlığın daha da gücləndirilməsi işinə töhfə verəcəyinə əminliyini bildirdi.*

*Nümayəndə heyətinin bütün üzvlərinin Fransa Senatının enerji araşdırma qrupunu təmsil etdiyini vurğulayan Ladislas Poniatovski ölkələrimiz arasında mövcud əlaqələrin bütün sahələrdə, xüsusilə enerji sektorunda daha da genişləndirilməsində maraqlı olduqlarını dedi. Ladislas Poniatovski Azərbaycan prezidenti İlham Əliyevin Fransa prezidenti Fransua Olland ilə görüşən ilk prezidentlərdən biri olmasını xüsusi vurğuladı.*

## LATVİYA RESPUBLİKASININ KEÇMİŞ PREZİDENTİ VAYRA VİKE-FREYBERQA İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*1 oktyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 1-də Latviya Respublikasının keçmiş prezidenti Vayra Vike-Freyberqanı qəbul etmişdir.*

*Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişafından məmnunluq ifadə olundu, Bakı Beynəlxalq Humanitar Forumunun əhəmiyyəti vurğulandı, foruma olan beynəlxalq marağın önəmi qeyd olundu.*

*Latviyanın keçmiş prezidenti Vayra Vike-Freyberqa Bakıda və Gəncədə gedən sürətli inkişaf proseslərinin onda böyük təəssürat oyatdığını dedi.*

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB VLADİMİR PUTİNƏ**

Hörmətli Vladimir Vladimiroviç!

Əlamətdar yubileyiniz – anadan olmağınızın 60 illiyi münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Bu gün dost Rusiya Sizin rəhbərliyiniz altında cəmiyyət həyatının bütün sahələrinin təkmilləşdirilməsi və modernləşdirilməsi yolu ilə ardıcıl surətdə irəliləyir. Ölkənin beynəlxalq aləmdə artan nüfuzu, dünyada baş verən proseslərə münasibətdə onun fəal mövqeyi Sizin adınızla bağlıdır.

Siz Azərbaycan ilə Rusiya arasında ənənəvi dostluq və mehriban qonşuluq münasibətlərinin möhkəmlənməsinə və genişlənməsinə sanballı şəxsi töhfələr vermisiniz. Sevindirici haldır ki, bu münasibətlər keyfiyyətcə yeni inkişaf səviyyəsinə çatmışdır və indi strateji tərəfdaşlıq xarakteri daşıyır.

Əminəm ki, bizim dövlətlərarası münasibətlərimiz, çoxsahəli əməkdaşlığımız və qarşılıqlı fəaliyyətimiz xalqlarımızın rifahı, Qafqazda sülh, sabitlik və təhlükəsizlik naminə bundan sonra da hərtərəfli və dinamik inkişaf edəcəkdir.

Bizim aramızda yaranmış etimadı, dostluq münasibətlərini yüksək qiymətləndirirəm.

Əziz Vladimir Vladimiroviç, Sizə və bütün ailənizə səadət, firavanlıq və uğurlar arzulayıram.

*Dərin hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *2 oktyabr 2012-ci il*

## QIRĞIZ RESPUBLİKASININ SABİQ PREZİDENTİ ROZA OTUNBAYEVA İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*2 oktyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 2-də Qırğız Respublikasının sabiq prezidenti Roza Otunbayevanı qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Qırğızıstan arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulandı, əlaqələrimizin daha da genişləndirilməsi üçün böyük imkanların olduğu qeyd edildi.*

*Azərbaycanda bir neçə dəfə səfərdə olduğunu vurğulayan xanım Roza Otunbayeva Bakıda, Gəncədə və respublikamızın digər regionlarında böyük infrastruktur layihələrinin həyata keçirilməsinin şahidi olduğunu dedi, ötən dövr ərzində ölkəmizin əldə etdiyi iqtisadi uğurların onda dərin təəssürat yaratdığını qeyd etdi.*

## ESTONİYA RESPUBLİKASININ SABİQ PREZİDENTİ ARNOLD RÜÜTEL İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*2 oktyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 2-də Estoniya Respublikasının sabiq prezidenti Arnold Rüüteli qəbul etmişdir.*

*Görüşdə Bakı Beynəlxalq Humanitar Forumuna marağın ildən-ilə artdığı vurğulandı, müzakirə olunacaq mövzuların əhəmiyyəti qeyd edildi, qarşıda duran məsələlərin həlli ilə bağlı ümumi meyarların işlənib hazırlanması baxımından forumun vacibliyi bildirildi. Forumda müxtəlif mədəniyyətlərin və sivilizasiyaların nümayəndələrinin iştirakının önəmi qeyd olundu.*

*Görüşdə, həmçinin Azərbaycan ilə Estoniya arasında ikitərəfli münasibətlərin inkişafının razılıq doğurduğu bildirildi, əlaqələrimizin daha da genişlənəcəyinə əminlik ifadə olundu.*

## BMT-nin AZƏRBAYCANDAKI REZİDENT-ƏLAQƏLƏNDİRİCİSİ FİKRƏT AKÇURA İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*2 oktyabr 2012-ci il*

*Azərbaycan Respublikasının* Prezidenti *İlham Əliyev oktyabrın 2-də BMT-*nin *ölkəmizdəki* rezident-*əlaqələndiricisi Fikrət Akçuranı fəaliyyət müddətinin başa çatması ilə əlaqədar qəbul etmişdir.*

*BMT-*nin rezident-*əlaqələndiricisi Fikrət Akçuranın ölkəmizlə BMT arasında əməkdaşlığın genişləndirilməsi işindəki xidmətlərini vurğulayan dövlətimizin başçısı* onun *Azərbaycandakı fəaliyyətini yüksək qiymətləndirdi və gələcək fəaliyyətində uğurlar arzuladı.*

*Fikrət Akçura ölkəmizdə gedən davamlı inkişaf* proseslərinin *önəmini vurğuladı, Azərbaycandakı* diplomatik *fəaliyyətindən məmnunluğunu ifadə* etdi.

## BOLQARISTAN RESPUBLİKASININ SABİQ PREZİDENTİ GEORGİ PIRVANOV İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*3 oktyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də Bolqarıstanın sabiq prezidenti Georgi Pırvanovu qəbul etmişdir.*

*Bolqarıstanın keçmiş prezidenti Georgi Pırvanovun Bakı Beynəlxalq Humanitar Forumunda iştirakının əhəmiyyətini qeyd edən dövlətimizin başçısı tədbirə dünyada və regionda böyük marağın olduğunu bildirdi. Forumda 70-dən çox ölkədən 600-dən artıq nümayəndənin iştirak etdiyini vurğulayan prezident İlham Əliyev tədbiri humanitar əməkdaşlıq sahəsində mühüm beynəlxalq layihə kimi dəyərləndirdi.*

*Georgi Pırvanov Bolqarıstanın dövlət başçısı vəzifəsində çalışarkən Azərbaycan prezidenti İlham Əliyevlə həyata keçirdikləri birgə səylər nəticəsində ölkələrimiz arasında əməkdaşlıq münasibətlərinin yüksək səviyyəyə qalxdığını məmnunluqla qeyd etdi. Georgi Pırvanov dostluq əlaqələrinin gələcəkdə də davam etdiriləcəyinə ümidvar olduğunu bildirdi.*

## İSESKO-nun BAŞ DİREKTORU ƏBDÜLƏZİZ BİN OSMAN ƏL-TÜVEYCRİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*3 oktyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də İSESKO-nun baş direktoru Əbdüləziz bin Osman əl-Tüveycrini qəbul etmişdir.*

*İSESKO-nun baş direktoru Əbdüləziz bin Osman əl-Tüveycri təşkilatın fəaliyyətinə göstərdiyi yüksək qayğıya və dəstəyə görə İSESKO-nun 30 illiyinə həsr olunmuş emblemi dövlətimizin başçısına təqdim etdi.*

*Azərbaycan prezidenti İlham Əliyev Əbdüləziz bin Osman əl-Tüveycrinin Bakı Beynəlxalq Humanitar Forumunda iştirakının önəmini qeyd etdi.*

*Görüşdə Bakı Beynəlxalq Humanitar Forumunun əhəmiyyəti vurğulandı, forumun artıq ənənəyə çevrildiyi məmnunluqla qeyd olundu. Görüşdə, həmçinin Azərbaycan ilə İSESKO arasında uğurlu əməkdaşlığın bundan sonra daha da genişlənəcəyinə əminlik ifadə edildi.*

# İTALİYA RESPUBLİKASININ SABİQ XARİCİ İŞLƏR NAZİRİ FRANKO FRATTİNİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*3 oktyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 3-də İtaliya Respublikasının sabiq Xarici İşlər naziri Franko Frattinini qəbul etmişdir.*

*Görüşdə Bakı Beynəlxalq Humanitar Forumunun ölkələrarası əməkdaşlığın genişləndirilməsi baxımından önəmi qeyd olundu, foruma marağın getdikcə daha da artdığı bildirildi.*

*Görüşdə, həmçinin Azərbaycan ilə İtaliya arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyi vurğulandı, əlaqələrimizin bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu, Azərbaycan–İtaliya və Azərbaycan–Avropa İttifaqı əməkdaşlığına dair məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## LATVİYA RESPUBLİKASININ SABİQ PREZİDENTİ VALDİS ZATLERS İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*4 oktyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 4-də Latviyanın sabiq prezidenti Valdis Zatlers ilə görüşmüşdür.*

*Görüşdə Bakıda keçirilən Beynəlxalq Humanitar Forumun humanitar əməkdaşlığın möhkəmləndirilməsi işində rolu qeyd edildi, bu cür tədbirlərin mədəniyyətlərarası dialoqun inkişaf etdirilməsi baxımından önəmi vurğulandı.*

*Prezident İlham Əliyev və Valdis Zatlers Azərbaycan–Latviya münasibətlərinin müxtəlif sahələrdə inkişafından razılıq ifadə etdilər.*

## XORVATİYA RESPUBLİKASININ SABİQ PREZİDENTİ STEPAN MESİÇ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*4 oktyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 4-də Xorvatiya Respublikasının sabiq prezidenti Stepan Mesiç ilə görüşmüşdür.*

*Görüşdə Bakıda keçirilən Beynəlxalq Humanitar Forumun beynəlxalq əməkdaşlıq və qarşılıqlı anlaşma baxımından önəmi qeyd edildi. Həmçinin ikitərəfli əlaqələrin uğurlu inkişafından məmnunluq ifadə olundu.*

## YUNANISTAN RESPUBLİKASININ SABİQ XARİCİ İŞLƏR NAZİRİ DORA BAKOYANNİS İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*4 oktyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 4-də Yunanıstan Respublikasının sabiq Xarici İşlər naziri Dora Bakoyannis ilə görüşmüşdür.*

*Görüşdə Bakı Beynəlxalq Humanitar Forumunun əhəmiyyəti vurğulandı, onun ölkələr və xalqlar arasında humanitar əlaqələrin inkişafına töhfə verdiyi bildirildi.*

*Görüşdə, həmçinin Azərbaycan ilə Yunanıstan arasında ikitərəfli münasibətlərin uğurlu inkişafından məmnunluq ifadə olundu.*

## ARGENTİNA RESPUBLİKASI – DEPUTATLAR PALATASININ AZƏRBAYCAN–ARGENTİNA DOSTLUQ QRUPUNUN RƏHBƏRİ ROBERTO MARİO MOUİLLERONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*4 oktyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 4-də Argentina Respublikası Deputatlar Palatasının Azərbaycan–Argentina dostluq qrupunun rəhbəri Roberto Mario Mouilleronun başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.*

*Görüşdə Bakıda keçirilən Beynəlxalq Humanitar Forumun əhəmiyyəti qeyd edildi, forumun dünyada beynəlxalq humanitar əməkdaşlığın inkişafına töhfə verəcəyi bildirildi. Son illərdə ölkələrimiz arasında əlaqələrin bütün sahələrdə, o cümlədən siyasi, iqtisadi və mədəni sahələrdə inkişaf etdiyinin qeyd olunduğu görüşdə parlamentlərarası əməkdaşlığın önəmi vurğulandı, qarşılıqlı səfərlərin ikitərəfli əlaqələrin inkişafına töhfə verdiyi bildirildi.*

## II BAKI BEYNƏLXALQ HUMANİTAR FORUMUNDA İŞTİRAK

*Heydər Əliyev Mərkəzi*

*4 oktyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva oktyabrın 4-də Heydər Əliyev Mərkəzində öz işinə başlayan II Bakı Beynəlxalq Humanitar Forumunun açılışı mərasimində iştirak etmişlər.*

*Bakı Beynəlxalq Humanitar Forumu aktual humanitar əməkdaşlıq məsələlərinin müzakirə edildiyi nüfuzlu bir məkandır. Mədəniyyətlər, sivilizasiyalar və konfessiyalar arasında zəngin əməkdaşlıq ənənələri olan Azərbaycan bu formatda tədbirlərin keçirilməsi üçün ideal yerdir. Forumun keçirilməsi haqqında qərar 2010-cu ilin yanvarında Bakıda təşkil olunmuş Humanitar Əməkdaşlıq üzrə I Azərbaycan–Rusiya Forumunda qəbul edilmişdir.*

*Forumun həmtəsisçiləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putindir.*

*II Bakı Beynəlxalq Humanitar Forumunda 70 ölkəni və 7 mötəbər beynəlxalq təşkilatı təmsil edən 694 nəfər iştirak edir. Onlardan 10 nəfəri sabiq dövlət başçısı, 11-i Nobel mükafatı laureatı, 5-i dünyanın nüfuzlu Fəxri professoru (Emeritus professor), 10-u mötəbər beynəlxalq təşkilatları təmsil edən rəhbər vəzifəli şəxs, 55-i görkəmli ictimai və siyasi xadimdir.*

* * *

*Azərbaycan prezidenti İlham Əliyev forumun açılışında nitq söylədi:*

– Hörmətli xanımlar və cənablar!

Əziz qonaqlar, əziz dostlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram. Bu gün II Bakı Beynəlxalq Humanitar Forumu öz işinə başlayır. Foruma gəlmiş bütün insanlar bizim əziz qonaqlarımızdır. Əminəm ki, bu gün və sabah keçiriləcək görüşlər, aparılacaq diskussiyalar çox dəyərli olacaq, yeni fikirlər ortaya çıxacaq və beləliklə, humanitar sahədə əməkdaşlıq üçün yeni imkanlar açılacaqdır.

Mən çox şadam ki, I forumdan keçən dövr ərzində biz müsbət meyilləri daha da gücləndirə bilmişik. II forumun təşkili onu göstərir ki, I forum çox uğurlu keçmişdir. Əminəm ki, bundan sonra III, IV, V forumlar keçiriləcək və artıq bu gözəl ənənə yaranmaqdadır. Buna doğrudan da böyük ehtiyac vardır. Çünki I forumun yekunları, qəbul edilmiş qərarlar, bəyannamə, əslində hamımızın gələcəyə olan baxışlarını ifadə edir. Bu baxışlar ondan ibarətdir ki, biz çalışmalıyıq bütün dünya xalqları bir yerdə olsunlar. Çalışmalıyıq ki, qarşılıqlı anlaşma meyilləri güclənsin, dini, milli zəmində qarşıdurmalara yol verilməsin. Əksinə, əməkdaşlıq meyilləri daha da gücləndirilməlidir. Ümid edirəm ki, II foumun yekunları da müsbət olacaqdır. Beləliklə, dünya miqyasında humanitar məsələlərlə bağlı yeni bir format yaranmaqdadır.

Bakıda Humanitar Forumun keçirilməsi təsadüfi deyil. Azərbaycan əsrlər boyu mədəniyyətlərin qovuşduğu bir diyar olmuşdur. Əsrlər boyu müxtəlif xalqların, dinlərin nümayəndələri Azərbaycanda bir ailə kimi, sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma şəraitində yaşamışlar. Bu müsbət meyillər bu gün də davam edir. Mən əminəm ki, bu meyillər gələcəkdə daha da gücləndiriləcək və Azərbaycan uğurla inkişafını davam etdirəcəkdir.

2008-ci ildə Bakı prosesi başlamışdır. Bakı prosesi 2008-ci ildə Bakıda keçirilmiş Avropa Şurası mədəniyyət nazirlərinin

toplantısında İslam Əməkdaşlıq Təşkilatının nümayəndələrinin iştirakı ilə başlamışdır. Bu müsbət təcrübə artıq ona gətirib çıxardı ki, Bakı prosesi başlandı. Ondan sonrakı dövrdə digər beynəlxalq tədbirlər keçirilmişdir və nəhayət, Bakı Beynəlxalq Forumu artıq bir forum kimi formalaşmış və indi bu proses uğurla davam edir.

Azərbaycanda multikulturalizm sahəsində əldə edilmiş təcrübə hesab edirəm ki, hamımız üçün çox maraqlıdır. Multikulturalizm forumun mövzularından biridir. Əminəm ki, bu mövzu ilə bağlı çox dəyərli fikirlər səslənəcək, diskussiyalar aparılacaqdır. Multikulturalizmin müsbət gələcəyi haqqında fikirlər çox vacibdir və lazımdır. Azərbaycanın təcrübəsi hesab edirəm ki, multikulturalizm ideyalarının təbliği üçün çox dəyərli və qiymətlidir. Çünki bir daha demək istəyirəm ki, multikulturalizm bizim həyat tərzimizdir. Nisbətən yeni anlayış olmasına baxmayaraq, multikulturalizm əsrlər boyu xalqımıza xas olan bir anlayışdır. Əsrlər boyu müxtəlif dinlərin, millətlərin nümayəndələri Azərbaycanda bir ailə kimi yaşamışlar.

Azərbaycanda heç vaxt dini, yaxud da ki, milli zəmində qarşıdurma, anlaşılmazlıq olmamışdır və əminəm ki, olmayacaqdır. Multikulturalizmlə bağlı son illər dünyada müxtəlif fikirlər vardır. Bəziləri hesab edir ki, multikulturalizm iflasa uğrayıbdır, onun gələcəyi yoxdur. Biz isə hesab edirik ki, onun bu günü və gələcəyi vardır. Hamımız çalışmalıyıq ki, multikulturalizm meyillərini gücləndirmək üçün öz səylərimizi qoyaq. Bakı Beynəlxalq Humanitar Forumunun məqsədlərindən biri də məhz multikulturalizm meyillərinin gücləndirilməsidir.

Multikulturalizmin alternativi yoxdur. Mən bu barədə keçən forumda da fikirlərimi bildirmişəm. Bir daha tam əminliklə deyə bilərəm ki, multikulturalizm gələcək inkişaf üçün ən məqbul variantdır. Çünki multikulturalizmin alternativi özünütəcriddir. XXI əsrdə qloballaşan dünyada hesab etmirəm ki, hər hansı bir dövlət öz gələcəyini özünütəcrid prinsipləri əsasında qurmağa cəhd etsin. Ona görə, forumda səslənəcək fikirlər, xüsusilə bu mövzu ilə bağlı fikirlər hesab edirəm ki,

bizim ümumi işimizə dəyərli töhfə verəcəkdir. Biz çalışmalıyıq ki, bütün dünya xalqları bir-biri ilə əməkdaşlıq etsinlər, qarşılıqlı anlaşma güclənsin, qarşıdurmaya yol verilməsin. Bəzi hallarda təxribat xarakterli addımlar, bəyanatlar, hərəkətlər qeyri-adekvat reaksiya ilə üzləşir və beləliklə, qarşıdurma, qarşılıqlı etimadsızlıq meyilləri güclənir. Biz bunu bölgəmizdə də, digər bölgələrdə də görürük. Ona görə, hesab edirəm ki, həm siyasətçilərin, həm ictimai xadimlərin, vətəndaş cəmiyyəti və media nümayəndələrinin məsuliyyəti ondan ibarətdir ki, müsbət meyilləri, müsbət təcrübəni işıqlandırsınlar. Biz fəaliyyətimizi bu müsbət təcrübə əsasında qurmalıyıq. Əgər bu yanaşma üstünlük təşkil edərsə, o zaman dünya daha da əmniyyətli olacaqdır və xalqlararası əlaqələr müsbət, sağlam zəmində qurulacaqdır.

Dediyim bütün bu məsələləri uğurla həll etmək üçün cəmiyyətlərdə, xüsusilə inkişaf etməmiş ölkələrdə təhsilin səviyyəsi mühüm rol oynayır. Biz Azərbaycanda bu sahəyə böyük diqqət göstəririk. Azərbaycanda savadsızlıq yoxdur, intellektual elita formalaşır, elmin, təhsilin inkişafı sürətlə gedir. Təhsil hər bir cəmiyyəti irəliyə aparan amildir. İntellektual potensial bu gün və xüsusilə gələcəkdə hər bir ölkənin inkişafını müəyyən edəcəkdir. Ölkələr var ki, zəngin təbii resurslara malikdir. Ancaq intellektual səviyyə aşağı olduğu üçün o ölkələr dayanıqlı inkişafa nail ola bilməzlər. Ona görə biz Azərbaycanda təbii resurslarımızı, ilk növbədə, intellektual potensiala çevirmək üçün proqramlar tərtib etmişik və vaxtilə bəyan etdiyimiz prinsip – «qara qızılı insan kapitalına çevirmək» prinsipi bu gün artıq işləyir. Azərbaycanda gənc, istedadlı intellektual təbəqə formalaşır. Biz görürük ki, müasir yanaşma olduğu halda dərhal inkişaf da olur, tərəqqiyə meyillər də göstərilir. Təhsilin səviyyəsi yüksək olan ölkələrdə xoşagəlməz hallar da nadir hallarda olur və mübarizə sivil qaydalarla aparılır. Biz indi görürük ki, dünyanın müxtəlif yerlərində narazılıq halları artmaqdadır. Bəzi hallarda bu narazılıq çox qabarıq şəkildə özünü göstərir – toqquşmalarla,

davalarla, qan tökmə ilə nəticələnir. Təhsilin, ümumi mədəniyyətin səviyyəsi yüksək olan yerlərdə isə bu, sülh xarakteri daşıyır. Biz çalışmalıyıq ki, – hər halda, biz Azərbaycanda buna çalışırıq – mədəni, sivil mübarizə yolları üstünlük təşkil etsin. Bu bizim üçün lazımdır, bölgə üçün lazımdır. Çünki biz bu bölgədə yaşayırıq, adada yaşamırıq. Baxmayaraq ki, Azərbaycanda bütün işlər müsbət istiqamətdə inkişaf edir – həm iqtisadi sahədə, siyasi islahatların aparılması sahəsində, həm humanitar sahədə və bölgələrin bütün problemləri bizim üçün də çox vacibdir. Çalışmalıyıq ki, xoşagəlməz meyillərin qarşısı maksimum dərəcədə alınsın və istənilən etiraz dalğaları sivil qaydalarla aparılsın. Bilirəm ki, təhsil forumun mövzularından biri olacaqdır və bu sahəyə, əlbəttə ki, xüsusi diqqət göstərilməlidir.

Azərbaycan nisbətən gənc müstəqil dövlətdir. Müstəqilliyimizin cəmi 21 yaşı var. Ancaq Azərbaycan çox zəngin mədəni irsə malik olan bir ölkədir. Bizim mədəni irsimiz dövlət tərəfindən lazımınca qorunur, beynəlxalq təşkilatlar tərəfindən qorunur. Uzun illər başqa ölkələrin tərkibində yaşamağımıza baxmayaraq, biz milli xüsusiyyətlərimizi, mənliyimizi qoruya bilmişik, milli identifikasiyamızı itirməmişik – və bunun başlıca səbəbi mədəniyyətdir.

Bizim ədəbiyyatımız, incəsənətimiz, musiqimiz, ana dilimiz, milli dəyərlərimiz vardır. Bizim milli dəyərlərimiz ümumbəşəri dəyərlər əsasında qurulubdur. Hesab edirəm ki, qloballaşan dünyada xüsusilə gənc nəsil üçün milli-mənəvi dəyərlər xüsusi rol oynayır və oynamalıdır. Hər halda, biz Azərbaycanda buna böyük əhəmiyyət veririk və onu da qeyd etməliyəm ki, başqa mədəniyyətə, dinə, tarixə olan hörmət öz mədəniyyətinə, tarixinə, öz dininə olan hörmətdən başlamalıdır. Vətənə bağlı olmayan, vətənpərvərlik hisslərindən kənar olan insanlar başqa mədəniyyətlərin nümayəndələrini də lazımi səviyyədə qəbul edə bilməzlər. Onlar bəzi hallarda başqa mədəniyyətlərə qarşı olan hörmətsizliyi də, əslində öz mədəniyyətinə olan hörmətsizlik əsasında qururlar. Ona görə də qloballaşan dünyada bu

məsələlərə xüsusi diqqət göstərilməlidir. Çünki biz bu gün sürətli elmi-texniki tərəqqi dövründə yaşayırıq. Yeni texnologiyalar, internet və digər texnologiyalar, əlbəttə, bizim üçün çox vacibdir və Azərbaycan bu sahədə böyük uğurlara nail ola bilibdir. Azərbaycanda internet tam azaddır və internet istifadəçilərinin sayı artıq 65 faizə çatmışdır. Bununla bərabər, çox istəyirik ki, gənc nəsil milli ruhda, vətənpərvərlik ruhunda, öz tarixinə, mədəniyyətinə hörmət ruhunda böyüsün, tərbiyə alsın. Hesab edirəm ki, dünya üçün də və dünyada gedən proseslər üçün də bu, müsbət rol oynayacaqdır.

Humanitar sahədə digər istiqamətlər də böyük əhəmiyyət daşıyır. Bəzi hallarda, misal üçün idmanla bağlı məsələlərə biz sadəcə olaraq, bir idman yarışı kimi baxırıq. Ancaq o da həqiqətdir ki, dünyada Olimpiya oyunları kimi ikinci belə mötəbər tədbir tapmaq çətindir ki, insanları bu qədər birləşdirsin. Olimpiya oyunları bütün xalqları, bütün insanları birləşdirir. Bu həm rəqabətdir, həm yarışdır, həm də dostluq və qarşılıqlı anlaşma rəmzidir. Bəzi hallarda bir-biri ilə düşmənçilik edən ölkələrin nümayəndələri döyüş meydanında yarışırlar, bir-birinin əlini sıxır və bir-birini qələbə ilə təbrik edirlər. Əfsuslar olsun ki, biz bunu yalnız Olimpiya oyunları zamanı görə bilərik. Beləliklə, idman amili mədəniyyətlərarası dialoqun gücləndirilməsində də çox mühüm rol oynayır və biz Azərbaycanda bu sahəyə böyük diqqət göstəririk. İdmanda əksər hallarda mübarizə qaydalar əsasında aparılır və bu yəqin ki, idmanı siyasətdən fərqləndirən əsas amildir.

Siyasətçilərin məsuliyyəti haqqında da bir neçə kəlmə demək istəyirəm. Hesab edirəm ki, dünyada gedən ağrılı, narahatlıq doğuran proseslərin təməlində siyasətçilərin məsuliyyətsizliyi dayanır. Bu məsuliyyətsizlik müxtəlif formalarda özünü büruzə verir. Bəzi siyasətçilərin təxribat xarakterli bəyanatlarının o qədər də yüksək savadı olmayan insanları hansısa aqressiv yollara təhrik etməsi halları artıq müşahidə olunur. Digər tərəfdən, siyasətçilərin qeyri-real vədləri, populist çıxışları və real iqtisadi əsaslara söykənməyən sosial təşəbbüslər

cəmiyyətlərdə haqlı narazılığa səbəb olur. Maliyyə və iqtisadi böhranın yəqin ki, əsas səbəblərindən biri də məhz budur. Qeyri-real vədlərin verilməsi, populist vədlər və ifrat dərəcədə borclanma meyilləri əslində maliyyə və iqtisadi böhranı şərtləndirən amillərdən biridir.

Humanitar sahədə də siyasətçilərin məsuliyyəti çox böyük əhəmiyyət daşıyır. Çünki internet dövründə, qloballaşan dünyanın istənilən yerində deyilən hər bir söz dərhal əks-səda doğurur. Ona görə, siyasətçilər daha məsuliyyətli olmalı, bu məsuliyyəti dərk etməlidirlər. Belə olan halda dünyada gərginliyin hərarəti kəskin şəkildə aşağı düşəcəkdir.

Humanitar məsələlərdən danışarkən, bizi ən çox narahat edən problem haqqında da bir neçə kəlmə söz demək istəyirəm. Azərbaycan artıq 20 ildir ki, humanitar fəlakətlə üzləşibdir. 20 ildir ki, beynəlxalq birlik tərəfindən tanınmış Azərbaycanın əzəli torpağı olan Dağlıq Qarabağ və onun ətrafında yerləşən 7 bölgə erməni işğalının altındadır. Bu işğal davam edir. Azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti aparılmışdır. Bütün azərbaycanlılar Dağlıq Qarabağdan və ətraf bölgələrdən qovulublar. Hazırda dünyada adambaşına düşən qaçqınların ən yüksək sayı məhz Azərbaycandadır. Bir milyondan artıq qaçqın və köçkün soydaşımız var ki, onlar bu gün öz doğma torpaqlarına qayıda bilmirlər. Çünki Ermənistanın işğalçı siyasəti bu gün də davam edir.

Xalqımız böyük faciələr yaşadı. Xocalı soyqırımı törədildi, günahsız insanlar, onların içində qadınlar, uşaqlar vəhşicəsinə qətlə yetirildi, dini, mədəni abidələrimiz ermənilər tərəfindən dağıdıldı. Yəni həm xalqımıza, həm də mədəniyyətimizə qarşı soyqırımı törədildi. Bu soyqırımını, bu vəhşiliyi törədənlər hələ ki, dünya birliyi tərəfindən adekvat qınaqla üzləşməyiblər. Düzdür, beynəlxalq təşkilatlar və dünyanın aparıcı beynəlxalq təşkilatları Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı kifayət qədər çox qərarlar, qətnamələr qəbul etmişlər. Ancaq əfsuslar olsun ki, bu qərarların, qətnamələrin icra mexanizmi yoxdur. Belə olan halda

beynəlxalq təşkilatların qərarlarına həm hörmət azalır, həm inam itir.

BMT Təhlükəsizlik Şurası 20 il bundan əvvəl erməni silahlı qüvvələrinin Azərbaycan torpaqlarından qeyd-şərtsiz çıxarılmasına dair 4 qətnamə qəbul etmişdir. Onların heç biri icra edilmir. Bütün digər mötəbər beynəlxalq təşkilatlar, Avropa Şurası, Avropa Parlamenti, İslam Əməkdaşlıq Təşkilatı, NATO və başqa təşkilatlar da oxşar qətnamələr qəbul etmişlər. Azərbaycanın ərazi bütövlüyü dünya birliyi tərəfindən tanınır. Ancaq münaqişə hələ ki, öz həllini tapmır. Bunun başlıca səbəbi isə Ermənistanın mövcud status-kvonun uzadılmasına olan marağıdır. Ancaq onlar anlamalıdır ki, status-kvo daim dəyişməz olaraq qala bilməz, mütləq dəyişdiriləcək və biz istəyirik ki, bu, tezliklə olsun, sülh yolu ilə olsun. Çünki biz bölgə çərçivəsində artıq sabitləşdirici rolunu oynamağa başlamışıq və əlbəttə, çalışırıq ki, bölgədə sabitlik pozulmasın. Amma digər tərəfdən, bu işğalla da barışmaq mümkün deyildir.

Ona görə hesab edirəm ki, münaqişənin həllinin vaxtı çatıbdır. Ermənistan beynəlxalq hüquq normalarına tam şəkildə riayət etməli, beynəlxalq təşkilatların qətnamələrinə tabe olmalı və işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxmalıdır. O təqdirdə bölgədə əsl sülh və əməkdaşlıq yarana bilər.

Bu problemə baxmayaraq, ölkəmiz müstəqillik dövründə böyük və uğurlu yol keçmişdir. Azərbaycanda aparılan siyasi islahatlar bu gün azad cəmiyyətin yaranmasına gətirib çıxarmışdır. Azərbaycanda bütün azadlıqlar vardır, siyasi islahatlar, demokratiyanın inkişafı uğurla davam edir. Eyni zamanda, iqtisadi sahədə islahatlar siyasi islahatları daha da gücləndirir. Çünki siyasi islahatları iqtisadi əsaslar olmadan aparmaq bəzi hallarda uğursuzluğa gətirib çıxarır və biz tarixdən bunu bilirik. Ona görə, Azərbaycanda iqtisadi və siyasi islahatlar paralel şəkildə aparılır. İqtisadi sahədə – və nəzərə alsaq ki, bu forumun mövzularından biri də iqtisadi məsələlərdir – son illər ərzində biz böyük uğurlara nail ola bilmişik. Bir neçə rəqəmi sizin diqqətinizə çatdırmaq istəyirəm. Azərbaycan son

bir neçə il ərzində dünya miqyasında iqtisadi cəhətdən ən sürətlə inkişaf edən ölkə olmuşdur. Son 7-8 il ərzində iqtisadiyyatımız 3 dəfə artmış, yoxsulluq səviyyəsində yaşayanların sayı 49 faizdən 7 faizə düşmüşdür. Biz çalışacağıq ki, ondan da aşağı düşsün. İşsizlik problemi, demək olar ki, köklü şəkildə həll edilmişdir. Əlbəttə ki, hələ işsizlər var. Ancaq onların sayı 5,4 faizdir. Azərbaycanın xarici borcu ümumi daxili məhsulun cəmi 7 faizini təşkil edir. Bu da onu göstərir ki, biz iqtisadi islahatlarımızı, təşəbbüslərimizi aparmaqla, irəli sürməklə fəaliyyətimizi daxili resurslar üzərində qurmuşuq. Çox borc götürməmişik. Ona görə də biz xarici borcu istənilən vaxt tam şəkildə ödəyə bilərik. Bu göstəriciyə görə, hesab edirəm ki, Azərbaycan dünya miqyasında ən qabaqcıl yerlərdədir.

İqtisadiyyatın şaxələndirilməsi istiqamətində atılan addımlar bəhrəsini verir. Bildiyiniz kimi, Azərbaycan neft və qaz ehtiyatları ilə zəngin olan ölkədir. Ancaq bu ilin 6 ayının göstəriciləri onu deyir ki, qeyri-neft iqtisadiyyatımız 10 faizdən çox inkişaf edib. Şaxələndirmə prosesi artıq reallıqdır. Gələcəkdə uzunmüddətli, dayanıqlı iqtisadi inkişafa nail olmaq üçün bütün imkanlar vardır. İlk növbədə, siyasi iradə vardır. Ondan sonra artıq güclü maliyyə vəziyyəti mövcuddur.

Bizim tərəfimizdən irəli sürülmüş enerji və nəqliyyat layihələri nəinki Azərbaycan və bölgə üçün, Avropa üçün böyük əhəmiyyət daşıyır. Biz gələcəyimizi indidən proqnozlaşdıra bilərik və görə bilərik ki, 5 ildən, 10 ildən sonra Azərbaycan necə inkişaf edəcəkdir. Mən bütün bu islahatları aparan bir şəxs kimi, heç bir çətinlik görmürəm. Mən əminəm ki, iqtisadi sahədə inkişaf dayanıqlı və sürətli olacaqdır.

Sosial məsələlərin həllinə gəldikdə, insanların rifah halı yaxşılaşır və yoxsulluğun azaldılması buna dəlalət edir. Sosial ədalət prinsipləri Azərbaycanda əsas rol oynayır, bazar iqtisadiyyatı prinsipləri inkişafımız üçün əsas alətdir və hazırda özəl sektorun ümumi daxili məhsuldakı payı 83 faizdir. Biz 21 illik müstəqillik dövründə nəinki keçid mərhələsini başa

vurmuşuq, planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına keçə, aparılan islahatlarla neft-qaz amilindən iqtisadi inkişafımızın və vətəndaşlarımızın gələcək asılılığını maksimum dərəcədə azalda bilmişik.

Növbəti illərdə elmi-texniki tərəqqi, yüksək texnologiyaların tətbiqi ilə bağlı bizim kifayət qədər geniş planlarımız vardır. Gələcəyə baxışlarımız da çox aydındır. Müasir, müstəqil Azərbaycan dövləti bir neçə prinsip üzərində qurulmuşdur. Bunların arasında güclü dövlət anlayışı çox mühüm yer tutur. Çünki müstəqillikdən məhrum edilmiş, əsrlər boyu başqa dövlətlərin tərkibində yaşamış xalq üçün dövlətçilik əsasları müstəsna əhəmiyyət daşıyır. Dövlətçilik əsaslarının möhkəmləndirilməsi işində əlavə tədbirlər görüləcəkdir. Güclü dövlət bizim ümummilli fikrimizdir, ümummilli ideyamızdır. Bununla bərabər, daxili resurslarımıza istinad etməyimiz də bizə uğur qazandırdı. Yenə də deyirəm ki, bütün bu uğurları biz böyük borc almadan daxili imkanlar hesabına əldə edə bilmişik. Bu anlayış da bizim üçün çox önəmlidir. Biz milli-mənəvi və dini dəyərlərə bağlı xalqıq və dəyərlərimizi yüksək qiymətləndiririk. Azərbaycan dünyəvi dövlətdir. Cəmiyyətin və dövlətin dünyəvi əsasları kifayət qədər güclüdür. Növbəti illərdə bu məsələ ilə bağlı proseslər ancaq müsbət istiqamətdə davam edəcək. Bayaq qeyd etdiyim kimi, Azərbaycan əsrlər boyu ictimai-siyasi quruluşdan asılı olmayaraq, müxtəlif dinlərin, xalqların vətəni olmuşdur və bu gün də belədir. Azərbaycanda bütün xalqların, bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayırlar, heç bir ayrı-seçkilik qoyulmur və qoyula da bilməz. Bu da müasir Azərbaycanı təcəssüm etdirən amillərdən biridir. Onu deyə bilərəm ki, bu sahədəki təcrübəmiz başqa ölkələrdə də maraq doğurur.

Sosial ədalət prinsipləri mütləq möhkəmləndirilməlidir. Dünyada gedən xoşagəlməz halların əsas səbəbi əslində sosial ədalətsizlikdir. İqtisadi islahatlar güclü sosial siyasətlə tamamlanmalıdır. Əgər bu olmasa, köklü iqtisadi islahatlar insanlara əziyyət gətirə bilər. Biz ona nail ola bilmişik ki, sosial

sahədə də çox ciddi proqramlarımız vardır və bu proqramlar icra edilir. İnsanların rifah halının yaxşılaşdırılması onu göstərir ki, bu sahədə də addımlar uğurlu istiqamətdə atılmışdır.

Əlbəttə, bizim bütün işlərimizin təməlində və mərkəzində insan amili dayanır. Hesab edirəm ki, bu hər bir dövlət üçün ən vacib yanaşmadır. Çünki hər şey insan üçün edilir. Onun azadlığı, təhlükəsizliyi, sağlamlığı, işlə təmin edilməsi, rahat yaşaması dövlətin başlıca qayğısıdır. Hesab edirəm ki, bu istiqamətdə də böyük addımlar atılmış, uğurlar əldə edilmişdir. Azərbaycan vətəndaşları azad cəmiyyətdə yaşayırlar. Onlar bütün azadlıqlara malikdirlər və öz dövlətinin gücünü artırmaq üçün çalışırlar.

Cəmiyyətdə, ümumiyyətlə, çox müsbət ab-hava – quruculuq, yaradıcılıq və inkişaf ab-havası vardır. Bütün bu müsbət meyilləri gücləndirmək üçün, əlbəttə ki, beynəlxalq əməkdaşlığa böyük ehtiyac vardır. Azərbaycan sivilizasiyalararası dialoqun gücləndirilməsində öz rolunu oynayır. Bu rol əminəm ki, gələcəkdə yalnız artacaqdır. Bunun təbii səbəbləri vardır, çünki biz qitələrin arasında yerləşirik. Siyasi səbəbləri vardır, çünki bu bizim siyasi əqidəmizdir və tarixi əsasları vardır. Azərbaycan həm Avropa Şurasının, həm İslam Əməkdaşlıq Təşkilatının üzvüdür. Dünyada bir neçə ölkə vardır ki, hər iki təşkilatın üzvüdür. Avropadan Azərbaycana baxdıqda bəzi hallarda avropalılara Azərbaycan Asiya ölkəsi kimi təqdim olunur. Asiya tərəfindən Azərbaycana baxanda Avropa ölkəsi kimi təqdim edilir. Yəni deyə bilərəm ki, Azərbaycanda bu sintez – mədəniyyətlərin sintezi mövcuddur. Demək olar ki, bu bizim milli mənliyimizi şərtləndirən amillərdən biridir.

Təbii coğrafi körpü olmaqla bərabər, biz humanitar sahədə də körpü rolunu oynamağa çalışırıq. Forumun əsas məqsədi ondan ibarətdir.

Bir daha demək istəyirəm ki, I forumun yekunları, keçən il aparılan diskussiyalar bizi doğrudan da ruhlandırdı. Əminəm ki, bu forumun nəticələri də müsbət olacaqdır. Bütün qonaqlar burada öz dəyərli fikirlərini bildirəcəklər. Bu forumda tanınmış

siyasi, ictimai xadimlər, Nobel mükafatı laureatları, media nümayəndələri, alimlər iştirak edirlər. Dünyanın 60-dan çox ölkəsindən nümayəndələr təmsil olunur. Deyə bilərəm ki, dünyanın intellektual elitası bu gün və sabah Bakıda öz dəyərli fikirlərini bildirəcəkdir.

Mən bir daha, əziz qonaqlar, sizi səmimiyyətlə salamlayıram. Mən bilirəm ki, qonaqlarımızın bəziləri ilk dəfə Azərbaycana səfər edirlər. Əminəm ki, bu səfər ölkəmizlə tanışlıq üçün gözəl imkan olacaqdır və siz öz təəssüratlarınızı qəlbinizdə saxlayacaqsınız. Mən bilirəm ki, Bakıya bir dəfə gələn hər bir qonaq şəhərimizə yenə qayıtmaq istəyir.

Bir daha sizi salamlayıram və forumun işinə uğurlar arzulayıram.

* * *

**M i x a i l Ş v ı d k o y** *(Rusiya Federasiyası Prezidentinin beynəlxalq mədəni əməkdaşlıq üzrə xüsusi nümayəndəsi):*

– Zati-aliləri, çox hörmətli İlham Heydər oğlu!

Hörmətli Mehriban xanım!

Xanımlar və cənablar!

Bakı Humanitar Forumunun işə başladığı 3 ildən bir qədər artıq müddətdə aydın olmuşdur ki, bu forum müasir sivilizasiyanın fundamental məsələlərinin müzakirə edilməsi üçün ən ciddi, ən maraqlı məkanlardan biridir. Forum iştirakçılarının tərkibi Azərbaycanın, prezident İlham Əliyevin beynəlxalq nüfuzuna dəlalət edir. Mən Rusiya Federasiyasının Prezidenti Vladimir Vladimiroviç Putinin tapşırığını yerinə yetirmək və onun foruma təbrikini oxumaq şərəfinə layiq görülmüşəm.

*Mixail Şvıdkoy Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin forum iştirakçılarına təbrik məktubunu oxudu:*

«XXI əsr: ümidlər və çağırışlar» Bakı Beynəlxalq Humanitar Forumunun iştirakçılarına və qonaqlarına!

«XXI əsr: ümidlər və çağırışlar» Bakı Beynəlxalq Humanitar Forumunun iştirakçılarını və qonaqlarını salamlamağa şadam. Sizin forum ilbəil sərhədlərini genişləndirir, Rusiyanın, Azərbaycanın, digər dövlətlərin ictimai həyatında əlamətdar, gözlənilən hadisəyə çevrilir. O, məşhur siyasətçilərin, alimlərin, yaradıcı ziyalıların diqqətini cəlb edir, beynəlxalq humanitar əməkdaşlığın mühüm aspektlərinə dair dialoqun inkişafına sanballı töhfə verir. Əminəm ki, qarşıdakı diskussiyaların yekunu müasir çağırışlara cavab verən təzə, konstruktiv ideyalar, elm və mədəniyyət, təhsil və kütləvi kommunikasiyalar sahəsində yeni mühüm təşəbbüslər olacaqdır.

Sizin hamınıza səmərəli iş arzulayır, ən xoş diləklərimi bildirirəm.

**Vladimir Vladimiroviç Putin**
**Rusiya Federasiyasının Prezidenti»**

**K a t a l i n   B o q y a y** *(YUNESKO baş Konfransının prezidenti, Macarıstanın* YUNESKO *yanındakı daimi nümayəndəsi):* Humanitar yardım azad cəmiyyətlərin irəliyə doğru getməsinin əsasıdır. Qlobal iqtisadiyyatın mövcud olduğu bir dövrdə dünya maliyyə böhranının gətirdiyi mənfi amillərin qarşısının birgə alınması, dünyada ekoloji problemlərin aradan qaldırılması, yoxsulluğun səviyyəsinin azaldılması istiqamətində birgə mühüm addımların atılması zəruridir.

YUNESKO və onun missiyası insanların yaradıcı potensialının inkişafına diqqət yetirir və təşkilatın çoxmədəniyyətli platforması yeni düşüncənin formalaşdırılması və ənənəvi təcrübədə zənginliyin əldə olunmasına çalışır. Bu sadalanan məsələlərlə bağlı geniş fikir mübadiləsi aparmaqda Bakı forumu

mühüm əhəmiyyət daşıyır. Bu baxımdan Azərbaycan YUNESKO-nun çox dəyərli tərəfdaşıdır.

Bütün dünyada olan liderlərin və görkəmli şəxsiyyətlərin bir araya gətirilməsində Bakı Beynəlxalq Humanitar Forumu bizim insan dəyərləri uğrunda apardığımız mübarizəyə böyük töhfə verir. Mən Azərbaycan Prezidentinə, Azərbaycanın birinci xanımı – YUNESKO-nun Xoşməramlı səfirinə bu xüsusi tədbiri təşkil etdiklərinə görə təşəkkürümü bildirirəm və səbirsizliklə istərdim ki, «dəyirmi masa»da iştirak edim. Ümidvaram ki, «Ubuntu» prinsipinə uyğun olaraq biz fikir mübadiləsi aparacağıq.

*Sonra YUNESKO-nun baş direktoru İrina Bokovanın forum iştirakçılarına videomüraciəti səsləndi:*

– Zati-aliləri, xanımlar və cənablar!

2012-ci ilin Bakı Beynəlxalq Humanitar Forumuna müraciət etməkdən şərəf hissi duyuram.

Mən YUNESKO-nun məqsədlərinə sadiqliyinə görə Azərbaycanın birinci xanımı, YUNESKO-nun Xoşməramlı səfiri Mehriban Əliyevaya xüsusi olaraq minnətdarlığımı bildirmək istəyirəm. 2010-cu ildə təşəbbüs kimi irəli sürülmüş Bakı Beynəlxalq Humanitar Forumu beynəlxalq təqvimdə artıq öz yerini tutubdur.

Bizim sürətlə dəyişən dünyada meyilləri müzakirə etmək və gələcək üzərində düşünmək məqsədilə belə bir fürsət kimi, yeni imkanlara ehtiyacımız var. Bu forum qloballaşan dünyada elm və mədəniyyətin oynadığı rolu, mədəni müxtəlifliyi və media məsələlərini humanitar perspektivdən nəzərdən keçirəcəkdir.

YUNESKO humanitar təşkilat kimi, mədəni müxtəlifliyə, innovasiyaya və davamlı inkişafa nail olmaq üçün bundan sonra da səylərini artıracaqdır. XXI əsrdə insanları narahat edən məsələlərə, xüsusilə planetimizin qorunması, yoxsulluq, ayrı-seçkilik, qeyri-sabitlik kimi məsələlərə yeni tərzdə yanaşılmalıdır. Biz çıxış yolunu birgə fəaliyyətdə görürük.Tədbirin işinə uğurlar arzulayıram.

**Ə b d ü l ə z i z b i n O s m a n ə l -T ü v e y c r i** *(İSESKO-nun baş direktoru):* Mən Bakı Beynəlxalq Humanitar Forumunda iştirak etməkdən məmnunam və əslində bu, dünyanın ən mühüm forumlarından birinə çevrilmişdir. Bu forum siyasi, intellektual, elmi və akademik şəxsiyyətləri, müxtəlif mənşəli və müxtəlif ölkələrdən olan elit qrupları bir araya gətirir. Sözün əsl mənasında, bu ən yüksək dəyərləndirilən təşəbbüslərdən biridir. Bu təşəbbüs prezident İlham Əliyev tərəfindən irəli sürülmüşdür. Beynəlxalq ictimaiyyətə təklif olunmuşdur ki, belə bir yanaşmaya əsaslanaraq, biz sülhə olan güclü inamımızı nümayiş etdirək. Bu cür mühüm bir hərəkət əslində, göstərilən beynəlxalq səylərə böyük bir töhfədir və dünyada yeni, güclü quruluşun yaradılmasına yönəldilibdir. Əslində bu, universal qaydada qəbul olunmuş tolerantlıq, dialoq, insanlar və xalqlararası qarşılıqlı yanaşma kimi dəyərlərə və beynəlxalq hüquqa da əsaslanır. Bu olan halda biz tarazlı, uyğun, təhlükəsiz dünyanı hamı üçün təmin edə bilərik.

Forum bu sahədə göstərilən beynəlxalq səylərə töhfə verir. Daha təhlükəsiz gələcəyə gedən yolda bu cür forumlar mühüm əhəmiyyət daşıyır. Bunun üçün insan dəyərlərinə hörmətlə yanaşma və iqtisadi tədbirlərin həyata keçirilməsi vacibdir. Gələcək üçün hazırlanan yol xəritəsi yaxşı tərəqqiyə və mükəmməl innovasiyaya söykənməlidir. İndi dünyada böyük islahatlara ehtiyac var. Bu islahatlar çərçivəsində beynəlxalq siyasi proseslər ciddi şəkildə nəzərdən keçirilməli, məsələyə müxtəlif insan yanaşmaları diqqət mərkəzində saxlanılmalıdır.

Bu tədbir mədəniyyətlər və sivilizasiyalar arasında dialoqun gücləndirilməsinə, düzgün sülh mədəniyyətinin təşviq olunmasına yönəlibdir. Belə olan halda işğaldan əziyyət çəkmiş insanların problemlərinin həllinə xüsusi diqqət yetirilməlidir. Dağlıq Qarabağ münaqişəsi buna bir misal kimi göstərilə bilər. Buna görə beynəlxalq münasibətlərin yenidən rasionallaşması vacib bir məsələ kimi üzə çıxır. Belə olan halda, sözün əsl mənasında, biz beynəlxalq siyasətə bir növ yeni təkan verməliyik. Bu bizim

məsuliyyətimizdir. Bu, siyasi, intellektual və akademik elitanın, bu forumda iştirak edən şəxslərin məsuliyyəti, borcudur.

Çıxışımı bitirməzdən öncə mən, həmçinin İSESKO-ya verdiyi dəstəyə görə Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə səmimi minnətdarlığımı, təşəkkürümü bildirmək istəyirəm. Çünki o bir çox təşəbbüslərlə çıxış etmişdir. Bu təşəbbüslər insanları bir araya gətirə bilər və dialoqu uyğun edə bilər. Mən bu foruma uğurlar arzulayıram və hesab edirəm ki, Bakı intellektual və mədəni maarifləndirmənin təcəssümü olacaq və burada intellektuallardan ibarət forum uğurlu keçəcəkdir.

* * *

*Sonra Azərbaycan haqqında filmin nümayişi oldu. Filmdə ölkəmizin qədim tarixi, zəngin mədəniyyəti, Şərq ilə Qərb arasında körpü rolunu oynayan, mədəniyyətlərarası dialoq platformasında xüsusi yeri olan Azərbaycanın keçdiyi inkişaf yolu barədə ətraflı məlumat verildi. Son illər ölkəmizin müəllifi olduğu irimiqyaslı layihələr, Bakının gözəlləşməsi istiqamətində həyata keçirilən tədbirlər videogörüntülər vasitəsilə tamaşaçılara təqdim olundu.*

*Fasilədən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı Beynəlxalq Humanitar Forumunun plenar iclasında iştirak etdi.*

*Plenar iclasın birinci hissəsinə Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov sədrlik etdi.*

*Bakı Beynəlxalq Humanitar Forumunun əhəmiyyətindən danışan Litvanın sabiq prezidenti Valdas Adamkus dünyanın tanınmış ictimai-siyasi xadimlərini, mədəniyyət nümayəndələrini bir yerə toplayan bu forumun müxtəlif məsələlərə dair fikir mübadiləsinin aparılması üçün beynəlxalq miqyaslı, nüfuzlu elmi, siyasi platformaya çevrildiyini vurğuladı.*

*Forumun işini yüksək qiymətləndirən Estoniyanın sabiq prezidenti Arnold Rüütel elmi və mədəni elitanın görkəmli nümayəndələrini bir araya toplayan bu mötəbər tədbirin məhz Azərbaycanda keçirilməsindən məmnun olduğunu bildirdi. O qeyd etdi ki, müasir dünyamızda yeni informasiyalar və ideyalar sosial*

şəbəkələr vasitəsilə sürətlə yayılır. Bu isə müasir həyatımızda yeni çağırışların ortaya çıxmasına səbəb olmuşdur. Bizim yeni çağırışlara cavab verməyimiz baxımından belə mötəbər tədbirlərin keçirilməsi mühüm əhəmiyyət kəsb edir.

Azərbaycanın son illərdə iqtisadi sahədə əldə etdiyi böyük uğurlara toxunan Arnold Rüütel hazırda iqtisadiyyatımızın sürətlə inkişaf etdiyini diqqətə çatdırdı.

Azərbaycanın etnik və dini tolerantlıq baxımından dünyada nadir ölkələrdən biri olduğunu vurğulayan Xorvatiyanın sabiq prezidenti Stepan Mesiç Bakıda müşahidə etdiyi inkişaf prosesinin onda böyük təəssürat yaratdığını bildirdi. O, Bakı Beynəlxalq Humanitar Forumunu mədəniyyətlərarası dialoqun inkişaf etdirilməsi baxımından da çox önəmli platforma adlandırdı.

Bolqarıstanın sabiq prezidenti Jelyu Jelev bu mötəbər tədbirin ölkələr arasındakı münasibətlərin inkişafında xüsusi rol oynayacağını əminliklə qeyd etdi. Azərbaycanın belə mötəbər tədbirlərin keçirilməsində artıq böyük təcrübəyə malik olduğunu bildirən sabiq prezident forumda müzakirə ediləcək məsələlərin bəşəriyyətin üzləşdiyi bir sıra problemlərin həlli yollarının tapılmasına kömək edəcəyini vurğuladı.

«Biz vahid dünyada yaşayırıq və belə bir məqamda humanitar dəyərləri qorumaq çox vacibdir» – deyən Latviyanın sabiq prezidenti xanım Vayra Vike-Freyberqa çıxışında əsas diqqəti insan hüquqlarının qorunmasına cəlb etdi. O, dünyanın əksər ölkələrində olduğu kimi, Azərbaycanda da 1 milyondan artıq insanın hüquqlarının pozulduğunu, onların doğma torpaqlarından didərgin salındığını diqqətə çatdırdı. Bildirilmişdir ki, dünya ictimaiyyəti bu məsələdə qətiyyətli mövqedən çıxış etməlidir.

Azərbaycanın dini dözümlülük baxımından nümunəvi ölkə olduğunu vurğulayan Vayra Vike-Freyberqa forumda dünyanın tanınmış siyasətçilərinin, Nobel mükafatı laureatlarının, bir sıra beynəlxalq təşkilatların nümayəndələrinin iştirak etməsini ölkəmizin gündən-günə artan nüfuzunun bariz nümunəsi kimi səciyyələndirdi. Həmçinin ölkəmizin sürətli inkişafının nəzərdə

*tutulan ideyalarının həyata keçirilməsinə geniş imkanlar açdığı qeyd olundu.*

*Avropa Parlamentinin üzvü, Paris şəhərinin 7-ci rayonunun meri xanım Raşida Dati vurğuladı ki, iqtisadi cəhətdən sürətlə inkişaf edən, regional layihələrin təşəbbüsçüsü olan Azərbaycan dünyaya çox nadir bir örnəkdir. Azərbaycanın multikulturalizmə böyük önəm verdiyini vurğulayan Raşida Dati ölkəmizdə müxtəlif dinlərin və xalqların nümayəndələrinin qarşılıqlı hörmət və anlayış içində bir arada yaşadığını diqqətə çatdırdı.*

*Raşida Dati belə vacib tədbirin Bakıda keçirilməsinin forumun əhəmiyyətini daha da artırdığını dedi. Çünki Bakı müxtəlif mədəniyyətlərin, qədimliklə müasirliyin qovuşduğu bir məkandır. O həmçinin bildirmişdir ki, bu beynəlxalq tədbir bir çox məsələlərin müzakirə edilməsi və onların həll yollarının tapılması istiqamətində qarşıya qoyduğu məqsədlərə nail olacaqdır.*

*Rumıniyanın sabiq prezidenti Emil Konstantinesku Bakı Beynəlxalq Humanitar Forumunun ötən il olduğu kimi, uğurla nəticələnəcəyinə əminliyini bildirdi. O vurğuladı ki, bu tədbirdə müzakirə ediləcək məsələlər bəşəriyyətin üzləşdiyi çağırışlara cavab verməsi baxımından mühüm töhfələri ilə yadda qalacaqdır. Çünki müxtəlif peşə sahiblərinin, xüsusilə də mədəniyyət sahəsini təmsil edən insanların Bakıda bir araya gələrək mühüm məsələləri müzakirə etməsi böyük nəticədir.*

*Emil Konstantinesku Bakı Beynəlxalq Humanitar Forumunu yüksək səviyyədə təşkil edən Azərbaycanın bunu artıq ənənəyə çevirdiyini də diqqətə çatdırdı.*

*Qırğız Respublikasının sabiq prezidenti xanım Roza Otunbayeva isə Azərbaycanın zəngin tarixi və mədəni irsindən bəhs etdi. Sabiq prezident sovet dönəmindən müstəqillik illərinədək və daha sonrakı dövrlərdə inkişaf edən Azərbaycanın dünyada artan nüfuzuna da toxundu. Forumun əhəmiyyətindən danışan Roza Otunbayeva burada multikulturalizm və medianın cəmiyyətdə rolu məsələsinin daha çox müzakirə olunmasının aktuallığından danışdı.*

Bakı Beynəlxalq Humanitar Forumunun yüksək səviyyədə təşkilinə görə Azərbaycan prezidentinə təşəkkürünü bildirən Bolqarıstanın sabiq prezidenti Peter Stoyanov çıxışında multikulturalizmə xüsusi yer ayırmışdır. O özündə qarşılıqlı anlaşmanı və digər xalqlara və dinlərə hörmətlə yanaşmanı əks etdirən multikulturalizmin Azərbaycanda xüsusən diqqət mərkəzində saxlandığını vurğuladı. Bildirilmişdir ki, indi dünya elitasının nüfuzlu nümayəndələrini bir araya toplayan Azərbaycan bu forumu təşkil etməklə ciddi uğura imza atmışdır. Odur ki, forum dünyanı narahat edən məsələlərlə bağlı fikir mübadiləsi aparmaq, mədəni dəyərləri bölüşmək üçün mühüm məkandır. Bu gün Azərbaycanın öz nümunəvi dəyərlərini bütün dünyaya təqdim etdiyini deyən Peter Stoyanov bildirmişdir ki, Azərbaycan əlverişli coğrafi mövqeyindən və çoxmədəniyyətlilik ənənələrindən istifadə edərək, artıq dünyada ən mühüm dialoq mərkəzlərindən birinə çevrilmişdir.

Peter Stoyanov son illərdə ölkəmizin yüksək iqtisadi inkişaf nümayiş etdirdiyini diqqətə çatdıraraq bu işdə prezident İlham Əliyevin xidmətlərini, ölkədə həyata keçirilən siyasi kursun uğurlarını yüksək qiymətləndirdi. Ən əhəmiyyətlisi isə odur ki, Azərbaycan özünün bu uğurlu təcrübəsini həmişə başqa ölkələrlə bölüşməyə can atır.

«Bakı Beynəlxalq Humanitar Forumu doğru məqamda irəli sürülən ideyadır» – deyən Latviyanın sabiq prezidenti Valdis Zatlers tədbirin yüksək səviyyədə təşkilinə görə minnətdarlığını bildirdi. Qlobal dünyanın sürətlə dəyişdiyini, texnoloji inkişafın bu dəyişikliyi daha da gücləndirdiyini vurğulayan sabiq prezident bildirmişdir ki, əsas məqam bu dəyişikliyə uyğunlaşmaqdır. Texnoloji inkişafın mədəni və tarixi ölçüləri yoxdur və o, cəmiyyət qarşısında yeni çağırışlar müəyyən edir. Biz bu çağırışlara cavab vermək, dəyişikliklərə uyğunlaşmaq üçün bir-birimizlə daha yaxın və mehriban münasibətlər qurmalıyıq.

Valdis Zatlers qeyd etdi ki, Azərbaycan xalqı və dövlətin rəhbərliyi özünə əmindir və hansı addımlar atmaq lazım olduğunu

*çox yaxşı bilir. Bu mötəbər tədbirin Bakıda keçirilməsi məhz bu əminliyin göstəricisidir.*

*Bolqarıstan Respublikasının sabiq prezidenti Georgi Pırvanov çıxışında qeyd etdi ki, Bakı Beynəlxalq Humanitar Forumu regional çərçivədən kənara çıxaraq qlobal məsələlərin müzakirəsinə töhfə verən ən mühüm tədbirlərdən biridir. Georgi Pırvanov Azərbaycanın belə böyük miqyaslı tədbirlərə yüksək səviyyədə ev sahibliyi etməsini təqdirəlayiq hal kimi qiymətləndirdi.*

*«Bu forumun daha bir əhəmiyyəti onun qlobal təhlükəsizlik məsələlərinin həllində yaxından iştirak etməsidir» – deyən Georgi Pırvanov bildirdi ki, Avropa İttifaqı Azərbaycanı strateji tərəfdaş kimi qəbul etməlidir. Çünki bunu şərtləndirən amillər çoxdur. Georgi Pırvanov YUNESKO və Avropa Şurasını bu cür möhtəşəm forumun hər il təşkil olunması üçün Azərbaycana daha çox dəstək verməyə çağırmışdır.*

*Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının baş katibi Xəlil Akıncı regional sülhün və təhlükəsizliyin təmin olunması baxımından forumun əhəmiyyətini yüksək qiymətləndirərək rəhbərlik etdiyi təşkilatın həyata keçirdiyi tədbirlər, türkdilli ölkələr arasında əlaqələrin daha da möhkəmləndirilməsi istiqamətində atılan addımlar, qəbul edilən qərarlar barədə məlumat verdi. Xəlil Akıncı bu forumun yüksək səviyyədə təşkilinə görə bir daha Azərbaycan prezidenti İlham Əliyevə təşəkkür etdi.*

* * *

*Bakı Beynəlxalq Humanitar Forumunun plenar iclasının Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti Mahmud Kərimovun sədrliyi ilə keçən ikinci hissəsində Nobel mükafatı laureatları çıxış etmişlər.*

*Kimya üzrə Nobel mükafatı laureatı Əhməd Zevayl müasir dünyada elm və təhsilin inkişafının prioritetə çevrilməsinin vacibliyini önə çəkmiş, ölkəmizdə bu məsələyə xüsusi diqqət verilməsinin təqdirəlayiq olduğunu demişdir.*

*İqtisadiyyat üzrə Nobel mükafatı laureatı Kennet Cozef Arrou forumda müzakirə edilən məsələlərin müasir dövr üçün çox aktual*

*olduğunu vurğuladı. Kennet Arrou qeyd etdi ki, hazırda müxtəlif səylərə baxmayaraq, dünyada münaqişələrin sayı azalmaq bilmir. Bunun səbəbi hərtərəfli düşünülmüş yanaşmaların olmamasıdır. Dünyada gedən iqtisadi proseslərdən danışan Nobel mükafatçısı qeyd etmişdir ki, ölkələr arasında müxtəlif istiqamətlərdə, həmçinin turizm sahəsində əlaqələr olsa da, qlobal iqtisadiyyatda problemlər tam həllini tapmamışdır.*

*Kimya üzrə Nobel mükafatı laureatı Rudolf Artur Markus ekoloji məsələlərə diqqət çəkərək dünyada baş verən iqlim dəyişikliklərinin daha çox müzakirə predmeti olmasını vacib saydı. Alim demişdir ki, elm sahəsində yeniliklər çox sürətlə baş verir və hətta bu, inqilabi səciyyə daşıyır. Elmin inkişafı eyni zamanda, bir sıra problemlər də yaradır. Məsələn, alimlər hələ də ozon təbəqəsindəki deşiyin hansı səbəbdən genişlənməsi ilə bağlı konkret fikir söyləyə bilmirlər. Bununla belə, elm qlobal səviyyədə problemlərin həllinə nail ola bilər.*

*Fizika üzrə Nobel mükafatı laureatı Robert Betts Laflin enerji məsələlərindən danışdı. Azərbaycanın bu sahədə fəaliyyətinin dünyada böyük maraq doğurduğunu dedi. Bakı forumu Azərbaycanın bu sahədəki təcrübəsinin öyrənilməsi baxımından da çox əhəmiyyətlidir.*

*İqtisadiyyat üzrə Nobel mükafatı laureatı Fin Kidland prezident İlham Əliyevin çıxışında mühüm məsələlərə toxunduğunu bildirdi, müasir dünyada təcrübə mübadiləsinin vacibliyinə diqqət çəkərək, bu sahədə Azərbaycan praktikasının səmərəli olduğunu qeyd etdi.*

*Fizika üzrə Nobel mükafatı laureatı Deyvid Conatan Qross dünyada inkişaf proseslərinin təməlində elmə, təhsilə verilən önəmin dayandığını vurğuladı. Devid Qross dedi ki, elm ən mühüm beynəlxalq fəaliyyət növüdür. Bu baxımdan elm beynəlxalq əməkdaşlığın əsas vasitəsinə çevrilə bilər. Qloballaşan dünyada bütün problemlər də qloballaşır və bu səbəbdən problemlərlə mübarizədə vahid model olmalıdır.*

*İqtisadiyyat üzrə Nobel mükafatı laureatı Edvard Preskott çıxışını ətraf mühit və ekoloji problemlərin aradan qaldırılması ilə bağlı həyata keçirilməsi vacib olan məsələlər üzərində qurmuşdur.*

*Nobel mükafatçısı dedi ki, insanlar hazırda daha çox qlobal istiləşmə prosesindən narahatdırlar. Amma qlobal soyuqlaşma daha böyük problemdir. Bu gün biz dünyanın ən gözəl şəhərlərindən birindəyik və burada «qara qızılın insan kapitalına çevrilməsi» istiqamətində böyük işlər görülür. Bu forumun keçirilməsi açıq şəkildə göstərir ki, biz belə tədbirlərlə bir-birimizi zənginləşdiririk.*

*Fizika üzrə Nobel mükafatı laureatı Corc Ficerald Smut bildirdi ki, dünyanı narahat edən iqlim dəyişikliyinin ağır fəsadlar verməməsi üçün müasir texnologiyaların tətbiqinə böyük ehtiyac vardır. Bunun yollarını müzakirə edib müəyyən nəticələrə gəlmək üçün Bakı Beynəlxalq Humanitar Forumu çox səmərəli platformadır. Bu forumda iştirak etməyimdən çox məmnunam.*

*İqtisadiyyat üzrə Nobel mükafatı laureatı Rocer Bryus Mayerson ABŞ-da təzahür edən maliyyə böhranının yaratdığı problemlərdən bəhs etdi. O dedi ki, qloballaşan dünyada bu cür problemlər təkcə bir ölkənin deyil, bir çox ölkələrin iqtisadiyyatını zəiflədir. Bunun qarşısının alınması üçün bütün imkanlardan vahid səylərlə istifadə etmək lazımdır.*

*Kimya üzrə Nobel mükafatı laureatı xanım Ada Yonat Bakı Beynəlxalq Humanitar Forumunun bəşəriyyəti narahat edən fundamental məsələlərin müzakirəsi baxımından mühüm məkan olduğunu dedi. Əminəm ki, biz bu forumda faydalı müzakirələr aparacaq, təcrübələrimizi bölüşəcək, çıxış yollarını arayacağıq.*

*Kimya üzrə Nobel mükafatı laureatı Dan Şextman dünyada gedən demoqrafik proseslərin nəticələri barədə çıxış etdi. Dünyada insanların sayı artmaqdadır və tezliklə bu rəqəm 7 milyard olacaqdır. Belə şəraitdə enerji ehtiyatları tükənərsə, bəşəriyyət bundan sonra necə yaşayacaq?! Bu məsələdə alimlərin üzərinə böyük məsuliyyət düşür. Məhz onlar texnologiyaları inkişaf etdirməklə qlobal problemlərin həllinin çıxış yollarını tapa bilərlər.*

## URUQVAY ŞƏRQ RESPUBLİKASI NÜMAYƏNDƏLƏR PALATASININ KOMİSSİYA SƏDRİ, URUQVAY – AZƏRBAYCAN DOSTLUQ QRUPUNUN RƏHBƏRİ MARİO JAİME TROBONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*5 oktyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 5-də Uruqvay Şərq Respublikası Nümayəndələr Palatasının xarici əlaqələr daimi komissiyasının sədri, Uruqvay–Azərbaycan dostluq qrupunun rəhbəri Mario Jaime Trobonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Uruqvay Şərq Respublikasından böyük nümayəndə heyətinin Azərbaycana səfərinin ikitərəfli münasibətlərin inkişafı baxımından önəmini qeyd etdi. Ölkələrimiz arasında ikitərəfli əlaqələrin inkişaf dövrünü yaşadığını vurğulayan prezident İlham Əliyev bu əlaqələrin daha da genişləndirilməsi üçün əlavə tədbirlər görməyin zəruriliyini bildirdi. Azərbaycan ilə Uruqvay arasında siyasi, iqtisadi və mədəni əməkdaşlığı daha da möhkəmləndirməyin vacibliyini qeyd edən dövlət başçısı münasibətlərimizin genişlənməsində parlamentlərarası əlaqələrin böyük əhəmiyyət kəsb etdiyini dedi. İkitərəfli münasibətlərimizin inkişafında qarşılıqlı səfərlərin əhəmiyyətini vurğulayan prezident İlham Əliyev nümayəndə heyətinin Azərbaycana səfərinin uğurlu olacağına və əlaqələrimizin genişləndirilməsi işinə xidmət edəcəyinə əminliyini ifadə etdi.*

*Uruqvay Şərq Respublikası Nümayəndələr Palatasının xarici əlaqələr daimi komissiyasının sədri, Uruqvay–Azərbaycan dostluq qrupunun rəhbəri Mario Jaime Trobon nümayəndə*

*heyəti üzvlərini dövlətimizin başçısına təqdim* etdi. *O, böyük nümayəndə heyəti ilə ölkəmizə səfər etməsini* Uruq*vayın Azərbaycan ilə əməkdaşlığın genişləndirilməsinə* olan mara*ğının göstəricisi* kimi *dəyərləndirdi və əlaqələrimizin müxtəlif sahələrdə inkişaf etdirilməsi üçün böyük imkanların olduğunu* dedi.

## ÇİLİ RESPUBLİKASI DEPUTATLAR PALATASININ KOMİSSİYA SƏDRİ, ÇİLİ – AZƏRBAYCAN DOSTLUQ QRUPUNUN RƏHBƏRİ ENRİKE AKKORSİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*5 oktyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 5-də Çili Respublikası Deputatlar Palatasının yoxsulluqla mübarizə, planlaşdırma və sosial inkişaf daimi komissiyasının sədri, Çili–Azərbaycan dostluq qrupunun rəhbəri Enrike Akkorsinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Çili Deputatlar Palatasının komissiya sədri, Çili–Azərbaycan dostluq qrupunun rəhbəri Enrike Akkorsinin başçılıq etdiyi nümayəndə heyətinin Bakı Beynəlxalq Humanitar Forumunda iştirakının önəmini qeyd etdi. Səfərin ikitərəfli münasibətlərimizin inkişafı baxımından əhəmiyyətini vurğulayan prezident İlham Əliyev əlaqələrimizin genişləndirilməsi üçün böyük potensialın olduğunu dedi. Dövlətimizin başçısı parlamentlərarası əməkdaşlığın ikitərəfli münasibətlərimizin inkişafındakı rolunu vurğuladı.*

*Enrike Akkorsi Azərbaycana gələn nümayəndə heyətinin tərkibində Çilinin bütün siyasi partiyalarının təmsil olunduğunu məmnunluqla qeyd etdi. Bakı Beynəlxalq Humanitar Forumunda prezident İlham Əliyevin nitqinin böyük maraqla qarşılandığını nəzərə çatdıran qonaq dünyada sülhün qorunmasında və qarşılıqlı anlaşmanın təmin olunmasında forumun əhəmiyyətini vurğuladı.*

## TƏRTƏR RAYONUNA SƏFƏR

*7 oktyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 7-də Tərtər rayonuna səfərə gəlmişdir. Dövlətimizin başçısı əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin Tərtər şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydu.*

*Tərtər Rayon İcra Hakimiyyətinin başçısı Ceyhun Cəfərov prezident İlham Əliyevə abidənin ətrafında, həmçinin rayonda aparılan abadlıq işləri, eləcə də inşa olunmuş obyektlər barədə məlumat verdi.*

*Bildirildi ki, bu obyektlərdən biri də yeni yaradılmış 3000 tonluq soyuducu anbar kompleksidir. Kompleksin əsas maliyyə vəsaiti Sahibkarlığa Kömək Milli Fondunun payına düşür. Kompleksin ümumi dəyəri 2 milyon manatdır ki, bunun da 1,4 milyon manatı fond tərəfindən güzəştli kredit kimi verilmişdir.*

*Regionlarda sahibkarlığın inkişafı, xüsusən də cəbhəyanı bölgələrdə yeni istehsal müəssisələrinin yaradılması iqtisadi siyasətin prioritetlərindəndir. Bu amil nəzərə alınaraq kompleks məhz cəbhəyanı rayonda inşa olunmuşdur. 5 soyuducu kameradan ibarət olan kompleksdə yaradılan şərait ətraf rayonların fermerlərinə də yüksək səviyyədə xidmət etməyə imkan verir. Bu kompleksin yaradılması ilə fermerlərin məhsullarını keyfiyyətini itirmədən saxlaması problemi tam həllini tapır. Kompleksin inşası kənd təsərrüfatı məhsullarının istehsalının artırılmasına təkan verməklə, bölgədə yaşayan insanların maddi rifahının daha da yaxşılaşdırılmasına və məşğulluğunun artırılmasına imkan verəcəkdir. Layihənin icrası nəticəsində burada 26 nəfər işlə təmin olunmuşdur.*

## Yevlax–Xocalı–Laçın avtomobil yolunun Yevlax–Bərdə sahəsinin tikintisi başa çatmış 29 kilometrlik hissəsinin açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev oktyabrın 7-də Tərtər rayonuna səfəri çərçivəsində Yevlax–Xocalı–Laçın avtomobil yolunun Yevlax–Bərdə sahəsinin tikintisi başa çatmış 29 kilometrlik hissəsinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı yolun texniki göstəricilərini, əvvəlki və sonrakı vəziyyətini, eləcə də 2013-cü ildə yenidən qurulması nəzərdə tutulan yollarla bağlı məlumatları əks etdirən stendlərə baxdı.*

*Prezidentə məlumat verildi ki, Yevlax–Xocalı–Laçın yolunun Yevlax–Bərdə sahəsinin tikintisi başa çatmış 29 kilometrlik hissəsinin əhəmiyyəti bu yolun regional mahiyyət kəsb etməsindədir. Tərtər, Ağcabədi, Bərdə, Ağdam istiqamətində avtomobillərin rahat hərəkətinə imkan verən bu yol həmin bölgələrdə yaşayan insanların mənzil başına vaxtında və təhlükəsiz çatmalarına da imkan yaradır.*

*Bildirildi ki, yolun birinci texniki dərəcəli hissəsinin uzunluğu 6,4 kilometr, eni 15–20 metrdir. Yolun ikinci texniki dərəcəli hissəsinin uzunluğu 22,6 kilometr, eni 9 metrdir. Yolda texniki dərəcələrə müvafiq olaraq hərəkət zolaqlarının sayı 4-2 nisbətində dəyişir. Asfalt-beton örtüklü yol üzərində 2 körpü yenidən qurulub. Ümumilikdə yolda 160 min ton asfalt-beton örtüyündən istifadə edilmişdir.*

*Diqqətə çatdırıldı ki, hazırda Bərdə–İstisu avtomobil yolunun Bərdə–Tərtər hissəsinin tikintisi davam etdirilir. İnşasında 80 min ton asfalt-beton örtüyündən istifadə olunacaq yolun uzunluğu 18 kilometrdir. İkinci texniki dərəcəli yolda tikinti işlərinin bu ilin noyabrında başa çatdırılması nəzərdə tutulmuşdur.*

*Dövlətimizin başçısı yolun rəmzi açılışını bildirən lenti kəsdi və yeni yolun yüksək səviyyədə inşasından razılığını bildirdi.*

## Heydər parkı və Heydər Əliyev Mərkəzinin açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev oktyabrın 7-də Tərtərdə yenidənqurmadan sonra istifadəyə verilən Heydər parkının və buradakı Heydər Əliyev Mərkəzinin açılışında iştirak etmişdir.*

*Parkın ərazisini gəzən dövlətimizin başçısına məlumat verildi ki, ölkəmizin hər yerində olduğu kimi, ulu öndər Heydər Əliyevin xatirəsi tərtərlilər tərəfindən də əziz tutulur. Rayon sakinlərinin və qonaqların sevimli istirahət guşəsi olan Heydər parkı müasir üslubda, gözoxşayan memarlıq ənənələrinə uyğun şəkildə yenidən qurulmuşdur. Aparılan yenidənqurma işləri nəticəsində 2 hektar ərazidə dekorativ gül və ağac kolları əkilib. Burada yeni oturacaqlar quraşdırılıb, müasir işıqlandırma sistemi yaradılıb. Əhalinin səmərəli istirahəti üçün hərtərəfli şəraitin mövcud olduğu parkda yaşıllıq zolağı daha da genişləndirilib.*

*Prezident İlham Əliyev parkın əvvəlki və sonrakı görüntülərini, eləcə də Tərtər rayonunda görülən abadlıq-quruculuq işlərini əks etdirən fotostendlərə baxdı.*

*Bildirildi ki, parkın giriş qapısı tağbənd üslubunda işlənilmiş, 2 fəvvarə, 2 su kanalı, müasir tipli 2 çay evi, 7 körpü yaradılmış, dekorativ ağaclar və gül kolları əkilmişdir. Yay aylarında sakinlərin mənalı istirahəti və əylənmələri üçün parkın ərazisində açıq havada 450 yerlik xüsusi salon yaradılmış, müasir memarlıq üslubunda Heydər Əliyev Mərkəzi inşa olunmuşdur.*

*Heydər Əliyev Mərkəzi ilə tanış olan dövlətimizin başçısının diqqətinə çatdırıldı ki, milli memarlıq elementlərindən istifadə olunmaqla müasir texnologiyalara uyğun inşa edilən Mərkəzin ikimərtəbəli binasının tikinti sahəsi 432 kvadratmetrdir. Birinci mərtəbədə ulu öndər Heydər Əliyevin irsinin gənc nəsillərə ötürülməsi üçün konfrans zalı, kompüter mərkəzi, elektron kitabxana yaradılıb. Tədris siniflərində ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətinin öyrənilməsi ilə yanaşı, ulu öndərin mədəniyyətə, incəsənətə, idmana və digər sahələrə diqqət və qayğısını əks etdirən məlumatlar veriləcəkdir. Bundan əlavə,*

*Mərkəzdə xarici dillər otağı və rəsm studiyası da yaradılıb. Burada gənc nəslin müasir texnoloji yeniliklərlə yaxından tanış olmalarına, onların bilik və bacarıqlarının daha yaxşı inkişaf etdirilməsinə yönələn kurslar təşkil olunacaqdır.*

*Ulu öndərin büstünün qoyulduğu Mərkəzin ikinci mərtəbəsində ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən muzey, müxtəlif illərdə ölkəmizin ayrı-ayrı bölgələrinə səfərləri, keçirdiyi görüşləri əks etdirən fotoguşələr də yaradılmışdır. Tərtərlilər ümummilli liderin xilaskarlıq missiyasını heç zaman unutmur və onun xatirəsini əziz tuturlar. Ümumilikdə Mərkəz ulu öndər Heydər Əliyev irsinin öyrənilməsində mühüm rola malikdir. Rayon əhalisinin Mərkəzin imkanlarından yararlanması üçün bütün lazımi şərait vardır.*

*Görülmüş işlərdən razılığını bildirən prezident İlham Əliyev tapşırıq və tövsiyələrini verdi.*

## Gənclər Mərkəzinin açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev oktyabrın 7-də Tərtərdə yeni inşa edilən Gənclər Mərkəzinin açılışında iştirak etmişdir. Dövlətimizin başçısı mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi, burada yaradılan şəraitlə tanış oldu.*

*Bildirildi ki, bu gün ölkəmizdə savadlı, bilikli, intellektual, vətənpərvər ruhlu gənclərin yetişməsi məsələsinə xüsusi diqqət yetirilir. Məhz bundan ruhlanan gənclərimiz siyasət, iqtisadiyyat, mədəniyyət, incəsənət, idman və digər sahələrdə Azərbaycanı dünyada layiqincə təmsil edirlər.*

*Diqqətə çatdırıldı ki, ümumi sahəsi 1 hektar olan mərkəzin tikintisinə bu ilin mayında başlanılıb. Mərkəzin ikimərtəbəli binasının inşası maksimum keyfiyyətlə və sürətlə həyata keçirilmişdir. Binanın foyesində ümummilli lider Heydər Əliyevin büstü qoyulmuş, ulu öndərin və prezident İlham Əliyevin Tərtərə səfərlərini, rayon zəhmətkeşləri ilə görüşlərini, həmçinin gənclərə göstərdikləri diqqət və qayğını əks etdirən fotostendlər qurulmuşdur.*

*Qeyd edildi ki, mərkəzdə hər cür şəraitin olduğu gənclər kafesi yaradılmışdır. Mərkəzin 112 yerlik iclas zalı da müasir standartlara cavab verir. Zalda rayon miqyaslı müxtəlif tədbirlər keçirmək də mümkündür. Bundan başqa, mərkəzin birinci mərtəbəsində müasir avadanlıqla təchiz edilmiş karaoke-diskoteka və virtual-rinq otaqları da yaradılmışdır. Virtual-rinq otağında gənclərin müxtəlif intellektual oyunlar keçirmələri üçün zəruri sistem qurulmuşdur. Mərkəzdəki tir otağı da müasir standartlar səviyyəsindədir. Beşzolaqlı tirdə gənclər idmanın atıcılıq növünə daha yaxşı yiyələnmək üçün imkan əldə edirlər. Otaqdakı virtual tir böyük maraq doğurur. Gənclər dünyanın aparıcı şirkətlərinin istehsalı olan xüsusi lazer effektli tirdən də istifadə edə biləcəklər. Mərkəzdə ən son texnoloji avadanlıqlarla təchiz edilən 30 nəfərlik 3D kino zalı, xarici dillər və linqafon otağı, həmçinin fotostudiya da vardır. Bundan başqa, burada gənclərin müxtəlif tədbirlər keçirmələri üçün konfrans zalı da yaradılmışdır.*

*Gənclər Mərkəzinin həyatində mini-stadion inşa edilmiş, ətraf abadlaşdırılmış, fəvvarə quraşdırılmış, müasir işıqlandırma sistemi yaradılmış, geniş yaşıllıq işləri görülmüşdür.*

* * *

*Mərkəzlə tanışlıqdan sonra dövlətimizin başçısı bölgə gənclərinin nümayəndələri ilə görüşdü:*

– Mən sizi ürəkdən salamlayıram, ilk növbədə, Tərtərdə yeni tikilmiş Gənclər Mərkəzinin açılışı münasibətilə təbrik edirəm. Tərtərli gənclər gərək bu mərkəzdən səmərəli istifadə etsinlər.

Bildiyiniz kimi, indi Azərbaycanda gənclər mərkəzlərinin tikintisi geniş vüsət almışdır. Hər bir rayonda müasir standartlara cavab verən Gənclər Mərkəzi yaradılmalıdır. Artıq bu proses başlamışdır, uğurla gedir. Əminəm ki, yaxın illərdə hər bir rayonda belə gözəl mərkəzlər olacaqdır. Bu binalar həm rayonlara əlavə gözəllik verir, çox yaraşıqlı binalardır, müasir memarlıq üslubunda tikilir, həm də gənclərin asudə vaxtlarını səmərəli keçirmələri üçün burada bütün imkanlar vardır.

Bütövlükdə, Azərbaycanda gənclər siyasəti çox uğurlu aparılır. Bu siyasətin təməlini ulu öndər qoymuşdur. Heydər Əliyevin təşəbbüsü ilə gənclər siyasətinin əsas konturları müəyyən edilmişdir. Son 20 il ərzində Azərbaycanda bu siyasət çox uğurla aparılmışdır. Artıq bu illər ərzində, müstəqillik dövründə gənclər yetişib və ölkəmizin həyatında mühüm rol oynayırlar.

Dövlətin siyasəti ondan ibarətdir ki, Azərbaycan gəncləri bilikli, savadlı, Vətənə bağlı olsunlar və ölkəmizin gələcək inkişafına töhfələrini versinlər. Gənclərin vətənpərvərlik ruhunda böyümələri də çox mühüm əhəmiyyət daşıyır.

Azərbaycan 21 ildir ki, müstəqil dövlətdir. Müstəqilliyimizin əsasları artıq çox möhkəmdir. Gənclər də bu ruhda, milli ruhda böyüməlidirlər. Xüsusilə qloballaşan dünyada buna böyük ehtiyac vardır. Bizim üstünlüyümüz ondan ibarətdir ki, vətəndaşlarımız, xalqımız öz milli-mənəvi dəyərlərinə çox bağlıdır. Uzun illər, əsrlər boyu başqa imperiyaların, ölkələrin tərkibində yaşamağımıza baxmayaraq, milli dəyərlər hesabına biz milli mənliyimizi qoruya bilmişik. Ona görə də indiki zəmanədə biz artıq müstəqil dövlətik və Azərbaycanın gələcəyi, taleyi xalqımızın əlindədir. Dünyada gedən proseslər onu göstərir ki, bəzi hallarda qloballaşma adı altında xoşagəlməz meyillər də üzə çıxır. Buna davam gətirmək, bu xoşagəlməz meyillərin qarşısını almaq üçün ilk növbədə, milli-mənəvi dəyərlər ön plana çıxmalıdır. Mən şadam ki, bütövlükdə Azərbaycan gəncləri öz Vətənlərinə bağlıdırlar, Vətən eşqi ilə yaşayırlar və bu meyillər nəsildən-nəslə keçməlidir.

Mən bu yaxınlarda Bakıda yaradılan yeni ali məktəblərin açılışlarında həm təhsil, həm, ümumiyyətlə, humanitar məsələlərlə bağlı fikirlərimi kifayət qədər geniş bildirmişəm, təkrar etmək istəmirəm. Onu bir daha qeyd etmək istəyirəm ki, gənclərin hərtərəfli hazırlığı üçün ilk növbədə bilik öz rolunu oynamalıdır. Hər bir gənc bilməlidir ki, onun taleyi öz əlindədir, bilik səviyyəsindən asılıdır.

Azərbaycan azad ölkədir, azad cəmiyyətdir. İqtisadiyyatımız bazar iqtisadiyyatı prinsipləri əsasında qurulubdur. Hər bir vətəndaş üçün bütün imkanlar vardır. Bilik olmadan indi həyatda

layiqli yer tutmaq çətin olar. Buna görə mən həmişə gənclərlə görüşlərimdə bu məsələyə diqqət yetirirəm. Doğrudan da hər bir gəncin fəaliyyəti, gələcəyi üçün ilk növbədə bilik çox vacibdir.

Nəzərə alsaq ki, indi Azərbaycanda bu sahədə islahatlar aparılır, yeni texnologiyalar tətbiq edilir, gənclərimiz də bütün müasir texnologiyalara hazırlıqlı olmalıdırlar. Yəni dünya bu istiqamətdə inkişaf edir. Dünyanın gələcəyi ancaq biliyin səviyyəsi ilə bağlıdır. Bu gün bu özünü büruzə verir. Əminəm ki, 10, 20 ildən sonra bilik və texnoloji tərəqqinin səviyyəsi hər bir ölkənin inkişafını müəyyən edəcəkdir.

Dünyada rəqabət gedir və ölkələr bir-biri ilə rəqabət aparır. Bəzi hallarda bu rəqabət sivil yollarla aparılır, bəzi hallarda bu, toqquşmalara, müharibələrə gətirib çıxarır. Ona görə, hər bir cəmiyyətin inkişafı ilk növbədə, bilavasitə intellektual səviyyə ilə bağlıdır.

Mən qeyd etmişəm, bir daha demək istəyirəm ki, Azərbaycanda bütövlükdə intellektual səviyyə lazımi yerdədir. Ancaq bu, daimi prosesdir. Biz əldə edilmiş uğurlarla kifayətlənməməliyik.

Elmin inkişafı da çox vacibdir. Əlbəttə, Azərbaycan hələ ki, elmi-texniki tərəqqi istiqamətində təşəbbüskar rolunu oynaya bilməz. Ancaq Azərbaycanda dünyada mövcud olan ən müasir texnologiyalar, ən gözəl yeniliklər tətbiq edilməlidir. Bu yenilikləri tətbiq edə biləcək şəxslər, insanlar olmalıdır. Əgər cəmiyyətin ümumi intellektual potensialı aşağıdırsa, onda bizim heç bir təşəbbüsümüz uğur gətirə bilməz. Cəmiyyətin ümumi intellektual potensialı yüksək olmalıdır. Yeni texnologiyalar gətirilməlidir. Gənclər peşəkar olmalıdırlar. Əvvəlki dövrdə – sovet dövründə ixtisaslaşma özünü çox qabarıq şəkildə büruzə verirdi. Bu gün müasir menecerlərin hazırlanması çox vacibdir və bu istiqamətdə ölkəmizdə işlər gedir.

Mən gənclərin ictimai həyatda fəaliyyətinə də böyük ümidlərlə baxıram. Gənclər daim cəmiyyətin ən fəal üzvləridirlər. Bu fəallıq davam etdirilməlidir. Ölkəmizdə ictimai proseslər çox müsbət istiqamətdə gedir. Gənclər də bu proseslərin gücləndirilməsində öz rolunu oynayır və ölkəmizin

dünyada tanıdılması işində ön plana çıxırlar. Bizim üçün ən ağrılı problem olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dünya birliyinə çatdırılması üçün gənclər də öz rolunu oynayırlar. Xocalı soyqırımını tanıtdırmaq prosesi artıq başlamışdır. 3 ölkə Xocalı soyqırımını tanıyıb və gənclərin bu işlərdə rolu çox müsbətdir.

Xaricdə yaşayan və oxuyan gənclərimiz müxtəlif aksiyalarda, müxtəlif tədbirlərdə fəal iştirak edirlər. İndi bizim diaspor təşkilatlarımız güclənib, formalaşıb və dünyanın istənilən nöqtəsində aksiya keçirməyə qadirdir. Bu aksiyalara televiziya vasitəsilə tamaşa edərkən görürük ki, orada da ön planda gənclərimizdir. Yəni gənclər həmişə fəal olurlar və bu fəallıq müsbət istiqamətə yönəldilməlidir.

Mən çox şadam ki, gənclərimiz ölkəmizin hərtərəfli inkişafında öz rolunu oynayır. Gənclər vətənpərvərdirlər, vətənə bağlıdırlar, milli ruhda tərbiyə alırlar, gələcəkdə ölkəmizi uğurla idarə etmək üçün indidən hazırlaşmalıdırlar. Hərə öz yerində, çünki bu, daimi prosesdir.

Bu gün Azərbaycan dünya miqyasında layiqli yer tuta bilibdir. Bizimlə hesablaşırlar. Bizim təşəbbüslərimiz bölgədə həlledici rol oynayır. Nəsillər dəyişir, hər yeni nəsil əvvəlki nəsildən daha da hazırlıqlı, daha da peşəkar olmalıdır. Belə olarsa, onda ölkəmizin uzunmüddətli inkişafı çox uğurlu ola bilər. Hər bir ölkənin gücünü heç də onun təbii resursları müəyyən etmir. Baxmayaraq ki, müəyyən mərhələdə bu da vacibdir. İnsanların peşəkarlığı, ilk növbədə, intellektual potensial və vətənpərvərlik əsas anlayışlardır ki, bunlar hər bir ölkənin uğurunu şərtləndirir. Ona görə peşəkarlıqla yanaşı, dövlətimizin ideoloji əsaslarının möhkəmləndirilməsi üçün gənclər də öz töhfəsini verməlidir. Mən bunu görürəm, bunu alqışlayıram və çalışıram ki, gəncləri qabağa çəkək. Bu proses artıq sürətlə gedir.

Gənclər biznes sahəsində çox fəaldırlar. Çünki Azərbaycanda iqtisadi sahədə çox güclü və təsirli inkişaf gedir. Əlbəttə, biznes imkanlarımız da genişlənəcəkdir.

Hazırda Azərbaycan iqtisadiyyatı dünya miqyasında aparıcı iqtisadiyyatlar sırasındadır. Rəqabətqabiliyyətliliyə görə biz dünya miqyasında 46-cı yerdəyik. MDB məkanında 1-ci yerdəyik. Rəqabətqabiliyyətlilik heç də neft-qaz hasilatı ilə ölçülmür. Bu, aparılan islahatların mahiyyətini göstərir. Yəni iqtisadiyyatımız indi geniş biznes fəaliyyətinin aparılması üçün bütün imkanları ortaya qoyur. Mən görürəm ki, biznes strukturlarının əksəriyyətinin rəhbərliyində gənclərdir. Mən bunu çox bəyənirəm, alqışlayıram. Hesab edirəm ki, gələcəkdə bu proses daha da sürətlə getməlidir.

Eyni zamanda, milli ənənələrimizi, mədəniyyətimizi yaşatmaq üçün də gənclər öz rolunu oynayır. Milli musiqimizin təbliği ilə, digər tədbirlərlə bağlı gənclərin fəallığını görəndə mən çox sevinirəm. Məsələn, muğam müsabiqələrinin keçirilməsi çox gözəl bir təşəbbüsdür, gözəl tədbirdir. Nəinki gənclərin, balaca uşaqların gözəl ifaçılıq qabiliyyətini görəndə adam sevinir, görür ki, doğrudan da Azərbaycan xalqı öz istedadını bütün dünyaya təqdim edir. Öz mədəniyyətinə, musiqisinə, ədəbiyyatına bağlı olan insan şübhəsiz ki, vətənpərvər insan olacaqdır.

Mənim gənclərlə görüşlərim mütəmadi xarakter daşıyır – həm Bakıda, həm bölgələrdə. Bu gün biz bu gözəl məkanda bölgə gənclərinin toplantısını keçiririk. Mən əminəm ki, sizin hər biriniz yaşadığınız yerlərdə ölkəmizin ümumi inkişafına öz töhfənizi verəcəksiniz.

Mən rayonlarda tez-tez oluram. Bizim regional inkişaf proqramımız bu rayonlarda uğurla icra edilir. Görürsünüz şəhərlər necə gözəlləşir, abadlaşır, yollar çəkilir, sosial infrastruktur yaradılır. Bu, ölkəmizin ümumi inkişafıdır. Ümumi inkişafımız bundan sonrakı illərdə də çox sürətli olacaqdır və ölkəmiz dünya miqyasında öz mövqeyini daha da möhkəmləndirəcəkdir.

Bir daha sizi ürəkdən salamlayıram, gözəl binanın açılışı münasibətilə sizi təbrik edirəm.

**A m i l  C a v a d o v** (*Yeni Azərbaycan Partiyası Ağdam rayon təşkilatı Gənclər Birliyinin sədri):* Cənab Prezident, mən Sizi Ağdam gəncləri adından salamlayıram. Mütəmadi olaraq gənclərlə bu cür görüşlər keçirdiyinizə görə Sizə minnətdarlığımızı bildiririk.

Cənab Prezident, mən bir Azərbaycan gənci, həmçinin də torpağı işğal altında olan qarabağlı gənc kimi, bildirmək istəyirəm ki, biz gənclər Sizin Qarabağımızın azad olunması yolunda atdığınız addımları daim dəstəkləyirik və Ali Baş Komandanın hər an «İrəli!» əmrini gözləyirik.

Cənab Prezident, 20 ilə yaxın bir zamanda torpaqlarımızın geri qaytarılması ilə bağlı aparılan danışıqlarda işğalçı Ermənistan dövləti müxtəlif bəhanələr gətirməklə sülh prosesinə mane olmağa, mövcud vəziyyətin uzadılmasına çalışır. Hətta son olaraq Azərbaycan Ordusunun zabiti Ramil Səfərovun ölkəmizə verilməsi və Sizin tərəfinizdən əfv olunmasını aparılan sülh danışıqlarına mənfi təsir kimi təbliğ edirlər. Xahiş edirik, buna münasibətinizi bildirəsiniz.

**İ l h a m  Ə l i y e v:** Sağ olun. Mən dəfələrlə bu barədə öz fikrimi bildirmişəm və bir daha demək istəyirəm: Ermənistanın məqsədi ondan ibarətdir ki, bu münaqişə öz həllini tapmasın. Hələ bir neçə il əvvəl Minsk qrupunun həmsədrlərinə öz fikrimi bildirmişdim və demişdim ki, məndə yaranan təəssürat bundan ibarətdir. Əgər Ermənistan rəhbərliyi münaqişənin həllini istəsəydi, buna nail olmaq çox asandır. Müxtəlif variantlar təklif edilmişdi və 2009-cu ilin sonunda ATƏT-in xarici işlər nazirlərinin toplantısında yeni təqdim edilmiş variant Azərbaycan tərəfindən prinsip etibarilə qəbul edilmişdi və bu barədə Azərbaycan rəsmi qaydada öz mövqeyini bildirmişdi.

Bu variantın mahiyyəti barədə artıq mən dəfələrlə öz fikirlərimi bildirmişəm. Bütün işğal edilmiş rayonlardan erməni silahlı qüvvələrinin çıxarılması, Azərbaycan köçkünlərinin o torpaqlara qayıdışı, Ermənistan ilə Dağlıq Qarabağ arasında dəhlizin fəaliyyəti, sülhməramlı qüvvələrin bölgəyə gətirilməsi nəzərdə tutulurdu və Dağlıq Qarabağın gələcək statusu qeyri-

müəyyən bir vaxtda müəyyən olunacaqdı. Status nədən ibarət olacaqdı? Verilən təklifdə bu göstərilmirdi. Hesab edirəm ki, düzgün yanaşma idi. Bu, gələcəyin işidir. Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz torpağıdır, tarixi torpağımızdır, əzəli torpağımızdır və bu gün Dağlıq Qarabağda yaşayan ermənilər gələcəkdə vahid Azərbaycan dövləti çərçivəsində yaşayacaqlar. Mən buna şübhə etmirəm.

Ermənistan tərəfi hesab edir ki, Dağlıq Qarabağ nə vaxtsa müstəqil dövlət olacaqdır. Bu xülyadır, fantaziyadır, heç vaxt mümkün olmayacaqdır. Dünya birliyi Dağlıq Qarabağı Azərbaycan torpağı kimi tanıyır və bütün vacib beynəlxalq təşkilatların sənədlərində bu öz əksini tapıb. Bu yaxınlarda «Qoşulmama Hərəkatı»nın qətnaməsində də – o hərəkatda 120 ölkə cəmləşir, yəni dünya birliyinin əksəriyyətidir – məsələnin ərazi bütövlüyü çərçivəsində həll olunması nəzərdə tutulur. Bu ilin mayında Çikaqoda keçirilən NATO zirvə görüşündə son bəyanatda yenə də münaqişənin Azərbaycanın ərazi və ancaq ərazi bütövlüyü çərçivəsində həlli nəzərdə tutulur. Bilirsiniz ki, BMT Təhlükəsizlik Şurasının qətnamələri və s. vardır.

Bu, birmənalı yanaşmadır və mən şübhə etmirəm ki, vaxt gələcək və Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək. O təklifə biz prinsip etibarilə müsbət baxmışdıq. Hesab edirdik ki, ədalətli təklifdir. Ermənistan isə buna etiraz etmiş, təklifi qəbul etməmiş və ondan sonra müxtəlif yollarla verilən təklifə dəyişikliklər etmə cəhdləri göstərmişdir.

Münaqişənin həllinə gəldikdə biz bir neçə ay bundan əvvəl həmsədr ölkələrin dövlət başçılarının bəyanatını eşitdik ki, status-kvo qəbuledilməzdir və dəyişdirilməlidir. Çox müsbət bəyanatdır. Münaqişənin ilkin mərhələlərində belə bəyanatlar, əfsuslar olsun ki, verilməmişdir. Ancaq bu bəyanatdan sonra real addımlar olmalıdır. Yoxsa bu bəyanat havada qalacaq. Status-kvonun dəyişdirilməsi erməni qoşunlarının işğal olunmuş torpaqlardan çıxarılması deməkdir. Status-kvo başqa necə dəyişə bilər? Biz Ermənistan torpağını zəbt etməmişik ki,

nəyisə dəyişək, hansısa güzəştə gedək. Əfsuslar olsun ki, bu bəyanatdan sonra hələ ki, konkret addımlar atılmır.

Qeyd etdiyiniz kimi, Ramil Səfərov məsələsi də həm ermənilər tərəfindən, həm də, əfsuslar olsun ki, bəzi xarici dairələr tərəfindən bir bəhanə kimi ortaya qoyuldu və bu məsələyə görə danışıqlar indi dalana dirənib. Danışıqlar dalana dirənib ona görə ki, Ermənistan status-kvonu dəyişdirmək istəmir. Ermənistan öz diasporunun gücünə arxayındır və hesab edir ki, bu status-kvonu əbədi saxlaya bilər. Ramil Səfərovun məsələsi elə bil ki, həm onlara, həm bu məsələ ilə məşğul olan bəzi xarici ölkələrə imkan verdi ki, Azərbaycanı qınasınlar, sanki Azərbaycan danışıqlar prosesinə zərbə vurur. Biz 2009-cu ilin sonunda ATƏT-in Minsk qrupu tərəfindən verilmiş yeniləşmiş Madrid prinsiplərinin əsas parametrlərini qəbul etdik, Ermənistan etiraz etdi. Bu ədalətsizlikdir və biz bu vəziyyətlə barışa bilmərik. Heç vaxt imkan verə bilmərik belə rəy formalaşsın ki, guya Azərbaycanın addımları danışıqların uğursuzluğuna gətirib çıxarır. Bu belə deyil və bu ədalətsiz mövqe üstünlük qazana bilməz.

Ramil Səfərov məsələsinə gəldikdə, bir daha demək istəyirəm ki, hər şey qanun çərçivəsində həll edilibdir. Avropanın qəbul etdiyi konvensiyalar əsasında ekstradisiya məsələsi həll olundu və Azərbaycan Konstitusiyası əsasında Ramil Səfərov mənim tərəfimdən əfv edildi. Bu çox düzgün qərar idi və mən bir daha demək istəyirəm ki, əgər lap o vaxt bilsəydim ki, ermənilər və onların havadarları belə hay-küy qaldıracaqlar, yenə də mən Ramil Səfərovu Azərbaycana gələn kimi əfv edəcəkdim.

Azərbaycan öz zabitini Vətənə qaytardı. Ən vacib məsələ bundan ibarətdir. Ermənilər nə deyirlər desinlər, bu məni qətiyyən maraqlandırmır. Onların havadarları nə deyirlər desinlər, bu məni maraqlandırmır, mən bu bəyanatlara əhəmiyyət vermirəm və Azərbaycana edilən əsassız hücumların heç biri cavabsız qalmamışdır.

Avropa Parlamenti, əfsuslar olsun ki, ikinci dəfə anti-azərbaycan qətnamə qəbul edir. Azərbaycanın Milli Məclisi onlara layiqli cavab verdi, Prezident Administrasiyası da layiqli cavab verdi. Digər beynəlxalq təşkilatlar, Avropa Şurasının baş katibi – o adam ki, ümumiyyətlə, humanizmin keşiyində durmalıdır, insan haqlarının qorunmasının keşiyində durmalıdır – Avropa Şurası əvvəlki illərdə bəzi hallarda humanitar əsaslar bəhanə gətirərək Azərbaycan dövlətini məcbur edirdi ki, cinayət törətmiş insanları əfv etsin, yəni cinayətkarları əfv etsin. Ramil Səfərov 9 ilə yaxın həbsdə yatdı, yəni artıq onun əfvi bütün mənəvi, siyasi, hüquqi cəhətdən tamamilə əsaslıdır. Ancaq biz nəyi görürük? Yenə ikili standartlar siyasətini görürük. Əgər, mən tam əminliklə deyirəm, erməni zabiti Azərbaycan zabitini öldürsəydi, bax, əgər tamamilə əks vəziyyət olsaydı, heç vaxt bu qədər hay-küy qalxmazdı. Bizə qarşı ikili standartlar siyasəti aparılır, bu reallıqdır, bu siyasətin səbəbləri var, hamımız bu səbəbləri bilirik.

Ancaq yenə də deyirəm, bizi tutduğumuz yoldan heç kim döndərə bilməz. Azərbaycan müstəqil dövlətdir, beynəlxalq təşkilatlarda fəaliyyət göstərir və aparıcı beynəlxalq təşkilatlar Azərbaycanın mövqeyini müdafiə edir. BMT, onun Baş Məclisi Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bizim maraqlarımıza uyğun olan qətnamə qəbul etmişdir. BMT Təhlükəsizlik Şurası 4 qətnamə qəbul etmişdir. «Qoşulmama Hərəkatı» – hansı ki 120 ölkəni birləşdirir – bizim mövqemizi dəstəkləmişdir. İslam Əməkdaşlıq Təşkilatı bizim mövqemizi dəstəkləmişdir. Ona görə biz, yenə də deyirəm, tutduğumuz yoldan dönməyəcəyik, ermənilərin qaldırdığı hay-küy heç bir əhəmiyyətə malik deyildir. Biz onu, ümumiyyətlə, heç nəzərə almırıq. Bəzi Avropa siyasətçilərinin əsassız hücumları da cavabsız qalmayacaq və qalmır.

**Xədicə Məmmədli** *(Goranboy şəhər 2 saylı orta məktəbin XI sinif şagirdi):* Hörmətli cənab Prezident! Mən ilk növbədə Sizi Goranboy gəncləri adından salamlayıram! Sizə gənclərə göstərdiyiniz diqqət və qayğıya görə təşəkkürümü

bildirirəm. Cənab Prezident, son dövrdə Sizin tapşırıqlarınıza əsasən Azərbaycanda təhsil sahəsində yüksək səviyyəli və ən müasir maddi-texniki bazanın yaradılmasının şahidiyik. Xüsusilə bölgələrdə inşa edilən təhsil müəssisələrinin artması dövlətimizin təhsilə göstərdiyi diqqət və qayğının nəticəsidir. Bu isə bizim daha böyük biliklər almaq imkanımızı artırır. Lakin buna baxmayaraq, təhsil sahəsində bir sıra problemlər yaşanmaqdadır. Biz buna bölgə məktəblərində elektron kitabxanaların sayının az olması və internetə çıxış sürətinin aşağı olması kimi səbəbləri misal göstərə bilərik. Cənab Prezident, bizim üçün maraqlıdır, təhsil sahəsində islahatlar davam etdiriləcəkmi?

**İlham Əliyev:** Şübhəsiz, davam etdiriləcək. Bütövlükdə bütün sahələrdə islahatlar davam etdirilməlidir. İslahatlar elə bir anlayışdır ki, onların sonu yoxdur. Siyasi islahatlar, iqtisadi islahatlar, əlbəttə ki, təhsil sahəsində islahatlar aparılmalıdır. İslahat yenilik deməkdir. Həyat yerində durmur, həyat davam edir, dünya inkişaf edir. İslahat sadəcə olaraq, düzgün addımın düzgün vaxtda atılması deməkdir. Təhsil sahəsində son illərdə islahatlar aparılmışdır.

Qeyd etdiyiniz kimi, təhsilin maddi-texniki bazası böyük dərəcədə möhkəmləndirilmişdir. Bölgələrdə 2200-dən çox məktəb tikilmişdir. Bakı şəhərində gələn ilin sonunda bir dənə də olsun qəzalı vəziyyətdə, təmirsiz məktəb qalmayacaqdır. Bölgələrə gəldikdə, əfsuslar olsun ki, hələ bölgələrdə qəzalı vəziyyətdə məktəblər vardır. Hər bir rayona getməzdən əvvəl mənə verilən arayışda, xüsusilə mən deyirəm göstərilsin ki, neçə məktəb qəzalı vəziyyətdədir?! Biz bunu bilirik. Bu problem var. Problem bu gün yaranmayıb və demək istəyirəm ki, son 8-9 ildə 2200-dən çox məktəbin tikintisi bu problemin tədricən aradan qaldırılmasına kömək etmişdir.

Məktəblərin müasir avadanlıqlarla təchiz edilməsi, əlbəttə ki, çox vacib məsələdir. İndi kompüterləşmə prosesi gedir. Əgər 10 il bundan əvvəl 1000 şagirdə bir kompüter düşürdüsə, indi təqribən 30, bəlkə ondan da az şagirdə bir kompüter düşür.

Kompüterləşmə gedir, kəndlərə qədər internet çəkilir. Genişzolaqlı internet çəkilir. Azərbaycan internetin genişlənməsi istiqamətində bölgədə ən sürətlə inkişaf edən ölkədir. Statistikaya görə əhalimizin 65 faizi internet istifadəçisidir. Əlbəttə, bu işlər davam etdiriləcəkdir. Amma bu, məsələnin texniki və maddi tərəfidir.

Biz təhsilə böyük investisiyalar qoyuruq. Bundan sonra da qoyacağıq, informasiya-kommunikasiya texnologiyalarının inkişafına investisiya qoyuruq. Dövlət öz tərəfindən maddi-texniki bazanı gücləndirir. Təhsilin keyfiyyətinə gəldikdə, əlbəttə, burada islahatlar daha da əsaslı olmalıdır. Bütövlükdə cəmiyyətimizin intellektual səviyyəsi yüksəkdir, ancaq bu sahədə də hər hansı uğurla kifayətlənmək olmaz. Tədris prosesinə, təhsilin səviyyəsinə, əlbəttə ki, yenidən baxılmalıdır. Elə etməliyik ki, orta məktəbi bitirən insan doğrudan da hazırlıqlı, bilikli olsun.

İlkin bilik bazası orta məktəbdə formalaşır. Kompleks tədbirlər, əlbəttə ki, burada öz rolunu oynayır. Ali məktəblərdə müəllimlərin hazırlanması, onların məsuliyyəti, ailələrdə bu məsələyə verilən diqqət və dövlət tərəfindən ayrılan investisiyalar, məqsədyönlü şəkildə aparılan islahatlar əminəm ki, yaxın illərdə təhsildə daha da ciddi irəliləyişə gətirib çıxara bilər.

**Kamal Məmmədzadə** (*Bakı Dövlət Universiteti hüquq fakültəsinin IV kurs tələbəsi):* Möhtərəm Prezident! Tərtər gəncləri adından Sizi salamlayır və rayonumuza «Xoş gəlmisiniz!» – deyirik. Cənab Prezident! Biz bilirik ki, Siz hər zaman gənclərimizə xüsusi diqqət və qayğı göstərirsiniz. Müasir Gənclər Mərkəzinin rayonumuzda tikilməsi bunun bariz nümunəsidir. Möhtərəm Prezident, sıx iş qrafikinizin olmasına baxmayaraq, biz gənclərlə görüşə vaxt ayırdığınız üçün Sizə təşəkkürümüzü və minnətdarlığımızı bildiririk.

Bildiyimiz kimi, ölkəmizdə korrupsiyaya qarşı ciddi mübarizə gedir. Ölkəmizdə aparılan quruculuq işlərinə, sosial-iqtisadi sahədə aparılan islahatlara, eləcə də Azərbaycanın

işgüzar nüfuzuna xələl gətirən korrupsiya faktlarının aradan qaldırılmasında ciddi tədbirlər görülür. Lakin məlum son hadisələr korrupsiyaya qarşı mübarizənin daha da gücləndirilməsi zərurətini yaradır. Bu haqda Sizin fikrinizi bilmək istərdik.

**İ l h a m Ə l i y e v:** Korrupsiyanı şərtləndirən amillər vardır. Təkcə inzibati addımlarla bu bəla ilə mübarizə aparmaq çox çətindir. Çünki inzibati addımlar atılır, cəza tədbirləri görülür, insanlar cəzalandırılır, həbs edilir. Ancaq ondan sonra o yerlərə gələn yeni təyin edilmiş insanlar da bəzi hallarda müəyyən müddətdən sonra eyni yolla gedirlər. Ona görə inzibati tədbirlər, əlbəttə ki, davam etdiriləcəkdir. Cəza tədbirləri daha da sərt olacaqdır. Ancaq bununla bərabər, korrupsiyanı mümkünsüz etmək üçün yeni üsullar da artıq işə salınır. Elektron hökumət, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin xətti ilə tətbiq edilən yeni sistemlər, qeydiyyat məsələsi, indi yeni yaradılmış «Asan xidmət» xeyli dərəcədə bu korrupsiyanın qarşısını alacaqdır. Biz çalışırıq ki, Azərbaycanda şəffaflığı maksimum dərəcədə tətbiq edək. Bu sahədə də uğurlara nail olmuşuq. Bizim Dövlət Neft Fondu bu gün dünya miqyasında ən şəffaf Neft Fondudur.

Dünyada bu istiqamətdə gedən islahatlarda biz birinciyik və Hasilat Sənayelərində Şəffaflıq Təşəbbüsünün birinci tam-hüquqlu üzvü məhz Azərbaycandır. Bu mümkündür, biz bunu etmişik. Dövlət qurumlarının şəffaflığı məsələləri əhəmiyyət daşıyır, yəni şəffaflıq olan yerdə korrupsiya üçün meydan daralır. Ona görə cəza tədbirləri, inzibati tədbirlər mütləq davam etdirilməlidir, bu reallıqdır, bunsuz mümkün deyildir.

Dövlət siyasəti var, bütün lazımi tədbirlər görülübdür, bütün göstərişlər verilibdir və hesab edirəm ki, biz artıq tədricən bu mübarizədə qalib gəlməyə başlamışıq. Azərbaycanda olan inkişaf dünya miqyasında bəlkə də heç bir yerdə yoxdur. İlk dəfə Azərbaycana – istər bölgələrə, istər Bakıya gələn hər bir qonaq öz təəccübünü gizlədə bilmir, deyir ki, təsəvvür etmirdik ki, bu dərəcədə inkişaf etmiş ölkəniz var, bu dərəcədə yenilik,

quruculuq, abadlıq, infrastruktur işləri aparılır. DeməK olar ki, ilk dəfə gələn hər bir xarici qonaq bir şeyi vurğulayır ki, gözəl insanlarınız var, əhval-ruhiyyə çox gözəldir. Bunlar hamısı bizim üstünlüyümüzdür və bunun fonunda korrupsiyaya dözümlülük qətiyyən mümkün deyil. Mən əminəm ki, bütün başqa sahələrdə olduğu kimi, bu sahədə də biz istədiyimizə nail olacağıq.

**A y g ü n  M ə m m ə d l i** *(Azərbaycan Tibb Universitetinin tələbəsi):* Cənab Prezident, əvvəlcə Sizi Tərtər gəncləri adından salamlayıram və göstərdiyiniz diqqətə görə təşəkkürümü bildirirəm. Biz Azərbaycan gənclərinin arzusu hər zaman yüksək təhsil almaq, təhsilimizi bitirdikdən sonra isə savadlı kadr kimi dövlətimizə və xalqımıza xidmət etməkdir. Son dövrlərdə dövlət qurumlarında gəncləşmə prosesi müşahidə olunur. Bu isə Sizin uğurlu siyasətinizin məntiqi nəticəsidir. Bununla yanaşı, Sizin sərəncamınız ilə təsdiq olunmuş «Azərbaycan gəncliyi Dövlət Proqramı»nda da gənc kadrlar barəsində müddəalar vardır. Son dövrlərdə regionlarımızda sosial-iqtisadi inkişaf sürətlə gedir. Sürətlə gedən inkişaf isə kadr siyasəti ilə birbaşa bağlıdır. Biz istərdik ki, bu sürətli inkişaf prosesində gənc kadrların potensialından da səmərəli şəkildə istifadə olunsun. İstərdik ki, bunlar barəsində öz fikrinizi bildirəsiniz.

**İ l h a m  Ə l i y e v:** Bizim mövqemiz tamamilə aydındır. Mən bu barədə dəfələrlə öz fikrimi bildirmişəm. Gəncləşmə prosesi getməlidir və gedir. Hər bir cəmiyyətdə bu olmalıdır. Əgər bu olmasa, nə olacaq? Durğunluq olacaq. Biz buna imkan verə bilmərik. Ona görə 2011–2015-ci illəri əhatə edən «Azərbaycan gəncliyi Dövlət Proqramı»nın icrası məhz bu zərurətdən əmələ gəlibdir. Proqram çox genişdir və proqramın tərtibatında gənclər fəal iştirak etmişlər. Çünki proqram qəbul edilməzdən əvvəl geniş müzakirələr aparılmışdı, təkliflər gəlmişdi. Ondan sonra mənə yenidən məruzə edildi, dedim ki, yerlərdən gələn təkliflər daha da çox nəzərə alınsın. Beləliklə, proqram artıq formalaşıb, icra edilir. Gənclər Fondu yaradılmışdır. Bu da çox vacibdir və Prezidentin

ehtiyat fondundan Gənclər Fonduna ilkin olaraq 5 milyon manat vəsait köçürülmüşdür. Yəqin ki, gələn il əlavə vəsait köçürüləcəkdir. Bu fond vasitəsilə də müxtəlif layihələr icra edilə bilər. Peşəkar, bilikli, savadlı, Vətənə bağlı olan müasir gənclərimizi biz qabağa çəkməliyik. Amma yenə də burada ən vacib rolu gənclərin hazırlığı oynamalıdır. Yəqin bilirsiniz ki, bir neçə müddət əvvəl pensiyaya gedəcək şəxslərin də yaş həddi müəyyən edildi. Bu da çox vacibdir. Müəyyən yaş həddindən sonra dövlət qurumlarında işləyən insanlar pensiyaya getməlidirlər. İstisna hal kimi, onların fəaliyyəti bir neçə il uzadıla bilər.

Mən yeni müəssisələrin açılışlarında tez-tez oluram. Yeni biznes sahələrinin yaradılması ilə bağlı konkret tapşırıqlar verilir və çox şadam ki, bu sahədə əsas fəaliyyət göstərən gənclərdir. Bilikli, savadlı olmaq, xarici dil bilmək də çox vacibdir, xüsusilə internet dövründə bunsuz mümkün deyildir. Bizim gənclərimiz həm ingilis dili, həm rus dili – azı 2 dil bilməlidirlər və onların hazırlıq səviyyəsi, peşəkarlığı elə olmalıdır ki, onlar bütün vacib vəzifələrdə öz məharətlərini inamla göstərə bilsinlər.

**G ü l ş ə n  O r u c o v a** *(Bərdə şəhər 3 saylı tam orta məktəbin tarix müəlliməsi):* Cənab Prezident, Sizi öz adımdan, Bərdə gəncləri adından salamlayır və gənclərə göstərdiyiniz yüksək qayğıya görə minnətdarlığımızı bildiririk.

Cənab Prezident, bildiyiniz kimi, bu gün Azərbaycanda sosial şəbəkələrdən istifadə daha geniş yayılmışdır. İnternetin daha çox yayıldığı bir dövrdə sosial şəbəkə artıq yeni bir media növünə çevrilmişdir. İnsanlar sosial şəbəkədən əsasən informasiya əldə etmək, həmçinin informasiyanın paylanması üçün istifadə edirlər. Bu isə Azərbaycanın hər bir sahədə olduğu kimi, həmçinin sosial şəbəkə sistemində olan fikir azadlığının ən gözəl, ən bariz nümunəsidir. Bugünkü gəncliyimizə nəzər salsaq, gənclərin bir qismi sosial şəbəkədən əsasən əyləncə vasitəsi kimi istifadə edir. Amma sosial şəbəkədən informasiya əldə etmək, həmçinin Azərbaycanda və dünyada gedən prosesləri izləmək, paylaşmaq daha əhəmiyyətli və daha

vacibdir. Bu barədə Sizin fikirlərinizi dinləmək, tövsiyələrinizi eşitmək bizlər üçün maraqlı olardı.

**İ l h a m  Ə l i y e v:** Sosial şəbəkələr nisbətən yeni bir anlayışdır, dünyada geniş şəkildə yayılır. Azərbaycan açıq dövlətdir, cəmiyyətimiz açıq cəmiyyətdir, bütün azadlıqlar var, heç bir məhdudiyyət yoxdur. Hər şey ancaq qanun çərçivəsində olmalıdır. Əgər hər şey qanun çərçivəsindədirsə, heç bir məhdudiyyət ola bilməz. Bizdə mətbuat azadlığı, vicdan azadlığı, bütün siyasi azadlıqlar vardır. Azərbaycanda internet azaddır. Əgər ölkələrin statistikasına baxsaq – yəni harada internet azaddır, harada yox – görərik ki, heç də hər bir dövlətdə azad internet yoxdur. Məhdudiyyətlər, qadağalar vardır. Bizim dövlət siyasətimizin bu istiqamətdə fəaliyyəti tamamilə şəffaf və açıqdır. Mən çox istərdim ki, ilk növbədə bu şəbəkələrdən informasiya, bilik əldə edilməsi üçün istifadə olunsun.

Çox istərdim və xüsusilə mənim gənclərə müraciətim ondan ibarətdir ki, ölkəmiz haqqında dolğun məlumatı, bax, bu sosial şəbəkələr vasitəsilə dünyaya çatdırsınlar. Bəzi hallarda Azərbaycan haqqında qəsdən formalaşdırılan rəy reallıqla tamamilə ziddiyyət təşkil edir. Nə üçün bu rəy formalaşdırılır, biz bunu da bilirik, bunu kim formalaşdırır, biz onu da bilirik. Bir tərəfdən, dünya erməniliyi, erməni lobbisi Azərbaycanı ləkələmək üçün, digər tərəfdən, Azərbaycan reallıqlarını həzm edə bilməyən bəzi siyasi və ictimai qurumlar. Üçüncü təbəqə, onu da biz açıq deməliyik, islamofobiya xəstəliyinə düçar olmuş bəzi dairələr, qeyri-hökumət təşkilatlarıdır ki, onların gündəlik fəaliyyəti Azərbaycanı qaralamaqdan ibarətdir. Mən onların adlarını heç çəkmək də istəmirəm. Ancaq deyə bilərəm ki, onların heç bir şantaj cəhdləri uğur gətirməyəcək, bütün səylər əbəsdir. Ancaq bu var və biz öz ölkəmizi, öz mədəniyyətimizi təbliğ etmək üçün sosial şəbəkələrdən geniş şəkildə istifadə etməliyik. Dövlət bu istiqamətdə öz fəaliyyətini aparır – xaricdə müxtəlif tədbirlər keçirilir, diaspor təşkilatları güclənir, səfirliklər öz fəaliyyətlərini göstərir. Mən bilirəm, xaricdə oxuyan gənclərimiz də çox fəaldırlar, sərgilər, tədbirlər,

konsertlər keçirirlər. Xarici qonaqları dəvət edirik. Bu günlərdə II Beynəlxalq Humanitar Forum keçirilmişdir. Cəmi 2 il ərzində biz öz təşəbbüsümüzü real, konkret formata çevirdik. Forumda 10 keçmiş prezident, 11 Nobel mükafatı laureatı, yüzlərlə siyasətçi, ictimai xadim iştirak etmişdir. Bu gün və dünən onlar bölgələrə səfərlər ediblər, bölgələrlə tanış olublar. Bu bizim əlimizdə olan çox güclü bir tanıtma imkanımızdır. Misal üçün, bu foruma 600 nəfər gəlib, hansısa başqa tədbirə ola bilər 200 nəfər gəlir. Sosial şəbəkələr vasitəsilə minlərlə, milyonlarla insan Azərbaycanla tanış ola bilər. Ona görə gənclərdən xahişim ondan ibarətdir ki, sosial şəbəkələrdən bu məqsədlə istifadə etsinlər, öz ölkəsi ilə fəxr etsinlər, öz ölkəsi haqqında dolğun, dəqiq, qərəzsiz məlumat ötürsünlər. Bütün dünya da bilsin ki, insanların sərbəst, bütün xalqların nümayəndələrinin bir ailə kimi yaşadığı belə bir ölkə var – Azərbaycan! Bu da, əfsuslar olsun ki, heç də hər bir ölkəyə xas olan məsələ deyildir. Azərbaycanda inkişaf, tərəqqi var və gələcəyə baxışlar da çox nikbindir.

Mən sizi bir daha ürəkdən salamlayır, sizə uğurlar arzulayıram. Sağ olun.

## Dövlət Bayrağı Meydanı ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev oktyabrın 7-də Tərtərdə Dövlət Bayrağı Meydanında yaradılmış şəraitlə tanış olmuşdur.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, şəhərin Bərdə istiqamətindəki girişində 1 hektara yaxın ərazidə yaradılmış Dövlət Bayrağı Meydanı yüksək səviyyədə inşa edilib. Burada quraşdırılan bayraq dirəyinin hündürlüyü 65, bayrağın uzunluğu 14, eni isə 7 metrdir. Dövlət bayrağı Tərtərin bir çox yerindən aydın görünür. Düşmən tapdağında olan torpaqlarımızla az bir məsafədə yerləşən möhtəşəm meydanda Azərbaycanın Dövlət bayrağının dalğalanması qürurverici haldır.*

*Meydanda geniş abadlıq-quruculuq işləri həyata keçirilib, yaşıllıq zolaqları salınıb, müxtəlif dekorativ ağaclar və gül kolları əkilib. Həmçinin istirahət guşələri yaradılıb, 2 fəvvarə quraşdırılıb, oturacaqlar qoyulub. «Ana və uşaq» istirahət mərkəzinin inşa edildiyi meydanın istinad divarları mərmər və digər bəzək daşları ilə üzlənmişdir ki, bu da əraziyə xüsusi gözəllik verir. Müasir işıqlandırma sistemi axşam saatlarında bu ərazini daha da cəlbedici edir.*

*Azərbaycan prezidenti Dövlət Bayrağı Meydanında yaradılmış şəraitdən məmnunluğunu bildirdi.*

## Süd emalı zavodunun açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev oktyabrın 7-də Tərtərdə süd emalı zavodunun açılışında iştirak etmişdir.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, «Gilan» MMC tərəfindən Tərtər rayonunun Buruc kəndində inşa edilən süd emalı zavodunun tikintisi rayonda sahibkarlığın inkişafına dəstək olmaqla yanaşı, süd məhsullarının müasir tələblərə uyğun keyfiyyətdə istehsalı sahəsində növbəti addım olacaqdır. Ümumi ərazisi 1,5 hektar olan zavodun qapalı sahəsi 4,4 min kvadratmetrdir. Beynəlxalq standartlara cavab verən avadanlıqla təchiz olunmuş müəssisənin fasiləsiz elektrik enerjisi ilə təmin edilməsi üçün ərazidə transformator quraşdırılmışdır. Prezident İlham Əliyev zavodu işə saldı.*

*Müəssisənin fəaliyyəti ilə tanış olan dövlətimizin başçısına «Gilan Holdinq»in İdarə Heyətinin sədri Cəmil Muradov məlumat verdi ki, sutkalıq emal gücü 20 ton olan zavoda süd Tərtərin müxtəlif kəndlərindən gətirilir. Ətraf kəndlərdə 5 südtoplama məntəqəsi təşkil edilmişdir. Məntəqələr soyuducu və mobil generatorlarla təchiz edilmişdir. Satış şəbəkəsi, müasir tələblərə cavab verən laboratoriyası və digər xidməti bölmələri olan zavodun istehsal sahəsində 50, südtoplama məntəqələrində 20, satış şəbəkəsində isə 30 nəfər işləyir. Zavodun istehsal bölməsində müxtəlif çeşiddə inək və qoyun pendirləri, qatıq,*

dovğa, ayran, kəsmik və digər ağartı məhsulları istehsal edilir. Müəssisədə pendir istehsalı avtomatlaşdırılmış qaydada həyata keçirilir. Bu məhsulların hər biri burada yaradılan ayrı-ayrı sexlərdə, gigiyenik qaydalara uyğun olaraq hazırlanır. Hər bir məhsul laboratoriyalarda müvafiq yoxlamalardan keçir.

Dövlətimizin başçısı burada nümayiş etdirilən hazır məhsulların nümunələrinə baxdı.

Zavodda ağartı məhsullarının tərkibinin müəyyənləşdirilməsi və keyfiyyətinin ölçülməsi məqsədilə müasir standartlara cavab verən laboratoriya fəaliyyət göstərir. Hazır məhsullar laborator müayinədən keçdikdən sonra xüsusi anbarlara və soyuducu depoya yığılır. Yaxın gələcəkdə zavodda istehsal edilən məhsulların çeşidinin daha da artırılması nəzərdə tutulur.

Prezident İlham Əliyev tapşırıq və tövsiyələrini verdi.

## BƏRDƏ RAYONUNA SƏFƏR

*7 oktyabr 2012-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev oktyabrın 7-də Tərtərə səfərini başa çatdıraraq Bərdə rayonuna gəlmişdir.*

*Dövlətimizin başçısı Bərdə şəhərinin mərkəzində ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydu.*

*Bərdə Rayon İcra Hakimiyyətinin başçısı Vidadi İsayev rayonda görülmüş işlər barədə prezident İlham Əliyevə ətraflı məlumat verdi.*

### Qəhrəmanlar parkının açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev oktyabrın 7-də Bərdə rayonunda Qəhrəmanlar parkının açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı parkın rəmzi açılışını bildirən lenti kəsdi. Məlumat verildi ki, Bərdənin sürətli inkişafını özündə əks etdirən, quruculuq və abadlığın əsas ünvanlarından biri olan Koroğlu küçəsində salınan Qəhrəmanlar parkının yerləşdiyi ərazi əvvəllər tamamilə baxımsız vəziyyətdə idi. Tikinti işlərindən sonra Qəhrəmanlar parkı müasir və füsunkar görkəm almışdır. İstirahət guşəsinin ümumi sahəsi 4,5 hektardır.*

*Diqqətə çatdırıldı ki, parkın salınmasına ötən ilin sentyabrında başlanılmış, bu ilin avqustunda başa çatdırılmışdır. Tikinti işləri ən yüksək standartlar səviyyəsində aparılmışdır. Parkın girişində ölkənin inkişafında əvəzsiz xidmətləri olmuş ulu öndər Heydər Əliyevin pannosu qoyulmuşdur. Parkda avtomobillər üçün xüsusi dayanacaq yaradılmış, 20 min kvadratmetr ərazidə yaşıllıq işləri aparılmış, 3 mindən çox müxtəlif ağac, 11 min bəzək kolu və rəngbərəng güllər əkilmişdir. Burada hər cür hava şəraitinə davamlı materiallardan hazırlanan 50 oturacaq və 5 istirahət köşkü qoyulmuşdur. Parkın işıqlandırma sistemi*

ən müasir standartlar səviyyəsində qurulmuşdur. İstirahət parkı salınarkən balacalar da yaddan çıxmamış, onlar üçün əyləncə meydançaları yaradılmış, xarici ölkələrdən gətirilən müasir attraksionlar və yelləncəklər quraşdırılmışdır.

Parkdakı məşəl kompleksi də xüsusi zövqlə hazırlanmışdır. Buraya gələn həm qonaqlar, həm də yerli sakinlərin istirahəti hərtərəfli düşünülmüş, istirahət məkanında Çay evi də istifadəyə verilmişdir. Parkda mərmərlə üzlənmiş fəvvarə əraziyə xüsusi gözəllik verir.

Parkın yuxarı tərəfində iri postament üzərində «Ana» heykəli ucaldılmışdır. Prezident İlham Əliyev «Ana» abidəsinin önünə gül dəstəsi qoydu. «Ana» abidəsindən sonra geniş meşə zolağı da salınmışdır. Yaşıllaşdırılan ərazidə avtomatik suvarma sistemi quraşdırılıb. İstirahət guşəsinin ətrafındakı binaların damı əsaslı təmir olunub. Bir sözlə, park ən müasir standartlar səviyyəsində qurulub.

Parkda yaradılmış şəraiti yüksək qiymətləndirən dövlətimizin başçısı tapşırıqlarını verdi.

## Bayraq Meydanı ilə tanışlıq

Azərbaycan prezidenti İlham Əliyev oktyabrın 7-də Bərdədə Bayraq Meydanında yaradılan şəraitlə tanış olmuşdur.

Dövlətimizin başçısının diqqətinə çatdırıldı ki, ölkəmizdə dövlət atributlarına hörmət və ehtiram ən yüksək səviyyədədir. Paytaxt Bakı ilə yanaşı, ölkəmizin bir çox bölgələrində yaradılan bayraq meydanları dövlət atributlarımıza olan sevgi və hörmətin göstəricisidir. Bərdədəki Bayraq Meydanı da bu baxımdan mühüm əhəmiyyət kəsb edir.

Qeyd olundu ki, meydanın inşasına ötən ilin iyununda başlanılmış və yüksək keyfiyyətlə başa çatdırılmışdır. Meydan şəhərin giriş hissəsində, Heydər Əliyev prospektində yerləşir. Bayraq dirəyinin hündürlüyü 70 metrdir. Təbii mərmərlə üzlənmiş postamentin üzərində Azərbaycanın xəritəsi, Dövlət

*himni və gerbi əks olunmuşdur. Burada inşa edilmiş fəvvarə meydanın gözəlliyini daha da artırır.*

*Diqqətə çatdırıldı ki, meydan yaradılarkən Azərbaycan memarlıq sənətinin bütün elementlərindən istifadə olunub. Bayraq Meydanının ərazisində geniş abadlıq işləri aparılmış, yaşıllıq zolağı salınmış, 1200 gül və bəzək kolu əkilmişdir. Mərmər piltələr və tamet üzlüklər döşənmiş meydanda müasir işıqlandırma sistemi quraşdırılmış, istirahət üçün hər cür şərait yaradılmışdır.*

## Əsaslı surətdə yenidən qurulmuş Mərkəzi istirahət parkı ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev oktyabrın 7-də Bərdədə əsaslı surətdə yenidən qurulmuş Mərkəzi istirahət parkı ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısına məlumat verildi ki, parkda tikinti işlərinə bu ilin martında başlanılmış, iyunda başa çatdırılmışdır. Ən yüksək standartlar səviyyəsində salınan parkın ərazisi 2 hektardır. Parkda tikilmiş yay konsert səhnəsində açıq havada rayon əhəmiyyətli müxtəlif tədbirlər və mədəni proqramlar təşkil olunacaqdır.*

*Parkın ərazisindəki Uşaq incəsənət məktəbinin fasadı yenidən qurulmuş, binanın qarşısında tanınmış musiqiçilərin heykəlləri qoyulmuşdur.*

*Prezident İlham Əliyev parkda yeni ucaldılmış Dövlət bayrağına baxdı. Bayraq dirəyinin hündürlüyü 85 metrdir. Bu da Dövlət bayrağının şəhərin hər yerindən görünməsinə şərait yaradır. Ən müasir işıqlandırma sisteminin quraşdırıldığı parkda yeni fəvvarə inşa olunmuş, geniş yaşıllıq zolaqları salınmış, dekorativ ağac və bəzək kolları əkilmişdir. Burada bulaq kompleksləri yaradılmışdır. Parkda quraşdırılmış böyük monitorda kütləvi-mədəni tədbirlər zamanı müxtəlif videogörüntüləri izləmək mümkün olacaqdır.*

*Mərkəzi istirahət parkının ərazisində yerləşən Heydər Əliyev Mərkəzinin, Rayon İcra Hakimiyyətinin, Rəsm qalereyasının, Yeni Azərbaycan Partiyası rayon təşkilatının və şəhər bələdiyyəsinin binalarının fasadlarında yenidənqurma işləri aparılmışdır. Parkda istirahət guşələri yaradılıb, 40-dan çox müasir oturacaq qoyulub.*

*Prezident İlham Əliyev burada yeni salınacaq Heydər Əliyev parkının layihə sənədləri ilə bağlı stendlərə baxdı.*

*Bildirildi ki, yaxın vaxtlarda şəhərin Heydər Əliyev prospektində, Tərtər çayının sahilində salınacaq park 16 hektar ərazini əhatə edəcək. Burada ulu öndər Heydər Əliyevin büstü qoyulacaq. Yeni parkda müasir fəvvarələr, əyləncə meydançaları yaradılacaq, yay konsert zalı və müxtəlif iaşə obyektləri tikiləcək, istirahət üçün yüksək şərait yaradılacaqdır.*

*Sonra dövlətimizin başçısına 24 min nəfərdən çox əhalinin yaşadığı 14 kəndi birləşdirən Alpout–Mustafaağalı–Qaratəpə–Nazırlı avtomobil yolunun göstəriciləri barədə məlumat verildi.*

*Vurğulandı ki, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramına uyğun olaraq indi rayonda əsas diqqət kənd yollarının abadlaşdırılmasına yönəldilmişdir. Azərbaycan prezidentinin 2011-ci il 18 iyul tarixli Sərəncamı ilə bu yolun tikintisinə ötən ilin dövlət büdcəsində kəndlərarası avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulan vəsaitdən 4 milyon manat ayrılmışdır. Yolun tikintisinə ötən ilin sentyabrında başlanılmış və müasir tələblərə uyğun olaraq başa çatdırılmışdır. Avtomobil yolunun ümumi uzunluğu 22 kilometr, eni çiyin hissələri ilə birlikdə 10 metrdir. Bu yolun istifadəyə verilməsi ilə Alpout və Nazırlı kəndləri arasında gediş-gəliş məsafəsi 3 dəfə qısalmışdır.*

*Azərbaycan prezidentinə yeni istifadəyə verilmiş «Qarabağ» Aqrar Sənaye Kompleksinin Bərdə Ət Emalı fabriki və soyuducu anbar kompleksi barədə də məlumat verildi.*

*Bildirildi ki, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramına uyğun olaraq rayonun Mehdili kəndi ərazisində tərkibində illik istehsal gücü 5,4 min ton olan ət emalı fabriki və*

*5 min tonluq soyuducu anbar olan Aqrar Sənaye Kompleksinin ümumi dəyəri 6,5 milyon manatdır. Bu layihəyə Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 4,5 milyon manat güzəştli kredit verilmişdir. Fabrikdə ilkin olaraq Bərdə və ətraf rayonlardan mal-qaranın alınması, sanitar-gigiyenik normalara əməl edilməklə kəsilməsi, doğranması və 10 çeşiddə qablaşdırılaraq istehlakçılara təqdim edilməsi mümkün olacaqdır. Soyuducu anbar kompleksi müəssisənin öz məhsulları ilə yanaşı, Bərdə və ətraf rayonlarda fəaliyyət göstərən sahibkarların istehsal etdikləri meyvə-tərəvəz, ət və süd məhsullarının uzun müddət itkisiz saxlanmasına imkan yaradacaqdır. Ət emalı fabrikinin xammal bazasının yaradılması məqsədi ilə 3 min başlıq ətlik və südlük istiqamətli heyvandarlıq komplekslərinin tikinti işlərinə başlanılmışdır. Bu layihələrin maliyyələşdirilməsinə də Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 9 milyon manatadək güzəştli kredit ayrılmışdır. Layihələrin icrası nəticəsində 250 nəfər işlə təmin olunmuşdur.*

*Görülmüş işlərdən razılığını bildirən prezident İlham Əliyev həyata keçirilməsi nəzərdə tutulan tədbirlərin yüksək keyfiyyətlə və vaxtında başa çatdırılması üçün tapşırıq və tövsiyələrini verdi.*

## Nüşabə parkında yaradılmış şəraitlə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev oktyabrın 7-də Bərdədə Nüşabə parkında yaradılmış şəraitlə tanış olmuşdur.*

*Məlumat verildi ki, zəngin tarixə malik Bərdə Azərbaycanın siyasi və mədəni həyatında mühüm iz qoymuş qədim bölgələrimizdən biridir. Bərdə haqqında dahi Azərbaycan şairi Nizami Gəncəvinin də əsərlərində bəhs olunur. Məhz Nizami Gəncəvinin «İsgəndərnamə» poemasının qəhrəmanı, Bərdə hökmdarı Nüşabənin heykəli doğma şəhərində ucaldılmış, Heydər Əliyev prospektində onun adını daşıyan park salınmışdır. Bərdənin, ümumiyyətlə, Azərbaycanın tarixində çox böyük*

*rol oynayan qadın hökmdarı Nüşabənin heykəli əraziyə xüsusi yaraşıq verir.*

*Bildirildi ki, parkın yerləşdiyi ərazi əvvəllər yararsız vəziyyətdə olmuş, Bərdə Rayon İcra Hakimiyyətinin daxili imkanları hesabına aparılan yenidənqurma işlərindən sonra ərazi tamamilə simasını dəyişmişdir. Ümumi sahəsi 0,7 hektar olan parkda şəhər sakinlərinin istirahəti üçün hər cür şərait yaradılmışdır. Nüşabə parkı özündə qədimliklə müasirliyi təcəssüm etdirir. İstirahət məkanının mərkəzində Nüşabənin heykəli qoyulmuşdur. Parkda mövzusu Nizami Gəncəvinin «İsgəndərnamə» poemasından götürülmüş 7 tablo hazırlanmışdır. Tablolarda Nüşabənin İsgəndərlə görüşü, Nüşabənin ağsaqqallarla söhbəti, İsgəndərin alimlərlə məsləhətləşməsi və s. səhnələr əks olunmuşdur. Parkda abadlıq işləri aparılmış, 2 bulaq qurulmuş, yaşıllıqlar salınmış, müasir işıqlandırma sistemi qurulmuşdur. Burada hər cür hava şəraitinə davamlı materiallardan hazırlanan oturacaqlar və Bərdədən tapılmış arxeoloji materiallar qoyulmuşdur. Parkda, həmçinin Çay evi də fəaliyyət göstərəcəkdir.*

## BƏRDƏ RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*7 oktyabr 2012-ci il*

Sizi ürəkdən salamlayıram. Xoş gördük. Yenidən Bərdədə olmağımdan çox şadam, çox məmnunam. Bərdəyə son dəfə 3 il bundan əvvəl gəlmişəm. Bu gün də buradayam, görürəm ki, çoxlu dəyişikliklər var. Buna çox sevinirəm, çox şadam. Əminəm ki, siz də sevinirsiniz.

Bərdə doğrudan da gözəlləşir, gülüstana çevrilir. Gözəl binalar tikilir, təmir edilir, parklar, istirahət zonaları, yaşıllıqlar salınır. Şadam ki, işlər çox yaxşı gedir. Bütün işlər böyük məhəbbətlə, zövqlə və insanların normal yaşamaları üçün görülür.

İndi Qəhrəmanlar parkında oldum. Böyük ərazini əhatə edir. Genişləndirmək üçün əlavə təkliflər vardır. İcra başçısı yeni istirahət zonalarının yaradılması ilə bağlı təkliflər irəli sürdü, planşetlərdə göstərdi. Çox şadam ki, Bərdədə belə sürətli inkişaf, quruculuq, abadlıq işləri aparılır. Siz də bunların hamısını həm görürsünüz, həm də bütün bu işlərin iştirakçılarısınız.

Keçən ilin əvvəlində Bərdəyə yeni icra başçısı təyin edilib. Siz də şahidsiniz ki, dərhal çox böyük işlər görülməyə başlanmışdır. Əlbəttə, dövlət siyasəti, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı vardır. Hər şey proqram üzrə gedir. Ancaq yerlərdəki işçilərdən, nümayəndələrdən çox şey asılıdır. Harada ki işgüzarlıq, fəallıq və xalqa məhəbbət vardır, orada işlər də görülür.

Bu gün Bərdə ölkə miqyasında ən sürətlə inkişaf edən rayonlardan biridir. Çox şadam, çünki Bərdənin inkişafı üçün çox böyük işlər görülmüşdür və görülməlidir. Bərdə bizim tarixi şəhərimizdir, qədim şəhərdir. Bərdə qədim xəritələrdə vardır. Bu reallıqdır. Əlbəttə, biz hər bir rayonun inkişafı üçün bütün

işləri görürük. Ancaq Azərbaycan tarixində xüsusi yeri olan şəhərlər, rayonlar, diyarlar üçün xüsusi proqramlar da hazırlanmalıdır.

Mən Bakıya qayıdandan sonra Bərdənin sosial-iqtisadi inkişafı ilə bağlı yeni sərəncam imzalayacağam. Sərəncamda həm Bərdənin tarixi əhəmiyyəti vurğulanacaq, həm də rayonun inkişafı istiqamətində əlavə tədbirlərin görülməsi üçün əlavə vəsait də nəzərdə tutulacaqdır.

Azərbaycanda bütün yerlərdə, demək olar ki, hər bir bölgədə inkişaf vardır. Haradasa daha sürətli, haradasa bir qədər yavaş, amma hər yerdə inkişaf vardır. Mən çox şadam ki, indi rayonlararası yarışma gedir. Əlbəttə ki, sağlam yarışmadır, sağlam rəqabətdir. Bu rəqabətdə uduzan yoxdur. Hər kəs ancaq qələbə qazanır. Hər rayon bundan ancaq fayda görür. İnsanların rifah halı yaxşılaşır. Bu gün Azərbaycan həm sosial siyasət, həm iqtisadi inkişaf baxımından dünya miqyasında nümunəvi bir ölkədir. Elə etməliyik ki, bu müsbət dinamika daim saxlanılsın və hazırda hələ də mövcud olan bütün problemlər gələcək illərdə öz həllini tapsın.

Şəhərlərin abadlaşması, gözəlləşməsi, tarixi simasının bərpası işləri çox sürətlə gedir. Biz bunu Bərdənin timsalında da görürük. Bütün infrastruktur layihələri də icra edilməlidir və icra edilir. Bu gün mən Yevlax–Bərdə yolunun açılışında iştirak etdim. Hazırda Bərdə–Tərtər yolunda tikinti işləri gedir. Birinci mərhələ artıq başa çatıbdır. İndi Bakı ilə rabitə daha da yaxşıdır. Magistral avtomobil yolu tikilir və genişləndirilir. Mən indi göstəriş vermişəm ki, bütün bu yolu Bakıdan Gürcüstan sərhədinə qədər dördzolaqlı edək. Birinci mərhələdə ikizolaqlı idi, indi bəzi hissələri genişləndirmişik. Dördzolaqlı yol daha da rahat olacaqdır. İnsanlar təhlükəsiz hərəkət edəcəklər.

Ölkə üzrə, o cümlədən Bərdədə digər infrastruktur layihələri də icra edilir. Qazlaşdırma, içməli su, kanalizasiya layihələri başlanmışdır. Qarşıya vəzifə qoyulub ki, gələn ilin sonuna qədər içməli su layihəsi tam başa çatsın və Bərdə şəhəri 24 saat dayanıqlı içməli su ilə təmin edilsin. İnfrastruktur layihələri,

kommunal xidmətin təkmilləşdirilməsi, abadlıq işləri və ümumi iqtisadi inkişaf – bütün bunlara kompleks yanaşma əslində bizim uğurlarımızı şərtləndirir.

Bərdənin iqtisadi göstəriciləri də çox yaxşıdır. Sənaye artır, iqtisadi artım vardır. Sosial infrastruktur yeniləşdirilir. Məktəblər gözəl görkəm alır. Bu da Azərbaycana xas olan yanaşmadır. Biz indi bütün məktəbləri ən yüksək səviyyədə təmir etdiririk. Mən istəyirəm ki, hər bir şəhərimiz gözəl, təmiz, səliqəli, yaşamaq üçün rahat olsun. Buna nail oluruq. Azərbaycana, nəinki Bakıya, bölgələrə də gələn qonaqlar həm inkişafı, həm gözəlliyi, həm də bizim öz mədəniyyətimizə, tariximizə olan münasibətimizi görürlər. Bu da çox vacibdir. Çünki bunsuz heç bir uğur tam uğur sayıla bilməz, yarımçıq olar.

Tarixi keçmişimiz, mədəniyyətimiz bizim milli dayaqlarımızdır. Bunun üzərində müasir dövlət qururuq, artıq qurulub və dövlətçilik dayaqları möhkəmləndirilib. Əminəm ki, gələcəkdə daha da gözəl işlər görüləcəkdir. Planlar çoxdur. Bərdənin inkişafı ilə bağlı böyük planlar vardır. Kənd yolları da qaydaya salınır. Yeni planlar vardır. Biz indi kənd yollarının bərpası ilə bağlı ölkə miqyasında böyük proqramları icra etməyə başlamışıq. Elə etməliyik ki, insanların rifah halı ildən-ilə yaxşılaşsın, hər şey daha da kamil olsun və Azərbaycan inkişaf etsin.

Sizi bir daha salamlayıram və Bərdədə gördüyünüz işlərə görə sizə minnətdaram.

**H ə s ə n H ə s ə n o v** *(rayon sakini):* Siz Bərdəyə prezident kimi, beşinci dəfədir ki, səfər edirsiniz. Bu səfərlərin hər birində bizlərə gördüyümüz işlərə, əldə etdiyimiz nailiyyətlərə görə yüksək qiymət verirsiniz. Bərdəlilərin dövlətçiliyə, Azərbaycan xalqına sadiq olduğunu vurğulayırsınız. Bu münasibətin bizim üçün böyük önəmi vardır. Bax, bu gün gördüyünüz bu möhtəşəm, əzəmətli Bərdə həmin münasibətin nəticəsidir.

Çox xoşbəxtəm ki, Tanrı mənə bu yaşımda Sizi bir daha görmək, Sizinlə görüşmək, söhbət etmək səadətini nəsib edib. Mənim 70 yaşım var, əvvəllər nə olub, bunlar hamısı tarixdən

məlumdur. Ancaq bu 70 ildə mən Azərbaycanda belə sürətli inkişafın, belə çiçəklənmənin şahidi olmamışam. Allah qəni-qəni rəhmət etsin, ulu öndərimizin rəhbərliyi dövründə də Bərdəyə yüksək rəğbət, yüksək hörmət olub. Bu şəhərin tərəqqisi, inkişafı həmişə onun diqqət mərkəzində olubdur. O, Bərdəni sevdiyini, bərdəlilərə böyük hörmət bəslədiyini dəfələrlə deyibdir. Ulu öndərimiz Azərbaycana rəhbərliyi dövründə 14 dəfə Bərdədə olubdur. Bərdəlilərin əziz qonağı olubdur. O görüşlərin 4-də mən şəxsən iştirak etmişəm. Qədim Bərdəmizin bugünkü günü üçün də ulu öndərimiz deyirdi ki, mən istəyirəm Bərdə Azərbaycanın ən gözəl şəhərlərindən biri olsun. Bu gün iftixar hissi ilə deyirəm ki, Bərdə doğrudan da gözəl şəhərlərdən biridir və ulu öndərimizin arzusu məhz Sizin sayənizdə yerinə yetirilir. Bu Sizin Azərbaycanın işıqlı gələcəyini hədəfləyən siyasətiniz nəticəsində mümkün olmuşdur. Xalqla rəhbər arasında olan bu sevginin, bu sevincin, münasibətin təməli ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulubdur və Sizin uzaqgörən siyasətiniz nəticəsində bu gün də inkişaf etdirilir. Heydər Əliyevin – ulu öndərimizin Azərbaycana verdiyi töhfələrin ən böyüyü isə Sizin kimi bir oğlu bu Vətənə bəxş etməsidir.

Möhtərəm cənab Prezident, icazə verin bütün bərdəlilər adından deyim ki, gecə-gündüz işləməkdən doymuruq, sevincimiz artır. Təkcə üzümüz, gözümüz yox, ürəyimiz, qəlbimiz gülür, ruhumuz oyanır.

Biz bərdəlilər gecə-gündüz əl-ələ verərək çalışırıq ki, respublikada birincilər sırasında yox, respublikada birinci olaq. Bunun üçün gördüyümüz işlər zəmanət verir ki, biz buna nail olaq. Həm də başqa hər cür imkanımız vardır. Ən başlıcası, Sizin kimi qayğıkeş prezidentimiz, respublikamızın inkişafı naminə irəli sürülmüş təşəbbüsləri, yenilikləri qiymətləndirən və onu dəstəkləyən bir rəhbərimiz vardır.

Cənab Prezident, məlum məsələdir ki, Dağlıq Qarabağ kimi problemi olan və müharibə şəraitindəki bir dövləti inkişaf etmiş dövlətlər sırasına qaldırmaq böyük cəsarət, bilik, bacarıq tələb

edir. Siz bütün bunların öhdəsindən bacarıqla gəlirsiniz. Biz inanırıq ki, Azərbaycan xalqı bu bəladan da, bu problemlərdən də Sizin sayənizdə uğurla çıxacaqdır. Tanrı bu müqəddəs işdə sizə kömək olsun.

Cənab Prezident, yaranmış şəraitdən, Sizin yaratdığınız bu mehriban atmosferdən istifadə edib, bərdəlilərin arzu və istəklərini də Sizin diqqətinizə çatdırmaq istəyirəm. Reallıq budur ki, Bərdə Qarabağ zonasının ən böyük şəhəridir. Hələ ulu öndərimizin vaxtından böyük tədbirlər – istər regional, istər yerli tədbirlər olsun – ümummilli liderimizin 1970-ci ildə bünövrəsini qoyduğu Mədəniyyət sarayında keçirilir. Bu gün o sarayın təmirə ciddi ehtiyacı vardır. Biz istəyirik ki, Sizin sayənizdə o kompleks, o saray da Diaqnostika Mərkəzi kimi, Olimpiya İdman Kompleksi kimi təmir edilib bərdəlilərin ixtiyarına verilsin.

Cənab Prezident, bir daha Sizə Bərdəyə – yeni, müasir və qədim Bərdəyə, Qarabağa gəlməyinizə, bizə göstərdiyiniz bu qayğı və diqqətə görə minnətdarlığımızı bildiririk. Sizi Azərbaycanın, bütün xalqımızın ümid və inam yeri hesab edirik.

İcazə verin Sizi əmin edim ki, prezidentimizə məhəbbətin mərkəzi şəhəri olan Bərdənin Azərbaycan dövlətçiliyinə, Azərbaycan xalqına sadiq sakinləri bundan sonra da Sizin ətrafınızda sıx birləşəcək, Sizin müəyyənləşdirdiyiniz yolla gedərək yeni-yeni uğurlar qazanacaqlar.

Sizə cansağlığı arzu edirəm, Allah Sizi qorusun!

**İ l h a m  Ə l i y e v:** Çox sağ olun, xoş sözlərə görə minnətdaram. Qeyd etdiniz ki, mən prezident kimi, 5-ci dəfədir Bərdəyə gəlirəm. Amma əvvəlki dövrdə də dəfələrlə Bərdədə olmuşam. Ulu öndərlə bərabər, həmişə olmasa da, o 14 səfərdən bəlkə də 5-6-sında onun yanında idim və Mədəniyyət Mərkəzi ilə də yaxından tanışam. Orada tədbirlər keçirilmişdir və çox böyük, möhtəşəm bina idi. Tamamilə haqlısınız ki, Qarabağın mərkəzi şəhəri olduğu üçün məhz Bərdədə belə əzəmətli binanın tikilməsi qərarı verilmişdir.

Bilirəm ki, o Mədəniyyət sarayı indi bərbad vəziyyətdədir və indicə icra başçısı bu məsələ ilə bağlı mənə məruzə etdi, konkret təkliflər vardır. Tapşırıqlar verdim ki, layihə işlənilsin, mənə təqdim olunsun və biz bu gözəl, möhtəşəm Mədəniyyət Mərkəzini bərpa edək. Əminəm ki, həm Diaqnostika Mərkəzindən, həm Olimpiya Kompleksindən daha da gözəl və möhtəşəm Mədəniyyət sarayı olacaqdır.

**S a k i n l ə r:** Çox sağ olun, təşəkkür edirik.

**İ l h a m Ə l i y e v:** Ulu öndərin Bərdəyə olan münasibətini siz məndən yaxşı bilirsiniz. Hər il Bərdəyə səfər edirdi və Bərdənin o illərdə inkişafı üçün tarixi xidmətlər göstərmişdir. Bu gün onun siyasətinə sadiq qalaraq bütün sahələrdə, o cümlədən bu sahədə də Azərbaycan dövləti öz siyasətini aparır. Bərdəyə xüsusi diqqət göstərilir, göstərilməlidir. Yenə də deyirəm, Qarabağ torpağıdır, qədim, tarixi şəhərdir və bərdəlilər bütün dövrlərdə Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsində fəal olmuşlar, sadiq olmuşlar, öz əməyi, zəhməti ilə müstəqilliyi möhkəmləndirmişlər. Bu gün ölkəmizin inkişafı, iqtisadi potensialının gücləndirilməsi üçün Bərdənin çox böyük rolu, böyük potensialı vardır.

Gələcək illərdə, xüsusilə ölkə iqtisadiyyatının qeyri-neft sektorunun inkişafı üçün Bərdə çox böyük töhfələr verəcəkdir. İnkişafla bağlı, kənd təsərrüfatının, emal sənayesinin inkişafı ilə bağlı böyük planlarımız var. Bu planların bir hissəsi artıq reallaşıb, bir hissəsi də gələcəkdə reallaşacaqdır.

O ki qaldı Ermənistan–Azərbaycan münaqişəsinin həllinə, mən şəxsən şübhə etmirəm ki, biz bu məsələnin həllinə nail olacağıq və Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək. Belə nikbin əhval-ruhiyyədə olmağımın səbəbləri də aydındır – Azərbaycanın uğurlu, sürətli inkişafı. Hər bir sahədə – iqtisadiyyat, sosial məsələlərin həlli, hərbi quruculuq, ölkəmizin beynəlxalq mövqelərinin möhkəmləndirilməsi – yəni bu gün Ermənistan ilə Azərbaycan müqayisəedilməz səviyyədədir. Biz irəliyə gedirik, onlar isə geriyə gedir, tənəzzülə uğrayır. Bizim iqtisadiyyatımız artır, onların iqtisadiyyatı faktiki olaraq iflic

vəziyyətindədir. Bizdə əhali artır, orada artıq demoqrafik fəlakət yaşanır, demək olar ki, təbii artım yoxdur, ölkədən kütləvi surətdə köç gedir. Onların öz rəsmi statistikasının məlumatlarına görə, ilin birinci yarısında təqribən 70–80 min insan ölkəni həmişəlik tərk etmişdir. Nəyə görə? İnamsızlığa görə, iş yox, ədalət yox və onların işğalçı siyasəti ilk növbədə özlərinə böyük zərbə vurur. Ümid edirik ki, onlar bunu, nəhayət, dərk edəcək və torpaqlarımızı sülh yolu ilə boşaldacaqlar. Əgər dərk etsələr, ilk növbədə öz xalqına tarixi xidmət göstərmiş olarlar. Dərk etməsələr, mən tam əminəm ki, biz o torpaqları istənilən yolla qaytaracağıq, o torpaqlara qayıdacağıq, Azərbaycanın ərazi bütövlüyü, suverenliyi bərpa ediləcəkdir.

Bilirsiniz, bu ədalətsizlik hər birimizi üzür. Çünki bu, tarixi ədalətsizlikdir, hüquqi nöqteyi-nəzərdən, siyasi cəhətdən ədalətsizlikdir. 20 ildir ki, Ermənistan bütün sülh danışıqlarının mərhələlərində gedən ümidverici meyillərə balta vurur. Razılaşmaya bir balaca yaxınlaşarkən müxtəlif bəhanələrlə ya danışıqlardan yayınmaq üçün cəhd edir, yaxud da ki, ümumiyyətlə, danışıqlardan imtina edir. Ona görə 20 ildir köçkün soydaşlarımız əziyyət çəkirlər. Bu, əlbəttə ki, xalqımız üçün çox ağır bir haldır. Ancaq tarix var və tarix qarşısında məsuliyyət var. Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır və Azərbaycan torpağı kimi, dünya birliyi tərəfindən tanınır, tanınacaq və Azərbaycan torpağı kimi, tam şəkildə Azərbaycan dövlətinə inteqrasiya edəcəkdir. Ona görə biz elə çalışmalıyıq ki, münaqişənin həlli tam olsun. Azərbaycanın suverenliyi tam şəkildə təmin edilsin. Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsi kimi, Azərbaycanın tərkibində olmalıdır, başqa variant nəzərdən keçirilmir və biz bu varianta nail olmaq üçün çalışmalıyıq. Bəlkə də danışıqlar bir müddət də aparıla bilər, mən bunu istisna etmirəm. Ancaq danışıqların sonunda biz o torpaqlara qayıdacağıq.

Mən istəyirəm ki, biz bunu qan tökülmədən edək. Ancaq istənilən varianta hazır olmalıyıq və hazırıq. Bu gün nəinki

güclü iqtisadiyyatımız, güclü ordumuz var. Ordu potensialı da, insan potensialı da, vətənpərvərlik hissləri də çox güclüdür. Bu gün səhər Tərtərdə bölgə gəncləri ilə görüş əsnasında bir daha dedim ki, gənclər üçün bilik, savad, peşəkarlıq, əlbəttə ki, çox vacibdir, eyni dərəcədə vətənpərvərlik vacibdir. Vətənə bağlılıq, Vətənə sədaqət – bunlar bizim cəmiyyətdə var və bütün bu amillər qələbəmizi şərtləndirəcəkdir.

Biz erməniləri beynəlxalq müstəvidə artıq məğlub etmişik. Azərbaycanın BMT Təhlükəsizlik Şurasına üzv seçilməsi Ermənistanın acı məğlubiyyətidir. «Qoşulmama Hərəkatı»nda 120 ölkə artıq Azərbaycanın ərazi bütövlüyünü nəinki dəstəkləyir, münaqişənin həllini yalnız ərazi bütövlüyü prinsipi əsasında görür. Bütün digər beynəlxalq təşkilatlarda bizim nüfuzumuz artır. Azərbaycan bölgədə söz sahibidir və biz nüfuzumuzdan, imkanlarımızdan bundan sonra da istifadə edəcəyik ki, Ermənistanı daha da böyük təcridə salaq. Onlar onsuz da bütün beynəlxalq layihələrdən təcrid edilib və biz bu siyasəti, əlbəttə ki, gələcəkdə də davam etdirəcəyik. Biz daha da güclü olmalıyıq. Daha da güclü olsaq, məsələ öz həllini tapar.

Ona görə mən bir daha Qarabağ bölgəsində bu məsələ ilə bağlı fikrimi bildirmək istəyirəm. Bu barədə dəfələrlə demişəm: Dağlıq Qarabağ Azərbaycan torpağıdır, Azərbaycan torpağı kimi qalacaq və Azərbaycanın bayrağı Şuşada, Xankəndidə dalğalanacaqdır.

**S a k i n l ə r:** İnşallah! Sizin sayənizdə.

**İ l h a m Ə l i y e v:** O günü yaxınlaşdırmaq üçün biz çalışırıq və çalışacağıq. Bütün bərdəlilərə yeni uğurlar, can-sağlığı arzulayıram.

## «Qarabağ» çörək zavodunun açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev oktyabrın 7-də Bərdədə «Qarabağ» çörək istehsalı müəssisəsinin açılışında iştirak etmişdir.*

*Məlumat verildi ki, «Qarabağ» çörək zavodu regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramına uyğun olaraq Bərdə şəhərinin mərkəzində ən müasir standartlar səviyyəsində tikilib. Bu layihənin həyata keçirilməsinə Sahibkarlığa Kömək Milli Fondu tərəfindən güzəştli kredit ayrılmışdır. Ümumi dəyəri 4 milyon manat olan çörək zavodunun yaradılması məqsədilə fond tərəfindən 2,7 milyon manat güzəştli kredit verilib. «Regionların 2009–2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı»na uyğun olaraq tikilən çörək zavodu ən yüksək standartlara cavab verir. Zavodun tikintisinə 2011-ci ilin fevralında başlanılmışdır.*

*Müəssisənin foyesində ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin ölkədə sahibkarlığın inkişafına dəstəklərini əks etdirən fotostendlər qurulmuşdur.*

*Dövlətimizin başçısı zavodun fəaliyyəti ilə bağlı filmə baxdı. Qeyd olundu ki, zavodun xammal bazasının yaradılması üçün Sahibkarlığa Kömək Milli Fondu tərəfindən ayrılan 680 min manat güzəştli kredit hesabına eyni vaxtda taxıl sahəsi, tutumu 10 min ton olan taxıl anbarı və gündəlik istehsal gücü 70 ton olan dəyirman kompleksi də inşa edilmişdir. Bu isə istehsal olunan çörəyin və un məmulatlarının maya dəyərinin aşağı olmasını şərtləndirir.*

*Prezident İlham Əliyev zavodda istehsal olunan hazır çörək məhsullarına baxdı.*

*Dövlətimizin başçısına Sahibkarlığa Kömək Milli Fondu tərəfindən Aran iqtisadi rayonunda verilən güzəştli kreditlər barədə də məlumat verildi.*

*Fondun icraçı direktoru Şirzad Abdullayev bildirdi ki, Aran iqtisadi rayonu üzrə 5 min 13 sahibkara 240 milyon manatadək, o cümlədən yeni texnologiyalara əsaslanan 63 layihəyə 135,4 milyon manat güzəştli kredit verilib. Bu kreditlər hesabına*

*reallaşdırılan layihələr 24 mindən çox yeni iş yeri açılmasına imkan yaratmışdır. Aran iqtisadi rayonunda 4340-dək sahibkara kiçikhəcmli kredit verilib. Yeni texnologiyalara əsaslanan 8 soyuducu və 7 taxıl anbarı, 4 quşçuluq fabriki, 1 heyvandarlıq kompleksi və 4 süd zavodu, 2 ət kəsimi fabriki, 2 istixana, 1 çörək zavodu, 2 üzümçülük və 3 bağçılıq təsərrüfatı, 3 meyvə-tərəvəz emalı, 2 tikinti materialları zavodu, 4 digər istehsal müəssisəsi olmaqla, 43 müəssisə istifadəyə verilmişdir. Bu proses davam etdiriləcəkdir. Bərdə rayonu üzrə 872 sahibkara 32 milyon manatadək kredit verilmişdir. Bundan başqa, yeni texnologiyalara əsaslanan 10 layihəyə 17,8 milyon manat güzəştli kreditlər verilmişdir.*

*Azərbaycan prezidentinə Aran iqtisadi rayonu üzrə dövlətin güzəştli kreditləri hesabına görüləcək işlər, o cümlədən müasir heyvandarlıq komplekslərinin, quşçuluq fabriklərinin, çörək və meyvə-tərəvəz emalı müəssisələrinin, soyuducu anbarların, iri taxılçılıq təsərrüfatlarının və digər prioritet sahələrin maliyyələşdiriləcəyi barədə də məlumat verildi.*

## YEVLAX RAYONUNA SƏFƏR

*7 oktyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 7-də Tərtər və Bərdə rayonlarına səfərini başa çatdıraraq Yevlax şəhərinə gəlmişdir.*

*Dövlətimizin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin Yevlax şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydu.*

*Yevlax Şəhər İcra Hakimiyyətinin başçısı Qoca Səmədov prezident İlham Əliyevə son zamanlarda şəhərdə aparılan abadlıq-quruculuq işləri barədə məlumat verdi.*

### Məhdud fiziki imkanlı insanlar üçün Regional İnformasiya Mərkəzinin açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev oktyabrın 7-də Heydər Əliyev Fondunun təşəbbüsü ilə Yevlax şəhərində inşa olunmuş məhdud fiziki imkanlı insanlar üçün Regional İnformasiya Mərkəzinin açılışında iştirak etmişdir.*

*Mərkəzin kollektivi və rayon sakinləri dövlətimizin başçısını hərarətlə qarşıladılar.*

*Prezident İlham Əliyev Mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Məlumat verildi ki, bu Mərkəz Heydər Əliyev Fondunun «Kor və görmə qabiliyyəti zəif olan insanların informasiya-kommunikasiya texnologiyalarına çıxışının təmin edilməsi» layihəsi çərçivəsində inşa olunub. Bu gün Heydər Əliyev Fondunun Azərbaycanda təhsilin, səhiyyənin və mədəniyyətin inkişafı istiqamətində həyata keçirdiyi layihələr bölgələrdə də uğurla icra olunur. Fondun «Kor və görmə qabiliyyəti zəif olan insanların İKT-yə çıxışının təmin edilməsi» layihəsi Azərbaycanda bu qəbildən olan insanların İKT ilə bağlı ehtiyaclarını müəyyənləşdirməyi, bu*

kateqoriyadan olan uşaqlar üçün məktəb-internatda kitabxana və təlim mərkəzinin yaradılmasını, bununla da onların bu imkanlardan tam istifadəsinin təmin olunmasını, əlavə təlimlərin keçirilməsini, belə uşaqlar üçün məktəb-internatda model İKT sinfinin yaradılmasını nəzərdə tutur.

Vurğulandı ki, bu layihə 2006-cı ildə BMT-nin İnkişaf Proqramı ilə Heydər Əliyev Fondu arasında imzalanan saziş çərçivəsində həyata keçirilir. Layihə üzrə İKT ehtiyaclarının qiymətləndirilməsi sahəsində beynəlxalq ekspert, İKT üzrə milli ekspert, təlim üzrə milli məşvərətçidən ibarət «Texniki ekspertlər qrupu» yaradılmış, Məşvərətçi Şura fəaliyyətə başlamışdır. İndiyədək layihə çərçivəsində 2 bölgədə – Naxçıvanda və Gəncədə regional mərkəzlər yaradılib.

Qeyd olundu ki, şəhərin Heydər Əliyev prospektində inşa edilən Mərkəzin üçmərtəbəli binasında 5 sinif, 1 tədris, 1 audio-studiya otağı, kitabxana və digər yardımçı otaqlar vardır. Artıq xaricdən gətirilən avadanlıqlar quraşdırıldığı model İKT sinifləri yaradılmış, kitabxana və təlim mərkəzləri fəaliyyətə başlamışdır. Bununla da kor və görmə qabiliyyəti zəif olan uşaqların «Brayl» şriftli kitablardan istifadə imkanlarının genişləndirilməsi istiqamətində ciddi addım atılıb. Bundan əlavə, gözdən əlil insanlar üçün audio kitabxana və tələb olunan bütün növ ədəbiyyatın audio formatda hazırlanması işi həyata keçirilmişdir. Hazırda bu proses davam edir. İnternetdə informasiyanın tapılması və əldə edilməsi məqsədi ilə kompüter mərkəzi də istifadəyə verilib. Kor və görmə qabiliyyəti zəif olan insanlar üçün təlim keçəcək müəllimlərin hazırlanması işi aparılmış, kompüterlər üçün «Virqo» xüsusi proqram təminatı Azərbaycan dilinə tərcümə edilərək lokallaşdırılmışdır.

Bildirildi ki, kor və məhdud görmə qabiliyyətinə malik insanların İKT ehtiyaclarını müəyyən etmək üçün Azərbaycanın müxtəlif regionlarında 12 min respondent arasında sorğu aparılmış, «Rəqəmsal fərqin aradan qaldırılması üzrə Milli Strategiya» işlənib hazırlanmışdır. Xaricdən gətirilən avadanlıqla

*təchiz olunan Mərkəzdə «Pronto», «Brayl» printeri və digər zəruri avadanlıqlar quraşdırılıb.*

*Mərkəzlə tanışlıqdan sonra prezident İlham Əliyev gözdən əlil insanlarla görüşdü.*

*Azərbaycan Gözdən Əlillər Cəmiyyətinin sədri Səmiyar Abdullayev dedi ki, bu, artıq üçüncü Mərkəzdir. Belə Mərkəz Naxçıvanda, bir də Gəncədə açılmışdır.*

**İ l h a m Ə l i y e v:** Mən Gəncədə də, Naxçıvanda da olmuşam. Yadımdadır, bu üçüncüdür.

**S ə m i y a r A b d u l l a y e v** *(Azərbaycan Gözdən Əlillər Cəmiyyətinin sədri)*: Heydər Əliyev Fondu digər regionlarda da belə mərkəzlərin tikilməsi üçün artıq işlər görür, layihələr hazırdır. Ona görə Sizə, Mehriban xanıma öz adımdan, təmsil etdiyim icma adından bir daha dərin təşəkkürümü bildirirəm. Bir daha tam əminliklə deyə bilərəm ki, bu gün ölkəmizdə fiziki qüsurlu insanlara böyük qayğı və diqqət vardır. Bu qayğı nəinki postsovet məkanında, heç Avropanın bir çox inkişaf etmiş ölkələrində yoxdur. Bu cür mərkəzlərin xüsusilə də regionlarda açılması həmin regionlarda yaşayan əlillərə çox gözəl töhfədir. Bu mərkəzlər əlillərin fiziki imkanlarının genişləndirilməsi, informasiya-kommunikasiya texnologiyalarından istifadə vərdişlərinə yiyələnmələri üçün geniş imkanlar açır. Bu isə onların sevincinə səbəb olur.

**İ l h a m Ə l i y e v:** Sağ olun! Bu bizim siyasətimizdir. Hər bir vətəndaş bizim üçün qiymətlidir, dəyərlidir. Fiziki cəhətdən qüsurlu insanlar isə xüsusi qayğıya layiqdirlər və biz çalışırıq ki, bunu edək. Çox şadam ki, Heydər Əliyev Fondu da bu nəcib işdə fəal iştirak edir. Burada yüksək şərait yaradılmış, müasir avadanlıqlar quraşdırılmışdır. Bu ən mütərəqqi yanaşmadır.

**S ə m i y a r A b d u l l a y e v:** Burada çox müasir, ən yüksək texnologiyalara əsaslanan imkanlar yaradılıb.

**İ l h a m Ə l i y e v:** Əlillərin normal həyata inteqrasiyası üçün Azərbaycanda çox böyük işlər görülür. Bir çox hallarda bizim təcrübəmiz başqa ölkələrdə öyrənilir. Əlbəttə, belə regional

mərkəzlərin sayı çox olmalıdır. Bu Mərkəz bir neçə rayona xidmət göstərir.

**S ə m i y a r   A b d u l l a y e v:** Heydər Əliyev Fondunun, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin birgə layihəsi əsasında digər bölgələrdə də bu cür mərkəzlərin açılması nəzərdə tutulub. Şimal, cənub bölgəmizdə də.

**İ l h a m   Ə l i y e v:** Bəli, şimalda da, cənubda da mütləq olacaqdır.

## Səməd Vurğun adına Mədəniyyət və istirahət parkının açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev oktyabrın 7-də Yevlax şəhərində Səməd Vurğun adına Mədəniyyət və istirahət parkının açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı parkın rəmzi açılışını bildirən lenti kəsdi və burada yaradılan şəraitlə yaxından tanış oldu.*

*Məlumat verildi ki, parkın ümumi sahəsi 10 min kvadratmetrdən çoxdur. Onun 7 min kvadratmetrindən çoxunu yaşıllıq sahəsi təşkil edir. Parkın mərkəzində Xalq şairi Səməd Vurğunun abidəsi ucaldılmışdır.*

*Prezident İlham Əliyev Xalq şairi Səməd Vurğunun abidəsi önünə gül dəstəsi qoydu.*

*Parkda 4 fəvvarə quraşdırılmış, uşaq əyləncə meydançası yaradılmışdır. Səməd Vurğunun abidəsinin arxa hissəsində şairin kitablarından ibarət kompozisiya qurulmuşdur. Müasir işıqlandırma sistemi, oturacaqlarla təmin olunan parkda sakinlərin istirahəti üçün hər cür şərait yaradılmışdır.*

*Azərbaycan prezidenti parkda yaradılmış şəraitdən razılığını bildirdi.*

## Kür çayının sahilində salınan «Bulvar» istirahət mərkəzində aparılan tikinti və yenidənqurma işləri ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev oktyabrın 7-də Yevlax şəhərinə səfəri çərçivəsində Kür çayının sahilində salınan «Bulvar» istirahət mərkəzində aparılan tikinti və yenidənqurma işləri ilə tanış olmuşdur.*

*Dövlətimizin başçısının diqqətinə çatdırıldı ki, bir neçə il əvvəl şəhərin Kür qırağının abadlaşdırılması, burada yeni bulvarın salınması ilə bağlı icra olunmağa başlanan layihə uğurla davam etdirilir. Bundan əsas məqsəd Kür çayının sahilini turizm zonasına çevirmək, insanların mənalı istirahətinə yardımçı olmaq və şəhərin simasına yeni memarlıq elementi daxil etməkdir.*

*Dövlətimizin başçısı «Bulvar»da istirahət edən sakinlərlə görüşüb söhbət etdi.*

**S a k i n:** Salam, cənab Prezident, xoş gəlmisiniz!

**İ l h a m Ə l i y e v:** Salam. Xoş gördük.

**S a k i n:** Necəsiniz, cənab Prezident?

**İ l h a m Ə l i y e v:** Yaxşıyam, siz necəsiniz?

**S a k i n:** Çox məmnunuq. Bu gün balaca nəvəmlə buradayıq. Bazar günləri buraya gəlirik. Bu gün nəvəmin yadında qalacaqdır. Səhv etmirəmsə, Yevlaxa 7-8-ci dəfədir gəlirsiniz. Hər gəlişinizdən biz stimul alırıq, güc alırıq. Siz həmişə deyirsiniz ki, Avropa şəhərlərindən geri qalmamalıyıq. Nəinki Avropa şəhərlərinə, dünyanın böyük şəhərlərinə çatmalıyıq. Biz buna əminik, Sizin köməyinizlə bu yolla gedirik.

**İ l h a m Ə l i y e v:** Elədir, keçən dəfə burada olanda hələ təmir işləri gedirdi. Artıq mənə məruzə edilmişdi. Çox gözəl təşəbbüsdür. Əslində, bu təşəbbüs Yevlaxdan gəldi. Mən bu təşəbbüsü dəstəklədim, çünki bulvar Bakıya xas olan bir istirahət zonasıdır. Bakı bulvarının 100 ildən çox tarixi vardır. Biz son illər ərzində Bakı bulvarını abadlaşdırdıq, uzatdıq, 3,5 kilometrdən indi Bayraq Meydanı ilə birlikdə 14 kilometrə çatıbdır. İndi geniş bir istirahət zonası açılıb. Biləndə ki, Yevlaxda bulvar salınır, çox sevindim. Çox gözəl təşəbbüsdür. Biz gərək bütün gözəl təşəbbüsləri dəstəkləyək. Bura boş yerlər idi, buraya heç kim gəlmirdi, demək olar ki, sahil yox idi. İndi gözəl bir istirahət

zonasıdır. Özü də Kürboyu gəzinti xüsusi zövq verir. Bizim indi həm Dənizkənarı, həm də çayboyu bulvarımız vardır. Çox güman ki, hələ uzanacaqdır.

**S a k i n:** Bəli, o biri körpüyə çatmağa az qalıbdır. Cənab Prezident, mən Yevlax sakiniyəm. Hər dəfə Sizin buraya gəlişiniz bizi sevindirir. Bakıya tez-tez gedirəm, orada ailəmiz, uşaqlarımız vardır. İnanın, hər dəfə Bakı bulvarını gəzəndə o qədər həsəd hissi keçirirdim ki, kaş bizim də belə bir bulvarımız olaydı. Amma bu gün ailəmlə, nəvəmlə gəzdiyimiz Kür çayının sahilində yerləşən bu bulvar heç də Bakının bulvarından geri qalmır. Buna görə, bütün yevlaxlılar Sizə təşəkkür edirlər. Xahiş edirəm, bizim salamlarımızı Mehriban xanıma çatdırın. Biz onu da, Sizi də çox istəyirik. Allah Sizi qorusun. Yevlaxa tez-tez gəlin, cənab Prezident.

**İ l h a m  Ə l i y e v:** Sağ olun, salamlarınızı çatdıraram. Mən Yevlaxa tez-tez gəlirəm, vəziyyətlə tanış oluram, maraqlanıram və görürəm ki, doğrudan da Yevlaxda böyük inkişaf gedir, böyük quruculuq işləri aparılır. Siz yevlaxlılar bunu hamıdan yaxşı bilirsiniz. Yevlax Azərbaycanın ən inkişaf etmiş rayonları arasındadır. Bu onu göstərir ki, hər şeyi etmək mümkündür. Əgər güclü iradə varsa və yerlərdə kadrlar yaxşı işləyirlərsə, hər şey etmək olar, hər bir yeri cənnətə çevirmək mümkündür. İndi Yevlaxda nəinki bulvar vardır – bulvar, əlbəttə ki, indi Yevlaxın bir xüsusiyyəti olacaqdır – şəhər də cavanlaşır. Mən prezident kimi, bir neçə ildir ki, Yevlaxa gəlirəm, görürəm ki, burada çox yüksək zövqlə, səliqə ilə böyük quruculuq, abadlıq işləri görülür, gözəl binalar, gözəl xiyabanlar salınır, yollar genişləndirilir, eyni zamanda, iş yerləri açılır, sosial infrastruktur yaradılır, məktəblər tikilir. Yəni hərtərəfli inkişaf var. Bu inkişaf belə gözəl istirahət yerlərinin tikilməsində də özünü göstərməlidir. Çünki hər şey, nə edilirsə insanlar üçün edilir. Bu yaxınlarda mən Bakı Humanitar Forumunda çıxışımda da dedim. Siyasətimizin təməlində Azərbaycan vətəndaşı, onun rifahı, rahat yaşaması durur. Bütün bu işlər insanlar üçün görülür. Bu bulvar artıq tarixdə qalacaqdır. Bu bulvarın da böyük tarixi olacaq. İndi biz deyirik ki, Bakı bulvarı

102 il əvvəl salınıbdır. Yevlax bulvarı isə yeni salınıb. Bu, artıq tarixdə vardır. Siz bu tarixi bir yerdə qeyd edin. Yazın ki, Yevlax bulvarı bu tarixdə yaradılıb. 100 ildən sonra burada gəzəcək insanlar deyəcəklər ki, bizim tarixi bulvarımız vardır, yaşı 100 ildir. Tarix belə yaradılır, ölkələr belə inkişaf edir.

**S a k i n:** Çox minnətdarıq, biz yevlaxlılar Sizi sevirik, Allah Sizə ömür versin.

**İ l h a m  Ə l i y e v:** Sağ olun, mən də sizi sevirəm. Çox şadam ki, Yevlax doğrudan da inkişaf edir. Əslində son illər ərzində Yevlaxda gedən quruculuq prosesləri onu dəqiqliklə göstərir ki, hər şey etmək mümkündür. Yevlax ölkə miqyasında ən qabaqcıl yerlərdədir. Bu uğurlar sizin zəhmətiniz hesabına mümkün olubdur. Mən də, əlbəttə, kömək edirəm. Yevlax ölkəmizin coğrafi mərkəzidir, böyük və strateji mərkəzdir. İndi burada gedən quruculuq işləri inkişaf etmiş şəhərlərdə gedən işlərdən geri qalmır. Əslində mən bir neçə dəfə demişəm, bəzi hallarda, xüsusilə müstəqilliyimizin ilk illərində deyirdik ki, «Avropa standartları», «Avropa standartlarına çatmalıyıq», belə bir anlayış var idi. Amma indi görürük ki, bizim öz standartlarımız da geri qalmır. Artıq, demək olar ki, Azərbaycan standartları vardır – səliqə, zövq, təmizlik, quruculuq, inkişaf, abadlıq işləri. Azərbaycan standartları digər sahələrdə də özünü göstərir. Misal üçün, təhlükəsizlik. Deyə bilərəm ki, dünya miqyasında ən təhlükəsiz yerlərdən biri Azərbaycandır. Yaxud da ki, iqtisadi inkişaf, sosial məsələlərin həlli, cəmiyyətdə hökm sürən gözəl ovqat, ab-hava, milli-dini dözümlülük – bu, Azərbaycan modelidir. Bu günlərdə II Beynəlxalq Humanitar Forumun iştirakçıları da bu inkişafı görürlər, vurğulayırlar və bizim təcrübəmizi öyrənməyə çalışırlar. Ona görə Azərbaycan standartları özünü hər yerdə göstərməlidir. Bu, müasirlik və inkişaf, milli dəyərlərə bağlılıq standartlarıdır.

**S a k i n:** Cənab Prezident, icazə versəydiniz mən bütün yevlaxlılar adından Sizi salamlayardım. Şəhərimizə xoş gəlmisiniz! Sizin hər gəlişiniz bizim üçün, sözün əsl mənasında, bayramdır. Biz bu gün bu gözəl bulvarda Sizi görməyimizə çox şadıq. Bizim üçün yaratdığınız hər bir şəraitə görə çox sağ olun.

İndi doğrudan da Yevlax camaatı heç nədən əziyyət çəkmir. Buna görə də Sizə «çox sağ olun» – deyirik. Çünki bu Sizin işinizin, qayğınızın, bizə göstərdiyiniz diqqətin sayəsində mümkün olubdur.

Mən öz adımdan Sizə bir daha təşəkkür edirəm ki, bizi bu cür işləməyə ruhlandırırsınız. Sizin hər gəlişiniz bizim həyat eşqimizi daha da artırır. Doğrudan da elədir. Mənim 56 yaşım var, amma mən istərdim bundan sonra da heç olmasa 20 il yaşayım ki, Azərbaycanın o gözəl günlərini daha yaxından görüm, onun quruculuğunda mən də iştirak edim. Çox sağ olun, Sizə həm şəhərimizin əhalisi adından, həm öz adımdan bir daha təşəkkür edirəm. Siz doğrudan da bizim təhlükəsizliyimizi təmin edirsiniz. Vaxt var idi ki, Yevlaxda kimsə harayasa tək çıxa bilmirdi. Amma bu gün mən balaca nəvəmi də götürüb tək gəlirəm. Yay aylarında gecə saat 11-12-dək burada otururam ki, uşaq əylənsin. Çox sağ olun, bir daha Sizə minnətdaram.

**İlham Əliyev:** Sağ olun.

**Sakin:** Nəvələrimlə, nəticələrimlə gəlib bu gözəl parkda gəzirəm. Bura vaxtı ilə liman olubdur, buraya Bakıdan paroxod gəlibdir. İndi şükür Allaha, gözəl sahil, park, gözəl bulvar salınıb, gəlib gəzirəm.

Cənab Prezident, Siz Ramil Səfərovu, Mübariz İbrahimovu Vətənimizə gətirdiniz və onlara sahib durdunuz, buna görə çox sağ olun! Bu Sizin Azərbaycan xalqına göstərdiyiniz diqqətin və qayğının nümunəsidir. Biz yaşlı adamlarıq. Biz Sizin diqqət və qayğınızı həmişə hiss edirik. Biz Sizi ömürlük prezident kimi qəbul edirik. Çox sağ olun, Allah Sizi qorusun!

**İlham Əliyev:** Çox sağ olun! Azərbaycan doğrudan da indi qüdrətli dövlətdir, öz maraqlarını müdafiə etməyə, ləyaqətini qorumağa, vətəndaşlarına yiyə durmağa qadirdir. Ramil Səfərovu Azərbaycana qaytarmağımız ədalətli idi, bütün beynəlxalq hüquq normalara uyğun idi. Avropa Konvensiyasına, Azərbaycan Konstitusiyasına və haqq-ədalətə uyğun idi. Azərbaycan öz vətəndaşlarını qoruyur, qorumalıdır və çətin vəziyyətdən xilas etmək üçün əlindən gələni etməlidir.

Bu gün bizim buna gücümüz çatır. Ona görə dünyada bizim rolumuz artır, dünya xəritəsində biz artıq layiqli yer tuta bilmişik. Bölgədə gedən proseslərdə bizimlə hesablaşmamaq artıq mümkün deyildir. Hesablaşmamaq istəyənlər də gördülər ki, axırda hesablaşmalıdırlar. Bizim siyasətimiz xoşniyyətlidir. Heç kimə qarşı pis fikirdə deyilik. İstəyirik ki, bütün xalqlar, bütün ölkələr bir-biri ilə yaxşı əlaqədə olsunlar. İstəyirik ki, bizim haqlarımız da qorunsun, ərazi bütövlüyümüz bərpa olunsun və buna çalışırıq. Biz müstəqil siyasət aparırıq. Bu siyasətin mənbəyi Azərbaycan xalqıdır və onun maraqlarıdır. Burada heç bir başqa maraq nəzərə alınmır və alınmamalıdır. Müstəqil siyasət aparmaq üçün, əlbəttə, güclü iradə, cəsarət, iqtisadi dayaqlar olmalıdır. Bunlar hamısı öz yerində. Amma ilk növbədə, cəmiyyətdə birlik olmalıdır, xalqla iqtidar arasında birlik. Bu birlik nə qədər güclüdürsə, o qədər də beynəlxalq arenada bizim söz deməyə gücümüz çatır. Mən bunu istəyirəm və hər yeni icra başçısı təyin edərkən tövsiyələrimi verirəm. Bu tövsiyələrin ən vacibi xalqla bir yerdə olmaq, xalqın problemləri ilə yaşamaq, bütün səyləri insanların yaxşı yaşamalarına yönəltməkdir.

Mən Yevlaxda da bunu görürəm. Görürəm ki, yerli icra orqanları vətəndaşlarla bir yerdə çalışırlar. Bu bulvar hamımızın əsəridir. Əlbəttə ki, mən də öz rolumu oynamışam, yerli icra orqanları da, vətəndaşlar da. Biz dövlət yaradırıq, özümüz üçün güclü dövlət qururuq ki, hər bir kəs Azərbaycan vətəndaşı olmağı ilə fəxr etsin. Nə qədər güclü olsaq, bizim mövqemiz də o qədər müdafiə olunacaq, maraqlarımız da o qədər təmin ediləcəkdir. Bütün bunlar hamısı bir-biri ilə bağlı olan məsələlərdir.

Bu gün biz öz maraqlarımızı ləyaqətlə qoruyuruq. Həm bölgədə, həm də dünyada gedən qlobal proseslərdə biz fəal iştirak edirik. Bizim rəyimizlə hesablaşırlar. Bizim mövqemiz bölgə məsələlərində həlledici rol oynayır, dünya məsələlərində də artıq eşidilir. Bütün bunlara biz 20 il ərzində nail olmuşuq. 20 il tarix üçün bir andır. 20 il ərzində bu qədər böyük işin

görülməsi xalqımızın tarixi qələbəsidir. Biz bundan sonrakı 20 ili də nəzərə alırıq. İnşallah, 20 ildən sonra da görüşəcəyik, bəlkə də bulvarın o tərəfində. Çünki bulvar bir qədər də uzanacaqdır.

**S a k i n:** Allah ömür versin!

**İ l h a m Ə l i y e v:** Mən bundan sonrakı 20 ilin konturlarını da görürəm. Əminəm ki, Azərbaycan inkişaf etmiş ölkələrin sırasında olacaqdır. Həyat səviyyəsi ən yüksək həddə olacaqdır. Bütün infrastruktur layihələri, əlbəttə, ondan əvvəl öz həllini tapacaqdır. Əhalimiz artacaqdır. Əhali də çox vacibdir. Demoqrafiya vacibdir. Əhalimiz 15 milyon, 20 milyon olmalıdır. İnşallah, o günləri də biz bərabər görəcəyik və daha da güclü, daha da təsirli dövlət yaradacağıq. Mən buna şübhə etmirəm. Bütün bunlara nail olmaq üçün Azərbaycanda hər şey vardır – siyasi iradə, xalqın dəstəyi, iqtisadi güc və gələcəyə olan baxışlarımız.

Bir daha qayıdıram Yevlaxda gedən inkişafa. Görürük ki, burada qısa müddət ərzində çox iş görülüb. Rayon icra hakimiyyətinin şəhərin inkişafı ilə bağlı başqa planları vardır. Şəhər böyüməlidir, böyüyür, yeni inkişaf konsepsiyası işlənməlidir. Bütün infrastruktur layihələri vaxtında icra edilməlidir. Yevlaxda su layihəsi icra ediləcək, qazlaşdırılma 100 faiz olmalıdır. Bütün kəndlərdə qaz olmalıdır. Kənd yolları bərpa edilməlidir. Mərkəzi Rayon Xəstəxanası tikilib. Böyük xəstəxanadır. Ölkə miqyasında ən böyük xəstəxanalardan biridir. Nə lazımdırsa onu da edəcəyik və sizinlə də çox görüşəcəyik. Sizə cansağlığı, uğurlar arzulayıram. Sağ olun!

**S a k i n l ə r:** Çox sağ olun, minnətdarıq.

* * *

*Elektromobillə «Bulvar» istirahət mərkəzinin ərazisini gəzən prezident İlham Əliyev burada aparılan tikinti və yenidənqurma işlərinin gedişi ilə tanış oldu.*

*Bildirildi ki, şəhər əhalisinin istirahətinin səmərəli təşkili məqsədilə Kür çayının Yevlax şəhərinin ərazisindən keçən hissəsinin sağ sahili boyunca salınan «Bulvar» istirahət mərkəzinin uzunluğu 2,5 min metr, ümumi sahəsi 8,2 hektardır. Onun bir hissəsi sahil boyunca, digər hissəsi isə estakadalar üzərində yerləşir. Tikinti işlərinin gedişində istinad divarları tikilmiş, sütunlar inşa olunmuşdur. İstirahət zonasında müxtəlif həcmli 22 fəvvarə, şəlalə, dayaqlar üzərində 86 tağbənd də tikilmişdir. «Bulvar» istirahət mərkəzində müasir işıqlandırma sistemi yaradılmış, uşaqlar üçün attraksionlarla təchiz olunan əyləncə guşəsi qurulmuşdur.*

*Vurğulandı ki, idmana olan maraq nəzərə alınaraq burada futbol və voleybol meydançaları inşa olunmuş, çimərlik zonası salınmışdır. Hazırda Kür çayının sahilində beşulduzlu hotel binasında tikinti işləri davam etdirilir.*

*Bir sözlə, «Bulvar» istirahət mərkəzində yaradılmış şərait Azərbaycanın hər bir bölgəsində abadlıq və quruculuq işlərinin aparılmasının dövlətin diqqət mərkəzində olduğunu göstərir.*

## Avtovağzal kompleksinin açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev oktyabrın 7-də Yevlax Şəhər Avtovağzal Kompleksinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı Avtovağzal kompleksinin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Məlumat verildi ki, son illərdə ölkənin nəqliyyat sisteminin təkmilləşdirilməsi, sərnişin daşımalarının beynəlxalq səviyyədə həyata keçirilməsi istiqamətində mühüm layihələr icra olunur. Bu sahədə nəinki paytaxt Bakıda, eyni zamanda, regionlarda da müasir standartlara cavab verən avtovağzalların tikintisinə başlanılmışdır. Yevlax şəhərinin qədim İpək yolunun üzərində yerləşməsi, o cümlədən ölkənin qərb istiqamətindən gələn bütün avtomobil yollarının buradan keçməsi onun həm iqtisadi, həm də nəqliyyat baxımından əhəmiyyətini daha da artırır. Odur ki,*

*burada yeni inşa olunan Avtovağzal kompleksi bu tələbatın ödənilməsində mühüm rol oynayır.*

*Diqqətə çatdırıldı ki, gələcəkdə ölkənin bir çox regionlarına yeni marşrutların açılması nəzərdə tutulub. Yeni Avtovağzal kompleksində yaradılan şərait buna hərtərəfli imkan verir.*

*Prezident İlham Əliyev yeni kompleksdə yaradılmış şəraiti yüksək qiymətləndirdi, əhaliyə keyfiyyətli xidmət göstərilməsi ilə bağlı tapşırıq və tövsiyələrini verdi.*

## Dövlət Sərhəd Xidmətinin Yevlaxdakı «N» saylı yeni hərbi hissəsinin qarnizonu və yaşayış binaları kompleksinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev oktyabrın 7-də Dövlət Sərhəd Xidmətinin Yevlaxdakı «N» saylı yeni hərbi hissəsinin qarnizonu və yaşayış binaları kompleksinin açılışında iştirak etmişdir.*

*Dövlət Sərhəd Xidmətinin rəisi, general-leytenant Elçin Quliyev Prezident, Ali Baş Komandan İlham Əliyevə raport verdi.*

*Dövlətimizin başçısı əvvəlcə hərbi hissənin qərargahında yaradılmış şəraitlə tanış oldu. Bildirildi ki, burada hərbi qulluqçuların xidməti vəzifələrini yerinə yetirmələri üçün hər cür şərait yaradılıb. Azərbaycan prezidentinin 2011-ci il 18 iyul tarixli Fərmanına uyğun olaraq, 15 aya inşa edilən bu hərbi hissənin ərazisi 40 hektardır. Burada 80,6 min kvadratmetr ərazidə inşaat işləri görülmüş, 270 min kvadratmetr sahə isə abadlaşdırılmışdır.*

*Altımərtəbəli əsgər yataqxanasında olan prezident İlham Əliyev bölmələrin yerləşmə və tədris şəraiti ilə tanış oldu. Məlumat verildi ki, burada əsgərlərin və digər hərbi qulluqçuların istirahəti və xidməti yüksək səviyyədə həyata keçirmələri üçün zəruri tədbirlər görülmüşdür. Əsgərlərin məişət şəraiti üçün lazımi infrastruktur yaradılmış, bütün növ xidmətlər yüksək standartlar nəzərə alınaraq təşkil olunmuşdur. Bundan əlavə, binanın yuxarı mərtəbəsində böyük konfrans zalı yaradılmışdır ki, burada da hərbi hissənin həyatı ilə bağlı müxtəlif tədbirlər keçiriləcəkdir.*

*Ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətinin əks olunduğu muzey isə həm də ideoloji mərkəz funksiyasını yerinə yetirir. Muzeydə ulu öndər Heydər Əliyevin və Prezident, Ali Baş Komandan İlham Əliyevin ordu quruculuğuna, o cümlədən ölkədə Sərhəd Qoşunlarının inkişafına göstərdikləri diqqət və qayğını əks etdirən fotostendlər qurulmuşdur.*

*Sonra prezident İlham Əliyev əsgər yeməkxanasında yaradılan şəraitlə maraqlandı. Qeyd edildi ki, əsgərlərin yüksək səviyyədə qidalanması üçün burada hər cür şərait vardır. Hərbi hissənin ərazisində bütün zəruri avadanlıq və ləvazimatlarla təchiz olunan hospital fəaliyyət göstərir. 60 çarpayılıq hospitalda ambulator müayinələrin və müalicə işinin aparılması üçün bütün imkanlar nəzərə alınmış, əməliyyat bloku yaradılmışdır.*

*Dövlətimizin başçısı hərbi hissənin tədris meydanı və təlim poliqonunda da oldu. Burada Silahlı Qüvvələrin Ali Baş Komandanına yeni texnika və silah növləri barədə məlumat verildi. Qeyd olundu ki, bu gün Dövlət Sərhəd Xidmətinin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində mühüm tədbirlər görülür. Dövlət Sərhəd Xidmətinin hərbi hissələrinin komplektləşdirilmə faizi və keyfiyyəti də yüksək səviyyədədir. Əsas komanda-qərargah vəzifələrinin peşəkar, ali hərbi təhsili olan, mənəvi, fiziki və psixoloji cəhətdən hazırlıqlı, döyüş təcrübəsi toplamış zabitlərlə komplektləşdirilməsi ardıcıl şəkildə həyata keçirilir.*

*Diqqətə çatdırıldı ki, sərhədçi ailələrinin istifadəsi üçün dörd tədris qrupu üzrə nəzərdə tutulan 150 yerlik uşaq bağçası vardır. Burada uşaqların təlim-tərbiyəsinin yüksək səviyyədə yerinə yetirilməsi üçün hər cür əyani vəsaitlərlə təchiz olunan bölmələr yaradılmış, məktəbəqədər hazırlıq guşələri qurulmuşdur. Bağçanın daxilində 2,1 min kvadratmetr sahəsi olan qapalı hovuz inşa olunmuşdur.*

*Daha sonra prezident İlham Əliyev hərbi hissədə yaşayış binaları kompleksinin açılışında iştirak etdi.*

*Dövlətimizin başçısına məlumat verildi ki, hərbi hissənin ərazisində ümumilikdə 185 mənzilin olduğu beşmərtəbəli 5 bina tikilmişdir. Subay zabit və gizirlər üçün 120 nəfərlik hotel*

*tipli yataqxana da vardır. Burada yaradılan şərait təsdiqləyir ki, bu gün Azərbaycan Ordusunda müşahidə olunan hərtərəfli yüksəliş sərhədçilərin və onların ailə üzvlərinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına, sosial müdafiəsinin gücləndirilməsinə müsbət təsir göstərir. Prezidentin Azərbaycanın bölgələrinə etdiyi səfərlərində hərbçilər və onların ailələri üçün inşa edilən binaların açılışında iştirak etməsi dövlətin ordu quruculuğuna diqqət və qayğısını nümayiş etdirir.*

*Prezident İlham Əliyev görülmüş işlərdən razılığını bildirdi.*

## ZƏRDAB RAYONUNA SƏFƏR

*7 oktyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 7-də Yevlax şəhərinə səfərini başa çatdıraraq Zərdab rayonuna gəlmişdir.*

*Dövlətimizin başçısı Zərdab şəhərinin mərkəzindəki Heydər Əliyev parkında xalqımızın ümummilli liderinin abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydu.*

*Zərdab Rayon İcra Hakimiyyətinin başçısı Lütfəli Babayev prezident İlham Əliyevə rayonda aparılan abadlıq-quruculuq işləri barədə məlumat verdi.*

### Heydər Əliyev Mərkəzinin açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev oktyabrın 7-də Zərdab rayonunda Heydər Əliyev Mərkəzinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı Mərkəzin açılışını bildirən lenti kəsdi.*

*Məlumat verildi ki, şəhərin Heydər Əliyev prospektində yerləşən, ümummilli liderin adını daşıyan parkda Heydər Əliyev Mərkəzinin inşasına 2010-cu ildə başlanılıb. Mərkəzin ikimərtəbəli binası ümummilli liderin adını daşıyan parkın ən gözəl guşəsində, özünəməxsusluğu ilə seçilən orijinal layihə əsasında inşa edilmişdir. Binanın ümumi sahəsi 1680 kvadratmetrdir. Ulu öndər Heydər Əliyevin xatirəsinin əbədiləşdirilməsi baxımından böyük əhəmiyyəti olan Mərkəzdə ümummilli liderin həyatının və çoxşaxəli dövlətçilik fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən materiallar, fotoşəkillər, tarixi sənədlər, eksponatlar, o cümlədən müxtəlif illərdə Zərdaba səfərlərinə dair fotolar nümayiş olunur. Burada ümummilli liderin həyat və fəaliyyətini, xarici ölkələrdə və ölkəmizin regionlarında keçirdiyi görüşləri əks etdirən 9*

*fotoguşə yaradılmış, foyedə ulu öndərin büst kompleksi qoyulmuşdur.*

*Mərkəzdə yaradılan şəraitlə tanışlıq zamanı diqqətə çatdırıldı ki, burada kompüterlərlə təchiz olunan konfrans zalı və ən müasir avadanlıqların quraşdırıldığı xidməti otaqlar vardır. Şagirdlərin Azərbaycanın zəngin tarixini dərindən öyrənmələri üçün xüsusi dərnəklər mövcuddur. Mərkəzin guşələrində ümummilli lider Heydər Əliyevin fəaliyyətindən bəhs edən xarici dillərdə nəşrlərə də geniş yer verilmişdir. Birinci mərtəbədə xalçaçılıq, rəsm və şahmat dərnəkləri fəaliyyət göstərəcəkdir. Mərkəzin qonaqları burada yaradılan imkanlardan istifadə etməklə dahi Heydər Əliyevin siyasi irsi ilə yaxından tanış ola biləcəklər.*

*Qeyd olundu ki, Mərkəzdə 150 nəfərlik akt zalı, respublika və rayon səviyyəli müxtəlif tədbirlərin keçirilməsi üçün konfrans zalı da vardır. Mərkəzdə quraşdırılan ən müasir avadanlıq vasitəsilə beynəlxalq konfransların keçirilməsi də mümkündür.*

*Heydər Əliyev Mərkəzi ilə tanışlıqdan sonra dövlətimizin başçısı müvafiq tapşırıq və tövsiyələrini verdi.*

## Yeni Azərbaycan Partiyası Zərdab rayon təşkilatının yeni inzibati binasının açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev oktyabrın 7-də Yeni Azərbaycan Partiyası Zərdab rayon təşkilatının yeni inzibati binasının açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı binanın rəmzi açılışını bildirən lenti kəsdi. Bildirildi ki, Heydər Əliyev parkında yerləşən binanın tikintisinə cari ilin mayında başlanılmışdır. Sahəsi 451 kvadratmetr olan ikimərtəbəli yeni inzibati binanın ətrafında yaşıllıq zolağı salınmış, işıqlandırma sistemi qurulmuşdur. Binanın birinci mərtəbəsində ulu öndər Heydər Əliyevin büstü qoyulmuşdur. Büstün ətrafında ümummilli lider Heydər Əliyevin və Yeni Azərbaycan Partiyasının sədri, prezident İlham Əliyevin partiya qurultaylarında iştiraklarını və müxtəlif vaxtlarda Zərdab*

*rayonuna səfərlərini əks etdirən fotolar yer almışdır. Ümumilikdə inzibati bina 6 otaqdan və konfrans zalından ibarətdir. Zalda respublika və rayon əhəmiyyətli mötəbər tədbirlərin keçirilməsi nəzərdə tutulub. Buradakı bütün otaqlarda səmərəli fəaliyyət üçün hər cür şərait yaradılıb.*

*Vurğulandı ki, YAP Zərdab rayon təşkilatı 1993-cü il avqustun 14-də təsis olunmuşdur. Hazırda 5 min 400 üzvü olan qurum partiyanın 64 ərazi ilk təşkilatını birləşdirir.*

*Burada prezident İlham Əliyev Zərdab–Yuxarı Seyidlər–Siləyli avtomobil yolunun yenidənqurmadan əvvəlki və sonrakı görüntülərini əks etdirən fotostendə baxdı.*

*Dövlətimizin başçısı görülən işlərdən razılığını bildirdi, tapşırıq və tövsiyələrini verdi.*

## Gənclər Mərkəzinin açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev oktyabrın 7-də Zərdabda Gənclər Mərkəzinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Mərkəzdə yaradılan şəraitlə tanışlıq zamanı məlumat verildi ki, Heydər Əliyev parkında yeni inşa olunmuş Gənclər Mərkəzinin həyatində XXX London Yay Olimpiya oyunlarının qaliblərinin və olimpiya komandamızın prezident İlham Əliyev ilə görüşlərini əks etdirən fotostend yaradılmışdır. Mərkəzin foyesində ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin ictimai-siyasi fəaliyyətlərinin müxtəlif məqamlarını, Zərdaba səfərlərini əks etdirən fotolardan ibarət guşələr vardır.*

*Qeyd olundu ki, Gənclər Mərkəzinin tikintisinə ötən ilin iyulunda başlanılmışdır. Mərkəzin inşaat işləri prezident İlham Əliyevin Zərdaba səfərindən sonra imzaladığı 2011-ci il 11 may tarixli Sərəncamı ilə ayrılan 2 milyon manat vəsait hesabına aparılmışdır. Bütün lazımi avadanlıqla təchiz edilən 10 otaq və rəqs zalından ibarət mərkəzdə gənclər öz asudə vaxtlarını maraqlı keçirə bilərlər. Burada ayrıca kompüter*

*otağı da var. Bütün kompüterlər sürətli internetə qoşulmuşdur. Mərkəzdə kompüter, dərzilik kursları, musiqi dərnəkləri təşkil olunacaqdır. Binadakı kafe-barda gənclərin istirahəti üçün hər cür şərait yaradılmışdır.*

*Dövlətimizin başçısı mərkəzin rəqs zalı ilə tanış oldu. Burada atıcılıq otağı və bilyard zalı fəaliyyət göstərir. Ümumilikdə mərkəz gənclərin asudə vaxtlarının səmərəli təşkilində mühüm rol oynayacaqdır.*

*Mərkəzlə tanışlıqdan sonra prezident İlham Əliyev müvafiq tapşırıq və tövsiyələrini verdi.*

## Küllülü–Zərdab magistral su kəmərinin açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev oktyabrın 7-də Küllülü–Zərdab magistral su kəmərinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı su kəmərinin planı və tikintisi prosesini əks etdirən stendlə tanış oldu.*

*«Azərsu» Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz Hüseynov Küllülü su mənbəyinin və xəttin texniki göstəriciləri barədə məlumat verdi. Bildirildi ki, ASC-nin sifarişi ilə kəmərin tikinti işlərinə cari ilin sentyabrında başlanılmışdır. Bütövlükdə bu kəmərin suyundan Ağsu, Kürdəmir, Ucar və Zərdab rayonlarının müxtəlif yaşayış məntəqələrinin 157 min sakini istifadə edəcəkdir.*

*Qeyd olundu ki, kəmərin Zərdab rayonunun ərazisindən keçən hissəsinin uzunluğu 72 kilometrdir. Zərdabın 36 min nəfər əhalisi bu su kəmərindən istifadə edəcəkdir. Küllülüdə 5 min kubmetrlik 1, Zərdabda isə hər biri 2 min kubmetrlik 2 su anbarı tikilir. Hazırda Heydər Əliyev parkında tikilən şəlalə rəmzi olaraq suyun artıq Zərdaba gəlib çatmasını bildirir.*

*Dövlətimizin başçısı suyun şəhərə rəmzi olaraq verilməsini təmin edən qurğunu işə salan düyməni basdı.*

## ZƏRDAB RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*7 oktyabr 2012-ci il*

Əziz dostlar, əziz zərdablılar! Bu gün Zərdab rayonunun tarixində çox əlamətdar bir gündür. Zərdabda böyük su layihəsinin başlamasını qeyd edirik. Bu layihənin icrası imkan verəcək ki, zərdablılar təmiz içməli su ilə təmin olunsunlar. Bu, rayonun inkişafı, insanların sağlamlığı üçün çox böyük məna daşıyır. İçməli su həyat deməkdir. Təmiz içməli su isə sağlam həyat deməkdir. Bir neçə gündən sonra 72 kilometr uzunluğunda kəmər vasitəsilə verilən su daxili şəbəkəyə birləşdiriləcək və beləliklə, su evlərə paylanacaqdır.

Hazırda zərdablılar suyu fasilələrlə alırlar. Şəhərin yarısı, demək olar ki, bu problemlə üzləşir və su qıtlığı müşahidə olunur. Bu layihə başa çatandan sonra artıq Zərdab əhalisi 24 saat içməli su alacaqlar.

Bu doğrudan da böyük tarixi layihədir. Çünki uzun illər ərzində, onilliklər ərzində su problemi, demək olar ki, bütün rayonlara xas idi. Hazırda ökəmizin hər yerində su-kanalizasiya layihələri icra edilir və çalışırıq ki, gələn ilin sonuna qədər bütün rayonlarda, rayon mərkəzlərində içməli su layihələri başa çatsın.

Bu layihə çox böyük maliyyə vəsaiti tələb edir və Azərbaycan dövləti maliyyə yükünün əsas hissəsini öz üzərinə götürmüşdür. Bəzi rayonlarda bəzi layihələr xarici maliyyə qurumlarının kreditləri ilə icra edilir. Ancaq əsas yük dövlətin üzərinə düşür. Bu belə də olmalıdır. Çünki bizim sosial siyasətimiz insanların rahatlığını təmin etmək üçün aparılır. Bizim siyasətimizin təməlində Azərbaycan vətəndaşıdır və Azərbaycan vətəndaşının rahat, firavan yaşaması bizim əsas məqsədimizdir.

Bütün infrastruktur layihələrinin içərisində içməli su layihəsi xüsusi məna daşıyır. Düzdür, son illər bütün bölgələrdə digər vacib infrastruktur layihələri həyata keçirilib, magistral yollar, kənd yolları çəkilib, o cümlədən Zərdab rayonunda bir neçə kəndi birləşdirən yeni yollar çəkilib, elektrik enerjisinin verilməsi xeyli dərəcədə yaxşılaşdırılıb. Demək olar ki, ölkə üzrə bu ciddi problem artıq aradan götürülüb. Əlbəttə, təkmilləşdirmə işləri aparılmalıdır və aparılır. Amma biz bu problemi köklü şəkildə həll etmişik. Qazlaşdırma prosesi gedir. Zərdab şəhərinin qazla təminatı artıq reallaşıb və ətraf kəndlərə də qaz xətləri çəkilir. Bu layihələrin içində içməli su layihəsi xüsusi məna daşıyır. Çünki insan susuz yaşaya bilməz. Keyfiyyətsiz su insanın sağlamlığına birbaşa ziyan vurur. Biz çalışmalıyıq və çalışırıq ki, bütün bölgələrdə əhaliyə verilən içməli su Ümumdünya Səhiyyə Təşkilatının standartlarına cavab versin. Əminəm ki, buna nail olacağıq. Zərdab rayonuna verilən içməli su çox gözəl, təmiz mənbədən gələn sudur, keyfiyyətli sudur və bir neçə gündən sonra zərdablılar bunu görəcəklər.

Bu layihənin böyük mənası, böyük əhəmiyyəti vardır. Çünki bir daha demək istəyirəm ki, bizdə içməli su problemi həmişə, bütün dövrlərdə olub. Tədricən bu məsələ öz həllini tapmaqdadır və hər bir bölgə üçün konkret investisiya proqramı, konkret proqramlar, planlar vardır. Bu işlər plan üzrə gedir və qarşıya məqsəd qoyulmuşdur ki, gələn ilin sonuna qədər əksər layihələr icra edilsin. Bütün rayon mərkəzlərini gələn ilin sonuna qədər içməli su ilə təmin etməliyik. Bununla paralel olaraq, ətraf kəndlərə də təmiz içməli su verilməlidir. Ondan sonrakı mərhələdə daha da geniş miqyasda bu layihələr icra ediləcəkdir. Kanalizasiya layihələri də icra ediləcək.

Biz bu məsələni həll etdikdən sonra, demək olar ki, infrastruktur layihələri arasında həllini gözləyən məsələ qalmayacaqdır. Bu məsələ ilə bağlı bir neçə il bundan əvvəl konkret tapşırıqlar verilmişdir. Dövlət İnvestisiya Proqramında su layihələri nəzərdə tutulur. Bu bir daha Azərbaycan

hökumətinin, dövlətinin siyasətini əks etdirir. Biz bazar iqtisadiyyatı prinsiplərinə sadiqik və indi ölkə iqtisadiyyatı uğurla inkişaf edir. Bu bizə imkan verir ki, sosial məsələlərin həllinə lazımi səviyyədə maliyyə vəsaiti ayıraq və bunu edirik.

Su layihəsi sırf sosialyönümlü layihədir. Çünki bu layihənin dövlət üçün heç bir kommersiya önəmi yoxdur. Azərbaycanda su tarifləri çox aşağıdır və bu layihələrə qoyulan vəsait heç vaxt, yəni su tariflərinin ödənilməsi hesabına qaytarıla bilməz. Bu bir daha Azərbaycan dövlətinin nə qədər güclü sosial siyasət apardığını göstərir.

Bu belə də olmalıdır. Çünki ölkəmiz inkişaf edir, ölkəmizin bütün bölgələri inkişaf edir və biz çalışırıq, çalışmalıyıq ki, Azərbaycan vətəndaşları üçün daha da yaxşı şərait yaradaq. Hər bir vətəndaş üçün yaşadığı yerdən asılı olmayaraq, gözəl şərait yaradılmalıdır. İnsanlar işlə təmin olunmalıdır, təhlükəsizlik təmin edilməlidir, səhiyyə, təhsil ocaqları tikilməlidir. İnfrastruktur layihələrinin icrası, əlbəttə ki, ümumi işlərdə mühüm yer tutur. Son illər ərzində ölkəmizdə həyata keçirilən infrastruktur layihələri, artıq öz gözəl nəticəsini verir.

Bu gün həm Zərdab, həm də, ümumiyyətlə, ölkə üçün çox əlamətdar bir gündür. Çünki qeyd etdiyim kimi, bütün bölgələrdə içməli su layihələri artıq icra edilir, yaxud da ki, onların icrasına hazırlıq işləri aparılır. Onların içində birinci layihə məhz Zərdabda reallaşır. Ona görə bu gün tarixdə qalacaqdır. Bu gün yeni layihələr əsasında Azərbaycanın bölgələrinə verilən suyun ilkin mərhələsidir. Təsadüfi deyildir ki, birinci layihə Zərdabda reallaşır. Zərdabın inkişafına böyük diqqət göstərilir. Əvvəlki dövrdə rayonun inkişafı üçün Prezidentin ehtiyat fondundan vəsait ayrılmışdır. Zərdabda quruculuq, abadlıq işləri aparılır. Eyni zamanda, əvvəlki dövrlərdə Kür boyu yerləşən kəndlərdə modul tipli sutəmizləyici qurğular da quraşdırılıb və insanlar təmiz sudan istifadə edirlər. Digər layihələrin icrası, əminəm ki, Zərdabın gələcək inkişafını təmin edəcəkdir.

Ümumiyyətlə, ölkə miqyasında işlər çox müsbət istiqamətdə gedir. Artıq bir neçə gündən sonra biz 3-cü rübün yekunlarını

müzakirə edəcəyik. Birinci 6 ayın yekunları çox müsbət olmuşdur – iqtisadiyyat, qeyri-neft iqtisadiyyatı artır, sosial məsələlər həll olunur, sovet dövründən qalan əmanətlərin qaytarılması prosesi başlamışdır və deyə bilərəm ki, MDB məkanında ən qısa müddət ərzində qaytarılacaq vəsait məhz Azərbaycanda olacaqdır. Azərbaycanda bu vəsaitlər ən yüksək əmsalla insanlara veriləcəkdir. Digər sosial layihələr icra edilir. Ölkənin ümumi inkişaf dinamikası onu göstərir ki, seçdiyimiz yol düzgün yoldur. Biz bu yolla gedirik, gedəcəyik və elə etməliyik ki, hər bir vətəndaş, hər bir vəzifəli şəxs öz vətəndaşlıq borcunu dərk etsin və ümumi işimizə töhfəsini versin.

Mən əminəm ki, ilin sonuna qədər iqtisadi və sosial göstəricilərimiz müsbət olacaq və 2012-ci ili də biz uğurla başa vuracağıq. Ondan sonrakı dövr üçün də bizim konkret proqramlarımız vardır. 2004-cü ildə regionların birinci sosial-iqtisadi inkişafı proqramının icrası nəticəsində böyük işlər görülmüşdür. Artıq ikinci proqram icra edilir, o da gələn ilin sonuna qədər başa çatacaqdır. Bu proqramın icrası nəticəsində əsas infrastruktur, sosial məsələlər öz həllini tapacaqdır. Ondan sonrakı dövr üçün də bizim konkret konsepsiyamız, baxışlarımız vardır. «Azərbaycan–2020» strateji inkişaf planımız vardır. 2020-ci ilə qədər görüləsi işlər haqqında bizdə çox dəqiq təəssürat vardır və bu proqram üzərində işlər gedir. Biz öz işimizi planlaşdırırıq, proqnozlaşdırırıq. Hər şey plan üzrə gedir – istər xarici siyasətlə, istər daxili siyasətlə bağlı. İqtisadi və infrastruktur layihələrinin icrası bizim işimizin mühüm hissəsidir.

Mən bir daha sizi ürəkdən təbrik edirəm. Biz sizinlə keçən il görüşmüşdük. O vaxt Heydər Əliyev Mərkəzində tamamlanma işləri gedirdi, çox səmimi görüş idi. Mən o vaxt da dedim ki, Zərdabda gedən proseslər daim diqqət mərkəzində olacaqdır. Bir il keçdi, gözəl hadisə münasibətilə yenə də görüşürük. Yenə də deyirəm, bu gün tarixdə qalacaqdır. Onilliklər, bəlkə də yüzilliklər ərzində ilk dəfə olaraq Zərdaba 24 saat təmiz içməli su veriləcəkdir. Əminəm ki, siz hamınız bu gün eyni hissləri keçirirsiniz. Mən də bu hissləri keçirirəm, mən çox sevinirəm, sizi

ürəkdən salamlayıram, təbrik edirəm və sizə cansağlığı, yeni uğurlar arzulayıram.

*«Azərsu» Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz Hüseynov hazırda Bakıda və regionlarda su xətlərinin çəkilişi və kanalizasiya sistemlərinin təkmilləşdirilməsi ilə bağlı görülən işlər barədə məlumat verdi:*

– Möhtərəm Prezident, hörmətli tədbir iştirakçıları.

Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş sosial-iqtisadi inkişaf strategiyası Sizin rəhbərliyinizlə uğurla davam edir. Ölkəmizin sosial-iqtisadi həyatında inkişaf daha da sürətlənmiş və infrastruktur layihələrinin icrasında böyük uğurlar əldə olunmuşdur. Sizin qayğı və diqqətinizin nəticəsidir ki, içməli su təchizatı sektorunda həyata keçirilən layihələr artıq bütün ölkəni əhatə edir və əsas diqqət Azərbaycan vətəndaşlarının sosial rifahının yaxşılaşmasına yönəldilmişdir.

Möhtərəm cənab Prezident, bu gün açılışına toplaşdığımız Küllülü–Zərdab magistral su kəməri Sizin «Azərbaycan əhalisi 24 saat keyfiyyətli su almalıdır» tapşırığınızın icrası istiqamətində atılmış növbəti uğurlu addımdır.

Cənab Prezident, diqqətinizə çatdırmaq istəyirəm ki, Zərdab şəhərində mərkəzləşdirilmiş içməli su sistemi keçən əsrin 80-ci illərinin əvvəllərində yaradılmışdır. Şəhərin təxminən yarısını əhatə edən şəbəkə artıq istismar müddətini başa vurmuşdur. Mərkəzləşdirilmiş şəbəkə olmadığından Zərdab şəhərinin əhalisinin yarısı suya olan tələbatını fərdi qaydada ödəyir. Şəhərdə kanalizasiya şəbəkəsi, ümumiyyətlə, yoxdur.

Möhtərəm cənab Prezident, diqqətinizə çatdırım ki, Zərdab şəhərinin su təchizatı və kanalizasiya sisteminin yenidən qurulması layihəsi üzrə tikinti işlərinə təxminən bir il əvvəl başlanılmışdır. Layihə çərçivəsində Küllülü mənbəyində sugötürücü qurğu tikilmiş və buradan Zərdab şəhərinə 72 kilometr uzunluğunda özüaxımlı magistral su kəməri çəkilmişdir. Bu müddətdə magistral kəmərlə yanaşı, şəhərdaxili şəbəkənin tikintisi də aparılmışdır. İndiyə qədər Zərdab şəhərində 28 kilometr su xətləri, 12 kilometr kanalizasiya xətləri tikilmişdir.

Layihənin icrası nəticəsində Zərdab şəhəri və rayonun 15 kəndində yaşayan 36 min əhalinin içməli su problemi birdəfəlik həll olunacaqdır.

Qeyd edim ki, ilkin layihədə çirkab sularının kənarlaşdırılması üçün 7 nasos stansiyasının inşası nəzərdə tutulmuşdu. İntensiv yağıntılar zamanı nasosxanalar şəbəkəyə toplanan suları kənarlaşdıra bilmir və nəticədə kanalizasiya sisteminin işi pozula bilərdi. Bu amilləri nəzərə alaraq çirkab, yağış və yeraltı suların birgə idarə olunması əsas götürülməklə, layihəyə dəyişikliklər edilmişdir. Zərdab şəhərinin kanalizasiya şəbəkəsi layihəsində nasos stansiyaları ləğv edilmiş, əvəzində özüaxımlı mikrotunellərin tikintisi variantına üstünlük verilmişdir. Bu sistem çirkab suların optimal idarəolunması ilə yanaşı, gələcəkdə yağış və drenaj şəbəkəsinin tikintisi üçün də etibarlı kommunikasiya rolunu oynayacaqdır.

Möhtərəm cənab Prezident, icazənizlə, paytaxt Bakıda və Abşeron yarımadasında, eləcə də regionlarda həyata keçirdiyimiz digər layihələr haqqında qısaca məlumat verim. 2011-ci ilin may ayında təsdiqlədiyiniz «2011–2013-cü illərdə Bakı şəhəri və onun qəsəbələrinin sosial-iqtisadi inkişafı Dövlət Proqramı»na uyğun olaraq, Ceyranbatan ultrasüzgəcli sutəmizləyici qurğusunun, Ceyranbatan–Balaxanı–Ramana–Zirə magistral su kəmərinin, anbar komplekslərinin inşası uğurla davam etdirilir. Qəsəbə və kəndlərin içməli su və kanalizasiya şəbəkəsinin tikintisinə başlanılmışdır. «Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı» çərçivəsində isə 35 rayon mərkəzinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması ilə bağlı tikinti işləri sürətlə davam etdirilir. Bu layihələr çərçivəsində 250-dən artıq kəndə də suyun verilməsi nəzərdə tutulur.

Bir faktı xüsusi qeyd etmək istəyirəm ki, «Azərsu» Açıq Səhmdar Cəmiyyətinin sifarişi ilə 22 rayonda həyata keçirilən layihələr çərçivəsində bu ilin 9 ayı ərzində 140 kilometr magistral su kəməri, 430 kilometr su şəbəkəsi, 55 kilometr

kanalizasiya kollektoru və 230 kilometr kanalizasiya xətti tikilmişdir.

Cənab Prezident, «Azərsu» Açıq Səhmdar Cəmiyyəti tərəfindən ölkə ərazisində qeyri-bərabər paylanmış su ehtiyatlarından səmərəli istifadə, içməli su, kanalizasiya xidmətləri və yağış sularının idarəolunmasını özündə əks etdirən layihələr hazırlanır. Bakı şəhəri və Abşeron yarımadası üzrə «Master plan» yekunlaşmaq üzrədir. Bu konsepsiyanın davamı olaraq bütün ölkə ərazisini əhatə edəcək «Master plan»ın işlənməsinə hazırlıq görülür. Bu «Master plan»da qlobal iqlim dəyişikliyi nəzərə alınmaqla, respublika ərazisindəki yeraltı və yerüstü su ehtiyatları yenidən qiymətləndiriləcəkdir. Layihədə bu ehtiyatlardan əhalinin su təchizatında optimal istifadə variantları da öz əksini tapacaqdır. Artıq bununla bağlı müəyyən tədqiqatlar aparılmış və ilkin təkliflər hazırlanmışdır. Hazırlanmış təkliflər yaxın vaxtlarda Sizə təqdim olunacaqdır.

Möhtərəm cənab Prezident, «Azərsu» Açıq Səhmdar Cəmiyyəti ölkə əhalisini fasiləsiz keyfiyyətli içməli su ilə təmin etmək, kanalizasiya xidmətlərinin yaxşılaşdırılması barədə tapşırıqlarınızı, eləcə də təsdiq etdiyiniz dövlət proqramlarını vaxtında və keyfiyyətlə icra etmək üçün bütün qüvvələrini səfərbər etmişdir. Daim Sizin diqqət və qayğınızı hiss edən çoxminli kollektivimiz etimadınızı doğrultmaq üçün bundan sonra da səylə çalışacaqdır.

**F i r u z ə  Q o c a y e v a** *(Zərdab şəhər 1 saylı məktəb-liseyin müəllimi):* Möhtərəm cənab Prezident, bu gün biz zərdablılar üçün çox sevimli bir gündür. Siz bu gün zərdablılara insan həyatı üçün əvəzsiz olan bir nemət – təmiz su bəxş edirsiniz. İcazə verin rayonumuzun bütün sakinlərinin dərin minnətdarlığını və səmimi təşəkkürlərini Sizə çatdırım.

Həyatımızda təmiz suyun necə böyük əhəmiyyət kəsb etdiyini hamımız yaxşı bilirik. Biz zərdablılar həmişə təmiz sudan korluq çəkmişik. Daim Kür çayının bulanıq və çirkli suyundan istifadə etməyə məcbur olmuşuq. Bu da bizim sağlamlığımıza, həyat şəraitimizə öz mənfi təsirini göstərirdi.

Uzun illər idi ki, biz təmiz su həsrəti ilə yaşayırdıq. Bu gün isə Siz bizi çoxdan gözlədiyimiz arzumuza çatdırmısınız. Tapşırığınızla qısa müddətdə Ağsu rayonundan, uzaq məsafədən Zərdaba bulaq suyu çəkilmişdir. İndi təmiz sudan rayon əhalisinin yarısından çoxu istifadə edəcəkdir. Yeni çəkilmiş bu su xətti Sizin zərdablılara verdiyiniz böyük bir töhfədir. Bu Sizin sakinlərimizin sağlam yaşamasına, ümumiyyətlə, insan amilinə necə yüksək diqqət yetirmənizin və önəm vermənizin bariz bir nümunəsidir.

Möhtərəm cənab Prezident, Siz həmişə insanların qayğıları ilə yaşayırsınız. Harada bir problem, çətinlik görürsünüzsə, həmin anda onu aradan qaldırırsınız. Sizin həyata keçirdiyiniz bütün tədbirlər bizim yaxşı, firavan yaşamağımıza, rifah halımızın yüksəlməsinə xidmət edir. Siz həm də bizim təhlükəsizliyimizin qarantısınız. Bütün Azərbaycan xalqı kimi, biz zərdablılar da bunu hər zaman hiss edir və daim Sizə arxalanırıq.

Mən şahidi olduğum bir məsələni demək istəyirəm ki, 1978-ci ildə ulu öndər Heydər Əliyev, 2010-cu ildə isə Siz Zərdabı və zərdablıları Kür çayının daşması nəticəsində baş vermiş təbii fəlakətdən xilas etmisiniz. Sakinlərimiz o çətin günlərdə dövlətin gücünü və onun rəhbərinin qayğısını bir daha gördülər. Sizin bir çağırışınızla bütün ölkə ayağa qalxmışdı. Doğrudan da heç bir neçə ay keçmədi ki, bütün fəlakət bölgəsində olduğu kimi, Zərdabda da zərər çəkmiş ailələr üçün yeni qəsəbə salındı, sosial obyektlər inşa edildi, insanlara maddi kömək göstərildi. Zərdablılar bütün bunlara görə bir daha Sizə öz dərin minnətdarlıqlarını bildirirlər.

Möhtərəm cənab Prezident, Sizin diqqət və qayğınız sayəsində bu gün Zərdab rayonunda çoxlu işlər görülür, insanları narahat edən problemlər aradan qaldırılır. Şəhərimiz tamamilə qazlaşdırılıb, kəndlərimizə yeni qaz xətləri çəkilir, yollarımız asfaltlanır, yeni təhsil obyektləri tikilib istifadəyə verilir. Yeri gəlmişkən, bir məsələni də qeyd etmək istərdim ki, son illərdə təhsilimizə göstərdiyiniz qayğı xüsusilə yaddaqalandır.

Rayonumuzda təkcə son 3 ildə 13 məktəb binası tikilib istifadəyə verilmiş, 3 məktəb binası hazırda inşa edilməkdədir. Məlumat üçün bildirmək istəyirəm ki, ötən əsrin 80-ci illərindən son dövrlərə qədər isə cəmi 3 məktəb binası tikilmişdi.

Cənab Prezident, şəhərimiz də gündən-günə gözəlləşir, hər tərəfdə geniş abadlıq-quruculuq işləri aparılır, sakinlərimizin istirahəti üçün hər cür şərait yaradılır. Bu gün açılışını etdiyiniz Heydər Əliyev və Gənclər mərkəzləri isə bütün rayon sakinlərinə, xüsusən də gənclərimizə ən böyük hədiyyədir. Bütün bunlar Sizin və Sizinlə çiyin-çiyinə çalışan çox hörmətli Mehriban xanım Əliyevanın rayonumuza, biz zərdablılara göstərdiyiniz yüksək diqqət nəticəsində həyata keçirilən çoxsaylı tədbirlərdəndir.

Cənab Prezident, bizim yaxşı və firavan yaşayışımız üçün gördüyünüz bütün bu həyati əhəmiyyətli işlərə görə Sizə bir daha bütün Zərdab sakinlərinin dərin minnətdarlığını bildirir, Sizə və ailənizə cansağlığı, xoşbəxtlik arzulayıram. Ömrünüz su qədər uzun olsun. Allah Sizi qorusun.

* * *

*Sonra dövlətimizin başçısı veteranlarla görüşdü.*

**V e t e r a n:** Cənab Prezident, Zərdaba xoş gəlmisiniz! Siz həm bizim Prezidentimiz, həm də zərdablısınız. Mən bunu səmimi deyirəm. Mən yaxşı xatırlayıram, vaxtilə bura şoran torpaq idi, burada heç nə yox idi. Allah ulu öndərimiz Heydər Əliyevə qəni-qəni rəhmət eləsin. 1978-ci ildə mən ulu öndərimizlə görüşmüşəm. Mənim əməyimi o mükafatlandırıb.

Mən xoşbəxtəm. Beşinci dəfədir ki, Sizinlə görüşürəm. Axırıncı dəfə «Bibiheybət» məscidinin açılışında görüşmüşük. Bu yaxınlarda Mərdəkana getmişdim. Siz oraya açılışa gəlmişdiniz. Nələr yaradılıb orada?! Biz Sizə minnətdarlığımızı bildiririk. Sizə uzun ömür, cansağlığı arzulayırıq. Siz bizim gözəl, sadə Prezidentimizsiniz. Allah Sizi qorusun!

**İ l h a m Ə l i y e v:** Çox sağ olun.

**V e t e r a n:** Keçən il mayın 6-da Sizin buraya gəlişiniz bizim üçün çox uğurlu, gözəl gün oldu. İnanın, biz Sizi görəndə elə bilirik ki, bütün dünyanı bizə bəxş edirsiniz. Sizin 155 dövlət tərəfindən dəstək almağınız, cənab Prezident, Sizin şəxsinizdə bütün Azərbaycan xalqına verilən qiymətdir. Keçən il öz əllərinizlə mənə verdiyiniz «Tərəqqi» medalına görə Sizə minnətdarlıq edirəm.

Mən əzizimiz Mehriban xanıma, Leyla xanıma da Allahdan cansağlığı arzulayıram. Çünki onlar da Azərbaycanın bütün dünyada tanıdılmasında böyük işlər görürlər.

## MEKSİKA BİRLƏŞMİŞ ŞTATLARI KONQRESİ DEPUTATLAR PALATASININ BEYNƏLXALQ ƏLAQƏLƏR KOMİTƏSİNİN SƏDRİ PORFİRİO MUNYOZ LEDO İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*8 oktyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 8-də Meksika Birləşmiş Ştatları Konqresi Deputatlar Palatasının beynəlxalq əlaqələr komitəsinin sədri Porfirio Munyoz Ledonu qəbul etmişdir.*

*Dövlətimizin başçısı Azərbaycan ilə Meksika arasında ikitərəfli əlaqələrin yüksək səviyyədə olmasından məmnunluğunu ifadə etdi. Son illərdə əməkdaşlığımızın sürətlə inkişaf etdiyini qeyd edən prezident İlham Əliyev ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində fəal əməkdaşlıq etdiyini bildirdi. Dövlətimizin başçısı Azərbaycan ilə Meksika arasında iqtisadi və mədəni əlaqələrin daha da genişləndirilməsi üçün yaxşı imkanların olduğunu dedi. Porfirio Munyoz Ledonun Azərbaycana səfərinin əhəmiyyətini qeyd edən prezident İlham Əliyev ikitərəfli münasibətlərimizin inkişafında parlamentlərarası əlaqələrin önəmini vurğuladı.*

*Prezident İlham Əliyev ilə hələ Avropa Şurası Parlament Assambleyasında tanış olduğunu xatırladan Meksika Birləşmiş Ştatları Konqresi Deputatlar Palatasının beynəlxalq əlaqələr komitəsinin sədri Porfirio Munyoz Ledo Azərbaycana səfərindən məmnunluğunu ifadə etdi. O, ölkəmizdə gedən yüksək inkişaf proseslərinin onda böyük təəssürat yaratdığını dedi.*

**VENESUELA BOLİVAR RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB UQO RAFAEL ÇAVES FRİASA**

Hörmətli cənab Prezident!

Venesuela Bolivar Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Venesuela arasındakı münasibətlər xalqlarımızın mənafelərinə uyğun olaraq dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Venesuela xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *9 oktyabr 2012-ci il*

## DÜNYA BANKININ CƏNUBİ QAFQAZ ÜZRƏ REGİONAL DİREKTORU HENRİ KERALİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*9 oktyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 9-da Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru Henri Keralini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Dünya Bankı arasında 20 illik əlaqələrin inkişafından məmnunluq ifadə edildi, ölkəmizlə əməkdaşlığın böyük potensiala malik olduğu və Dünya Bankının bu əməkdaşlığı daha da dərinləşdirilməkdə maraqlı olduğu vurğulandı, Azərbaycanın əldə etdiyi yüksək iqtisadi uğurların önəmi qeyd edildi.*

*Görüşdə, həmçinin infrastruktur, bərpa olunan enerji, içməli su təminatı, su ehtiyatları və suvarma sistemləri, Xəzər dənizindən suvarma məqsədi ilə istifadə, müasir texnologiyaya əsaslanan kənd təsərrüfatı müəssisələrinin yaradılması, yerlərdə sahibkarlığın inkişafına dəstək, iqtisadiyyatın şaxələndirilməsi, bir sıra sahələrdə islahatların davam etdirilməsi və Azərbaycanın prioritet hesab etdiyi digər istiqamətlərdə əməkdaşlığın daha da genişləndirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

# NAZİRLƏR KABİNETİNİN 2012-ci İLİN DOQQUZ AYININ SOSİAL-İQTİSADİ İNKİŞAFININ YEKUNLARINA VƏ QARŞIDA DURAN VƏZİFƏLƏRƏ HƏSR OLUNMUŞ İCLASINDA İŞTİRAK•

*Prezident sarayı*

*10 oktyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə oktyabrın 10-da Nazirlər Kabinetinin 2012-ci ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclası keçirilmişdir.*

*Dövlətimizin başçısı iclası giriş nitqi ilə açdı:*

– Ölkə iqtisadiyyatı uğurla inkişaf edir və 9 ayın yekunları bunu bir daha əyani şəkildə göstərir. Bütün makroiqtisadi göstəricilərimiz yüksək səviyyədədir, iqtisadiyyatımız 9 ayda 1,1 faiz artmışdır. Ancaq qeyri-neft iqtisadiyyatımız 10,3 faiz artmışdır. Son aylar və illər ərzində bu ən vacib göstəricidir. Çünki məqsədimiz məhz ondan ibarətdir ki, ölkə iqtisadiyyatı çoxşaxəli şəkildə inkişaf etsin. Qeyri-neft iqtisadiyyatının inkişafı imkan verəcəkdir ki, gələcəkdə Azərbaycan neft-qaz amilindən asılılığını xeyli dərəcədə aşağı endirə bilsin.

Bütün bölgələrdə quruculuq-abadlıq işləri aparılır. Yeni sənaye müəssisələri yaradılır. Əminəm ki, qeyri-neft iqtisadiyyatımız ilin sonuna qədər yüksək səviyyədə qalacaq, bu bizə

---

• Назирляр Кабинетинин 2012-ъи илин 9 айынын сосиал-игтисади инкишафынын йекунларына вя гаршыда дуран вязифяляря щяср олунмуш иъласında Mərkəzi Bankın Idarə Heyətinin sədri Elman Rüstəmov, Nəqliyyat naziri Ziya Məmmədov, Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Füzuli Ələkbərov çıxış etdilər.

imkan verəcəkdir ki, gələn il də iqtisadi sahədə şaxələndirmə siyasətimiz uğurla davam etdirilsin.

9 ay ərzində ölkə iqtisadiyyatına 16 milyard dollar sərmayə qoyulmuşdur. Bu çox böyük rəqəmdir. Keçən ilə nisbətən daha böyük rəqəmdir. Nəzərə alsaq ki, hər il təxminən bu səviyyədə investisiya qoyulur, görə bilərik ki, Azərbaycan iqtisadiyyatına nə qədər böyük sərmayə qoyulur. Sərmayələrin əsas hissəsi daxili investisiyalardır, təqribən 70 faizə yaxın. Qalan hissə isə xarici investorların vəsaitidir. Hesab edirəm ki, bu balans da ən optimaldır. Xarici investorlar üçün iqtisadiyyatımız cəlbedicidir, daxili investisiyalar da onu göstərir ki, dövlətin investisiya siyasəti çox uğurludur. Çünki daxili investisiyaların böyük əksəriyyəti dövlət xətti ilə qoyulan vəsaitdir. Özəl sektor da bu investisiya layihələrində uğurla iştirak edir. Özəl sektorun – həm yerli, həm xarici biznes cəmiyyətinin Azərbaycan iqtisadiyyatına böyük inamı vardır. Əgər bu inam olmasaydı, bu qədər investisiya qoyulmazdı.

Deyə bilərəm ki, bütövlükdə özəl sektor ümumi daxili məhsulda öz yüksək çəkisini saxlamaqdadır. Son məlumata görə ölkə iqtisadiyyatının 83 faizi özəl sektorda formalaşıb. Bu da öz növbəsində göstərir ki, Azərbaycanda bazar iqtisadiyyatı prinsipləri tam şəkildə bərqərar olunubdur.

Kənd təsərrüfatı 6,3 faiz artmışdır. Bu da çox gözəl göstəricidir. Bu barədə mən hələ fikirlərimi bildirəcəyəm. Ancaq bəri başdan demək istəyirəm ki, bu sahə həmişəki kimi, prioritet sahə olaraq qalır və gələcəkdə bu sahəyə daha da böyük diqqət göstərilməlidir. Mən çox şadam ki, bir müddət əvvəl verdiyim tapşırıqlar yerinə yetirilir. Kənd təsərrüfatının inkişafı bizə imkan verəcəkdir ki, idxaldan daha da az asılı vəziyyətdə olaq. İş yerlərinin açılması, bölgələrdə sənaye müəssisələrinin fəaliyyətə başlaması birbaşa kənd təsərrüfatının inkişafı ilə bağlıdır. Ona görə, hesab edirəm ki, 6,3 faiz artım çox yaxşıdır. Çalışmalıyıq ki, gələcəkdə bu yüksək templəri saxlayaq.

Ölkəmizin strateji valyuta ehtiyatları ilin əvvəlindən təxminən 5 milyard dollar artmışdır, hazırda 45 milyard dollar səviyyəsindədir. Deyə bilərəm ki, bu, dünya miqyasında çox böyük rəqəmdir və Azərbaycan artıq böyük valyuta ehtiyatlarına malik ölkədir. Ölkənin ərazi ölçülərinə və əhalinin sayına görə, hesab edirəm ki, əgər valyuta ehtiyatlarımızı adambaşına hesablasaq, biz dünya miqyasında ən qabaqcıl yerlərdən birindəyik. Çox sevindirici hal ondan ibarətdir ki, böyük investisiya layihələrinin dövlət xətti ilə həyata keçirilməsinə baxmayaraq, strateji valyuta ehtiyatlarımız azalmır, əksinə, artır. Biz çalışmalıyıq ki, gələcək illərdə müəyyən səviyyədən aşağı düşməyək. Çünki bu bizim ehtiyat mənbəyimizdir. Ancaq baxmayaraq ki, indi dünyada hökm sürən maliyyə böhranı faiz dərəcələrini aşağı salmışdır və bu vəsaitin idarə edilməsi nəticəsində biz hələ ki, o qədər də böyük mənfəət əldə edə bilmirik, ancaq valyuta ehtiyatlarının idarə edilməsi sahəsində yeni istiqamətlər artıq araşdırılır. Beləliklə, vəsaitimizin daha da səmərəli şəkildə mənfəətgətirmə əmsalı, əminəm ki, daha da yüksək səviyyədə olacaqdır.

Bütün bu göstəricilər təsdiq edir ki, iqtisadi sahədə inkişaf çox sürətlidir. Təbii ki, bu inkişaf insanların yaşayış səviyyəsinə də təsirini göstərir. 9 ayda əhalinin pul gəlirləri 12 faiz, inflyasiya isə cəmi 1,5 faiz artmışdır. Gördüyünüz kimi, inflyasiya ilə əhalinin pul gəlirləri arasında 10 faiz fərq vardır və hesab edirəm ki, Azərbaycan bu göstəricilərə görə dünya miqyasında ən qabaqcıl yerlərdədir. Bizim bütün iqtisadi təşəbbüslərimiz və ümumiyyətlə, iqtisadi strategiyamız Azərbaycan xalqının rifah halının yaxşılaşdırılmasına yönəldilmişdir. Biz bu istiqamətdə böyük nailiyyətlərə çatmışıq və bu göstəricilər görülən işlərin məntiqi nəticəsidir.

Sənaye istehsalında vəziyyət o qədər də ürəkaçan deyildir. Mən istəyirəm bu barədə fikirlərimi bir qədər ətraflı bildirim və yaranmış vəziyyətlə bağlı Azərbaycan ictimaiyyəti də məlumatlı olsun. Artıq birinci dəfə deyildir ki, biz Nazirlər Kabinetinin toplantılarında sənaye istehsalı ilə bağlı o qədər də

xoşa gəlməyən rəqəmlər səsləndiririk. Hər rübdən-rübə, ildən-ilə, xüsusilə son bir neçə il ərzində Azərbaycanda ümumi sənaye istehsalı azalır. Bu vaxta qədər biz bunu, sadəcə olaraq, statistik göstərici kimi ifadə edirdik. Daha bunun izahatı ilə biz, demək olar ki, məşğul olmurduq. Hesab edirdik ki, bu, müvəqqəti prosesdir, müvəqqəti məsələdir və bu məsələ öz həllini tapacaqdır, sənaye istehsalı nəinki azalacaq, əksinə, artacaqdır. 9 ayın göstəriciləri isə onu göstərir ki, Azərbaycanda ümumi sənaye istehsalı 3,5 faiz azalmışdır. Ancaq qeyri-neft sənayemiz 7,7 faiz artmışdır. Bir tərəfdən, bu yenə də bizim iqtisadi və sənaye sahələrində apardığımız islahatların məntiqi nəticəsidir. Çünki ölkəmizdə geniş sənayeləşmə prosesi gedir. Bir neçə il bundan əvvəl mənim tərəfimdən bu məsələ ilə bağlı konkret tapşırıqlar verilmişdir və biz bu tapşırıqların gözəl nəticələrini görürük. 7,7 faiz artan qeyri-neft sənayemiz böyük nailiyyətdir. Ancaq neft sənayesinin xeyli dərəcədə aşağı düşməsi bizi, əlbəttə ki, narahat edir. Bu proses – yəni azalma, bu sahədə yaşanan tənəzzül bilavasitə neftin hasilatı ilə bağlıdır. Burada biz məsələni 2 yerə bölməliyik. Çünki Azərbaycanda neftin hasilatı ilə Azərbaycan Dövlət Neft Şirkəti məşğuldur və 1994-cü ildə «Azəri», «Çıraq» yataqları üzrə bağlanmış kontrakt əsasında beynəlxalq konsorsium – Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti yaradılmışdır, operator məhz Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti idi. Ondan sonrakı mərhələlərdə o konsorsiuma daxil olan şirkətlər arasında birləşmə prosesi getdiyi üçün operator funksiyaları *bp* şirkətinə həvalə edilmişdir.

O vaxtdan bu günə qədər neft strategiyamızın icrası sahəsində çox böyük uğurlar əldə edilmişdir.

Biz haqlı olaraq neft strategiyamızla fəxr edirik. Çünki Azərbaycanın uğurlu iqtisadi inkişafı, siyasi çəkisinin artması və dünya proseslərində fəal iştirakı ölkəmizin iqtisadi imkanları ilə bilavasitə bağlı məsələdir. İqtisadi imkanları bizə neft strategiyamız yaratmışdır. O da həqiqətdir ki, biz bu imkanlardan bəzi başqa ölkələrdən fərqli olaraq səmərəli şəkildə istifadə etdik – neft kapitalını qeyri-neft sektorunun

inkişafına yönəltdik. Beləliklə, infrastruktur layihələrinin icrası və digər iqtisadi islahatlar əslində imkan verdi ki, biz bugünkü reallıqlar haqqında xalqa qürur hissi ilə danışa bilək. Ancaq konsorsium tərəfindən buraxılan kobud səhvlər ucbatından son illər ərzində «Azəri», «Çıraq» yataqlarında neft hasilatı kəskin şəkildə aşağı düşməyə başlamışdır. Bu, birinci il deyil ki, neft hasilatı aşağı düşür. Neft sənayesində çalışanlar, neft mütəxəssisləri bilirlər ki, hər bir neft yatağının bir ömrü vardır. Hasilat artır, pik zirvəsinə çatır, sonra müəyyən illər ərzində sabit qalır, ondan sonra tənəzzül başlayır. Bu proses hər bir neft mütəxəssisi üçün çox tanış olan məsələdir. Söhbət ondan getmir ki, biz pik səviyyəsinə çatdıq və ondan sonra, necə deyərlər, tənəzzül prosesləri yaşanır. Söhbət ondan gedir ki, verilən proqnozlar yerinə yetirilmir. Onu da deyə bilərəm ki, «Azəri», «Çıraq» neft yataqları üzrə kontrakt pay bölgüsü əsasında imzalanmışdır. İlkin mərhələlərdə payların bölgüsü bir qədər fərqli idi. Çünki böyük investisiyalar qoyulurdu, xarici investorların payı daha da böyük idi – təxminən 75–25 faiz xaricilərin xeyrinə, əgər belə demək mümkünsə. Onlar öz investisiyalarını qaytardıqdan sonra pay bölgüsü dəyişməyə başlamışdır – 50-nin-50-yə səviyyəsində bölünürdü. 2008-ci ilin ortalarında artıq «Azəri», «Çıraq» neft yataqlarının səmərəliliyini və kontrakt şərtlərini nəzərə alaraq bu pay bölgüsü Azərbaycanın xeyrinə dəyişmiş və hazırda – 2008-ci ilin ortalarından bu günə qədər 75–25 faiz təşkil edir. Hasil edilən mənfəət neftinin 75 faizi Azərbaycanın payına düşür. Bir daha demək istəyirəm ki, kontrakt şərtləri əsasında bu pay bölgüsündə dəyişiklik baş verdikdən sonra «Azəri», «Çıraq» neft yataqlarında neftin hasilatı nədənsə azalmağa başlamışdır.

Sözlərimə konkret rəqəmlər əlavə etmək istəyirəm. Belə ki, 2009-cu ildə «Azəri», «Çıraq» yataqlarında bizə verilən hasilat proqnozu 46,8 milyon ton idi. Faktiki isə 40,3 milyon ton səviyyəsində neft hasil edilmişdir. 2010-cu ildə proqnoz 42,1 milyon ton idi, fakt 40,6 milyon ton olmuşdur. 2011-ci ildə proqnoz 40,2 milyon idi, real hasilat isə 36 milyon. 2012-ci ildə

verilmiş proqnoz 35,6 milyon tondur. İndiki hasilatı nəzərə alaraq belə təxmin etmək olar ki, ilin sonuna qədər *bp* «Azəri», «Çıraq» yataqlarından 33 milyon tondan artıq neft hasil edə bilməyəcəkdir.

Bu rəqəmləri toplayaraq və neftin qiymətini 100 dollar səviyyəsində götürərək – halbuki bu illər ərzində daha yüksək idi – hesablasaq görərik ki, Azərbaycanın bilavasitə əldə edilməmiş gəliri 8,1 milyard dollardır. Bu reallıqdır. Kiçik bir statistik rəqəmin arxasında bu reallıq dayanır. Ona görə ildən-ilə, aydan-aya, rübdən-rübə neft sənayesində istehsalın düşməsi bu vəziyyətin məntiqi nəticəsidir.

Onu da deyə bilərəm və mən artıq bu barədə qeyd etdim ki, «Azəri», «Çıraq» neft yataqlarına böyük investisiyalar qoyulmuşdur. Biz buna görə bütün investorlara minnətdarıq və yenə də deyirəm, bu investisiyalar bizə imkan verdi ki, bu gün Azərbaycan dünya miqyasında ən sürətlə inkişaf edən ölkələrdən biridir. Ancaq istəyirəm ictimaiyyət onu da bilsin ki, bu investisiyalar xeyriyyəçilik funksiyalarını daşımırdı. Bu, sırf biznes layihədir. Yenə də bir neçə rəqəmi səsləndirmək istəyirəm. «Azəri», «Çıraq» neft yataqlarına əvvəldən bu günə qədər *bp*-nin rəhbərlik etdiyi konsorsium tərəfindən 28,7 milyard dollar investisiya qoyulmuşdur. Bu günə qədər konsorsium 73 milyard gəlir götürmüşdür. Böyük mənfəət əldə edilmişdir. Bu mənfəət kontraktın şərtləri əsasında mümkün olmuşdur. Azərbaycan tərəfi də böyük mənfəət götürmüşdür. Bu gün bizim 45 milyard səviyyəsində olan valyuta ehtiyatlarımızın böyük hissəsi Neft Fondunun vəsaitidir. Nə qədər vəsait də son 12 il ərzində xərclənmişdir. Dövlət Neft Fondu 1999-cu ilin sonunda – dekabr ayında yaradılmışdır. O vaxtdan bu günə qədər ölkə iqtisadiyyatına qoyulan vəsaitin, infrastruktur layihələrinə, məktəblərin, yolların tikintisinə, abadlıq işlərinə qoyulan investisiyaların əsas mənbəyi bizim neft sənayemizdir. Ona görə bu, sırf kommersiya layihəsidir. Hesab edirəm ki, bütün vədlər, verilən proqnozlar yerinə yetirilməlidir. Qeyd etməliyəm ki, gözlənilməyən bu tənəzzül

sırf «Azəri», «Çıraq» yataqları üzrə fəaliyyət göstərən konsorsiuma rəhbərlik edən *bp* şirkətinin kobud səhvləri nəticəsində mümkün olmuşdur. Biz *bp* şirkəti ilə uzun illərdir ki, əməkdaşlıq edirik. Onların fəaliyyətini bütün dövrlərdə dəstəkləmişik. Onlar üçün ən ağır günlərdə onları dəstəkləmişik. Biz adekvat münasibət gözləyirik. Bizə verilən səhv proqnozlar qəbuledilməzdir. Dövlət Neft Şirkətinə verilən yalan vədlər qəbuledilməzdir. Dünya biznesində, biznesin bu səviyyəsində belə münasibətlərə yer yoxdur, mümkün deyildir. Biz həmişə bütün tərəfdaşlarla – istər siyasətdə, istər iqtisadi sahədə ədalətli olmuşuq. Həmişə dediyimiz sözlərə əməl etmişik. Biz adekvat münasibət gözləyirik. Mən hesab edirəm ki, bu məsələ ilə bağlı çox ciddi dəyişikliklər edilməlidir. Mən nə üçün bu məsələ ilə bağlı məlumatı məhz bu gün ictimaiyyət üçün açıram? Ona görə ki, keçən ay *bp* tərəfindən mənə rəsmi qaydada söz verilmişdi ki, bütün xoşagəlməz halların qarşısı qısa müddət ərzində alınacaqdır. Bütün səhvlər etiraf edildi. Etiraf edildi ki, vəziyyət çox ürəkaçan deyildir.

Mənə verilən vədlər ondan ibarət idi ki, qısa müddət ərzində çox ciddi dəyişikliklər ediləcək, işçi proqrama düzəlişlər olunacaq, hasilatı sabit səviyyədə saxlamaq üçün əməli tədbirlər görüləcək və ən önəmlisi, bu kobud səhvləri buraxan insanlar dəyişdiriləcəkdir. Ancaq o gündən bu günə qədər təxminən bir ay vaxt keçibdir və mən bu vədlərin yerinə yetirilməsini görmürəm. Əksinə, hesab edirəm ki, burada vaxt uzatma prosesi gedir. Hesab edirəm ki, bu tamamilə dözülməz haldır. Artıq Dövlət Neft Şirkətinə tapşırıq verilmişdir ki, bu məsələ rəsmi qaydada qaldırılsın və lazımi tədbirlər görülsün. Öz vəzifə borcunu, kontrakt şərtlərini yerinə yetirə bilməyən investorlar gərək nəticə çıxarsınlar, ciddi ölçülər, tədbirlər görülməlidir və görüləcəkdir.

Beləliklə, əgər iqtisadi sahədə bu xoşagəlməz hadisələri nəzərə almasaq, vəziyyət, ümumiyyətlə, çox müsbətdir və ölkəmizdə aparılan iqtisadi islahatlar beynəlxalq maliyyə qurumları tərəfindən də yüksək qiymətləndirilir. Keçən rübdə dünyanın ən mötəbər iqtisadi qurumlarından biri olan Davos

İqtisadi Forumu ölkələrin rəqabətqabiliyyətliliyi ilə bağlı yeni cədvəl dərc etmişdir və Azərbaycan o siyahıda 46-cı yerdədir. MDB məkanında 1-ci, dünya miqyasında 46-cı. Keçən ilə nisbətən biz 9 pillə yuxarı qalxmışıq. Bu onu göstərir ki, Azərbaycanın iqtisadi inkişafı və uğurları iqtisadi islahatlarla bağlıdır və bu hesabatda, eyni zamanda, makroiqtisadi vəziyyətlə bağlı cədvəl dərc edilmişdir. Makroiqtisadi sabitliyə görə Azərbaycan dünya miqyasında 18-ci yerdədir. Dünya miqyasında bu sahədə 18-ci yerdə olmaq nə deməkdir, hesab edirəm ki, bunu izah etməyə lüzum yoxdur. Əsas reytinq agentlikləri ki, hazırda Avropanın inkişaf etmiş ölkələrinin kredit reytinqlərini endirirlər, aşağı salırlar, Azərbaycanın kredit reytinqlərini artırırlar. «Fitch», «Standard & Poors», «Moodys» – yəni 3 əsas reytinq agentliyi bizim kredit reytinqlərimizi artırıb və bu da görülən işlər, aparılan islahatlar nəticəsində mümkün olmuşdur. İqtisadi inkişaf prosesi elədir ki, bu inkişafı, irəliləyişi həm gözlə görmək mümkündür, həm də statistik rəqəmlərdə bu öz əksini tapır.

Digər sahələrdə, yenə də deyirəm, sosial məsələlərin həllində də böyük nəticələr vardır. Bildiyiniz kimi, sovet vaxtından qalmış əmanətlərə kompensasiya verilməsi prosesi başlanmışdır və bütün MDB məkanında ən qısa müddət ərzində və ən yüksək əmsalla bu vəsait məhz Azərbaycanda veriləcəkdir. Bu da sosial siyasətimizin nə qədər geniş olduğunu göstərir.

Orta aylıq əməkhaqqı, orta aylıq pensiya artıb və MDB məkanında bu göstərici ən yüksək göstəricilər arasındadır. Müqayisə aparmaq üçün göstəricilər daha çox dollarla hesablanır. Belə ki, Azərbaycanda orta maaş 500 dollara bərabərdir, orta pensiya 190 dollara bərabərdir. Artım sürətlidir, ancaq bu bizi qane edə bilməz. Baxmayaraq ki, müqayisə aparmaq və uğurlarla öyünmək üçün imkan var, hesab edirəm ki, gələcək illərdə bu sahədə daha da böyük uğurlar əldə ediləcəkdir. Bu, davamlı bir prosesdir, pensiiyalar, əmək haqları ildən-ilə qaldırılır. Hazırda Azərbaycanda pensiyalar əmək

haqlarının 40 faizini təşkil edir ki, bu da Avropanın inkişaf etmiş ölkələrinin kriteriyaları səviyyəsindədir.

Regionlarda işlər çox uğurla gedir. Regionlara səfərlərim mənə imkan verir ki, həm vəziyyətlə yaxından tanış olum, həm əlavə göstərişlər verilsin, əlavə vəsait ayrılsın. Bütün bölgələrdə canlanma, inkişaf, infrastruktur layihələrinin icrası, yeni iş yerlərinin açılması prosesi gedir. Bu ilin əvvəlindən 94 min yeni iş yeri açılmışdır ki, onlardan 73 mini daimi iş yeridir. Regionların sosial-iqtisadi inkişafı proqramının əvvəlindən – 2004-cü ildən bəri 1 milyon 100 min iş yeri açılmışdır ki, onlardan 800 mini daimi iş yeridir.

Yenə də deyirəm, bütün başqa sahələrdə, tikinti-quruculuq, sosial infrastrukturun yaradılması istiqamətində böyük nailiyyətlər vardır. İl ərzində 188 məktəb və əlavə korpuslar tikilmiş, 103 məktəb əsaslı təmir edilmişdir. Bu proses həm Bakıda geniş vüsət almışdır, həm də bölgələrdə. Bakı məktəblərinə gəldikdə, gələn tədris ilinə qədər nəinki qəzalı vəziyyətdə, heç bir dənə də olsun təmirsiz məktəb qalmayacaqdır. Bölgələrdə də bu istiqamətdə böyük işlər gedir. Yəqin ki, bölgələrdə bütün məsələni tam şəkildə həll etmək üçün bir qədər çox vaxt lazım olacaqdır.

Keçən rübdə idmançılarımız bizi sevindirdilər. Azərbaycan Olimpiya və Paralimpiya oyunlarında çox böyük nəticələr göstərmişdir. Olimpiyaçılarımız dünya miqyasında 30-cu yerə çata bilmişlər. Medalların sayına görə 24-cü, keyfiyyətinə görə 30-cu yerdədirlər. Avropa ölkələri arasında 15-ci, islam ölkələri arasında 3-cü yerdədirlər. 10 medal qazanmışıq – 2 qızıl, 2 gümüş, 6 bürünc. Böyük tarixi qələbədir. Paralimpiyaçılarımız 27-ci yerə çata bilmişlər. 12 medal qazanmışlar ki, onlardan 4-ü qızıldır. Bu həm bizi sevindirir, fərəhləndirir, həm də ki, ölkəmizin qüdrətini, gənclərimizin potensialını göstərir. Çünki idman hər bir ölkənin ayrılmaz hissəsidir, çox mühüm amildir. İdmanın inkişafı ölkənin ümumi inkişafını göstərir. Adətən, iqtisadi tərəfdən güclü, siyasi sabitliyə malik olan ölkələrdə idman da sürətlə inkişaf edir. İdmanın inkişafı üçün dövlət

vəsaiti, dövlət dəstəyi lazımdır, təlim-məşq prosesi yüksək səviyyədə keçirilməlidir, infrastruktur layihələri lazımdır. Azərbaycanda 35 regional Olimpiya Mərkəzi fəaliyyət göstərir və artıq 10-a yaxın yeni Olimpiya İdman Kompleksi tikilməkdədir.

Bir sözlə, keçən rüb və bu ilin 9 ayı bütün istiqamətlər üzrə ölkə iqtisadiyyatı üçün uğurlu olmuşdur. Beynəlxalq arenada böyük uğurlar əldə edilmişdir. Biz BMT Təhlükəsizlik Şurasının iclaslarında fəal iştirak edir, prinsipial mövqe nümayiş etdiririk. Keçən ilin oktyabr ayında – artıq bir il keçir – biz Təhlükəsizlik Şurasına üzv olduqda, mən o vaxt xalqa müraciətimdə demişdim ki, biz bu qurumda ədaləti və beynəlxalq hüququ müdafiə edəcəyik və bu sözə həmişə olduğu kimi, əməl edirik. Bizim mövqemiz böyük rəğbətlə və böyük hörmətlə qarşılanır. Çünki bir daha demək istəyirəm ki, biz ədaləti və beynəlxalq hüququ müdafiə edirik. Seçkilər zamanı bizə göstərilən dəstək artıq özünü digər formatlarda büruzə verir. Bildiyiniz kimi, Azərbaycanın namizədliyini 155 ölkə dəstəkləmişdir. Bu yaxınlarda «Qoşulmama Hərəkatı»nın zirvə görüşündə 120 ölkə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin yalnız və yalnız ölkələrin ərazi bütövlüyü çərçivəsində həll olunmasına dair qətnamə qəbul etmişdir. Bu bizim növbəti böyük diplomatik uğurumuzdur, Ermənistanın növbəti məğlubiyyətidir. Çünki 120 ölkə dünya ictimaiyyətinin əksəriyyətini təşkil edir. Dünyada 200-dən bir qədər çox ölkə vardır. Bunlardan 120-si ərazi bütövlüyümüzü dəstəkləyir, münaqişənin həllini yalnız bu prinsiplər əsasında görür. Əgər biz NATO-nun Çikaqo sammitinin qərarlarını, bəyannamələrini nəzərə alsaq – təbii ki, NATO-ya üzv olan ölkələr «Qoşulmama Hərəkatı»nın üzvü ola bilməz – orada da Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin yalnız ölkələrin ərazi bütövlüyü prinsipi əsasında həll olunması açıq şəkildə vurğulanmışdır. Bu da ermənilərin növbəti məğlubiyyəti, bizim növbəti uğurumuzdur. Dünya birliyinin dörddə üç hissəsi məsələnin həllini yalnız ərazi bütövlüyü prinsipi əsasında görür.

Əlbəttə, bu çox ədalətli mövqedir və məsələnin həlli üçün başqa mövqe, başqa variant ola bilməz.

O ki qaldı xalqların müqəddəratını təyinetmə prinsiplərinə, ermənilər çalışırlar dünya birliyini çaşdırsınlar, artıq dediyim qərarlar və bəyannamələr bütün bu yalan təbliğatı alt-üst edir. Xalqların öz müqəddəratını təyinetmə prinsipləri ölkələrin ərazi bütövlüyü çərçivəsində həll edilməlidir. Helsinki Yekun Aktının sənədlərində məsələ məhz belə qoyulubdur. Ona görə bütün növbəti diplomatik uğurlar, siyasi qələbələr, bu sahələrdə Ermənistan üzrə mütləq qələbəmiz bizi daha da ruhlandırır və məsələnin həllinə yaxınlaşdırır.

Biz daha da güclü olmalıyıq və oluruq. Beynəlxalq mövqelərimizi möhkəmləndiririk, dünya miqyasında böyük dəstəyə malikik. Mən bu yaxınlarda Azərbaycan Diplomatik Akademiyasının açılışında və ölkəmizin xaricdəki səfirləri ilə görüşdə xarici siyasətlə bağlı strateji baxışlarımı kifayət qədər geniş ifadə etdim, təkrar etmək istəmirəm. Bir şeyi demək istəyirəm ki, biz indi dünyada yeni tərəfdaşlar əldə edirik və görürük ki, bizim üçün, əməkdaşlıq üçün ənənəvi olmayan qitələrdən də Azərbaycana böyük maraq vardır. Xüsusilə Latın Amerikasından. Biz də Latın Amerikası ölkələri ilə çox sıx əlaqələr qururuq və görürük ki, bu əlaqələr çox səmimidir, qarşılıqlı hörmət, qarşılıqlı maraqlar və dostluq əsasında qurulur. Münasibətlər hər bir ölkə ilə məhz bu prinsiplər üzərində qurulmalıdır. Biz bunu dəfələrlə bəyan etmişik. Mən dəfələrlə demişəm ki, Azərbaycan ancaq bərabərhüquqlu münasibətləri qəbul edir. Əgər kimsə fikirləşirsə ki, öz iradəsini bizə qəbul etdirə bilər, səhv edir. Biz ancaq bərabərhüquqlu, qarşılıqlı maraqlar, bir-birinin işinə qarışmamaq prinsiplərini qəbul edirik. Biz Latın Amerikası ölkələri ilə münasibətlərimizi məhz bu prinsiplər əsasında sıx bağlayırıq və hesab edirəm ki, həm xarici siyasət, həm də iqtisadi məsələlərin həlli üçün bu istiqamət çox perspektivlidir. Həm xarici siyasət sektoruna, həm iqtisadi məsələlərlə bağlı olan qurumlara müvafiq tapşırıqlar verilmişdir ki, biz Latın Amerikası ölkələri ilə münasi-

bətlərimizi daha da sürətlə qurmalıyıq. Əlbəttə, ənənəvi tərəfdaşlarla da bizim dostluq münasibətlərimiz vardır. Təbii ki, bu əlaqələr davam etdiriləcəkdir.

## YEKUN NİTQİ

İlin sonuna 3 aydan az bir vaxt qalır. Əminəm ki, qalan müddət ərzində bütün nəzərdə tutulmuş məsələlər öz həllini tapacaqdır. Xüsusilə Dövlət İnvestisiya Proqramının icrası yekunlaşacaq. Çünki Dövlət İnvestisiya Proqramı ölkə iqtisadiyyatının inkişafı üçün, deyə bilərəm ki, əsas rolunu oynayır, ildən-ilə bu proqram böyüyür. Həm həcmi böyüyür, həm yeni istiqamətlər üzə çıxır. Ona görə hesab edirəm ki, ilin sonuna qədər uğurlu iqtisadi inkişafımız davam edəcəkdir. Biz gələn ilin sosial-iqtisadi konturlarını indidən özümüz üçün müəyyən etməliyik. Əslində bunu müəyyən edirik. Elə etməliyik ki, gələn il də makroiqtisadi vəziyyət sabit olaraq qalsın.

Mən giriş sözümdə qeyd etdim ki, hətta dünyanın ən mötəbər iqtisadi qurumlarından biri olan Davos İqtisadi Forumunun hesablamalarına əsasən makroiqtisadi sabitliyə görə Azərbaycan dünya miqyasında 18-ci yerdədir. Əlbəttə, bu çox yüksək göstəricidir. Bu göstərici əslində onu deyir ki, gələcək illərdə də bu sahədə sabitlik olacaqdır. Bu ilin inflyasiyası son illər ərzində ən aşağı səviyyədədir. Çalışmalıyıq ki, gələn il də inflyasiya riskləri minimuma endirilsin. Bunu təmin etmək üçün bizim əlimizdə kifayət qədər geniş mexanizmlər, vasitələr, alətlər vardır. Bu sahədə əldə edilmiş nəticələr xüsusi məna daşıyır. Çünki ölkə iqtisadiyyatına verilən maliyyə ildən-ilə artır. Həm dövlət büdcəmiz artır, eyni zamanda, bu il inflyasiyaya təkan verə biləcək çox ciddi siyasi qərar qəbul edilmişdir. Sovet vaxtından qalan əmanətlərə kompensasiya verilməsi başlanıb və bildiyiniz kimi, hər bir yeni pul kütləsi bazara çıxdıqda istər-istəməz inflyasiya riskləri də artır. Baxmayaraq ki, böyük məbləğdə vəsait artıq vətəndaşlara

verilir, inflyasiya aşağı səviyyədədir. Bu bizim böyük rezervlərimizi, düşünülmüş makroiqtisadi siyasət aparılmasını göstərir və ümumiyyətlə, iqtisadi sahədə bizim düzgün siyasətimizə dəlalət edir.

Ona görə biz bu məsələ ilə daim məşğuluq və müvafiq qurumlar – iqtisadi qurumlar, Mərkəzi Bank məsələni daim nəzarət altında saxlayır. Elə etməliyik ki, gələn il də inflyasiya riskləri minimum səviyyədə olsun.

Biz son aylar təbii fəlakətlərin fəsadlarının aradan qaldırılması ilə də ciddi məşğul olmuşuq. Əfsuslar olsun ki, son illərdə Azərbaycan təbii fəlakətlərlə üzləşir. 2 il əvvəl böyük daşqın baş vermişdir. Bu il böyük zəlzələ baş verdi. Mən zəlzələ zonasında 2 dəfə olmuşam. Zəlzələ baş verdikdə və keçən ay. Artıq işin gözəl nəticələrini gördüm. Həm məktəblər qısa müddət ərzində tikilmişdir, həm də evlər tikilir, bərpa edilir. Bu məqsədlər üçün həm Prezidentin ehtiyat fondundan, həm də dövlət büdcəsindən kifayət qədər böyük məbləğ – 300 milyon manatdan çox vəsait ayrılmışdır. Çalışmalıyıq ki, qalan vəsait də təşkil edilsin ki, qısa müddət ərzində biz bu məsələni tam şəkildə həll edək. Ancaq bu çox böyük iş həcmi deməkdir. Minlərlə ev dağıldı, yararsız vəziyyətə düşdü və Azərbaycan dövləti bu maliyyə yükünü yenə də öz üzərinə götürdü. Mən bu barədə bir neçə dəfə fikirlərimi bildirmişəm. Daşqın, zəlzələ zamanı biz çalışmalıyıq ki, bu sahədə də mütərəqqi təcrübəni Azərbaycanda tətbiq edək. Yəni bunun vaxtı gəlib çatıb və onu da demək istəyirəm ki, heç bir dövlətdə, yəni inkişaf etmiş dövlətlərdə təbii fəlakətlərin fəsadlarının aradan qaldırılması, yəni o mənada ki, evlərin tikintisi heç vaxt dövlət büdcəsi vəsaitinə həll edilmir.

Onlarda bütün evlər sığortalıdır. Hər bir vətəndaş öz evini sığortalayır. Ondan sonra xoşagəlməz hal baş verdikdə sığorta şirkəti onun bütün kompensasiyalarını ödəyir. Əlbəttə, heç kim təbii fəlakətləri proqnozlaşdıra bilməz. Zəlzələ elə şeydir ki, heç bir ölkə onun qarşısını ala bilməz. Ona görə hesab edirəm ki, biz indidən bu məsələ ilə bağlı ciddi məşğul olmalıyıq. Yeni

sistem tətbiq edilməlidir. İnkişaf etmiş ölkələrin təcrübəsi öyrənilməlidir və hökumət yaxın zamanlarda bu məsələ ilə bağlı konkret təkliflər verməlidir. Əlbəttə, cəmiyyətdə maarifləndirmə işləri də aparılacaqdır, digər tədbirlər də görüləcəkdir. Biz bu məsələni birdəfəlik həll etməliyik, çünki hər dəfə dövlət bu məqsədlər üçün 100 milyonlarla manat məbləğində vəsait ayırır. Bu həm dövlət büdcəsinə əlavə yükdür, həm də o qədər də ciddi, sistemli yanaşma deyil. Sadəcə olaraq, biz yenə də öz sosial siyasətimizi aparmaqla, insanların ağır vəziyyətə düşməsini nəzərə alaraq bu addımları atırıq. Əslində artıq hər şey sistemə oturmalıdır və əminəm ki, biz bu sahədə də lazımi sistemi yarada biləcəyik.

Məcburi köçkünlərin yerləşdirilməsi prosesi gedir. Bu il bu məqsədlər üçün Neft Fondundan rekord məbləğ – 300 milyon manat nəzərdə tutulmuşdur. Bu vəsaitlə yeni qəsəbələr salınır. Mən bu qəsəbələrin açılışlarında iştirak edirəm və görürəm ki, doğrudan da biz insanlara sevinc bəxş edirik, onları ağır vəziyyətdən çıxarıb normal şəraitlə təmin edirik. Hesab edirəm ki, biz gələn il də ən azı bu səviyyədə vəsait ayırmalıyıq. 300 milyon manat böyük məbləğdir və gələn il də köçkünlərin yerləşdirilməsi, onların yaşayış səviyyəsinin yaxşılaşdırılması üçün böyük tədbirlər görüləcəkdir. Hələ ki, ağır vəziyyətdə yaşayan köçkünlər vardır. Əlbəttə, «çadır şəhərciyi» anlayışı artıq 5 ildir ki, silinibdir. Ancaq uşaq bağçalarında, hərbi hissələrin ərazilərində, yataqxanalarda kifayət qədər çox köçkün yaşayır. Biz həm onların vəziyyətini yüngülləşdirəcəyik, eyni zamanda uşaq bağçaları ilə də bağlı bizim böyük planlarımız vardır.

İndi Bakı şəhərində bütün uşaq bağçaları təmir edilir və göstəriş verilmişdir ki, yeni bağçalar tikilsin. Çünki mövcud imkanlar tələbatın yalnız 20 faizini ödəyir. Uşaq bağçalarının əksəriyyəti sovet dövründə tikilib. O vaxt əhalinin sayı o qədər çox deyildi. Əhali artır, tələbat artır və valideynlər görəndə ki, artıq uşaq bağçalarında vəziyyət çox yaxşıdır, istəyirlər ki, uşaqlarını oraya versinlər, amma fiziki imkanlar yoxdur.

Əvvəllər uşaq bağçalarının vəziyyəti elə ağır idi ki, heç bir valideyn uşağı oraya vermək istəmirdi. İndi vəziyyət dəyişib. Buna görə gələn ilin İnvestisiya Proqramında uşaq bağçalarının tikilməsi və bəlkə də mövcud bağçaların yanında yeni korpusların inşası məsələlərinə baxmalıyıq. Çünki bu çox əlamətdar haldır ki, – mən daim bunu qeyd edirəm və görürəm – həm məktəblər, həm uşaq bağçaları tikilərkən onların ərazisi çox böyük götürülmüşdür. Bu, sovet dövrünün çox müsbət siyasəti idi. İndi o ərazilərdə yeni korpuslar tikilməlidir və tikilir. Yeni yerlər də müəyyən edilməlidir. Ona görə biz bu məsələlərlə ciddi şəkildə məşğul olacağıq və əminəm ki, növbəti illərdə daha da böyük uğurlar əldə ediləcəkdir.

Regionlarda infrastruktur layihələrinin icrası sürətlə gedir. Artıq biz hər istiqamət üzrə konkret proqramlar çərçivəsində işləyirik. Qazlaşdırma prosesi gedir, mən bölgələrdə olarkən daim maraqlanıram – qazlaşdırma necə gedir, içməli su layihələri necə icra edilir?!

Demək olar ki, hər şey cədvəl üzrə gedir. Bu yaxınlarda biz Zərdab rayonunda artıq birinci içməli su layihəsinin reallaşdırılmasını qeyd etmişik. Artıq bir neçə gündən sonra Zərdab şəhərinin sakinləri təmiz mənbədən götürülən saf içməli suya malik olacaqlar. Bu doğrudan da böyük və tarixi hadisədir. Növbəti müddətdə bütün rayon mərkəzləri, bütün şəhərlər içməli su ilə təmin ediləcəkdir. Bunu etmək üçün konkret tapşırıqlar verilib və bu məqsədlərə çatmaq üçün gələn ilin İnvestisiya Proqramında kifayət qədər böyük məbləğ nəzərdə tutulmuşdur.

Bununla bərabər, regional infrastruktur layihələri ilə bağlı digər istiqamətlər üzrə işlər sürətlə gedir. Həm magistral yollar, həm şəhərlərarası və kənd yolları tikilir. Deyə bilərəm ki, bu il kənd yollarına müasir Azərbaycanın tarixində ən böyük vəsait qoyulmuşdur. Hər bir bölgədə kənd yolları tikilir və onlarla kənd, şəhər, rayon mərkəzləri bir-biri ilə birləşir. Bunun çox böyük mənası vardır. Bu həm sosial məsələdir, biz bunu insanların rahatlığı üçün edirik. Eyni zamanda, iqtisadi

məsələdir. Çünki bir neçə bölgədə mənə müraciət olunarkən qeyd edilirdi ki, əgər kənd yolu çəkilərsə, o zaman bu bölgənin turizm imkanları açılacaqdır. Çünki turizmin inkişafı üçün kənd yolları əsas şərtdir. Nəzərə almalıyıq ki, bizdə turizm yerləri dağlıq ərazilərdədir, bəzi hallarda o gözəl, mənzərəli yerlərə çatmaq üçün insanların imkanı olmur. Ona görə biz bu məsələlərə fərdi qaydada baxırıq. İlin sonunda siyahı tutulur və kənd yollarının bəziləri dövlət büdcəsi, bəziləri isə Prezidentin ehtiyat fondu hesabına tikilir. Biz gələn il də eyni yanaşmanı tətbiq etməliyik.

İnfrastruktur layihələri arasında qazlaşdırma, kənd yolları, içməli su, kanalizasiya məsələləri prioritet təşkil edir. Elektrik xətlərinin çəkilişi məsələləri də prioritet olmalıdır. Biz elektrik enerjisi ilə bağlı son illər ərzində çox ciddi tədbirlər görmüşük, böyük güclər yaradılıbdır, elektrik stansiyaları tikilibdir. Ancaq paylayıcı xətlər bir çox hallarda istənilən səviyyədə deyildir. Ona görə hesab edirəm ki, artıq əsas yükü paylayıcı xətlərə yönəltməliyik, xüsusilə bölgələrdə. Çünki Bakı şəhərində görülən tədbirlər nəticəsində bu məsələ, demək olar ki, əsaslı şəkildə öz həllini tapmışdır. Yeni infrastruktur layihələrinin icrası nəticəsində artıq çox mükəmməl sistem yaranmaqdadır. Bölgələrdə isə paylayıcı xətlər lazımi səviyyədə deyildir. Mən də bunu görürəm – bəzi hallarda taxta dirəklər üzərində qurulur. Külək əsən kimi, həmin dirək aşır, xətt qırılır və insanlar əziyyət çəkirlər. Mən dəfələrlə bu barədə fikirlərimi bildirmişəm. Hesab edirəm ki, gələn il artıq bu sahədə də ciddi dönüş ili olmalıdır. Biz bu məsələ ilə bağlı kompleks tədbirlər görməliyik. Hökumətə tapşırıram ki, konkret proqram təşkil edilsin. İnvestisiya Proqramında bölgələrin paylayıcı xətlərinin bərpası, yenidən qurulması məsələsi də ayrıca maddə ilə öz əksini tapmalıdır.

Ərzaq təhlükəsizliyi ilə bağlı məsələlər də Azərbaycanda uğurla həll edilir. Bu məsələyə biz kompleks şəkildə yanaşırıq, lazımi təhlil aparılır. Bizim daxili imkanlar, daxili bazarın

potensialı araşdırılır və qarşıya məqsəd qoyulmuşdur ki, biz özümüzü yerli məhsullarla maksimum dərəcədə təmin edək.

Bu məsələ ilə bağlı da biz daim fikir mübadiləsi aparırıq. Müvafiq göstərişlər verilmişdir və hesab edirəm ki, gələn il bu istiqamətdə əlavə tədbirlər görüləcəkdir. Əsas ərzaq məhsullarının istehlakı 100 faiz Azərbaycanda istehsal olunan mallar hesabına təmin edilməlidir. Biz buna yaxınıq, bəzi mövqelər üzrə bunu əldə etmişik, bəzi istiqamətlər üzrə artıq hədəfə yaxınlaşırıq. Bölgələrdə yaradılan yeni müəssisələr, emal müəssisələri, südçülük fabrikləri, heyvandarlıq fermaları, çörək zavodları, quşçuluq fabrikləri bizə imkan verir ki, yaxın illərdə hər bir mövqe üzrə daxili tələbatı 100 faiz öz gücümüzə arxalanaraq təmin edək. Bu həm sosial məsələdir, həm ərzaq təhlükəsizliyi məsələsidir, həm də iqtisadi məsələdir, iş yerlərinin yaradılmasına gətirib çıxarır. Burada bir neçə hədəfi nəzərə alırıq və bütövlükdə bu istiqamətdə aparılan işlər məni qane edir. Çünki biz bu işlərə sistemli yanaşmışıq, pərakəndə şəkildə yox. Sistemli təhlil aparılmışdır və biz bu istiqaməti Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə də sahibkarlara göstəririk. Çünki bu alət də çox səmərəlidir. Bu il Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə 200 milyon manat güzəştli kreditlər nəzərdə tutulur, onların böyük əksəriyyəti artıq verilmişdir. Mən göstəriş verdim ki, gələn il biz bu məbləği artıraq və gələn il bu fond vasitəsilə 300 milyon manat məbləğində güzəştli kreditlər verilməlidir. Çünki bu çox vacib sahədir, bu, real iqtisadiyyata qoyulan investisiyalardır, dövlət nəzarəti altında qoyulan investisiyalardır. Ancaq özəl sektor da bu investisiyaları qoyur. Biz bu proqramı icra edərkən həm də özəl sektoru stimullaşdırırıq, ucuz kreditlər verməklə onların fəaliyyətini genişləndirir, daxili istehsalı da stimullaşdırırıq.

Bu çox işlək və səmərəli mexanizmdir. Ona görə hesab edirəm ki, biz məbləği artırmalıyıq. Xüsusilə nəzərə alsaq ki, indi bu fondda yığılan vəsaitin əksəriyyəti əvvəlki illərdə verilmiş kreditlərin qaytarılması hesabına formalaşır. Beləliklə, daha dövlət büdcəsinin vəsaitinə ehtiyac olmayacaqdır. Bir neçə

ildən sonra təqribən 300, bəlkə 500 milyon dollar sərbəst vəsait əldə edəcəyik. Bu vəsait ildən-ilə dövr edərkən biznesi stimullaşdıracaqdır. Hələ 2-3 il ərzində bu istiqamətə büdcə dəstəyi verməliyik. Ondan sonra artıq bu, müstəqil şəkildə öz fəaliyyətini göstərəcəkdir.

İri fermer təsərrüfatlarının yaradılması ilə bağlı verilən göstərişlər yerinə yetirilir. Artıq 2 böyük layihə icra edilməkdədir – biri Ağcabədi rayonunda, digəri Beyləqan rayonunda. İki sahənin ümumi ölçüləri 5000 hektara yaxındır. Bu, yeni bir yanaşmadır və bu barədə biz dəfələrlə danışmışıq. Şadam ki, artıq bu məsələ reallaşır. Bu fermer təsərrüfatlarında məhsuldarlıq çox yüksək olmalıdır. Ən azı 40, bəlkə 50 sentner taxıl istehsal edilməlidir ki, biz növbəti 3-4 ilə bu sahədə – buğda sahəsində də öz tələbatımızı tamamilə daxili resurslar hesabına ödəyə bilək. Belə fermer təsərrüfatlarının yaradılması prosesi sürətlə getməlidir.

İstədiyimiz məqsədə çatmaq üçün təxminən 40–50 böyük fermer təsərrüfatı yaratmalıyıq ki, bu da bizim bu sahədə müstəqilliyimizi tam təmin edəcəkdir. Bunun bir neçə səbəbi vardır.

Birincisi, biz öz torpaqlarımızdan səmərəli şəkildə istifadə etməliyik. İkincisi, biz böyük suvarma-meliorasiya layihələrini icra edirik. Əlbəttə, 10 minlərlə hektar yeni torpaqlar dövriyyəyə buraxılacaq və kəndlilər bundan səmərəli şəkildə istifadə edəcəklər. Digər tərəfdən, bu, yeni iş yerləri, yerli istehsal, iqtisadiyyatın canlanması deməkdir. Belə olan halda biz dünyada baş verən proseslərdən də özümüzü sığortalayacağıq. Çünki hansısa ölkədə bir il quraqlıq olur, bir il taxıl yığımı aşağı düşür. İstər-istəməz bu, istehlak qiymətlərinə təsir edir və bizim vətəndaşlar da ondan sonra bunun əziyyətini çəkirlər. İndi dünyada buğdanın qiyməti xeyli dərəcədə artıb. Çünki ənənəvi ixracatçı ölkələrdə istehsal kəskin şəkildə aşağı düşmüşdür, qıtlıq vardır, quraqlıq olmuşdur. Bu, istər-istəməz qiymətlərin qalxmasına gətirib çıxarır. Bir neçə il budan əvvəl də biz eyni vəziyyətlə üzləşmişdik. İmzalanmış kontraktlar var

idi ki, biz taxılı, buğdanı o kontraktlar əsasında gətirməli idik, artıq icra edilməmişdir, çünki bəzi ölkələr ixracata qadağa qoymuşdur. Biz bu asılılığı da üzərimizdən atmalıyıq, necə ki, bütün başqa sahələrdə asılılığı azaldırıq, bu sahədə də bunu etməliyik. Ona görə İnvestisiya Proqramında bu daha da geniş şəkildə nəzərə alınmalıdır ki, yenə də deyirəm, mən maksimum götürürəm, maksimum hədəf 4 il, 5 il, amma hesab edirəm ki, ondan da tez müddətdə biz bu sahədə də yerli istehsalla özümüzü 100 faiz təmin etməliyik.

Gələn ilin büdcəsi artıq formalaşıb, təqdim edilib. Gələn ilin büdcəsi bu ilin büdcəsindən daha da böyük olacaqdır. Büdcə xərcləri təxminən 20 milyard manat səviyyəsində gözlənilir və bu, kifayət qədər böyük məbləğdir. İcmal büdcə ondan da böyük olacaqdır. İcmal büdcə 30 milyard dollardan da böyük ola bilər. Bu, böyük rəqəmdir və bu rəqəm bizim gücümüzü, ölkə qarşısında duran problemlərin həllinin bizim üçün nə qədər vacib olduğunu göstərir. Biz bu vəsaitdən maksimum səmərə ilə istifadə etməliyik. İldən-ilə artan dövlət büdcəmiz mövcud problemlərin həlli üçün də çox vacibdir. Amma bu, böyük məsuliyyətdir. Elə etməliyik ki, bu məsələ ilə bağlı bütün hədəflər nəzərə alınsın. Xüsusilə İnvestisiya Proqramı tərtib edilsin. Başqa yerlərdən fərqli olaraq biz Dövlət İnvestisiya Proqramını yəqin ki, bu ilin sonunda qəbul etməliyik. Çünki, adətən, hər ilin əvvəlində Dövlət İnvestisiya Proqramını qəbul edirik – təxminən yanvar ayında, ondan sonra vaxt keçir, razılaşmalar aparılır. Təxminən fevralın sonuna yaxın artıq investisiyalar verilməyə başlayır. Vaxt itirməmək üçün biz Dövlət İnvestisiya Proqramını bu ilin sonuna qədər qəbul etməliyik.

Bir neçə kəlmə enerji təhlükəsizliyi ilə bağlı demək istəyirəm. Bu sahədə Azərbaycan öz təhlükəsizliyini tam şəkildə təmin edə bilmişdir. Son ayların çox gözəl hadisələrindən biri ondan ibarətdir ki, «Ümid» yatağından ilkin qaz artıq gətirilmişdir. Bu da çox gözəl göstəricidir. Qaz quyularının debitləri çox yüksəkdir. Birinci quyunun göstəriciləri çox ümidvericidir. Yəni «Ümid» öz adını doğruldur. «Ümid» yatağının Azərbaycan Dövlət Neft Şirkəti

tərəfindən kəşf edilməsi tarixi hadisədir. Çünki son illər ərzində ilk dəfədir ki, Azərbaycan Dövlət Neft Şirkəti təkbaşına böyük qaz yatağının işlənilməsinə nail ola bilmişdir. Hazırda qazın hasilatı gedir, sahilə ötürülür, kondensat hasil edilir. Bu yaxınlarda Neft Şirkəti tərəfindən mənə verilən məlumata görə, «Ümid» yatağından çox keyfiyyətli kondensat hasil edilir.

Bu yatağın çox böyük əhəmiyyəti vardır. Bu bizim enerji təhlükəsizliyimizi daha da möhkəmləndirəcək və ixrac potensialımızı da genişləndirəcəkdir.

Adətən, Azərbaycanın qaz resursları haqqında söhbət aparanda bəzi mütəxəssislər ancaq «Şahdəniz» yatağı haqqında danışırlar. «Şahdəniz» yatağı bizim ən böyük yatağımızdır. Ən azı 1 trilyon 200 milyard qaz ehtiyatları vardır. Dünya miqyasında ən böyük qaz yataqlarından biridir, bəlkə də birincisidir. Ancaq bizim qaz resurslarımız təkcə «Şahdəniz» ilə məhdudlaşmır. Biz gələcək ixrac imkanlarımızı ancaq «Şahdəniz»də olan hasilatla məhdudlaşdırmamalıyıq.

«Ümid» yatağımız Dövlət Neft Şirkəti tərəfindən aşkarlanıb. Orada ən azı 300 milyard kubmetr qaz vardır. «Total» və «Gaz de France» şirkətləri tərəfindən «Abşeron» yatağında böyük qaz ehtiyatları aşkarlanıb. Orada da ən azı 300 milyard kubmetr qaz vardır. Biz öz ixrac strategiyamızı planlaşdırdıqda bu amili mütləq nəzərə alırıq və məhz bunun nəticəsidir ki, Azərbaycan «TANAP» layihəsinin təşəbbüskarı olmuşdur. Çünki bizə elə qaz infrastrukturu lazımdır ki, istənilən həcmi istənilən istiqamət üzrə dünya bazarlarına çıxara bilək. Bizə kiçikölçülü qaz kəməri lazım deyildir ki, təkcə hansısa bir yatağın işlənməsinə xidmət göstərsin, böyükhəcmli qaz infrastrukturu lazımdır. «TANAP» layihəsinin bizim tərəfimizdən irəli sürülməsinin səbəblərindən biri də məhz bundan ibarətdir.

Digər səbəb, onu da siz yaxşı bilirsiniz ki, uzun illər, bəlkə 10 il ərzində müxtəlif layihələr ətrafında diskussiyalar gedir. Biz görürük ki, bu diskussiyalar elə belə gedir, bunun sonu yoxdur. Yığışırlar, danışırlar, konfranslar, tədbirlər keçirilir, sənədlər imzalanır, ortada bir şey yoxdur. Biz belə işləməyə

öyrəşməmişik. Biz konkret işləməyə öyrəşmişik. Görəndə ki, bu diskussiyalar artıq sonsuz xarakter daşıyır, biz konkret qərar verdik, qısa müddət ərzində öz təkliflərimizi irəli sürdük, bütün məsələlər həll olundu. İndi dünyada «TANAP» layihəsinə böyük maraq vardır. «TANAP» layihəsi sırf Azərbaycan tərəfindən irəli sürülmüş təşəbbüs əsasında reallaşacaqdır.

Ona görə enerji təhlükəsizliyi ilə bağlı məsələlər daim diqqət mərkəzimizdədir. Bununla bərabər, Azərbaycanda bərpa olunan enerji növlərinin yaradılması istiqamətində əlavə tədbirlər görülməlidir.

Bir neçə ay əvvəl mən Sumqayıtda günəş panelləri istehsal edən zavodun açılışında iştirak etdim. Hesab edirəm ki, çox gözəl təşəbbüsdür. Bu zavodun fəaliyyəti genişləndirilməlidir. Dövlət qurumları artıq müvafiq qaydada bu zavodun imkanlarından istifadə etməli, o məhsulları almalı və günəş panelləri əsasında yeni stansiyaların tikintisinə nail olmalıdır. Yaxın illərdə yekunlaşacaq. Biz gələn il artıq bu istiqamətdə daha da konkret və ciddi addımlar atmalıyıq.

Nəqliyyat sektorunda aparılan işlər barədə nazir bu gün məlumat verdi. Hər bir istiqamət – avtomobil yollarının, dəmir yollarının bərpası üzrə iş gedir. Bu da çox vacibdir. Çünki biz sürətli dəmir yollarının fəaliyyətinə nail olmalıyıq. Yeni dəmir yolu xətləri o məqsədlə tikilir ki, qatarlar yüksək sürətlə hərəkət edə bilsin. Nəzərə alsaq ki, Azərbaycan yaxın zamanlarda nəqliyyat sahəsində böyük tranzit ölkəsinə çevriləcəkdir, Bakı–Tbilisi–Qars dəmir yolunun tikintisi yekunlaşmaq üzrədir, Azərbaycanın dəmir yolları da yüksək dünya standartlarına cavab verməlidir.

Dəniz limanının, yeni aeroportların tikintisi, təyyarələrin, bərələrin alınması – bütün bunlar həll olunur. Artıq mən qeyd etdim, kənd yollarının tikintisi geniş vüsət almışdır.

Nəqliyyat sektoru gələcəkdə də prioritet məsələlərdən biri olacaqdır. Bakı şəhərinin nəqliyyat şəbəkəsi təkmilləşdirilir və bölgələrdə çox böyük quruculuq işləri aparılır. Mən çox şadam ki, biz bu məsələnin tam həllinə çox yaxınıq. Mən giriş

sözümdə qeyd etdim ki, qeyri-neft sənayemiz 7,7 faiz artmışdır. Bu da ölkədə gedən sənayeləşmə prosesinin bariz nümunəsidir. Biz çalışmalıyıq ki, sənayeləşmə prosesi daha da sürətlə getsin. Biz burada yenə də fəaliyyətimizi 2 istiqamət üzrə qururuq. Bizə irihəcmli, böyük potensiala malik olan sənaye müəssisələri çox lazımdır. Çünki bu bizim qeyri-neft istehsalımızı artıracaq, böyük iş yerlərinin yaranmasına gətirib çıxaracaqdır. Bu barədə mən artıq bir neçə dəfə demişəm, bir daha demək istəyirəm ki, Azərbaycanda bir neçə sənaye mərkəzi yaranır. Ənənəvi olaraq bu mərkəzlərdə ixtisaslaşma getməlidir. Sumqayıt, Gəncə, Bakının Qaradağ rayonu – 3 əsas sənaye mərkəzi yaranmaqdadır. Əlbəttə, digər sahələrdə sənaye məsələləri ilə bağlı inkişaf proqramları vardır, amma əsas sənaye mərkəzləri bu yerlərdə olmalıdır. Yeni texno-parkların yaradılması prosesi gedir. Artıq ilkin gözəl nəticələr vardır, digər fikirlər vardır. Yeni texnoparklar yaradılacaqdır ki, orada böyük müəssisələrin fəaliyyəti nəticəsində kiçik və orta şirkətlərin fəaliyyəti də çox uğurlu ola bilər.

Kiçik, orta sahibkarlığın stimullaşdırılması prosesi gedir, həm Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə, həm digər xətlərlə. Eyni zamanda, iri müəssisələrin yaradılması, onlara dövlət tərəfindən dəstəyin verilməsi məsələləri də çox vacibdir.

Bizim əlimizdə çox güclü alət – enerji müstəqilliyimiz, zəngin enerji resurslarımız vardır. Azərbaycanda qiymətlər dövlət tərəfindən tənzimlənir. Belə olan halda, daxili istehsalı stimullaşdırmaq üçün, əlbəttə, strateji əhəmiyyətli yerli müəssisələrə güzəştli şərtlərlə enerji daşıyıcıları da verilə bilər və verilir. Biz bu məsələ ilə bağlı çox çevik siyasət aparmalıyıq. Hesab edirəm ki, daxili istehsalı gücləndirmək prioritet məsələ olmalıdır. Buna tam şəkildə nail olandan və sənaye sahəsində istədiyimizə çatandan sonra, əlbəttə ki, Ümumdünya Ticarət Təşkilatı ilə danışıqlarımız daha da sürətlə gedəcəkdir.

Bakı şəhəri və onun qəsəbələrinin inkişaf proqramı icra edilir. Çox ciddi, konkret proqramdır. Vaxt baxımından çox qısamüddətli proqramdır. 2 ilə biz Bakı qəsəbələrinin sosial-iqtisadi infrastruktur və digər problemlərini həll etməliyik. Biz

buna yaxınıq. Hələ 1 il vaxt vardır. Əminəm ki, növbəti ilin sonuna qədər bu proqram tam şəkildə yekunlaşacaq və Bakı qəsəbələrində bütün infrastruktur və sosial məsələlərin həllinə nail olacağıq. Artıq verilən tapşırıqlar bunu göstərir. Bütün qəsəbələrdə quruculuq işləri aparılır. İlk növbədə, su-kanalizasiya layihələri icra edilir. Ondan sonra yollar tikilməyə başlanacaqdır. Paralel olaraq qazlaşdırma, məktəblərin, xəstəxanaların, poliklinikaların tikintisi, iş yerlərinin yaradılması prosesi gedir. Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə Bakı qəsəbələrinin iqtisadi inkişafına yönəlmiş layihələr icra edilir. Biz qəsdən belə dar zaman kəsiyini götürdük ki, bu məsələni tezliklə həll edək. Gələn ilin sonuna qədər Bakı və onun qəsəbələrinin inkişafı proqramı tam şəkildə yekunlaşmalıdır.

Şəhərimizin inkişafı ilə bağlı – bunu Bakı sakinləri də görürlər – böyük quruculuq, abadlıq işləri aparılır. Yeni parklar, istirahət zonaları salınır. İnsanların rahatlığı üçün çox böyük işlər görülür. Böyük parkinqlər tikilir və bu məsələ çox vacibdir. Çünki küçələrdə kifayət qədər çox maşın dayanır, bu yolverilməzdir. Digər tərəfdən, biz başa düşməliyik ki, əgər parkinq yoxdursa, maşın sahibi onu haradasa saxlamalıdır?! Ona görə biz bu sahədə, hesab edirəm ki, ədalətli mövqe nümayiş etdiririk. Parkinqlər tikilənə qədər bu məsələyə bir qədər göz yummaq mümkündür. Parkinqlər tikilib istifadəyə verildikdən sonra küçədə 1 dənə də olsun maşın qanunsuz olaraq parkinq etməməlidir. Bütün maşınlar parkinqlərdə saxlanılmalıdır. Biz böyük parkinqlər tikirik. Heydər Əliyev sarayının arxasında 1 kilometr uzunluğunda, 150 metr enində ikimərtəbəli parkinq tikilir ki, orada 4000 maşın saxlamaq mümkündür. Azadlıq meydanının altında böyük parkinq tikilir. Orada ən azı 2000 maşın saxlamaq mümkün olacaq. Mən Hacıbala Abutalıbova tapşırdım ki, şəhərdə digər yerlər müəyyən edilsin. Boş yerlər çoxdur. O yerlərin altında parkinq, üstündə yaşıllıq zonaları və istirahət parkları tikilməlidir. Biz bu məsələlərlə bağlı da çox ciddi məşğuluq.

Bütövlükdə ölkəmizdə bütün proseslər müsbət istiqamətdə gedir. Azərbaycan doğrudan da böyük uğurlara nail olur. Bu yaxınlarda II Bakı Beynəlxalq Humanitar Forumunun keçirilməsi və uğurlu keçirilməsi çox müsbət haldır. Artıq cəmi 1 il ərzində, yəni I forumdan keçən dövr və II forumun yekunları bunu təsdiqlədi. Biz dünya miqyasında çox vacib bir diskussiya meydanını yarada bilmişik. O diskussiya meydanı ki, dünyanın elitası artıq ikinci dəfə Bakıda toplaşır. Bu forum ənənəvi olaraq keçiriləcəkdir. Bu dəfə bu forumda təmsil olunan xadimlərin çıxışları, onların fikirləri həm çox dəyərli idi, həm də onların bu forumda iştirakı tədbirin əhəmiyyətini böyük dərəcədə artırmışdır. 10 sabiq prezident, 11 Nobel mükafatçısı, məşhur professorlar, dünya elm, mədəniyyət elitasının nümayəndələri Bakıda idilər. 600 nəfərdən çox qonaq gəlmişdi. Onlar 62 ölkəni təmsil edirdilər. Bu həm məzmun, həm mahiyyət baxımından vacibdir, eyni zamanda, ölkəmizlə tanış olmaq üçün onlara imkan yaradılmışdır. Forum öz işini yekunlaşdırandan sonra bölgələrə səfərlər təşkil edilmişdir. 4 şəhərə səfərlər təşkil edilmişdir. Qonaqlar Naxçıvan, Lənkəran, Qəbələ və Gəncə şəhərlərinə təyyarələrlə uçdular. Bu da çox əlamətdar bir haldır. Orada bütün infrastruktur, mehmanxanalar vardır, tarixi yerlərlə tanış oldular və Azərbaycan haqqında daha da dolğun təəssürat əldə etdilər. Ona görə bu çox gözəl formatdır və şadam ki, forumun yekunları çox müsbət oldu.

Bununla bərabər, bu il ərzində və keçən il çox ciddi hadisələr baş vermiş, Azərbaycanın dünyadakı rolunu, yerini böyük dərəcədə artırmışdır. Biz «Eurovision» mahnı müsabiqəsinin Bakıda keçirilməsinə təşəbbüs göstərməmişdik. Sadəcə olaraq, müsabiqənin şərtləri belə idi ki, o, qalib olan nümayəndələrin ölkəsində keçirilir. Biz isə onu yüksək səviyyədə keçirmişik. Bəlkə də ən yüksək səviyyədə keçirmişik. Öz mədəniyyətimizi və reallıqlarımızı bütün Avropaya təqdim edə bilmişik.

BMT Təhlükəsizlik Şurasına üzv seçildik. Cəmi 20 il müstəqillik həyatını yaşayan ölkə üçün bu, tarixi nailiyyətdir. 155

ölkə bizi dəstəklədi. «Qoşulmama Hərəkatı»na üzv olduq. Bu da siyasi cəhətdən çox düzgün bir addım idi. Bu yenə də bizim xarici siyasətimizin böyük qələbəsi idi. O təşkilata üzv olmaq və üzv olduqdan sonra cəmi 1 il ərzində Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı, ərazi bütövlüyü prinsipini rəhbər tutan qətnamənin qəbul edilməsinə nail olmaq çox böyük tarixi nailiyyətdir. Biz cəmi 1 il idi ki, o təşkilatda fəaliyyət göstərirdik. Amma bu fəaliyyət o qədər fəal və Azərbaycana olan münasibət o qədər müsbət idi ki, 1 il ərzində 120 ölkə bizim mövqemizi dəstəkləmişdir. Bundan başqa, Olimpiya oyunlarında uğurlarımız. Biz dünya miqyasında aparıcı idman dövlətləri arasındayıq. Bu da reallıqdır. Bütün bu uğurlar bizi sevindirir, düşmənlərimizi isə məyus edir.

Əminəm ki, gələcək illərdə bu meyillər daha da güclənəcəkdir. Bizim hər bir qələbəmiz Ermənistanın faciəsidir. Hər bir uğurumuz onların məyusluğudur. Bizim uğurlarımız hələ çox olacaqdır. Ən böyük uğur o vaxt olacaqdır ki, Azərbaycan bayrağı Şuşada və Xankəndidə dalğalanacaqdır. Mən buna əminəm, buna şübhə etmirəm. Hər birimiz, hər bir vətəndaş o tarixi günü öz işi ilə yaxınlaşdırmalıdır. Sağ olun.

**ƏLCƏZAİR XALQ DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏBDÜLƏZİZ BUTEFLİKAYA**

Hörmətli cənab Prezident!

Əlcəzairin keçmiş Prezidenti, görkəmli dövlət xadimi Şadli Bencədidin vəfatı xəbəri məni son dərəcə kədərləndirdi.

Bu ağır itki ilə əlaqədar Sizə, mərhumun ailəsinə və bütün Əlcəzair xalqına dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *11 oktyabr 2012-ci il*

# DÖVLƏT BAYRAĞI MEYDANINDA VƏ ONUN ƏTRAFINDA GÖRÜLƏN ABADLIQ-QURUCULUQ İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*11 oktyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 11-də Dövlət Bayrağı Meydanında və onun ətrafında görülən abadlıq-quruculuq işlərinin gedişi ilə tanış olmuşdur.*

*Prezident İlham Əliyevə layihə üzrə görülən işlər barədə məlumat verildi. Bakı bulvarının genişləndirilmiş hissəsində paytaxt sakinlərinin və şəhərimizin qonaqlarının asudə vaxtlarını səmərəli keçirmələri üçün ən müasir şəraitin yaradılması istiqamətində işlərin davam etdirildiyi bildirildi.*

*Bakı bulvarının genişləndirilmiş hissəsində həyata keçirilən abadlıq-quruculuq işlərinin gedişi ilə tanış olan prezident İlham Əliyev müvafiq tapşırıqlarını verdi.*

## ÖZBƏKİSTAN RESPUBLİKASININ PREZİDENTİ İSLAM KƏRİMOVUN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*12 oktyabr 2012-ci il*

*Azərbaycan Respublikasına rəsmi səfərə gələn Özbəkistan Respublikasının Prezidenti İslam Kərimovun oktyabrın 12-də rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə raport verdi.*

*President İlham Əliyev Özbəkistan prezidenti İslam Kərimovu qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi Özbəkistan prezidentinə raport verdi.*

*Özbəkistan Respublikasının və Azərbaycan Respublikasının dövlət himnləri səsləndi.*

*Prezidentlər İlham Əliyev və İslam Kərimov Fəxri qarovul dəstəsinin qarşısından keçdilər. Özbəkistan prezidenti Azərbaycan əsgərlərini salamladı.*

*Azərbaycanın dövlət və hökumət rəsmiləri Özbəkistan prezidenti İslam Kərimova, Özbəkistan nümayəndə heyətinin üzvləri isə prezident İlham Əliyevə təqdim edildi.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında dövlət başçılarının qarşısından keçdi.*

## ÖZBƏKİSTAN RESPUBLİKASININ PREZİDENTİ İSLAM KƏRİMOV İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*Prezident sarayı*

*12 oktyabr 2012-ci il*

*Rəsmi qarşılanma mərasimindən sonra oktyabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Özbəkistan Respublikasının Prezidenti İslam Kərimovun təkbətək görüşü olmuşdur.*

*Görüşdə Azərbaycan ilə Özbəkistan arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurlu inkişafından məmnunluq ifadə olundu. Özbəkistan prezidenti İslam Kərimovun Azərbaycana rəsmi səfərinin əlaqələrimizin daha da genişlənməsi baxımından əhəmiyyəti qeyd edildi, iki ölkə arasında münasibətlərin bundan sonra da möhkəmlənəcəyinə əminlik bildirildi.*

*Görüşdə qarşılıqlı maraq doğuran məsələlər barədə fikir mübadiləsi aparıldı.*

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*Prezident sarayı*

*12 oktyabr 2012-ci il*

*Təkbətək görüş başa çatdıqdan sonra oktyabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Özbəkistan Respublikasının Prezidenti İslam Kərimovun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.*

**İ l h a m Ə l i y e v:** Hörmətli İslam Abduqəniyeviç!

Hörmətli qonaqlar!

Sizi Azərbaycanda bir daha ürəkdən salamlayıram. Ölkəmizə xoş gəlmisiniz! Bu gün Sizinlə qarşılıqlı maraq doğuran, regional əhəmiyyətli məsələlərin geniş dairəsi barədə fikir mübadiləsi apardıq. Məmnuniyyətlə qeyd etmək istəyirəm ki, müzakirə edilən bütün məsələlər barəsində baxışlarımız üst-üstə düşür.

*Prezident İlham Əliyev Özbəkistan prezidentinin rəsmi səfərinin ölkələrimiz arasında əməkdaşlığın müxtəlif sahələrdə genişlənməsinə yeni imkanlar açılması baxımından yaxşı nəticələr verəcəyinə əminliyini ifadə etdi.*

Bizim qarşılıqlı fəaliyyətimiz daha sıx, əməkdaşlığımız daha fəal olacaqdır. Özbəkistan bizim üçün dost və qardaş dövlətdir. Münasibətlərimizin dostluq, bərabərhüquqlu tərəfdaşlıq, qarşılıqlı dəstək əsasında daha da möhkəmlənməsi bizi çox sevindirir. Bu dəstək beynəlxalq strukturlarda ölkələrimizlə bağlı bütün məsələlər barəsində bir-birimizi dəstəkləyəndə də hiss olunur. Təbii ki, beynəlxalq qurumların fəal qarşılıqlı təsiri bizim milli maraqlarımızı daha tam qorumağa, habelə dünya siyasətinin bir sıra məsələlərinə dair həmrəy mövqedən çıxış etməyə imkan verir. Həm BMT-də, həm İslam Əməkdaşlıq Təşkilatında, başqa strukturlarda Azərbaycanı dəstəklədiyinə görə biz Özbəkistana çox təşəkkür edirik. Biz də öz

tərəfimizdən Sizin irəli sürdüyünüz bütün məsələlərdə və təşəbbüslərdə Sizi həmişə dəstəkləyirik.

*Prezident İlham Əliyev ölkələrimiz arasında iqtisadi sahədə əməkdaşlığın mövcud potensialından səmərəli istifadə etməyin vacibliyini də vurğuladı.*

Bu gün biz qarşılıqlı iqtisadi fəaliyyət məsələlərini ətraflı müzakirə edəcəyik. Mənim fikrimcə, bu sahədə görüləsi işlər hələ çoxdur. Düzdür, biz irəliləyirik, lakin güman edirəm ki, qarşılıqlı əmtəə dövriyyəsi qat-qat çox ola bilər. Əlbəttə, Hökumətlərarası Komissiyanın bu yaxınlarda keçirilmiş iclası, zənnimcə, bu sahədə prioritetləri və münasibətlərin gələcək inkişaf yollarını müəyyən etmişdir. Yəqin ki, gələcəkdə gözlənilən konkret layihələr və təşəbbüslər barədə bu gün bizə məruzə edəcəklər.

Sizi bir daha ürəkdən salamlamaq istəyirəm. Azərbaycanda Sizi çox sevir, hörmət edirlər. Siz bizim əziz qonağımızsınız. Xoş gəlmisiniz!

**İ s l a m K ə r i m o v:** Cənab Prezident, ümumiyyətlə, təkcə bizim regionda deyil, onun hüdudlarından uzaqda da geosiyasət o qədər tez-tez dəyişir ki, bizim görüşməyimiz zərurətə çevrilir. Özü də bunun üçün hər hansı böyük sənədlərin imzalanması vacib deyil, sadəcə, bizim cavab tapmalı olduğumuz mürəkkəb məsələlər barədə fikir mübadiləsi aparmalıyıq.

*Prezident İslam Kərimov bildirdi ki, Özbəkistan Azərbaycanı özünün strateji tərəfdaşı hesab edir və xalqlarımız arasında oxşar cəhətlərin çoxluğu ölkələrimizi daha da yaxınlaşdıran amillərdəndir.*

Azərbaycan Özbəkistan üçün strateji tərəfdaşdır. Azərbaycan bizə həmişə ilk növbədə, ümumi mənafelərimiz naminə yaxın olmuşdur. Təkcə bugünkü maraqlar baxımından deyil, həm də tarixi keçmişimizlə bağlı, xalqlarımızın dil, mənəviyyat, mentalitet baxımından yaxınlığı ilə əlaqədar mürəkkəb məsələlərin həlli üçün bu tərəfdaşlıq vacibdir. Bizim üçün çox

vacibdir ki, aramızda heç vaxt ziddiyyət, anlaşılmazlıq olmamışdır.

Artıq uzun illərdir ki, mən Özbəkistana rəhbərlik edirəm. Yadıma gəlmir ki, biz hər hansı problemi onun həlli baxımından müzakirə edərkən anlaşılmazlıq və ya ciddi ziddiyyət yaransın. Məgər bu bizim münasibətlərimizin həmişə qarşılıqlı anlaşma və qarşılıqlı dəstək əsasında qurulmasına dəlalət etmirmi?! Ümid edirəm ki, bundan sonra da belə olacaqdır.

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*Prezident sarayı*

*12 oktyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Özbəkistan Respublikasının Prezidenti İslam Kərimovun nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüş başa çatdıqdan sonra Azərbaycan–Özbəkistan sənədlərinin imzalanması mərasimi olmuşdur.*

*«Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Özbəkistan Respublikasının Prezidenti İslam Kərimovun Birgə Bəyanatı»nı Azərbaycan prezidenti İlham Əliyev və Özbəkistan prezidenti İslam Kərimov imzaladılar.*

*«Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və Özbəkistan Respublikasının Xarici İşlər Nazirliyi arasında 2013–2015-ci illər üzrə Əməkdaşlıq Proqramı»nı Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov və Özbəkistanın Xarici İşlər naziri Abdulaziz Kamilov imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti və Özbəkistan Respublikası Hökuməti arasında 2012–2015-ci illər üzrə iqtisadi Əməkdaşlıq Proqramının həyata keçirilməsi üzrə Tədbirlər Planı»nı Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov və Özbəkistanın Baş nazirinin birinci müavini, Maliyyə naziri Rustam Azimov imzaladılar.*

# ÖZBƏKİSTAN RESPUBLİKASININ PREZİDENTİ İSLAM KƏRİMOV İLƏ BİRGƏ MƏTBUAT ÜÇÜN BƏYANATLARLA ÇIXIŞLAR

*Prezident sarayı*

*12 oktyabr 2012-ci il*

*Sənədlərin imzalanması mərasimindən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Özbəkistan Respublikasının Prezidenti İslam Kərimov mətbuata bəyanatlarla çıxış etmişlər.*

## Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli İslam Abduqəniyeviç!
Hörmətli qonaqlar!
Əziz dostlar!

Hörmətli cənab Prezident, Sizi Azərbaycan torpağında salamlamağa şadam. Biz Sizin səfərinizə çox böyük əhəmiyyət veririk və əminəm ki, bu səfərin çox yaxşı nəticələri olacaqdır.

Ölkələrimiz arasında münasibətlər çox dinamik, effektiv və səmərəli inkişaf edir. Sizin gözəl ölkənizə rəsmi səfərlərimi xatırlayıram və Sizin tərəfinizdən mənə, mənim nümayəndə heyətimin üzvlərinə göstərilən qonaqpərvərlik mənim üçün çox qiymətlidir. Qarşılıqlı səfərlər bütün istiqamətlər üzrə ikitərəfli münasibətlərin fəal inkişafına şərait yaradır. Onlar bütün sahələrdə münasibətlərin inkişafına güclü təkan verir və dövlətlərimiz arasında yaranan münasibətlər bizi çox sevindirir. Müstəqillik əldə edəndən sonra keçən 21 il ərzində ölkələrimiz arasında həqiqətən, dostluq, qardaşlıq, strateji tərəfdaşlıq münasibətləri yaranmışdır.

Biz beynəlxalq təşkilatlarda da bir sıra istiqamətlər üzrə fəal qarşılıqlı əlaqə saxlayırıq. Bu mənim üçün çox xoşdur. Biz

iştirak etdiyimiz bütün beynəlxalq qurumlarda, ilk növbədə, Birləşmiş Millətlər Təşkilatında, İslam Əməkdaşlıq Təşkilatında, digər təşkilatlarda bir-birimizi həmişə dəstəkləyirik. Keçən il Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasına seçkilər zamanı Özbəkistandan aldığımız fəal dəstəyə görə çox minnətdarıq. Ölkəmizə qardaşcasına münasibətin daha bir təzahürü olan bu dəstək bizə çox lazım, bizim üçün çox qiymətli idi. Biz Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi məsələsində Özbəkistanın prinsipial mövqeyinə görə də çox təşəkkür edirik. 2008-ci ildə BMT-nin Baş Məclisində Azərbaycanın irəli sürdüyü qətnamənin Özbəkistan tərəfindən dəstəklənməsi də Azərbaycan xalqı tərəfindən yüksək qiymətləndirilmişdir. Biz də bütün beynəlxalq təşkilatlarda qardaş Özbəkistanı həmişə dəstəkləmişik və dəstəkləyəcəyik. Başqa sözlə desək, beynəlxalq arenada bu cür fəal qarşılıqlı əlaqələr, dünya siyasəti məsələlərinə dair mütəmadi fikir mübadiləsi, habelə bizim bu gün apardığımız fikir mübadiləsi də ölkələrimiz və xalqlarımız arasında əlaqələrin çox möhkəm və səmimi olmasına dəlalət edir.

Əlbəttə, ölkələrimiz arasında münasibətlərin zəngin tarixi vardır. Xalqlarımız arasında dostluq, əməkdaşlıq, qarşılıqlı dəstək münasibətləri çoxəsrlik tarixə malikdir. Biz münasibətlərimizi bu zəmin üzərində qururuq. Bu gün biz qarşılıqlı iqtisadi fəaliyyət məsələlərini, regional problemləri də ətraflı müzakirə etdik. Təbii ki, bizim regionların öz spesifikası ilə yanaşı, ortaq cəhətləri də çoxdur. Mənim fikrimcə, Özbəkistanın və Azərbaycanın riskləri minimuma endirmək, əməkdaşlıq və qarşılıqlı anlaşma ab-havasını möhkəmlətmək siyasəti ölkələrimizin yerləşdiyi regionlardakı dövlətlər arasında geniş əks-səda doğurur, habelə vəziyyətin sabitləşməsi məsələsində mühüm rol oynayır. Bu gün həm Özbəkistan, həm də Azərbaycan öz regionlarında sabitləşdirici rol oynayır. İndiki mərhələdə, bizim regionlarda potensial risklərin artdığı vaxtda bu rol xüsusi əhəmiyyət kəsb edir. Buna görə də bizim ölkələrin

yerləşdiyi regionlarda hadisələrin proqnozlaşdırıla bilməsi çox cəhətdən ölkələrimiz arasında qarşılıqlı əlaqələrdən, fəal siyasi məsləhətləşmələr aparılmasından asılıdır. Biz də öz tərəfimizdən regionda etimad tədbirlərini möhkəmlətmək, daha yaxşı qarşılıqlı anlaşmaya şərait yaratmaq və mövcud problemləri tənzimləmək üçün bundan sonra da əlimizdən gələni etməyə çalışacağıq.

Kommunikasiya layihələri sahəsində irəli sürdüyümüz təşəbbüslər də böyük əhəmiyyətə malikdir. Bakı–Tbilisi–Qars dəmir yolu layihəsinin reallaşması yeni, əvvəlkindən xeyli qısa, iqtisadi baxımdan səmərəli nəqliyyat arteriyaları yaratmağa imkan verən nəqliyyat və kommunikasiya layihələri üçün tamamilə yeni şərait yaradır. Həmçinin bu proseslər həmin layihələrə cəlb edilmiş ölkələr arasında qarşılıqlı anlaşma və əməkdaşlıq üçün daha yaxşı şərait yaradacaqdır. Əslində biz Özbəkistanla birlikdə yeni magistral, yeni İpək yolu tikirik. Bu yol qitələri birləşdirəcək, böyük nəqliyyat potensialını, bu potensialın ölkələrimiz üçün reallaşmasını uzun illər ərzində təmin edəcək, bizim regionda etimad tədbirlərini möhkəmlətməyə şərait yaradacaqdır.

Biz müştərək investisiya layihələrini nəzərdən keçirməyə hazırıq. Zənnimcə, bunun üçün yaxşı imkanlar var. Həm Özbəkistan, həm də Azərbaycan çox böyük iqtisadi və maliyyə potensialına, böyük texniki imkanlara malik olan ölkələrdir. Hökumətlərarası Komissiyanın bu günlərdə keçirilmiş iclası da, mənim fikrimcə, iqtisadi əlaqələrin inkişaf yollarını müəyyən etmişdir. Hesab edirəm ki, ölkələrimiz arasında təəssüf ki, hələlik lazımi səviyyədə olmayan əmtəə dövriyyəsinin həcminin artırılmasına dair müştərək layihələrin həyata keçirilməsində bizim istehsalçıları dəstəkləməliyik.

Bu gün biz elm, mədəniyyət, təhsil sahələrində, humanitar sahədə əməkdaşlıqla bağlı məsələlərlə yanaşı, həm də daha geniş planda dünyada bu münasibətlərin necə qurulmalı olması məsələsini, humanitar əməkdaşlıq proseslərində bizim ölkələrin rolu və yeri məsələlərinə konseptual yanaşmanı da hərtərəfli,

çox geniş müzakirə etdik. Bizim ortaq fikrimiz belədir ki, biz öz ölkələrimizdə milli-mədəni irsimizi qoruyub saxlamalı və möhkəmlətməliyik. Gənclər milli ruhda, öz dəyərlərinə, xalqlarımızın çoxəsrlik tarixi ərzində formalaşmış dəyərlərə sədaqət ruhunda tərbiyə edilməlidir.

Sonda demək istərdim ki, müzakirə edilən mövzular və fikir mübadiləsi mövqelərimizin oxşarlığını, deyərdim ki, regional siyasət, dünya siyasəti məsələlərinə mövqemizin identikliyini və ölkələrimiz arasında strateji tərəfdaşlığı möhkəmlətmək əzmində olduğumuzu göstərdi.

Hörmətli İslam Abduqəniyeviç, ölkəmizə səfər etmək dəvətini qəbul etdiyinizə görə Sizə bir daha təşəkkür etmək istəyirəm. Sizə və xalqınıza xoşbəxtlik və firavanlıq arzulayıram.

## Özbəkistan prezidenti İslam Kərimovun bəyanatı

Sağ olun, İlham Heydər oğlu!

Hörmətli kütləvi informasiya vasitələri nümayəndələri!

Əvvələn, Özbəkistan nümayəndə heyətinə göstərilən qonaqpərvərliyə, səmimi qəbula görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə, bütün azərbaycanlı dostlarımıza bir daha səmimi minnətdarlığımı bildirmək istəyirəm.

Mən kütləvi informasiya vasitələrinin burada iştirak edən nümayəndələrinə hər şeydən əvvəl onu bildirmək istərdim ki, biz Özbəkistan nümayəndə heyətinin Azərbaycana bu rəsmi səfərini yüksək səviyyədə görüşlərimizin məntiqi və eyni zamanda, zəruri davamı, ikitərəfli münasibətlərimizin vəziyyətini müzakirə etmək, ikitərəfli və çoxtərəfli əməkdaşlığın ən aktual məsələlərinə dair birgə mövqelərimizi və qərarlarımızı işləyib hazırlamaq, nəhayət, beynəlxalq həyatın ən aktual problemlərinə dair fikir mübadiləsi aparmaq üçün yaxşı bir imkan hesab edirik. Zənnimcə, bu gün onu deməyə ehtiyac yoxdur ki, mövcud vəziyyət təkcə bizim regionlarda – Cənubi Qafqazda və Mərkəzi Asiyada deyil, onların hüdudlarından kənarda da şəraiti sürətlə dəyişir. Təhlükəsizliyə və sabitliyə meydan oxunması, terrorizm

təhdidləri, narkotiklər təcavüzünün miqyasının genişlənməsi ilə əlaqədar yaranmış ciddi problem, davam etməkdə olan qlobal maliyyə-iqtisadi böhranla, bilavasitə onun nəticələri ilə əlaqədar mürəkkəb proseslər bu cür görüşlərin, problemlərə ümumi yanaşma və mövqelərin işlənib hazırlanmasının zəruriliyini şərtləndirir.

Təbii ki, ikitərəfli və çoxtərəfli əməkdaşlıq məsələləri, onların vəziyyəti, əməkdaşlığı daha da fəallaşdırmaq, onun səmərəliliyini, ilk növbədə, ölkələrimiz arasında ticari-iqtisadi münasibətləri fəallaşdırmaq üçün tədbirlər görülməsi perspektivləri bizim görüşdə və danışıqlarda mühüm yer tutmuşdur. Mən İlham Heydər oğlunun bu fikri ilə tam razıyam ki, ilk növbədə, bizim ticarət münasibətlərinin səviyyəsi həm Özbəkistan tərəfini, həm də Azərbaycan tərəfini açıq-aşkar qane etmir. Bizim potensial imkanlarımızdan indiyə qədər  o dərəcədə pis istifadə edilib ki, biz sadəcə, nəticələr çıxarmaqla kifayətlənməyib bu əmtəə dövriyyəsinin həqiqətən, lazımi səviyyədə olması üçün zəruri təsirli tədbirlər görməliyik. Azərbaycanın bizdən müəyyən qədər uzaqda yerləşməsi və bu gün Mərkəzi Asiyanı Cənubi Qafqazla birləşdirən kommunikasiyaların vəziyyəti buna müəyyən dərəcədə mane olur. Bu gün Azərbaycan yeni tranzit kommunikasiya xətlərinin çəkilişi üzrə praktiki olaraq liderdir. İndi Azərbaycan 10–15 il bundan əvvəl sadəcə, ağlasığmaz olan layihələrin ən mühüm təşəbbüskarlarından biridir. Bakı–Tbilisi–Qars dəmir yolu mənim fikrimcə, bu gün tamamilə yeni kommunikasiya istiqamətidir. O təkcə bugünkü vəziyyətdə həlledici rol oynamayacaqdır. Mənim bildiyimə görə, bu yolun yaxın vaxtlarda istifadəyə verilməsi nəzərdə tutulur. Lakin demək istəyirəm ki, sadəcə, Azərbaycanı Özbəkistanla birləşdirən kommunikasiyaları nəzərə alsaq, bu gün Azərbaycan, İlham Heydər oğlunun qeyd etdiyi kimi, Cənubi Qafqazın əsas, aparıcı, mühüm dövlətlərindən biridir. Üstəlik, Azərbaycanın inkişaf sürəti və dinamikası bəlkə də kimlərinsə ciddi həsədinə səbəb olur, Azərbaycanın dostları isə onu tamamilə dəstəkləyirlər. Bunu nəzərə alsaq, bu gün Azərbaycan təkcə iqtisadi inkişaf baxımından, onun malik olduğu zəngin

ehtiyatlardan istifadə edilməsi baxımından lider deyildir. Son illərdə baş verən və indi də davam edən hadisələrə nəzər salsaq, öz təəssüratlarıma əsasən deyə bilərəm ki, mən 4 il bundan əvvəl – 2008-ci ildə burada olmuşam. O vaxtdan 4 il keçib. Bu, praktiki baxımdan çox qısa müddətdir. Lakin mən dünən və bu gün şəhərin bir hissəsini gəzmişəm. Gördüklərim məni sadəcə olaraq, heyran etdi. Bakıda baş vermiş yeniliklər, dəyişikliklər, quruculuq işlərinin miqyası heyrət doğurur. Praktiki olaraq bütün magistral kommunikasiyalar tamamilə yenilənmişdir. Regionlarda Şərq ölkələri üçün bəlkə də qeyri-adi konstruksiyalardan və memarlıq həllərindən istifadə edilməklə aparılan tikinti bir daha belə bir qəti inam yaradır ki, Azərbaycan sadəcə, Şərqin mərkəzlərindən biri deyil, artıq müasir ölkədir, müasir memarlıq həllərinin tətbiq edildiyi müasir sivilizasiyadır. Heç kəs inkar edə bilməz ki, bütün bunlar ilk növbədə, bu gün Azərbaycanda təkcə istehsalın inkişafı, ümumi daxili məhsulun artırılması baxımından deyil, həm də Azərbaycan üçün tamamilə yeni olan ayrı-ayrı sahələrin inkişafı baxımından çox böyük dəyişikliklərə dəlalət edir.

Bu gün Azərbaycan təkcə neft və qaz təchizatçısı deyil, həm də enerji təhlükəsizliyi baxımından çox böyük rol oynayan mühüm ölkələrdən biridir. Bu da çox vacibdir ki, bu gün ölkənin emal müəssisələri, neft və qaz emalı müəssisələri öz sözünü daha inamlı deyir.

Hesab edirəm ki, perspektivdə bu, olduqca mühüm maddə, mən deyərdim, yaxın vaxtlarda Azərbaycanı gözləyən ciddi struktur dəyişikliklərinin istiqaməti olacaqdır. «Struktur dəyişikliyi» nə deməkdir? Bu sadəcə, sənayenin və heç də təkcə neft emalı sənayesinin şaxələndirilməsi deyildir, bütün iqtisadiyyatın şaxələndirilməsidir. Əlbəttə, sosial sahədə baş verən dəyişikliklər daha çox heyrətləndirir – şəhərin bu cür tikilib abadlaşdırılması, Bakıda bu cür dəyişikliklər. Təəssüf ki, bütün Azərbaycanı gəzib-dolaşmaq imkanım yoxdur. Hər halda, nə vaxtsa bunu etmək istərdim. Ümidvaram ki, belə bir imkan mənə nəsib olacaqdır. Mən buna ümid bəsləyirəm.

İlham Heydər oğlu ilə birlikdə tarixi yerləri, əsl Azərbaycan şəhərlərini, kəndlərini gəzmək, kənd sakinlərini, ziyalıları, bu gün Azərbaycanın zəngin olduğu bütün sahələrin nümayəndələrini, ilk növbədə, mənə qəlbən yaxın olan insanları görmək barədə düşünürəm. Belə insanlara rəğbətlə yanaşıram. Çünki onlara böyük hörmət bəsləyirəm. Bu bizim ümumi tariximizdir. Onlar bizim insanlara çox oxşayan, təxminən eyni dildə danışan insanlardır. Mən dünən Azərbaycan melodiyalarını dinləmək üçün böyük məmnuniyyətlə televizoru yandırdım. Zənnimcə, təbiətin özü, bu şəhərlərin və kəndlərin aurası elədir ki, bunu sadəcə, görmək, yaxından tanış olmaq deyil, ən başlıcası bizim ümumi cəhətlərimizin çoxluğuna, bir məqsədə xidmət etdiyimizə bir daha əmin olmaq çox xoş olacaqdır. Başqa məqsəd olmamalıdır, alternativ də yoxdur – münasibətlərimizin tam möhkəmləndirilməsi və deyərdim ki, həm Azərbaycana, həm də Özbəkistana münasibətdə, demək olar, üst-üstə düşən çağırışlara ümumi yanaşmalar, onlara dair ümumi həll yolları olmalıdır. Bunlar o qədər oxşardır ki, İlham Əliyev öz problemlərindən, mən isə öz problemlərimdən danışanda fikirləşirəm ki, bu problemlər mənə tanışdır, bizim problemlərlə tutuşdururam – bunlar, demək olar, bir-birindən az fərqlənən problemlərdir. Həm xarici təhdidlər baxımından, həm də daxildə, ilk növbədə, şəhərlərimizdə, dövlətimizdə təhlükəsizliyi, sabitliyi təmin etmək üçün həll etməli olduğumuz problemlər baxımından. Ən başlıcası isə Bakının timsalında gördüyüm yaradıcı planlar baxımından. Ümidvaram ki, İlham Heydər oğlu bizə gələndə mən də onu sevindirəcəyəm, Daşkənd şəhərinin yeni tikililərini göstərəcəyəm. Əgər vaxt olsa, Səmərqəndə, Buxaraya və Xivəyə gedərik. Xalqlarımızı yaxınlaşdıran cəhətləri, ümumi tariximizi, Azərbaycanın rəhbərinə də, onu müşayiət edəcək şəxslərə də xoş təsir bağışlayacaq çox şeyi görə bilərik. Mən xahiş edirəm ki, Sizin nümayəndə heyətinizdə tamamilə fərqli ixtisaslardan olan insanlar – tarixçilər, dilçilər, ziyalıların nümayəndələri, ümumi yaxınlaşmağımıza xidmət edən şəxslər daha çox olsun.

Azərbaycan və Özbəkistan tərəfləri arasında baş tutmuş, müzakirə etdiyimiz, demək olar, bütün məsələlər üzrə yaxınlığı, mövqelərin üst-üstə düşməsini, hesablamaları təsdiq etmiş danışıqların yekunlarından tam məmnun qaldığımı ifadə etmək istərdim. Azərbaycan prezidenti ilə danışıqlarda Dağlıq Qarabağ problemi ilə bağlı Özbəkistanın mövqeyinin dəyişməz, əsaslı olduğu vurğulanmışdır. Özbəkistan tərəfi bu çoxillik münaqişənin həmişə sülh yolu ilə siyasi həllinə tərəfdar olmuş, tərəfdardır və bundan sonra da tərəfdar olacaqdır və onun Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmasını kifayət qədər uzanmış bu problemin həllinin əsas şərtlərindən biri sayır. Biz bu problemin bütün Azərbaycan üçün, bütün xalq üçün, xüsusən bu gün dədə-baba yurdlarından didərgin salınmış 1 milyon insan üçün nə dərəcədə ciddi bir problem olduğunu başa düşürük. Bax, məsələyə bu prizmadan yanaşsaq, Azərbaycanın bugünkü vəziyyəti, onun qazandığı nailiyyətlər bir daha təsdiq edir ki, ölkə malik olduğu potensialdan, ehtiyatlardan istifadə edərək, son dərəcə çətin bir vəziyyətdə belə bir inkişafı, belə bir inkişaf dinamikasını təmin etmək iqtidarında olmuşdur.

Özü də bütün bunlar ölkədə 1 milyondan çox qaçqının olduğu şəraitdə baş verir. Azərbaycanın özü və başqaları üçün qarşıya qoyduğu hədəfləri yaxınlaşdırmaq, Qarabağ problemini həll etmək üçün bu problemlə hər gün məşğul olmaq lazımdır. Mən Azərbaycan prezidentinin bu bəyanatını tamamilə dəstəkləyirəm ki, Qarabağ problemi həll edilməlidir və həll ediləcəkdir. Bu baxımdan əminəm ki, bu məsələ həm Azərbaycanın, həm də bütün regionun maraqlarına, ola bilsin ki, regionun hüdudlarından kənarda da ümumi maraqlara cavab verir. Ona görə ki, bu məsələnin həlli təkcə Azərbaycana yox, oxşar problemlərin mövcud olduğu bir sıra başqa ölkələrə də aiddir. Hesab edirəm ki, belə bir vəziyyətdə ölkədə bu cür, mən deyərdim ki, köklü dəyişikliklərə nail olmaq qəhrəmanlıqdır. Burada heç bir mübaliğə yoxdur. Bu, əsl qəhrəmanlıqdır, bu qəhrəmanlığı Azərbaycan xalqı göstərir. Mən Azərbaycan xalqını bu gün təkcə iqtisadiyyatın inkişafında, sosial sahənin inkişafında nümayiş etdirdiyi

nailiyyətlər münasibətilə deyil, həm də onun beynəlxalq aləmdə qəbul edilməsinə görə təbrik edirəm. Bir sıra dövlətlərin çox böyük müqavimətinə baxmayaraq, Azərbaycanın 2012–2013-cü illər üçün Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi çox böyük müvəffəqiyyətdir və bu həm iqtisadi həyatda, həm də sosial həyatda məsələnin qoyuluşunun, bugünkü mürəkkəb şəraitdə Azərbaycanın, onun liderinin həyata keçirdiyi siyasətin düzgün olmasını, bu gün dünya siyasətinin həyata keçirilməsində Azərbaycanın oynadığı rolun beynəlxalq aləmdə tanınmasını bir daha təsdiq edir. Mən dünya siyasətinin həyata keçirilməsi sözündən qorxmuram. Mənim fikrimcə, bu bir daha təsdiq edir ki, biz məhdud tərkibdə və bizim nümayəndə heyətlərinin iştirakı ilə danışıqlarda vahid fikrə gəlmişik.

Biz vahid fikrə gəldik və bizim arzumuzu, istəyimizi belə ifadə etmək olar: biz regional və beynəlxalq təhlükəsizliyin təmin edilməsi, dövlətlərimizin davamlı sosial-iqtisadi inkişafı, regionlarımızda sülhün və sabitliyin təmin edilməsi naminə maksimum əlverişli şərait yaradılması üçün bundan sonra da qarşılıqlı əlaqələri möhkəmləndirəcəyik, səylərimizi əlaqələndirəcəyik. Vurğulamaq istəyirəm ki, biz aparıcı beynəlxalq təşkilatlarda Azərbaycan ilə qarşılıqlı fəaliyyətin, qarşılıqlı dəstəyin səviyyəsini yüksək qiymətləndiririk. Burada çox nümunələr göstərmək olar, mən onların barəsində danışmayacağam.

Danışıqların nəticələrinə əsasən qəbul edilmiş Birgə Bəyanatda iqtisadi kooperasiyanın genişlənməsi zərurətinə, bu gün hər iki dövlətin malik olduğu böyük ehtiyatlardan istifadə edilməsinə xüsusi diqqət yetirilmişdir. Bu gün 2013–2015-ci illər üçün iqtisadi əməkdaşlıq proqramının yerinə yetirilməsi tədbirləri haqqında müqavilə imzalanmışdır. Bu, haqqında bəhs etdiyimiz məsələlərin qoyuluşunun real olduğunu təsdiqləyən faktlardan biridir. Biz razılaşdıq ki, lap yaxın vaxtlarda səmərəli iclası keçirilmiş hökumətlərarası komissiyanın fəal işi bu məsələdə əlaqələndirici mexanizm olmalıdır.

Son illərdə Bakıda və Daşkənddə milli sərgilərin keçirilməsini qeyd etmək istərdim. Bu sərgilər, xüsusən bizim iqtisadiyyatların

bir-birini qarşılıqlı tamamladığı sahələrdə əməkdaşlığın genişlənməsinə Özbəkistanın və Azərbaycanın işgüzar dairələrinin çox böyük marağını göstərdi. Biz ölkələrimizin çox zəngin nəqliyyat-kommunikasiya-tranzit potensialından daha səmərəli, qarşılıqlı faydalı istifadə edilməsi üçün ikitərəfli və çoxtərəfli formatda işi davam etdirmək barədə razılığa gəldik. Biz ölkələrimiz arasında lazımi əməkdaşlığın mühüm istiqaməti və onun möhkəmləndirilməsi mənbəyi kimi mədəni-humanitar sahədə əməkdaşlığa çox böyük əhəmiyyət veririk.

Mən Azərbaycan prezidenti İlham Əliyevi onun üçün münasib vaxtda, öz imkanlarını və iş qrafikini nəzərə almaqla, Özbəkistana rəsmi səfərə dəvət etməyimizi sizin iştirakınızla bir daha təsdiqləmək istəyirəm. Ümid edirəm ki, bu, xüsusi səfər olacaqdır, çünki İlham Heydər oğlunun Daşkəndə gəlişindən artıq 2 il keçib. Yadımdadır, o vaxt biz ümumi sərvətlərimizə abidənin açılışını etmişdik. Fürsətdən istifadə edib, bir daha demək istəyirəm ki, biz burada, Bakıda Əlişir Nəvaiyə və Daşkənddə Nizami Gəncəviyə ucaldılmış abidələrə görə, ilk növbədə, Azərbaycan prezidentinə, Azərbaycan ziyalılarına həmişə minnətdarıq. Mən onu nəzərdə tuturam ki, Bakıdakı küçələrdən birinə bizim böyük alim Mirzə Uluqbəyin adı verilmişdir. Bunu minnətdarlıqla qeyd edirik. Uluqbəy də Səmərqəndin fəxri idi. Daşkəndin küçələrindən birinə Azərbaycanın böyük oğlunun adı verilmişdir. Mən bu insanı yaxından tanıyırdım və hələ də ona heyranam. Mən onun müdrikliyinə, dözümlülüyünə və ən başlıcası, uzaqgörənliyinə heyranam. Əsasını bu insanın qoyduğu siyasəti onun oğlu həyata keçirir. Azərbaycanda varislik siyasətinin həyata keçirilməsi çox vacibdir. Bizim dövlətlər arasında bugünkü müasir münasibətlərin təməlini Heydər Əliyev qoymuşdur və mən İlham Heydər oğluna təşəkkür edirəm ki, o, atasından bu cür tərbiyə, bu cür nəsihətlər alaraq Özbəkistanla Azərbaycan arasında, bizim xalqlarımız arasında münasibətlərin daha da möhkəmlənməsi kimi çox nəcib işi davam etdirir.

Diqqətinizə görə sağ olun.

## ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ QƏBULDA İŞTİRAK

*12 oktyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 12-də Azərbaycan Respublikasında rəsmi səfərdə olan Özbəkistan Respublikasının Prezidenti İslam Kərimovun şərəfinə rəsmi ziyafət vermişdir.*

*Dövlət başçıları ziyafətdə çıxış etdilər.*

### Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Hörmətli İslam Abduqəniyeviç!

Hörmətli qonaqlar!

Əziz dostlar!

İslam Abduqəniyeviç, Sizi bir daha Azərbaycanda salamlamaq istəyirəm. Dəvətimi qəbul edib rəsmi səfərə gəldiyinizə görə minnətdarlığımı bildirirəm. Biz bu səfərə böyük əhəmiyyət veririk. Əminəm ki, bu səfər ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin möhkəmlənməsinə daha güclü təkan verəcəkdir. Xalqlarımızı ümumi tarix, çoxəsrlik dostluq və qarşılıqlı dəstək, qarşılıqlı rəğbət birləşdirir. Biz artıq bu möhkəm əsas üzərində dostluğumuzu və əməkdaşlığımızı qurmuşuq.

Münasibətlərimizin dərin kökləri Azərbaycan ilə Özbəkistan arasında bugünkü inkişafımız üçün münbit mənbədir. Müstəqil dövlətlər kimi, ölkələrimiz uğurla inkişaf edir, öz regionlarında aparıcı rol oynayır. Bu prosesləri təhlil edərkən görürük ki, münasibətlərimizin bünövrəsini, İslam Abduqəniyeviç, Siz və Azərbaycanın ümummilli lideri Heydər Əliyev qoymuşdur. Məhz Sizin müdrikliyiniz, dostluğunuz, uzaqgörənliyiniz və siyasi məharətiniz Özbəkistan ilə Azərbaycan arasında bugünkü

gerçəklikləri yaradır. Biz bu ənənələrə sadiqik və mən öz tərəfimdən əlaqələrimizi inkişaf etdirmək və möhkəmləndirmək, qarşılıqlı fəaliyyət zonasını genişləndirmək üçün əlimdən gələni edirəm. Bu gün keçirilən ikitərəfli görüşlər və dünya siyasəti üzrə aparılan danışıqlar münasibətlərimizin strateji xarakterini təsdiq edir.

Ölkələrimiz arasında ikitərəfli əlaqələr uğurla inkişaf edir. Azərbaycan ilə Özbəkistan beynəlxalq təşkilatlarda bir-birinə qarşılıqlı dəstək verir. Ölkələrimiz arasında iqtisadi, nəqliyyat infrastrukturu və digər sahələrdə əməkdaşlığın dərinləşməsi üçün yaxşı potensial var və bu, Avropa ilə Asiya arasında əlaqələrin genişlənməsinə də xidmət edir.

Biz Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması məsələsində şəxsən Sizə və Özbəkistan xalqına prinsipial mövqeyə görə minnətdarıq. Azərbaycanda bunu bilirlər və yüksək qiymətləndirirlər. Münaqişənin ərazi bütövlüyü prinsipi əsasında həll olunması ilə bağlı Sizin dəstəyiniz Azərbaycanda çox müsbət qəbul olunur. Bu cür münasibətlər ədalətlidir, beynəlxalq hüququn normalarına əsaslanır, həmçinin bu münasibət qardaşlığın sübutudur. Mən əminəm ki, bu münaqişənin ərazi bütövlüyü prinsipi əsasında nizamlanmasının geniş beynəlxalq dairələr tərəfindən dəstəklənməsi Azərbaycan ərazilərində işğala son qoyulmasının və sülhün bərpa edilməsinin başlanğıcı olacaqdır.

*Prezident İlham Əliyev İslam Kərimovun rəhbərliyi altında Özbəkistanın siyasi, iqtisadi, sənaye, ölkənin ixrac imkanlarının artırılması və digər sahələrdə əsaslı inkişaf yolu keçdiyini, böyük uğurlar qazandığını vurğuladı. Dövlətimizin başçısı ölkələrimiz arasında münasibətlərin möhkəmlənməsində xalqlarımızın milli-mənəvi dəyərlərimizə söykənən əlaqələrinin mühüm rol oynadığını vurğuladı.*

Biz həmçinin çox bəyənirik ki, Özbəkistanın müasir inkişafı milli-mənəvi dəyərlərə əsaslanır. Siz bu gün bu barədə çox dəqiq və aydın danışdınız. Mən əvvəlki görüşlərimizi də xatırlayıram, biz həmişə bu mövzuya toxunmuşuq. Ölkələrimizin və

xalqlarımızın dünya xəritəsində rolu və yeri barədə söhbət açmışıq. Məhz bizim milli ənənələrimizin qorunması, möhkəmləndirilməsi, bu ənənələrin gənc nəslə çatdırılması və xalqlarımızın mənəvi dəyərlərinin qorunması məsələsini tam qarşılıqlı anlaşma ruhunda müzakirə etmişik.

**Özbəkistan prezidenti İslam Kərimovun çıxışı**

Hörmətli İlham Heydər oğlu!

Hörmətli azərbaycanlı dostlarımız!

Mən nümayəndə heyəti adından, burada iştirak edənlərin adından Sizə dediyiniz xoş sözlərə görə, ilk növbədə, bizim, hansı ki 1 il deyil, 1 əsr deyil, uzun müddət davam edən əməkdaşlığımıza, səmimi dostluğumuza verdiyiniz qiymətə görə ürəkdən təşəkkür etmək istəyirəm.

*2008-ci ildə ölkəmizə səfərini məmnunluqla xatırladan prezident İslam Kərimov respublikamıza indiki səfəri zamanı Azərbaycanda daha böyük inkişafın şahidi olduğunu dedi. Özbəkistan dövlətinin başçısı respublikamızın paytaxtında sürətli inkişafın getdiyini, nəhəng tikinti, yenidənqurma və abadlıq işlərinin aparıldığını, Bakının daha da gözəlləşdiyini vurğuladı.*

Mən Sizi, Azərbaycanın liderini, bütün Azərbaycan rəhbərliyini və hamınızı, əziz dostlar – Siz bu cür müraciəti qəbul edirsinizsə, Sizə başqa cür müraciət edə bilmirəm – məncə, hələ Heydər Əliyev dövründə başlayan quruculuq prosesinin nəinki davam etməsi, artıq həm də yeni mərhələyə qədəm qoymuş inkişaf dinamikası münasibətilə təbrik etmək istəyirəm.

Mən ötən əsrin 30-cu illərini xatırlatmaq istəyirəm. Həmin dövrdə kütləvi repressiyalar, terror, ədalətsizlik vaxtı 10 minlərlə azərbaycanlı Özbəkistanda sığınacaq tapdı. Qonaqpərvər və dost özbək xalqı deportasiya olunanları özlərinin doğmaları kimi qəbul etdi, bir tikə çörəklərini onlarla bölüşdü. Bu gün onların övladları olan 40 mindən çox azərbaycanlı

ölkəmizin bir çox xalqları və millətləri ilə dinc yanaşı yaşayır, suveren Özbəkistanın inkişafına layiqli töhfələrini verirlər. Bu gün təkcə son illər ölkəmizin 27 azərbaycanlı nümayəndəsinin – alimlərin, müəllimlərin, inşaatçıların, hərbi xidmətçilərin, ümumxalq məhəbbəti qazanmış mədəniyyət və incəsənət xadimlərinin yüksək dövlət mükafatlarına və adlarına layiq görülməsi onların bizim cəmiyyətdə layiqli rol oynadıqlarına əyani sübutdur.

*Özbəkistan dövlətinin başçısı Azərbaycanın müasir tarixində ulu öndər Heydər Əliyevin müstəsna xidmətlərini xüsusi vurğuladı.*

Bu gün ildən-ilə yeni görkəm alan gözəl, bənzərsiz Bakını gəzərkən mən Azərbaycan xalqının görkəmli oğlu Heydər Əliyevə onun sadəcə, insani keyfiyyətlərinə, müdrikliyinə, uzaqgörənliyinə və güclü siyasi iradəsinə görə dərin ehtiramımı bildirmək istəyirəm. O, böyük həyat yolu keçmiş insan idi.

*Prezident İslam Kərimov Azərbaycan ilə Özbəkistan arasında iqtisadi və ticari əlaqələrin genişləndirilməsi üçün hər iki ölkənin böyük potensial imkanlara malik olduğunu dedi. Özbəkistan dövlətinin başçısı ölkələrimiz arasında ikitərəfli münasibətlərin inkişafı üçün yaxşı perspektivin olduğunu bildirdi və bundan sonra da əlaqələrimizin daha da möhkəmlənəcəyinə əminliyini ifadə etdi.*

## DÖVLƏT BAYRAĞI MEYDANINI VƏ HEYDƏR ƏLİYEV MƏRKƏZİNİ ZİYARƏT

*12 oktyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və ölkəmizdə rəsmi səfərdə olan Özbəkistan Respublikasının Prezidenti İslam Kərimov oktyabrın 12-də Dövlət Bayrağı Meydanında olmuşlar.*

*Sonra dövlət başçıları Heydər Əliyev Mərkəzinə gəldilər. Prezident İlham Əliyev dünya memarlığının nadir incilərindən sayılan Heydər Əliyev Mərkəzi barədə Özbəkistan dövlətinin başçısına məlumat verdi. Qeyd edildi ki, 2007-ci ildə bünövrəsi qoyulan Mərkəz bu il mayın 10-da – ulu öndər Heydər Əliyevin doğum günündə açılmışdır. Mərkəz 16 hektar ərazidə yerləşir. Burada əsaslı abadlıq və yaşıllaşdırma işləri aparılmışdır. Bu mədəniyyət ocağı dünya şöhrətli memar Zaha Hadidin layihəsi əsasında tikilib. Beynəlxalq səviyyədə nadir memarlıq nümunələrindən biri olan, müasirliyi özündə dolğun ehtiva edən və çoxfunksiyalılığı ilə seçilən bu Mərkəz artıq dünya memarlığı siyahısına daxil edilmişdir.*

*Özbəkistan prezidenti İslam Kərimovun diqqətinə çatdırıldı ki, ulu öndərin tükənməz irsinin təbliği baxımından mühüm əhəmiyyət kəsb edən Heydər Əliyev Mərkəzində rəsmi qəbullar, müxtəlif beynəlxalq səviyyəli konfranslar, iclaslar, mədəniyyət və digər tədbirlərin keçirilməsi üçün hər cür şərait yaradılmışdır. Qeyd edildi ki, Mərkəzin açılışından sonra burada bir neçə yüksək səviyyəli, o cümlədən beynəlxalq tədbir keçirilmişdir.*

*Ali qonaq Heydər Əliyev Mərkəzindən zəngin təəssüratla ayrıldı.*

## ABŞ DÖVLƏT KATİBİNİN AVROPA VƏ AVRASİYA MƏSƏLƏLƏRİ ÜZRƏ MÜŞAVİRİ ERİK RUBİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*13 oktyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 13-də ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə müşaviri Erik Rubinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə inkişafından məmnunluq ifadə edildi, iqtisadi sahədə əlaqələrimizin daha da genişləndirilməsi üçün böyük imkanların olduğu vurğulandı.*

*Görüşdə, həmçinin ölkələrimiz arasında enerji sahəsində yüksək səviyyəli əməkdaşlığın önəmi qeyd olundu, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı danışıqların hazırkı vəziyyəti və digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## UEFA-nın PREZİDENTİ MİŞEL PLATİNİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*13 oktyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 13-də UEFA-nın prezidenti Mişel Platinini qəbul etmişdir.*

*Görüşdə FİFA U-17 qadınlararası futbol üzrə dünya çempionatının Azərbaycanda yüksək səviyyədə təşkil olunmasından məmnunluq ifadə edildi, yarışların ölkəmizdə böyük maraqla izlənildiyi bildirildi.*

*Görüşdə, həmçinin Azərbaycanda idmanın bütün növlərinin, o cümlədən futbolun inkişaf etdirilməsi istiqamətində həyata keçirilən məqsədyönlü tədbirlərin önəmi vurğulandı.*

## FUTBOL ÜZRƏ «FIFA U-17 QADINLARARASI DÜNYA ÇEMPİONATI AZƏRBAYCAN–2012»nin FİNAL OYUNUNDA İŞTİRAK

*Tofiq Bəhramov adına Respublika stadionu*

*13 oktyabr 2012-ci il*

*Azərbaycan prezidenti İlham Əliyev oktyabrın 13-də Bakıda Tofiq Bəhramov adına Respublika stadionunda futbol üzrə «FIFA U-17 qadınlararası dünya çempionatı Azərbaycan–2012»nin final oyununa baxmışdır. Finalda Fransanın və Koreya Xalq Demokratik Respublikasının komandaları qarşılaşmışdı.*

*Avropa Futbol Federasiyaları Assosiasiyasının prezidenti Mişel Platini, FIFA İcraiyyə Komitəsinin üzvü Lydia Nsekera, beynəlxalq və milli futbol qurumlarının rəhbərləri də final oyununu izləmişlər.*

*Mundialda Fransa komandası qalib gəldi.*

*Həlledici oyunun əsas hissəsi komandaların bərabərliyi (1:1) ilə başa çatdı. Oyundan sonrakı penalti zərbələrini daha dəqiq yerinə yetirən (7:6) Fransa futbolçuları «FIFA U-17 qadınlararası dünya çempionatı Azərbaycan–2012»nin kubokuna sahib oldu.*

*Sonra təntənəli mükafatlandırma mərasimi keçirildi.*

*Əvvəlcə final oyununun hakimləri mükafatlandırıldılar.*

*«Fair play» – ədalətli oyun mükafatına Yaponiya komandası layiq görüldü.*

*Daha sonra çempionatın ən məhsuldar futbolçusu, ən yaxşı qapıçısı və ən yaxşı oyunçusu mükafatlandırıldı.*

*Çempionatı üçüncü yerdə başa vuran Qana millisinə bürünc medallar təqdim olundu.*

*Final oyununda məğlub olan Koreya Xalq Demokratik Respublikasının komandası gümüş medallarla mükafatlandırıldı.*

*Mundialın qalibi Fransa yığmasına qızıl medallar və dünya çempionatının kuboku təqdim olundu.*

*Mükafatları Azərbaycan prezidenti İlham Əliyev, UEFA-nın prezidenti Mişel Platini, FIFA İcraiyyə Komitəsinin üzvü Lydia Nsekera və başqaları təqdim etdilər.*

*Mükafatlandırma mərasimindən sonra yaşıl meydançadakı səhnəyə çıxan dünya şöhrətli müğənni Şakiranı 27 min azarkeş hərarətlə qarşıladı.*

*Bununla da Azərbaycanın ev sahibliyi etdiyi daha bir dünya çempionatı başa çatdı. Beynəlxalq yarışları keçirməkdə böyük təcrübəsi olan ölkəmizin tarixində ilk dəfə 17 yaşadək qadınlar arasında dünya çempionatı yüksək səviyyədə keçirildi. Bu, Azərbaycanda keçirilən ilk böyük FIFA tədbiri və Avrasiyada baş tutan ilk U-17 qadınlararası dünya çempionatı idi. Çempionatda Yaponiya, Koreya Xalq Demokratik Respublikası, Çin, Nigeriya, Qana, Qambiya, ABŞ, Kanada, Meksika, Braziliya, Uruqvay, Kolumbiya, Yeni Zelandiya, Fransa, Almaniya və ev sahibi Azərbaycanın milli komandaları birincilik uğrunda mübarizə aparmışlar.*

*Dünya çempionatının oyunları paytaxt Bakı ilə yanaşı, Lənkəran şəhərində də keçirilmişdir. Çempionat üçün 5-i Bakıda, 1-i isə Lənkəranda olmaqla, 6 stadion ayrılmışdı. Bu stadionlardan 3-ü mundiala hazırlıq işləri çərçivəsində inşa olunmuşdur.*

*Dünya çempionatının açılışı mərasimində iştirak edən FIFA-nın prezidenti Yozef Blatter və digər rəsmi qonaqlar mundialın yüksək səviyyədə təşkil olunduğunu dəfələrlə xüsusi vurğuladılar.*

## İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ MAHMUD ƏHMƏDİNEJAD İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*15 oktyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejad ilə görüşmüşdür.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejadı qarşıladı.*

*Görüşdə İqtisadi Əməkdaşlıq Təşkilatının XII zirvə toplantısının önəmi vurğulandı, bu tədbirin region ölkələri arasında əməkdaşlığın bundan sonra da genişləndirilməsi işinə öz töhfəsini verəcəyinə əminlik ifadə olundu. Dövlət başçıları Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi, mədəni sahələrdə inkişafından məmnunluqlarını ifadə etdilər, əlaqələrin iqtisadi, ticarət, o cümlədən, enerji, nəqliyyat və digər sahələrdə genişləndirilməsi üçün yaxşı potensialın olduğunu vurğuladılar. Xalqlarımız arasında mədəni, tarixi yaxınlığın əlaqələrimizin daha da inkişaf etdirilməsi işinə yaxşı zəmin yaratdığı bildirildi, ölkələrimiz arasında münasibətlərin inkişafının regional əməkdaşlığa töhfəsini verəcəyi qeyd olundu.*

*Əlaqələrimizin inkişafında yüksək səviyyəli qarşılıqlı səfərlərin önəmini vurğulayan prezidentlər ölkələrimiz arasında ikitərəfli münasibətlərin bundan sonra da inkişaf edəcəyinə əmin olduqlarını bildirdilər.*

*Görüşdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ XII ZİRVƏ TOPLANTISINDA İŞTİRAK

*Heydər Əliyev Mərkəzi*

*16 oktyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 16-da Bakıda Heydər Əliyev Mərkəzində keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) XII zirvə toplantısında iştirak etmişdir.*

*Zirvə toplantısında İƏT-in üzvü olan ölkələrin dövlət başçıları, bir sıra ölkələr isə hökumət rəhbərləri və parlament sədrləri ilə təmsil olunmuşlar. Nüfuzlu beynəlxalq tədbirlərə ev sahibliyi etməkdə kifayət qədər təcrübəsi olan Azərbaycanın paytaxtı Bakı İƏT-in XII zirvə toplantısına hərtərəfli hazırlaşmışdır.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğanı, İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejadı, Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonu, Əfqanıstan İslam Respublikasının Prezidenti Həmid Kərzaini, Pakistan İslam Respublikasının Prezidenti Asif Əli Zərdarini qarşıladı.*

*Azərbaycanın Dövlət himni səsləndi.*

*İƏT-in XII zirvə toplantısını Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğan açdı:*

– Hörmətli dövlət və hökumət başçıları!

Azərbaycan prezidenti, əziz qardaşım, hörmətli İlham Əliyev!

Hörmətli iştirakçılar!

İqtisadi Əməkdaşlıq Təşkilatının XII zirvə toplantısı münasibətilə dost və qardaş Azərbaycanın paytaxtı Bakıda olmaqdan böyük məmnunluq duyuruq. Həqiqətən, belə

möhtəşəm konfrans mərkəzində bu toplantıda sizlərlə bir arada olmaq, belə yüksək ev sahibliyini görmək bizlər üçün də ayrı bir iftixar mənbəyidir.

Bu zirvə toplantısında 2 il əvvəl təhvil aldığımız sədrliyi bu gün Azərbaycana təhvil verəcəyik. Bildiyiniz kimi, bizlər qlobal iqtisadi və maliyyə böhranının bütün dünyanı olduğu kimi, bölgəmizi də mənfi yöndən təsirinə aldığı bir dövrdə sədrliyi təhvil aldıq. Sədrliyimiz müddətində ECO-nun baxışlarını genişləndirmək, əməkdaşlıq sahələrində konkret irəliləyişləri təmin etmək və qurumun yenidən təşkilatlanmasını sürətləndirmək üçün böyük səylə çalışdıq.

«2015-ci il ECO-ya Baxış Sənədi»ndə nəzərdə tutulan hədəflərə çatmaq məqsədilə görülə biləcək tədbirlərlə bağlı tövsiyələr vermək üçün İstanbul zirvə toplantısı zamanı Ağsaqqallar Qrupunu təsis etdik. Ağsaqqallar Qrupu fədakarlıqla çalışaraq bizlər üçün yol bələdçisi olacağına inandığım bir hesabat hazırladı. Qarşıdakı dövrdə təşkilatımızın bu tövsiyələr əsasında sadəcə, regional miqyasda deyil, qlobal səviyyədə də adını duyuracaq önəmli bir əməkdaşlıq platformasına çevriləcəyinə inanıram.

*Türkiyə hökumətinin başçısı ölkəmizin sədrliyi dövründə təşkilatın fəaliyyətinin daha da genişlənəcəyinə və üzv ölkələr arasında iqtisadi əməkdaşlığın inkişafına yeni töhfələrin veriləcəyinə əminliyini vurğuladı.*

Azərbaycanın ECO-ya baxışın daha geniş bir əməkdaşlıq zəminine oturdacaq fəal sədrlik edəcəyinə və təşkilatı daha da irəliyə aparacağına inamım qətidir. Türkiyə Respublikasının bu önəmli missiyanın həyata keçirilməsi zamanı həmişə olduğu kimi, dost və qardaş Azərbaycan ilə bilgi və təcrübəsini bölüşməyə hazır olduğunu xüsusilə vurğulamaq istəyirəm. Bu düşüncələrlə Bakı zirvə toplantısının bütün üzvlər və bölgə üçün xeyirli olmasını diləyir, hörmətli dövlət və hökumət başçılarını, dəyərli iştirakçıları sevgi və sayğı ilə salamlayıram.

*Sonra Rəcəb Tayyib Ərdoğan sədrliyin Türkiyədən Azərbaycana keçdiyini elan etdi.*

* * *

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) XII zirvə toplantısında nitq söylədi:*

– Hörmətli xanımlar və cənablar!

Hörmətli nümayəndə heyətlərinin başçıları!

Əziz qonaqlar, əziz dostlar!

Mən sizin hamınızı Azərbaycanda səmimiyyətlə salamlayıram. Azərbaycana xoş gəlmisiniz!

Məni zirvə görüşünün sədri seçdiyiniz üçün sizə minnətdaram. Sizi əmin etmək istəyirəm ki, Azərbaycan ECO-nun sədri kimi, əlindən gələni edəcək ki, təşkilat daha da inkişaf etsin, konkret layihələr üzərində işləsin və təşkilata üzv olan ölkələr arasında dostluq, qardaşlıq əlaqələri daha da genişlənsin.

Fürsətdən istifadə edərək, son 2 il ərzində təşkilata sədrlik etmiş Türkiyə Respublikasına və onun rəhbərliyinə uğurlu fəaliyyət üçün minnətdarlığımı bildirmək istəyirəm.

Bizim zirvə görüşümüz çox əlamətdar tarix ərəfəsində baş verir. 1992-ci ilin noyabrında ECO-ya yeni 7 üzv daxil olmuşdur. Onlardan biri də Azərbaycan idi. Demək olar ki, o vaxtdan bu günə qədər təşkilatın yeni dövrü başlamışdır. Azərbaycan öz tərəfindən bütün dövrlərdə ECO təşkilatının fəaliyyətinə böyük önəm vermişdir və biz hesab edirik ki, ECO-nun uğurlu fəaliyyəti bütün üzv ölkələrin marağındadır. Çünki bizi həm ortaq tarix, həm də iqtisadi və siyasi maraqlar birləşdirir.

Ortaq tarixə gəldikdə deyə bilərəm ki, xalqlarımız əsrlər boyu bir yerdə olmuş, yaşamış, yaratmışlar, bir-birinə daim dayaq olmuşlar. Təşkilatımızın bu tarixi irs üzərində formalaşması, hesab edirəm ki, çox əlamətdar hadisədir. Bizi ənənələrimiz, dinimiz – islam dini birləşdirir və biz çalışırıq ki, islam mədəniyyətinin təbliği üçün öz səylərimizi göstərək. 2009-cu ildə Bakı şəhəri «İslam mədəniyyətinin paytaxtı» elan

edilmişdi və biz bu şərəfli missiyanı uğurla yerinə yetirdik. 2018-ci ildə isə Azərbaycanın digər qədim şəhəri – Naxçıvan şəhəri «İslam mədəniyyətinin paytaxtı» olacaqdır. Bu, islam dünyasının bizə olan böyük etimadının və hörmətinin əlamətidir. Biz öz növbəmizdə dünyada islam həmrəyliyinin gücləndirilməsi üçün səylərimizi göstəririk. Bəzi ölkələrdə islamofobiya meyillərinin gücləndirilməsi bizi çox narahat edir, islam müqəddəslərinin təhqir olunması bizi haqlı olaraq hiddətləndirir. Biz öz növbəmizdə islamı sülh, qardaşlıq, mərhəmət dini kimi, dünyaya daha da geniş şəkildə təqdim etməliyik. Hesab edirəm ki, təşkilatımızın istiqamətlərindən biri də bu olmalıdır.

Təşkilata üzv olan ölkələr arasında siyasi əlaqələr də yüksək səviyyədədir. Biz beynəlxalq təşkilatlarda bir-birimizi qarşılıqlı surətdə dəstəkləyirik. Keçən il təşkilata üzv olan ölkələrin fəal iştirakı və dəstəyi ilə Azərbaycan BMT Təhlükəsizlik Şurasına üzv seçilmişdir. Bu fürsətdən istifadə edərək, bizi dəstəkləyən bütün qardaş ölkələri qeyd edirəm, onlara minnətdarlığımı bildirmək istəyirəm. Azərbaycan da öz növbəsində ECO-ya üzv olan ölkələrin milli maraqlarının müdafiəsi üçün bütün beynəlxalq arenalarda fəal iştirak edir. Qarşılıqlı dəstək və qarşılıqlı anlaşma, əlbəttə ki, təşkilatımızı da gücləndirəcəkdir. Bizim üçün ən ağrılı problem olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ problemi ilə bağlı ECO-ya üzv olan ölkələrin mövqeyini yüksək qiymətləndiririk və bu mövqe bu gün müzakirə ediləcək sənədlərin tərkibinə salınıbdır. Bildiyiniz kimi, uzun illərdir ki, ölkəmizin beynəlxalq birlik tərəfindən tanınmış ərazi bütövlüyü pozulub, Ermənistan Azərbaycana qarşı hərbi təcavüz etmişdir. Bu təcavüz və işğal nəticəsində torpaqlarımızın 20 faizi ermənilərin işğalı altındadır, 1 milyondan artıq azərbaycanlı öz doğma Vətənində qaçqın-köçkün vəziyyətinə düşüb. Bizə qarşı etnik təmizləmə siyasəti aparılıb. 1992-ci ildə ermənilər tərəfindən Xocalı soyqırımı törədilmişdir ki, yüzlərlə günahsız insan – onların arasında qadın, uşaq, yaşlı insanlar vardır – qətlə yetirilmişdir. Dünyada

Xocalı soyqırımını soyqırımı kimi tanıyan artıq 3 ölkə vardır. Onlardan biri bizim qardaş ölkəmiz, ECO-ya üzv olan Pakistandır və fürsətdən istifadə edərək, Pakistan xalqına və onun rəhbərliyinə bu ədalətli mövqeyə görə minnətdarlığımı bildirmək istəyirəm. Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu olmayıbdır və ola da bilməz. BMT Təhlükəsizlik Şurası münaqişənin həlli ilə bağlı 4 qətnamə qəbul etmişdir və o qətnamələrdə erməni silahlı qüvvələrinin işğal edilmiş torpaqlardan qeyd-şərtsiz çıxarılması nəzərdə tutulur. Əfsuslar olsun ki, bu qətnamələr yerinə yetirilmir. Ancaq biz əminik ki, Azərbaycan öz ərazi bütövlüyünü, suverenliyini bərpa edəcək və işğaldan əziyyət çəkən bütün soydaşlarımız doğma dədə-baba torpağına, əzəli torpağına qayıdacaqdı.

Bir daha bu fürsətdən istifadə edərək, bizim haqlı mövqemizi dəstəkləyən bütün üzv ölkələrə minnətdarlığımı bildirmək istəyirəm. Əlbəttə, bu işğal və ədalətsizlik bizim iqtisadiyyatımıza da çox böyük zərbə vurmuşdur. Buna baxmayaraq, Azərbaycan iqtisadiyyatı son illər ərzində yüksələn xətlə inkişaf edir. Son 8-9 il ərzində ümumi daxili məhsul 3 dəfə artmışdır, sənaye istehsalı da təxminən 3 dəfə – yəni 300 faiz artmışdır. Yoxsulluqla mübarizədə böyük uğurlar qazanılmışdır. Bu illər ərzində yoxsulluq 49 faizdən 7 faizə düşmüş, işsizlik 5,3 faiz, xarici borcumuz ümumi daxili məhsulun cəmi 7 faizini təşkil edir. Beynəlxalq reytinq agentlikləri Azərbaycanın kredit reytinqlərini artırıblar. Baxmayaraq ki, Avropada maliyyə və iqtisadi böhran hələ ki, davam edir, Azərbaycanın kredit reytinqləri aparıcı reytinq agentlikləri tərəfindən artırılmışdır. Rəqabətqabiliyyətliliyinə görə Azərbaycan dünya miqyasında layiqli yerlərdədir. İqtisadi islahatlar bizə imkan verir ki, iqtisadiyyatımızı şaxələndirək və iqtisadiyyatın bütün sahələri inkişaf etsin, insanlar daha da yaxşı yaşasınlar.

ECO-ya üzv olan ölkələrlə bizim ticarət dövriyyəmiz artır. Bu çox sevindirici haldır. 2011-ci ildə bu ticarət dövriyyəsi 38 faiz, 2012-ci ilin 9 ayında 20 faiz artmışdır. Bu onu göstərir ki,

təşkilata üzv olan ölkələrlə bizim çox səmərəli iqtisadi əlaqələrimiz vardır. Bu da təbiidir, çünki bizim siyasi əlaqələrimiz çox yüksək səviyyədədir və iqtisadi sektor, əlbəttə ki, bu səviyyəyə uyğun olmalıdır. Mən əminəm ki, bu zirvə görüşünün yekunları və qəbul ediləcək qərarlar aramızda olan ticarət dövriyyəsinin artırılmasına daha da böyük təkan verəcəkdir və beləliklə, biz bir-birimizi iqtisadi yollarla, iqtisadi amillərlə daha da çox dəstəkləyəcəyik.

2 il bundan əvvəl ECO-nun İstanbulda keçirilən zirvə görüşündə Azərbaycan söz vermişdi və öhdəlik götürmüşdü ki, ECO Bankının səhmdarına çevriləcəkdir, ECO Bankına üzv olacaqdır. Məmnuniyyət hissi ilə deyə bilərəm ki, bu, artıq reallıqdır. Azərbaycan ECO Bankının səhmdarıdır və öz tərəfindən üzv olan ölkələrdə həyata keçirilən vacib infrastruktur və iqtisadi layihələrdə fəal iştirak etmək əzmindədir. Həm bank vasitəsilə, həm də investor kimi. Hazırda Azərbaycan öz investisiyalarını ölkənin hüdudlarından kənara qoymağa başlamışdır. Bu investisiyalar milyardlarla dollar səviyyəsindədir. Biz yeni bazarlara çıxmaq üçün araşdırma işləri aparırıq. Əlbəttə ki, investisiyanın qoyuluşu üçün biz ilk növbədə özümüzə dost, qardaş bildiyimiz ölkələrə üz tuturuq. Hesab edirəm ki, zirvə görüşü çərçivəsində və ondan sonra nümayəndə heyətlərinin, iqtisadiyyat nazirlərinin birgə fəaliyyəti nəticəsində qarşılıqlı investisiyaların istiqaməti və həcmi haqqında daha da geniş müzakirə aparıla bilər. Biz bunun tərəfdarıyıq.

Azərbaycan region üçün vacib olan çox mühüm infrastruktur layihələrini icra edir. Onların arasında, əlbəttə ki, enerji infrastrukturunun yaradılması layihələri ön plandadır. Bizim təşəbbüsümüzlə son illər ərzində şaxələndirilmiş neft-qaz kəmərləri şəbəkəsi yaradılmışdır ki, hazırda enerji resurslarımızı müxtəlif istiqamətlər üzrə dünya bazarlarına çıxarır. Çox şadam ki, bu təşəbbüslər region ölkələrinin marağındadır və regionda yerləşən ölkələr də bu təşəbbüsləri dəstəkləyirlər. Enerji sahəsində fəaliyyətimiz, əlbəttə ki, milli

maraqlarımızı təmin edir, enerji təhlükəsizliyi məsələlərini də gücləndirir və bu sahədə yeni imkanlar açılır.

Nəqliyyat sektorunda təşəbbüslərimiz və fəaliyyətimiz, hesab edirəm ki, ümumi maraqlarımıza xidmət edir. Azərbaycan Şimal–Cənub və Şərq–Qərb nəqliyyat dəhlizlərinin fəaliyyəti üçün praktiki tədbirlər görür. Bizim coğrafi vəziyyətimiz elədir ki, Azərbaycan təkcə coğrafi vəziyyətinə görə nəqliyyat sahəsində regional mərkəzə çevrilə bilər. Bizim investisiyalarımız – yeni yaradılan dəniz limanları, dəmir yolu xətləri, avtomobil yolları, hava nəqliyyatının təkmilləşdirilməsi layihələri Bakını nəqliyyat mərkəzinə çevirmək üçün gözəl imkanlar yaradır. Yaxın vaxtlarda tikintisi başa çatacaq Bakı–Tbilisi–Qars dəmir yolu isə öz növbəsində, ECO-ya üzv olan bütün ölkələrin xidmətində olacaqdır. Çünki bu dəmir yolu təkcə Azərbaycanı Türkiyə ilə birləşdirmir. Bu yol əslində qitələri birləşdirir və əgər ECO-ya üzv olan ölkələrin xəritəsinə, bizim təşkilatımızın xəritəsinə baxsaq görərik ki, bu yol hamımız üçün çox səmərəli, çox əhəmiyyətli olacaqdır. Bu, strateji layihədir, geosiyasi və geoiqtisadi vəziyyəti xeyli dərəcədə yaxşılaşdıracaq bir layihədir. Mən çox şadam ki, bu layihə artıq yaxın zamanlarda reallaşacaqdır.

Əziz qonaqlar, bir daha demək istəyirəm ki, Azərbaycan ECO-nun fəaliyyətinə çox böyük önəm verir. ECO-nun fəaliyyəti bu günə qədər çox uğurlu idi. Bu təşkilat dünya miqyasında öz layiqli yerini tuta bilmişdir. Təşkilata üzv olan ölkələrin böyük iqtisadi potensialının mövcudluğu bizi daha da gücləndirir. Əminəm ki, növbəti mərhələlərdə konkret layihələr üzərində işləməyimiz təşkilatı daha da gücləndirəcək və iqtisadi, siyasi, mədəniyyət sahələrində təşəbbüslərimiz ancaq və ancaq qarşılıqlı etimadın gücləndirilməsinə xidmət göstərəcəkdir.

Mən bir daha sizin hamınızı Azərbaycanda səmimiyyətlə salamlayıram. Əminəm ki, ECO-nun Bakı zirvə görüşü uğurlu olacaq və zirvənin nəticələri təşkilatı daha da gücləndirəcəkdir.

* * *

*Sonra çıxış edən Əfqanıstan İslam Respublikasının Prezidenti Həmid Kərzai zirvə toplantısının yüksək səviyyədə təşkilinə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təşəkkürünü bildirdi.*

*Bu günədək İƏT-in uğurlu fəaliyyət göstərdiyini və bundan sonra da yeni nailiyyətlərə imza atılacağını vurğulayan Əfqanıstan prezidenti ölkəsində həyata keçirilən layihələr və cərəyan edən proseslər haqqında məlumat verdi. Prezident Həmid Kərzai qeyd etdi ki, bir çox ölkələr terrordan əziyyət çəkir. Bunlardan biri də Əfqanıstandır. Əfqanıstan ilə yanaşı, regionun digər ölkələri də terrordan əziyyət çəkirlər. Əfqanıstan prezidenti bütün bunların qarşısının alınması üçün səylərin birləşdirilməsini təklif etdi.*

*İran İslam Respublikasının Prezidenti Mahmud Əhmədinejad İƏT-in üzvü olan ölkələrin yerləşdiyi regionda yaşanan problemlərin həllində birgə fəaliyyətin genişləndirilməsinin vacibliyini vurğuladı. Bu ölkələrdə təbii ehtiyatlardan səmərəli istifadə edilməsi və yeni layihələrin həyata keçirilməsində zirvə görüşlərinin əhəmiyyətindən danışan İran prezidenti bu baxımdan Bakı toplantısının da mühüm hadisə olduğunu vurğuladı. Prezident Mahmud Əhmədinejad bildirdi ki, bu zirvə toplantısı İƏT-in üzvü olan ölkələrin iqtisadi əlaqələrinin daha da möhkəmlənməsinə yeni töhfələr verəcəkdir.*

*İƏT-də sədrliyi dövründə Türkiyənin fəaliyyətini yüksək qiymətləndirən İran prezidenti Azərbaycanın sədrliyi ilə təşkilatın daha böyük uğurlara imza atacağına əminliyini ifadə etdi.*

*Pakistan İslam Respublikasının Prezidenti Asif Əli Zərdari zirvə toplantısının yüksək səviyyədə təşkil olunduğuna görə Azərbaycan dövlətinin başçısına təşəkkürünü bildirdi. Pakistan prezidenti qeyd etdi ki, ötən İstanbul zirvə toplantısından sonra İƏT-in üzvü olan ölkələr arasında əlaqələr daha da dərinləşmişdir. Əməkdaşlıq iqtisadiyyatın müxtəlif sahələrini əhatə etmiş və üzv ölkələr arasında sərmayə yatırımları artmışdır.*

*Digər regional təşkilatlar ilə əlaqələrin qurulmasının və birgə işləməyin vacibliyinə də toxunan prezident Asif Əli Zərdari özəl sektorun inkişaf etdirilməsinin və İƏT-in üzvü olan ölkələrin qarşılıqlı investisiya yatırımlarının çoxaldılmasının əhəmiyyətini vurğuladı.*

*Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon regionda iqtisadi əməkdaşlığın genişləndirilməsində İƏT-in rolundan danışdı. Həm ərazi, həm də əhali baxımından təşkilatın əhatə etdiyi regionda iqtisadi və ticari əməkdaşlıq sahəsində böyük potensialın olduğunu vurğulayan Tacikistan prezidenti ölkəsinin İƏT çərçivəsində bu potensialdan səmərəli istifadə edilməsinə xüsusi önəm verdiyini qeyd etdi. Tacikistan dövlətinin başçısı təşkilata sədrliyi dövrdə Azərbaycana və prezident İlham Əliyevə uğurlar arzuladı.*

*Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğan ölkəsinin İƏT-də sədrlik etdiyi dövrdə təşkilatın fəaliyyətini gücləndirmək üçün göstərdiyi səylərdən danışdı. Türkiyə hökumətinin başçısı dedi ki, Azərbaycanın İƏT-ə baxışı geniş perspektivlər əsasında qurulmuş və daha ümidvericidir. Baş nazir İƏT-in üzvü olan ölkələrin iqtisadi göstəricilərinin ticarət potensialını əks etdirmədiyini dedi. Türkiyə hökumətinin başçısı bunun üçün ticarət qaydalarının sadələşdirilməsini təklif etdi. İƏT-in Ticarət və İnkişaf Bankının təşkilatın layihələrinə önəmli kömək göstərəcəyini deyən Türkiyənin Baş naziri bütün üzv ölkələri bu banka ortaq olmağa çağırdı.*

*Özbəkistan Respublikası parlamentinin yuxarı palatası – Senatın Sədri İlqizar Sabirov ölkəsinin qarşılıqlı maraqlar çərçivəsində regional əməkdaşlığa verdiyi önəmdən danışdı. Senatın Sədri bildirdi ki, Bakı zirvə toplantısı bu əməkdaşlığı daha da genişləndirməyin yollarını müzakirə etmək baxımından mühüm əhəmiyyət kəsb edir.*

*İlqizar Sabirov regional nəqliyyat infrastrukturunun perspektivləri, ekoloji problemlər və digər məsələlərlə bağlı müzakirələrin İƏT-in gələcək fəaliyyətini genişləndirmək baxımından önəmini qeyd etdi.*

*Zirvə toplantısında çıxış edən Türkmənistan Respublikası Baş nazirinin müavini Annaməhəmməd Qoçiyev, Qazaxıstan Respublikasının Nəqliyyat və Kommunikasiya naziri Askar Jumaqaliyev, Qırğız Respublikasının Xarici İşlər naziri Erlan Abdıldayev, Səudiyyə Ərəbistanının Ticarət naziri Tofiq Arabiyyə, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının baş katibi Xəlil Akıncı İƏT-in yüksək səviyyədə təşkil olunmuş XII zirvə toplantısının üzv ölkələr arasında müxtəlif sahələrdə əlaqələrin daha da möhkəmlənməsinə töhfə olacağına əminliyini bildirdilər.*

*Daha sonra Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov İƏT-in Nazirlər Şurasının oktyabrın 15-də Bakıda keçirilmiş 20-ci iclasının hesabatı barədə iştirakçılara məlumat verdi.*

*Təşkilatın baş katibi Şamil Ələsgərov çıxış edərək, İƏT-in sonuncu zirvə toplantısından ötən dövr ərzində görülmüş işlər barədə danışdı. Baş katib İƏT-in qarşıya qoyduğu məqsədlərə çatacağını və səslənən bütün səmərəli təkliflərin nəzərə alınacağını qeyd etdi.*

*Toplantıya sədrlik edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İƏT-in XIII zirvə görüşünün Pakistanda keçiriləcəyi barədə qərarın qəbul edildiyini diqqətə çatdırdı:*

– Gündəliyimizdə duran növbəti məsələ zirvə toplantısının keçiriləcəyi yer və vaxt məsələsidir. Mənim dostum, Pakistan İslam Respublikasının Prezidenti cənab Zərdari təklif etdi ki, növbəti zirvə toplantısı Pakistanda keçirilsin. Biz, əlbəttə ki, bunu çox böyük səmimiyyətlə qəbul etdik. Bununla da növbəti zirvə toplantısı Pakistanda keçiriləcək.

Gündəlikdə duran növbəti məsələ «Bakı Bəyannaməsi–2012»nin qəbuludur. Bakı Bəyannaməsinin layihəsi qarşınızdadır. Kimsə rəy bildirmək istəyirsə, buyursun. Hesab edirəm ki, artıq hər şey razılaşdırılıb. Ona görə də elan etmək istərdim ki, Bakı Bəyannaməsi qəbul olunub.

*Sonra üzv ölkələrin müxtəlif sahələrdə fərqlənmiş nümayəndələrinə İƏT-in mükafatları təqdim olundu. Mükafatları Azərbaycan prezidenti İlham Əliyev təqdim etdi.*

## YEKUN NİTQİ

Hörmətli nümayəndə heyətlərinin başçıları!

Hörmətli dostlar!

Mən sizin hamınızı bir daha Azərbaycanda salamlayıram və zirvə toplantısının nəticələrindən dərin razılığımı bildirmək istəyirəm. İqtisadi Əməkdaşlıq Təşkilatının XII zirvə toplantısı təşkilatımızın çox vacib nailiyyətlərini xüsusi olaraq qeyd etdi. Giriş nitqimdə dediyim kimi, ECO-ya üzv olan 7 dövlət 20 ildir sürətlə inkişaf edən ölkəyə çevrilmiş və ümumi məqsədlərimizin həyata keçməsinə töhfə verir. Mən fürsətdən istifadə edərək, təşkilatımızı təsis edən dövlətlərə təşəkkür etmək istəyirəm. Onların müdrikliyi, yaradıcılıq baxışları təşkilatımızı qarşılıqlı inamın, qarşılıqlı dəstəyin və fəal siyasi dialoqun olduğu bugünkü vəziyyətə gətirib çıxarmışdır.

Təşkilatımız əsasən iqtisadi gündəliyə üstünlük verir. Lakin bu gün dünyamız iqtisadi siyasəti geosiyasi vəziyyətdən ayıra bilməyəcək dərəcədə mürəkkəbdir. Hamımız öz ölkələrimizi inkişaf etdirmək istəyirik. Üzv ölkələr getdikcə regionda daha çox önəmli rol oynayırlar. Həmrəyliyimiz, ümumi səylərimiz bizi yeni inkişafa, uğurlara, xalqlarımızın rifahına gətirəcək. Biz güclü iqtisadiyyat olmadan real müstəqilliyə nail ola bilməyəcəyik. Möhkəm iqtisadi bünövrə, ciddi iqtisadi islahatlar olmadan XXI əsrdə insanlarımız üçün yaxşı yaşayış şəraiti yarada bilməyimiz çox çətin ola bilər. Təşkilatımızın əsas məqsədlərindən biri ölkələrimizdə iqtisadi inkişafı stimullaşdırmaqdır. Çox böyük qürur hissi duyuruq ki, biz artıq ECO Bankının üzvüyük. Maliyyə institutundan istifadə edərək, biz ümumi inkişafımızda öz rolumuzu oynayacağıq.

Azərbaycan üçün iqtisadi transformasiya artıq reallıqdır. Bu gün ölkəmiz çox güclü iqtisadi əsaslarla inkişaf edən ölkədir. Özəl sektorun ümumi daxili məhsulda payı 80 faizdən artıqdır. Gələcək illərdə iqtisadi islahatlarımız davam edəcək. Üzv dövlətlərin dəstəyi inkişafımıza, təkmilləşməyə, sürətlə irəli getməyə daha yaxşı kömək edəcəkdir. Hesab edirəm ki, bugünkü müzakirələr bizim ümumi kursumuza töhfə verəcək. Bu gün üzv ölkələr bir daha həmrəylik nümayiş etdirdilər. Dövlət və hökumət başçıları, nümayəndə heyətlərinin rəhbərləri təşkilatımızın gələcək inkişafı, regional məsələlərlə bağlı çox dəyərli fikirlər söylədilər, dünya məsələlərinə, narahatlıq doğuran problemlərə toxundular. Çox şadam və nümayəndə heyətlərinin başçılarına dünyada, regionda, ölkələrimizdə baş verən proseslərlə bağlı dəyərli fikirlərinə, ideyalarına görə təşəkkürümü bildirmək istərdim. Birliyimiz nə qədər sıx olsa, maraqlarımız da bir o qədər güclü müdafiə olunacaqdır.

Bir daha üzv dövlətlərə iştirak etdiyimiz bütün beynəlxalq təşkilatlarda Azərbaycana ümumi maraqlar, ümumi etimad əsasında göstərdikləri dəstəyə görə təşəkkürümü bildirirəm. Xalqlarımızın çox böyük tarixi, zəngin mədəniyyəti, ənənələri vardır. Bu gün biz təşkilatımızı dünyaya bir-birini dəstəkləyən, beynəlxalq aləmdə siyasi iradə nümayiş etdirən, ümummilli maraqları müdafiə edən ölkələrin daxil olduğu bir təşkilat kimi təqdim edirik. Şübhəsiz, biz bir-birimizə birlikdə daha çox kömək edə bilərik, nəinki ayrı-ayrılıqda. Təşkilatımızın böyük tarixi ənənələri, dünya siyasi xəritəsində rolu vardır. Əminəm ki, növbəti illər ərzində də biz hamımız ECO-nun gələcək inkişafına töhfələrimizi verəcəyik. Növbəti illər ərzində Azərbaycan təşkilatın sədri olaraq dəyərlərimizi daha çox təbliğ etmək, tərəfdaşlığımızı gücləndirmək və qarşılıqlı ticarət səviyyəsini artırmaq məsələsində qurumun işinə töhfə vermək üçün əlindən gələni edəcəkdir.

Hörmətli dostlar, bir daha sizi ölkəmizdə görməyə çox şadam. Ümidvaram ki, burada olduğunuz qısa müddət sizin üçün çox xoş keçəcək. Ümidvaram ki, sizinlə gələcəkdə də

görüşəcəyik. Beləliklə, zirvə toplantısının gündəliyi sona çatdı. İcazənizlə, ECO-nun XII zirvə toplantısını bağlı elan edirəm.

## TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*16 oktyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 16-da Türkiyə Respublikasının Baş naziri Rəcəb Tayyib Ərdoğan ilə görüşmüşdür.*

*Görüşdə İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) Bakıda keçirilmiş XII zirvə toplantısının əhəmiyyəti qeyd edildi. Ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin siyasi, iqtisadi və bütün digər sahələrdə uğurlu inkişafından məmnunluq ifadə edildi. Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq əlaqələrinin bundan sonra da genişlənəcəyinə əminlik ifadə olundu.*

## TACİKİSTAN RESPUBLİKASININ PREZİDENTİ EMOMƏLİ RƏHMON İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*16 oktyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 16-da Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmon ilə görüşmüşdür.*

*Görüşdə İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) Bakıda keçirilmiş XII zirvə toplantısının əhəmiyyəti qeyd edildi, bu sammitin təşkilata üzv ölkələr arasında əməkdaşlığın genişlənməsinə töhfə verəcəyinə əminlik ifadə olundu.*

*Azərbaycanın və Tacikistanın dövlət başçıları ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurlu inkişafından razılıq ifadə etdilər.*

*Görüşdə prezidentlər səviyyəsində həyata keçirilən qarşılıqlı səfərlər məmnunluqla xatırlandı, bu səfərlərin ikitərəfli münasibətlərin güclənməsində rolu qeyd olundu, əlaqələrimizin bundan sonra da möhkəmlənəcəyinə əminlik ifadə edildi.*

# PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ASİF ƏLİ ZƏRDARİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*16 oktyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 16-da Pakistan İslam Respublikasının Prezidenti Asif Əli Zərdari ilə görüşmüşdür.*

*Görüşdə İqtisadi Əməkdaşlıq Təşkilatının Bakıda keçirilmiş XII zirvə toplantısının region ölkələri arasında əməkdaşlığın bundan sonra da inkişafına töhfə verəcəyinə əminlik bildirildi. İkitərəfli münasibətlərimizin uğurlu inkişafından məmnunluq ifadə edildi, əlaqələrimizin daha da genişləndirilməsi üçün yaxşı perspektivlərin olduğu bildirildi və bu istiqamətdə birgə fəaliyyətin zəruriliyi vurğulandı.*

*Bir sıra sahələrdə birgə layihələrin həyata keçirilməsinin vacibliyinin vurğulandığı görüşdə kənd təsərrüfatı və bank sektorlarında əməkdaşlığın inkişaf etdirilməsi istiqamətində səylərin davam etdirilməsinin əhəmiyyəti qeyd olundu. İkitərəfli münasibətlərimizin bundan sonra da möhkəmlənəcəyinə əminlik ifadə edildi.*

**TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ABDULLAH GÜLƏ**

Hörmətli cənab Prezident!

Əziz qardaşım!

Qardaş Türkiyənin milli bayramı – Respublika Günü münasibətilə Sizi və Sizin simanızda bütün Türk xalqını şəxsən öz adımdan və Azərbaycan xalqı adından səmimi- qəlbdən təbrik edirəm.

Bu gün Türkiyə özünün siyasi nüfuzu, iqtisadi qüdrəti ilə regionun aparıcı dövlətlərindən birinə çevrilmişdir. Biz Türkiyənin beynəlxalq miqyasda bütün uğurlarına hədsiz dərəcədə sevinir və bundan fərəh hissi keçiririk.

Xalqlarımızın yekdil iradəsindən qaynaqlanan Azərbaycan–Türkiyə birliyi, müttəfiqliyi və tərəfdaşlığı qardaşlıq duyğularımızı bariz şəkildə təcəssüm etdirir.

İkitərəfli əməkdaşlıq zəminində əldə etdiyimiz misilsiz nailiyyətlər ölkələrimizin tərəqqisinə, qardaş xalqlarımızın rifahına, regionumuzda əmin-amanlığın bərqərar olmasına dair niyyətlərimizin gerçəkləşən ifadəsidir.

Əminəm ki, xalqlarımız arasında dərin tarixi kökləri olan möhkəm tərəfdaşlıq münasibətləri bundan sonra da bütün birgə işlərimizdə yeni uğurlara yol açacaqdır.

Hörmətli cənab Prezident, belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Türkiyəyə daim sülh və çiçəklənmə diləyirəm.

*Dərin hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *18 oktyabr 2012-ci il*

**TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA**

Hörmətli cənab Baş nazir!

Əziz qardaşım!

Türkiyənin milli bayramı – Respublika Günü münasibətilə Sizə və qardaş Türk xalqına öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi və xoş arzularımızı yetirirəm.

Bu gün Türkiyə özünün siyasi nüfuzu, iqtisadi qüdrəti ilə regionun aparıcı dövlətlərindən birinə çevrilmişdir. Biz Türkiyənin beynəlxalq miqyasda bütün uğurlarına hədsiz dərəcədə sevinir və bundan fərəh hissi keçiririk.

Dərin tarixi kökləri ilə bir-birinə bağlı olan, ortaq mənəvi dəyərlərdən güc alan xalqlarımızın qardaşlıq ideallarının təcəssümünə çevrilən Azərbaycan–Türkiyə birliyi nümunəvi tərəfdaşlıq modelidir.

Heç şübhəsiz ki, bu yaxınlarda Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının birgə keçirdiyimiz ikinci iclası qarşıya qoyduğumuz vəzifələr, imzalanan sənədlər istər ikitərəfli qaydada, istərsə də regional əməkdaşlıq zəminində irəli sürdüyümüz məqsədlərə çatmaq yolundakı səylərimizə yeni təkandır. Əminəm ki, daim dərinləşən işbirliyimiz bundan sonra da qardaş xalqlarımızın iradəsini əks etdirərək ölkələrimizin rifahına və çiçəklənməsinə xidmət edəcəkdir.

Hörmətli cənab Baş nazir, bayram sevincinizə qoşulur, Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Türk xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Dərin hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *18 oktyabr 2012-ci il*

**TÜRKMƏNİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB QURBANQULU BERDIMƏHƏMMƏDOVA**

Hörmətli Qurbanqulu Məlikquliyeviç!

Türkmənistanın milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi yetirirəm.

Əminəm ki, Azərbaycan ilə Türkmənistan arasındakı ənənəvi dostluq münasibətləri, qarşılıqlı faydalı əməkdaşlığımız bundan sonra da öz inkişafını müvəffəqiyyətlə davam etdirərək, xalqlarımızın rifahına töhfələr verəcəkdir.

Belə bir xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Türkmənistan xalqına sülh və tərəqqi arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *18 oktyabr 2012-ci il*

**ÇEX RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB VATSLAV KLAUSA**

Hörmətli cənab Prezident!

Çex Respublikasının milli bayramı münasibətilə Sizə və bütün xalqınıza ən səmimi təbriklərimizi yetirməkdən məmnunluq duyuram.

Bu gün Azərbaycan–Çexiya münasibətləri yüksələn xətt üzrə inkişaf etməkdədir. Qarşılıqlı səfərlərimiz, dövlətlərarası münasibətlərimizin müxtəlif sahələrinə dair imzalanan sənədlər əməkdaşlığımızın genişlənməsi üçün əlverişli zəmin yaratmışdır.

Əminəm ki, dostluq münasibətlərimizin daim möhkəmləndirilməsi, ikitərəfli və çoxtərəfli qaydada fəaliyyətimizin dərinləşdirilməsi istiqamətində birgə səylərimizi bundan sonra da davam etdirəcəyik.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Çexiya xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *18 oktyabr 2012-ci il*

**AVSTRİYA RESPUBLİKASININ FEDERAL PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HAYNTZ FİŞERƏ**

Hörmətli cənab Federal Prezident!

Ölkənizin milli bayramı münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan–Avstriya dostluğu və əməkdaşlığının hərtərəfli inkişafı və möhkəmlənməsi daim xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Bu bayram günündə Sizə ən xoş arzularımı yetirir, dost Avstriya xalqına əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *18 oktyabr 2012-ci il*

**MACARISTAN RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB YANOŞ ADERƏ**

Hörmətli cənab Prezident!

Macarıstanın milli bayramı münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Bu gün Azərbaycan ilə Macarıstan arasındakı dostluq və əməkdaşlıq münasibətləri ikitərəfli və çoxtərəfli qaydada uğurla inkişaf etməkdədir. Biz həmçinin Avropa İttifaqı ilə əməkdaşlıq istiqamətində atdığımız addımların Macarıstan tərəfindən dəstəklənməsindən məmnunluq duyuruq.

Əminəm ki, əlaqələrimizin bütün sahələrdə dərinləşməsi, əməkdaşlığımızın əhatə dairəsinin genişlənməsi üçün səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Macarıstan xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *18 oktyabr 2012-ci il*

**ƏLCƏZAİR XALQ DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏBDÜLƏZİZ BUTEFLİKAYA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – İnqilab Günü münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimizi yetirirəm.

Ümidvaram ki, Azərbaycan–Əlcəzair dostluğu və əməkdaşlığının xoş ənənələrini davam etdirmək üçün bundan sonra da birgə səylər göstərəcəyik.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Əlcəzair xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *18 oktyabr 2012-ci il*

# BOSNİYA VƏ HERSEQOVİNANIN RƏYASƏT HEYƏTİNİN SƏDRİ BAKİR İZETBEQOVİÇİN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*18 oktyabr 2012-ci il*

*Azərbaycan Respublikasına rəsmi səfərə gələn Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri Bakir İzetbeqoviçin oktyabrın 18-də rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı meydanda ali qonağın şərəfinə Fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Fəxri qarovul dəstəsinin rəisi prezident İlham Əliyevə raport verdi.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri Bakir İzetbeqoviçi qarşıladı.*

*Fəxri qarovul dəstəsinin rəisi Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədrinə raport verdi.*

*Bosniya və Herseqovinanın və Azərbaycanın dövlət himnləri səsləndi.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri Bakir İzetbeqoviç Fəxri qarovul dəstəsinin qarşısından keçdilər.*

*Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri Azərbaycan əsgərlərini salamladı.*

*Azərbaycanın dövlət və hökumət nümayəndələri Rəyasət Heyətinin Sədri Bakir İzetbeqoviçə, Bosniya və Herseqovinanın nümayəndə heyətinin üzvləri prezident İlham Əliyevə təqdim olundu.*

*Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan Respublikasının Prezidentinin və Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədrinin qarşısından keçdi.*

# BOSNİYA VƏ HERSEQOVİNANIN RƏYASƏT HEYƏTİNİN SƏDRİ BAKİR İZETBEQOVİÇ İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*Prezident sarayı*

*18 oktyabr 2012-ci il*

*Rəsmi qarşılanma mərasimindən sonra oktyabrın 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri Bakir İzetbeqoviçin təkbətək görüşü olmuşdur.*

*Görüşdə Azərbaycan ilə Bosniya və Herseqovina arasında siyasi əlaqələrin inkişafından məmnunluq ifadə edildi. İqtisadi, humanitar və digər sahələrdə əməkdaşlıq imkanlarının nəzərdən keçirilməsinin vacibliyi vurğulandı. Ölkələrimiz arasında münasibətlərin bundan sonra inkişaf edəcəyinə əminlik bildirildi.*

*Görüşdə qarşılıqlı maraq doğuran ikitərəfli, beynəlxalq və digər məsələlərlə bağlı fikir mübadiləsi aparıldı.*

## GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*Prezident sarayı*

*18 oktyabr 2012-ci il*

*Təkbətək görüş başa çatdıqdan sonra oktyabrın 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri Bakir İzetbeqoviçin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü olmuşdur.*

**İ l h a m Ə l i y e v:** Hörmətli cənab Sədr!

Bir daha deyirəm ki, Azərbaycana xoş gəlmisiniz! Sizi və nümayəndə heyətinizi Azərbaycanda görməkdən çox şadam. Biz ikitərəfli və regional məsələlərlə bağlı maraqlı fikir mübadiləsi apardıq. İndi isə nümayəndə heyətlərinin iştirakı ilə müzakirələrimiz davam edir.

Səfəriniz dostluğumuzun və tərəfdaşlığımızın çox mühüm göstəricisidir. Biz bu yaxınlarda Çikaqoda görüşdük və bu səfərlə bağlı razılığa gəldik. Mən çox şadam ki, bu gün bu səfər reallaşmışdır. Əlaqələrimizin tarixində bu, ilk səfərdir. Əminəm ki, səfəriniz münasibətlərimizdə yeni səhifə açacaqdır. Ümidvaram ki, biz həm siyasi, həm də iqtisadi sahələrdə fəal və səmərəli əməkdaşlıq üçün bir çox istiqamətləri müəyyənləşdirəcəyik.

Bu gün Sizinlə iqtisadi fəaliyyətin müəyyən istiqamətləri, birgə layihələrlə bağlı müzakirələr apardıq. Əminəm ki, biz buna nail olacağıq. Bizim tarixlə bağlı çox yaxşı xatirələrimiz vardır. Sarayevo və Bakı Sovet İttifaqı dövründə qardaşlaşmış şəhərlər olublar. İndi isə düşünürəm ki, biz bu tərəfdaşlığı bərpa edirik.

Əminəm ki, səfəriniz çox maraqlı olacaq. Siz və nümayəndə heyətiniz ölkəmizi daha yaxından tanıyacaqsınız.

Bir daha «Xoş gəlmisiniz!» – deyirəm və Sizə Azərbaycanda xoş vaxt keçirməyi arzulayıram.

*Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri səmimi qəbul üçün minnətdarlığını bildirdi.*

**Bakir İzetbeqoviç:** Çox sağ olun, cənab Prezident!

Biz olduqca məhsuldar danışıqlar apardıq. Mən cənab Prezidentə dedim ki, biz oxşar tarix yaşamışıq. Əvvəlcə kommunist rejimi dönəmində yaşamışıq. Ötən əsrin 90-cı illəri hər iki ölkə üçün çox əhəmiyyətli olub. 1992-ci il ölkələrimiz üçün daha əlamətdar oldu.

Bizim əlaqələrimiz, niyyətlərimiz var. İndi biz əməkdaşlığımızı genişləndirmək üçün daha artıq işlər görməliyik. Çünki əlaqələrin indiki vəziyyəti xalqlarımızın istəyini tam əks etdirmir.

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*Prezident sarayı*

*18 oktyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri Bakir İzetbeqoviçin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü başa çatdıqdan sonra oktyabrın 18-də Azərbaycan–Bosniya və Herseqovina sənədlərinin imzalanması mərasimi olmuşdur.*

*«Azərbaycan Respublikasının Təhsil Nazirliyi və Bosniya və Herseqovinanın Mülki İşlər Nazirliyi arasında təhsil sahəsində əməkdaşlıq haqqında Saziş»i Azərbaycan Respublikasının Təhsil naziri Misir Mərdanov və Bosniya və Herseqovinanın Təhlükəsizlik naziri Sadik Axmetoviç imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti və Bosniya və Herseqovina Nazirlər Şurası arasında gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Konvensiya»nı Azərbaycan Respublikasının Xarici İşlər nazirinin müavini Xələf Xələfov və Bosniya və Herseqovinanın Təhlükəsizlik naziri Sadik Axmetoviç imzaladılar.*

*«Azərbaycan Respublikası Hökuməti və Bosniya və Herseqovina Nazirlər Şurası arasında diplomatik və xidməti pasportlara malik şəxslərin viza tələbindən azad edilməsi haqqında Saziş»i Azərbaycan Respublikasının Xarici İşlər nazirinin müavini Xələf Xələfov və Bosniya və Herseqovinanın Təhlükəsizlik naziri Sadik Axmetoviç imzaladılar.*

## BOSNİYA VƏ HERSEQOVİNANIN RƏYASƏT HEYƏTİNİN SƏDRİ BAKİR İZETBEQOVİÇ İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*18 oktyabr 2012-ci il*

*Sənədlərin imzalanması mərasimindən sonra oktyabrın 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri Bakir İzetbeqoviç mətbuata bəyanatlarla çıxış etmişlər.*

### Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Cənab Sədr!

Əziz qonaqlar, xanımlar və cənablar!

Bosniya və Herseqovinadan olan dostlarımızı, cənab Sədrin rəhbərlik etdiyi nümayəndə heyətini Azərbaycanda salamlamaqdan şadam. Bu, tarixi səfərdir. Bu bizim münasibətlərimizin tarixində ilk yüksək səviyyəli səfərdir. Əlaqələrimizin böyük potensialı, böyük gələcəyi vardır. Ümid edirəm ki, səfər ikitərəfli münasibətlərin inkişafında mühüm mərhələ olacaqdır. Həmçinin əməkdaşlığımızın tarixi kökləri vardır. 40 il əvvəl Sarayevo ilə Bakı arasında saziş imzalandı və onlar qardaşlaşmış şəhərlər oldu. Düşünürəm ki, biz hazırda bu tarixi əlaqələri bərpa edirik. Əlbəttə ki, yeni mərhələdə – 2 müstəqil dövlət səviyyəsində.

Bu gün biz ikitərəfli gündəliyimizdə olan məsələlərə dair geniş müzakirə apardıq. Şübhəsiz ki, siyasi dialoq genişlənir. Biz Bosniya və Herseqovinaya BMT Təhlükəsizlik Şurasına üzv seçilməyimizlə bağlı göstərdiyi dəstəyə görə minnətdarıq. Biz də öz tərəfimizdən Sizin ölkənizi beynəlxalq təşkilatlarda, beynəlxalq forumlarda dəstəkləyirik.

Biz iqtisadi əməkdaşlığın perspektivlərini də geniş müzakirə etdik. Tamamilə əminik ki, əməkdaşlığımızın bu sahəsinin çox parlaq gələcəyi vardır. Çünki biz indi iqtisadi sahədə daha fəal işləyəcəyik və işgüzar dairələrin qarşılıqlı fəaliyyətini və sərmayə imkanlarını tam həcmdə müəyyən edəcəyik. Əminəm ki, bizim icra etdiyimiz birgə layihələr xalqlarımızın və ölkələrimizin rifahına xidmət edəcəkdir. Azərbaycan ölkədən kənarda da çox fəal sərmayələr yatırır. Dost ölkələrə sərmayə qoyuluşları, şübhəsiz, yüksək dəyərləndirilir. Buna görə də, düşünürəm ki, bu səfər iqtisadi əlaqələrin inkişafına yeni təkan verəcəkdir. Biz bir-birimizi daha da yaxşı tanıyacağıq. Biz indi elə bir dövrdəyik ki, bir-birimizi kəşf edirik.

Bu gün, həmçinin regional vəziyyəti müzakirə etdik. Əlbəttə ki, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli bizim üçün əsas məsələdir. Uzun illərdir ki, bizim ölkə Ermənistanın işğalından əziyyət çəkir. Bu, 1 milyondan çox azərbaycanlının doğma torpaqlarından sürgün edilməsi ilə nəticələnib. Biz etnik təmizləmə, işğal ilə üzləşdik. 20 ildən artıqdır ki, Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazisinin 20 faizi ermənilərin işğalı altındadır. Beynəlxalq təşkilatlar, o cümlədən BMT Təhlükəsizlik Şurası və Baş Məclisi erməni hərbi birləşmələrinin Azərbaycan torpaqlarından qeyd-şərtsiz və təxirə salınmadan çıxarılması ilə bağlı bir çox qətnamə qəbul edib. Təəssüf ki, bu qətnamələr hələ də icra olunmur. Bu münaqişənin beynəlxalq hüquq və ərazi bütövlüyü çərçivəsində tez bir zamanda həlli bütün ölkələr üçün əlverişli olacaqdır.

Bizim ölkələrin bir çox oxşarlıqları vardır. Hər iki ölkə başqa bir dövlətin tərkibində yaşayıb. Müstəqilliyimizin əldə edilməsi bir sıra ciddi çağırışlar, problemlər və ölkələrimizə qarşı təcavüz ilə müşayiət olunub. Biz təcavüz, işğal və dağıntılardan əziyyət çəkmişik. Bu həmçinin bizi birləşdirən cəhətdir. Həm keçmişin xoş xatirələri, həm də 20 il əvvəl baş verənlər bizi birləşdirir. Buna görə də biz bir-birimizi çox yaxşı başa düşürük. Biz bir-birimizin problemlərini başa düşürük, bir-birimizin ağrısını duyuruq. Ölkələrimiz arasında fəal əməkdaşlıq vətəndaş cəmiyyətlərimizdən

gələn təbii çağırışdır. Qeyd etdiyim kimi, biz bir-birimizi yenidən kəşf etməkdəyik. Əminəm ki, biz regional əməkdaşlığın nümunəsi olacaq tərəfdaşlıq quracağıq.

Bu gün Xəzər və Balkan regionları bir-birinə daha da yaxınlaşmaqdadır. Biz yeni infrastruktur layihələri, yeni boru kəmərləri, regionları bir-birinə daha da sıx bağlayacaq dəmir yolu layihələrini gerçəkləşdiririk. Azərbaycan bu regional əməkdaşlığın inkişafında çox maraqlıdır.

Bu gün biz cənab Sədr ilə enerji, xüsusən də təbii qaz sahəsində əməkdaşlığın imkanlarını müzakirə etdik. Azərbaycanın böyük ehtiyatları və potensialı vardır. Biz mühüm boru kəmərləri layihələri icra edirik. Bir sözlə, əminəm ki, Bosniya və Herseqovina Rəyasət Heyətinin Sədrinin səfəri əlaqələrimizin tarixində ən mühüm səhifələrdən biri olacaq, əməkdaşlıq üçün yeni imkanlar açacaqdır. Nəticədə bizim ölkələr daha da yaxın olacaq və gələcəkdə biz mühüm işlər görəcəyik. Bir daha, cənab Sədr, Azərbaycana «Xoş gəlmisiniz!» – deyirəm. Sizə ölkəmizdə vaxtınızı xoş keçirməyinizi arzu edirəm.

## Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri Bakir İzetbeqoviçin bəyanatı

Təşəkkür edirəm, cənab Prezident!

Qonaqpərvərliyə, çox xoş və ruhlandırıcı sözlərə, həmçinin tariximizin ən çətin dövründə Sizin ölkənizin və xalqınızın bizə verdiyi dəstəyə görə çox minnətdaram.

Biz oxşar tarix yaşamışıq. Hətta oxşar əlamətdar illər belə, üst-üstə düşür: əvvəlcə kommunist rejimində yaşamağımız, daha sonra 1990-cı ildə ölkələrimizdə demokratiyanı inkişaf etdirməyə başlamağımız, 1992-ci ildə çətinliklərlə üzləşməyimiz və digər tarixlər. Bizim xalqlarımız, dövlətlərimiz soyqırımı problemilə, təcavüzlə, ölkənin parçalanmasına yönələn cəhdlərlə üzləşib. Bosniya və Herseqovina sərhədləri güc vasitəsilə dəyişməyə cəhd göstərənləri heç vaxt dəstəkləməyəcəkdir. Bu məsələdə bizə güvənə bilərsiniz.

Qeyd etdiyiniz kimi, əlaqələrimizi niyyətlərdən konkret hərəkətə yönəltməyin vaxtı çatıb. Məsələn, iqtisadi əlaqələrin qurulması, nümayəndə heyətlərinin mübadiləsi, sərmayə qoyuluşu və sairə. Bosniya və Herseqovina Azərbaycana maraq göstərir. Sizin yüksək keyfiyyətli və münasib qiymətə təklif etdiyiniz təbii qazınız vardır. Böyük qaz istehlakçısı olduğumuza görə biz alternativlər axtarmalıyıq. Biz Sizin sərmayələrinizdə də maraqlıyıq.

Bosniya və Herseqovinada kənd təsərrüfatı və sənayenin müxtəlif sahələrinin inkişafına maraq vardır. Bizdə turizmin inkişafı üçün imkanlar mövcuddur. İlk növbədə, qarşılıqlı səfərlər həyata keçirməliyik. Bu gün biz bir sıra sənədlər imzaladıq ki, bunlar da ölkələrimiz arasında daha asan münasibətlər qurmağa, nümayəndə heyətlərinin, iş adamlarının qarşılıqlı səfərlərini və digər məsələləri mümkün edir. Əminəm ki, Sizin dediyiniz kimi, bizi gələcəkdə daha yaxşı münasibətlər gözləyir.

İstərdim Sizi yenidən Bosniya və Herseqovinaya səfərə dəvət edim. Bildiyimə görə, Siz təqribən 14 il əvvəl çox hörmətli atanızla bizim ölkədə səfərdə olmusunuz. Zənnimcə, bizim gözəl ölkəmizə bir daha səfər etmənizin vaxtı çatıb. Düşünürəm ki, Azərbaycana səfərə gələcək bosniya və herseqovinalılar mənim kimi, Sizin ölkənizin və paytaxtınızın gözəlliyinə heyran olacaqlar. Nümayəndə heyətimizin üzvləri və mən Bakının gözəlliyinə heyran qaldıq. Bir daha təşəkkür edirəm.

# ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ ZİYAFƏTDƏ İŞTİRAK

*18 oktyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından oktyabrın 18-də ölkəmizdə rəsmi səfərdə olan Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri Bakir İzetbeqoviçin şərəfinə rəsmi ziyafət verilmişdir.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri Bakir İzetbeqoviç ziyafətdə çıxış etdilər.*

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Cənab Sədr!

Birinci xanım!

Hörmətli qonaqlar!

Sizi ölkəmizdə bir daha salamlamaq istəyirəm. Çox şadam ki, Siz ölkəmizdə səfərdəsiniz. Sizin bu gün və sabah çox gərgin səfər proqramınız vardır. Əminəm ki, ölkəmizlə daha da yaxından tanışlıq, insanlarla ünsiyyət Azərbaycan haqqında Sizdə maraqlı təəssürat yaradacaqdır.

Bu gün görüşümüz zamanı da qeyd etdiyim kimi, biz ölkələrimiz arasında daha sıx və səmimi əlaqələri yenidən qurmalıyıq. Sarayevo və Bakı arasında qardaşlaşmış şəhərlər razılaşmasından 40 il sonra Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri münasibətlərimizin tarixində ölkəmizə ilk dəfə rəsmi səfər edib. Əminəm ki, ölkələrimiz arasındakı əlaqələrin inkişafı uğurla davam etdiriləcəkdir.

Bu gün apardığımız müzakirələr və imzaladığımız sənədlər ikitərəfli münasibətlərin inkişafına çox yaxşı zəmin yaradır. Əminəm ki, hökumətlərimiz arasında daha çox razılaşmalara nail olmaq üçün bundan sonra da qanunvericilik formatı ilə

bağlı fəal iş aparmalıyıq. Bu bizim əməkdaşlığımız üçün vacibdir. Lakin bütün səviyyələrdə daha çox təmaslara ehtiyacımız var: siyasi, işgüzar, ictimai və mədəniyyət xadimləri səviyyəsində. İndiyə qədər siyasi əlaqələr, beynəlxalq təşkilatlarda qarşılıqlı dəstək və eləcə də iqtisadi əməkdaşlığın yaxşı perspektivləri üçün çox möhkəm zəmin yaratmışıq. Əminəm ki, qarşıdakı illərdə əlaqələrimiz daha da genişlənəcək və möhkəmlənəcəkdir.

Bir daha qeyd edirəm ki, bu gün tarixi bir gündür. Mən Sizinlə görüşməyimə çox şadam. Əminəm ki, ölkəmizə səfərinizi unutmayacaqsınız. Bir daha Azərbaycana «Xoş gəlmisiniz!» – deyirəm.

## Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri Bakir İzetbeqoviçin çıxışı

Təşəkkür edirəm, cənab Prezident! Olduqca səmimi qəbula görə minnətdaram. Mən deməliyəm ki, şəhərinizin gözəlliyi bizi heyran edib. Şəhərinizin təmizliyi və gözəlliyi bizə son dərəcə xoş təəssürat bağışlayır. Sözün əsl mənasında, çox abad və gözəl şəhərdir. Bu sizin necə xalq olduğunuz haqqında çox şey deyir. Sizin də qeyd etdiyiniz kimi, bizim oxşar cəhətlərimiz, bənzər tariximiz vardır. Ölkələrimiz və xalqlarımızın üzləşdikləri reallıqlar, 1990-cı, 1992-ci, 2003-cü illərdə baş verənlər və bir sıra ağrılı hadisələr bizi birləşdirir. Bu gün də qeyd etdiyim kimi, biz həmişə Sizin yanınızda olacağıq.

20 il əvvəl burada baş verdiyi kimi, sərhədlərin zorakılıqla dəyişdirilməsi qeyri-mümkün və qəbuledilməzdir. Beləliklə, biz ölkəmizin ərazi bütövlüyü naminə mübarizəmizi sülh yolu ilə davam etdirəcəyik. Düşünürəm ki, gələcəyimiz daha parlaq və daha yaxşı olacaqdır.

Mən Sizə ən xoş arzularımı çatdırıram. Siz bizim dəstəyimizə etibar edə bilərsiniz. Mən Sizin Bosniya və Herseqovinaya səfər etmənizi və ölkələrimizin birlikdə sərmayələr qoymasını gözləyirəm. Təşəkkür edirəm.

## HEYDƏR ƏLİYEV FONDU İLƏ TANIŞLIQ

*18 oktyabr 2012-ci il*

*Azərbaycan Respublikasına rəsmi səfərə gələn Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri Bakir İzetbeqoviç və xanımı Sebiya İzetbeqoviç oktyabrın 18-də Heydər Əliyev Fondunda olmuşlar.*

*Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri Bakir İzetbeqoviçi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev qarşıladı.*

*Ali qonağa və xanımına Azərbaycan xalqının ümummilli liderinin xatirəsinə yaradılmış Fondun məqsədi və fəaliyyəti barədə məlumat verildi.*

*Bildirildi ki, Fond ümummilli liderin zəngin irsini öyrənir və təbliğ edir, müxtəlif sosial-iqtisadi, humanitar layihələr həyata keçirməklə Azərbaycanın tərəqqisinə, mədəniyyətinin inkişafına və tarixinin öyrənilməsinə köməklik göstərir.*

*Bakir İzetbeqoviç və xanımı ulu öndərin şəxsi arxivindən götürülmüş və onun fəaliyyətinin ayrı-ayrı dövrlərinə aid fotoşəkillərlə, habelə müxtəlif eksponatlarla tanış oldular.*

*Fondla tanışlıq zamanı qonaqlara məlumat verildi ki, ulu öndərin hakimiyyətdə olduğu dövr Azərbaycan tarixinin ən şərəfli səhifələrindən biridir. Bu gün beynəlxalq birlik tərəfindən ölkəmizin misilsiz uğurları kimi qəbul edilən sosial-iqtisadi inkişaf, əldə olunan nailiyyətlər məhz ümummilli liderin fəaliyyətinin bəhrələridir.*

*Qonaqlar fenomen şəxsiyyət Heydər Əliyevin həyatının ən müxtəlif məqamlarını əks etdirən və Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxlu sənədlərlə, dünyanın tanınmış siyasi xadimlərinin bəxş etdikləri hədiyyələrlə, ulu öndərə həsr olunmuş kitablarla, nüfuzlu elm, mədəniyyət və incəsənət xadimlərinin müstəqil Azərbaycan dövlətinin qurucusu haqqında fikirləri ilə tanış oldular, xarici*

*ölkələrin liderləri ilə görüşlərdə çəkilmiş şəkillərə maraqla baxdılar. Ulu öndər Heydər Əliyevin Bakir İzetbeqoviçin atası, Bosniya və Herseqovinanın ilk prezidenti Aliya İzetbeqoviçlə 1995-ci il oktyabrın 25-də Nyu-York şəhərində çəkdirdiyi şəkil qonaqlara xoş təsir bağışladı.*

*Rəyasət Heyətinin Sədri Bakir İzetbeqoviç fondla tanışlıqdan sonra Xatirə kitabına ürək sözlərini yazdı.*

*Ali qonağa Heydər Əliyev Fondunun hədiyyəsi təqdim olundu.*

*Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri və xanımı Sebiya İzetbeqoviç Heydər Əliyev Fondundan zəngin təəssüratla ayrıldılar.*

## ABŞ-ın NƏQLİYYAT KOMANDANLIĞININ KOMANDANI UİLYAM FREYZERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*18 oktyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 18-də ABŞ-ın Nəqliyyat Komandanlığının komandanı Uilyam Freyzerin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında ikitərəfli münasibətlərin yüksək səviyyədə olduğu vurğulandı, bu münasibətlərin müxtəlif sahələrdə uğurlu inkişafından məmnunluq ifadə edildi.*

*Görüşdə, həmçinin beynəlxalq terrorizmə qarşı birgə mübarizə, regional sülhün və sabitliyin təmin olunması məsələlərindən danışıldı, Azərbaycanın Əfqanıstandakı sülhməramlı missiyada birbaşa və daşımalar yolu ilə iştirakının əhəmiyyəti yüksək qiymətləndirildi, əməkdaşlığımızın bundan sonra da genişlənəcəyinə əminlik vurğulandı.*

## «CONOCOPHİLLİPS» ŞİRKƏTİNİN PREZİDENTİ RYAN LANSIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*19 oktyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 19-da «ConocoPhillips» şirkətinin prezidenti Ryan Lansın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*«ConocoPhillips» şirkətinin prezidenti Ryan Lans Azərbaycanda xarici investorlar üçün əlverişli mühitin yaradıldığını, enerji ilə bağlı əməkdaşlıq sahəsində ölkəmizdə şəffaflığın olduğunu vurğuladı.*

*Dövlətimizin başçısı Azərbaycanın uzun illər dünyanın bir çox nüfuzlu enerji şirkətləri ilə uğurlu əməkdaşlığından məmnunluğunu ifadə etdi.*

*Görüşdə Azərbaycan ilə «ConocoPhillips» şirkəti arasında əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

## QURBAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Hörmətli həmvətənlər!

Sizi – Azərbaycan Respublikası vətəndaşlarını və xarici ölkələrdə yaşayan soydaşlarımızı dünya müsəlmanlarının mənəvi birlik və həmrəylik rəmzi olan müqəddəs Qurban bayramı münasibətilə ürəkdən təbrik edir, ən səmimi arzu və diləklərimi yetirirəm.

Qurban bayramı islamın bir din kimi tamamlandığı və insanlar üçün hidayət yolu olaraq seçildiyi mübarək günün təcəssümüdür. Əksər müsəlmanlar bu əlamətdar gündə Uca Yaradanın adına kəsilən qurbanlarla Allaha yaxınlığın, mənəvi-əxlaqi dəyərlərə bağlılığın sevincini yaşayır, xeyirxah amallar uğrunda hər cür fədakarlığa hazır olduqlarını nümayiş etdirirlər.

Qurban bayramı həm də xeyirxahlıq, şəfqət və mərhəmət bayramıdır. Azərbaycanda hər il böyük fərəh hissləri ilə icra olunan Qurban mərasimləri insanları sülh və əmin-amanlıq yoluna dəvət edir, cəmiyyətimizdə milli-mənəvi həmrəyliyin, humanizm və qardaşlığın təntənəsinə çevrilir. Bu günlər ölkəmizdə geniş xeyriyyəçilik tədbirləri həyata keçirilir, imkanı çatan hər bir müsəlman ehtiyacı olanlara könül xoşluğuyla yardım göstərir.

Əziz həmvətənlər, hörmətli soydaşlar!

Mübarək Qurban bayramı günündə hamınıza Tanrıdan möhkəm cansağlığı, ailələrinizə xoşbəxtlik, süfrələrinizə ruzi-bərəkət arzulayıram.

Bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 oktyabr 2012-ci il*

## SAATLI RAYONUNA SƏFƏR

*27 oktyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 27-də Saatlı rayonuna səfərə gəlmişdir.*

*Dövlətimizin başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin Saatlı şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydu.*

*Saatlı Rayon İcra Hakimiyyətinin başçısı Siraqəddin Cabbarov Azərbaycan prezidenti İlham Əliyevə məlumat verdi ki, abidənin yerləşdiyi Heydər Əliyev parkında genişmiqyaslı abadlıq işləri görülmüş, yeni yaşıllıq zolaqları salınmış, fəvvarələr quraşdırılmış, sakinlərin və qonaqların istirahəti üçün hər cür şərait yaradılmışdır.*

### Yeni Azərbaycan Partiyası Saatlı rayon təşkilatının inzibati binasının açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 27-də Yeni Azərbaycan Partiyası Saatlı rayon təşkilatının inzibati binasının açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı binanın rəmzi açılışını bildirən lenti kəsdi, burada yaradılan şəraitlə tanış oldu.*

*Məlumat verildi ki, Azərbaycanın aparıcı siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyası (YAP) bu gün ölkəmizin həyatının hər bir sahəsinin inkişafında yaxından iştirak edir, respublikamızın tərəqqisinə mühüm töhfələr verir. Bu gün partiyanın sıraları genişlənir, bununla da onun fəaliyyəti keyfiyyətcə yeni mərhələyə qədəm qoyur. Partiyanın ümumi amallar naminə göstərdiyi uğurlu fəaliyyətdə rayon təşkilatlarının rolu danılmazdır. Bu gün respublikamızın bütün bölgələrində inşa olunan YAP rayon təşkilatlarının inzibati binaları da müasirliyi*

*ilə seçilir və burada səmərəli fəaliyyət üçün hər cür şərait yaradılır.*

*Bildirildi ki, YAP Saatlı rayon təşkilatının inzibati binası orijinal layihəsi və maraqlı memarlıq quruluşu ilə diqqəti cəlb edir. Bu bina həm də şəhərin gözəlliyinə əlavə çalarlar qatır. Heydər Əliyev prospektində, ulu öndərin adını daşıyan parkda inşa edilən binanın tikintisinə bu ilin mayında başlanılıb. İkimərtəbəli binanın ümumi sahəsi 432 kvadratmetrdir. Binanın foyesində Azərbaycan xalqının ümummilli lideri, partiyanın yaradıcısı Heydər Əliyevin büstü qoyulmuşdur. Burada ümummilli lider Heydər Əliyevin siyasi fəaliyyəti, müxtəlif illərdə Saatlıya səfərləri və rayon ictimaiyyətinin nümayəndələri ilə görüşlərini əks etdirən fotolardan ibarət stend yaradılıb. Prezident İlham Əliyevin partiyanın tədbirləri və rayona səfərləri zamanı çəkilən fotolar da böyük maraq doğurur.*

*Binada kompüter otağı, 50 nəfərlik konfrans zalı vardır. Buradakı inzibati otaqlar müasir səviyyədə qurulmuş, lazımi avadanlıqla təchiz edilmişdir. Binanın ətrafında da geniş abadlıq və yaşıllaşdırma işləri aparılmışdır.*

*Azərbaycan prezidenti yaradılmış şəraitdən razılığını bildirdi.*

## Gənclər Mərkəzinin açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev oktyabrın 27-də Saatlı rayonuna səfəri çərçivəsində Gənclər Mərkəzinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı Gənclər Mərkəzinin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Diqqətə çatdırıldı ki, ölkəmizdə ulu öndər Heydər Əliyevin adı ilə bağlı olan dövlət gənclər siyasəti bu gün Azərbaycan prezidenti tərəfindən uğurla davam etdirilir. 2003-cü ildən bu sahədə kompleks tədbirlər reallaşdırılır. 2005–2009-cu illəri əhatə edən «Azərbaycan gəncliyi Dövlət Proqramı»nın uğurlu icrası bu baxımdan çox mühüm rol oynamışdır. «Azərbaycan*

gəncliyi 2011–2015-ci illərdə Dövlət Proqramı» indiyədək həyata keçirilən işlərin davamlı xarakter daşıdığını göstərir.

Məlumat verildi ki, Azərbaycan prezidentinin müvafiq sərəncamı ilə dövlət vəsaiti hesabına tikilən mərkəz Heydər Əliyev parkına bitişik ərazidə mövcud olan köhnə və yararsız ikimərtəbəli binanın yerində inşa edilmişdir. İkimərtəbəli Gənclər Mərkəzinin foyesində ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin Saatlı rayonuna səfərlərini və respublikamızın müxtəlif bölgələrində gənclərlə keçirdikləri görüşləri əks etdirən fotoguşələr yaradılmışdır.

Mərkəzin birinci mərtəbəsində tikişçilik dərnəyi və kompüter otaqları vardır. Mərkəzdə qurulan atıcılıq klubu müasir texniki avadanlıqla təchiz olunmuşdur. Həm tir tüfəngləri, həm də pnevmatik silahlar vasitəsilə gənclərə hədəfi düzgün nişan almaq üçün lazer texnologiyasından geniş istifadə imkanları yaradılmışdır. Xüsusi kompüter qrafikası vasitəsilə müxtəlif ov səhnələrinin nümayişi də diqqət çəkən məqamlardandır. Burada musiqiyə marağı olan gənclər üçün karaoke otaqları da fəaliyyət göstərəcəkdir.

Gənclər Mərkəzinin binasının ikinci mərtəbəsində rəssamlıq dərnəyi və rəqs studiyası yaradılmışdır. Virtual rinq otağında isə gənclərin bilik və bacarıqlarının nümayişi üçün müasir kompüter guşəsi qurulmuşdur. Mərkəzdə müasir üslubda kafe də fəaliyyət göstərəcəkdir. Konfrans və 200 nəfərlik iclas zallarında müxtəlif səviyyəli tədbirlərin keçirilməsi üçün hər cür şərait vardır. Mərkəzə gələn gənclər elektron kitabxanada və linqvistika otağında informasiya-kommunikasiya texnologiyalarının ən son yenilikləri ilə tanış olacaqlar. Burada 3D formatlı filmlərin nümayişi üçün ayrıca kinozal da yaradılmışdır. Mərkəz Saatlı gənclərinin bilik və bacarıqlarının artırılmasında, onların asudə vaxtlarının daha səmərəli təşkilində mühüm rol oynayacaqdır.

Görülmüş işlərdən razılığını bildirən dövlətimizin başçısı tapşırıq və tövsiyələrini verdi.

## Tarix-Diyarşünaslıq Muzeyi və Rəsm qalereyasının yeni binasının açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 27-də Saatlıda Tarix-Diyarşünaslıq Muzeyi və Rəsm qalereyasının yeni binasının açılışında iştirak etmişdir.*

*Məlumat verildi ki, ölkəmizin qədim və zəngin maddi-mədəniyyət abidələrinin qorunub saxlanması və gələcək nəsillərə ötürülməsi mühüm əhəmiyyət kəsb edir. Bu istiqamətdə tarix-diyarşünaslıq muzeylərinin fəaliyyəti xüsusi məna daşıyır. Saatlı Tarix-Diyarşünaslıq Muzeyi də qədim maddi-mədəniyyət abidələrinin qorunmasına xidmət edir.*

*Dövlətimizin başçısı binanın rəmzi açılışını bildirən lenti kəsdi.*

*Bildirildi ki, Heydər Əliyev parkının ərazisində tikilən, ümumi sahəsi 917 kvadratmetr olan bina xüsusi dizaynla inşa olunub. Binanın həyatində qədim dövrdə Saatlı ərazisində yaşamış insanların məişət əşyalarından və əmək fəaliyyətindən bəhs edən guşələr qurulmuşdur. İkimərtəbəli binanın digər xüsusiyyəti isə burada Rəsm qalereyasının yaradılmasıdır. Binanın ikinci mərtəbəsindəki qalereya bütün lazımi avadanlıqla təchiz olunmuşdur.*

*Diqqətə çatdırıldı ki, yeni bina bütün lazımi kommunikasiya xətləri və müvafiq avadanlıqlarla təchiz olunmuşdur. Binanın foyesində ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin rayona səfərlərindən bəhs edən fotoguşələr yaradılmışdır.*

*Birinci mərtəbədə yerləşən Tarix-Diyarşünaslıq Muzeyi arxeologiya, etnoqrafiya, mədəniyyət, ideoloji və təsviri sənət bölmələrindən ibarətdir. Arxeologiya bölməsində Saatlı ərazisində tapılan və eramızdan əvvəl III minilliyə aid müxtəlif məişət əşyaları nümayiş olunur. Burada Kür–Araz mədəniyyətindən başlayaraq orta əsrlər dövrünədək istifadə olunan məişət əşyaları da sərgilənir. Müxtəlif tarixi formasiyalar*

*zamanı əhali tərəfindən istifadə edilən pullardan ibarət numizmatika guşəsi də böyük maraq doğurur.*

*Muzeyin etnoqrafiya bölməsi ilə tanış olan prezident İlham Əliyevə məlumat verildi ki, burada XIX–XX əsrlərdə saatlıların həyat tərzini və məişətini əks etdirən eksponatlar yer almışdır. Dəmirçi və dulusçu emalatxanalarının, evlərin kiçik maketləri əhalinin keçmiş dövrlərdə yaşayış tərzini əks etdirir. Mədəniyyət bölməsində müxtəlif sənət əsərləri, xüsusilə də xalçaçılığa aid nümunələr, bəzək əşyaları sərgilənir. İdeoloji bölmədə isə Azərbaycan tarixi, görkəmli şəxsiyyətlər və dövlətçiliyimizə həsr olunan filmlər nümayiş olunur.*

*Binanın ikinci mərtəbəsində yerləşən Rəsm qalereyasına baxan dövlətimizin başçısının diqqətinə çatdırıldı ki, burada geniş məkanda müxtəlif janrlarda çəkilmiş rəsm əsərləri nümayiş etdirilir. Əsasən yerli rəssamların əsərlərinin sərgiləndiyi Rəsm qalereyasında heykəltəraşlıq nümunələri də yer almışdır. Qalereyada ayrıca konfrans zalı, fond və digər texniki otaqlar da vardır.*

*Yaradılan şəraitlə tanış olan prezident İlham Əliyev müvafiq tapşırıq və tövsiyələrini verdi.*

## Şahmat məktəbinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 27-də Saatlıda Şahmat məktəbinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı Şahmat məktəbinin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Məlumat verildi ki, hazırda ölkəmizdə nəhəng idman infrastrukturunun yaradılması istiqamətində mühüm addımlar atılır. Ölkəmizdə idmanın digər sahələri ilə yanaşı, şahmatın inkişafına da xüsusi diqqət və qayğı göstərilir. Nəinki paytaxt Bakıda, regionlarda da müasir görkəmi ilə seçilən yeni şahmat məktəbləri tikilib istifadəyə verilir. Bunlardan biri də Saatlı rayonunda inşa olunan Şahmat məktəbidir. Müasir memarlıq*

*üslubunda tikilmiş məktəbin ətrafındakı hasarın üzərində şahmat fiqurlarının təsvirləri həkk olunmuşdur. Məktəbin həyətində geniş abadlıq işləri aparılmış, yaşıllıq zolağı salınmış, müasir işıqlandırma sistemi, oturacaqlar quraşdırılmışdır.*

*Bildirildi ki, Şahmat məktəbi Azərbaycan prezidentinin müvafiq sərəncamı ilə Saatlı rayonunun sosial-iqtisadi inkişafının sürətləndirilməsinə dair ayrılmış vəsait hesabına inşa olunmuşdur. Saatlı şəhərində ulu öndər Heydər Əliyevin adını daşıyan parkda inşa olunan ikimərtəbəli binanın birinci mərtəbəsindəki foyedə ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin ölkəmizdə idman ictimaiyyətinin nümayəndələri və Saatlı rayon sakinləri ilə görüşlərini əks etdirən fotoguşə, 2 sinif otağı, yardımçı otaqlar, konfrans zalı yerləşir. Binanın ikinci mərtəbəsində şahmat yarışı zalı, müəllimlər və hakimlər otağı vardır. Yarış otağında eyni vaxtda 50 idmançı mübarizə apara bilər. Burada «sensor» monitorlar vasitəsilə beynəlxalq əhəmiyyətli yarışların gedişini izləmək və dərs proqramlarını öyrənmək mümkündür.*

*Şahmat məktəbində yaradılmış şəraiti yüksək qiymətləndirən prezident İlham Əliyev tapşırıqlarını verdi.*

## Əsaslı şəkildə yenidən qurulmuş Saatlı Rayon Mərkəzi Xəstəxanası ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev oktyabrın 27-də əsaslı şəkildə yenidən qurulmuş Saatlı Rayon Mərkəzi Xəstəxanası ilə tanış olmuşdur.*

*Səhiyyə naziri Oqtay Şirəliyev dövlətimizin başçısına məlumat verdi ki, Saatlı Rayon Mərkəzi Xəstəxanasının əsaslı təmiri prezident İlham Əliyevin 2010-cu ildə verdiyi sərəncamla ayrılmış vəsait hesabına aparılmışdır. Xəstəxana 3 korpusdan ibarətdir – tibb müəssisəsinin əsas binası, poliklinika və yoluxucu xəstəliklər korpusları. Mətbəx və camaşırxana tamamilə yenidən qurulmuş, istilik, su və kommunikasiya sistemləri müasir tələblər səviyyəsinə*

*çatdırılmışdır. Binanı* daimi elektrik enerjisi *ilə təmin etmək üçün* generator *qoyulmuşdur.*

*Xəstəxananın həyatində də geniş abadlıq işləri görülmüş, yaşıllıq zolaqları yaradılmışdır.*

Bildirildi *ki*, burada *yaradılan şərait nəinki Saatlı sakinləri, eləcə də digər rayonların əhalisinə ən yüksək səviyyədə* tibbi *xidmət göstərməyə* imkan verir*. Xəstəxananın bütün şöbələri* tibb *sahəsində məşhur şirkətlərin istehsalı* olan *ən* son elmi-texniki *tərəqqiyə əsaslanan və dünyanın aparıcı ölkələrində istifadə edilən avadanlıqlarla təchiz olunmuşdur. Hər* bir *şöbənin ayrıca* intensiv *palatası vardır.*

Qeyd olundu *ki*, *xəstəxananın* poliklinika *şöbəsi də müasir tələblər səviyyəsindədir.* Burada klinik *və* bakterioloji laboratoriyalar, dermatoloq, nevropatoloq, elektrokardioqrafiya, ftiziatr, *ultrasəslə müayinə*, kardioloq, oftalmoloq, stomatoloq, fizioterapiya *və digər həkim otaqları vardır.*

## SAATLI RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*27 oktyabr 2012-ci il*

Mən sizi ürəkdən təbrik edirəm. Biz bu gün Saatlı Rayon Mərkəzi Xəstəxanasının əsaslı təmirdən sonra açılışını qeyd edirik. Gözəl, əlamətdar hadisədir. İndi mən xəstəxana ilə tanış olarkən bir daha gördüm ki, doğrudan da bütün işlər yüksək səviyyədə görülmüşdür.

2 il bundan əvvəl mənim sərəncamımla xəstəxananın təmir işləri başlanmışdır. Buna böyük ehtiyac var idi. Çünki siz yaxşı bilirsiniz ki, burada vəziyyət o qədər də yaxşı deyildi. Şadam ki, qısa müddət ərzində yüksək səviyyəli təmir işləri aparılmışdır. Hazırda bütün lazımi avadanlıqlar var, şərait gözəldir. İndi bu xəstəxana ən yüksək standartlara cavab verir. Bu da təbiidir, çünki Azərbaycanda görülən bütün işlər yüksək standartlara cavab verməlidir. Biz səhiyyə sisteminin təkmilləşdirilməsi işində bu məsələyə xüsusi önəm veririk. Burada cərrahiyyə, doğum, terapiya, reanimasiya şöbələri – yəni bütün lazımi şərait vardır. Həkimlər üçün də gözəl iş şəraiti yaradılıbdır. Əlbəttə, xəstələrə yaxşı tibbi xidmət göstərilməlidir.

Bütövlükdə Azərbaycanda səhiyyə sistemində köklü dəyişikliklər, islahatlar aparılır. Bu islahatlar faktiki olaraq yeni vəziyyətə gətirib çıxarmışdır. Çünki həm Bakıda, həm bölgələrdə yeni, müasir tibb ocaqları yaradılır. Əvvəlki illərdə tikilmiş xəstəxanalar əsaslı şəkildə təmir edilir və yeni xəstəxanalar tikilməkdədir.

Demək olar ki, son 2 il ərzində mənim bölgələrə səfərlərim çərçivəsində biz mütləq xəstəxana açılışını da qeyd edirik. Artıq əksər rayon mərkəzlərində müasir səviyyəyə cavab verən xəstəxanalar vardır. Əminəm ki, 1-2 il ərzində qalan yerlərdə də təmir-tikinti işləri tamamlanacaq və beləliklə, hər bir rayon

mərkəzində ən yüksək standartlara cavab verən xəstəxanalar yaranacaqdır. Bu bizim siyasətimizdir.

Bizim siyasətimiz sosialyönümlü siyasətdir. Sosial məsələlərin həlli daim diqqət mərkəzindədir. Sosial məsələlərin içində səhiyyə xidməti xüsusi yer tutur. Çünki insanların sağlamlığı ən vacib məsələdir. İnsanların sağlamlığı üçün Azərbaycan dövləti bütün lazımi tədbirləri görür və bu məsələyə kompleks şəkildə yanaşır. Saatlı rayonunda Olimpiya İdman Mərkəzi tikilməkdədir və bu da, əlbəttə ki, insanların sağlamlığına xidmət edən məsələdir.

Saatlıda içməli su, kanalizasiya layihələri icra edilir. Əvvəlki dövrdə modul tipli təmizləyici qurğuların fəaliyyəti nəticəsində bir çox kəndlərdə su təchizatı böyük dərəcədə yaxşılaşdırılmışdır. Hazırda Saatlının kompleks su təchizatı və kanalizasiya məsələləri həllini tapmaqdadır. Ümid edirəm ki, 1 il, il yarım ərzində bu böyük layihə də başa çatacaq, beləliklə, insan sağlamlığı üçün ən vacib məsələlərdən biri olan təmiz içməli su təchizatı da həllini tapacaqdır.

Ölkəmizdə sosialyönümlü digər tədbirlər də geniş vüsət almışdır. Məktəb tikintisi – o cümlədən Saatlıda da bu istiqamətdə böyük işlər görülür – digər sosial obyektlərin, sosial infrastrukturun yaradılması məsələləri də uğurla öz həllini tapır. Beləliklə, ölkəmiz hərtərəfli inkişaf edir, ölkəmizin bütün bölgələri inkişaf edir. Vaxtilə qəbul edilmiş regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı uğurla icra edilir. İkinci Dövlət Proqramı gələn ilin sonunda başa çatacaqdır. Beləliklə, nəzərdə tutduğumuz bütün məsələlər, bölgələrin inkişafı ilə bağlı bütün məsələlər öz həllini tapacaqdır.

Səhiyyə məsələlərinə gəldikdə, bir daha demək istəyirəm ki, bu bizim üçün prioritet məsələdir. Bu sahədə aparılmış islahatlar artıq öz gözəl nəticələrini verməkdədir. Gözəl xəstəxanalar, müasir avadanlıqlarla təchiz edilən böyük tibb mərkəzləri, Bakı şəhərində ən yüksək standartlara cavab verən yeni tibb mərkəzləri yaranmışdır. İndi Azərbaycanda ən ağır əməliyyatlar həyata keçirilir. Vaxtilə bu əməliyyatlar üçün

bizim vətəndaşlarımız başqa ölkələrə getməyə məcbur idilər. İndi ən ağır əməliyyatlar da Azərbaycanda yüksək səviyyədə həyata keçirilir. Eyni zamanda, maarifləndirmə işləri də yüksək səviyyədə təşkil olunmalıdır. Mən, demək olar ki, hər bir xəstəxananın, diaqnostika mərkəzinin açılışında qeyd edirəm ki, hər bir vətəndaş ildə 1 dəfə müayinədən keçməlidir. İndi buna şərait də imkan verir. Əvvəlki dövrdə bu mümkün deyildi. Amma indi Saatlı xəstəxanasında ən müasir avadanlıqlar vardır. Beləliklə, hər bir vətəndaş ildə 1 dəfə mütləq müayinədən keçməlidir. Amma elə vətəndaşlar var ki, öz sağlamlıqlarına biganə yanaşırlar. Hesab edirəm ki, bu, dözülməz haldır. Çünki indi şəraitlə bağlı heç bir problem yoxdur. Diaqnostika mərkəzləri, mərkəzi rayon xəstəxanalarında ən müasir diaqnostika avadanlıqları, tomoqrafiya, ultrasəs cihazları – hər şey vardır.

İnsan öz sağlamlığını özü qorumalıdır. Dövlət, əlbəttə, öz tərəfindən bütün lazımi tədbirləri görür. Ancaq insanların sağlamlığı onların əlindədir. İldə 1 dəfə, bir neçə saat vaxt sərf etməklə insan öz sağlamlığını qorumuş olur, pis xəstəliklərdən özünü sığortalayır. Beləliklə, cəmiyyət üçün, ailə üçün öz xidmətlərini göstərmiş olur.

Son illər aparılan islahatlar nəticəsində statistik göstəricilər də yaxşılığa doğru inkişaf edir. Məsələn, insanların ömrünün uzunluğu artır, uşaq ölümü azalır. Bu hər bir ölkənin ümumi inkişafını göstərən amildir. Əfsuslar olsun ki, bu göstərici hələ lazımi səviyyədə deyil, ancaq dinamika müsbətdir. Müasir xəstəxanaların, xüsusilə doğum şöbələrinin fəaliyyəti nəticəsində uşaq ölümü, ümumiyyətlə, dünyanın inkişaf etmiş ölkələrinin səviyyəsində olmalıdır.

Bu statistika daha da müsbət ola bilərdi. Gərək maarifləndirmə işləri daha geniş vüsət alsın və insanlar öz sağlamlığına daha da böyük həssaslıqla yanaşsınlar. Mən bunu arzulayıram.

Mən istəyirəm ki, Azərbaycan xalqı sağlam olsun. Gənc nəsil sağlam yetişsin. Bunun üçün, bir daha demək istəyirəm ki, kompleks tədbirlər görülür. Həm infrastruktur layihələri, dövlət

siyasəti, həm ekoloji tədbirlər, xüsusilə Kür, Araz çayları boyu yerləşən rayonlarda, kəndlərdə ekoloji vəziyyət, içməli su ilə təchizat xüsusi məna daşıyır. Məhz buna görə biz bir neçə il bundan əvvəl sutəmizləyici qurğuların yaradılmasına başlamışıq. Bu gün bunun bəhrəsini görürük. Əminəm ki, vətəndaşlarımız kompleks tədbirlər nəticəsində daha da sağlam olacaqlar. Həkimlərin peşəkarlığı, onların xəstələrə qayğısı, əlbəttə, yüksək səviyyədə olmalıdır. Həkimlər də biliklərini artırmalıdırlar. Təkmilləşmə işləri aparılmalıdır ki, məsələlər daha da uğurla həllini tapsın.

Bu gün mən Saatlı rayonunda bir neçə obyektin açılışında məmnuniyyətlə iştirak etdim. Bu obyektlər bir daha göstərir ki, Saatlı rayonu hərtərəfli inkişaf edir. Bu gün Diyarşünaslıq Muzeyinin, Gənclər Mərkəzinin, Şahmat məktəbinin, Yeni Azərbaycan Partiyasının yeni binasının açılışlarını qeyd etdik. Bu açılışlar özlüyündə bir göstəricidir. Rayonun inkişafını göstərir, rayon gözəlləşir, abadlaşır. Mərkəzi meydan tamamilə yeni görkəm alıbdır və böyük istirahət zonasına çevrilibdir. Mən xatırlayıram, bu meydanın əvvəlki vəziyyəti o qədər də ürəkaçan deyildi. Amma indi insanların istirahəti, rahat yaşaması üçün ən gözəl şərait yaradılıbdır. Kənd yolları tikilir. Mənim sərəncamımla artıq bir neçə kəndi birləşdirən yeni yol çəkilibdir. Yenə də buna ehtiyac vardır. Gələn aylarda əlavə vəsait ayrılacaqdır.

İnsanların normal yaşaması üçün tədbirlər görülür və Saatlı rayonu inkişaf edir. Mən dəfələrlə Saatlıda olmuşam, bu, Prezident kimi, mənim dördüncü səfərimdir. Hər dəfə burada yenilikləri görəndə çox sevinirəm. Sizi – bütün Saatlı sakinlərini bu uğurlar münasibətilə təbrik edirəm, sizə yeni uğurlar, cansağlığı arzulayıram.

**A d e l i n a Ə l ə k b ə r o v a** *(xəstəxananın həkimi):* Əziz Prezident, Sizi bütün tibb işçiləri və rayonumuzun ictimaiyyəti adından ürəkdən salamlayır, Sizə «Xoş gəlmisiniz!» – deyirik. Sizin rayonumuza hər gəlişiniz bizə xoş günlər bəxş edir. Bu gün isə yüksək zövqlə yenidən qurulan bu xəstəxana biz tibb işçiləri və

rayon sakinləri üçün yeni bir töhfə oldu. Sizin ali diqqətiniz nəticəsində bizim arzularımız reallığa çevrildi. Bu gün yeni, dünya standartlarına cavab verən avadanlıqlarla, tibbi ləvazimatla təchiz olunmuş xəstəxana bizim ixtiyarımıza verildi. İndi bizim şəraitimiz çox gözəldir. Xəstəxanada doğum, reanimasiya, ginekologiya, cərrahiyyə, pediatriya və digər şöbələrdə əsaslı təmir işləri aparılmış və Saatlı əhalisinə yüksək tibbi xidmət göstərmək üçün bütün şərait yaradılmışdır.

Əlbəttə, biz tibb işçiləri başa düşürük ki, belə bir xəstəxanada işləmək özü də böyük məsuliyyətdir. Biz Sizi əmin edirik ki, bundan sonra da səylə çalışacaq, biliklərimizi artıracaq, qüvvə və bacarığımızı rayonumuzun sakinlərinin sağlamlığına yönəldəcəyik. Mən fürsətdən istifadə edib səhiyyəmizin, təhsilimizin, mədəniyyətimizin uğurlarında böyük xidməti olan həmkarımız Mehriban xanıma Saatlı camaatı adından böyük minnətdarlığımızı bildirmək istəyirəm.

Əziz Prezident! Saatlı rayonunda Azərbaycanın bütün regionlarındakı kimi, yenidənqurma işləri aparılır. Salınan parklar, istirahət mərkəzləri, tikilən uşaq bağçaları, məktəblər və nəhayət, bu gün istifadəyə verilən bu yeni xəstəxana Sizin rayonumuzun əhalisinə böyük diqqətinizin nəticəsidir. Doğma Azərbaycanımızın tərəqqisi naminə yorulmaz fəaliyyətinizdə Sizə uğurlar diləyirik. Sizə və ailənizə cansağlığı arzulayırıq. Allah Sizi qorusun!

## Saatlı–Musalı–Məzrəli avtomobil yolunun Araz çayı üzərindəki körpüsünün yenidənqurmadan sonra açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev oktyabrın 27-də Saatlı–Musalı–Məzrəli avtomobil yolunun Araz çayı üzərindəki körpüsünün yenidənqurmadan sonra açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı 2013-cü ildə inşasına başlanılacaq və istismara veriləcək avtomobil yollarının, eləcə də körpünün yeni-*

*dənqurmadan əvvəlki və sonrakı vəziyyətini əks etdirən stendlərə baxdı.*

*Nəqliyyat naziri Ziya Məmmədov Azərbaycan prezidentinə 2013-cü ildə inşasına başlanılacaq və tikintisi başa çatdırılacaq avtomobil yolları haqqında məlumat verdi. Diqqətə çatdırıldı ki, Hacıqabul–Bəhrəmtəpə istiqamətində 112 kilometr, Ağsu–Kürdəmir–Bəhrəmtəpə istiqamətində 94 kilometr, Kürdəmir–Yevlax istiqamətində 85 kilometr, Göyçay–Ucar istiqamətində 20 kilometr, Bərdə–Tərtər istiqamətində isə 18 kilometr yolun inşası nəzərdə tutulmuşdur. Bu yollar üzərində ümumilikdə 40 körpü tikiləcəkdir. Araz çayı üzərindəki körpünün texniki göstəriciləri ilə tanış olan dövlətimizin başçısına bildirildi ki, Saatlı şəhərini İmişli şəhəri ilə birləşdirən yerli əhəmiyyətli avtomobil yolunun üzərində salınan bu qurğu 7 aşırımdan ibarətdir. Körpünün yenidən qurulmasına Nəqliyyat Nazirliyinin sifarişi ilə «Azərkörpü» ASC tərəfindən ötən ilin iyulunda başlanılmışdır.*

*Prezident İlham Əliyev körpünün rəmzi açılışını bildirən lenti kəsdi.*

*Dövlətimizin başçısı körpünün üzərindən ətrafı seyr etdi.*

*Azərbaycan prezidenti görülmüş işləri yüksək qiymətləndirdi, yeni salınacaq yolların keyfiyyətlə və vaxtında tikilməsi ilə bağlı tapşırıqlarını verdi.*

## BEYLƏQAN RAYONUNA SƏFƏR

*28 oktyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 28-də Beyləqan rayonuna səfərə gəlmişdir.*

*Dövlətimizin başçısı Beyləqan şəhərinin mərkəzindəki Heydər Əliyev parkında ümummilli liderimizin abidəsini ziyarət etdi.*

*Beyləqan Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Abdullayev prezident İlham Əliyevə abidənin ətrafında aparılan abadlıq-quruculuq işləri barədə məlumat verdi. Bildirildi ki, əsaslı şəkildə yenidən qurulan Heydər Əliyev parkında rayon sakinləri, eləcə də qonaqların istirahətinin mənalı təşkili üçün hərtərəfli şərait yaradılmışdır.*

### Heydər Əliyev Mərkəzinin açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 28-də Beyləqanda Heydər Əliyev Mərkəzinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı Mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Bildirildi ki, ulu öndər Heydər Əliyevin xatirəsi ölkəmizin hər yerində olduğu kimi, Beyləqanda da daim əziz tutulur. Şəhərdə yeni tikilən Heydər Əliyev Mərkəzi ümummilli liderin xatirəsinə dərin ehtiramın nümunəsidir. Mərkəzdə ulu öndərin həyat və fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən fotolar və eksponatlar yer almışdır. Burada dünyanın nüfuzlu siyasi xadimlərindən biri olan Heydər Əliyevin müdrik fəaliyyəti nəticəsində Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun möhkəmləndirilməsi, müstəqilliyin ilk illərində ölkəmizdə vətəndaş müharibəsinin qarşısının alınması, Azərbaycan iqtisadiyyatının ağır böhran vəziyyətindən çıxarılaraq inkişaf yoluna qədəm*

qoyması, qüdrətli ordu quruculuğu istiqamətində həyata keçirilən mühüm tədbirləri əks etdirən fotolara geniş yer verilmişdir.

Bildirildi ki, ümummilli liderin xatirəsinin əbədiləşdirilməsi baxımından böyük əhəmiyyəti olan Mərkəzdə ulu öndərin həyatının və çoxşaxəli dövlətçilik fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən materiallar, şəkillər, tarixi sənədlər, eksponatlar, o cümlədən müxtəlif illərdə Beyləqana səfərləri ilə bağlı fotolar nümayiş etdirilir. Burada kompüterlər və digər ən müasir avadanlıqlarla təchiz olunan xidməti otaqlar, məktəblilərin Azərbaycanın zəngin tarixini dərindən öyrənmələri üçün xüsusi dərnəklər fəaliyyət göstərəcəkdir.

Mərkəzin birinci mərtəbəsində rəsm studiyası, fotostudiya, elektron kitabxana, internet otağı, xarici dil kursu, xalçaçılıq və virtual siniflər yerləşir. Burada, həmçinin akt, konfrans və ekspozisiya zalları yaradılmışdır. Ekspozisiya zalında ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətini, xarici ölkələrdə və respublikamızın regionlarında keçirdiyi görüşləri əks etdirən fotolar yer almışdır. Burada tarixən Azərbaycan ərazisində mövcud olmuş dövlətlər və onların bayraqları xüsusi lazer görüntüləri vasitəsilə nümayiş olunur. Kitabxanada ulu öndər Heydər Əliyevə və prezident İlham Əliyevə həsr olunan kitablar, jurnallar, qəzetlər və müxtəlif nəşrlər toplanmışdır.

Prezident İlham Əliyev Mərkəzin Xatirə kitabına ürək sözlərini yazdı.

Sonra Azərbaycan prezidenti Ağcabədi və Beyləqan rayonlarında yaradılan özəl pilot taxılçılıq təsərrüfatlarının layihəsini və İqtisadi İnkişaf Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu vasitəsilə verilmiş güzəştli kreditlərə dair məlumatları əks etdirən stendlərlə tanış oldu.

İqtisadi İnkişaf naziri Şahin Mustafayev Aran iqtisadi rayonunun iqtisadi potensialı, göstəriciləri, sosial və infrastruktur layihələri, istehsal və emal müəssisələri və digər görülmüş işlər, Sahibkarlığa Kömək Milli Fondu vasitəsilə verilmiş güzəştli kreditlərin dinamikası, yaradılmış yeni iş yerləri, maliyyələş-

*dirilmiş müasir texnologiyaların tətbiqinə əsaslanan layihələr barədə məlumat verdi. Bildirildi ki, fond tərəfindən indiyədək 14 min 600-dən artıq sahibkara 910 milyon manatdan çox güzəştli kredit verilmişdir. Bu kreditlər hesabına 103 mindən çox iş yerinin yaradılması nəzərdə tutulur. Verilmiş kreditlərin 63 faizi aqrar sektorun, 33 faizi sənayenin, 4 faizi isə turizmin payına düşür.*

*Bildirildi ki, fond vasitəsilə müasir texnologiyaların tətbiqinə əsaslanan 236 layihənin maliyyələşdirilməsinə 460 milyon manat kredit verilmişdir. Dövlətin güzəştli kreditləri hesabına rəqabətqabiliyyətli və ixracyönümlü məhsullar istehsal edən kiçik və orta qeyri-neft sənaye müəssisələrinin yaradılması respublikanın müxtəlif yeyinti və digər sənaye məhsullarına olan tələbatının yerli istehsal hesabına ödənilməsi ilə yanaşı, ölkənin ixrac potensialının artırılmasında mühüm əhəmiyyətə malikdir.*

*Şahin Mustafayev prezident İlham Əliyevin tapşırığı ilə özəl pilot taxılçılıq təsərrüfatlarının yaradılması ilə əlaqədar görülən işlər barədə də məlumat verdi.*

## ARAN VƏ YUXARI QARABAĞ BÖLGƏSİNDƏ FƏALİYYƏT GÖSTƏRƏN SAHİBKARLARLA GÖRÜŞ*

*Azərbaycan prezidenti İlham Əliyevin iştirakı ilə oktyabrın 28-də Beyləqanda Heydər Əliyev Mərkəzinin akt zalında Aran və Yuxarı Qarabağ bölgələrində fəaliyyət göstərən sahibkarlarla görüş keçirilmişdir.*

*Dövlət başçısı görüşdə giriş nitqi söylədi:*

– Həm Bakıda, həm bölgələrdə sahibkarlarla görüşlərim mütəmadi xarakter daşıyır. Bugünkü görüş də bölgənin sahibkarları ilə keçirilir. Əminəm ki, müzakirə ediləcək məsələlər bu bölgənin biznes mühitinin yaxşılaşdırılmasına öz töhfəsini verəcək və biz istədiyimizə nail olacağıq.

Son illərdə Azərbaycanın regionlarında böyük quruculuq işləri aparılır. 2 Dövlət Proqramı qəbul edilmişdir. 2004–2008-ci illəri və 2009–2013-cü illəri əhatə edən dövlət proqramları uğurla icra edilir. Böyük həcmdə investisiyalar qoyulmuşdur və bu proses davam etdirilir. 2004-cü ildən bu günə qədər 90 milyard dollardan çox vəsait qoyulmuşdur. Təkcə bu ilin 9 ayında bu məbləğ 16 milyard dollara çatmışdır. Bu çox böyük rəqəmdir. Nəzərə alsaq ki, son illər ərzində hər il təxminən eyni məbləğdə investisiya qoyulur, təsəvvür etmək çətin deyil ki, bu nə qədər böyük əhəmiyyətə malik olan məsələdir.

---

* Аран вя Йухары Гарабаь бюлэяляриндя фяалиййят эюстярян сащибкарларла эюрцшdə Игтисади İнкишаф назири Шащин Мустафайев, «Гарабаь Тахыл» мцяссисясинин рящбяри Ряъяб Оруъов, «Араз» дамазлыг гушчулуг фабрикинин рящбяри Ялиф Щейдяров вя Фцзули Сойудуъу Анбарынын рящбяри Айдын Щцсейнов чыхыш етдиляр.

Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı, hesab edirəm ki, son illər ərzində ölkəmizi hərtərəfli inkişaf etdirən əsas alət olmuşdur.

Bu proqram qəbul olunanda hədəflər də müəyyən edilmişdi və hədəflər müxtəlif istiqamətləri əhatə edirdi. Ancaq bir sözlə demək mümkündür ki, əsas hədəf ölkə iqtisadiyyatını şaxələndirmək idi və neft-qaz amilindən asılılığı azaltmaq məqsədləri daşıyırdı. Hesab edirəm ki, biz bu hədəflərə çatmışıq, bütün bölgələrdə quruculuq, abadlıq, infrastruktur işləri aparılır. Bölgələrlə şəhərlər arasında, yəni paytaxt arasında fərq azalır. Bu gözəl nəticələri biz gündəlik həyatda, statistik göstəricilərdə də müşahidə edirik.

Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə 900 milyon manatdan çox vəsait ayrılmışdır. Təkcə bu il bu məbləğ 200 milyon manatdır. Gələn il 300 milyon manat olacaqdır. Bu, bölgələrin inkişafına verilən ən böyük töhfələrdən biridir. Çünki hər bir layihə ölkə iqtisadiyyatının şaxələndirilməsinə xidmət göstərir. Hər bir layihə iqtisadiyyatımızın real sektoruna qoyulan investisiyalardır. Bu investisiyaların mAhiyyəti ondan ibarətdir ki, investisiyalar ilk növbədə, dövlət siyasətinə uyğun şəkildə qoyulur, digər tərəfdən, dövlətlə özəl sektor arasında yeni, çox sağlam münasibətlər formalaşır. Çünki Sahibkarlığa Kömək Milli Fondunun xətti ilə həyata keçirilən layihələrin, demək olar ki, hamısı həm dövlətin, həm özəl sektorun kapitalı hesabına həyata keçirilir. Verilən güzəştli kreditlər və eyni zamanda, sahibkarların öz vəsaiti artıq bu tərəfdaşlığı möhkəmləndirir.

Hesab edirəm ki, bizim təcrübəmiz dünya miqyasında çox dəyərlidir, çox uğurludur. Bu təcrübə onu göstərir ki, dövlətlə özəl sektor arasında birlik var və mən dəfələrlə qeyd etmişəm, bir daha demək istəyirəm ki, ölkənin gələcək inkişafı sahibkarlığın uğurlu inkişafından asılı olacaqdır. Əlbəttə, bizim böyük enerji resurslarımız vardır və biz bu resurslardan səmərəli şəkildə istifadə edirik. Yenə də deyə bilərəm ki, dünya miqyasında ən səmərəli üsul və yanaşma məhz

Azərbaycandadır. Bizim təcrübəmiz öyrənilir. Xarici tərəfdaşlarla enerji sahəsində əməkdaşlığımız nümunəvi xarakter daşıyır. Çünki bir tərəfdən, biz investorların investisiyalarını lazımi şəraitdə, lazımi səviyyədə qoruyuruq. Digər tərəfdən, dövlət maraqlarını maksimum dərəcədə müdafiə edirik. Bu sahədə əldə edilmiş təcrübə, əlbəttə ki, başqa sahələrdə də tətbiq edilir. Son illər ərzində Azərbaycanda qoyulan böyük həcmdə xarici sərmayələr daxili biznes mühitini də böyük dərəcədə yaxşılaşdırmışdır.

Xarici sərmayələr nəticəsində icra edilən kontraktlarda iştirak etmiş şirkətlər gücləndi, böyüdü, öz vəsaitini əldə etdi və öz növbəsində ölkəmizin qeyri-neft sektorunun inkişafına maliyyə dəstəyini göstərmiş oldu. Yəni bu, vacib məsələlərdən biridir və gələcəkdə vacib məsələ kimi qalacaqdır. Ancaq bununla bərabər, qeyri-neft sektorunun inkişafı bizim üçün prioritetdir və regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının qəbul olunması və icra edilməsi məhz bu məqsədi daşıyır. Deyə bilərəm ki, bu ilin statistik göstəriciləri bir daha nümayiş etdirir ki, biz bu sahədə böyük uğurlara nail ola bilmişik. 9 ayda qeyri-neft sektorumuz 10 faizdən çox artmışdır. Qeyri-neft sənayemiz 7 faizdən çox artmışdır. Beləliklə, ölkə iqtisadiyyatının şaxələndirilməsi prosesi davam etdirilir.

Kreditlərin verilməsi və dövlət tərəfindən layihələrin icrasına nəzarətin gücləndirilməsi öz müsbət rolunu oynayır. Eyni zamanda, İqtisadi İnkişaf Nazirliyi tərəfindən hazırlanmış müxtəlif layihələr üzrə biznes-planlar, əlbəttə ki, sahibkarların işini də asanlaşdırır. Çünki sahibkarlıqla məşğul olmaq üçün təkcə ilkin kapital kifayət etməz. Eyni zamanda, düşünülmüş, sınaqdan keçmiş və beynəlxalq təcrübəyə əsaslanan biznes-plan da lazımdır. Dövlətimiz bu sahədə sahibkarlara öz yardımını əsirgəmir. Həm güzəştli kreditlər, eyni zamanda, müxtəlif layihələrin uğurla icra edilməsi üçün tövsiyələrini verir, inkişaf etdiriləcək istiqamətləri müəyyən edir. Eyni zamanda, sahibkarlara göstərilən dövlət dəstəyi və Prezident tərəfindən

göstərilən dəstək, əlbəttə ki, sahibkarları həm ruhlandırır, həm də onlar üçün yeni gözəl şərait yaradır.

Onu da qeyd etmək istəyirəm ki, bölgə sahibkarlarının uğurlu fəaliyyəti üçün yerli icra orqanlarına da mütəmadi qaydada göstərişlər verilir ki, sahibkarların fəaliyyətini dəstəkləsinlər, onların fəaliyyətini gücləndirsinlər və onlar üçün bütün lazımi şəraiti yaratsınlar. Çünki bir daha demək istəyirəm, ölkə iqtisadiyyatının gələcək inkişafı sahibkarlığın inkişafından bilavasitə asılıdır.

Biz gələcək illər üçün yeni proqramlar hazırlayırıq. Bu da təbiidir. Çünki həyat yerində durmur. Deyə bilərəm ki, 2004–2013-cü illəri əhatə edən 2 Dövlət Proqramının uğurlu icrası nəticəsində bölgələrdə mövcud olan əsas infrastruktur layihələri başa çatacaqdır. Bu layihələrin böyük əksəriyyəti artıq başa çatmışdır. Əvvəlki illərdə müxtəlif sahələr üzrə mövcud olan problemlər artıq yoxdur. Bu problemlər artıq aradan qaldırılıb. Vaxtilə elektrik enerjisi ilə təchizat narahatlıq yaradırdı. Artıq bu problem aradan qaldırılmışdır və beləliklə, sahibkarların fəaliyyəti, yeni müəssisələrin yaradılması üçün gözəl şərait vardır.

Yollarla bağlı problemlər öz həllini tapmaqdadır. Bütün magistral yollarda əsaslı təmir işləri davam etdirilir, yaxud da ki, başa çatmışdır. Şəhərlərarası yollar təmir edilir. Biz indi kənd yollarının tikintisinə ciddi şəkildə başlamışıq. Gələn illər ərzində bu proses davam etdiriləcəkdir.

Qazlaşdırma ilə bağlı məsələlər, kənd təsərrüfatı texnikasının çatışmazlığı sahibkarlığı əngəlləyən ən böyük məsələ idi. Vaxtilə «Aqrolizinq», «Aqroservis» dövlət şirkətlərinin yaradılması bu istiqamətdə atılan çox önəmli addım idi. Dövlət öz tərəfindən texnikanı alır və lizinq şərtləri ilə sahibkarlara icarəyə verir. Yəni bu problemi də dövlət öz üzərinə götürmüşdür. Eyni zamanda, kənd təsərrüfatında fəaliyyət göstərən sahibkarlar torpaq vergisindən başqa, bütün vergilərdən azaddırlar və onlara lazımi səviyyədə subsidiyalar verilir – həm yanacaq, həm gübrə, həm güzəştli kreditlər. Dövlət

dəstəyi, infrastruktur layihələrinin dövlət tərəfindən icra edilməsi prosesi bu gözəl şəraiti yaradır. Sahibkarlar da öz növbəsində bu imkanlardan səmərəli şəkildə istifadə etməlidirlər. Onların biznes fəaliyyəti genişləndirilməlidir. İlk növbədə, bu onların özlərinə lazımdır. Eyni zamanda, dövlətə, xalqa lazımdır. Çünki son illər ərzində regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrası nəticəsində ölkəmizdə 1 milyon 100 min yeni iş yeri açılmışdır ki, onların mütləq əksəriyyəti bölgələrdə açılan iş yerləridir.

Beləliklə, işsizlik probleminin aradan qaldırılması istiqamətində çox böyük addım atılmışdır. Bu gün Azərbaycanda işsizlərin sayı 5,3 faizdir. Dünya miqyasında bu ən aşağı göstəricilərdən biridir. İnkişaf etmiş ölkələrin bəzilərində işsizliyin səviyyəsi 25 faizə çatmışdır. İşsizlik kimi böyük bəlanı aradan qaldırmaq, insanlara yeni şərait yaratmaq, yəni işlə təmin etmək siyasəti, deyə bilərəm ki, uğurla nəticələndi. İşsizliyin aradan qaldırılması bilavasitə yoxsulluğun azaldılmasına da xidmət göstərir. Bu sahədə də deyə bilərəm ki, tarixi nailiyyətlər əldə edilibdir. 10 ildən az bir müddətdə yoxsulluğun səviyyəsi 5 dəfə aşağı düşmüşdür, hazırda 7 faizdən bir qədər çoxdur. Əminəm ki, görüləcək tədbirlər nəticəsində biz yoxsulluq kimi böyük bəlanı, ümumiyyətlə, aradan götürəcəyik. İşləmək istəyən hər bir insan işlə təmin edilməlidir. Əlbəttə, yeni iş yerlərinin açılması bundan sonra yalnız sahibkarlığın inkişafı hesabına mümkün olacaqdır. Çünki dövlət qurumlarında artıq bütün struktur islahatları, demək olar ki, başa çatmışdır və dövlət sahəsində yeni iş yerlərinin açılması o qədər də geniş vüsət ala bilməz, buna ehtiyac da yoxdur. Yəni əsas iş yerləri özəl sektorda yaranacaqdır.

Nəzərə almalıyıq ki, Azərbaycanda demoqrafik vəziyyət çox müsbətdir. Bəzi başqa ölkələrdən fərqli olaraq, əhalimizin sayı artır, bu da çox müsbət haldır. Daha da sürətlə artmalıdır. Bu öz növbəsində onu göstərir ki, gələcəkdə iş yerlərinin açılması prosesi davam etdirilməlidir. Yenə də deyirəm, dövlət bu istiqamətdə öz səylərini göstərəcəkdir. Gələcəkdə sahibkarların

fəaliyyəti üçün bütün lazımi tədbirlər görüləcəkdir. Bayaq qeyd etdiyim kimi, gələn il Sahibkarlığa Dəstək Fondunun xətti ilə 300 milyon manat kreditin verilməsi rekord həddir. Bu günə qədər heç vaxt bu məbləğdə vəsait ayrılmamışdır. Hesab edirəm ki, növbəti bir neçə il ərzində biz bu xətti saxlamalıyıq ki, 4-5 ildən sonra artıq verilən kreditlərin qaytarılması hesabına yeni sahibkarlara yeni kreditlərin verilməsi mümkün olsun.

Sahibkarlığın inkişafı həm bölgələrdə, həm şəhərlərdə gedir. Ölkəmizin sənaye potensialının gücləndirilməsi sahəsində böyük işlər görülür, böyük planlarımız vardır. Artıq bu planlar həyata keçirilir. Yeni texnologiya parklarının yaradılması, yeni stimullaşdırma tədbirlərinin görülməsi prosesi başlamışdır. Yaxın gələcəkdə ölkə sənayesinin uğurlu və sürətli inkişafını daha da gücləndirmək üçün yeni stimullaşdırıcı tədbirlər nəzərdə tutulubdur. Yaxın gələcəkdə ictimaiyyət bu məsələlərlə bağlı məlumat əldə edəcəkdir. Bir sözlə, demək istəyirəm ki, sahibkarlığın inkişafı dövlət siyasətidir və dövlət siyasəti kimi qalacaqdır.

Sahibkarlar üçün Azərbaycanda analoqu olmayan şərait yaradılmışdır – dövlət dəstəyi, maliyyə dəstəyi, texniki və intellektual dəstək göstərilir. Sahibkarlar da sadəcə olaraq, bir daha demək istəyirəm ki, bu imkanlardan səmərəli şəkildə istifadə etməlidirlər.

Kənd təsərrüfatı ilə bağlı qarşımızda duran, sahibkarların qarşısında duran əsas məsələ ərzaq təhlükəsizliyimizi tam şəkildə daxili resurslar hesabına təmin etməkdir. Mən bu hədəfi bir neçə il əvvəl qarşıya qoymuşdum. O vaxt özümüzü təminetmə əmsalı çox aşağı səviyyədə idi. Ancaq biz həmişə qarşımıza böyük hədəflər, məqsədlər qoyuruq. Çünki uğura nail olmaq üçün başqa cür imkan olmayacaqdır.

Bir neçə il bundan əvvəl məsələ qoyuldu ki, biz ərzaq təhlükəsizliyimizi daxili imkanlarımız hesabına təmin etməliyik. Deyə bilərəm ki, bu istiqamətlər üzrə böyük uğurlu yol keçmişik. Demək olar ki, hazırda əsas ərzaq məhsulları Azərbaycanda 100 faiz istehsal olunur. O məhsullar ki, hələ

idxalla bağlıdır, yəni idxaldan asılılığımız var, əminəm ki, yaxın gələcəkdə bu asılılıq da aradan qaldırılacaqdır, xüsusilə taxılçılıq sahəsində.

Bildiyiniz kimi, ilkin böyük fermer təsərrüfatlarının yaradılması layihələri bu bölgədə həyata keçirilir. Ağcabədi və Beyləqan rayonlarında iri fermer taxılçılıq təsərrüfatları fəaliyyətə başlamışdır. Biz bu layihələrə böyük ümidlərlə yanaşırıq. Çünki bu layihələr pilot layihələrdir. Baxmayaraq ki, bu layihələr 5 min hektarı əhatə edir, böyük layihələrdir, ancaq birinci təcrübədir. Bu təcrübənin uğurlu nəticələri, əlbəttə, hesab edirəm ki, bu istiqamətdə atılacaq yeni addımlara gətirib çıxaracaqdır. Mən əminəm ki, təcrübə uğurlu olacaqdır. Gələn il biz bu təcrübənin ilkin nəticələrini görəcəyik. Həm məhsuldarlıq böyük dərəcədə artmalıdır, bəlkə də orta məhsuldarlıqdan 2 dəfə çox olmalıdır. Eyni zamanda, yeni əkin sahələrinin dövriyyəyə buraxılması da ərzaq təhlükəsizliyinin təmin edilməsində öz rolunu oynayacaqdır.

Dövlət siyasətinin icrası nəticəsində sahibkarlar üçün yeni imkanlar yaranır. Bu imkanları dövlət yaradır, dövlət siyasəti yaradır. Bu seçilmiş istiqamətlər üzrə dövlət bütün səylərini səfərbər edir. Böyük fermer təsərrüfatlarının yaradılması üçün texnika, suvarma sistemi, gübrələr, güzəştli şərtlərlə verilən kreditlər lazımdır. Bütün bunları dövlət öz üzərinə götürür. Yəni bir daha demək istəyirəm ki, Azərbaycanda sahibkarlar üçün yaradılan şəraiti heç bir başqa ölkədə görmək mümkün deyildir. Sahibkarlar da birinci növbədə bundan istifadə etməlidirlər, bunu qiymətləndirməlidirlər. Eyni zamanda, sahibkarlar sosial məsuliyyəti də dərk etməlidirlər və hiss etməlidirlər.

Mən çox şadam ki, sahibkarlarımız bölgələrdə müxtəlif sosial layihələrdə iştirak edirlər. Bəziləri məktəb tikintisi, bəziləri məktəb təmiri, bəziləri isə digər xeyriyyə işləri ilə məşğuldurlar. Mən bunu alqışlayıram. Hesab edirəm ki, dövlət tərəfindən sahibkarlara verilən güzəştlər, maliyyə dəstəyi və yaradılan şərait onların bu işlərdə daha da fəal olmalarını təmin

edəcəkdir. Bu gün isə biz bu bölgənin müxtəlif layihələri haqqında danışacağıq.

## YEKUN NİTQİ

Biz bu yaxınlarda Nazirlər Kabinetinin toplantısında ölkəmizin 9 aylıq sosial-iqtisadi inkişafının yekunlarını müzakirə etdik. Bir daha deyə bilərəm ki, bu yekunlar çox gözəldir, ümidvericidir və əslində gördüyümüz işləri tamamilə əks etdirir. Çünki hər bir statistik göstəricinin arxasında görülən işlər və düşünülmüş siyasət dayanır. Təsadüfi deyil ki, son illərdə, xüsusilə son 2 il ərzində qeyri-neft sektoru daha da sürətlə inkişaf etməyə başlamışdır. Bu, təsadüfi deyil, təbiidir. Çünki qeyri-neft sektorunun inkişafı üçün müəyyən qədər vaxt lazım idi. Biz 2004-cü ildə birinci regional proqramı qəbul etdikdə məhz bu reallıqları nəzərə alırdıq və bilirdik ki, niyyətimizi ifadə etmək, konkret layihələrə çevirmək üçün vaxt lazımdır. Biz çox fəal işləmişik və düşünülmüş iqtisadi islahatlar artıq öz gözəl nəticələrini verməkdədir.

Biz indi ərzaq təhlükəsizliyi məsələlərini uğurla həll edirik. Baxmayaraq ki, heç bir dövrdə Azərbaycan özünü əsas ərzaq məhsulları ilə təmin edə bilmirdi. Sovet dövründə vahid xalq təsərrüfatı kompleksi mövcud idi və Azərbaycan əsas ərzaq məhsullarını başqa respublikalardan idxal edirdi. Biz üzüm, pambıq, meyvə, tərəvəz məhsullarını ixrac edirdik. Ancaq ət, yağ, süd, quş əti, buğda – bütün bu məhsulları başqa respublikalardan gətirirdik. Bugünkü vəziyyət onu göstərir ki, biz özümüzü əsas ərzaq məhsulları ilə ya tam şəkildə təmin etmişik, ya da ki, bu məqsədə böyük dərəcədə yaxınlaşmışıq. Ətlə bağlı məsələlər öz həllini tapmışdır və biz özümüzü ətlə təxminən 100 faiz səviyyəsində təmin edirik. Gələcəkdə heyvandarlığın inkişafı nəticəsində bizdə ixrac imkanı da yaranacaqdır.

İxrac haqqında da geniş mənada fikirləşməliyik. Biz ənənəvi ixrac məhsullarının həcmini artırmaqla, eyni zamanda, əvvəlki

illərdə idxal edilən malların gələcəkdə ixracı haqqında düşünürük və bu barədə müvafiq göstərişlər verilmişdir. Artıq burada deyildi, biz yaxın illərdə özümüzü quş əti ilə tam şəkildə təmin edəcəyik. Bu da düşünülmüş siyasət nəticəsində mümkün olmuşdur. Çünki biz statistik göstəriciləri təhlil edərkən görürdük ki, özümüzü quş əti ilə heç yarıya qədər də təmin edə bilmirik. Bu məqsədlə sahibkarlığın inkişafı üçün kreditlərin verilməsi məhz bu istiqamətə yönəlmişdir. Hazırda icra olunan və gələcəkdə icra ediləcək layihələr bu imkanı bizə yaradacaqdır. Yəni biz özümüzü 100 faiz quş əti ilə təmin edəcəyik.

Biz heç vaxt özümüzü süd və süd məmulatları ilə təmin edə bilməmişdik. Bu gün də özümüzü təqribən 70 faiz səviyyəsində təmin edirik. Ancaq əminəm ki, 1-2 ilə biz özümüzü bu məhsul üzrə də 100 faiz təmin edəcəyik.

Bildiyiniz kimi, bir neçə ildir ki, Azərbaycana cins mal-qara gətirilir. Bu da dövlət təşəbbüsü idi. Buna böyük ehtiyac var idi. Artıq bir neçə ildir ki, cins mal-qara gətirilir və beləliklə, bu, südçülüyün və heyvandarlığın inkişafı üçün böyük bir dəstək olacaqdır. Mən çox şadam ki, dövlət tərəfindən göstərilən təşəbbüsə sahibkarlar da qoşulmuşlar. Artıq bir neçə yerdə, bir neçə rayonda sırf sahibkarların öz vəsaiti hesabına böyük fermalar, heyvandarlıq kompleksləri tikilir və bu proses geniş vüsət almışdır. Eyni zamanda, bir neçə il bundan əvvəl kənd təsərrüfatının inkişafı ilə bağlı məsələləri təhlil edərkən gördük ki, məhsulların saxlanılması üçün bizdə kifayət qədər şərait yoxdur. Yəni nəinki müasir şərait, ümumiyyətlə, şərait yoxdur. Beləliklə, soyuducu anbarların tikintisinə qərar verildi və biz bu problemi qısa müddət ərzində həll etdik. Bu həm sahibkarlığın inkişafına verilən böyük dəstəkdir, eyni zamanda, qiymətlərin tənzimlənməsi üçün vacib olan vasitədir. Yəni deyə bilərəm ki, biz əsas problemləri 2 ilə aradan qaldırdıq. Amma kənd təsərrüfatı məhsulları istehsalının artımını nəzərə alaraq, əlbəttə ki, soyuducu anbarların tikintisi davam etdirilməlidir. Həmçinin taxıl anbarlarının tikintisi davam etdirilir və taxıl istehsalının,

ərzaq buğdasının istehsalının artırılmasını nəzərə alaraq, yaxın illərdə biz bu istiqamətə əlavə vəsaitin ayrılmasına da, əlbəttə ki, baxacağıq.

Yəni biz öz iqtisadi imkanlarımızla, öz gücümüzə yaradılan iqtisadi imkanlardan çox səmərəli şəkildə istifadə edirik. İlk növbədə, ölkə iqtisadiyyatının şaxələndirilməsi istiqamətində vəsaitlər yönəldilir. Eyni zamanda, biz sosial məsələlərin həllinə də lazımi səviyyədə vəsait ayırırıq. İldən-ilə maaşlar, pensiyalar artır. Sovet vaxtından qalan əmanətlərə kompensasiya verilməsi prosesi başlamışdır və MDB məkanında ən qısa müddət ərzində, yəni 2 ilə bu əmanətlər ən yüksək əmsalla qaytarılacaqdır.

Ölkə iqtisadiyyatı artıq dünya miqyasında rəqabət-qabiliyyətli iqtisadiyyatlar arasındadır. Yaxşı xatırlayıram ki, neft strategiyamızın ilkin illərində bəzi xarici təhlilçilər, müşahidəçilər belə fərziyyələr irəli sürürdülər ki, Azərbaycan neftdən asılı ölkəyə çevriləcəkdir, Azərbaycanda «Holland sindromu» olacaqdır, yəni iqtisadiyyat birtərəfli inkişaf edəcəkdir. Mən çox şadam ki, artıq bu söhbətlərdən əsər-əlamət qalmayıbdır. Çünki bizim düşünülmüş iqtisadi siyasətimiz artıq bütün dünyaya Azərbaycanın imkanlarını təqdim etdi. Davos İqtisadi Forumunun hesablamalarına əsasən – bu da dünya miqyasında ən mötəbər iqtisadi qurumlardan biridir – Azərbaycan iqtisadiyyatı rəqabətqabiliyyətliliyinə görə 46-cı yerdə, MDB məkanında birinci yerdədir. Bu, real iqtisadi islahatların nəticəsidir.

Ölkə iqtisadiyyatının şaxələndirilməsi sadəcə olaraq, bir xoş niyyət deyil, bu, artıq reallıqdır. Gələcək illərlə bağlı bizim çox konkret, dəqiq düşünülmüş konsepsiyamız, strategiyamız və konkret layihələrimiz vardır. Hazırda yaranmaqda olan yeni, böyük sənaye mərkəzləri, böyük sənaye müəssisələri, texnologiya parkları artıq bir neçə ildən sonra Azərbaycanın sənaye potensialını yüksək dərəcədə artıracaq və bundan sonrakı illərdə iqtisadiyyatımız qeyri-neft sektorunun hesabına inkişaf etməlidir.

Bu şəraiti biz yaratdıq, yenə də deyirəm, düşünülmüş iqtisadi siyasət nəticəsində. Bizim xarici dövlət borcumuz ümumi daxili məhsulun təqribən 7-8 faizini təşkil edir. İndi böhran içində olan ölkələrdə bu rəqəm 120–150 faizdir. Böhrana o qədər də çox məruz qalmayan inkişaf etmiş ölkələrdə bu rəqəm 70–80 faizdir. Bizdə cəmi 7-8 faizdir. Nəyə görə? Çünki biz lazım olmayan borcları götürmədik, populist vədləri icra etmək üçün, necə deyərlər, borclanmadıq. Biz hər şeyi düşünülmüş şəkildə edirik və elə edirik ki, gələcək nəsillər də bu borcların qaytarılması ilə məşğul olmasınlar. Ümumiyyətlə, mən hesab edirəm ki, yaxın gələcəkdə biz xarici dövlət borcunu daha da aşağı salmalıyıq, baxmayaraq ki, bu borcun böyük hissəsi beynəlxalq maliyyə qurumlarının vəsaiti hesabına formalaşmışdır. Bu vəsaitlər uzunmüddətli və aşağı faizlə verilmiş vəsaitlərdir. Yəni bunları belə tələm-tələsik qaytarmağa o qədər də böyük ehtiyac yoxdur. Ancaq bununla bərabər, hesab edirəm ki, növbəti illərdə dövlət xarici borcumuz daha da aşağı düşməlidir ki, biz bu problemi tamamilə aradan götürək.

Bizim bütün statistik göstəricilərimiz ən yüksək səviyyədədir. Böhranlı illərdə, bir neçə il bundan əvvəl baxmayaraq ki, neftin qiyməti kəskin şəkildə aşağı düşmüşdü, Azərbaycan əhalisi bunu hiss etmədi. Yəni biz hansısa obyektiv səbəbləri gətirərək, nə manatın məzənnəsini aşağı saldıq, nə qiymətlərin şişirdilməsinə imkan verdik. Nəyə görə? Çünki bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşıdır. İqtisadi islahatların aparılması, ölkə iqtisadiyyatının şaxələndirilməsi siyasətimizin təməlində də insan amili vardır. Ona görə biz təhlillər apararkən həmişə sosial və iqtisadi inkişafın yekunlarını təhlil edirik. Çünki bu 2 məfhum ayrılmazdır. Ancaq güclü sosial siyasət aparmaq üçün güclü iqtisadiyyat lazımdır. İqtisadiyyatımız güclüdür. Onun özəlliyi və üstünlüyü ondan ibarətdir ki, iqtisadiyyatımız heç kimdən asılı deyildir. Biz heç bir xarici qurum qarşısında, necə deyərlər, borclu deyilik. Öz siyasətimizi özümüz aparırıq, o cümlədən siyasi müstəvidə və iqtisadi sahədə.

Yenə də deyirəm, borcun səviyyəsi o qədər aşağıdır ki, ümumiyyətlə, biz bu barədə heç fikirləşməyə bilərik. Bu gün bölgə sahibkarları ilə keçirilən bu müşavirədə mən bir daha vurğulamaq istəyirəm ki, əsas məqsədə çatmaq üçün bizə bir neçə il vaxt lazımdır ki, ərzaq təhlükəsizliyimizi tamamilə təmin edək və gələcəkdə ixrac potensialımızı gücləndirək. Biz bu məsələlərlə əlaqədar strategiyamızı artıq indidən müəyyən etməliyik. Mən əminəm ki, bir neçə ildən sonra əsas ərzaq məhsullarının istehsalı bizdə böyük ixrac potensialı da yaradacaqdır.

Biz ixrac bazarlarına daha da böyük həcmdə çıxmalıyıq. Yeni bazarları aramalıyıq, araşdırmalıyıq. Çıxmalıyıq ki, ixracın olmaması, yaxud da ki, məhdud olması bizim kənd təsərrüfatının ümumi inkişafını əngəlləməsin. Çünki əgər ixrac imkanlarımız olmasa və daxili bazar tamamilə təmin edilsə, o zaman kənd təsərrüfatının inkişafında müəyyən durğunluq yarana bilər. Yəni biz qabaqcadan bütün tədbirləri görməliyik ki, kənd təsərrüfatının inkişafı daha da geniş vüsət alsın. Onu da qeyd etməliyəm ki, mən bir neçə il bundan əvvəl, bu il və bu günlərdə görülən, gələn illərdə görüləcək tədbirlər nəticəsində kənd təsərrüfatının daha da sürətli inkişafını gözləyirəm, bunu görürəm. Bu ilin 9 ayında kənd təsərrüfatı 6 faizdən çox artmışdır. Görülən tədbirlər nəticəsində və bu gün sahibkarların çıxışlarında yeni layihələr haqqında verilən məlumat kənd təsərrüfatının inkişafını daha da sürətləndirəcəkdir. Biz, bir daha demək istəyirəm ki, bu sahədə düşünülmüş siyasət aparırıq. Bu həm iqtisadi inkişafdır, həm də sosial təminatdır, işsizliklə, yoxsulluqla mübarizədir, iqtisadiyyatın şaxələndirilməsidir, ölkə potensialının gücləndirilməsidir. Çünki hər ölkənin gücünü müəyyən edən onun iqtisadi dayaqlarıdır. İqtisadi dayaqlar olmadan, iqtisadiyyat asılı vəziyyətdə olan halda heç vaxt ölkə müstəqil siyasət apara bilməz. Bizim müstəqil siyasətimizin təməlində, əlbəttə ki, Azərbaycan xalqının iradəsi dayanır, eyni zamanda, öz gücümüzə güvənməyimiz dayanır. Biz öz gücümüzə, Azərbaycan xalqının istedadına, zəhmətinə arxalanırıq. İqtisadiyyatımız nə qədər güclü olsa, bizim siyasi addımlarımız da o qədər cəsarətli və uğurlu olacaqdır.

Mən əminəm ki, bölgə sahibkarları bütün vəzifələri yaxşı başa düşür və dövlət tərəfindən verilən tapşırıqları yerinə yetirəcəklər. Bu tapşırıqları yerinə yetirməklə, ilk növbədə, öz maddi imkanlarını genişləndirəcəklər, eyni zamanda, bölgədə yaşayan insanlar üçün yeni iş yerlərinin, yeni gözəl şəraitin yaradılması istiqamətində də səylərini göstərəcəklər. O ki qaldı dövlət siyasətinə, bir daha demək istəyirəm ki, dövlət siyasəti bu istiqamətdə tamamilə aydındır, birmənalıdır. Sahibkarlığa alternativ yoxdur. Bazar iqtisadiyyatı Azərbaycanda tam şəkildə bərqərar olunubdur. Ölkə iqtisadiyyatının 83 faizi özəl sektorda formalaşıb. Yəni bu göstəricilər dövlət siyasətinin nə qədər düzgün olduğunu göstərir. Əminəm ki, dövlət siyasəti bir tərəfdən, sahibkarların vətənpərvərliyi, məsuliyyəti və işgüzarlığı, digər tərəfdən, ölkəmizin uğurlu inkişafını təmin edəcəkdir. Bütün bölgə sahibkarlarına yeni uğurlar və yeni gözəl layihələr arzulayıram. Sağ olun.

## Əsaslı təmir olunmuş və yenidən qurulmuş Mədəniyyət sarayının açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev oktyabrın 28-də Beyləqan rayonuna səfəri çərçivəsində əsaslı təmir olunmuş və yenidən qurulmuş Mədəniyyət sarayının açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı sarayın əvvəlki və hazırkı vəziyyətini əks etdirən fotolardan ibarət stendə baxdı.*

*Məlumat verildi ki, ölkəmizdə mədəniyyətin və incəsənətin inkişafına diqqət bu sahədə çalışan insanlara göstərilən qayğıda öz təzahürünü tapır. Bakı ilə yanaşı, bölgələrdə də mədəniyyət ocaqlarının əsaslı təmir olunması, müasir tipli yeni infrastrukturun yaradılması bu sahənin hərtərəfli inkişafına stimul verir. Beyləqanda əsaslı şəkildə yenidən qurulan və təmir olunan Mədəniyyət sarayı onların sırasındadır. Təmir zamanı işlərin yüksək səviyyədə görülməsinə xüsusi diqqət yetirilib.*

*Binanın foyesində ümummilli lider Heydər Əliyevin büstü qoyulmuşdur.*

*Burada ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin ölkəmizdə mədəniyyətə və incəsənətə göstərdikləri qayğını əks etdirən fotolardan ibarət guşələr yaradılıb. Binanın ətrafında geniş abadlıq və yaşıllaşdırma işləri görülmüşdür.*

*Qeyd olundu ki, uzun müddət təmir edilmədiyindən bina yararsız vəziyyətə düşmüşdü. Mədəniyyət sarayında əsaslı təmir və yenidənqurma işlərinə bu ilin aprelində başlanılmışdır. Sarayın inzibati binasının fasad hissəsi tamamilə yenilənib. Zal, foye və otaqlar yenidən qurulmuş, giriş hissəsi müasir memarlıq üslubunda inşa edilmiş, işıqlandırma sistemi, zəruri inventar və avadanlıqla təchiz olunmuşdur.*

*Dövlətimizin başçısı Mədəniyyət sarayının foyesindəki fotoguşə ilə tanış oldu. Bu fotolarda ulu öndər Heydər Əliyevin mədəniyyət və incəsənət xadimlərinə göstərdiyi yüksək diqqət əksini tapmışdır. Mədəniyyət xadimləri bu gün də ən yüksək səviyyədə qayğı ilə əhatə olunmuşlar. Guşədə, həmçinin ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin Beyləqana səfərlərini əks etdirən fotolar böyük maraq doğurur.*

*Binada yaradılan şəraitlə tanış olan prezident İlham Əliyev kollektivə uğurlar arzuladı.*

## Beyləqan–Kəbirli–Baharabad avtomobil yolunun açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev oktyabrın 28-də Beyləqan–Kəbirli–Baharabad avtomobil yolunun açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı avtomobil yolunun sxematik planını əks etdirən stendə baxdı.*

*Beyləqan Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Abdullayev Azərbaycan prezidentinə məlumat verdi ki, son 10 ildə ölkəmizin yol-nəqliyyat strukturunda əsaslı dəyişikliklər baş vermişdir. Ölkə ərazisindən keçən beynəlxalq əhəmiyyətli*

*magistrallar müasir standartlar səviyyəsində tamamilə yenidən qurulmuşdur. Paytaxtın və rayon mərkəzlərinin küçə və yolları tamamilə abadlaşdırılır. Dövlətimizin başçısının sərəncam və göstərişlərinə əsasən indi əsas diqqət regionlarda kənd və qəsəbələri birləşdirən avtomobil yollarının təmirinə yönəldilib. Bu tədbirlər iqtisadiyyatımızın gündən-günə güclənməsini nümayiş etdirməklə yanaşı, dövlətimizin ölkənin istənilən yerində yaşayan vətəndaşlara göstərdiyi qayğı və diqqəti əks etdirir. Bu proses Beyləqan rayonunda da geniş vüsət almışdır. Rayondakı Beyləqan–Kəbirli–Baharabad avtomobil yolu tamamilə yenidən qurulub.*

*Ümumi uzunluğu 35 kilometr olan və müasir standartlar səviyyəsində qurulan dördüncü kateqoriyalı avtomobil yolunda 2 körpü, 10 boru su keçidi inşa edilmişdir. Beyləqan rayonunun 10 kəndini və Xocavənddən olan məcburi köçkünlərin məskunlaşdıqları yaşayış məntəqəsini birləşdirən həmin yoldan 34 minə yaxın sakin istifadə edəcəkdir. Bu günədək yolun 20,2 kilometrlik hissəsində əsaslı təmir işləri başa çatdırılmışdır. Hazırda yolun qalan hissəsində əsaslı təmirin yekunlaşdırılması işləri davam etdirilir.*

*Prezident İlham Əliyev yolun rəmzi açılışını bildirən lenti kəsdi.*

*Yol ilə tanışlıqdan sonra dövlətimizin başçısı kənd sakinləri ilə görüşdü.*

**İlham Əliyev:** Yeni yolun açılışı münasibətilə sizi təbrik edirəm. Çox gözəl, rahat yoldur. Əvvəlki yol çox bərbad vəziyyətdə idi. Gediş-gəliş də o qədər asan deyildi. Amma indi gözəl, rahat yol çəkildi. Mən buna çox sevinirəm, çox şadam. Şadam ki, mənim sərəncamlarım vaxtında və yüksək keyfiyyətlə yerinə yetirilir. Bildiyiniz kimi, bu yolun çəkilişi mənim imzaladığım sərəncamın əsasında mümkün olmuşdur. Bütün bölgələrdən bizə məktublar, sifarişlər gəlir, xahişlər göndərilir ki, yollar abadlaşdırılsın.

**Sakinlər:** Çox sağ olun, Sizə minnətdarıq.

**İ l h a m  Ə l i y e v:** Sizi bir daha təbrik edirəm. Əminəm ki, yaxın gələcəkdə ölkəmizin bütün kənd yolları abadlaşdırılacaq. Əlbəttə, ilkin mərhələdə magistral yollara üstünlük verirdik. Paytaxtımızı şəhərlərlə birləşdirən yolların tikintisi ön planda idi. Amma indi kənd yollarının tikintisinə də vaxt çatıb və biz bunu edirik.

Yol çəkilişi insanlara rahatlıq verir, hər bir bölgənin inkişafını müəyyən edir. Çünki yol olmasa inkişafdan söhbət gedə bilməz. Həm insanların rahatlığı, həm də biznes imkanlarının genişləndirilməsi, gələcəkdə müxtəlif turizm obyektlərinin tikintisi üçün yol, əlbəttə ki, əsas məsələdir.

Yol çəkilişi ilə əlaqədar bütün bölgələrdə işlər gedir. Eyni zamanda, digər infrastruktur layihələri icra edilir, o cümlədən Beyləqan rayonunda. İndi qazlaşdırma prosesi gedir, içməli su layihəsi artıq başlayır. Çalışacağıq ki, yaxın illər ərzində qalan problemlər də öz həllini tapsın, bütün bölgələr, bütün rayonlar, o cümlədən Beyləqan rayonu daha da uğurla və sürətlə inkişaf etsin.

Sizi bir daha bu hadisə münasibətilə təbrik edirəm.

## Su və kanalizasiya sistemləri kompleksinin təməlqoyma mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev oktyabrın 28-də Beyləqan şəhərinin su və kanalizasiya sistemləri kompleksinin təməlqoyma mərasimində iştirak etmişdir.*

*İnşaatçılar dövlətimizin başçısını hərarətlə qarşıladılar.*

*Prezident İlham Əliyev kompleksin idarəetmə mərkəzi, şəhərin su və kanalizasiya sisteminin yenidən qurulması və situasiya planı layihələrini əks etdirən stendlərə baxdı.*

*«Azərsu» ASC-nin sədri Qorxmaz Hüseynov bildirdi ki, təmsil etdiyi qurum yalnız Beyləqan şəhərinin bir hissəsinə xidmət göstərir. Hazırda Beyləqan şəhərində yaşayan 15,5 min sakinin 7,6 mini və ya 49 faizi mərkəzləşdirilmiş şəbəkədən su alır. Qalan əhali isə öz tələbatını fərdi qaydada ödəyir. Şəhərdə*

*mərkəzləşdirilmiş içməli su şəbəkəsi 1981-ci ildə yaradılmışdır. Mənbə kimi 10 subartezian quyusundan istifadə olunur. Şəhərin bir hissəsində 50 kilometr uzunluğunda su şəbəkəsi, 11,4 kilometr uzunluğunda kanalizasiya şəbəkəsi, tutumu 2 min kubmetr olan 2 su anbarı və 2 nasos stansiyası mövcuddur. Şəhərin çirkab suları təmizlənmədən rayon mərkəzinin kənarındakı şor kollektora axıdılır. Beyləqan şəhərində mövcud su və kanalizasiya şəbəkəsi istismara yararsızdır.*

*Diqqətə çatdırıldı ki, Beyləqan şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi Asiya İnkişaf Bankının maliyyə dəstəyi ilə reallaşdırılır. Layihə çərçivəsində rayon mərkəzinin su və kanalizasiya şəbəkəsi tamamilə yenidən qurulacaq, şəhərin yaxınlığındakı Şəfəq və Əlinəzərli kəndlərinə içməli su veriləcəkdir.*

*Dövlətimizin başçısı kompleksin təməlini qoydu və inşaatçılara uğurlar arzuladı.*

## İMİŞLİ RAYONUNA SƏFƏR

*28 oktyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 28-də İmişli rayonuna səfərə gəlmişdir.*

*Dövlətimizin başçısı İmişli şəhərinin mərkəzində ulu öndər Heydər Əliyevin xatirəsini yad etdi, abidəsi önünə gül dəstəsi qoydu.*

*İmişli Rayon İcra Hakimiyyətinin başçısı Vilyam Hacıyev prezident İlham Əliyevə abidənin ətrafında və rayonda görülmüş abadlıq-quruculuq işləri barədə məlumat verdi.*

### Heydər Əliyev Mərkəzinin açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev İmişli rayonuna səfəri çərçivəsində Heydər Əliyev Mərkəzinin açılışında iştirak etmişdir.*

*Dövlətimizin başçısı yeni Mərkəzin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Məlumat verildi ki, ulu öndərin adını daşıyan Mərkəzin tikintisinə bu ilin mayında başlanılmış və qısa müddətdə yekunlaşdırılmışdır. Mərkəzin ikimərtəbəli binası orijinal layihəsi və möhtəşəmliyi ilə diqqəti cəlb edir. Binanın ümumi sahəsi 2 min kvadratmetrdir. Ətrafda əsaslı yenidənqurma, abadlıq və yaşıllaşdırma işləri həyata keçirilmişdir.*

*Mərkəzin birinci mərtəbəsində ümummilli lider Heydər Əliyevin abidəsi qoyulmuşdur. Burada ulu öndərin və prezident İlham Əliyevin müxtəlif illərdə ölkəmizin regionlarına səfərlərini və bölgələrdə həyata keçirilən kompleks dövlət tədbirlərini əks etdirən fotoguşələr yaradılıb. Mərkəzdə elektron kitabxana fəaliyyət göstərəcəkdir. Arzu edənlər burada kompüter kurslarında hərtərəfli hazırlıq keçəcəklər. Buradakı virtual sinif otağı informasiya-kommunikasiya texnologiya-*

*larının bölgələrdə də geniş tətbiqinin diqqət mərkəzində saxlanıldığını göstərir. İmişli rayonunda xarici dillərin öyrənilməsinə maraq böyük olduğundan Mərkəzdə xarici dil kursları fəaliyyət göstərəcəkdir. Foto sənətinin sirlərinə yiyələnmək üçün buradakı fotostudiyada, eləcə də internet-kafedə gənclərin asudə vaxtlarını maraqlı keçirmələri üçün hər cür şərait yaradılmışdır. Mərkəzdə vaxtaşırı müxtəlif sərgilər təşkil olunacaqdır.*

*Birinci mərtəbədəki 350 yerlik konfrans salonunda istənilən tədbirin keçirilməsi üçün hər cür şərait vardır. İkinci mərtəbədəki konfrans salonu isə 50 yerlikdir. Burada kitabxana ilə yanaşı, poliqrafiya emalatxanası da yaradılmışdır. Mərkəzdə fəaliyyət göstərəcək 3D kinozalına da rayonda ehtiyac var idi və bu çox böyük maraq doğuran yeniliklərdəndir. Burada, həmçinin rəsm-dizayn və xalq sənətkarlığı studiyaları və qızlar dərnəyi də fəaliyyət göstərəcəkdir. Mərkəzdə 32 nəfərin işlə təmin olunması nəzərdə tutulub.*

## Heydər Əliyev parkında aparılmış yenidənqurma işləri ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev oktyabrın 28-də İmişlidə Heydər Əliyev parkında aparılmış yenidənqurma işləri ilə tanış olmuşdur.*

*İmişli Rayon İcra Hakimiyyətinin başçısı Vilyam Hacıyev prezident İlham Əliyevə parkda görülmüş işlərlə bağlı məlumat verdi. Bildirildi ki, parkda yenidənqurma işlərinə dövlətimizin başçısının sərəncamına əsasən, Prezidentin ehtiyat fondundan ayrılan 1,4 milyon manat vəsait hesabına başlanılmışdır. Ümumi sahəsi 6,5 hektar olan parkın orijinal memarlıq üslubu ilə seçilən 2 giriş qapısı vardır. Burada quraşdırılan fəvvarələr kompleksi parkın gözəlliyini daha da artırır. Parkda geniş abadlıq və yaşıllaşdırma tədbirləri görülmüşdür. İşıqlandırma sistemi də müasirliyi ilə diqqəti çəkir. Ulu öndərin adını daşıyan bu istirahət ocağı Azərbaycanda aparılan*

*yenidənqurma tədbirlərinin miqyasının və keyfiyyətinin əyani göstəricisidir.*

*Dövlətimizin başçısına Heydər Əliyev parkında tikilməkdə olan Gənclər Mərkəzinin planı təqdim olundu. Məlumat verildi ki, 1,8 min kvadratmetr ərazidə inşa olunan üçmərtəbəli binanın inşasına bu ilin iyununda başlanılmışdır. Tikinti işləri 2013-cü ilin mayında başa çatdırılacaqdır. Burada rayon gənclərinin istirahəti və ilkin peşə vərdişlərinə yiyələnmələri üçün hər cür şərait yaradılacaqdır.*

*Prezident İlham Əliyev İmişli rayonunda yeni yaradılan Bayraq Meydanı ilə də tanış oldu. Əzəməti ilə seçilən Bayraq Meydanının ümumi sahəsi 8,3 min kvadratmetrdir. Bayraq dirəyinin hündürlüyü isə 100 metrdir.*

*Bildirildi ki, meydanın ətrafında böyük abadlıq və yaşıllaşdırma işləri görülmüşdür. Vağzal meydanı da tamamilə yeni görkəm almışdır. İşıqlandırma sistemi müasir standartlara uyğun yenilənmişdir. Yenidənqurmadan sonra meydan füsunkarlığı və səliqə-sahmanı ilə diqqəti cəlb edir.*

*Dövlətimizin başçısı görülmüş işləri yüksək qiymətləndirdi, tapşırıq və tövsiyələrini verdi.*

## İmişli Rayon Mərkəzi Xəstəxanasında aparılan əsaslı təmir işlər ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev oktyabrın 10-da İmişli Rayon Mərkəzi Xəstəxanasında aparılan əsaslı təmir işləri ilə tanış olmuşdur.*

*Səhiyyə naziri Oqtay Şirəliyev dövlətimizin başçısına məlumat verdi ki, ikimərtəbəli xəstəxananın ümumi ərazisi 21,2 min kvadratmetrdir. Burada geniş abadlıq və yaşıllaşdırma işləri görülmüşdür. Xəstəxananın ayrıca yarımstansiyası var və burada əlavə generator da quraşdırılıb. Yoluxucu xəstəliklər şöbəsi ayrıca binada yerləşir. Azərbaycan prezidentinin 2010-cu il 30 mart tarixli Sərəncamına əsasən Prezidentin ehtiyat fondundan ayrılan 1,5 milyon manat vəsait hesabına 2010-cu*

ildə xəstəxananın əsaslı təmirinə başlanılmışdır. Ötən müddətdə həyata keçirilən kompleks yenidənqurma işlərindən sonra Mərkəzi Rayon Xəstəxanası müasirliyi ilə diqqəti cəlb edir. 4 korpusdan ibarət bu tibb müəssisəsi 136 çarpayılıqdır. Əsas binası və bütün şöbələri tamamilə yenidən qurulmuş xəstəxananın maddi-texniki bazası ən müasir standartlara cavab verir. Xəstəxananın hər bir şöbəsinin interyeri orijinal dizaynı və zəngin tərtibatı ilə fərqlənir.

Bildirildi ki, xəstəxananın şöbələrində Yaponiya, Türkiyə, İtaliya, Koreya Respublikası və digər ölkələrdən gətirilmiş avadanlıqlar quraşdırılmışdır. Qonşu şəhər və rayonların sakinləri də bu tibb ocağının xidmətindən yararlana biləcəklər. Ötən illərdə ölkəmizdə pulsuz səhiyyə xidmətinin genişləndirilməsi, əhalinin aztəminatlı təbəqəsinə tibbi yardım sahəsində dövlət qayğısının gücləndirilməsi ilə bağlı tədbirlər sisteminin hazırlanıb həyata keçirilməsinə bu cür müasir tibb ocaqlarının sayının artması da münbit zəmin yaradır. Respublikamızda səhiyyə sisteminin yenidən qurulması, əhalinin sağlamlığı üçün müvafiq tədbirlərin daha yaxşı təşkili, bu sahədə qabaqcıl texnologiyaların tətbiqi və yeni kadr potensialının hazırlanmasını özündə dolğun ehtiva edən dövlət proqramları ölkəmizdə tibbi xidmətin səviyyəsini də yüksəltmişdir.

Azərbaycanda ən yüksək standartlara cavab verən tibb müəssisələrinin sayının durmadan artması sayəsində tədricən xaricə müalicəyə yollananların da sayı azalır. İndi paytaxt Bakı ilə yanaşı, müxtəlif bölgələrdə ən mürəkkəb cərrahiyyə əməliyyatları uğurla aparılır, təcrübəli xarici mütəxəssislərin dəvət edilməsi ilə yerli tibbi personalın hazırlıq səviyyəsi təkmilləşdirilir, dövlət hesabına dünyanın ən nüfuzlu ali məktəblərində təhsil almağa göndərilənlərin sayı ilbəil artır. Hazırda respublikamızın tibb müəssisələri maddi-texniki bazasının müasirliyi baxımından inkişaf etmiş ölkələrin səhiyyə ocaqları ilə müqayisə edilir. Bunu ölkəmizə gələn yüksək səviyyəli qonaqlar da təsdiqləyirlər. İmişli Rayon Mərkəzi Xəstəxanası da ən son elmi-texniki yeniliklərin tətbiqi baxımından ölkəmizin digər tibb müəssisələrindən geri qalmır.

*Əsaslı təmir işləri ilə tanışlıqdan sonra dövlətimizin başçısı tibb müəssisəsinin kollektivi ilə görüşdü.*

*Prezident İlham Əliyev kollektivin üzvlərini salamladı:*

– Sizi təbrik edirəm. Gözəl xəstəxanadır. Burada müalicə almaq, diaqnostikadan keçmək üçün bütün şərait vardır. Çox gözəl təmir olunub, dünya standartlarına cavab verir. Siz – burada işləyən həkimlər yaxşı bilirsiniz ki, əvvəlki vəziyyəti necə idi. İndi bu gözəl xəstəxanada xəstələrə yüksək səviyyədə tibbi xidmət və qayğı göstərilməlidir.

Həkimlər və xəstələr üçün gözəl şərait yaradılıb. Əsas odur ki, dünən dediyim kimi, vətəndaşlar vaxtında müayinədən keçsinlər. Dünən Saatlıda, bu gün İmişlidə gözəl Mərkəzi Xəstəxananın əsaslı təmirdən sonra açılışını qeyd etdik. Beyləqan Rayon Mərkəzi Xəstəxanası da əsaslı təmirdən sonra açılışa hazırdır. Hər bir rayonda gözəl tibbi xidmət yaradılır.

Bu da Azərbaycanın bugünkü reallıqlarını əks etdirir. Vaxtilə xəstəxanaların vəziyyəti o qədər də yaxşı deyildi. Onların əksəriyyəti keçən əsrin 70-ci illərində tikilmişdir, artıq köhnəlmişdi və əsaslı təmirə ehtiyac var idi. Əsas da müasir avadanlığın gətirilməsinə ehtiyac var idi. Çünki müasir avadanlıq olmadan səviyyəli tibbi xidmət göstərmək mümkün deyildir.

Burada olan avadanlıq dünyanın aparıcı klinikalarındakı avadanlıqlardan fərqlənmir. Bəlkə də bəzi xarici klinikalardan daha da üstündür. Çünki biz ən son modelləri gətirdirik. Özü də hər yerə – Bakıya, əlbəttə, paytaxt şəhərinə, eyni zamanda, hər bir rayona, hər bir bölgəyə gətiririk. Dializ aparatları da gətirilib. Səhiyyə nazirinin dediyinə görə, 30-dan çox dializ xəstəsi vardır. Onlar indi burada müalicə alacaqlar. Demək olar ki, bütün bölgələrdəki diaqnostika mərkəzlərində, artıq mərkəzi şəhər və rayon xəstəxanalarında dializ aparatları vardır. Bu da çox vacib məsələdir. Çünki vaxtilə böyrək çatışmazlığından əziyyət çəkən insanlar lazımi tibbi xidmət ala bilmirdilər. İndi isə artıq bu problem aradan götürülüb.

Ən müasir standartlara cavab verən doğum şöbəsi vardır. Bu da çox vacibdir. Dünən bu məsələ ilə bağlı fikirlərimi bildirdim.

Bu gün də demək istəyirəm, bütün dövrlərdə – sovet dövründə, müstəqillik dövründə, əfsuslar olsun ki, uşaq ölümü yüksək idi. İndi doğum şöbələrinin müasir avadanlıqla təchiz edilməsi bu məsələnin həllinə də kömək göstərəcəkdir. Uşaq ölümü azalır və həkimlər elə xidmət göstərməlidirlər ki, ümumiyyətlə, uşaq ölümü olmasın. Uşaq ölümü inkişaf etmiş ölkələrin səviyyəsində olmalıdır. Yəni biz qarşıya belə hədəf qoymuşuq.

Əminəm ki, yeni tikilən, bərpa olunan tibb ocaqlarının fəaliyyəti sayəsində biz buna nail olacağıq. Həkimlər də xəstələrə yaxşı xidmət göstərməlidirlər, xüsusilə belə gözəl şərait olduğu halda, bunu etmək çətin olmayacaqdır. Sizi bir daha təbrik edirəm.

## Şahmat məktəbinin açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev oktyabrın 28-də İmişli şəhərində Şahmat məktəbinin açılışı mərasimində iştirak etmişdir.*

*Məlumat verildi ki, Şahmat məktəbinin tikinti sahəsi 570 kvadratmetrdir. Məktəbin ətrafında əsaslı abadlıq işləri aparılmışdır.*

*Dövlətimizin başçısı Şahmat məktəbinin rəmzi açılışını bildirən lenti kəsdi.*

*Məktəbdə geniş salonla yanaşı, daha 7 otaqda yeniyetmə və gənclərə şahmatın sirləri öyrədilir. Burada ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin ölkəmizin regionlarına səfərlərinin, eləcə də respublikamızda idmanın hərtərəfli inkişafı üçün həyata keçirilən kompleks tədbirlərin əks olunduğu fotoguşələr yaradılmışdır. Məktəbin orijinal dizaynı burada şahmatın sirlərini öyrənənləri daha da ruhlandırır. Təhsil ocağında yeniyetmə və gənclərin şahmat kompozisiyalarını daha dərindən öyrənmələri üçün müxtəlif əyani vəsaitlərdən və informasiya-kommunikasiya texnologiyalarının imkanlarından geniş istifadə olunur. Bu cür sosialtəyinatlı təhsil ocaqlarında məşğul olanlar həm asudə vaxtlarını maraqlı keçirir, həm də vacib bilik və bacarıqlara yiyələnirlər. Res-*

*publikamızın bütün bölgələrində fəaliyyətə başlayan və müasir tələblərə cavab verən belə şahmat məktəblərində zəngin təcrübə toplayan məktəblilər beynəlxalq səviyyəli yarışlara qatılaraq ölkəmizi yüksək səviyyədə təmsil edirlər.*

*Dövlətimizin başçısı Şahmat məktəbində yaradılmış şəraitdən razılığını bildirdi, kollektivə uğurlar arzuladı.*

## «Araz» damazlıq quşçuluq fabrikinin açılışı mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev oktyabrın 28-də İmişli rayonuna səfəri çərçivəsində «Araz» damazlıq quşçuluq fabrikinin açılışında iştirak etmişdir.*

*İqtisadi İnkişaf naziri Şahin Mustafayev məlumat verdi ki, «Araz» damazlıq quşçuluq fabriki regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarına uyğun olaraq İmişli rayonunun Qaragüvənli kəndində ən müasir standartlar səviyyəsində qurulmuşdur.*

*Bildirildi ki, Azərbaycan prezidentinin təsdiq etdiyi regionların sosial-iqtisadi inkişafı dövlət proqramları çərçivəsində ölkənin müxtəlif regionlarında ayrı-ayrı istehsal sahələri istifadəyə verilir, rayon və kəndlərdə əhalinin həyat şəraitinin yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. «Araz» damazlıq quşçuluq fabriki də belə müəssisələrdən biridir. Fabrikin ümumi dəyəri 7,3 milyon manatdır. Bu layihənin də inşasında dövlətin güzəştli kreditlərindən istifadə olunmuşdur. İqtisadi İnkişaf Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən kompleksin inşasına 5 milyon manat güzəştli kredit verilmişdir. Damazlıq yumurta istehsal edəcək fabrikin ümumi sahəsi 24 hektardır. Müəssisədə tikinti işlərinin aparılmasına və avadanlıqla təchiz edilməsinə 2010-cu ilin sonunda başlanılmış, bu ilin oktyabrında isə işlər tam başa çatdırılmışdır.*

*Müəssisə ilə tanışlıq zamanı məlumat verildi ki, fabrikdə hər birinin sahəsi 1728 kvadratmetr olmaqla, 7 quş ferması inşa edilib. Quş fermaları Türkiyənin bu sahədə dünyada məşhur*

olan «Altuntaş» şirkətinin avadanlığı ilə təchiz edilib. Buradakı damazlıq cücələr isə Hollandiyadan gətirilmişdir.

Hazır məhsullara baxan Azərbaycan prezidentinə məlumat verildi ki, fabrikdə illik 10 milyon damazlıq yumurta istehsalı nəzərdə tutulur. Müəssisədə istehsal gücü saatda 10 ton olan yem istehsalı sexi və tutumu 3,5 min ton olan yem anbarı fəaliyyət göstərir. Fabrikdə laboratoriya, inzibati və digər köməkçi binalar inşa edilib. Layihənin icrası nəticəsində 80 nəfər yeni iş yeri ilə təmin olunub.

Dövlətimizin başçısının diqqətinə çatdırıldı ki, eyni zamanda, İmişli rayonu ərazisində illik istehsal gücü 4 min ton olan broyler fabrikinin və illik 110 milyon əmtəə yumurtası istehsal etmək imkanına malik quşçuluq fabrikinin maliyyələşdirilməsinə İqtisadi İnkişaf Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 10 milyon manat güzəştli kredit ayrılmışdır. Bu müəssisələr də ən müasir avadanlıqla təchiz ediləcəkdir. Layihələrin icrası nəticəsində 110 yeni iş yeri açılacaqdır.

Qeyd edildi ki, artıq dövlətin güzəştli krediti hesabına damazlıq təsərrüfatlar yaradılır. Həmin təsərrüfatlar hesabına ölkənin damazlıq yumurtaya olan tələbatının xeyli hissəsi yerli istehsalla ödənilir. Növbəti illərdə bu tələbat tamamilə yerli məhsullar hesabına ödəniləcəkdir. Bu həm də quş əti istehsalında maya dəyərini aşağı salacaqdır.

## «Kraun KO» taxıl anbarı kompleksinin açılışı mərasimi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 28-də İmişlidə «Kraun KO» taxıl anbarı kompleksinin açılışında iştirak etmişdir.

İqtisadi İnkişaf naziri Şahin Mustafayev məlumat verdi ki, «Kraun KO» taxıl anbarı kompleksi regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarına uyğun olaraq İmişli rayonunun Şahverdili kəndi ərazisində inşa olunmuşdur. Anbar ən müasir avadanlıqla təchiz edilib. Kompleksin ümumi dəyəri 7,3 milyon

*manatdır. Bu layihənin də icrasında dövlətin güzəştli kreditlərindən istifadə olunmuşdur. İqtisadi İnkişaf Nazirliyinin Sahibkarlığa Kömək Milli Fondu tərəfindən kompleksin inşasına 4 milyon manat güzəştli kredit verilib. Kompleksin tikintisinə ötən ilin aprelində başlanılmış, bu ilin oktyabrında başa çatdırılmışdır.*

*Anbar ilə tanışlıq zamanı diqqətə çatdırıldı ki, 50 min tonluq taxıl anbarı hər birinin tutumu 8,3 min ton olmaqla, 6 silodan ibarətdir. Kompleks təmizləmə, qurutma və havalandırma sistemləri ilə təchiz edilmişdir. Buraya gətirilən taxıl əvvəlcə tərəzidə çəkilir, sonra açıq-qapalı kompressora, daha sonra isə şneklər vasitəsilə birinci anbara ötürülür. Taxıl təmizləndikdən sonra dərmanlanır və ikinci anbara nəql olunur. Taxılın təmizlənməsi və yuyulması üçün ərazidə su çəni quraşdırılmışdır. Müasir texnologiyanın tətbiqi yolu ilə kompleksdə taxıl məhsullarını uzun müddət ərzində itkisiz saxlamaq mümkündür. Buraya ayrıca dəmir yolu xətti də çəkilmişdir. Müəssisə tərəfindən kompleksin xammal bazasının təmin edilməsi məqsədi ilə 43,5 min hektar ərazidə əkin işləri aparılır.*

*Prezident İlham Əliyev müəssisəni işə saldı. Anbardan ilk məhsul maşınlara yükləndi.*

*Dövlətimizin başçısı taxıl anbarı kompleksində yaradılmış şəraiti yüksək qiymətləndirdi, tapşırıq və tövsiyələrini verdi.*

## Su anbarları kompleksinin açılışı mərasimi

*Prezident İlham Əliyev oktyabrın 28-də İmişli Şəhər Su Anbarları Kompleksinin istifadəyə verilməsi mərasimində iştirak etmişdir.*

*İmişli rayon ictimaiyyətinin nümayəndələri dövlətimizin başçısını hərarətlə qarşıladılar.*

*Azərbaycan prezidenti İmişli şəhərinin su və kanalizasiya sisteminin yenidən qurulması layihəsinin situasiya planını və İmişli Şəhər Su Anbarları Kompleksinin baş planını əks etdirən stendlərə baxdı.*

«Azərsu» Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz Hüseynov prezident İlham Əliyevə məlumat verdi ki, «Regionların 2009–2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı»na uyğun olaraq bölgələrdə su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması istiqamətində genişmiqyaslı işlər həyata keçirilir. Belə bir böyük layihə İmişli rayonunda da həyata keçirilir. Şəhərdə mərkəzləşdirilmiş içməli su şəbəkəsi 1978-ci ildə yaradılmışdır. Mənbə kimi Bəhrəmtəpə qəsəbəsinin yaxınlığında qazılan 4 subartezian quyusundan istifadə olunur. Uzun müddətdir istismar olunan bu mənbənin su ehtiyatlarının keyfiyyətinin getdikcə aşağı düşməsi və qrunt sularının qarışması ilə duzlaşma ehtimalının artması şəhərin içməli su təsərrüfatının yenidən qurulması zərurətini yaratmışdır. Buna görə də İmişlidə yeni su anbarları kompleksi yaradılıb.

Su mənbəyinin texniki göstəriciləri barədə məlumat verilərkən Azərbaycan prezidentinin diqqətinə çatdırıldı ki, İmişlinin su təchizatı və kanalizasiya sistemi şəbəkəsi tamamilə yenidən qurulacaqdır.

Layihəyə uyğun olaraq, İmişli şəhərinə verilən suyun keyfiyyət göstəricilərini daim nəzarətdə saxlamaq üçün müasir standartlara cavab verən laboratoriya və avtomatik idarəolunmanı təmin edən SCADA sistemi yaradılacaqdır.

Dövlətimizin başçısı rəmzi olaraq suyun şəhərə verilməsini təmin edən qurğunu işə saldı.

# İMİŞLİ RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*28 oktyabr 2012-ci il*

Əziz dostlar, əziz imişlililər! Mən sizin hamınızı ürəkdən salamlayıram. Bu gün biz sizinlə bərabər bu tarixi günü bir yerdə qeyd edirik. 1 il bundan əvvəl İmişlinin su təchizatının yaxşılaşdırılması üçün çox önəmli hadisə baş vermişdir. Bu böyük su layihəsinin təməl daşını qoyduq. Çox şadam ki, 1 ildən sonra artıq İmişliyə içməli suyun gətirilməsini biz bərabər qeyd edirik. Yaxın həftələrdə bu su mövcud şəbəkəyə qoşulacaqdır. Bununla paralel olaraq yeni, müasir supaylayıcı şəbəkə qurulur. Beləliklə, İmişli şəhərinin içməli su problemi birdəfəlik həllini tapacaqdır.

Bu doğrudan da böyük və tarixi hadisədir. Uzun illərdir ki, İmişli sakinləri təmiz, dayanıqlı içməli suya möhtac idilər. Bu problem var idi. Mən bunu bilirdim və çalışırdıq ki, bu məsələni tezliklə həll edək. Çox şadam ki, nəhayət, biz bu məsələni həll edirik və bu layihə eyni zamanda, böyük ehtiyatla nəzərdə tutulmuşdur. Şəhərin inkişafını, əhalinin sayının artmasını nəzərə alır və 2035-ci ilə qədər bu layihə öz imkanlarını İmişli sakinlərinə təqdim edəcəkdir.

Bu çox böyük tarixi layihədir. Çünki içməli su insan sağlamlığı üçün ən əsas məsələlərdən biridir. İnsan sağlamlığı isə bizim üçün, yəni dövlət üçün ən əsas məsələdir. Ümumiyyətlə, səhiyyə sisteminin təkmilləşdirilməsi, ekoloji vəziyyətin yaxşılaşdırılması, əhalinin təmiz içməli su ilə təmin edilməsi məsələləri diqqət mərkəzindədir.

Bu gün İmişlidə yenicə əsaslı təmirdən çıxmış Mərkəzi Rayon Xəstəxanasının açılışını qeyd etdik. Bu xəstəxana ən yüksək standartlara cavab verir. Bu gün eyni zamanda, içməli su layihəsinin açılışını qeyd edirik. Mən əminəm ki, bu layihələr, görülən işlər mütləq öz müsbət təsirini insanların

sağlamlığında göstərəcəkdir. Çünki insan amili bizim üçün əsas sosial məsələdir. Bu gün bölgə sahibkarları ilə görüşdə də bu məsələyə toxundum. Biz iqtisadi islahatları uğurla icra edirik, bölgələr inkişaf edir, gözəlləşir, abadlaşır, yeni iş yerləri açılır. Ancaq bütün bu işlərin təməlində və mərkəzində Azərbaycan vətəndaşı dayanır. Azərbaycan vətəndaşı sağlam olmalıdır. Azərbaycan vətəndaşı yaxşı şəraitdə, gözəl şəhərlərdə yaşamalıdır. Bütün infrastruktur layihələri icra edilməlidir ki, biz dünyanın inkişaf etmiş ölkələrinin səviyyəsindən geri qalmayaq. Biz bunu edirik, edəcəyik. Ölkəmizdə gedən quruculuq, abadlıq işləri hər bir rayonda öz bəhrəsini verir.

Xüsusilə İmişli rayonunun son bir neçə ay ərzində uğurlu inkişafı məni ürəkdən sevindirir. Mən dəfələrlə İmişlidə olmuşam. Keçən il də olmuşam. İmişlinin inkişafı üçün lazımi tədbirlər görülmüşdür. Kənd yollarının tikintisinə vəsait ayrılmışdır. Ancaq mən bilirdim və siz də bilirdiniz ki, işlər daha da sürətlə gedə bilər. Son bir neçə ayın təcrübəsi mənim sözlərimi təsdiqləyir. Əminəm ki, bu reallıqları sizdən yaxşı bilən heç kim tapılmaz. Ancaq mən də, yəni keçən il burada olduğuma görə öz təəssüratlarımı sizinlə bölüşmək istəyirəm.

Doğrudan da son bir neçə ay ərzində İmişli rayonunun inkişafı üçün çox böyük, tarixi işlər görülmüşdür. İmişlini tanımaq mümkün deyil. Buraya gələrkən çox təəccüb edirdim ki, mən indi İmişlidəyəm, yoxsa hansısa başqa şəhərdəyəm. Doğrudan da tarixi dəyişikliklər baş vermişdir – gözəllik, abadlıq, yeni meydan, Bayraq Meydanı, yeni parklar, Heydər Əliyev Mərkəzi, Gənclər Mərkəzinin tikintisi, binaların bərpası, küçələrin salınması, yeni işıq dirəklərinin qurulması. Görülən bütün işləri sadalamaq üçün yəqin ki, çox vaxt lazım olacaq, ancaq bir sözlə, siz İmişli sakinləri bunu yaxşı bilirsiniz və bütün bu quruculuq, abadlıq işlərində fəal iştirak edirsiniz. Bu sizin ümumi zəhmətinizin bəhrəsidir.

Bu dəyişikliklər, əlbəttə ki, məni ürəkdən sevindirir. Əminəm ki, sizi də sevindirir. Ancaq eyni zamanda, bir vacib məsələni üzə çıxarır ki, istək, siyasi iradə və öz xalqına qayğı

olan yerdə hər şey etmək mümkündür. Bir neçə ay bundan əvvəl İmişli rayonuna yeni icra başçısı təyin edilmişdir. O, təyin edilərkən mən ona çox önəmli tövsiyələr, göstərişlər verdim və dedim ki, İmişli rayonu geridə qalmamalıdır, əksinə, ölkəmizin ən qabaqcıl rayonlarının birinə çevrilməlidir. Son neçə ayın təcrübəsi göstərir ki, siz bu yolda uğurla irəliləyirsiniz. Əminəm ki, gələn səfərdə yeni gözəl binaları, yeni açılan obyektləri görəcəyəm və beləliklə, İmişlinin uzunmüddətli inkişafı təmin ediləcəkdir.

Dövlət isə öz tərəfindən siyasətini davam etdirəcəkdir. Ölkəmizin bütün yerlərində infrastruktur layihələri icra edilir, yollar çəkilir, sürətlə qazlaşdırma gedir, o cümlədən İmişlidə də qazlaşdırma gedir və qarşıya məqsəd qoyulmuşdur ki, İmişlidə qazlaşdırma 100 faiz səviyyəsində olmalıdır. Bütün kəndlər qazlaşdırılmalıdır. Əminəm ki, gələn ilin sonuna qədər biz bu məqsədə çatacağıq.

İçməli su layihəsinin başlamasını biz artıq qeyd edirik. Çəkilən su xətti 1 ay ərzində ümumi şəbəkəyə qoşulacaq və imişlililər təmiz, dayanıqlı içməli suya malik olacaqlar. Eyni zamanda, kanalizasiya sisteminin yaradılması prosesi başlayıb, kənd yollarının tikintisi gedir. Sağlamlığı bərpa etmək üçün gözəl xəstəxana vardır. İstirahət etmək üçün gözəl parklar, küçələr, xiyabanlar salınır, məktəblər tikilir. Əgər imişlililər bu yüksək templəri saxlaya bilsələr – mən əminəm ki, saxlayacaqlar – çox qısa müddət ərzində İmişli ölkəmizin ən qabaqcıl rayonuna çevriləcəkdir.

Bu gün mən yeni sənaye müəssisələrinin açılışında da iştirak etdim. Bu da məni çox sevindirir. Özəl sektor tərəfindən yaradılan ən böyük taxıl anbarı İmişlidə açılmışdır. Ən böyük damazlıq yumurta fabriki açılıb. Bu həm ölkə iqtisadiyyatına verilən bir töhfədir, həm yeni iş yerlərinin açılışı deməkdir, insanların rifah halının yaxşılaşdırılması üçün atılan çox vacib addımdır.

Bir daha deyirəm ki, iqtisadi siyasətimizin təməlində Azərbaycan vətəndaşı dayanır. İqtisadi islahatları aparmaq olar.

Bəzi ölkələrdə bu daha uğurlu olur, bəzi ölkələrdə o qədər də böyük uğur gətirmir. Ancaq vacib məsələ ondan ibarətdir ki, islahatları apararkən sosial məsələlər yaddan çıxmasın. Çünki transformasiya dövrünü yaşayan ölkələrdə iqtisadi islahatlar bəzi hallarda çox acı nəticələrə gətirib çıxarır. İnsanların yaşayış səviyyəsi aşağı düşür. İslahatlar insanların maddi rifahına mənfi təsir göstərir. Bax, gözümüzün qabağında Avropanın bəzi ölkələrində gedən proseslər dayanmışdır və biz bunu müşahidə edirik. Orada indi köklü islahatlar aparılır. Dövlət xərcləri ixtisar edilir. Bu islahatlar istər-istəməz insanların yaşayış səviyyəsinə çox mənfi təsir göstərir. Bizim islahatların üstünlüyü ondan ibarət idi ki, bu islahatlar sosialyönümlüdür. İslahatlar nəticəsində əldə edilən əlavə gəlirlər ədalətli şəkildə insanların rifah halının yaxşılaşdırılmasına sərf edilmişdir. Ona görə biz gələcəyə də böyük ümidlərlə baxırıq. Çünki iqtisadi sahədə növbəti illərdə ancaq və ancaq inkişaf gözlənilir, xüsusilə qeyri-neft sektoru sahəsində. Bölgə sakinləri də bu inkişafdan bəhrələnirlər və əminəm ki, uğurlar daha da böyük olacaqdır.

Azərbaycan regionda siyasi sahədə söz sahibidir, çox güclü mövqelərə malikdir, dünya miqyasında tədbirlərdə də çox fəal iştirak edir. Biz dünyanın ən aparıcı, ən böyük qurumu olan BMT Təhlükəsizlik Şurasının üzvüyük. Biz dünya məsələlərinin həllində öz sözümüzü deyirik və gələcək illərdə bizim təsir imkanlarımız yalnız artacaqdır.

Sosial sferada nəzərdə tutulmuş bütün layihələr icra edilir. Bu layihələrin icrası insanların ildən-ilə artan maddi rifahında özünü göstərir. Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının ikinci hissəsi başa çatmaq üzrədir, gələn il başa çatacaqdır. Artıq növbəti 10 illik üçün yeni proqram hazırlanır və vaxt gələndə proqram ictimaiyyətə təqdim ediləcəkdir.

Bütün infrastruktur layihələri icra edilir. Bir sözlə, biz qürur hissi ilə deyə bilərik ki, Azərbaycan dövləti müstəqillik dövründə özünü dünya xəritəsində təsdiq edib. İqtisadi və siyasi cəhətdən müstəqil Azərbaycan dövləti uğurla inkişaf edir. Uğurumuzun dayanıqlı, davamlı olması üçün bütün bölgələr

sürətlə inkişaf etməlidir. Bir daha demək istəyirəm ki, İmişli rayonunda gedən inkişaf çox müsbətdir, uğurludur.

Mən sizi əldə edilmiş bu uğurlar münasibətilə təbrik edirəm. Bütün İmişli sakinlərinə cansağlığı və yeni uğurlar arzu edirəm.

**V a l i d ə Z ü l f ü q a r o v a** *(rayon sakini):* Möhtərəm cənab Prezident! Bu gün biz imişlililər üçün çox sevimli gündür. Ona görə ki, biz Sizinlə Muğanın barlı-bərəkətli mərkəzi olan İmişli torpağında yenidən görüşürük. Bu dəfə Siz bizə insan həyatı üçün əvəzsiz olan bir nemət, təmiz su bəxş edirsiniz. Təmiz içməli su rayonun inkişafı, insanların sağlamlığı üçün çox böyük məna daşıyır. İçməli su həyat deməkdir. Təmiz içməli su isə sağlam həyat deməkdir. Aran bölgəsində yaşayan sakinlər daha çox içməli sudan korluq çəkirdilər. Uzun illər rayonumuzun ərazisindən keçən Araz və Kür çaylarının suyundan istifadə edirdik. Bu da təbii ki, insanların sağlamlığına mənfi təsir göstərirdi.

Əvvəlki illərdə Sizin sərəncamınızla rayonumuzun 13 kəndində quraşdırılmış sutəmizləyici qurğular insanların təmiz suya olan tələbatını qismən ödəsə də, bütün rayon əhalisini tam təmin edə bilmirdi. Bu gün isə Siz bizi çoxdan gözlədiyimiz arzumuza çatdırmısınız. Yeni çəkilmiş su xəttindən İmişli şəhəri və ətraf kəndlərin hamısı istifadə edəcəkdir. Biz inanırıq ki, Sizin tapşırığınızla qısa müddətdə İmişli şəhərində kanalizasiya xətti də çəkiləcəkdir. Bütün bunlar Sizin bizə verdiyiniz böyük töhfə və göstərdiyiniz qayğının bariz nümunəsidir.

Cənab Prezident! Siz regionlara səfəriniz zamanı belə bir fikir ifadə etmişdiniz: «Mən görülən işləri, insanlara yaradılmış şəraiti öz gözlərimlə görmək üçün buradayam!» Siz həmişə insanların problemləri, çətinlikləri ilə maraqlanır, onların firavan yaşamasına, rifah halının yaxşılaşmasına xidmət edəcək tədbirlər həyata keçirirsiniz. Bütün Azərbaycan xalqı kimi, biz imişlililər də bunu hər zaman hiss edir və Sizə arxalanırıq.

2010-cu ildə baş vermiş təbii fəlakət nəticəsində İmişli rayonunun 3 kəndi tamamilə su altında qaldığı zaman bizi bu bəladan qurtaran məhz Siz oldunuz. Sizin tapşırığınıza əsasən

görülən təcili tədbirlər nəticəsində insan tələfatı olmadı, insanlar böyük çətinliklə üz-üzə qalmadı.

Cənab Prezident! Bu gün Azərbaycan iqtisadiyyatı sürətlə inkişaf edir. Bu inkişaf bölgələrdə də aydın şəkildə hiss olunur. Belə ki, İmişli şəhərində qazlaşdırma işləri artıq başa çatdırılmışdır. Rayonun kəndlərində isə qaz çəkilişi davam etdirilir. Yeni təhsil müəssisələri istifadəyə verilir, yollarımız abadlaşır. İmişli şəhərinin siması günbəgün yeniləşir, günbəgün gözəlləşir. Böyük abadlıq, quruculuq işləri aparılır. Sakinlərin normal istirahəti üçün şərait yaradılır. Rayonumuzdakı Mərkəzi Xəstəxana əsaslı təmir edilmiş və istifadəyə artıq hazırdır.

Bu gün isə Siz insanların normal həyatı üçün müstəsna əhəmiyyəti olan içməli su xəttinin açılışında iştirak etməklə rayon sakinlərinə daha böyük bir sevinc bəxş etdiniz.

Möhtərəm cənab Prezident! Görülmüş bütün işlərə və biz imişlililərə göstərdiyiniz qayğıya görə, ilk növbədə Sizə minnətdarıq. Sizi əmin edirik ki, rayonumuzun, o cümlədən respublikamızın daha da inkişafı və tərəqqisi üçün bundan sonra da əzmlə çalışacaq, Sizin doğma İmişlimizə olan diqqətinizi heç vaxt unutmayacağıq. Ulu Tanrıdan Sizə və ailənizə səadət, xoşbəxtlik və əmin-amanlıq arzulayırıq!

## RUSİYANIN QARAÇAY-ÇƏRKƏS RESPUBLİKASININ BAŞÇISI RƏŞİD TƏMRƏZOVUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*29 oktyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 29-da Rusiya Federasiyasının Qaraçay-Çərkəs Respublikasının başçısı Rəşid Təmrəzovun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlətimizin başçısı Qaraçay-Çərkəs Respublikasının başçısı Rəşid Təmrəzovun başçılıq etdiyi nümayəndə heyətinin ölkəmizə səfərinin uğurlu olacağına əminliyini bildirdi. Bakıda keçiriləcək birgə biznes-forumun önəmini qeyd edən prezident İlham Əliyev əlaqələrimizi bütün istiqamətlərdə, o cümlədən iqtisadi sahədə daha da möhkəmləndirməyin və əməkdaşlığın genişləndirilməsi üçün yeni imkanları müəyyənləşdirməyin zəruriliyini vurğuladı. Ölkəmiz ilə Rusiyanın ayrı-ayrı subyektləri arasında əlaqələrin Azərbaycan–Rusiya ikitərəfli münasibətlərinin daha da dərinləşdirilməsi baxımından əhəmiyyətini qeyd edən dövlətimizin başçısı Rusiya Federasiyasının Qaraçay-Çərkəs Respublikasının başçısı Rəşid Təmrəzovun ölkəmizə səfərinin fəal qarşılıqlı əlaqələrin genişləndirilməsi işinə töhfə verəcəyini dedi.*

*Azərbaycana ilk dəfə səfər etdiyini vurğulayan Rusiya Federasiyasının Qaraçay-Çərkəs Respublikasının başçısı Rəşid Təmrəzov paytaxtda gedən böyük inkişaf proseslərinin onlarda dərin təəssürat hissi yaratdığını dedi. Bakıda keçirilən birgə biznes-forumun əhəmiyyətini qeyd edən Rəşid Təmrəzov forumun əməkdaşlığımızın daha da genişləndirilməsi işinə xidmət edəcəyinə əminliyini ifadə etdi.*

# RUMINİYANIN KEÇMİŞ BAŞ NAZİRİ, MƏRKƏZ-SAĞ VƏTƏNDAŞ TƏŞƏBBÜSÜNÜN TƏSİSÇİSİ VƏ RƏHBƏRİ MİHAY RAZVAN UNQUREANU İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*29 oktyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 29-da Rumıniyanın keçmiş Baş naziri, Mərkəz-Sağ Vətəndaş Təşəbbüsünün təsisçisi və rəhbəri Mihay Razvan Unqureanunu qəbul etmişdir.*

*Görüşdə Azərbaycan – Rumıniya əlaqələrinin uğurlu inkişafından məmnunluq ifadə edildi, ölkələrimiz arasında bir neçə il bundan əvvəl imzalanmış strateji tərəfdaşlıq haqqında sazişin önəmi qeyd olundu.*

*Regional əməkdaşlığın genişləndirilməsində Azərbaycan–Rumıniya ikitərəfli əlaqələrinin rolunun xüsusi vurğulandığı görüşdə münasibətlərimizin daha da möhkəmləndirilməsi üçün böyük imkanların olduğu bildirildi.*

## BELARUS RESPUBLİKASI BAŞ NAZİRİNİN BİRİNCİ MÜAVİNİ VLADİMİR SEMAŞKONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*30 oktyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 30-da Belarus Respublikası Baş nazirinin birinci müavini Vladimir Semaşkonun başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Belarusun Baş nazirinin birinci müavini Vladimir Semaşko Azərbaycana sonuncu dəfə 2008-ci ildə səfər etdiyini və ötən dövr ərzində ölkəmizdə çox böyük inkişaf proseslərinin şahidi olduğunu dedi.*

*Görüşdə Azərbaycan ilə Belarus arasında ikitərəfli münasibətlərin müxtəlif istiqamətlərdə, o cümlədən iqtisadi sahədə uğurlu inkişafından məmnunluq ifadə olundu, Gəncə Avtomobil zavodunda həyata keçirilən Azərbaycan–Belarus birgə layihəsinin önəmi qeyd edildi, əlaqələrimizin daha da genişləndirilməsi üçün yaxşı imkanların olduğu vurğulandı.*

## BAKIDA GÖRKƏMLİ OPERA MÜĞƏNNİSİ BÜLBÜLÜN ABİDƏSİNİN AÇILIŞI MƏRASİMİ

*Bülbül prospekti*

*31 oktyabr 2012-ci il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 31-də Bakıda Bülbül prospektində görkəmli opera müğənnisi, SSRİ Xalq artisti Bülbülün xatirəsinə ucaldılmış abidənin açılışında iştirak etmişdir.*

*Azərbaycan musiqi ictimaiyyətinin tanınmış nümayəndələri, xaricdən gəlmiş qonaqlar və müğənninin ailə üzvləri dövlətimizin başçısını hərarətlə qarşıladılar.*

*Prezident İlham Əliyev abidənin üzərindəki örtüyü götürdü və abidənin önünə gül dəstəsi qoydu.*

*Dövlətimizin başçısı mərasimdə çıxış etdi:*

– Hörmətli xanımlar və cənablar!

Əziz dostlar, hörmətli qonaqlar!

Bu gün ölkəmizin həyatında çox əlamətdar bir gündür. Bu gün biz Azərbaycan xalqının böyük oğlu Bülbülün abidəsinin açılışına toplaşmışıq. Bu gözəl hadisə münasibətilə sizi ürəkdən təbrik edirəm.

Azərbaycan dövləti və Azərbaycan xalqı görkəmli şəxsiyyətlərinin xatirəsinə həmişə böyük hörmətlə yanaşmışdır. Görkəmli şəxsiyyətlərin xatirəsinə ucaldılmış abidələr bunun bariz nümunəsidir.

Bülbül böyük şəxsiyyət, böyük sənətkar, Azərbaycan professional vokal sənətinin banisi idi. Onun ifasında səslənən xalq mahnıları, muğam, klassik opera partiyaları Azərbaycan musiqisinin Qızıl Fondunu təşkil edir. 50 ildən çoxdur ki, Bülbül aramızda deyildir. Ancaq xalqımızın qəlbində ona olan sevgi bu gün də yaşayır. Bu sevgi, onun istedadına olan

məhəbbət onun nə qədər böyük sənətkar olduğunu bir daha əyani şəkildə göstərir.

Bülbül əsl milli müğənni, milli xanəndə, milli sənətkar idi. Onda vətənpərvərlik ruhu çox yüksək səviyyədə idi. Bülbül eyni zamanda, gözəl aktyor idi. Onun yaratdığı obrazlar bu gün də yaşayır və bir çoxları üçün Koroğlu obrazı məhz Bülbülün obrazı ilə eyniləşdirilir. Gənc nəsil, orta nəsil və yaşlı nəsil təbii ki, Koroğlu haqqında düşünəndə mütləq Bülbülün obrazı yada düşür. Koroğlu partiyasının ifası, demək olar ki, onun opera ifaçısı kimi fəaliyyətinin zirvəsi idi.

Əlbəttə, Bülbülün yaradıcılığı haqqında bir vətəndaş, Azərbaycan xalq musiqisinə bağlı olan bir insan kimi, mən öz fikirlərimi bu gün bölüşmək istəyirəm. Doğrudan da onun təkrarolunmaz səsinin məlahəti unudulmazdır. Onun ifasında səslənən mahnılar ölməz mahnılardır. Artıq 50 il keçdi, bundan sonra da 50 il, 100 il keçəcək və Bülbülün sənəti, onun təkrarolunmaz səsi yaşayacaq və bizim hamımızı sevindirəcəkdir.

Bülbül eyni zamanda, böyük ictimai xadim, əsl Azərbaycan ziyalısı, öz xalqına, öz milli köklərinə bağlı və həmçinin dünyaya açıq insan idi. O, Azərbaycanın musiqi sənətini sovet məkanında və dünyada təbliğ edirdi. O illərdə xalqımızı dünyaya tanıtdırmaq üçün incəsənət, musiqi, ifaçılıq sənəti, ədəbiyyat yeganə bir vasitə idi. Çünki Azərbaycan müstəqil deyildi və Azərbaycan xalqı, Azərbaycan diyarı haqqında dünyada və sovet məkanında təsəvvürü məhz bizim görkəmli incəsənət xadimləri yaratmışlar. Bülbülün bu istiqamətdəki rolu çox böyük idi.

Bülbülün adı hamımız üçün əzizdir. Onun adı Azərbaycanda əbədiləşdirilib. Bu prospekt onun adını daşıyır. 1982-ci ildə Şuşada və 1983-cü ildə Bakıda Bülbülün ev-muzeyləri yaradılmışdır. Onun adını daşıyan musiqi məktəbi uzun illərdir ki, fəaliyyət göstərir. 1997-ci ildə ulu öndər Heydər Əliyevin sərəncamı ilə Bülbülün 100 illik yubileyini dövlət səviyyəsində qeyd etmək üçün xüsusi tədbirlər planı hazırlanmış və icra

edilmişdir. O ildən başlayaraq bu günə qədər beynəlxalq Bülbül müsabiqəsi keçirilir və müsabiqənin iştirakçıları bu gün bizim qonaqlarımızdır.

2007-ci ildə artıq mənim sərəncamımla Bülbülün 110 illik yubileyi münasibətilə dövlət tədbirlər planı hazırlanmış və həyata keçirilmişdir. Bu il Bülbülün 115 illik yubileyi qeyd olunur. Bu gün isə onun abidəsi şəhərimizin mərkəzində, onun yaşadığı evin yaxınlığında ucaldılıb. Bu, əlbəttə, Azərbaycan xalqının və dövlətinin onun xatirəsinə olan münasibətidir, eyni zamanda, bu, Azərbaycan mədəniyyətinə, görkəmli şəxsiyyətlərin xatirəsinə olan böyük ehtiramın əlamətidir.

Bülbül ölkəmizin gözəl diyarında – Qarabağda dünyaya gəlmişdir, Şuşada doğulmuşdur. Qarabağın gözəl təbiəti, havası, bulaqları, gözəl mənzərələri ona güc, ilham verirdi. Onun təkrarolunmaz səsi məhz Qarabağ diyarının sərvətlərindən, nemətlərindən qaynaqlanırdı.

Onun doğulduğu Şuşa şəhəri 20 ildən artıqdır ki, erməni işğalı altındadır. Ermənilər tərəfindən azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti törədilmişdir. Bu etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan artıq azərbaycanlı öz doğma torpağında qaçqın, köçkün vəziyyətinə düşmüşdür. Bizə qarşı soyqırımı törədilmişdir. Xocalı soyqırımı ki, artıq dünyanın 3 ölkəsi bunu soyqırımı kimi rəsmən tanımışdır və bu proses davam etdirilir.

Bizə qarşı mədəni soyqırımı törədilmişdir. Bizim dini, tarixi, mədəni abidələrimiz dağıdılmışdır. Onların içində Bülbülün, Xurşidbanu Natəvanın, Üzeyir Hacıbəylinin Şuşadakı büstləri erməni güllələri ilə deşik-deşik edilmişdir. O büstlər bu gün İncəsənət Muzeyində saxlanılır. Güllələnmiş bu büstlər erməni vandalizminin şahidləridir. Bülbülün Şuşadakı evi yarıdağılmış vəziyyətdədir.

Bu, böyük faciədir, böyük dərddir. Ancaq mən əminəm ki, Azərbaycan öz ərazi bütövlüyünü, öz suverenliyini bərpa edəcəkdir. Bunu deməyə əsas verən müxtəlif amillər vardır. İldən-ilə artan gücümüz, qüdrətimiz, beynəlxalq müstəvidə

artan təsir imkanlarımız, beynəlxalq aləmin Azərbaycanın haqq işinə dəstək olması, beynəlxalq hüquq normalarının Azərbaycanın mövqeyini dəstəkləməsi və əlbəttə, bizim iqtisadi qüdrətimiz qələbə gününü yaxınlaşdırır. Mən əminəm ki, yaxın zamanlarda biz qələbə gününü qeyd edəcəyik.

Əlbəttə, bütün dünya ictimaiyyəti çalışır ki, məsələ sülh yolu ilə həll olunsun. Biz də bunun tərəfdarıyıq. Ancaq eyni zamanda, biz istənilən varianta da hazırıq. Heç vaxt imkan verməzik ki, qədim Azərbaycan torpağında ikinci erməni dövləti yaradılsın və mütləq ərazi bütövlüyümüzü bərpa edəcəyik. Ondan sonra Bülbülün, Natəvanın, Üzeyir Hacıbəylinin abidələri yenə də Şuşada qoyulacaqdır. Əminəm ki, biz o abidələrin açılışında iştirak edəcəyik və Xankəndidə, Şuşada Azərbaycanın milli bayrağı qaldırılacaqdır.

Əziz dostlar, bu gözəl tarixi hadisə münasibətilə sizi bir daha ürəkdən təbrik edirəm. Bülbülün ailəsini, onun yaxınlarını, bütün musiqi ictimaiyyətini bu gözəl hadisə münasibətilə təbrik edirəm, sizə cansağlığı, uğurlar arzulayıram.

**F ə r h a d B ə d ə l b ə y l i** *(Bakı Musiqi Akademiyasının rektoru, Xalq artisti):* Bülbül həqiqətən, Azərbaycan üçün çox əziz bir insan idi. Bu küçələrdə gəzərkən ona hamı ehtiramla «Salam, professor» – deyirdi. Onu hamı – taksi sürücüsü də, akademik də, kolxozçu da çox sevirdi. Onu bütün millət sevirdi.

Burada Ada xanım əyləşib, mən onun qonaqpərvərliyi haqqında danışmaq istərdim. Bülbülün evi bu yaxındadır. Həmişə Ada xanım gözəl süfrə açırdı. Böyük ifaçılar Bakıya gələrkən hər bir konsertdən, hər bir tamaşadan sonra Bülbülün evi bir kluba çevrilirdi. Mən də, Polad da o vaxt 10 yaşında uşaq idik. Xoşbəxt idik ki, bu ev bizim üçün ikinci universitet, ikinci konservatoriya idi. Çünki orada dahi insanlar toplaşırdı.

Bülbül bizim Bakı Musiqi Akademiyamız üçün – onda Konservatoriya idi – çox önəmli bir insan idi. Siz tamamilə doğru dediniz, o həm də böyük alim idi. Onun kabineti xalq musiqisi kabineti idi. Fikrət Əmirov ilə bu kabinetdə muğam üzərində işləyirdilər. Ona görə Fikrət Əmirov simfonik

muğamları yazdı. Bu cür çox misal çəkmək olar. Əlbəttə, Koroğlu obrazı həmişə yaşayacaqdır.

*Fərhad Bədəlbəyli Bülbülün İtaliyada təhsil almasının onun yaradıcılığında böyük rol oynadığını qeyd edərək, görkəmli ifaçının milli və Avropa musiqi dəyərlərini özündə ehtiva etdiyini xüsusi vurğuladı. Bakı Musiqi Akademiyasının rektoru Azərbaycan musiqi sənətinin inkişafına verdiyi böyük dəstəyə görə prezident İlham Əliyevə minnətdarlığını bildirdi.*

Sizə dərin minnətdarlığımı bildirmək istərdim. Çünki il ərzində Bakıda musiqi sənəti ilə bağlı çox hadisələr olub. Bülbülün adını daşıyan müsabiqə, Qəbələ, Şəki festivalları, caz, muğam festivalları, Rostropoviç adına festival. Bizim qonaqlarımız deyir ki, biz 2 il bundan əvvəl Bakıda olmuşuq, indi Bakını tanımadıq. Bakı belə inkişaf edib.

Buna görə Sizə dərin minnətdarlığımı bildirmək istərdim, cənab Prezident. Sizinlə bir yerdə, inşallah, Şuşada muzeyin açılışında iştirak edəcəyik.

**Arif Babayev** *(Xalq artisti):* Hörmətli Bülbül səsini sevənlər! Bu gün doğrudan da böyük bir bayramdır. Azərbaycanın böyük xanəndəsinin, vokalistinin heykəlinin açılışıdır. Bizim hamımızın, bütün Azərbaycan xalqının böyük bayramıdır. Bülbül hamı tərəfindən – nəinki Azərbaycanda, xarici ölkələrdə də sevilən sənətkar idi. Mən xarici ölkələrdə olanda da görmüşəm ki, onun lent yazılarını necə əzizləyirlər, necə qoruyurlar.

Bülbülün səsi əvəzolunmaz səsdir. Biz onun sənətini, oxumağını tələbələrimizə aşılayırıq. Tələbələrimizə deyirik ki, böyük Bülbülü dinləyin, onun oxu tərzini öyrənin. Onun hər bir ifası, hər bir xalq mahnısı böyük bir əsərdir. Sevinirik, çox sevinirik ki, biz Bülbül səsindən istifadə edirik. Burada doğru qeyd etdilər, Bülbül həm vokalist, həm xanəndə idi, o kişidə hər şey var idi. Allah-Taala ona əvəzolunmaz səs bəxş etmişdi.

*Bu mərasimin Bülbül sənətinin yaşadılmasına töhfə olduğunu deyən Arif Babayev böyük sənətkarın abidəsinin ucaldılmasına görə dövlətimizin başçısına minnətdarlığını bildirdi.*

Bu gün bu gözəl heykəlin açılmasına, bu sevinci bizə bəxş etdiyinə görə biz cənab Prezidentə minnətdarlığımızı bildiririk. Biz sevinirik. Sevinirik ki, Bülbül sənəti vardır və yaşayır. Bülbülün əvəzolunmaz səsi həmişə yaşayacaqdır.

Sağ olun, cənab Prezident! Siz ölkədə çox işlər görürsünüz. Siz sənət adamlarına böyük diqqət və qayğı göstərirsiniz.

*Azərbaycan mədəniyyətinin xarici ölkələrdə yüksək səviyyədə təbliğ edildiyini bildirən Arif Babayev bu yaxınlarda Fransada Azərbaycan Mədəniyyət Mərkəzinin açılmasının böyük hadisə olduğunu vurğuladı.*

Bu yaxınlarda Fransada nümayəndə heyətinin bir üzvü də mən idim. Orada böyük bir binanın – Azərbaycan Mədəniyyət Mərkəzinin açılması çox böyük bir işdir.

Bu gün böyük bir tarixi hadisədir ki, Bülbülün heykəli onun adını daşıyan bu prospektdə, gözəl Bakının gözəl bir yerində ucaldılıb.

**S e r g e y  L e y f e r k u s** *(Rusiyanın Xalq artisti, Vokalçıların Bülbül adına VI Beynəlxalq müsabiqəsinin münsiflər heyətinin sədri):* Möhtərəm cənab Prezident!

Hörmətli cənab nazir, hörmətli Ada xanım!

İlk növbədə icazə verin, gözəl həmkarımız, dünya musiqi mədəniyyətinə və təkcə Azərbaycanın yox, bir sıra ölkələrin incəsənət tarixinə öz töhfələrini vermiş böyük musiqiçinin abidəsinin açılışında iştirak etmək şərəfinə görə Bülbül müsabiqəsinin beynəlmiləl münsiflər heyəti adından təşəkkürümü bildirim. Bülbülü təkcə Azərbaycanda, təkcə Rusiyada deyil, həm də İtaliyada, Fransada, dünyanın bir sıra ölkələrində tanıyırlar. Onu da demək istəyirəm ki, gözəl Bakı şəhərində 20-dən çox küçəyə görkəmli incəsənət və mədəniyyət xadimlərinin adları verilmişdir. Təəssüf ki, belə bir faktla öyünə biləcək ölkələr və şəhərlər çox deyildir. Azərbaycanda bir sıra istedadlı artistlərə, müğənnilərə, musiqiçilərə, bəstəkarlara abidələr ucaldılmışdır. Bizim kəşməkəşli əsrimizdə bu, bəlkə də çox nadir haldır ki, sənət adamlarına belə gözəl abidələr ucaldılır.

Bilirsinizmi, Siz bu abidəni açanda mənim qəlbim sevinclə döyündü. Ona görə ki, bu gün Yer kürəsinin çox guşələrində müşahidə edilən adilik fonunda bu abidə, mənim fikrimcə, böyük mədəni dəyərə malik olan ən mühüm sənət nümunələrindən biri olacaqdır.

*Sergey Leyferkus Bülbülün abidəsinin yüksək sənət əsəri olduğunu qeyd edərək, bu abidənin Bülbül ruhunu dolğun əks etdirdiyini və yaşatdığını vurğuladı.*

Mən bu mərasimə gələndə xəyalımda belə bir səhnə canlanmışdı. Mən bu barədə Ada xanıma da danışdım. Həmin səhnə belə idi: Bülbül prospektində balaca qız nəvəsi ilə bir baba gəzir. Qız babasından soruşur:

– Baba, bu abidənin üzərində nə yazılıb?

Baba cavab verir:

– «Bülbül» yazılmışdır.

– Axı burada adam dayanır, nə üçün «bülbül» yazılıb?

Baba cavab verir:

– Ona görə ki, bu adam bülbül kimi oxuyurdu. Hətta bülbüldən də yaxşı oxuyurdu.

**R o b e r t  K ö r n e r** *(Fransanın Lion Opera Teatrının ifaçılıq direktoru)*: Hörmətli cənab Prezident!

Hörmətli Ada xanım, Çingiz və Polad!

Bu gün dahi Bülbülün abidəsinin açılışında iştirak etmək mənim üçün böyük şərəfdir.

Bu abidə Azərbaycan xalqının Bülbülə əllə ucaltdığı abidədir. Lakin əllə ucaldılmayan abidə də vardır. Bu artıq 15 ildir Bülbülün adını daşıyan müsabiqədir. Bu müsabiqə sayəsində Bülbülü Yer kürəsinin bütün guşələrində tanıyırlar. Bu il müsabiqədə iştirak etmək üçün Amerikadan tutmuş Yaponiyayadək 300-dən çox adam arzusunu bildirmişdir.

Mən bu müsabiqənin münsiflər heyətinin işində ikinci dəfə iştirak etmək kimi böyük şərəfə layiq görülmüşəm. Mən bu təklifi məmnuniyyətlə qəbul etdim, çünki Bakı şəhərinin gözəlliyi və bakılıların qeyri-adi qonaqpərvərliyi məni heyran

qoymuşdur. Yəqin ki, Bülbülün özü də xasiyyətcə və mənəviyyatca belə gözəl insan olmuşdur.

*Robert Körner Azərbaycanda gənc istedadlı ifaçılarla görüşündən məmnunluğunu ifadə etdi, onların Avropada və dünyada Azərbaycan mədəniyyətini yüksək səviyyədə təbliğ etdiklərini vurğuladı.*

Mən burada hazırda əməkdaşlıq etdiyim bir çox azərbaycanlı gənc müğənni – Bülbül adına müsabiqənin laureatları ilə tanış oldum. Onlar öz ölkəsini Avropada və digər qitələrdə şöhrətləndirirlər.

**P o l a d  B ü l b ü l o ğ l u** *(Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı Fövqəladə və Səlahiyyətli səfiri):*

Hörmətli cənab Prezident!

Hörmətli, xanımlar, cənablar!

Hörmətli qonaqlar və əziz dostlar!

Təbii ki, mən çox həyəcanlıyam. İnanın, mən dünyada yüksək kürsülərdən çıxış etmişəm, təcrübəli adamam, amma bu gün o qədər həyəcanlıyam ki, söz tapa bilmirəm öz duyğularımı ifadə edim. Hörmətli Prezidentimiz burada çox gözəl çıxış etdi. Bu məzmunlu çıxışda təkcə Bülbülə deyil, Azərbaycan mədəniyyətinə, Azərbaycan sənətinə, Azərbaycan xalqının nümayəndələrinə çox böyük hörmət vardır. Azərbaycanda çox gözəl bir məsəl vardır. Deyirlər: «ot kökü üstündə bitər». Sənətkara, sənətə, musiqiyə, incəsənətə hörmətin əsasını bizim unudulmaz liderimiz möhtərəm Heydər Əliyev qoyub. Bu ənənə məhz Heydər Əliyev tərəfindən hələ sovetlər vaxtından başlamışdır.

Burada toplaşanların hamısı bilir ki, sovet vaxtında hər bir addımı gərək Moskva ilə razılaşdıraydın. Amma Heydər Əliyev heç kəsdən soruşmamış bizim böyük şəxsiyyətlərə ev-muzeyləri yaratdı. O vaxt sovetlərdə bu, görünməyən bir iş idi. Birinci muzey Üzeyir bəyin muzeyi idi. Sonra böyük şairimiz Səməd Vurğunun muzeyi açıldı. Daha sonra böyük dramaturqumuz Cəfər Cabbarlının muzeyi yaradıldı. Bunun ardınca Bülbülün muzeyi açıldı. Mən Bülbülün oğlu kimi, atamın ev-muzeyinin

və digər muzeylərin məhz ulu öndərin böyük diqqəti, qayğısı, onun bilavasitə nəzarəti və tapşırığı ilə açıldığını yaxşı bilirəm. O vaxtı bizə Ukraynadan, Moskvadan məktublar gəlirdi. Soruşurdular ki, bir ifaçının, müğənninin ev-muzeyi necə açılıb?! Bu, ümumiyyətlə, Sovet İttifaqında muzey işində yeni bir istiqamət idi.

Burada hörmətli Prezidentimiz dedi ki, Bülbülün 100 illiyində böyük öndərimiz xüsusi bir sərəncam imzaladı və o Sərəncamla bu müsabiqənin əsası qoyuldu. 1997-cı ildən – artıq 15 ildir ki, bu beynəlxalq müsabiqə keçirilir. Artıq altıncı dəfədir ki, bu beynəlxalq müsabiqə təşkil olunur. Burada deyildi ki, bu dəfə müsabiqədə Amerikadan tutmuş Yaponiyaya qədər iştirak etmək istəyənlər vardır. Bu müsabiqədə beynəlxalq münsiflər heyəti fəaliyyət göstərir.

Mən bir xırda məsələni də deyim, bəlkə bunu deməməliyəm. Amma bir insan kimi deyəcəyəm. Dünən cənab Prezident xüsusi tapşırıq verib ki, Poladın anası yaşlı qadındır və orada mütləq yaşlı insanlar olacaq, stullar qoyun ki, onlar əyləşsinlər. Çox sağ olun, cənab Prezident! Mən Sizə 90 yaşında anamın, bütün musiqiçilərin adından minnətdarlığımı bildirirəm. Siz burada Qarabağ haqqında danışdınız. Qarabağlıların adından – icra başçısı da, Şuşanın ziyalıları da buradadır – Sizə dərin təşəkkürümüzü bildiririk. Ona görə ki, bu, ancaq Bülbülün deyil, bu, bir Qarabağ oğlunun, Qarabağ musiqiçisinin, Qarabağ səsinin abidəsidir. Bu gün bizim xalqımız üçün bu çox vacibdir, çox önəmlidir.

Bir sirri də açım ki, bu yeri məhz cənab Prezident özü seçib. Deyib ki, burada yaxşı olar! Doğrudan da bura Bülbülün abidəsi üçün çox münasib yerdir. Üzbəüzdə Opera Teatrıdır. Bülbül 40 ildən çox Opera Teatrına gedib-gəlib. Qarşımızda Gənclər Teatrıdır. Yaxınlıqdakı bu evdə böyük bəstəkarımız Qara Qarayev, böyük dirijorumuz Niyazi yaşayıb. Bizim evdə böyük simalar – Məmməd Səid Ordubadi, Süleyman Rüstəm, Mirzə İbrahimov, Qəmər Almaszadə, daha kimlər, kimlər yaşayıb. Şəhərin bu yerində belə bir mühit var idi. Bu gün Fərhad çox

gözəl dedi. Onlar bu küçələrdə gəziblər. Qonşumuz olan Niyazi bizə gələrdi, atam onlara gedərdi. Bilirsiniz, o vaxt indiki kimi mobil telefon yox idi. Kim-kimi tapmaq istəyirdisə, axşamlar bu küçəyə çıxardı. Bu küçədə kimi istəsən tapmaq mümkün idi. Doğrudan da bu, sanki həmin tarixin qorunub saxlanmasıdır. Mən belə hesab edirəm. Əgər doğrudan da bunların hamısı varsa, bu gün Bülbülün, Üzeyir bəyin, bu böyük insanların ruhu şad olmalıdır. Ona görə ki, bu gün bizim Prezidentimiz onlara böyük hörmət, böyük ehtiram bəsləyir. Bu adların yaşaması, tarixdə qalması üçün çox işlər görür. Mən onu da demək istəyirəm ki, cənab Prezident, bu gün bu mərasimdə iştirak edən qonaqlarımız Bakıya valeh olublar.

*Polad Bülbüloğlu Şuşada güllələbaran edilmiş abidələrin vaxtilə xalqımızın ümummilli lideri Heydər Əliyevin bilavasitə göstərişi və köməyi ilə Bakıya gətirildiyini vurğuladı, bu abidələrin yenidən Şuşaya qayıdacağına inamını ifadə etdi.*

* * *

*Sonra prezident İlham Əliyev Bülbülün ailə üzvləri və mərasimdə iştirak edən qonaqlarla, mədəniyyət və incəsənət xadimləri ilə söhbət etdi və onlarla xatirə şəkli çəkdirdi.*

* * *

*Qeyd edək ki, qeyri-adi dərəcədə məlahətli səsinə görə xalq tərəfindən Bülbül adı verilən görkəmli Azərbaycan musiqiçisinin abidəsinin müəllifi heykəltəraş Akif Əsgərovdur. Tuncdan hazırlanan abidənin Bakının mərkəzində, Bülbülün yaşadığı evin yaxınlığında ucaldılması xalqımızın milli-mənəvi dəyərlərinin qorunması istiqamətində atılan mühüm addımlardan biridir.*

## QEYDLƏR

**1. Fransa,** F r a n s a  R e s p u b l i k a s ı – Qərbi Avropada dövlət. Sahəsi 674,6 min km$^2$, əhalisi 67 milyon nəfərdir. İnzibati cəhətdən 101 departamentə bölünür. Qanunverici orqanı iki palatadan (Milli Məclis və Senat) ibarət parlamentdir. İcra hakimiyyəti prezident və Nazirlər Şurasına məxsusdur. Paytaxtı Paris şəhəridir. – 5–26, 62, 97, 255, 353, 354.

**2. Luvr Muzeyi** – Parisdə memarlıq abidəsi. Adı vaxtilə burada Fransa krallarının ovçu qəsrinin yerləşdiyi «Canavar» meşəsinin adından götürülmüşdür. Əvvəllər kral sarayı olmuş, sonradan dünyanın ən böyük bədii muzeylərindən birinə çevrilmişdir. 1791-ci ildə inqilabi Konventin dekreti ilə Luvr milli bədii muzeyə çevrilmiş və 1793-cü ildə kütləvi baxış üçün açılmışdır. Ekspozisiyasının əsasını keçmiş kral kolleksiyası, həmçinin bir sıra monastır, kilsə və kübar ailələrin milliləşdirilmiş kolleksiyaları təşkil etmişdir. Kolleksiyası Napoleon yürüşlərinin qənimətləri, müxtəlif ölkələrdən satınalınma, eləcə də hədiyyələr hesabına daim artmışdır. Luvrda 20 mindən artıq boyakarlıq və heykəltəraşlıq əsəri var. Muzey 6 şöbədən ibarətdir: Qədim Şərq, Qədim Misir, Qədim Yunanıstan və Qədim Roma, heykəltəraşlıq, boyakarlıq və rəsm, dekorativ-tətbiqi sənət. Qədim Şərq şöbəsində nadir incəsənət nümunələri, o cümlədən Azərbaycanın zərgərlik (Ziviyədən tapılmış qızıl əşyalar, e.ə. VIII əsr) və metal məmulatları (bürünc dolça, 1190, müəllifi Osman ibn Salman Naxçıvani) saxlanılır. Luvrda Fransa incəsənəti daha geniş təmsil olunub. Burada dünya şöhrəti qazanmış bir sıra əsər («Samofrakiyalı Nika», e.ə. II əsrin sonu; «Miloslu Afrodita», e.ə. II əsr; Mikelancelo, Leonardo da Vinçi, Rafael, Rembrandt və b.-nın tabloları) mühafizə edilir. – 6.

**3. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası** (BMTTŞ) – BMT-nin daimi fəaliyyət göstərən mühüm orqanı. BMT Nizamnaməsinə görə, beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü var: 5 daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10 üzvü isə 2 il müddətinə seçilir. Şuranın hər bir üzvü bir səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır. – 6, 39, 43, 44, 45, 49, 117, 145, 170, 213, 228, 238, 245, 285, 286, 342.

**4.«Total»** – məşhur fransız neft şirkəti. 1924-cü ildə təşkil edilmişdir. Bir çox ölkələrdə neftin kəşfiyyatı, emalı və satışı ilə məşğul olur. – 7, 10.

**5. Türkiyə Cümhuriyyəti** – Qərbi Asiyada və Avropanın cənub-şərqində dövlət. Sahəsi 783,5 min km$^2$, əhalisi 79,4 milyon nəfərdir. İnzibati cəhətdən 81 ilə (vilayətə) bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı Türkiyə Böyük Millət Məclisidir. Paytaxtı Ankara şəhəridir. – 9, 257, 265, 270, 273, 274, 332.

**6. Heydər Əliyev Fondu** – qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur. Heydər Əliyev Fondunun prezidenti YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Milli Məclisin deputatı, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevadır.

Fondun yaradılmasında məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramı ifadə etmək, Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək, Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daima aşılamaq olmuşdur.

Fondun prezidenti onun səlahiyyətli qanuni nümayəndəsidir. Fondun işinə bilavasitə rəhbərlik icraçı direktora aiddir. Fondun nəzdində Ekspert Şurası və digər qurumlar fəaliyyət göstərir. – 27, 33, 36, 63, 173, 174, 176, 291.

**7. Mehriban Əliyeva,** M e h r i b a n A r i f q ı z ı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–92-ci illərdə akademik M.Krasnovun rəhbərliyi altında Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləyib. 1995-ci ildə Mehriban Əliyeva «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görüb. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün 3 dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan–İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Mehriban Əliyeva Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaradılmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talassemiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə Mehriban Əliyeva YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005-ci ildən Milli Məclisin deputatıdır. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli-mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliğinə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. 2015-ci ildə Bakıda keçirilən ilk Avropa oyunlarının Təşkilat Komitəsinin sədri

olmuş, oyunların yüksək səviyyədə keçirilməsində müstəsna xidmətlərinə görə «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 27–31, 33–36, 37, 61, 69–87, 110.

**8. Artur Rasizadə,** A r t u r  T a h i r  o ğ l u (d.1935) – Azərbaycanın dövlət xadimi. SSRİ Dövlət mükafatı laureatı. 1986–92-ci illərdə Azərbaycan Respublikası Baş nazirinin birinci müavini vəzifəsində işləmişdir. 1996-cı ildən Azərbaycan Respublikasının Baş naziridir. Azərbaycan Respublikasının «İstiqlal», «Şərəf» və «Şöhrət» ordenləri ilə təltif edilmişdir. – 32.

**9. Ramiz Mehdiyev,** R a m i z  Ə n v ə r  o ğ l u (d.1938) – Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, fəlsəfə elmləri doktoru, professor. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü. 1978–80-ci illərdə Rayon Partiya Komitəsinin Birinci katibi, 1980–81-ci illərdə Azərbaycan KP MK-da elm və təhsil şöbəsinin müdiri, 1981–83-cü illərdə Azərbaycan KP MK-da partiya-təşkilat işi şöbəsinin müdiri, 1983–88-ci illərdə Azərbaycan KP MK-da katib, 1988–94-cü illərdə Azərbaycan EA-nın İctimai-Siyasi Tədqiqatlar və İnformasiya İnstitutunda şöbə müdiri, 1994-cü ildə Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının şöbə müdiri, 1995-ci ildən Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəridir. 1995–2000-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı olub. Müasir siyasi problemlərə, dövlət quruculuğuna aid bir çox kitab və monoqrafiyaların müəllifidir. Azərbaycan Respublikasının «İstiqlal», Rusiya Federasiyasının «Dostluq» ordenləri ilə təltif edilmişdir. Beynəlxalq Nyu-York Akademiyasının və Türk Dünyası Araşdırmalar Uluslararası Elmlər Akademiyasının üzvüdür. Azərbaycan Respublikasının «İstiqlal» və «Şərəf» ordenləri ilə təltif edilmişdir. – 32.

**10. Hacıbala Abutalıbov,** H a c ı b a l a  İ b r a h i m  o ğ l u (d.1944) – Bakı Şəhər İcra Hakimiyyətinin başçısı. Fizika-

riyaziyyat elmləri doktoru. Azərbaycan Respublikasının «Şərəf» ordeni ilə təltif edilmişdir. – 32.

**11. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Sahəsi 9,5 milyon km$^2$, əhalisi 325,8 milyon nəfərdir. İnzibati cəhətdən 50 ştat və Kolumbiya federal paytaxt dairəsinə bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr Palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 34, 62, 79, 252, 255, 293, 354.

**12. Heydər Əliyev,** H e y d ə r Ə l i r z a o ğ l u (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti (1993–2003), 2 dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın Büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi

Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda, SSRİ Nazirlər Soveti sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Azərbaycan Respublikası Ali Sovetinin Sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın o zamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əla-

qələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H.Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanı Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin Fəxri doktoru adına və digər yüksək nüfuzlu Fəxri adlara layiq görülmüşdür. – 37, 42, 63, 64, 65, 67, 137–138, 140, 166, 171, 173, 185, 187, 188, 195, 246, 249, 250, 291, 292, 297, 298, 299, 309, 325, 329, 330, 349, 355, 357.

**13. Elmar Məmmədyarov,** Elmar Məhərrəm oğlu (d.1960) – tarix elmləri namizədi, diplomat. 1995–98-ci illərdə Azərbaycan Xarici İşlər Nazirliyində Beynəlxalq Təşkilatlar İdarəsinin başçısı, 1998–2003-cü illərdə ABŞ-da Azərbaycan səfirliyində müşavir, 2003–2004-cü illərdə İtaliyada Azər-

baycan Respublikasının səfiri, 2004-cü ildən isə Azərbaycan Respublikasının Xarici İşlər naziridir. – 37–40, 125, 236, 266.

**14. Xocalı soyqırımı** – 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı qüvvələri və Xankəndidə yerləşən Rusiyanın 366-cı alayının əsgər və zabitləri Xocalıya hər tərəfdən hücum etmiş, şəhəri tamamilə yandırmışlar, 613 azərbaycanlı öldürülmüş, yüzlərlə şəhər sakini yaralanmış, itkin düşmüşdür. – 38, 48, 116, 142.

**15. Tacikistan,** T a c i k i s t a n   R e s p u b l i k a s ı – Orta Asiyanın cənub-şərqində dövlət. Sahəsi 142 min km$^2$, əhalisi 8,5 milyon nəfərdir. İnzibati ərazisi Bədaxşən Muxtar Vilayətinə, 2 vilayətə və 45 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Düşənbə şəhəridir. – 38, 257, 265, 271.

**16. Rusiya,** R u s i y a   F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Sahəsi 17,125 milyon km$^2$, əhalisi 146,5 milyon nəfərdir. Rusiya Federasiyasına 22 respublika, 9 diyar, 46 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 4 muxtar vilayət və mahal daxildir. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 39, 63–64, 71, 78, 79, 80, 81, 99, 110, 121–122, 345, 353.

**17. İslam Konfransı Təşkilatı** (İKT)– 1969-cu ildə yaradılmışdır. Müsəlman ölkələrinin çoxunu birləşdirir. Nizamnaməsinə görə İslam Konfransı Təşkilatının fəaliyyəti müsəlmanların həmrəyliyinin möhkəmlənməsinə, üzv dövlətlər arasında əməkdaşlığa yönəldilmişdir. İqamətgahı Ciddədədir (Səudiyyə Ərəbistanı). Azərbaycan 1991-ci ildən İKT-nın üzvüdür. Hazırda İslam Əməkdaşlıq Təşkilatı adlanır. – 40.

**18. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Sahəsi 4,4 min $km^2$-dir. Mərkəzi Xankəndidir.

1988-ci ildə muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq Dağlıq Qarabağı işğal etdilər. BMT-nin 822, 853, 874, 884 saylı qətnamələrinə görə, erməni işğalçıları Azərbaycan torpaqlarını qeyd-şərtsiz tərk etməlidirlər. Ancaq Azərbaycan torpaqları hələ də erməni tapdağı altındadır. – 42, 43, 116, 117, 142, 144, 145, 167, 169, 170, 213, 228, 238, 244, 248, 252, 350.

**19. NATO** (Şimali Atlantika Müqaviləsi Təşkilatı) – hərbi-siyasi ittifaq. 1949-cu il aprelin 4-də Vaşinqtonda ABŞ, Böyük Britaniya, Fransa, Belçika, Niderland, Lüksemburq, Kanada, İtaliya, Portuqaliya, Norveç, Danimarka, İslandiyanın imzaladıqları Şimali Atlantika müqaviləsi əsasında yaradılmışdır. 1952-ci ildə Yunanıstan və Türkiyə, 1955-ci ildə Almaniya Federativ Respublikası, 1982-ci ildə İspaniya NATO-ya qoşulublar. Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan (1991) sonra əvvəllər sosialist ölkələri düşərgəsinə daxil olmuş ölkələrin bir qismi NATO-ya üzvlüyə qəbul edilmiş, digər qismi isə ilkin mərhələ kimi, NATO-nun «Sülh naminə tərəfdaşlıq» proqramına qoşulmuşlar. Ali orqanı NATO Şurasının sessiyasıdır. Mənzil-qərargahı Brüsseldədir. – 43, 49, 117, 145, 213.

**20. Çin Xalq Respublikası** (ÇXR) – Mərkəzi və Şərqi Asiyada dövlət. Sahəsi 9,6 milyon $km^2$, əhalisi 1,4 milyard nəfərdir. İnzibati cəhətdən 22 əyalətə (Tayvansız), 5 muxtar rayona və mərkəz tabeliyində olan 3 şəhərə (Pekin, Şanxay, Tyantszin) bölünür. Ali dövlət hakimiyyəti orqanı Ümumçin Xalq Nümayəndələri Məclisidir. Dövlət başçısı Çin Xalq

Respublikasının Sədridir. Paytaxtı Pekin şəhəridir. – 58–59, 62, 79, 88, 255.

**21. Hu Szintao** (d.1942) – Çin siyasətçisi və dövlət xadimi. 1992-ci ildən ÇKP MK-da yüksək vəzifələrdə çalışmışdır. 2002–2012-ci illərdə ÇKP MK-nın Baş katibi, 2003–2013-cü illərdə ÇXR-nın Sədri, 2004–2012-ci illərdə isə ÇXR Hərbi Şurasının sədri olmuşdur. – 58, 59, 88.

**22. Həzi Aslanov,** H ə z i  Ə h ə d  o ğ l u (1910–1945) – tank qoşunları qvardiya general-mayoru, 2 dəfə Sovet İttifaqı Qəhrəmanı. Böyük Vətən müharibəsinin ilk günlərindən döyüşlərdə iştirak edən H. Aslanov Stalinqrad vuruşmasında, feldmarşal Manşteynin tank ordusunun darmadağın edilməsində xüsusi məharət göstərmişdir. 1944-cü ildə H. Aslanovun 35-ci qvardiya tank briqadası Belorusiyanı, Pribaltika respublikalarını azad etmək uğrundakı vuruşmalarda xüsusilə fərqlənmişdi. H. Aslanov 1945-ci il yanvar ayının 24-də Latviyanın Liepay şəhəri yaxınlığındakı vuruşmada qəhrəmancasına həlak olmuşdur. – 64.

**23. M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialı** – Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində olan ali təhsil müəssisəsi. Filial 2009-cu ildən fəaliyyətə başlamışdır. Universitetdə 6 ixtisas üzrə 489 tələbə təhsil alır. Tədris müəssisəsində Moskvadan ezam olunmuş tanınmış alimlərlə yanaşı, Bakı universitetlərinin yüksək hazırlıqlı alimləri də dərs deyirlər. – 69–87.

**24. Nərgiz Paşayeva,** N ə r g i z  A r i f  q ı z ı (d.1962) – filologiya elmləri doktoru, professor, Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialının rektoru. Özəl «Üns» yaradıcılıq səhnəsinin yaradıcısı və bədii rəhbəri, «Azərbaycan mədəniyyətinin dostları» Xeyriyyə Fondunun İdarə Heyətinin üzvü, «Azərbaycan–İrs» jurnalının ədəbi şöbəsinin redaktoru, İngiltərə– Azərbaycan Cəmiyyətinin həmsədridir. – 69–87.

**25. Viktor Sadovniç** (d.1939) – informatika sahəsində alim. Rusiya Elmlər Akademiyasının akademiki. Dövlət mükafatı laureatı. 1992-ci ildən Moskva Dövlət Universitetinin rektoru. – 69–70, 87.

**26. Almaniya,** Almaniya Federativ Respublikası – Mərkəzi Avropada dövlət. Sahəsi 357 min km$^2$, əhalisi 82,2 milyon nəfərdir. AFR tərkibində 16 ərazisi olan federasiyadır. Dövlət başçısı prezident, hökumət başçısı isə federal kanslerdir. Ali qanunverici hakimiyyət orqanı parlamentdən – Bundestaq və Bundesratdan ibarətdir. Paytaxtı Berlin şəhəridir. – 62, 89, 255.

**27. Koreya,** Koreya Respublikası – Şərqi Asiyada dövlət. Sahəsi 100,2 min km$^2$, əhalisi 51,4 milyon nəfərdir. İnzibati ərazisi 9 əyalətə, mərkəzə tabeli 6 və 1 xüsusi statuslu şəhərə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Milli Məclisdir. Paytaxtı Seul şəhəridir. – 62, 90, 332.

**28. Li Men Bak** (d.1941) – 2008–2013-cü illərdə Koreya Respublikasının Prezidenti olmuşdur. – 90.

**29. İspaniya** – Cənub–Qərbi Avropada dövlət. Sahəsi 504,8 min km$^2$, əhalisi 47,3 milyon nəfərdir. İnzibati ərazisi 17 muxtar vilayətə daxil olan 50 əyalətə bölünür. İspaniya konstitusiyalı monarxiyadır. Dövlət başçısı kral, qanunverici orqanı Korteslərdir (ikipalatalı parlament, Konqres və Senat). Mərakeş sahilindəki Seuta və Melilya anklav şəhərləri İspaniyanın mülküdür. Paytaxtı Madrid şəhəridir. – 91.

**30. I Xuan Karlos** (d.1938) – 1975–2014-cü illərdə İspaniya kralı. 1975-ci ildə diktator Frankonun ölümündən sonra kral elan edilmişdir. – 91.

**31. Vladimir Putin** (d.1952) – 2000–2008-ci illərdə Rusiya Federasiyasının Prezidenti olmuşdur. 1975–97-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildə Rusiya Federasiyası Prezidenti Administrasiyasının rəhbəri, 1998–99-cu illərdə FTX-nın direktoru, 1999-cu ilin avqustundan Rusiya hökumətinin başçısı, 2008-ci ilin mayında Rusiya Federasiyasının Baş naziri təyin edilmişdir. 2012-ci ilin mart ayında yenidən Rusiya Federasiyasının Prezidenti seçilmişdir. – 99, 110, 122.

**32. Mahmud Kərimov,** Mahmud Kərim oğlu (1948–2013) – fizik, fizika-riyaziyyat elmləri doktoru, professor, akademik. 2001–2013-cü illərdə Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti olmuşdur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 129.

**33. Əhməd Zevayl** (1946–2016) – Misir–ABŞ kimyaçısı. Kimya üzrə Nobel mükafatı laureatı. XX əsrin 80-ci illərində Zevayl dünyada ilk dəfə olaraq molekulların izlərini əldə etmək imkanını verən ən sürətli çəkiliş kamerasını yaratmışdır. – 129.

**34. Ağdam** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1154 $km^2$, əhalisi 194,8 min nəfərdir. 1993-cü ildə Ağdam şəhəri və əksər kəndləri erməni qəsbkarları tərəfindən işğal edilmişdir. – 144.

**35. ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də yaradılmışdır. 1997-ci ildə Minsk qrupunun tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna 2 sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından onun 3 – Rusiya, ABŞ və fransalı həmsədrləri var. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. – 144.

**36. ATƏT** – Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. Əsası 1973-cü ilin iyulunda Helsinkidə qoyulmuşdur. Burada Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət rəhbərləri iştirak edir. ATƏT «soyuq müharibə»nin qurtarmasından sonra Ümumavropa təhlükəsizlik sistemini formalaşdıran, yeni Avropanın siyasi və iqtisadi həyatının sivil birgəyaşayış qaydalarını müəyyən edən, dövlətlərarası münasibətləri rəqiblik və münaqişə yolundan əməkdaşlıq və qarşılıqlı mənafe istiqamətlərinə yönəldən bir təşkilat funksiyasını icra edir.

Azərbaycan 1992-ci ildən ATƏT-in üzvüdür və 1993-cü ilin ikinci yarısından ATƏT-in zirvə görüşlərində Azərbaycan nümayəndə heyəti fəal iştirak edir. – 144, 146.

**37. Şuşa** – Azərbaycan Respublikasında şəhər. Sahəsi 289 $km^2$, əhalisi 32,8 min nəfərdir. Elmi ədəbiyyatda Şuşanın əsasının 1750-ci illərin əvvəllərində Qarabağ xanı Pənahəli xan Cavanşir tərəfindən qoyulması göstərilsə də, tədqiqatlar Şuşanın qədim yaşayış məntəqəsi olduğunu qeyd edirlər. Qarabağ xanlığının mərkəzi olan Şuşa bir müddət Pənahəli xanın adı ilə Pənahabad adlanmışdır.

Şuşa 1813-cü il Gülüstan müqaviləsinə əsasən Qarabağ xanlığı tərkibində Rusiyaya birləşdirildi. 1920-ci ilin martında erməni daşnaklarının Qarabağda törətdikləri qırğın nəticəsində Şuşanın bir hissəsi tamamilə yandırıldı və minlərlə günahsız insan qətlə yetirildi. Lakin iyun ayının əvvəlində müsavatçılar və türk generalı Nuru Paşa Şuşanı erməni qəsbkarlarından xilas etdi. 1923-cü il Azərbaycan MİK-nin dekretinə əsasən Dağlıq Qarabağ Muxtar Vilayəti təşkil olunduqda Şuşa muxtar vilayətin tərkibinə daxil edildi.1992-ci ildə erməni işğalçıları tərəfindən işğal edilmişdir. – 170, 228, 349, 350, 351, 357.

**38. Xankəndi** – Azərbaycan Respublikasında şəhər. Dağlıq Qarabağ Muxtar Vilayətinin mərkəzi. 1991-ci ildən erməni separatçıları tərəfindən işğal edilmişdir. – 170, 228, 351.

**39. Səməd Vurğun,** S ə m ə d Y u s i f oğlu V ə k i - l o v (1906–1956) – böyük Azərbaycan şairi, ictimai xadim. Azərbaycanın Xalq şairi Səməd Vurğunun yaradıcılığı XX əsr Azərbaycan şeirinin inkişafında mühüm rol oynamışdır. Səməd Vurğun Azərbaycan Yazıçılar İttifaqının məsul katibi, sədri, Azərbaycanın Xarici Ölkələrlə Mədəni Əlaqələr Cəmiyyətinin sədri, Azərbaycan MEA-nın vitse-prezidenti olmuşdur, 2 dəfə SSRİ Dövlət mükafatı laureatı adına layiq görülmüşdür. – 176, 355.

**40. Yeni Azərbaycan Partiyası** (YAP) – Azərbaycanda ən kütləvi siyasi partiya. YAP 1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində təsis edilib. 81 rayon və 5000-ə yaxın ilk partiya təşkilatı var. Partiyada Gənclər Birliyi və Qadın Şurası fəaliyyət göstərir. Üzvlərinin sayına görə parlamentdə çoxluq təşkil edir. Azərbaycanın dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsində, ölkəmizdə demokratik, hüquqi və dünyəvi dövlət qurulmasında və iqtisadi-siyasi islahatların həyata keçirilməsində fəal iştirak edir. YAP-ın təsis konfransında (1992) mərhum prezidentimiz Heydər Əliyev yekdilliklə partiyanın sədri seçilmişdir. 2005-ci ilin mart ayından isə YAP-ın sədri prezident İlham Əliyevdir. – 188,296, 306.

**41. Leyla Əliyeva,** L e y l a İ l h a m q ı z ı (d.1986) – «Baku» jurnalının baş redaktoru, Heydər Əliyev Fondunun vitse-prezidenti, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın böyük qızı, Heydər Əliyevin nəvəsi. 2006–2008-ci illərdə Leyla Əliyeva Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunun magistraturasında oxumuş və bu institutda oxuyan azərbaycanlı tələbələrin nümayəndəsi kimi

fəaliyyət göstərmişdir. Leyla Əliyeva həm də Moskvada Heydər Əliyev Fonduna başçılıq edir. Azərbaycan Respublikasının «Tərəqqi» medalı ilə təltif edilmişdir. – 200.

**42. Ümumdünya İqtisadi Forumu,** D a v o s İ q t i s a d i F o r u m u – İsveçrənin kurort şəhəri Davosda hər il Ümumdünya İqtisadi Forumu keçirilir. 1995-ci il yanvarın 26–30-da Azərbaycan prezidenti Heydər Əliyev başda olmaqla, Azərbaycan nümayəndə heyəti ilk dəfə bu forumda iştirak etmişdir. – 211,215.

**43. Helsinki Yekun Aktı –** 1975-ci il avqustun 1-də Finlandiyanın paytaxtı Helsinkidə Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və hökumət başçılarının müşavirəsi oldu. Onlar Avropada təhlükəsizlik və əməkdaşlıq haqqında Zirvə aktını imzaladılar. Azərbaycan Respublikası bu aktı 1992-ci ildə imzalamışdır. – 214.

**44. Əlcəzair,** Ə l c ə z a i r X a l q D e m o k r a t i k R e s p u b l i k a s ı – Şimali Afrikada dövlət. Sahəsi 2,38 milyon km$^2$, əhalisi 40,4 milyon nəfərdir. İnzibati ərazisi 48 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Milli Xalq Məclisidir. Paytaxtı Əlcəzair şəhəridir. – 229, 279.

**45. Əbdüləziz Buteflika** (d.1937) – Əlcəzairin dövlət xadimi, 1999-cu ildən Əlcəzair Respublikasının Prezidentidir. – 229.

**46. Özbəkistan,** Ö z b ə k i s t a n R e s p u b l i k a s ı – Orta Asiyanın mərkəzində dövlət. Sahəsi 447,4 min km$^2$, əhalisi 32,3 milyon nəfərdir. Özbəkistanın tərkibinə Qarakalpak Muxtar Respublikası və 12 vilayət daxildir. Dövlətin başçısı prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Daşkənd şəhəridir. – 231–251, 266.

**47. İslam Kərimov,** İ s l a m  Ə b d u q ə n i  o ğ l u (1938–2016) – Özbəkistanın siyasi və dövlət xadimi. 1989–90-cı illərdə Özbəkistan KP MK-nın Birinci katibi, 1990–2016-cı illərdə Özbəkistan Respublikasının Prezidenti olmuşdur. – 231–251.

**48. İpək yolu**, B ö y ü k  İ p ə k  y o l u – beynəlxalq tarixi tranzit-ticarət yolu, eramızdan əvvəl II əsrin sonlarından eramızın XVI əsrinədək fəaliyyət göstərmiş, Çindən Şimali Afrika və İspaniyaya qədər uzanaraq, ayrı-ayrı qolları ilə o zaman dünyanın məlum olan, demək olar ki, bütün ölkələrini birləşdirmişdir.

Əlverişli coğrafi mövqedə yerləşməsi və zəngin maddi sərvətlərə malik olması sayəsində Azərbaycan qədim zamanlardan dünya ölkələri arasında iqtisadi və mədəni əlaqələrdə mühüm yer tutmuşdur.

XX əsrin sonunda Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Böyük İpək yolunun yenidən dirçəldilməsi ideyasını irəli sürməsi bütün dünyada, xüsusilə də Böyük İpək yolunun üstündə yerləşən ölkələrdə ciddi maraqla qarşılandı. Bu məqsədlə 1998-ci ilin sentyabrında Bakıda 33 dövlətin və Avropa İttifaqının iştirakı ilə beynəlxalq konfrans keçirildi, TRASEKA proqramı çərçivəsində nəzərdə tutulan Asiya–Qafqaz–Avropa ticarət dəhlizinin – Böyük İpək yolunun bərpasının və onun imkanlarından hamılıqla bəhrələnməyin vacibliyi qeyd olundu. – 239.

**49. Bakı–Tbilisi–Qars**– Azərbaycan, Gürcüstan və Türkiyəni dəmir yolu ilə birləşdirən nəqliyyat dəhlizi. Yolun tikintisinə 2007-ci ildə başlanılmışdır. 30 oktyabr 2017-ci ildə istifadəyə verilmişdir. Yolun uzunluğu 826 km-dir. – 239, 241.

**50. Nizami Gəncəvi,** İ l y a s  Y u s i f  o ğ l u (1141–1209) – dahi Azərbaycan şairi və mütəfəkkiri. Dünya ədəbiyyatı tarixinə məsnəvi formasında yazdığı 5 epik poemadan ibarət «Xəmsə»

müəllifi kimi daxil olmuşdur. Nizami Gəncəvinin ilkin Şərq Renessansının zirvəsi olan yaradıcılığında dövrünün ən humanist, ümumbəşəri ictimai-siyasi, sosial və mənəvi-əxlaqi idealları parlaq bədii əksini tapmışdır. Nizami Gəncəvi Yaxın Şərq ədəbiyyatında mənzum roman janrının əsasını qoymuş, yeni ədəbi məktəb yaratmışdır. Nizami Gəncəvi həm də dövrünün görkəmli mütəfəkkiri olmuşdur. Onun bütün əsərlərində şəxsiyyət azadlığı, insanın mənəvi azadlığı tərənnüm olunur. – 246.

**51. Əlişir Nəvai,** N i z a m ə d d i n M i r Ə l i ş i r (1441–1501) – özbək şairi və mütəfəkkiri, dövlət xadimi. Özbək dilində «Xəmsə» yaradaraq Nizami ədəbi məktəbinin ən görkəmli davamçılarından biri kimi, Yaxın Şərqdə şöhrət qazanmışdır. – 246.

**52. Mirzə Uluqbəy**, U l u q b ə y M ə h ə m m ə d T a -r a ğ a y (1394–1449) – özbək astronomu, riyaziyyatçısı, Əmir Teymurun nəvəsi. 1409-cu ildə Səmərqənd hakimi elan edilmiş, atası Şahruxun ölümündən (1447) sonra Teymurçilər sülaləsinin başçısı olmuşdur. Hələ gəncliyindən elmlə maraqlanmış, ensiklopedik biliyə malik olmuşdur. Onun yaratdığı Uluqbəy rəsədxanasında tərtib edilən ulduz kataloqu dünyada ən yaxşı kataloq olmuş, Oksfordda (1665) nəşr edilmişdir. – 246.

**53. İran,** İ r a n İ s l a m R e s p u b l i k a s ı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon $km^2$, əhalisi 78,4 milyon nəfərdir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Hökuməti Baş nazir təşkil, prezident isə təsdiq edir. Paytaxtı Tehran şəhəridir. – 256.

**54. Mahmud Əhmədinejad** (d.1956) – 2005–2013-cü illərdə İran İslam Respublikasının Prezidenti olmuşdur. – 256.

**55. Emoməli Rəhmon,** E m o m ə l i   Ş ə r i f   o ğ l u (d.1952) – Tacikistanın siyasi və dövlət xadimi. 1992-ci ildə Tacikistan Ali Sovetinin Sədri olmuşdur. 1994-cü ilin noyabrından Tacikistan Respublikasının Prezidentidir. «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 257, 265, 271.

**56. Əfqanıstan,** Ə f q a n ı s t a n   İ s l a m   R e s p u b l i -k a s ı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 652,8 min km$^2$, əhalisi 32,5 milyon nəfərdir. İnzibati ərazisi 34 vilayətə bölünür. Dövlət başçısı prezidentdir. Paytaxtı Kabil şəhəridir. – 257, 264.

**57. Həmid Kərzai** (d.1957) – 2001–2002-ci illərdə Əfqanıstanın Baş naziri, 2004–2014-cü illərdə Əfqanıstan İslam Respublikasının Prezidenti olmuşdur. – 257.

**58. Pakistan,** P a k i s t a n   İ s l a m   R e s p u b l i k a s ı – Cənubi Asiyada dövlət. Sahəsi 881,4 min km$^2$, əhalisi 201 milyon nəfərdir. İnzibati cəhətdən 4 əyalətə və federal paytaxt ərazisinə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı İslamabad şəhəridir. – 257, 265, 267, 272.

**59. Asif Əli Zərdari** (d.1955) – 2008–2013-cü illərdə Pakistan İslam Respublikasının Prezidenti olmuşdur. – 257, 265, 267, 272.

**60. Türkmənistan,** T ü r k m ə n i s t a n   R e s p u b l i k a- s ı – Orta Asiyanın cənub-qərbində dövlət. Sahəsi 491,2 min km$^2$, əhalisi 5,8 milyon nəfərdir. İnzibati ərazisi 5 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Aşqabad şəhəridir. – 266.

**61. Abdullah Gül** (d.1950) – Türkiyənin dövlət və siyasi xadimi, iqtisad elmləri doktoru, professor. 1991-ci ildə TBMM-in üzvü seçilmişdir. Abdullah Gül Rəcəb Tayyib Ərdoğanla Ədalət və

İnkişaf Partiyasının yaradıcılarından biridir. 2007–2014-cü illərdə Türkiyə Cümhuriyyətinin Prezidenti olmuşdur. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 273.

**62. Qurbanqulu Berdıməhəmmədov** (d.1957) – Türkmənistanın dövlət xadimi. 2007-ci ildən Türkmənistan Respublikasının Prezidentidir. – 275.

**63. Çexiya,** Ç e x i y a  R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 78,9 min km$^2$, əhalisi 10,5 milyon nəfərdir. İnzibati cəhətdən 7 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı (Senat və Deputatlar Palatası) parlamentdir. 1993-cü ildən Çexoslovakiya Federasiyasının fəaliyyəti dayandırıldıqdan sonra Çexiya müstəqil dövlətdir. Paytaxtı Praqa şəhəridir. – 276.

**64. Vatslav Klaus** (d.1941) – 2003–2013-cü illərdə Çexiya Respublikasının Prezidenti olmuşdur. – 276.

**65. Avstriya,** A v s t r i y a  R e s p u b l i k a s ı – Mərkəzi Avropada, Dunay hövzəsində dövlət. Sahəsi 83,8 min km$^2$, əhalisi 8,7 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Vyana şəhəridir. – 277.

**66. Hayntz Fişer** (d.1938) – Avstriyanın dövlət və siyasi xadimi. Hüquqşünas, professor. 2004–2016-cı illərdə Avstriya Respublikasının Federal Prezidenti olmuşdur. – 277.

**67. Bosniya və Herseqovina –** 1945–92-ci illərdə Yuqoslaviya Sosialist Federativ Respublikasının tərkibində olmuşdur. Yuqoslaviyanın tərkibindən çıxdıqdan sonra əhali arasında (müsəlman başnak, serb və xorvat) milli-dini zəmində qarşıdurma yarandı və qanlı hərbi konfrantasiyaya səbəb oldu.

1993-cü ildə Deytonda (ABŞ) ümumi sülh haqqında saziş imzalandı. 1995-ci ildə qüvvəyə minən Konstitusiyaya görə ölkədə Birləşmiş Bosniya-Herseqovinadan ibarət federativ respublika yarandı, sahəsi 51,2 min km$^2$, əhalisi 3,5 milyon nəfərdir. Paytaxtı Sarayevo şəhəridir. – 280–292.

**68. Bülbül,** Murtuza Məşədi Rza oğlu Məmməd o v (1897–1961) – Azərbaycan klassik vokal məktəbinin banisi, musiqi folkloru tədqiqatçısı. Bülbülün yaradıcılığı müasir Azərbaycan musiqili teatrı tarixində mühüm bir mərhələ təşkil edir. Bülbül Azərbaycan xalq mahnılarını, təsnifləri böyük sənətkarlıqla ifa etmişdir. SSRİ Xalq artisti və SSRİ Dövlət mükafatı laureatı. – 348–357.

**69. Üzeyir Hacıbəyli,** Üzeyir Əbdülhüseyn oğlu (1885–1948) – dahi Azərbaycan bəstəkarı, musiqişünas-alim, publisist, dramaturq, pedaqoq və ictimai xadim. Müasir Azərbaycan professional musiqi sənətinin və milli operasının banisi, SSRİ Xalq artisti, SSRİ Dövlət mükafatı laureatı. – 350, 351, 355, 357.

**70. Fərhad Bədəlbəyli,** Fərhad Şəmsi oğlu (d.1947) – Azərbaycan pianoçusu və musiqi xadimi. Ü.Hacıbəyov adına Bakı Musiqi Akademiyasının (1991) rektoru, professor. Azərbaycan Dövlət mükafatı laureatı, Azərbaycan və SSRİ Xalq artisti, Azərbaycan Respublikası Musiqi Xadimləri İttifaqının sədridir. Azərbaycan Respublikasının «Şöhrət» və «İstiqlal» ordenləri ilə təltif edilmişdir. – 350–352.

**71. Fikrət Əmirov,** Fikrət Cəmil oğlu (1922–1984) – görkəmli Azərbaycan bəstəkarı. Simfonik muğam janrının yaradıcısı. Fikrət Əmirov instrumental konsert janrında yaradan ilk Azərbaycan bəstəkarlarındandır. Əsərləri, xüsusilə simfonik muğamları Niyazi, Rojdestvenski (Rusiya), L.Stokovski (ABŞ), Ş.Münş (Fransa), Ç.Abendrot (Almaniya) kimi məşhur

dirijorların repertuarlarında səslənmişdir. SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, SSRİ və Azərbaycan Dövlət mükafatları laureatı. – 352.

**72. Rostropoviç Mstislav** (1927–2007) – Bakıda doğulmuş görkəmli musiqiçi, violonçelist, dirijor. Lenin mükafatı laureatı, SSRİ Xalq artisti. Bakı Musiqi Akademiyasının Fəxri professoru. Azərbaycan Respublikasının «İstiqlal» və «Heydər Əliyev» ordenləri ilə təltif edilmişdir. – 352.

**73. Cəfər Cabbarlı,** C ə f ə r Q a f a r o ğ l u (1899–1934) – böyük Azərbaycan yazıçısı, dramaturq. Cabbarlı yaradıcılığı Azərbaycan ədəbiyyatının inkişafına böyük təsir göstərmiş, istedadlı dramaturqlar nəslinin yetişməsində mühüm rol oynamışdır. C.Cabbarlının zəngin irsi Azərbaycan ədəbiyyatı tarixində layiqli yer tutur. – 355.

## Şəxsi adlar göstəricisi

**Ada xanım** – 351
**Abdıldayev Erlan** – 266
**Abdullayev Səmiyar** – 175, 176
**Abutalıbov Hacıbala** – 32
**Adamkus Valdas** – 125
**Ader Yanoş** – 278
**Axmetoviç Sadik** – 284
**Akıncı Xəlil** – 129, 266
**Akçura Fikrət** – 102
**Akkorsi Enrike** – 134
**Almaszadə Qəmər** – 356
**Arabiyyə Tofiq** – 266
**Arrou Kennet** – 129
**Aslanov Həzi** – 64
**Azimov Rustam** – 236
**Babayev Arif** – 352
**Bakoyannis Dora** – 108
**Batay Delfin** – 97
**Bencədid Şadli** – 229
**Berdıməhəmmədov Qurbanqulu**– 275
**Bədəlbəyli Fərhad** – 350–351
**Blatter Yozef** – 60, 61–62
**Bodeviq Kurt** – 94
**Bojenov Sergey** – 63–64
**Bokova İrina** – 123
**Boqyay Katalin** – 122
**Bonno Alen** – 14–26
**Borrell Mişel** – 10 –26
**Bryus Rocer** – 131
**Buteflika Əbdüləziz** – 229, 279

**Bülbül** – 348–357
**Bürel Jan** – 5– 26
**Cabbarlı Cəfər** – 355
**Cavadov Amil** – 144
**Cəfərov Ceyhun** – 135
**Dati Raşida** – 127
**Debran Jan-Luk** – 14–26
**Eyyubov Yaqub** – 236
**Əhmədinejad Mahmud** – 256, 257, 264
**Əl-Tüveycri Əbdüləziz** – 104, 124
**Ələkbərova Adelina** – 306–307
**Ələsgərov Şamil** – 267
**Əliyev Heydər** – 37, 42, 63, 64, 65, 67, 137–138, 140, 166, 171, 173, 185, 187, 188, 195, 246, 249, 250, 291, 292, 297, 298, 299, 309, 325, 329, 330, 349, 355, 357
**Əliyeva Leyla** – 200
**Əliyeva Mehriban** – 27–31,33–36,37,61,69–87, 110
**Əmirov Fikrət** – 352
**Ərdoğan Rəcəb Tayyib** – 257, 265, 270, 274
**Əsgərov Akif** – 357
**Fişer Hayntz** – 277
**Frattini Franko** – 105
**Frias Uqo** – 202
**Freyzer Uilyam** – 293
**Frünye Erik** – 24–25
**Gebal Erik** – 14,16
**Gəncəvi Nizami** – 246
**Gül Abdullah** – 273
**Hacıbəyli Üzeyir** – 350, 351, 355, 357
**Hacıyev Vilyam** – 329
**Həsənov Həsən** – 165–167
**Höte** – 80
**Hu Szintao** – 58, 59, 88

**Hüseynov Qorxmaz** – 190, 327

**Xələfov Xələf** – 284
**I Xuan Karlos** – 91
**İbrahimov Mübariz** – 180
**İbrahimov Mirzə** – 356
**İsayev Vidadi** – 157
**İzetbeqoviç Aliya** – 292
**İzetbeqoviç Bakir** – 280–292
**Jumaqaliyev Askar** – 266
**Kamilov Abdulaziz** – 236
**Kerali Henri** – 203
**Kərimov İslam** – 231–251
**Kərimov Mahmud** – 129
**Kərzai Həmid** – 257
**Kidland Fin** – 130
**Klaus Vatslav** – 276
**Konstantinesku Emil** – 127
**Körner Robert** – 354, 355
**Qara Qarayev** – 356
**Qasparin Mitya** – 94
**Qazen Kristian** – 12–26
**Qauk Yoaxim** – 89
**Qoçiyev Annaməhəmməd** – 266
**Qocayeva Firuzə** – 197–199
**Qoqol** – 83
**Qramke Yurgen** – 94
**Qross Devid** – 130
**Quliyev Elçin** – 184
**Laflin Robert** – 130
**Lans Ryan** – 294
**Lenior Jan-Klod** – 97
**Leyferkus Sergey** – 353
**Ledo Porfirio** – 201
**Li Men Bak** – 90

**Li Caosin** – 58–59
**Limuzi** – 21
**Lopez Cenifer** – 61
**Markus Rudolf** – 130
**Mehdiyev Ramiz** – 32
**Mesiç Stepan** – 107,126
**Məmmədli Aygün** – 151
**Məmmədli Xədicə** – 148
**Məmmədov Ziya** – 92, 136, 308
**Məmmədyarov Elmar** – 37–40, 125, 236, 266
**Məmmədzadə Kamal** – 149
**Mərdanov Misir** – 284
**Mikayılov Süleyman** – 65
**Mouilleron Roberto** – 109
**Mons Kristian** – 5–26
**Muradov Cəmil** – 155
**Mustafayev Xıdır** – 64
**Mustafayev Şahin** – 310,336
**Nale** – 20
**Natəvan Xurşidbanu** – 350, 351
**Nəvai Əlişir** – 246
**Niyazi** – 356
**Nsekera Lydia** – 255
**Olland Fransua** – 30, 97
**Ordubadi Məmməd Səid** – 356
**Orucova Gülşən** – 152
**Otunbayeva Roza** – 100, 127, 128
**Paşayev Hafiz** – 33
**Paşayeva Nərgiz** – 69–87
**Pırvanov Georgi** – 103, 129
**Polad Bülbüloğlu** – 351, 355–357
**Platini Mişel** – 253, 255
**Preskott Edvard** – 130
**Putin Vladimir** – 99, 110, 122
**I Pyotr** – 79

**Rasizadə Artur** – 32
**Rəhmon Emoməli** – 257, 265
**Rostropoviç Mstislav** – 352
**Rubin Erik** – 252
**Rüütel Arnold** – 101, 126
**Sabirov İlqizar** – 266
**Sadovniçi Viktor** – 69–87
**Santer Jak** – 94
**Semaşko Vladimir** – 347
**Səfərov Ramil** – 144, 146, 147, 180
**Səməd Vurğun** – 176, 355
**Səmədov Qoca** – 173
**Stoyanov Peter** – 128
**Süleyman Rüstəm** – 356
**Şextman Dan** – 131
**Şirəliyev Oqtay** – 301, 331
**Şvıdkoy Mixail** – 121–122
**Təmrəzov Rəşid** – 345
**Tolstoy Vladimir** – 77
**Trobon Mario** – 132–133
**Vajql İvo** – 94
**Uluqbəy Mirzə** – 246
**Unqureanu Mihay** – 346
**Vike-Freyberqa Vayra** – 98, 126
**Yılmaz Məsud** – 94
**Yonat Ada** – 131
**Zatlers Valdis** – 106, 128, 129
**Zevayl Əhməd** – 129
**Zərdari Asif** – 257, 265, 267
**Zülfüqarova Validə** – 343–344

## Coğrafi adlar göstəricisi


| | |
|---|---|
| **Abşeron** (*yarımada)* | – 93 |
| **Agcabədi** | – 221 |
| **Ağdam** | – 144 |
| **Ağsu** | – 190 |
| **Almaniya** | – 62, 89, 255 |
| **Amerika Birləşmiş Ştatları** | – 34, 62, 79, 252, 255, 293, 354 |
| **Araz çayı** | – 307 |
| **Argentina** | – 37, 38, 109 |
| **Asiya** | – 40, 120 |
| **Avrasiya** | – 62, 252, 255 |
| **Avropa** | – 40 |
| **Avstriya** | – 19, 277 |
| **Bali** | – 39 |
| **Batumi** | – 38 |
| **Belarus** | – 347 |
| **Beyləqan** | – 309–328 |
| **Bərdə** | – 152, 157–172 |
| **Bilgəh** | – 93 |
| **Birləşmiş Ərəb Əmirlikləri** | – 38 |
| **Bolqarıstan** | – 103, 128, 129 |
| **Bosniya və Herseqovina** | – 280–292 |
| **Braziliya** | – 37, 38, 62, 255 |
| **Buxara** | – 243 |
| **Buzovna** | – 93 |
| **Cənubi Afrika Respublikası** | – 37 |
| **Cənubi Qafqaz** | – 39, 54, 203, 241 |
| **Çexiya** | – 38, 276 |
| **Çili** | – 134 |
| **Çin** | – 58–59, 62, 79, 88, 255 |

**Dağlıq Qarabağ** – 42, 43, 116, 117, 142, 144, 145, 167, 169, 170, 213, 228, 238, 244, 248, 252, 350
**Daşkənd** – 243, 246
**Estoniya** – 37, 101, 126
**Əfqanıstan** – 257, 264
**Əlcəzair** – 229, 279
**Ələt** – 65–66
**Fransa** – 5–26, 62, 97, 255, 353, 354
**Gəncə** – 98, 100, 174, 175, 225, 227
**Goranboy** – 148
**Gürcüstan** – 9
**Həştərxan** – 63
**Xankəndi** – 170, 228, 351
**Xivə** – 243
**Xocalı** – 38, 48, 116, 142
**Xocasən** – 69
**Xorvatiya** – 38, 107, 126
**İmişli** – 329–344
**İndoneziya** – 39
**İran** – 256, 257, 264
**İspaniya** – 91
**İsveçrə** – 19
**İtaliya** – 105, 332, 352
**Kanada** – 62, 255
**Kolumbiya** – 38, 48, 62, 255
**Koreya Xalq Demokratik Respublikası** – 62, 255
**Koreya Respublikası** – 62, 90, 332
**Kür çayı** – 176, 177
**Kürdəxanı** – 93
**Kürdəmir** – 190
**Qafqaz** – 19
**Qahirə** – 12
**Qambiya** – 62, 255

**Qana** – 62, 255
**Qaraçay-Çərkəz Respublikası** – 345
**Qəbələ** – 227, 352
**Qazaxıstan** – 266
**Qətər** – 38
**Qırğız** – 38, 100, 127, 266
**Qobustan** – 67–68
**Latviya** – 98, 106,126, 128
**Latın Amerikası** – 40, 214
**Lənkəran** – 62, 227, 255
**Litva** – 125
**Liviya** – 37
**Macarıstan** – 278
**Maştağa** – 93
**Meksika** – 38,48,62,201,255
**Mərakeş** – 38
**Mərkəzi Asiya** – 39, 241
**Misir** – 12
**Naxçıvan** – 174, 175, 227
**Nardaran** – 93
**Niderland Krallığı** – 38
**Nigeriya** – 62, 255
**Özbəkistan** – 231–251, 266
**Pakistan** – 38, 48, 257, 265, 267, 272
**Paris** – 5–26, 27–31, 127
**Pirşağı** – 93
**Rusiya** – 39, 63–64, 71, 78, 80, 81, 99,110, 121–122, 345, 353
**Rumıniya** – 127, 346
**Saatlı** – 296–308
**Serbiya** – 37
**Səmərqənd** – 243, 246
**Səudiyyə Ərəbistanı** – 266
**Sumqayıt** – 225
**Şəki** – 352

**Şuşa** – 170, 228, 349, 350, 351, 357
**Tacikistan** – 38, 257, 265, 271
**Tərtər** – 135–156
**Türkiyə** – 9, 257, 265, 270, 273, 274, 332
**Türkmənistan** – 266, 275
**Ucar** – 190
**Ukrayna** – 39
**Uruqvay** – 62, 255
**Uruqvay Şərq Respublikası** – 132–133
**Venesuela Bolivar Respublikası**–202
**Volqoqrad** – 63–64
**Yaponiya** – 62, 79, 332, 354
**Yeni Zelandiya** – 62, 255
**Yevlax** – 173–186
**Yunanıstan** – 108
**Zabrat** – 93
**Zərdab** – 187–200, 218

# MÜNDƏRİCAT

PARİSDƏ MEDEF-in ÜZVÜ OLAN İŞ ADAMLARI İLƏ GÖRÜŞ

*19 sentyabr 2012-ci il .......................................................................5*

PARİSDƏ AZƏRBAYCAN MƏDƏNİYYƏT MƏRKƏZİNİN AÇILIŞI MƏRASİMİNDƏ İŞTİRAK

*19 sentyabr 2012-ci il.......................................................................27*

PARİSDƏ AZƏRBAYCAN MƏDƏNİYYƏT MƏRKƏZİNİN AÇILIŞINA HƏSR OLUNMUŞ QƏBULDA İŞTİRAK

*19 sentyabr 2012-ci il .......................................................................30*

AZƏRBAYCAN DİPLOMATİK AKADEMİYASININ YENİ TƏDRİS KOMPLEKSİNİN AÇILIŞINDA VƏ YENİ KOMPLEKSDƏ KEÇİRİLMİŞ AZƏRBAYCANIN DİPLOMATİK XİDMƏT ORQANLARI RƏHBƏRLƏRİNİN IV MÜŞAVİRƏSİNDƏ İŞTİRAK

*21 sentyabr 2012-ci il .......................................................................33*

ÇİN XALQ RESPUBLİKASI ÜMUMÇİN XALQ NÜMAYƏNDƏLƏRİ MƏCLİSİNİN XARİCİ İŞLƏR ÜZRƏ KOMİTƏSİNİN SƏDRİ Lİ CAOSİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*21 sentyabr 2012-ci il.......................................................................58*

FİFA-nın PREZİDENTİ YOZEF BLATTERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*21 sentyabr 2012-ci il.......................................................................60*

FUTBOL ÜZRƏ «FİFA U-17 QADINLARARASI DÜNYA ÇEMPİONATI AZƏRBAYCAN–2012 »nin AÇILIŞI MƏRASİMİ

*22 sentyabr 2012-ci il* ........................................................................ *61*

RUSİYANIN VOLQOQRAD VİLAYƏTİNİN QUBERNATORU SERGEY BOJENOVUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*24 sentyabr 2012-ci il* ........................................................................ *63*

ƏLƏT QƏSƏBƏSİNDƏ 32 SAYLI ŞƏHƏR POLİKLİNİKASININ AÇILIŞI MƏRASİMİ

*25 sentyabr 2012-ci il* ........................................................................ *65*

QOBUSTAN QƏSƏBƏSİNDƏ 330 SAYLI TAM ORTA MƏKTƏB BİNASININ AÇILIŞI MƏRASİMİ

*25 sentyabr 2012-ci il* ........................................................................ *67*

M.V.LOMONOSOV ADINA MOSKVA DÖVLƏT UNİVERSİTETİNİN BAKI FİLİALININ YENİ TƏDRİS KOMPLEKSİNİN AÇILIŞI MƏRASİMİ

*26 sentyabr 2012-ci il* ........................................................................ *69*

ÇİN XALQ RESPUBLİKASININ SƏDRİ ZATİ-ALİLƏRİ CƏNAB HU SZİNTAOYA

*27 sentyabr 2012-ci il*.......................................................................... *88*

ALMANİYA FEDERATİV RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB YOAXİM QAUKA

*27 sentyabr 2012-ci il*.......................................................................... *89*

KOREYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB Lİ MEN BAKA

*27 sentyabr 2012-ci il*.......................................................................... *90*

İSPANİYA KRALI ƏLAHƏZRƏT I XUAN KARLOSA

*27 sentyabr 2012-ci il ............................................................................91*

ZABRAT–MAŞTAĞA–BUZOVNA VƏ ZABRAT–PİRŞAĞI
AVTOMOBİL YOLLARININ YENİDƏNQURMADAN
SONRAKI VƏZİYYƏTİ İLƏ TANIŞLIQ

*27 sentyabr 2012-ci il ............................................................................92*

«KÖRPÜLƏRİN SALINMASI» BEYNƏLXALQ
KONFRANSIN İŞTİRAKÇILARI İLƏ GÖRÜŞ

*27 sentyabr 2012-ci il ............................................................................94*

FRANSA SENATININ ENERJİ ARAŞDIRMA QRUPUNUN
HƏMSƏDRİ SENATOR LADİSLAS PONİATOVSKİNİN
BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*1 oktyabr 2012-ci il ..............................................................................97*

LATVİYA RESPUBLİKASININ KEÇMİŞ PREZİDENTİ
VAYRA VİKE-FREYBERQA İLƏ GÖRÜŞ

*1 oktyabr 2012-ci il ...............................................................................98*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB VLADİMİR PUTİNƏ

*2 oktyabr 2012-ci il ...............................................................................99*

QIRĞIZ RESPUBLİKASININ SABİQ PREZİDENTİ ROZA
OTUNBAYEVA İLƏ GÖRÜŞ

*2 oktyabr 2012-ci il ............................................................................100*

ESTONİYA RESPUBLİKASININ SABİQ PREZİDENTİ
ARNOLD RÜÜTEL İLƏ GÖRÜŞ

*2 oktyabr 2012-ci il ............................................................................101*

BMT-nin AZƏRBAYCANDAKI REZİDENT- ƏLAQƏ-
LƏNDİRİCİSİ FİKRƏT AKÇURA İLƏ GÖRÜŞ

*2 oktyabr 2012-ci il ..........................................................................102*

BOLQARISTAN RESPUBLİKASININ SABİQ PREZİDENTİ
GEORGİ PIRVANOV İLƏ GÖRÜŞ

*3 oktyabr 2012-ci il ..........................................................................103*

İSESKO-nun BAŞ DİREKTORU ƏBDÜLƏZİZ BİN OSMAN
ƏL-TÜVEYCRİ İLƏ GÖRÜŞ

*3 oktyabr 2012-ci il ..........................................................................104*

İTALİYA RESPUBLİKASININ SABİQ XARİCİ İŞLƏR
NAZİRİ FRANKO FRATTİNİ İLƏ GÖRÜŞ

*3 oktyabr 2012-ci il ..........................................................................105*

LATVİYA RESPUBLİKASININ SABİQ PREZİDENTİ VALDİS
ZATLERS İLƏ GÖRÜŞ

*4 oktyabr 2012-ci il ..........................................................................106*

XORVATİYA RESPUBLİKASININ SABİQ PREZİDENTİ
STEPAN MESİÇ İLƏ GÖRÜŞ

*4 oktyabr 2012-ci il ............................................................................107*

YUNANISTAN RESPUBLİKASININ SABİQ XARİCİ İŞLƏR
NAZİRİ DORA BAKOYANNİS İLƏ GÖRÜŞ

*4 oktyabr 2012-ci il ..........................................................................108*

ARGENTİNA RESPUBLİKASI – DEPUTATLAR PALA-
TASININ AZƏRBAYCAN–ARGENTİNA DOSTLUQ
QRUPUNUN RƏHBƏRİ ROBERTO MARİO MOUİLLE-
RONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ
GÖRÜŞ

*4 oktyabr 2012-ci il ..........................................................................109*

II BAKI BEYNƏLXALQ HUMANİTAR FORUMUNDA İŞTİRAK

*4 oktyabr 2012-ci il ........................................................................110*

URUQVAY ŞƏRQ RESPUBLİKASI NÜMAYƏNDƏLƏR PALATASININ KOMİSSİYA SƏDRİ, URUQVAY – AZƏRBAYCAN DOSTLUQ QRUPUNUN RƏHBƏRİ MARİO JAİME TROBONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*5 oktyabr 2012-ci il ........................................................................132*

ÇİLİ RESPUBLİKASI DEPUTATLAR PALATASININ KOMİSSİYA SƏDRİ, ÇİLİ – AZƏRBAYCAN DOSTLUQ QRUPUNUN RƏHBƏRİ ENRİKE AKKORSİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*5 oktyabr 2012-ci il ........................................................................134*

TƏRTƏR RAYONUNA SƏFƏR

*7 oktyabr 2012-ci il ........................................................................135*

BƏRDƏ RAYONUNA SƏFƏR

*7 oktyabr 2012-ci il ........................................................................157*

BƏRDƏ RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*7 oktyabr 2012-ci il ........................................................................163*

YEVLAX RAYONUNA SƏFƏR

*7 oktyabr 2012-ci il ........................................................................173*

ZƏRDAB RAYONUNA SƏFƏR

*7 oktyabr 2012-ci il ........................................................................187*

ZƏRDAB RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*7 oktyabr 2012-ci il ........................................................................191*

MEKSİKA BİRLƏŞMİŞ ŞTATLARI KONQRESİ DEPUTATLAR PALATASININ BEYNƏLXALQ ƏLAQƏLƏR KOMİTƏSİNİN SƏDRİ PORFİRİO MUNYOZ LEDO İLƏ GÖRÜŞ

*8 oktyabr 2012-ci il ........................................................................201*

VENESUELA BOLİVAR RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB UQO RAFAEL ÇAVES FRİASA

*9 oktyabr 2012-ci il ..........................................................................202*

DÜNYA BANKININ CƏNUBİ QAFQAZ ÜZRƏ REGİONAL DİREKTORU HENRİ KERALİ İLƏ GÖRÜŞ

*9 oktyabr 2012-ci il ........................................................................203*

NAZİRLƏR KABİNETİNİN 2012-ci İLİN DOQQUZ AYININ SOSİAL-İQTİSADİ İNKİŞAFININ YEKUNLARINA VƏ QARŞIDA DURAN VƏZİFƏLƏRƏ HƏSR OLUNMUŞ İCLASINDA İŞTİRAK

*10 oktyabr 2012-ci il ......................................................................204*

YEKUN NİTQİ

*10 oktyabr 2012-ci il ......................................................................215*

ƏLCƏZAİR XALQ DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏBDÜLƏZİZ BUTEFLİKAYA

*11 oktyabr 2012-ci il ........................................................................229*

DÖVLƏT BAYRAĞI MEYDANINDA VƏ ONUN ƏTRAFINDA GÖRÜLƏN ABADLIQ -QURUCULUQ İŞLƏRİNİN GEDİŞİ İLƏ TANIŞLIQ

*11 oktyabr 2012-ci il ........................................................................230*

ÖZBƏKİSTAN RESPUBLİKASININ PREZİDENTİ İSLAM KƏRİMOVUN AZƏRBAYCANA RƏSMİ SƏFƏRİ

*12 oktyabr 2012-ci il* ........................................................................................*231*

ÖZBƏKİSTAN RESPUBLİKASININ PREZİDENTİ İSLAM KƏRİMOV İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*12 oktyabr 2012-ci il* ........................................................................................*232*

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*12 oktyabr 2012-ci il* ........................................................................................*233*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*12 oktyabr 2012-ci il* ........................................................................................*236*

ÖZBƏKİSTAN RESPUBLİKASININ PREZİDENTİ İSLAM KƏRİMOV İLƏ BİRGƏ MƏTBUAT ÜÇÜN BƏYANATLARLA ÇIXIŞLAR

*12 oktyabr 2012-ci il* ........................................................................................*237*

ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ QƏBULDA İŞTİRAK

*12 oktyabr 2012-ci il* ........................................................................................*247*

DÖVLƏT BAYRAĞI MEYDANINI VƏ HEYDƏR ƏLİYEV MƏRKƏZİNİ ZİYARƏT

*12 oktyabr 2012-ci il* ........................................................................................*251*

ABŞ DÖVLƏT KATİBİNİN AVROPA VƏ AVRASİYA MƏSƏLƏLƏRİ ÜZRƏ MÜŞAVİRİ ERİK RUBİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*13 oktyabr 2012-ci il* ........................................................................................*252*

UEFA-nın PREZİDENTİ MİŞEL PLATİNİ İLƏ GÖRÜŞ

*13 oktyabr 2012-ci il* ........................................................................................*253*

FUTBOL ÜZRƏ «FIFA U-17 QADINLARARASI DÜNYA ÇEMPİONATI AZƏRBAYCAN–2012»nin FİNAL OYUNUNDA İŞTİRAK

*13 oktyabr 2012-ci il* ..........................................................................*254*

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ MAHMUD ƏHMƏDİNEJAD İLƏ GÖRÜŞ

*15 oktyabr 2012-ci il* ..........................................................................*256*

İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ XII ZİRVƏ TOPLANTISINDA İŞTİRAK

*16 oktyabr 2012-ci il* ..........................................................................*257*

YEKUN NİTQİ

*16 oktyabr 2012-ci il* ..........................................................................*268*

TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ RƏCƏB TAYYİB ƏRDOĞAN İLƏ GÖRÜŞ

*16 oktyabr 2012-ci il* ..........................................................................*270*

TACİKİSTAN RESPUBLİKASININ PREZİDENTİ EMOMƏLİ RƏHMON İLƏ GÖRÜŞ

*16 oktyabr 2012-ci il* ..........................................................................*271*

PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ASİF ƏLİ ZƏRDARİ İLƏ GÖRÜŞ

*16 oktyabr 2012-ci il* ..........................................................................*272*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ABDULLAH GÜLƏ

*18 oktyabr 2012-ci il* ..........................................................................*273*

TÜRKİYƏ RESPUBLİKASININ BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA

*18 oktyabr 2012-ci il* ..........................................................................*274*

TÜRKMƏNİSTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB QURBANQULU BERDIMƏHƏMMƏDOVA

*18 oktyabr 2012-ci il* ........................................................................*275*

ÇEX RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB VATSLAV KLAUSA

*18 oktyabr 2012-ci il* ........................................................................*276*

AVSTRİYA RESPUBLİKASININ FEDERAL PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB HAYNTZ FİŞERƏ

*18 oktyabr 2012-ci il* ........................................................................*277*

MACARISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-
ALİLƏRİ CƏNAB YANOŞ ADERƏ

*18 oktyabr 2012-ci il* ........................................................................*278*

ƏLCƏZAİR XALQ DEMOKRATİK RESPUBLİKASININ
PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ƏBDÜLƏZİZ
BUTEFLİKAYA

*18 oktyabr 2012-ci il* ........................................................................*279*

BOSNİYA VƏ HERSEQOVİNANIN RƏYASƏT HEYƏTİNİN
SƏDRİ BAKİR İZETBEQOVİÇİN AZƏRBAYCANA RƏSMİ
SƏFƏRİ

*18 oktyabr 2012-ci il* ........................................................................*280*

BOSNİYA VƏ HERSEQOVİNANIN RƏYASƏT HEYƏTİNİN
SƏDRİ BAKİR İZETBEQOVİÇ
İLƏ TƏKBƏTƏK GÖRÜŞ

*18 oktyabr 2012-ci il* ........................................................................*281*

GENİŞ TƏRKİBDƏ GÖRÜŞ

*18 oktyabr 2012-ci il* ........................................................................*282*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİ

*18 oktyabr 2012-ci il* ........................................................................*284*

BOSNİYA VƏ HERSEQOVİNANIN RƏYASƏT HEYƏTİNİN SƏDRİ BAKİR İZETBEQOVİÇ İLƏ BİRGƏ MƏTBUATA BƏYANATLARLA ÇIXIŞLAR

*18 oktyabr 2012-ci il ........................................................................285*

ALİ QONAĞIN ŞƏRƏFİNƏ RƏSMİ ZİYAFƏTDƏ İŞTİRAK

*18 oktyabr 2012-ci il ........................................................................289*

HEYDƏR ƏLİYEV FONDU İLƏ TANIŞLIQ

*18 oktyabr 2012-ci il ........................................................................291*

ABŞ-ın NƏQLİYYAT KOMANDANLIĞININ KOMANDANI UİLYAM FREYZERİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*18 oktyabr 2012-ci il ........................................................................293*

«CONOCOPHİLLİPS» ŞİRKƏTİNİN PREZİDENTİ RYAN LANSIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*19 oktyabr 2012-ci il ........................................................................294*

QURBAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

*23 oktyabr 2012-ci il ........................................................................295*

SAATLI RAYONUNA SƏFƏR

*27 oktyabr 2012-ci il ........................................................................296*

SAATLI RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*27 oktyabr 2012-ci il ........................................................................303*

BEYLƏQAN RAYONUNA SƏFƏR

*28 oktyabr 2012-ci il ........................................................................309*

ARAN VƏ YUXARI QARABAĞ BÖLGƏSİNDƏ FƏALİYYƏT GÖSTƏRƏN SAHİBKARLARLA GÖRÜŞ

*28 oktyabr 2012-ci il* ........................................................................*312*

YEKUN NİTQİ

*28 oktyabr 2012-ci il* ........................................................................*319*

İMİŞLİ RAYONUNA SƏFƏR

*28 oktyabr 2012-ci il* ........................................................................*329*

İMİŞLİ RAYON İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*28 oktyabr 2012-ci il* ........................................................................*339*

RUSİYANIN QARAÇAY-ÇƏRKƏS RESPUBLİKASININ BAŞÇISI RƏŞİD TƏMRƏZOVUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*29 oktyabr 2012-ci il* ........................................................................*345*

RUMINİYANIN KEÇMİŞ BAŞ NAZİRİ, MƏRKƏZ-SAĞ VƏTƏNDAŞ TƏŞƏBBÜSÜNÜN TƏSİSÇİSİ VƏ RƏHBƏRİ MİHAY RAZVAN UNQUREANU İLƏ GÖRÜŞ

*29 oktyabr 2012-ci il* ........................................................................*346*

BELARUS RESPUBLİKASI BAŞ NAZİRİNİN BİRİNCİ MÜAVİNİ VLADİMİR SEMAŞKONUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*30 oktyabr 2012-ci il* ........................................................................*347*

BAKIDA GÖRKƏMLİ OPERA MÜĞƏNNİSİ BÜLBÜLÜN ABİDƏSİNİN AÇILIŞI MƏRASİMİ

*31 oktyabr 2012-ci il* ........................................................................*348*

QEYDLƏR...........................................................................................*358*

*Şəxsi adlar göstəricisi*..........................................................................*384*

*Coğrafi adlar göstəricisi* ....................................................................*379*

| | |
|---|---|
| **Texniki redaktor** | ***Zoya Nəcəfova*** |
| **Yığım üzrə operator** | ***İlhamə Kərimova*** |
| **Kompüter tərtibatı** | ***Məhəbbət* Orucov** |

Cildin hazırlanmasında AZƏRTAC-ın materiallarından
istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84×108 1/32. Ofset kağızı 1.
Şərti çap vərəqi 25,0. Uçot nəşr vərəqi 25,5. Tirajı 5000.
Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı.
Bakı – Mehdi Hüseyn küç. 61, dalan 2, ev 3.

«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.